ŞÜHƏDANAMƏ

BAKI – "ELM" – 2019

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 12 aprel 2019-cu il tarixli 3№-li qərarı ilə çap olunur

Əlyazmanın mətnini nəşrə hazırlayan,
ön sözün müəllifi,
izahlar və lüğətin tərtibçisi:

Möhsün Nağısoylu
akademik

Elmi redaktorlar:
Vasim Məmmədəliyev
akademik
Hacı Mustafa Mailoğlu
Redaktor: Könül Mirzəyeva

"Şühədanamə". Bakı: "Elm", 2019, 68ƕ+334 səh.

ISBN 978-9952-514-84-2

"Şühədanamə" orta əsrlər Azərbaycan tərcümə ədəbiyyatının və ədəbi dil tarixinin ən dəyərli nümunələrindən biridir. Hüseyn Vaiz Kaşifinin Kərbəla müsibəti mövzusunda fars dilində yazdığı "Rövzətüş-şühəda" kitabını Məhəmməd bin Hüseyn Katib Nişati 945/1539-cu ildə türkcəyə çevirərək tərcüməni "Şühədanamə" adlandırmışdır. Tərcümənin dünyada yeganə əlyazması mütərcimin əli ilə köçürülmüş və AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. "Şühədanamə"nin əlyazması ilk dəfədir ki, nəşrə hazırlanır.

ɯɯƚƙƙφƔƛAɯɪɯ ƚƔƕƝɯ

© "Elm" nəşriyyatı, 2019

"ŞÜHƏDANAMƏ": ORTA ƏSRLƏR AZƏRBAYCAN TƏRCÜMƏ SƏNƏTİNİN VƏ ƏDƏBİ DİLİNİN DƏYƏRLİ QAYNAĞI

XV-XVI yüzilliklərdə Azərbaycanda anadilli ədəbiyyatın güclü inkişafı, xüsusilə də qüdrətli Səfəvilər dövlətinin ilkin çağlarında ana dilinə olan qayğı və himayənin artması, türkcənin əvvəlki dövrlərdən fərqli olaraq, saraya və orduya da yol tapması, bununla da müəyyən mənada dövlət dili səviyyəsinə yüksəlməsi bir sıra dini və sufi məzmunlu əsərlərin ərəbcədən və farscadan dilimizə tərcümə edilməsini və bütövlükdə götürdükdə tərcümə sənətinin geniş yayılmasını şərtləndirmişdir. Orta əsrlərin yadigarları olan və bir çox nümunələri, təəssüf ki, hələ də nəşr olunmayan Azərbaycan klassik tərcümə ədəbiyyatı nümunələrinin əlyazmaları ilk növbədə paleoqrafiya elminin, əlyazma kitabı sənətinin araşdırılması baxımından dəyərli qaynaqlar, əvəzsiz ilkin yazılı mənbələrdir. Bu mənada mütərcimlərin avtoqraf əlyazmaları şəklində günümüzə gəlib çatan XVI əsrə aid tərcümə əsərləri ("Şühədanamə", "Şeyx Səfi təzkirəsi", "Kəvamilüt-təbir") xüsusilə böyük əhəmiyyət daşıyır.

Orta əsrlərə aid Azərbaycan bədii tərcümə nümunələri sırasında Məhəmməd bin Hüseyn Katib Nişatinin "Şühədanamə" ("Şəhidlər kitabı") adlı tərcümə kitabı xüsusi yer tutur. İrihəcmli klassik bədii nəsr tərcüməsi olan "Şühədanamə" bir neçə üstün cəhəti ilə orta əsrlərin başqa tərcümə əsərlərindən seçilir.

Birincisi, "Şühədanamə"nin istedadlı mütərcim Nişatinin əli ilə köçürdüyü və dünyada yeganə olan avtoqraf nüsxəsi günümüzə qədər gəlib çatmışdır. Həmin nüsxənin avtoqraf olması isə o deməkdir ki, əlyazmanın mətninin mötəbərliyi və düzgünlüyü maksimum dərəcədədir və mətnşünaslıq baxımından müstəsna əhəmiyyət daşıyır. Məlum olduğu kimi, avtoqraf nüsxələri əldə olmayan klassik əsərlərin bir çoxunun mətnləri onları köçürən orta əsr katiblərinin açıq-aşkar müdaxilələri nəticəsində ilkin müəllif nüsxələri ilə müqayisədə müəyyən dəyişikliyə uğramışdır ki, bunun da nəticəsində eyni bir əsərin ayrı-ayrı əlyazmalarında bu və ya başqa şəkildə mövcud olan fərqli xüsusiyyətlər qabarıq şəkildə nəzərə çarpır.

İkincisi, "Şühədanamə"nin mütərcimi Nişati həm də dövrünün peşəkar və savadlı katiblərindən biri olmuşdur. Deməli, "Şühədanamə" Azər-

baycanda tarixi qrafika və orfoqrafiya məsələlərinin öyrənilməsi üçün də mötəbər qaynaqlardan biri sayılmalıdır.

Üçüncüsü, "Şühədanamə"də, bir sıra dilçi alimlərin də qeyd etdikləri kimi, yazılı ədəbi dil xüsusiyyətləri ilə yanaşı, XVI yüzillikdə məlum səbəblər üzündən özəl məqamı və xüsusi çəkisi olan Təbriz şivəsinin səciyyəvi cəhətləri də özünü göstərir ki, bu da tarixi dialektologiyanın öyrənilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Ümumiyyətlə, dil xüsusiyyətlərinin zənginliyi və rəngarəngliyi ilə seçilən "Şühədanamə" orta əsrlər Azərbaycan yazılı ədəbi dilini müxtəlif yönlərdən araşdırmaq baxımından zəngin və əvəzsiz dil abidəsi, dəyərli qaynaqdır.

"Şühədanamə" haqqında ilkin qısa məlumatı görkəmli ədəbiyyatşünas akademik Həmid Araslı vermiş[1], professor Samət Əlizadə isə bu dəyərli yazılı abidəyə həsr etdiyi namizədlik dissertasiyasında tərcüməni dilçilik yönündən ətraflı araşdırmışdır[2]. Bu sətirlərin müəllifi də namizədlik dissertasiyasında ilk dəfə olaraq "Şühədanamə"nin paleoqrafik, orfoqrafik və tərcümə xüsusiyyətlərini geniş tədqiq etmişdir.[3] Sonralar Mədət Məmmədov "Şühədanamə" haqqındakı namizədlik dissertasiyasında tərcümənin leksik xüsusiyyətlərini araşdırmışdır[4].

"Şühədanamə"nin dünyada elm aləminə bəlli olan yeganə əlyazması AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır (şifri: M-259/13659). Orta əsrlərin başqa tərcümə əsərləri kimi, "Şühədanamə"nin də ortaya çıxması ilə bağlı məlumatlar əlyazmanın giriş hissəsində ("Dibaçə") diqqətə çatdırılır. Mütərcim Məhəmməd bin Hüseyn Katib Nişati tərcüməyə yazdığı müqəddimədə qeyd edir ki, *"Mövlana Cəmaləddin[5] Hüseyn Vaiz Xorasani[6] məşhur be-Kaşifi "Rövzətüş-şühəda" kitabını parsi dili ilən təsnif etmiş idi və türk müstəidləri və şiələri farsi kəlamı anlamaz idilər..."*. Buna görə də Nişati Səfəvi hökmdarı Şah I Təhmasibin buyuruğu və Şiraz hakimi Saru Şeyxin oğlu Qazi xanın göstərişi ilə Kaşifinin "Rövzətüş-şühəda" ("Şə-

[1] Bax: Azərbaycan ədəbiyyatı tarixi. I cild, Bakı, 1960, səh.322.

[2] *Əlizadə Samət.* "Şühədanamə"də adlar (isim, sifət, say, əvəzlik). Namizədlik dissertasiyası. Bakı, 1965.

[3] *Нагиев Мохсун.* Азербайджанский переводный памятник XVI века "Шухада-нама" (вопросы палеографии, орфографии и перевода). Кандидатская диссертация. Баку, 1978

[4] *Məmmədov Mədət.* "Şühədanamə"nin leksikası. Namizədlik dissertasiyası. Bakı, 1993

[5] Kaşifinin ləqəbi əksər qaynaqlarda Kəmaləddin kimi göstərilir . Bax: *Стори Ч.* Персидская литература, I-III. М., 1972, стр.1582.

[6] Kaşifinin nisbəsi başqa qaynaqlarda Herəvi və Səbzəvari kimi qeyd olunur. Bax: *Məhəmməd Əli Müdərris Təbrizi*. Reyhanətül-ədəb. Tehran, 1369, cild 5, səh.29.

hidlər bağçası") kitabını ana dilinə çevirməyə girişir və tərcüməsini "Şühədanamə" adlandıraraq onu 945/1539-cu ildə Şiraz şəhərində tamamlayır. Yeri gəlmişkən qeyd edək ki, orta əsrlərdə tərcümə edilən əsərin adının qismən və ya tamamilə dəyişdirilməsi halları geniş yayılmışdır[7].

"Şühədanamə"nin farsca orijinalı olan "Rövzətüş-şühəda"nın müəllifi Kəmaləddin Hüseyn bin Əli Vaiz Kaşifi (ölüm tarixi: 910/1504-1505-ci il) indiki İran ərazisində yerləşən Səbzəvarda doğulmuş, ömrünün çoxunu Herat şəhərində keçirərək orada da vəfat etmişdir. Herat şəhərinin vaizi olmuş Kaşifi ərəb və fars dillərində çoxsaylı əsərlər yazmışdır ki, onlardan ən məşhurları "Məvahibi-aliyə" adı ilə tanınan Quran təfsiri, "Ənvari-Süheyli", "Əxlaqi-Muhsini" və "Rövzətüş-şühəda" sayılır. Kaşifi müsəlman Şərqində şəhidlik rəmzinə çevrilmiş İmam Hüseynin Kərbəla müsibətinə həsr etdiyi "Rövzətüş-şühəda" əsəri ilə daha çox tanınmış, bu kitab ona böyük şöhrət qazandırmışdır. Təkcə bunu qeyd etmək kifayətdir ki, "Rövzətüş-şühəda" ortaya çıxandan sonra İmam Hüseynin Kərbəla müsibəti mövzusunda yazılan əsərlər daha çox "rövzə" adı ilə tanınmış, bu hadisə ilə bağlı keçirilən mərasimlərdə mərsiyə oxuyanları isə "rövzəxan" adlandırmışlar.

"Rövzətüş-şühəda"nın hələ XVI yüzillikdə "Dəh məclis" ("On məclis") adlı nəsrlə qələmə alınmış qısa variantı və "Seyfün-nübüvvə" ("Peyğəmbərlik qılıncı") adlı nəzmlə işlənmiş variantı da ortaya çıxmışdır. Dahi Azərbaycan şairi Məhəmməd Füzuli də ömrünün yetkin çağlarında "Hədiqətüs-süəda" ("Xoşbəxtlər bağı") adlı məşhur nəsr əsərini "Rövzətüş-şühəda" əsasında sərbəst-yaradıcı tərcümə şəklində qələmə almışdır.

"Rövzətüş-şühəda"nın yazılma tarixi haqqında əksər qaynaqlarda heç bir məlumat verilmir. Əsərin özündə isə bu barədə kiçik bir qeyd vardır: Kaşifi əsərin X babının əvvəlində diqqətə çatdırır ki, bu kitab İmam Hüseyn şəhid olduqdan 847 il sonra yazılmışdır. İmam Hüseynin hicri tarixi ilə 61-ci ildə şəhid olduğunu nəzərə aldıqda "Rövzətüş-şühəda"nın 908/1502-ci ildə tamamlandığı aydın olur.

Kaşifidən fərqli olaraq, "Şühədanamə"nin mütərcimi Məhəmməd bin Hüseyn Katib Nişati haqqında orta əsr qaynaqlarında heç bir məlumata rast gəlmirik. Professor Samət Əlizadə Nişatinin "Şühədanamə" və "Şeyx Səfi təzkirəsi" adlı tərcümə əsərlərinə əsaslanaraq mütərcim haqqında ilk

[7] Bax: *Nağısoylu Möhsün*. Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti. Bakı, "Elm", 2000, səh.48-50.

dəfə qısa məlumat vermişdir[8]. Nişatinin bu iki tərcümə əsərində özü haqqında verdiyi çox qısa bilgilərdən aydın olur ki, o, Şiraz şəhərində yaşamış və ömrünü Allaha ibadətdə keçirən mömin bir şəxs olmuşdur.

Nişati haqqında axtarışlarımız bu istedadlı mütərcim və mahir xəttat haqqındakı bilgiləri bir qədər artırmış oldu. Belə ki, Dublindəki (İrlandiya) Çester-Bitti kitabxanasının fars əlyazmaları və miniatürləri kataloqunda Ənsarinin "Töhfətül-müluk" ("Hökmdarlara töhfə") əsərinin bir əlyazmasının katibinin Məhəmməd əl-Katib əş-Şirazi olduğu göstərilir[9]. 936/1530-cu ildə köçürülmüş bu əlyazmanın xətti nəsxdir. Bizcə, Məhəmməd əl-Katib əş-Şirazi elə "Şühədanamə"nin mütərcimi Nişatidir.

İran alimi-kitabşünası Mehdi Bəyaninin xəttatlar haqqındakı kitabında isə Nişatinin adı yalnız Məhəmməd Katib şəklində verilmişdir. Alim qeyd edir ki, XVI əsrin bu görkəmli xəttatı nəstəliqlə yanaşı, digər xətlərdə də gözəl yazırmış. Məhəmməd Katibi XVI yüzilliyin az tanınan xəttatlarından biri kimi təqdim edən M.Bəyani onun xətti ilə köçürülmüş 952/1545-1546-cı il tarixli bir Quran əlyazmasının İstanbul şəhərindəki kitabxanalardan birində saxlanıldığını da diqqətə çatdırır[10]. Yuxarıda adı çəkilən "Şeyx Səfi təzkirəsi"nin London nüsxəsi də, fikrimizcə, Nişatinin əli ilə köçürülmüşdür. İngilis alimi Ryonun tərtib etdiyi kataloqda qısa paleoqrafik təsviri verilmiş XVI yüzilliyə aid edilən bu əlyazmanın ilk vərəqi və sondan bir neçə vərəqi çatışmır[11]. Yeri gəlmişkən qeyd edək ki, Nişatinin "Şühədanamə"dən dörd il sonra – 949/1543-cü ildə tamamladığı "Şeyx Səfi təzkirəsi" adlı irihəcmli nəsr tərcüməsi bu sətirlərin müəllifinin rəhbərliyi və bilavasitə iştirakı ilə ilk dəfə nəşrə hazırlanmışdır[12].

Beləliklə, bütün bu faktlara əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, Məhəmməd bin Hüseyn Katib Nişati istedadlı mütərcim olmaqla yanaşı, eyni zamanda dövrünün mahir xəttatlarından biri olmuşdur. Nişatinin bizə məlum olan ilk xəttatlıq işi 936/1530-cu ilə aiddir ("Töhfətül-müluk" əlyazması). Katibin bizə bəlli son xəttatlıq işi isə Quranın 952/1545-1546-cı il

---

[8] *Əlizadə Samət.* Göstərilən əsər, səh.69-70.

[9] *Minovi M., Robinson B.W.* The Chester Beatty library a catalogue of the Persian manuscripts and miniatures, II, Dublin, 1960, p.60-61.

[10] *Mehdi Bəyani*. Əhval və asar-e xoşnevisan, celd-e sevvom. Tehran, 1347, səh.812.

[11] *Rieu Ch.* Cataloque of the turkish manuscripts in the British muzeum. London, 1888, p.281a

[12] Şeyx Səfi təzkirəsi. (Tərtibçilər və nəşrə hazırlayanlar: Möhsün Nağısoylu, Rauf Şeyxzamanlı, Sevər Cabbarlı). Bakı, 2006 (redaktoru, ön sözün və izahların müəllifi: Möhsün Nağısoylu).

tarixli nüsxəsidir. Nişati mahir xəttat olmaqla yanaşı, həm də dövrünün istedadlı tərcüməçisi, söz ustası olmuşdur.

"Şühədanamə" də onun farsca orijinalı - "Rövzətüş-şühəda" kimi eynilə müqəddimə ("Dibaçə") və 10 babdan ibarətdir. Müqəddimədə, əsasən, tərcümənin yaranma tarixi və səbəbi göstərilir. Nişati "Rövzətüş-şühəda"nın "Dibaçə"sini demək olar ki, eynilə tərcümə etmişdir. Kitabın bu hissəsində bəladan söz açılır və Allah-taalanın öz sevimli bəndələrini (peyğəmbərləri) bəla ilə sınağa çəkməsi vurğulanır. Bu mövzunun davamı kimi daha sonra Kərbəla şəhidlərindən və onlar üçün ağlamağın savabından söz açılır. Nişati Kərbəla şəhidləri mövzusunda yazılan əsərlər sırasında Hüseyn Vaiz Kaşifinin *parsi dili ilə təsnif etdiyi* "Rövzətüş-şühəda" kitabının məşhurluğunu diqqətə çatdırır. "*Türk müstəidləri və şiələrinin farsi kəlamını anlamadıqlarını*" vurğulayan mütərcim "*Şah Təhmasib əs-Səfəvi əl-Hüseynin (*Şah I Təhmasibin - M.N.*) əmrü işaratı"* və Şiraz hakimi Qazi xan Saru Şeyx oğlunun göstərişi ilə "Rövzətüş-şühəda"nı "*parsi dilindən türkiyə döndərdiyini*" qeyd edir. Nişati daha sonra yazır: "*Çün bu* ***təsnifdən*** *(*seçdirmə bizimdir - M.N.*) məqsud şəhidlərün əhvalıdur, adı "Şühədanamə" qoydı*". Seçdirdiyimiz *təsnif* sözünün lüğəvi mənası əsər, kitab deməkdir. Deməli, Nişati "Rövzətüş-şühəda"nı fars dilindən döndərdiyini göstərsə də, adını "Şühədanamə" qoyduğu kitabını tərcümə yox, təsnif adlandırır və onu müəyyən mənada özünün müstəqil, orijinal əsəri sayır. Nişati bunu "Şühədanamə"nin "Dibaçə" hissəsində yer alan və öz qələminin məhsulu olan aşağıdakı şeir parçasında da xüsusi olaraq vurğulayaraq kitabdakı şeirlərin ona məxsusluğunu diqqətə çatdırır:

Əbyat ki, bu nüsxədə oldı mərqum,
Mənşuri-gögüŋ üsnə durur misli-nücum.
Hiç kimsədən anı ariyət istəmədi,
Qamu özünüŋdür ki, qılupdur mənzum.

Bununla belə, "Şühədanamə" ilə "Rövzətüş-şühəda"nın mətnlərinin müqayisəli təhlilinə əsasən deyə bilərik ki, istər bütövlükdə "Şühədanamə"nin əsasını təşkil edən nəsr hissəsi, istərsə də nəsr arası verilən şeir parçaları heç də Nişatinin yazdığı kimi, onun öz qələminin məhsulu deyil, sadəcə olaraq, farsca mətnin müəyyən qədər sərbəst tərcüməsidir. Deməli, Nişatinin yuxarıdakı şeir parçasında vurğuladığı fikri mövcud faktlara söykənərək bu şəkildə anlamaq lazımdır: *kitabdakı beytləri özüm nəzmlə çevirmişəm*. Maraqlıdır ki, Nişati "Şühədanamə"nin sonunda – "Xitamə" hissəsində da özünü

mütərcim yox, müsənnif (yazıçı, müəllif) kimi təqdim edir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan klassik tərcümə ədəbiyyatının digər nümunələrində də (məsələn: "Əsrarnamə", "Gülşəni-raz", "Şeyx Səfi təzkirəsi" və s.) müşahidə olunan bu səciyyəvi xüsusiyyəti orta yüzilliklərdə tərcümə sənətinin müstəqil bədii yaradıcılıq qədər yüksək dəyərləndirilməsi, bədii yaradıcılığın ayrıca bir qolu, növü sayılması və dövrün tərcümə nümunələrinin orijinal əsərlərə bərabər tutulması ilə izah etmək olar[13]. Nişati daha sonra kitabdakı "Tarixi-təsnif və buyuranun zikri" yarımbaşlığında öz yaradıcı qələminin məhsulu olan aşağıdakı şeir parçasını verir:

Muhəmməd Mustəfanuŋ hicrətindən
Doquz yüz qırq beş yıl keçmiş idi,
Qazi xan Saru Şeyxüŋ oğlı
Buni döndərəgör türkiyə dedi.
Behəmdillah kim, anuŋ dəvlətindən
Təmam oldivü yoxdur naümmidi.
Şəhidlər həqqi üçün, ya Rəb, aŋa
İki aləmdə vergil rusəfidi.

Bu misralardan aydın olur ki, "Şühədanamə" hicri tarixi ilə 945-ci ildə tərcümə olunmuşdur. Əlyazmanın sonunda Nişati tərcüməni həmin ilin zilhiccə ayında tamamladığını da qeyd edir. Göstərilən il miladi tarixi ilə 1539-cu ilin aprel ayına uyğun gəlir.

"Şühədanamə"nin əsas məzmunu aşağıdakı 10 babda (fəsil, bölüm) öz əksini tapmışdır:

Əvvəlki bab: *Neçə peyğambərlərüŋ ibtilalərində.*

İkinci bab: *Qüreyş ilən kafərlərüŋ cəfaları Mustəfaya və Həmzə ilə Cəfəri-Təyyaruŋ şəhadətinə.*

Üçünci bab: *Həzrət Mustəfanuŋ don dəgşürdüginə.*

Dördünci bab: *Həzrət Fatimənüŋ əhvalı: doğduğindən şəhadətinədək.*

Beşinci bab: *Həzrət əmirül-mö'minin Əlinüŋ əhvalı: doğduğindən şəhadətinədək.*

Altıncı bab: *Həzrət İmam Həsənüŋ fəzayili: viladətindən şəhadətinədək.*

Yedinci bab: *Həzrət İmam Hüseynüŋ viladəti və əhvalı: doğduğindən şəhadətinədək.*

[13] Bax: *Nağısoylu Möhsün.* Göstərilən əsər, səh.30-40.

Səkizinci bab: *Müslim bin Əqilüŋ neçə uşağları ilən şəhid olduğinə.*

Doquzuncı bab: *Həzrət İmam Hüseynüŋ Kərbəlayə yetdügi və səvaş olduği və şəhadət bulduğinə.*

Onuncı bab: *Neçə vaqiələr ki, Əhli-Beytə vaqe oldı səvaşdan soŋra.*

Qeyd edək ki, "Şühədanamə"dəki babların adları əlyazmanın əvvəlində "fehrist" (siyahı) şəklində də verilmişdir. Maraqlıdır ki, əlyazmada bilavasitə babın əvvəlində qeyd olunmuş adlarla bu adlar arasında kiçicik fərqlər də nəzərə çarpır. Məsələn, həmin siyahıdan sonra verilən ilk babın adı onun əvvəlində bu şəkildədir: *Neçə ənbiyanuŋ ibtilələrindən*. Göründüyü kimi, bu iki ad arasındakı fərq farsmənşəli *peyğambərlərüŋ* sözü əvəzinə onun ərəbcə sinonimi olan *ənbiyanuŋ* sözünün işlənməsi və sonuncu leksik vahidin fehristdə yerlik halda işləndiyi halda, burada çıxışlıq halda verilməsidir. Digər bir nümunə: dördüncü babın adı kitabdakı sözügedən bölmənin əvvəlində belədir: *Həzrət Fatimeyi-Zəhranuŋ əhvalindən: viladətindən vəfatinədəkin*. Bu babın fehristdəki adı ilə onun bölmədəki (bab) adı arasındakı əsas fərq isə sonuncu sözdədir: *şəhadətinədək* sözü burada *vəfatinədəkin* sözü ilə əvəzlənmişdir. Maraqlıdır ki, "Şühədanamə"nin farsca orijinalında - "Rövzətüş-şühəda" kitabında da fehristdəki babların adları ilə onların fəsillərdəki adları arasında bu cür kiçik fərqlər vardır. Qeyd edək ki, Füzulinin "Hədiqətüs-süəda" əsərinin "Dibaçə" bölümünün fehrist hissəsində verilən bab adları ilə əsərin bölmələrində yer alan babların adları arasında da müəyyən fərqlər nəzərə çarpır. Məsələn, ilk babın adı bu kitabdakı fehristdə *"Ənbiya əhvalın bəyan edər"* şəklində olduğu halda, həmin babın girişində onun adı belə səslənir: *"Bəzi ənbiyayi-izam və rüsuli-kiramın surəti - əhvalların bəyan edər"*[14].

Qeyd etmək lazımdır ki, "Şühədanamə"dəki babların adlarında farscadan hərfi tərcümə ünsürləri ilə yanaşı, onların məzmununda da müəyyən mənada yarımçıqlıq və çatışmazlıq özünü göstərir. Məsələn, "Rövzətüş-şühəda"da dördüncü babın adı belədir: "*Dər bəzi əz əhval-e Fateme (rəziyallahənhu) əz vəğt-e veladət ta zəman-e vəfat*[15] - "Fatimənin (Allah ondan razı olsun) həyatının bəzi [məqamları] haqqında: doğumundan vəfatına kimi". "Şühədanamə"dəki eyni babın adını onun farsca orijinaldakı adı ilə müqayisə etdikdə Nişatinin farsca sözlərin yerini olduğu kimi saxladığını görə-

[14] *Füzuli Məhəmməd*. Hədiqətüs-süəda (tərtibçilər: Əlyar Səfərli, Möhsün Nağısoylu, Nəsib Göyüşov). Bakı, 1993, *səh.26*-27.

[15] *Hüseyn Vaiz Kaşifi.* Rövzətüş-şühəda. Daşbasma çapı (tarixsiz), səh.97.

rik. Halbuki mütərcim bu babın adındakı "əhvalindən" sözünü axırda işlətsəydi, daha uğurlu olardı. Bundan əlavə farsca mətndəki "dər" şəkilçisi dilimizdə "haqqında" anlamını ifadə edir. Nişati isə onu tərcümə etmədiyindən həmin babın adında bir növ yarımçıqlıq, çatışmazlıq hiss olunur. Bu cür kiçik üslubi fərqlər və nöqsanlar tərcümədəki bütün babların adlarında özünü göstərir. Dahi Füzuli isə "Hədiqətüs-süəda" kitabında oxşar babların adlarında "bəyan edər" sözünü işlətməklə (burada istər-istəməz ana abidəmiz "Kitabi-Dədə Qorqud" boylarının adlarındakı eyni söz yada düşür) bu məsələni böyük məharətlə və çox ustalıqla həll etmişdir.

Qeyd edək ki, "Şühədanamə"dəki babların adları müəyyən mənada onların məzmunlarını da əks etdirir. İlk babda Adəm, Nuh, İbrahim, Yaqub, Yusif, Əyyub, Zəkəriyya və Yəhya kimi müsibətlər görmüş peyğəmbərlərin həyatlarına dair ayrı-ayrı qəmli, kədərli epizodların qısa təsviri verilir və bütün bunlar əsərin əsas məzmununu təşkil edən Kərbəla müsibəti ilə bağlı hadisələrlə böyük ustalıqla və üzvi bir şəkildə, məntiqi uyarlıqla əlaqələndirilir. Sonrakı bablar, adlarından göründüyü kimi, sonuncu Peyğəmbərin (s) çəkdiyi cəfalardan və dünyasını dəyişməsindən, həzrət Fatimə, İmam Əli və İmam Həsənin həyatlarının ayrı-ayrı anlarından, ağrılı-acılı məqamlarından bəhs edir. Əsərin ən böyük hissələri (son dörd bab) bilavasitə Kərbəla faciəsinin baş qəhrəmanı İmam Hüseynə həsr olunmuşdur. Bu bablardan biri (VIII bab) İmam Hüseynin tapşırığı ilə Kufəyə getmiş onun əmisi oğlu Müslim bin Əqilin şəhadətindən bəhs edir.

"Şühədanamə"nin mətni nisbətən iri, oxunaqlı və gözəl kalliqrafik nəstəliq xətti ilə yazılmışdır. Maraqlıdır ki, "Şeyx Səfi təzkirəsi"nin yuxarıda adı çəkilən London nüsxəsinin xətti də eynilə belədir. Bəlli olduğu kimi, nəstəliq xəttinin yaradıcısı, XIV əsrin məşhur Azərbaycan xəttatı Mir Əli Təbrizi sayılır[16]. O da məlumdur ki, XVI yüzillik Azərbaycanda istər nəstəliq xəttinin, istərsə də bütövlükdə xətattlıq sənətinin yüksəliş dövrü sayılır. *"XVI yüzilliyin ilk birinci onilliklərindən başlayaraq ən görkəmli xəttatlar və əlyazma kitabının tərtibi ilə məşğul olan ən tanınmış sənətkarlar Səfəvi mədəni mərkəzləri ilə bağlı olmuşlar"*[17]. Məlum olduğu kimi, Azərbaycan Səfəvilər dövlətinin qurucusu Şah İsmayıl Xətai (1487-1524) və oğlu Şah I Təhmasib (1514-

[16] *Казн Ахмад*. Трактат о каллиграфах и художниках. М.- Л., 1947, стр. 101.

[17] *Костыгова Г.И.* Трактат по каллиграфии Султан-Али Мешхеди. – "Труды ГПБ им. С.Щедрина", т. V, Л., 1957, стр. 196.

1576) xəttatlıq sənətinə yüksək qiymət vermişlər. Maraqlıdır ki, ən görkəmli xətt ustaları sırasında Şah I Təhmasibin də adı çəkilir[18] .

Nişatinin xətti Sultan Əli Məşhədi, Mir Əli Herəvi, Mir İmad Qəzvini kimi tanınmış xətt ustalarının xətti ilə müqayisə ediləcək səviyyədə olmasa da, gözəl və sənətkar qələmindən çıxan bişmiş bir xəttdir. Əlyazmada mətn içərisində işlənmiş Quran ayələri, eləcə də ərəbcə söz və ifadələr nəsx xətti ilə yazılmışdır. Nişatinin mətndə bəzən nəstəliq-şikəstə xəttindən istifadə etməsi halları da müşahidə olunur. Tərcüməçi-katib hər bir sözün, hətta hərfin gözəl biçimdə yazılmasına, sətirlərin xəttatlıq baxımından bir-biri ilə uyarlığına, həmahəngliyinə can atmışdır. Babların adları, ərəbcə ifadələr, Quran ayələri, eləcə də "nəzm", "şeir", "beyt" və s. kimi sözlər (binomlar) qızıl suyu və göy boya ilə yazılmışdır. Tərcümənin təşəbbüskarı Şah I Təhmasibin adı qızıl suyu ilə, Şiraz hakimi Qazi xanın adı isə göy boya ilə işlənmişdir. Əsas mətn qara mürəkkəblə yazılmışdır. Nəsrlə (bəzən "səc"li nəsrlə) olan mətn arasındakı şeir parçaları, əsasən, iki sütunda, nadir hallarda isə üç sütunda yazılmışdır. Bütün vərəqlərdə mətn üç nazik qara, nisbətən enli bir qızılı və bir enli göy xətlə haşiyəyə alınmışdır. Orta əsrlərə aid ərəbqrafikalı bir sıra əlyazmaların mətni də eynilə bu şəkildə – çərçivədə yazılmışdır.

Əlyazmada Şərq paginasiya (vərəqlənmə) üsuluna tam əməl olunmuş, yəni sonrakı vərəqin ilk sözü əvvəlki vərəqin aşağı hissəsində yazılmışdır (bu cür vərəqlənmə üsulu "kustod" adlanır). Sonradan, çox güman ki, keçən əsrdə əlyazmanın vərəqləri qara karandaşla ərəb rəqəmləri ilə də nömrələnmişdir. Əlyazmada hər səhifədəki sətir sayı 17-yə bərabərdir. Mətndə buraxılmış sözlər katibin öz xətti ilə ya vərəqin haşiyə hissəsində yazılmış, ya da sətrin üstündə qeyd olunmuşdur. Bəzi vərəqlərin haşiyələrində mətndə buraxılmış sözlər başqa xətlə (narın nəstəliq) yazılmışdır. Mətn yazılan haşiyənin ölçüsü 11x19sm., vərəqin ölçüsü isə 18,5x27sm.-dir. Əlyazmanın həcmi 338 vərəqdir. Əlyazmanın əvvəlindən iki vərəq çatışmır. "Şühədanamə" ilə "Rövzətüş-şühəda"nın mətnlərinin müqayisəsindən əlavə, tərcümənin əlyazmasının sonuncu – 338b vərəqindəki 1190/1776-cı ilə aid farsca bir qeyd də bunu sübut edir. Belə ki, Əliqulu Nəsiri adlı bir şəxsin (ehtimal ki, əlyazmanın sahibinin) həmin qeydində göstərilir ki, əlyazmada 340 vərəq vardır. Bu qeydə əsasən düşünürük ki, "Şühədanamə"nin ilk iki vərəqi hələ o vaxt cilddən qopubmuş. Görünür, əlyazmanın

[18] Образцы каллиграфии Ирана и Средней Азии XV-XIX, вв. Составление альбома Г.И.Костыговой. М., 1963, стр. 14.

sahibi həmin iki vərəqin itə biləcəyindən narahatlığına görə bu qeydi yazıbmış. Maraqlıdır ki, XVIII yüzilliyə aid su nişanlı (fıliqranlı) iki ağ vərəq də əlyazmanın içinə qoyulmuşdur. Çox güman ki, həmin ağ vərəqləri Əliqulu Nəsiri nüsxənin bərpası məqsədilə kitabın içinə qoyubmuş.

Əlyazmanın mövcud ilk vərəqinin yuxarı hissəsi yoxdur. Bu vərəqdə tünd-qəhvəyi rəngdə yağ ləkələri vardır, lakin mətn oxunur. 2b və 3a vərəqləri isə bir-birinə yapışdığı üçün mətn oxunmur. Əlyazmanın mövcud son 338b vərəqində 1186/1772-1773 və 1190/ 1776-cı illərə aid qeydlər vardır. Hər iki qeyd fars dilindədir. Birinci qeyd həştərxanlı Əliqulu Nəsiri təxəllüslü Əbülfəth adlı bir şəxsə məxsusdur. Qeyd yadigar olaraq yazılmış üç beytdən ibarətdir. Başqa qeydlərdə heç bir şəxs adı göstərilməmişdir. 1190/1776-cı ilə aid qeyddə kitabın adı "Rövzənamə" kimi göstərilmişdir.

Əlyazmanın əvvəlində bəzi vərəqlərin haşiyəsində mətndə buraxılmış ayrı-ayrı sözlər digər şəxsin xəti ilə yazılmışdır. Bu fakta əsasən güman etmək olar ki, həmin sözləri yazan şəxsin istifadəsində "Şühədanamə"nin digər bir nüsxəsi də olmuşdur.

Nişati "Şühədanamə"nin "Dibaçə" hissəsində bu tərcümə əsərini "*qamu türk oymağlarının müstəidləri və məvalilərinin fayda görmələri*" üçün hazırladığını qeyd edir. Belə olduqda, aydındır ki, "Şühədanamə" tək bir nüsxədə hazırlana bilməzdi. Əlyazmanın sonunda (kolofonda) ənənəvi "*təmmət əl-ketab"* (kitabın sonu) ifadəsi əvəzinə *"təmmət ən-nosxe*" (nüsxənin sonu) ifadəsinin yazılması da bunu sübut edir. Əlyazmada heç bir ornament və miniatür yoxdur. Lakin əlyazmanın ümumi tərtibatına əsasən güman etmək olar ki, o, zəngin naxışlı ünvanla başlanırmış. Qeyd edək ki, Nişatinin başqa bir avtoqraf nüsxəsinin – Sankt-Peterburq şəhərindəki Saltıkov-Şedrin adına kütləvi kitabxanada saxlanılan "Şeyx Səfi təzkirəsi" əlyazmasının əvvəlində qızıl suyu və müxtəlif boyalarla işlənmiş bədii ünvan və frontispis vardır[19].

"Şühədanamə"nin səciyyəvi orfoqrafik xüsusiyyətləri sırasında ilk növbədə istər başqa türk dillərinə aid orta əsrlər yazılı mətnlərində, istərsə də Azərbaycan yazılı abidələrində müşahidə olunan imla sabitsizliyini qeyd etmək lazımdır. "Şühədanamə"də bəzən hətta bir cümlə daxilində işlənmiş türkmənşəli eyni sözlərin iki və daha artıq qrafik variantda yazılmasının şahidi oluruq. Bu məsələ istər-istəməz belə bir sual doğurur: savadlı

[19] Melanges Asiatiqies. Tires de Bulleten de l'Academie imperiale des sciences de St.-Petersbourg. V, St.-Pbg, 1869, p. 249.

katib olan Nişati nəyə görə eyni sözləri müxtəlif qrafik variantlarda yazmışdır? Bunu yalnız o dövrdəki orfoqrafik sabitsizliklə izah etmək nə dərəcədə düzgündür? Fikrimizcə, bu məsələni konkret olaraq "Şühədanamə"nin nümunəsində orta əsrlər Azərbaycan əlyazmalarına xas olan orfoqrafik sabitsizliklə yanaşı, həm də onunla izah etmək olar ki, Nişatinin türkmənşəli eyni sözləri müxtəlif qrafik variantlarda yazması həmin sözlərin müxtəlif türk dillərində, eləcə də Azərbaycan türkcəsinin ayrı-ayrı şivələrində fərqli şəkildə tələffüz edildiyini diqqətə çatdırmaq niyyətindən irəli gəlmişdir. Axı tərcüməçi, yuxarıda da qeyd etdiyimiz kimi, "Şühədanamə"nin "Dibaçə" hissəsində açıq-aşkar yazır ki, bu tərcümə "*bütün türk oymağları*" üçün nəzərdə tutulmuşdur. Tərcümənin rəngarəng dil xüsusiyyətləri də bunu sübut edir. Abidənin dilində uyğur, çağatay, osmanlı və başqa türk dillərinə xas olan leksik, qrammatik elementlər müşahidə olunur. Bütün bunları nəzərə aldıqda "Şühədanamə"də türkmənşəli eyni sözlərin müxtəlif qrafik variantları ilə bağlı yuxarıdakı sualın cavabı aydınlaşmış olur. Maraqlıdır ki, bu qrafik variantlar bir-birindən, adətən, müəyyən hərflərlə (və onların ifadə etdiyi müvafiq səslərlə) fərqlənir.

"Şühədanamə"də üç və ya daha artıq qrafik variantı olan bir neçə sözü qeydə almışıq:

توبرا ق - توپراغ - توبراغ - توفراغ *tobraq/toprağ/tobrağ/tofrağ* (195b, 201b, 236a, 296a).

چوق - چق - چوخ - چوغ - *çoq/çox/çoğ* (330a, 172a, 303a, 276a);

خامو-قامو-خامی *xamu/qamu/xamı* (103b-hamısı bir cümlə daxilindədir);

کیبی - کیب - کیمی - کمی- کیپی *kibi/kib/kimi/kipi* (252a, 238a, 39b, 218a).

Əlyazmada türkmənşəli eyni sözlərin tərkibində aşağıdakı hərf əvəzlənmələri qabarıq şəkildə özünü göstərir:

1. **ب - پ** Bu hərf əvəzlənməsi "Kitabi-Dədə Qorqud", "Əsrarnamə", "Hədiqətüs-süəda" əlyazmalarında da qeydə alınmışdır. Onu da qeyd edək ki, bir sıra türkdilli əlyazmalarda istər "b", istərsə də "p" səsi bir hərflə - ب ilə ifadə olunmuşdur[20]. "Şühədanamə" əlyazmasında da bir sıra eyni sözlər istər söz əvvəlində, istərsə də söz sonunda bu iki hərflə yazılmışdır:بوش - پوش - *boş/poş* (3b,189a), بارچ - پارچ *barç/parç* (29a) تابشوردی/تاپشوردی *tabşurdı/tapşurdı* (152a,235a) və s.

[20] *Наджип Э.Н.* Тюркоязычный памятник XIV в. "Гулистан" Сайфа Сараи и его язык. ч. 1-II. Алма-Ата, 1975, стр.95.

2. **ب - م.** Bu hərf əvəzlənməsi də dilimizin bir sıra yazılı abidələrində söz əvvəlində müşahidə olunur[21]. "Şühədanamə"də söz sonunda bu hərf əvəzlənməsi م - ə üstünlük verilməsi ilə bir neçə sözdə özünü göstərir:

بونده - مونده *bunda/munda* (34a),بونی- مونی *bunı/munı* (47b,48a), کیبی - کیمی *kibi/kimi* və s. Əlyazmada I şəxsin təki şəxs əvəzliyi yalnız bir formada yazılmışdır: من *mən*. Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk"[22], "Kitabi-Dədə Qorqud"[23], Nəsimi "Divan"ı[24] əlyazmalarında isə bu söz iki qrafik variantda yazılmışdır: **بن - من***mən/bən.*

3. **ب - پ – ف** Bu hərf əvəzlənməsi Kişvəri "Divan"ının[25] əlyazmasında, eləcə də "Şeyx Səfi təzkirəsi"ndə müşahidə olunur. Maraqlıdır ki, istər "Şühədanamə"də, istərsə də "Şeyx Səfi təzkirəsi"ndə ف - پ hərf əvəzlənməsi yalnız *toprağ* sözünün həm *pe* hərfi, həm də *fe* hərfi ilə yazılmasında özünü göstərir[26]. *Tofrağ* sözü "Bədai əl-lüğət"də də qeydə alınmışdır[27].

4. **د – ت** hərf əvəzlənməsi Azərbaycan yazılı abidələrinin çoxunda qeydə alınmışdır. "Şühədanamə"də bu hərf əvəzlənməsi eyni sözün nümunəsində bütün məqamlarda: söz əvvəlində, ortasında və sonunda müşahidə olunur: دون-تون *dün/tün* (317b,8a), دورلودورلو ٔتورلوتورلو *dürlü-dürlü /türlü-türlü* (160a,227a), کنده - کنته *kəndə/kəntə* (310b - bir cümlədədir), اود -اوت *od/ot* (la,221a) və s. Professor Əbdüləzəl Dəmirçizadə qeyd edir ki, "Kitabi-Dədə Qorqud"da ک ٔق ٔت hərflərindən sonra sait səsləri ifadə edən hərf gəldikdə onlar həmin samitlərin cingiltili qarşılıqlarına çevrilmiş halda yazılmışdır[28]: یکیدونک - ییکیدونک *yigit-yigidüŋ,* کیت - کیدر *get - gedər*, آیاغون - آیاق *ayaq - ayağun*, واردوغوم - واردوق *varduq – varduğum* və s. Eyni xüsusiyyət "Şühədanamə"də də özünü göstərir: یکیت - ییکیدونک *yigit – yigidüŋ* (198a, 252b), قیساتمه - قیصادەسن *qısatmə – qısadəsən* (83b,7a) və s. Göründüyü kimi, bu nümunələrdə kar "k" samiti iki sait arasına düşdükdə həmin samitin cingiltili qarşılığı ilə

[21] *Qəhrəmanov C.* Nəsimi "Divan"ının leksikası. Bakı, 1970, səh.22.

[22] Bax: *Демирчизаде А.* Сравнительный метод М.Кашгари.// "Советская тюркология", 1972, №1.

[23] *Ergin M.* Dede Korkul kitabı. Ankara, l c., 1958; II c., 1963, s.409-410.

[24] *Qəhrəmanov C.* Nəsimi "Divan"ının leksikası. Bakı, 1970, səh.22 .

[25] *Qəhrəmanov C.* Kişvərinin bir əlyazma "Divan"ı haqqında. "Əlyazmalar xəzinəsində", IV c., Bakı, 1976, səh.51.

[26] Şeyx Səfi təzkirəsinin Sankt-Peterburq nüsxəsinin fotosurəti. AMEA Əlyazmalar İnstitutu, FS-645, 168b.

[27] *Боровков А.К.* "Бадаи-ал-лугат". Словарь Тали Имани Гератского. М., 1961, стр.167.

[28] *Dəmirçizadə Ə.* "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 1959, səh.54-55.

əvəzlənir. Maraqlıdır ki, د - ت hərf əvəzlənməsi "Şühədanamə"də ərəb mənşəli bir sözdə də özünü göstərir: عورت-عوردی *əvrət/əvrədi* (195b). Bu sözün göstərilən qrafik şəklini, fikrimizcə, katibin səhvi kimi qəbul etmək olmaz. Çünki həmin söz eyni vərəqdə bir neçə yerdə adlıq halda işlənmiş və son hərf yalnız ت ilə yazılmışdır. Deməli, عورت sözünün təsirlik halda د hərfi ilə yazılmasını həmin sözün dilimizin fonetik qaydalarına uyğunlaşdırılması hadisəsi ilə izah etmək olar. Məlum olduğu kimi, müasir ədəbi dilimizdə sonu kar samitlə bitən bir sıra sözlərdən sonra sait gəldikdə sonuncu cingiltiyə çevrilir: *soyut – soyuducu, ürək – ürəyim* və s. *Əvrət* (övrət, qadın) sözünün bu şəkildə yazılmasına əsasən düşünmək olar ki, hələ orta yüzilliklərdə ərəb və fars dillərinə məxsus bir sıra sözlər istər şifahi, istərsə də yazılı nitqdə dilimizin fonetik qanunlarına tabe olmuşdur.

5. **ق -خ** Bu hərf əvəzlənməsi əlyazmada hər üç məqamda, yəni söz əvvəlində, ortasında və sonunda geniş şəkildə təmsil olunmuşdur:

قوجه - خوجه *qocə/xocə* (139b), قوقو -قوخو *qoqu/ qoxu* (306a), اقشام - اخشام *əqşam/əxşam,* چیقوب - چیخوب *çıqub/çıxub,* اوقودی - اوخودی *oqudı/oxudı* (267b,320a), انجاق - انجاخ *ancaq/ancax* (74b,82b) və s. Bu hərf əvəzlənməsi də bir sıra yazılı abidələrimizdə qeydə alınmışdır.

6. **خ – غ** hərf əvəzlənməsi söz ortasında və sonunda müşahidə olunur: اوشا خ -اوشاغ *uşax/uşağ* (70b,74b), چاخیر-چاغیر *çaxır/çağır* (332a,113b), چوخور - چوغور *çuxur/çuğur* (9b,l0a) və s. Nəsimi "Divan"ının Bakı əlyazmasında da "yox" sözü həm خ, həm də غ hərfi ilə yazılmışdır[29].

7. **ق - غ** hərf əvəzlənməsi də bir sıra Azərbaycan əlyazmalarında söz sonunda müşahidə olunur. "Şühədanamə"də bu orfoqrafik-fonetik xüsusiyyət, əsasən, söz sonunda özünü göstərir: قولاق - قولاغ *qulaq/qulağ* (262a, 265a), چپلاق- چپلاغ *çıplaq/çıplağ* (87a, 195a), آرتوقراک - آرتوغراغ *artuqrak/ artuğrağ* (79a, 9b) və s. Yuxarıda qeyd olunduğu kimi, ق hərfi iki sait səsi ifadə edən hərf arasına düşdükdə غ hərfi ilə əvəzlənir: اوچماق - اوچماغونک *uçmaq/uçmağuŋ* (7b – eyni cümlədədir). Bu hərf əvəzlənməsi də bir sıra türkdilli yazılı abidələrdə söz sonunda qeydə alınmışdır[30].

8. **ی - و** Bu hərf əvəzlənməsi cəmi bir neçə sözün əvvəlində və sonunda müşahidə olunur: اوچون – ایچون *içün/üçün* (7b-eyni cümlədə), یوخاری - یوخارو *yuxarı/yuxaru* (134b,144b), ایچرو - ایچری *içəri/içərü* (160a,160b) və s.

---

[29] *Каграманов Дж.В.* Научно-критический текст Дивана Насими и его лексика. АДД, Баку, 1969, стр.24.

[30] *Наджип Э.Н.* Датированная тюркоязычная рукопись XVI века سراج القلوب Труды XXV Межд. конгр. востоковедов", т.III, М., 1963, стр.324.

"Şühədanamə"də ayrı-ayrı eyni sözlərin yazılışında həm ج *cim*, həm də چ *çe* hərflərindən istifadə olunması da özünü göstərir. Məlum olduğu kimi, orta əsrlərə aid bir sıra türkdilli mətnlərdə katiblər *c* və *ç* səslərini ifadə etmək üçün yalnız bir hərfdən - ج *cim* hərfindən istifadə etmişlər. "Şühədanamə"də isə eyni sözün bu hərflərdən hər ikisi ilə yazılması müşahidə olunur: چیکن-جیکن *çigin/cigin* (28a,13a), چاغیردی - جاغیردی *çağırdı/cağırdi* (79b,315a), دمورچی - دمورجی *dəmürçi/dəmürci* (38b). "Kitabi-Dədə Qorqud"un Drezden əlyazmasında da vəziyyət eynilə belədir. Bununla bağlı professor Əbdüləzəl Dəmirçizadə qeyd edir ki, "Kitabi-Dədə Qorqud"da təsadüf edilən bir sıra sözlərdəki ج hərfini "ç" səsi kimi qəbul etmək məqsədəuyğundur. Müəllif bu məsələ ilə bağlı yazır ki, "Kitabi-Dodə Qorqud"da müşahidə olunan ج - چ əvəzlənməsi yalnız əlifba və imla ilə bağlıdır, onu səs əvəzlənməsi kimi qəbul etmək doğru olmaz[31]. Biz də görkəmli dilçi alimin bu fikrini qəbul edirik.

"Şühədanamə"də türkmənşəli daha bir neçə sözün müxtəlif qrafik variantlarına rast gəlirik ki, bu hallar ya türk dillərinin inkişafının müxtəlif qatlarını, ya da bəzi sözlərin fərqli tələffüz şəklini əks etdirir. Həmin sözlər aşağıdakılardır: قایرو - ایرو *ayru/qayru* (82b, 204a),اولوغ - اولو*ulu/uluğ* (212a, 274b), کیچیک - کیچی *kiçi/kiçik* (28b, 78b) və s. Oxşar xüsusiyyət Seyf Sərainin "Gülüstan" tərcüməsində də (XIV əsr) qeydə alınmışdır: *ulu-uluq*, *arı-arıq*, *çəri-çəriq*[32]. Nəsimi "Divan"ı əlyazmasında isə *ayru/qayru* sözləri üç qrafik variantda qeydə alınmışdır: ایروق - ایروغ - ایروخ *ayrux-ayruğ-ayruq*.[33]

"Şühədanamə"də müşahidə olunan bu hərf əvəzlənmələri ilə bağlı qeydlərimizə onu da əlavə edək ki, biz əlyazmanın nəşrində bütün bu xüsusiyyətləri saxlamış, yəni türkmənşəli eyni sözləri yazılı abidədə olduğu kimi, müxtəlif qrafik variantlarda verməyi məqsədəuyğun saymışıq.

"Şühədanamə" ilə Kaşifinin "Rövzətüş-şühəda" əsərinin mətnlərinin müqayisəli təhlili göstərdi ki, tərcüməçi, bir qayda olaraq, farsca orijinalı dəqiq çevirməyə, onun məzmununda heç bir dəyişikliyə yol verməməyə çalışmışdır. Bütövlükdə götürdükdə, "Şühədanamə"nin məzmunu "Rövzətüş-şühəda" ilə tam üst-üstə düşür. Bunu başqa cür gözləmək də olmazdı, çünki Kaşifinin dini məzmunlu bu əsəri Yaxın və Orta Şərqdə eyni mövzuda yazılan kitablar sırasında çox məşhur olmuşdur. Dini məzmunlu əsərlər,

[31] *Dəmirçizadə Ə.* "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 1959, səh. 48.
[32] *Наджип Э.Н.* Тюркоязычный памятник XIV в. "Гулистан" Сайфа Сараи и его язык. ч. 1-II. Алма-Ата, 1975, стр.131-132.
[33] *Каграманов Дж.* Указ.соч., стр.24.

xüsusilə də nüfuzlu şəxsiyyətlərin (Kaşifi də onlar sırasındadır) qələmindən çıxan əsərlər isə, orta əsrlərdə, bir qayda olaraq, heç bir təhrifə, dəyişikliyə yol verilmədən olduqca dəqiq şəkildə tərcümə olunurdu[34].

Bununla belə, "Şühədanamə" ilə "Rövzətüş-şühəda"nın tekstoloji təhlili göstərdi ki, Nişati tərcümədə azacıq da olsa, sərbəstliyə də yol vermişdir. Tərcüməçinin sərbəstliyi ilk növbədə orijinalın mətnində bəzi yerləin ixtisarı və tərcüməyə edilmiş kiçik əlavələrlə bağlıdır. Əvvəlcə tərcüməçinin orijinalın mətnində yol verdiyi ixtisarları nəzərdən keçirək:

Nişati "Rövzətüş-şühəda"nın "Dibaçə"sində Kaşifinin əsərə yazdığı giriş bölümünün bir hissəsini "Şühədanamə"də buraxaraq, onun əvəzində tərcüməyə özünün yazdığı ön sözü əlavə etmişdir (4a-5a). Qeyd edək ki, orijinalın tərcümədə buraxılmış həmin hissəsində əsərin yazılma səbəbi açıqlanır. Nişatinin tərcüməyə artırdığı ön sözü də eyni mövzudadır – burada tərcümənin yaranma səbəbi diqqətə çatdırılır. Orijinalın sözügedən hissəsində 7 beytlik şeir parçası da vardır. Nişatinin əlavə etdiyi ön sözdə isə 18 beytlik şeir parçası verilmişdir. Qeyd edək ki, oxşar hal – orijinalın ön sözünün buraxılması və onun əvəzində tərcüməçinin ön sözünün əlavə edilməsi orta əsrlərə aid digər türkdilli tərcümə əsərlərində də müşahidə olunur[35]. Deməli, bu xüsusiyyət klassik tərcümə əsərlərinə xas olan səciyyəvi cəhətlərdən biri sayılmalıdır.

Orijinalla müqayisədə "Şühədanamə"də buraxılmış sayıla biləcək ikinci bir incə məqam isə "Rövzətüş-şühəda"nın ilk babının lap əvvəlində Adəm peyğəmbər haqqındakı epizodla bağlıdır. Kaşifi Adəm peyğəmbərin cənnətdən qovulmasını təsvir edərkən müəyyən mənada mövzudan kənara çıxaraq bu hadisənin səbəbi ilə bağlı ərəb qaynaqlarında verilən şərhləri diqqətə çatdırır. Təxminən bir səhifə həcmində olan həmin hissə (burada nəsrlə yanaşı, 7 beytlik şeir parçası da vardır) "Şühədanamə"də yoxdur. Fikrimizcə, bu fərqin bir neçə səbəbi ola bilər. Birincisi və ən əsası, ola bilsin ki, Nişatinin istifadə etdiyi "Rövzətüş-şühəda" əlyazmasında həmin hissə yox imiş. İkincisi, bu faktı Nişatinin əsərdə bilavasitə təsvir olunan hadisədən kənara çıxmamaq istəyi ilə bağlamaq olar. Üçüncüsü, ehtimal ki, Kaşifinin istinad etdiyi qaynaqda Adəmin cənnətdən qovulması səbəbinin məhəbbətlə əlaqələndirilməsi Nişatini qane etməmişdir və bu səbəb üzündən də mütərcim həmin hissəni buraxmışdır. Qeyd edək ki, Füzulinin "Hə-

[34] *Верещагин Е.М.* Из истории возникновения первого литературного языка славян. Переводческая техника Кирилла и Мефодия. М., 1971, стр.142.

[35] *Шарифов Дж.* Из истории перевода в Узбекистане. АДД, Ташкент, 1968, стр.86.

diqətüs-süəda" əsərində isə "Şühədanamə"də olmayan həmin hissə vardır: *"Kənzül-qəraib"də məsturdur ki, Adəm behiştdən ixrac olduğuna səbəb bu idi ki, mütəərrizi-eşq oldu..."*[36].

Əlavə edək ki, "Rövzətüş-şühəda"da sözügedən hissə:

در بحرالحقایق آوردهکه آدم را بدان سبب از بهشت بدرخواستند که باعشق درآویخت

"Bəhrül-həqayiq"də deyilir ki, Adəmi ona görə behiştdən qovdular ki, eşqə bağlandı - cümləsi ilə başlanır və kiçik bir şeir parşası ilə bitir.

"Rövzətüş-şühəda"nın VII babında İmam Hüseynlə Yezidin düşmənliyini doğuran səbəblərin açıqlanması verilən hissə isə "Şühədanamə"də açıq-aşkar buraxılmışdır. Kaşifi yenə də söz açdığı məsələ ilə bağlı ərəb qaynaqlarına əsaslanaraq bu düşmənliyi iki növə (zahiri və mənəvi) ayırır və onlar üzərində bir qədər ətraflı dayanır. Nişati isə həmin hissəni buraxaraq yazır:*"Kənzül-qəraib" kitabında məsturdur ki, düşmənlik əsbabı anlarıŋ aralarında* ***çoxdur*** *(*seçdirmə bizimdir – *M.N.). Betəxsis, biri bu idi ki, İmam Hüseyn əleyhissəlam Yezidüŋ beyətini qəbul etmədi"* (167a).

"Şühədanamə"də həmçinin "Rövzətüş-şühəda"nın "Xatimə" ("Sonluq") adlanan hissəsi yoxdur. On iki imam haqqında qısa məlumatı özündə birləşdirən bu hissənin adı "Şühədanamə"nin fehristində də qeyd olunmur. Həmin hissə AMEA Əlyazmalar İnstitutunda saxlanılan "Rövzətüş-şühəda"nın əlyazma nüsxələrindən yalnız birində (C-637), eləcə də əsərin daşbasma çapında və Daşkənd nüsxəsində[37] vardır. Fikrimizcə, Nişatinin istifadə etdiyi "Rövzətüş-şühəda" nüsxəsində sözügedən "Xatimə" hissəsi yox imiş. Təxminən bir neçə vərəqlik bu hissə Füzulinin "Hədiqətüs-süəda" əsərində isə qısa şəkildə verilmişdir[38].

"Şühədanamə" və "Rövzətüş-şühəda"nın mətnlərinin qarşılaşdırılması göstərdi ki, Nişati orijinalda olan ayrı-ayrı kiçik epizod və cümlələri də tərcümə etməmişdir. Məsələn, Kaşifi İmam Hüseynin kiçik dəstəsi ilə Yezidin qoşunları arasındakı müharibənin başlanmasının təsvirini verməzdən əvvəl bu qanlı faciənin dəhşətini göstərmək üçün təbiət hadisəsindən aldığı bir bədii lövhə də yaradır. Həmin hissəni Nişati "Şühədanamə"də buraxmışdır.

Nişatinin "Rövzətüş-şühəda"nın tərcüməsində yol verdiyi əsas ixtisarlar orijinaldakı bəzi şeir parçalarının tərcüməsi ilə bağlıdır. Yuxarıda qeyd olun-

[36] *Füzuli M.* Göstərilən əsər. Bakı, 1993, səh.30.
[37] Собрание восточных рукописей АН Узбекской ССР. Т. IV, Ташкент, 1957, стр.22-23.
[38] *Füzuli M.* Göstərilən əsər. Bakı, 1993, səh.314-316.

duğu kimi, "Rövzətüş-şühəda" əsərində olan şeir parçaları əsərin əsas hissəsini təşkil edən nəsrlə növbələşir. Əsərin nəsr hissəsi ilə məzmunca bilavasitə bağlı olan bu şeir parçaları onu ya tamamlayır, ya da təsvir olunan hadisəni daha obrazlı şəkildə əks etdirir. Məzmunca rəngarəng olan həmin şeir parçalarında müəllif əsərdəki qəhrəmanların igidlik və qəhrəmanlığını vəsf edir və ya şəhidləri qətlə yetirən günahkarları lənətləyir. "Rövzətüş-şühəda"da olan şeir parçaları janrına görə, əsasən, rübai, qitə və qəzəldən ibarətdir. Əsərdəki şeir parçalarının ümumi həcmi ("Dibaçə" nəzərə alınmamaqla[39]) 1235 beytə bərabərdir. "Şühədanamə"nin on babında olan şeir parçalarının ümumi həcmi isə 938 beytdir. Deməli, Nişati orijinaldakı 279 beyti tərcümə etməmişdir. Orijinalda qarşılığı olmayan və Nişatinin öz qələmindən çıxan şeirlər isə bu bablarda cəmi 18 beytdir. "Şühədanamə"nin ön sözündəki Nişatinin özünə məxsus şeirlərinin həcmi də elə bu qədərdir. Yuxarıda qeyd olunduğu kimi, Nişati "Şühədanamə"nin ön sözündə yazdığı iki beytlik şeirində tərcümədə olan şeirlərin ona məxsus olduğunu bildirir. Tərcümə ilə orijinalda olan şeir parçalarının qarşılaşdırılması isə Nişatidəki şeirlərin Kaşifidən bir qədər sərbəst şəkildə tərcümə olunduğunu açıq-aşkar bir şəkildə sübut edir.

"Şühədanamə"dəki şeir parçalarına əsasən belə bir qənaətə gəlmək olar ki, Nişati klassik Şərq poetikasına yaxşı bələd imiş və "Rövzətüş-şühəda" əsərində olan şeir parçalarının tərcüməsində elə bir çətinlik çəkməmişdir. Tərcümənin ön sözündə (4b) və sonda (338b) olan şeir parçalarında tərcüməçi özünün poetik təxəllüsünün Nişati olduğunu göstərir. Bu fakt isə Nişatinin, ümumiyyətlə, şeir də yazdığını sübut edir. Bütün bunları nəzərə aldıqda orijinaldakı 279 beytlik şeir parçalarının tərcümə edilməməsini Nişatinin bu işin öhdəsindən gələ bilməməsi ilə izah etmək, təbii ki, doğru olmazdı. Bəs bunun səbəbi nədir? "Rövzətüş-şühəda"nın əsas hissəsi olan nəsrdə orijinala, demək olar ki, sadiq qalan Nişati nə üçün məhz şeir parçalarının tərcüməsində bu qədər sərbəstliyə yol vermişdir? Məsələ ilə bağlı qeyd edək ki, orta əsrlərə aid tərcümə əsərləri ilə onların orijinalları arasında müəyyən uyğunsuzluqlar, dəyişikliklər (tərcüməçinin əlavələri və ya ixtisarları sayılan hissələr) olduqda tədqiqatçılar, adətən, belə bir ehtimal irəli sürürlər: bu fərqlər, bəlkə də, orijinalın qədim nüsxələrinin əldə olmaması ilə bağlıdır. Yəni tərcüməçinin əlavələri və ya ixtisarları sayılan hissələr, ola

[39] "Rövzətüş-şühəda"nın "Dibaçə"sində olan şeir parçalarını biz bir neçə səbəbə görə nəzərə almadıq. Birincisi, tərcümənin ilk iki vərəqi itmişdir. İkincisi, Kaşifinin ön sözünün hamısı tərcümədə verilməmişdir. Üçüncüsü, "Şühədanamə"nin ön sözündə Nişatinin öz qələmindən çıxan şeir parçaları da vardır.

bilsin ki, orijinalın qədim nüsxələrində var imiş. Bu ehtimal aşağıdakı mülahizələrə görə "Şühədanamə" ilə "Rövzətüş-şühəda" arasındakı göstərilən fərqlər üçün qəbuledilməzdir:

1. "Şühədanamə"də buraxılmış şeirlər "Rövzətüş-şühəda"nın əlimizdə olan bütün nüsxələrində və əsərin daşbasma çapında vardır. Eyni sözlər Nişatinin əlavələrinə də aiddir – onların heç biri "Rövzətüş-şühəda"nın əlyazmalarında və daşbasma çapında yoxdur. Deməli, "Şühədanamə"də buraxılan 279 beytlik şeir parçasının Nişatinin istifadəsində olan "Rövzətüş-şühəda" nüsxəsində də olmamasını düşünmək inandırıcı görünmür. Onu da nəzərə almaq lazımdır ki, "Rövzətüş-şühəda" 908/1502-1503-cü ildə tamamlanmış və "Şühədanamə" bu tarixdən cəmi 37 il sonra tərcümə edilmişdir. Deməli, Nişatinin istifadəsində olan "Rövzətüş-şühəda" əlyazması qədim və müəllif nüsxəsinə yaxın imiş. Qədim əlyazmalar isə, məlum olduğu kimi, Şərq klassiklərinin əsərlərinin tekstoloji tədqiqində daha mötəbər qaynaq sayılır.

2. "Şühədanamə"dəki şeir parçalarının çoxunun farsca orijinaldakı eyni şeirlərlə tam üst-üstə düşməsinə baxmayaraq, onların içərisində çox sərbəst bir şəkildə tərcümə olunanları da vardır. Məsələn, "Şühədanamə"də elə beytlər vardır ki, onların bir misrası orijinaldakı qarşılığına tam uyğun gəlir, ikincisi isə, ondan tamamilə fərqlənir. Bundan əlavə orijinaldakı bəzi şeir parçalarını Nişati ixtisarla tərcümə etmişdir, daha doğrusu, həcmcə nisbətən böyük poetik nümunələrin bəzilərinin yalnız ilk misralarını çevirmiş, digərlərini isə buraxmışdır. Tərcümədə elə şeir parçaları da vardır ki, əksinə, həcmcə orijinaldakından çoxdur. Beləliklə, Nişati orijinalın nəsr hissəsindən fərqli olaraq, şeir parçalarının tərcüməsində sərbəstliyə daha çox yol vermişdir. Ümumiyyətlə, klassik tərcümə örnəkləri üzərində müşahidələr göstərir ki, nəsrlə edilən tərcümələrlə müqayisədə poetik tərcümələrdə sərbəstliyə daha geniş yer verilmişdir. XV əsrin Azərbaycan tərcümə əsərlərindən Şirazinin "Gülşəni-raz"ı[40] və Əhmədinin "Əsrarnamə"si[41] bu cür sərbəst-poetik tərcümələrə nümunə ola bilər.

3. Nişatinin orijinaldakı bəzi şeir parçalarını tərcümə etməməsini sübut edən daha bir fakt "Şühədanamə"nin mətnində də vardır. Belə ki, tərcüməçi bəzən farsca mətndəki müəyyən bir şeir parçasını buraxır və onun məzmununu nəsrlə verərək yazır: "*Anuŋ təsəllisi içün neçə beytlər söylədi kim, mə'nisi budur...*" (53a). Qeyd edək ki, farsca orijinaldakı bir çox şeir parçalarının məz-

[40] Bax: *Nağısoylu Möhsün*. Şirazinin “”Gülşəni-raz” tərcüməsi, Bakı, 2004.
[41] Bax: *Nağısoylu Möhsün*. Əhmədinin “Əsrarnamə” tərcüməsi, Bakı, 2005.

munu əsərdə nəsrlə də verilmişdir. Məhz buna görə də onların "Şühədanamə"də buraxılması tərcümənin məzmununa, demək olar ki, heç bir xələl gətirmir. Maraqlıdır ki, orijinaldakı ayrı-ayrı qəhrəmanların könül duyğularından, daxili aləmlərindən bəhs edən, onların həyəcan və iztirablarının, arzu və istəklərinin ifadəsi kimi səslənən şeir parçalarının əksəriyyətinin qarşılığı "Şühədanamə"də də vardır. Nişati bu mövzulara həsr olunmuş şeirləri həm dəqiqliklə, həm də bədii şəkildə tərcümə etməyə can atmışdır.

Beləliklə, orijinalla müqayisədə tərcümədə yol verilən ixtisar və əlavələr ilk növbədə tərcüməçinin orijinala sərbəst-yaradıcı münasibətindən qaynaqlanır. Onu da əlavə edək ki, Nişatinin Kaşifidən tərcümə etmədiyi şeir parçaları daha çox əsərin ilkin bablarındadır.

Bir neçə kəlmə də "Şühədanamə"nin tərcümə və dil xüsusiyyətləri haqqında. Bu barədə söz açmazdan öncə qeyd edək ki, Nişati "Rövzətüş-şühəda"nı tərcümə edərkən aşağıdakı çətinliklərlə üzləşmişdir:

1. Nişatiyə "Rövzətüş-şühəda"nı tərcümə etməyi, qeyd olunduğu kimi, incəsənət və ədəbiyyata yüksək qiymət verən Səfəvi hökmdarı Şah I Təhmasib tapşırmışdı. Nişatiyə göstərilən bu cür yüksək etimad ondan tələb edirdi ki, dövrünün nüfuzlu din xadimi olmuş Kaşifinin əsərini tam dəqiqliklə, heç bir dəyişikliyə yol vermədən ana dilinə çevirsin.

2. Herat vaizi Kaşifinin əsərlərinin çoxu dəbdəbəli və təntənəli bir üslubda, olduqca qəliz dildə qələmə alınmışdır. Hətta yazıçının ən məşhur əsərlərindən biri - "Ənvari-Süheyli" fars dilini öyrənənlər üçün uzun illər ərzində dərs vəsaiti kimi istifadə edilməsinə baxmayaraq, *"olduqca qəliz və çətin bir dillə yazılmışdır"*[42]. Bu baxımdan "Rövzətüş-şühəda" əsəri də istisna deyil. Müəllif klassik ənənələrə uyğun olaraq "səc"li (qafiyəli) nəsrlə yazdığı "Rövzətüş-şühəda" əsərində də dəbdəbəli və ibarəli ifadələrə geniş yer vermişdir. Əsərin türkcəyə tərcümə edilməsinin başlıca məqsədi isə onun məzmununu Nişatinin ifadəsi ilə desək, fars dilini bilməyən *"qamu türk oymağlarının müstəidləri* (istedad sahibləri – M.N.) *və məvalilərinə"* (dostlarına – M.N.) çatdırmaq idi. Deməli, Nişati yüksək bədii üslubda yazılmış "Rövzətüş-şühəda"nı ümumxalq danışıq dilinə yaxın bir dildə çevirməli idi. Cəsarətlə demək olar ki, Nişati qarşısına qoyulan bu vəzifənin öhdəsindən uğurla gələrək "Rövzətüş-şühəda"nı sadə və canlı ümumxalq danışıq dilinə yaxın bir dildə tərcümə etməyə nail olmuşdur.

[42] Краткая литературная энциклопедия, т. I, М., 1968. стр.194.

"Şühədanamə"də Nişatinin bir meyli qabarıq şəkildə nəzərə çarpır. Tərcüməçi hər vasitə ilə çalışmışdır ki, orijinaldakı hər bir söz və ya ifadəni onun ana dilindəki qarşılığı ilə versin. Bu məqsədlə o, *"üzünü birbaşa ümumxalq dilinə tutmuş"*[43], bu tükənməz söz xəzinəsindən uğurla bəhrələnmişdir. Tərcüməçi hətta bugünkü Azərbaycan ədəbi dilində vətəndaşlıq hüququ qazanan və bir növ doğmalaşan bir sıra ərəb və ya farsmənşəli sözlərin əvəzində onların türkcə qarşılıqlarını verərək, türkcənin lüğət tərkibinin zənginliyini diqqətə çatdırmaq istəmişdir. Məsələn: Allah – *Tanrı/Çələb,* arzu – *dilək*, behişt – *uçmağ*, qatil – *qanlu,* qəbilə – *oymağ,* qəbir–*sin*, qədim – *əski,* cəhənnəm – *damu,* dəfə – *qatla, kəz*, düşmən – *yağı*, zəhər – *ağu,* əmr – *buyuruğ*, əsir – *ulca***,** məktub – *bitik,* mərdlik – *ərlik*, məşvərət – *canğı,* mübarək – *qutlu*, müharibə – *savaş*, nəhayət – *sonuc,* nökər – *tabın*, payız – *güz,* piyada – *yəyağ,* rabitəçi – *ğəcərçi,* sabah – *darŋla*, sifət/surət – *bənjiz,* tərəf – *saru,* fayda – *assı,* xal (bədəndəki) – *bən***,** xəstə – *sayru*, hamilə – *ikicanlu,* həyat – *dirilik*, casus – *əyğağ*, şərab – *çaxır,* şirin – *çüçük,* qarət – *talan* və s. Nişatinin "Şühədanamə"də işlətdiyi bu sözlərin bəziləri müasir Azərbaycan ədəbi dili üçün arxaik səciyyə daşısa da, dilimizin başqa yazılı abidələrində də işlənmiş və ya öz varlığını ayrı-ayrı şivələrimizdə qoruyub saxlamışdır. Yeri gəlmişkən qeyd edək ki, "Şühədanamə"nin zəngin leksikasında hazırda çağdaş ədəbi dilimiz üçün arxaik səciyyə daşıyan türkmənşəli sözlər xüsusi yer tutur (Həmin sözlərin lüğəti kitabın sonunda diqqətə çatdırılmışdır). Onu da qeyd edək ki, "Şühədanamə"də semantik və fonetik arxaizmlər də az deyil.

Nişati, əsasən, Təbriz şivəsindən aldığı ayrı-ayrı məhəlli sözləri yazılı ədəbi dilə gətirməklə "Şühədanamə"nin dilini müəyyən mənada şifahi xalq yaradıcılığı nümunələrinin dilinə yaxınlaşdırmağa nail olmuşdur. Xüsusilə, tərcümənin birinci babındakı Yusif peyğəmbərlə bağlı hadisələrdə, eləcə də əsərin əsas hissəsi olan Kərbəla vaqiəsinin təsvirində ümumxalq danışıq dilinin, şifahi xalq ədəbiyyatının güclü təsiri özünü göstərir. Aşağıdakı kiçik nümunədə bunu aydın görmək olar:

"Yəqubuŋ oğlanları ol gecə quyun[un] üstündə yatdılar. Uyxu anları apardı. Yəhudanuŋ uyxusi gəlməz idi. Haman kim gördi kim, qərdaşları uyudılar, qənimət bulub, yalğuz qalxub, ol quyınıŋ başına vardı və avaz verdi ki, ey qardaşum Yusif, aya, dirimisən, ya ölü? Yusif anuŋ ünin eşidüb cavab verdi kim, sən kimsən ki, biçarələrüŋ halını sorarsan və qəribləri aŋarsan? Dedi: Mənəm - Yəhuda, sənüŋ qərdaşuŋ. Ey qardaş, haluŋ nədir? Yusif ağlamağə düşüb dedi: Ey qardaş, nola bir

[43] *Əlizadə Samət.* XVI əsr Azərbaycan ədəbi dili (doktorluq dissertasiyası). Bakı, 1992, səh.221.

kimsənüŋ halı ki, atasınuŋ kənarindən ayrılmış ola və quyınıŋ dibində ölümə yaxınlamış ola?!"(32a-32b).

Göründüyü kimi, nümunədəki *uyxu aparmaq, uyxusu gəlmək* ifadələri, hadisənin dialoq şəklində təsviri nağıl və dastanları yada salır. Onu da qeyd etmək lazımdır ki, tərcümənin mətnində dilinin qəlizliyi ilə seçilən parçalar da az deyil.

Abidənin dilində işlənmiş bir sıra frazeoloji birləşmələrə, qoşa sözlərə ana abidəmiz, dünya folklorunun nadir incilərindən sayılan "Kitabi-Dədə Qorqud" eposunda da rast gəlirik. Məsələn, "Şühədanamə"dəki *gen yeri düşmənlərə dar qılmaq, söz söyləmək, yem yemək, var-get* və s. kimi ifadələr eynilə və ya azacıq dəyişikliklə "Kitabi-Dədə Qorqud"eposunda da işlənmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, "Şühədanamə" orta əsr Azərbaycan yazılı abidələri içərisində dilinin sadəliyi və türkmənşəli sözlərin çoxluğuna görə müstəsna yer tutur və bu baxımdan "Kitabi-Dədə Qorqud" eposunu xatırladır.

Nişati tərcümə zamanı ana dilinin zəngin lüğət tərkibindən, onun rəngarəng ifadə vasitələrindən böyük məharət və ustalıqla istifadə etmişdir. Məsələn, tərcüməçi farsca mətndə olan farsmənşəli *zədən* (vurmaq) sözünü ana dilində həmin leksik vahidin dörd müxtəlif qarşılığı ilə vermişdir: *urmaq, çalmaq, dəgdürmək, yetürmək*. Eyni sözləri ərəbmənşəli "müvəkkil" sözünə də aid etmək olar. Nişati "Şühədanamə"də bu sözü onun türkcə üç qarşılığı ilə vermişdir: *qaravul,* (220b), *keşikçi* (31lb), *saxlayıcı* (37a).

Bundan əlavə Nişati orijinaldan asılı olmayaraq, üslub rəngarəngliyi xatirinə eyni anlayışı müxtəlif sözlər və ya söz birləşmələri ilə vermişdir. Məsələn, tərcüməçi çağdaş ədəbi dilimizdəki *saymaq* mənasında dörd leksik vahid işlətmişdir: *sanamaq* (336a), *sanın almaq* (297b), *sana gəlmək* (297b), *sanamağa gətürmək* (303b). Çağdaş ədəbi dilimizdəki *köçmək* anlayışını Nişati üç leksik vahidlə: *köçmək* (206b), *köç eyləmək* (208b), *köçlənmək* (205a) vermiş; *mühasirəyə almaq* mənasında isə *çəvrəsini dutmaq* (264a), *çəvrəsini almaq* (179b) və *çəvirmək* (256a) sözlərini işlətmişdir.

Qeyd etmək lazımdır ki, "Şühədanamə"də sinonimlərdən geniş istifadə olunmuşdur. Sinonimlər çağdaş ədəbi dildə olduğu kimi, klassik ədəbiyyatda da, əsasən, üslubi məqamlarda işlənmiş və dilin zənginləşməsinə xidmət etmişdir. Nişati "Şühədanamə"də sinonimləri çox məharət və ustalıqla eyni cümlə və ya misra, beyt daxilində işlətməklə ana dilinin zəngin və rəngarəng ifadə vasitələrinə dərindən bələd olduğunu nümayiş etdirmişdir. Nişatinin işlətdiyi sinonimlər, bir qayda olaraq, türkmənşəli sözlər-

dən ibarətdir. Onlardan bir neçəsini nümunə olaraq veririk: *dün – gecə* (220b), *don – geyəsi* (316b), *çapalaq – tapança* (285b), *bitün – varı – qamu* (30b), *yatmaq – uyumaq* (32a), *varmaq – getmək* (318b), *ağlamaq – yığlamaq* (206a), *sınmış – ufanmış* (223a), *ilən – bilə* (223a) və s.

Aşağıdakı sinonimlərin isə biri türkmənşəli, digəri ərəbmənşəli sözlərdən ibarətdir: *toz – ğübar* (37a), *ülüş - qismət* (199a), *qorxu - təhdid* (35b), *don/geyəsi – libas* (98b), *qayğulu – məlul* (180b), *canğısız – tədbirsiz* (215a), *bağışlamaq – əfv etmək* (158a).

Nişati "Şühədanamə"də eyni sözü müxtəlif leksik vahidlərlə işlədərək bir sıra yeni söz birləşmələri də yaratmışdır. Məsələn, tərcüməçi *daŋ* sözünü gecənin dörddə bir hissəsi anlamında işlətməklə yanaşı, bu sözü *daŋ xorusı*, *daŋ yeli*, *daŋ yulduzı* birləşmələrində də onların tərkib hissəsi kimi vermişdir. Bu birləşmələrdən yalnız sonuncusu çağdaş ədəbi dilimizdə də *dan ulduzu* şəklində işlənir.

Tərcümə və orijinalın mətnləri üzərindəki müşahidələr "Şühədanamə"nin daha bir səciyyəvi xüsusiyyətini aşkara çıxardı. Tərcüməçi bəzən orijinalda işlənmiş ərəbmənşəli və ya farsmənşəli sözün ana dilindəki qarşılığını tapa bilmədikdə farsca mətndəki fikri dolayısı ilə ifadə etməyə çalışır və bu halda yenə də ana dilinin sözlərinə üstünlük verir. Bəzən də o, orijinalda işlənmiş hər hansı bir ərəb və ya fars sözünü oxucuları üçün daha anlaşıqlı saydığı və həmin dillərə məxsus başqa sözlərlə verir. Məsələn, Nişati orijinaldakı *hicab* və *şotorban* sözlərinin əvəzində tərcümədə eyni mənalı *pərdə* (136a) və *sarvan* (143a) sözlərini işlətmişdir. Görünür, sonuncu iki söz alınma olmasına baxmayaraq, o dövrün türk oxucusu üçün daha anlaşıqlı olmuşdur.

"Şühədanamə"də Nişatinin tərcümə sənətinə yaradıcı münasibəti də qabarıq şəkildə özünü göstərir. Nişati bir çox hallarda farsca mətni hərfi-hərfinə deyil, sərbəst şəkildə və yüksək bədii sənətkarlıqla tərcümə etməyə can atmışdır. Tərcüməçi sərbəstliyi ilk növbədə bədii təsvir vasitələrindən, obrazlı ifadələrdən və sabit söz birləşmələrindən bol-bol istifadə olunmasında özünü göstərir.

Orijinalın və tərcümənin mətnlərindəki bir çox cümlələrin qarşılıqlı təhlili Nişatinin müsəlman Şərqində geniş yayılmış ərəb, fars, türk dillərinə incəliyinə qədər bələdliyini sübut etməklə yanaşı, eyni zamanda onun bədii tərcümə sahəsində də müəyyən istedad və sərişdə sahibi olduğunu açıq-aşkar bir şəkildə göstərir.

Nişatinin yüksək tərcüməçilik məharəti fars dilinə məxsus frazeoloji birləşmələrin tərcüməsində xüsusilə qabarıq şəkildə nəzərə çarpır. Bədii tərcümə sənətinin nəzəri əsaslarının mövcud olmadığı bir dövrdə Nişati bədii tərcümənin ən çətin problemlərindən biri sayılan frazeoloji birləşmələrin tərcüməsi kimi çətin bir məsələnin öhdəsindən uğurla gəlmişdir. Fars frazeoloji birləşmələrini Nişati, bir qayda olaraq, hərfi şəkildə deyil, onların ana dilindəki qarşılıqları ilə vermişdir. Məsələn: *zəhre ab şodən - bağrı yarılmaq* (289b), *kar əz dəst rəftən - iş işdən keçmək* (180a), *kine xastən - qanını almaq* (131a), *sərəfraz kərdən - ad çıxarmaq* (260a), *təəlloğ vərzidən - könül bağlamaq* (218a), *əz dər berani, əz divar dər ayim - qapudan sürəsən, bacadan girərüz* (209b), *rəftəni rəft-o budəni bud - ötəni ötdi, keçəni keçdi* (140a) və s. Nişatinin işlətdiyi bu frazeoloji vahidlər farsca mətndəki fars sabit söz birləşmələrinin daşıdığı mənalara tam uyğun gəlir. Qeyd edək ki, "Şühədanamə"dəki bu frazeoloji vahidlər son ikisi istisna olmaqla, çağdaş ədəbi dilimizdə də eynilə işlənir. Son iki frazeoloji vahid isə çağdaş Azərbaycan ədəbi dilində azacıq dəyişikliklə işlənir: *olan oldu, keçən keçdi; qapıdan qovsan, bacadan girər*. Göründüyü kimi, sonuncu frazeoloji vahidlə Nişatinin işlətdiyi sabit söz birləşməsi arasındakı fərq *qovmaq* sözü əvəzinə onun arxaik şəklinin - *sürmək* sözünün işlənməsidir. Qeyd edək ki, "sürmək" felinin bu mənası yalnız çağdaş ədəbi dilimiz üçün arxaik sayılır, dialekt və şivələrimizdə isə o, "qovmaq" mənasında işlənir[44].

"Rövzətüş-şühəda" və "Şühədanamə"də elə frazeologizmlər də vardır ki, tərkibindəki sözlərə görə bir-biri ilə tam üst-üstə düşür. Bu faktı, təbii ki, fars dili ilə Azərbaycan-türk dili arasındakı əskidən bəri olan qarşılıqlı əlaqə ilə bağlamaq lazım gəlir.

"Şühədanamə"də elə frazeoloji vahidlər də vardır ki, onların farsca qarşılıqları orijinalda yoxdur. Məsələn: *əyağ kəsmək* (113a), *bel bağlamaq* (128b), *qanı qaynamaq* (252a), *köŋlin almaq* (205b), *söz qapusıŋ bağlamaq* (327b), *səbr qalxanı yüzinə çəkmək* (36b), *sözüŋdən dönmək* (21la), *ussu getmək* (262a), *fikir atına minmək* (215a), *can və baş ilən qulluğuŋda durmək* (209b) və s.

"Şühədanamə"nin mövcud avtoqraf nüsxəsi üzərindəki müşahidələrə əsasən deyə bilərik ki, bu əlyazma kitabı Nişatinin orijinaldan birbaşa tərcümə əsasında hazırladığı ilk nüsxədir. Əlyazmanın özündə bu faktı sübut edən bir sıra dəlil-sübutlar vardır. Onlar sırasında eyni cümlənin tək-

[44] *Rüstəmov R.* Müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş fellər - "Dilçilik məcmuəsi". XVII c., Bakı, 1963, səh.94.

rarlanması (məsələn: *İmdi mən sizə bir ögüt verürəm*-30b), eləcə də buraxılmış ayrı-ayrı sözlərin və bəzi cümlələrin nüsxədə sətrin üstündə yazılması və ya sətir sonundan silinərək yeni sətrə köçürülməsi hallarını qeyd etmək olar. Bundan əlavə əlyazmada ayrı-ayrı sözlər diqqətsizlik üzündən səhv yazılmışdır. Çox güman ki, bütün bu faktlar tərcümənin sonrakı əlyazma nüsxələrində aradan qaldırılmışdır, lakin tərcümənin istifadəmizdə olan nüsxəsi, təəssüf ki, yeganədir. Qeyd edək ki, bütün bu hallarla bağlı kitabın çıxarış hissələrində müvafiq qeydlər verilmişdir.

Əlyazmada ismin yönlük, yerlik və çıxışlıq hal şəkilçiləri, eləcə də I və II şəxslərin xəbərlik şəkilçiləri yalnız bir variantda yazılmışdır ki, ərəb hərflərinin uyğun gəldiyi səsləri nəzərə aldıqda onları yalnız bir cür, yəni incə saitlə oxumaq lazım gəlir: *-ə* (*-yə*), *-də*, *-dən*; *-əm*, *-sən*. Bununla belə, həmin dövrdə bu şəkilçilərin qalın saitli variantlarının (*-a* (*-ya*), *-da*, *-dan*; *-am*, *-san*) mövcud olmaması, fikrimizcə, bir o qədər də inandırıcı görünmür. Onu da qeyd edək ki, görkəmli türkoloq alim Əmir Nəcib Seyf Sərainin "Gülüstan" tərcüməsinin əlyazmasında çıxışlıq hal şəkilçisinin iki qrafik variantda (*-dan*, *-dən*) olduğunu qeyd edir[45]. Alim onu da əlavə edir ki, belə bir faktın göz önündə olmasına baxmayaraq, əlyazmadakı ayrı-ayrı sözləri yazılışından fərqli şəkildə oxumaq lazım gəlir. Məsələn: *cəhətdən, zəmandan.* Oxşar hala "Şühədanamə"də işlənmiş cəm şəkilçisinin qrafik variantlarında da rast gəlirik. Belə ki, əlyazmada bu şəkilçi iki qrafik variantda (*-lar* və *-lər*) təmsil olunsa da, bəzən incə saitli sözlərdə qalın saitli şəkilçi və ya əksinə, qalın saitli sözlərdə incə saitli şəkilçi işlənmişdir. Belə hallarda ahəng qanununun tələblərinə üstünlük vermişik. Məsələn, əlyazmada بویوکلار, الالار,قیزلر kimi yazılmış sözlər tərcümənin nəşrində ərəb hərflərindən fərqli şəkildə, yəni *böyüklar, əllar, qızlər* kimi yox, *böyüklər, əllər, qızlar* kimi verilmişdir. Eləcə də yuxarıda qeyd olunan hal şəkilçilərinin transfoneliterasiyası məsələsində bir çox hallarda ahəng qanununu əsas götürməyi məqsədəuyğun saymışıq. Bununla belə, onu da qeyd etmək lazımdır ki, "Şühədanamə"nin farsca orijinalı – "Rövzətüş-şühəda" başdan-başa qafiyəli nəsrlə yazılmışdır. Ümumiyyətlə, klassik nəsr əsərlərinin çoxu, o cümlədən Füzulinin "Hədiqətüs-süəda"sı da qafiyəli nəsrlə – səclə qələmə alınmışdır[46]. Nişati də "Rövzətüş-şühəda"nı ana dilinə *"döndərərkən"* (ifadə

[45] *Наджип Э.Н.* Тюркоязычный памятник XIV в. "Гулистан" Сайфа Сараи и его язык. ч. 1-II. Алма-Ата, 1975, стр.87.

[46] Bax: *Nağısoylu Möhsün*. Füzulinin "Hədiqətüs-süəda" əsəri, Bakı, 2002.

Nişatinindir) qafiyəli nəsrin tələblərinə əməl etməyə çalışmış və bir sıra hallarda buna uğurla nail olmuşdur. Məsələn:

Qilman** ilə **vildan** qulluğində **xidmətkar**, rizvan ilə **hurlar** Həvva ananuŋ ögində **pərəstar (6b);

*Ol avazuŋ əsərinə **getgilər,** çün quyınuŋ başına **yetdilər...*** (33a);

*Anuŋ bir yüzi var idi **ay kimi** və bir saçı var idi **zilli-hümay kimi*** (169a) və s.

Bu mühüm amili nəzərə alaraq, "Şühədanamə"nin mətnində işlənmiş ayrı-ayrı türkmənşəli sözləri müasir ədəbi dilimizdəki tələffüz formalarından fərqli şəkildə transfoneliterasiya etməyi məqsədəuyğun saymışıq. Məsələn, müasir ədəbi dilimizdəki *baxaram, onlara, qayğılardan* və s. kimi sözlər qafiyəli nəsrin tələblərinə görə əlyazmadakı qrafik variantına uyğun olaraq *baxərəm, anlərə, qayğulərə* kimi verilmişdir.

Qeyd edək ki, Nişati bir sıra türkmənşəli və ərəbmənşəli sözləri bilərəkdən hərəkələmiş, bununla da onların düzgün tələffüzünü diqqətə çatdırmaq istəmişdir. Məsələn, müasir ədəbi dilimizdəki *elə, belə* sözləri, məlum olduğu kimi, klassik mətnlərdə, əsasən, *öylə, böylə* şəklində işlənmişdir. Nişati isə bu sözlərin, eləcə də digər leksemlərin yazılışında bir çox hallarda hərəkədən (fəthə) də istifadə edərək onların *əylə, bəylə* şəklində oxunuşunu xüsusi olaraq diqqətə çatdırmaq istəmişdir. Sözsüz ki, bu məsələdə Nişati dövrünün tələffüz şəkli ilə yanaşı, türkcənin çeşidli dialekt və şivə özəllikləri də müəyyən rol oynamamış deyil. Məhz bu amili, eləcə də əlyazmanın səciyyəvi imla və fonetik xüsusiyyətlərini nəzərə alaraq, biz tərcümənin mətnində həmin sözləri Nişatinin "diktə etdiyi" kimi, yəni *əylə, bəylə* şəklində verməyi məqsədəuyğun saydıq. Bu qəbildən olan ərəbmənşəli sözlərə gəldikdə isə, onlar sırasında aşağıdakı leksemləri qeyd etmək olar: *dəvr* (dövr), *dəvlət* (dövlət), *əvrət* (övrət), *qəvm* (qövm) və s.

"Şühədanamə" əlyazmasının mətnindəki bu və buna bənzər digər dil faktlarının tarixi fonetika və tarixi dialektologiya üçün müstəsna əhəmiyyətini nəzərə alaraq, kitabda onları, əsasən, əlyazmadakı yazılış formasına uyğun şəkildə saxlamağı lazım bildik. Ümumiyyətlə, qeyd edək ki, əlyazmanın nəşrində ərəbqrafikalı mətni maksimum dərəcədə qorumağa, onu olduğu kimi verməyə çalışmışıq. Əlyazmadakı bəzi türkmənşəli eyni sözlərin tərcümənin nəşrində müxtəlif variantlarda olması (məsələn: *bezətmək//bəzətmək, ət//et; içün/üçün, qapuni/qapuyi* və s.) məhz bu səbəbdəndir: onlar yuxarıda qeyd olunduğu kimi, əlyazmada da müxtəlif qrafik variantlarda verilmişdir.

Tərcümənin mətninin dəqiqliklə saxlanılması məqsədilə əlyazmada bol-bol işlənən Quran ayələrinin və ərəbcə sözlərin transfoneliterasiyasında apostrof işarəsindən istifadə etməyi də zəruri saydıq. Türkmənşəli sözlərdə "sağır nun"un **ŋ** şəklində verilməsini də məqsədəuyğun hesab etmişik. Əlyazmada, əsasən, mətnin korlanması üzündən oxunuşu mümkün olmayan bəzi söz və ya ifadələr də vardır ki, bu cür hallarda nəşrdə üç nöqtə (...) işarəsi qoyulmuşdur. Bundan əlavə əlyazmada bir sıra elə söz və ifadələr də müşahidə olunur ki, onlar açıq-aşkar şəkildə katib xətası üzündən səhv yazılmışdır. Belə hallarda nəşrdə onların düzgün variantı verilmiş, çıxarışda isə əlyazmadakı yazı formaları göstərilmişdir.

Mətndə ərəb dilində olan aşağıdakı ifadələrin çox işləndiyini nəzərə alaraq, onları birinci dəfə işlənərkən tam şəkildə, sonra isə ixtisarla verməyi məqsədəuyğun saydıq:

Əleyhassəlam (Ona salam olsun – əsasən, Həzrət Fatimə üçün.) – **ə.s**;

Əleyhissəlam (Ona salam olsun) – **ə**;

Əleyhumussəlam (Onlara salam olsun) – **ə.m**;

Rəhmətüllahi əleyhi (Allah ona rəhmət etsin) – **r**;

Səllallahu əleyhi və səlləm (Allahın ona xeyir-duası və salamı olsun) – **s**.

Mətndə işlənən Quran ayələrinin, eləcə də ərəbcə ifadə və cümlələrin transkripsiyası və tərcüməsi Hacı Mustafa Mailoğlunundur.

Qeyd edək ki, "Şühədanamə"nin – bu əvəzsiz və dəyərli klassik tərcümə nümunəsinin indiyədək nəşr olunmaması müxtəlif səbəblərlə bağlı olmuşdur. Sovet dövründə, təbii ki, mövcud ideologiyanın yasaqları buna qətiyyən imkan vermirdi. Yalnız XX yüzillikdə ölkəmiz ikinci dəfə müstəqillik qazandıqdan sonra belə bir vacib və əhəmiyyətli işin həyata keçirilməsi üçün münbit şərait yarandı və bu iş baş tutdu. Klassik tərcümə sənətimizin, eləcə də ədəbi dil tariximizin ən dəyərli qaynaqlarından biri olan Nişatinin "Şühədanamə" tərcüməsinin bu nəşri ilk dəfədir ki, həyata keçirilir. Ümidvarıq ki, XVI əsr Azərbaycan tərcümə ədəbiyyatının və ədəbi dilinin bənzərsiz nümunəsi olan "Şühədanamə"nin ilk nəşri mütəxəssislər və geniş oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır.

ŞÜHƏDANAMƏ

(Şəhidlər kitabı)

Mətnin transfoneliterasiyası



. . . DİBAÇƏ

... [1a] *Beyt:*
Dustliğ – altun, bəla atəşdür,
Xalis altun ot içində xoşdurur.

Və bu kəlamdən bəylə fəhm olur ki, bəla dustlarə yüz qoyar və mihnət məhəbbət əhlinüŋ könlində qonar. Hər yerdə ki, məhəbbət binasını qoyubdurlar, mihnətdən bir qapu aŋa açubdurlar. Və hər meydandə ki, dustliğ ələmi durğuzubdurlar, bəlalar qoşunı aŋa mülazim eyləyübdürlər. Hər kim Həqq-təala anı sevər, anı bəlalarə mübtəla eylər və mihnətlərə giriftar edər. Və bu məʾninüŋ qüvvətinə Mustəfanuŋ (səllallahu əleyhi və səlləm) hədisidür, orada kim, buyurubdur: "*İnnəllahə iza əhəbbə qovmən əbtəlahum*"[1], yə'ni çün Taŋrı-təala bir qəvmi sevər ola, bəla və qayğu ləşkəri anlaruŋ üstinə durğuzə.

Və müqərrərdür ki, məhəbbət qədərincə mihnət yetər və bəla dustliğ mərtəbəsində nazil olur. Hər kim dustliğ yolında özgələrdən ilərüdür, qamu kimsədən artuğ nəsibi mihnət ilə qəm və qayğudur.

Beyt:
Kim məhəbbətdən dəm [*urar*] *Nuhtək,*
Köksi mihnət daşidən məcruhrak.

Həzrət Peyğambərdən (s) sual etdilər: "*Əyyun-nasi əşəddu bəlaən*"[2], yə'ni hanğı taifə mərdümlərdən bərkrakdurlar bəla çəkməkdə və səburdurlar qəm və ənduh yükini götürməkdə? Buyurdı: "*Əl-ənbiya*"[3], yə'ni

[1] *Allah bir qövmü [tayfanı] sevərsə, ona bəla verər.* (hədis)
[2] *Ən çox bəla görən insanlar kimdir?*
[3] *Peyğəmbərlər.*

peyğambərlər ki, risalət hərəminüŋ məhrəmidürlər. Anlar varı kimsələrdən bərkrak və artuğrakdurlar və hər mihnət ki, anlarə yüz qoyar, qamu mihnətlərdən ağırrakdur: "*Summəl əmsəli*"[4]. Pəs, hər [kəs] **[1b]** peyğambərlərə oxşaya məhəbbət təriqində və mə'rifət əsrarində vaqif olmək, anuŋ bəlası daxi qatırak ola: "*Fəl-əmsəl*"[5]. Bəs, anlar ki, bu cəmaətə yaxınrak olalar, anlaruŋ bəla və ənası daxi qatı ola.

Şe'r:
Hər kim o sultanə yaqınraqdurur,
Aŋa bəla camı verürlər dolu.
Kimsə ki xass oldi bu dərgahdə,
Başinə yağış kimi yağər dolu.

Bəla bir şərbət dəgül ki, təriqət uşağlarına içürürlər, bəlkə bir ulu cami-hələhili-ağudur ki, bu yoluŋ baliğ kamillər əlinə qoyarlar. Təriqət məşayixindən birisi deyübdür:

Beyt:
Yoxdurur abdallaruŋ safi mey içmək adəti,
Anlaruŋ cür'ələri küplərdürür varı dolu.

Mundan ötrüdür ki, hər bəla yüki ki, ağırrakdur, peyğambərlərüŋ (əleyhumussəlatu vəssəlam) mübarək köŋüllərinə qoyubdurlar və hər mihnət töhfəsi ki, yoğunrakdur, övliya və əsfiya içün göndərübdürlər.

Rəvayətdür ki, hər kimə sadiqlər yeri gərəkdür, gərək kim bir qədəm öz muradincə götürməyə və bir nəfəs köŋül istədügi içün çəkməyə.

Rübaiyyə:
Gər aşiq isəŋ zəbunü zar ol, ey dil,
Mihnət ələmilə dilfigar ol, ey dil.
Köksüŋa bəla dügüni gər qoyməz isəŋ,
Girmə bu məsafə, bərkənar ol, ey dil.

[4] *Onlara bənzəyənlər.*
[5] *Digər bənzəyənlər.*

Anuŋ ibtila yolında miŋ-miŋ köŋül kəbabdur və anuŋ mihnət və bəlasində yüz miŋ göz qan yaşı ilən bulaşmış xərab. Hər badiyədə anuŋ həsrət ilə düşmiş bir küştəsi var və hər zaviyədə..... **[2a]** yürəklüsi var. Hanğı köŋüldür ki, anuŋ odından .... yürəgidür ki, anuŋ bəla oxına nişanə dəgül.... [Adəm]üŋ həsrətinə və Nuhi-nəcinüŋ naləsinə və odə girmiş [İbrahimə] ..... İsmailinə və Yəʾqubuŋ ağladüği beytül-əhzandə və Yusifüŋ çəkdügi çah və zindandə və çobanlig etmək və sərgərdanlik çəkmək.... [Musayi-kəliminə]. Və sayrulığ çəkmək Əyyubi-səqiminə və bıçqu ilə iki bölmüş Zəkəriyyayi[6]-məzlumə və bıçaq ilə Yəhyayi-məʾsumuŋ kəsilmiş boğazına. Və Muhəmməd Mustəfanuŋ (s) mübarək dişi şəhid olmışına və parə-parə olmış Həmzənüŋ bağırına və Əhli-Beytüŋ mihnətinə və ismət və təharətüŋ xanəvadələri müsibətinə və Bətuli-Əzranuŋ gözi yaşına və Şahi-vilayətpənahuŋ başı yarasına və Həsəni-Muctəbanıŋ ağu içdüginə və Şəhidi-Kərbəlanuŋ qanə bulaşmış rüxsarinə və özgə bəlakeşlərüŋ əhvalinə.

Beyt:
Aləm varı mihnətü qəm ilən doludur,
Bu mihnət anuŋdur ki, qamudan uludur.
Hər xanda ki baxurəm anuŋ yolində
Bir xəstəcigər yatubdurur, qayğudur.

Ey əziz, hiç peyğambərüŋ yolında ol qədr bəla tikəni tökməyübdürlər ki, Seyyidül-bəşər yolında və hiç nəbinüŋ başına ol qədr mihnət tozı ələməyübdürlər ki, ol sərvərüŋ fərqinə, əylə ki həzrət Peyğambər buyurubdur: "*Ma uziyə nəbiyyun misləma ma uzitu*"[7], yəʾni hiç peyğambərə bu qədr rənc....

[2b], [3a][8].....

[3b] ağlayə, cənnət aŋa vacib olur. Və hər kim özini ağlayanlar kimi görsədə, bəhökmi - "*mən təşəbbəh bi-qovmin fə-huvə minhum*" [9] ol

[6] Əlyazmada: *Zəkəriyya.*

[7] *Heç bir peyğəmbər mənim qədər əziyyət çəkməmişdir*. (hədis)

[8] Əlyazmada [2b] və [3a] vərəqlərindəki mətn korlandığı üçün oxunmur.

və'dəyə ki, *"vəcəbət ləhul-cənnə"*[10] daxildür. Rəzi Buxari buyurur ki, ey əziz, Kərbəla toprağı bir toprağdur kim, ol toprağda şəhadət toxmini əkübdürlər və məvalilər və həvadarlar gözindən su istər ki, *"mən bəka ələl-Huseyni əv təbaka vəcəbət ləhul-cənnə"*[11]. Pəs, hər kim göz arxından Kərbəla toprağına bir su göndərə, əlbəttə, hər səadət toxmi ki, şəhidlər məhəbbəti içün əkmiş ola, riza məzrəəsində anuŋ göz yaşı ilən tərbiyət alub. Çün *"əd-dunya məzrəətul-axirə*[12]*"* mənzilindən dışxarı çıxa, anuŋ məhsuli uçmağ nəimi və şadiliğ nəsimi olacağdur ki, *"Vələ-axirətu xeyrun ləkə min əl-ula*"[13]. Və munuŋ içündür ki, Əhli-Beyt şiələri hər yıl çün mühərrəm ayı gəlür, Kərbəla şəhidlərinüŋ yasını yeŋidən dutub qəra geyərlər və əza tazə qılurlar və qamu köŋüllər heyrət odı ilən biryan və gözləri həsrət qayğusi ilən giryan edərlər.

Beyt:
Can ilə köŋül yanar bu yasnuŋ ənduhi,
Gözdən axıdur çaylar, qəmdən əridür kuhi.

Və şəhidlərüŋ şəhadət xəbərləri ki, kitablərdə yazıludur, oxusunlar və göz yaşı ilən məlul tozı köküs səfhəsindən gidərsünlər.

Və çoq kitablar ki bu babda yazubdurlar, əgərçi anda şəhidlərüŋ hekayətləri çoxdur, əmma İmam Həsən və İmam Hüseyn (əleyhumussəlam) fəzayilindən və anlaruŋ əhvalindən boşdur. Və çün cənab fəzayilməab mövlanayi-alimi-kamil Mövlana Cəmaləddin Hüseyn Vaiz **[4a]** Xorasani məşhur bə-Kaşifi "Rövzətüş-şühəda" kitabı parsi dili ilən təsnif etmiş idi və türk müstəidləri və şiələri farsi kəlamı aŋlamaz idilər və ənbiyavü övliyanuŋ ibtilalərindən və İmam Hüseynüŋ (əleyhissəlam) vaqiəsindən Kərbəla şəhidləri ilən bixəbər idilər, bu cəhətdən şahi-cəhanpənah, məzhəri-lütfi-İlah, xaqani-cəhangiri-cəhandar,

---

[9] *Kim özünü bir qövmə* [tayfaya] *bənzədərsə, o da* [həmin] *qövmdən sayılır*.

[10] *Cənnət ona vacib olar.*

[11] *Kim Hüseyn üçün ağlar və ya ağladarsa, ona cənnət nəsib olar*.

[12] *Dünya axirətin əkin yeridir*. (hədis)

[13] *Şübhəsiz ki, axirət sənin üçün dünyadan daha xeyirlidir!* (Quran, 93:4)

İskəndərhəşəmət, Süleymaniqtidar, Keyxosrovi-Ərdəşirməkan, Fəriduni-fərri-Cəmşid, fərmandarayi-məmaliki-İran və Turan.

Nəzm:

Ol şəhənşahi ki, fərmanindədür xəlqi-cəhan,
Yerüŋ üsnə kölgəsidür Basiti[14]*-əmnü əman.*
Pasiban dərgəhidür şahi-həftümi-asiman,
Eşiginüŋ qulları hər biri bir sultanü xan.

Baniyi-məbaniyi-şəhriyari, tərazi-xəl'əti-cəhanbani və cəhandari, sultani-səlatini-aləm, məqsudi-icadi-bəni Adəm, məlcə'i-əazimüs-səlatinüd-dövran, nazimi-ümuri-cümhuri-insü can, xədivi-kişvəri-səltənət və xilafət, mənbəi-zülali-nəsəfət və ədalət.

Şe'r:

Siyadət bürcinüŋ mahi, hidayət mülkinüŋ şahi,
İmamlar yolinüŋ rahi, ədular üsnə qalib.
Duayi-dəvlətü ömrin təmami-xəlqədür vacib,
Kim, ulu cəddidür anuŋ Əli ibn Əbi Talib.

Əl-vasiq bi-inayətullah əl-məlikul-əzizul-alih muzəffərus-siyadət vəssəltənət vəl-xilafət vəl-ədalət vən-nəsəfət vəş-şucaət vəd-dunya vəd-din əbülmuzəffər Şah Təhmasib əs-Səfəvi əl-Hüseyni xəllədəllahu təala zilali-xilafətihi və şucaətihi və ədalətihi və nəsəfətihi və bərrihi və ihsanihi əla məfariqil-aləmin ila yovmid-din. Zəmani-fərxündə əncamində əmrü işarəti-alihəzrət imarətpənah, şövkətdəstgah, ədalətşüar və mərhəmətasar, nəsəfətasar, əmiri-ə`zəm, kamkari-ə`qəlü ə`dəl rəfi'miqdar əl-məxsus bi inayətullahi Məlikul-Mənnan, şucaul-imarət vəl-əyalət vəl-ədalət vən-nəsəfə vəl-izzü vəl-ehsan.[15] **[4b]** *Qazi*

[14] *Basit* – lüğəvi mənası *genişləndirən, yayan* deməkdir, həm də Allahın adlarından və sifətlərindən biri anlamını daşıyır. Mətndə ikinci mənada işləndiyi üçün böyük hərflə verilmişdir. Kitabda Allahın digər adları və Allah anlamında işlənən sözlər də bu cür yazılmışdır.

[15] *Allahın böyük lütfü ilə, dünyada səltənət, ədalət və şücaət sahibi olan, qaliblərin atası Şah Təhmasib əs-Səfəvi əl-Hüseyninin – Allah-taala onun xilafətinin kölgəsini, şücaət, ədalət və ehsanını Qiyamət gününə qədər daimi etsin – mübarək şahlıq zamanında şövkətli, ədalətli, mərhəmətli, insaflı və əzəmətli əlahəzrət Allah-taalanın köməyi ilə əmr verdi.*

xan təvaci zadullahi əyyami-imarətihi və əyalətihi və ədalətihi[16] *ki, dürri-dürci-şərəf, həzrəti-irfanpənah, məğfirətdəstqah Saru Şeyx oğlı Zülqədərdür* və həkəmi-Fars və ədalət qapusı xassü amm yüzinə açub, məzlumlərüŋ ğurinə yetüb, məmləkətüŋ mə'murliğinə cəhd edər və fil-həqiqət

Şe'r:

Xanuŋ ədalətindən Şiraz oldi mə'mur,
Ya Rəb, yaman göz olsun anuŋ kəmalidin dur.
Şiraz şəhri sayru olmişdi fitnələrdən,
Hikmətlə mə'dələtdən qıldı əlaci-rəncur.
Şahi-cəhanpənahuŋ bir qoli Qazi xandur,
Kanuŋ[17] *yanində bir çub xaqani-Çinü Fəğfur.*
Hər yerə qoydi yüzin, aŋa zəfər mülazim,
Hər xanda çəkdi şəmşir, xəsminə oldı mənsur.
Qurtuŋ nə zəhrəsi var kim, qoyinə baxə tiz,
Yoq kimsənüŋ həddi kim, qarıncəyə qıla zur.
Qaziləri qamusı sufivü söhbət əhli,
Heyca günində hər bir ba-tabü qüvvətü zur.
Həqdən dilər Nişati kim, dünya durduğincə
Dursun bə-cahü dəvlət daim bə-işrətü sur.
Ta var ola yerü gög, ya Rəb, ki Qazi xanı
Xəlq üsnə amir olsun, şah buyruğinə mə`mur.

Nafiz oldı kim, bəndeyi-xaksar, məvalilərüŋ əyağı toprağı Muhəmməd bin Hüseyn Katib əl-məşhur bə-Nişati bu kitabı farsi dilindən türkiyə döndərə ta, qamu türk oymağlarınuŋ müstəidləri və məvaliləri mundan faidə görələr. Əgərçi bu bəzaətsiz bəndənüŋ **[5a]** qabiliyyəti ol qayətdə dəgül idi ki, bu işə məşğul ola, ənbiya və övliya və şühəda ərvahindən mədəd və yariliğ istəyüb, xanuŋ buyruği can ilən qəbul edüb bu kitabuŋ tərtibinə məşğul oldı. Çün bu təsnifdən məqsud şəhidlərüŋ əhvalidür, adı "Şühədanamə" qoydı. İmdi ərbabi-kəlam və əshabi-fixamdən iltiması oldur kim, əgər ibarətdə bir səhv və qələt nəzərlərinə gələ, islahinə məşğul olub, əfv ətəgi ilən anı örtsünlər.

---

[16] *Allah onun əmirlik günlərini və ədalətini uzun etsin.*

[17] *Ki anuŋ.*

Rübai:
Əbyat ki bu nüsxədə oldi mərqum,
Mənşuri-gögüŋ üsnə durur misli-nücum.
Hiç kimsədən anı ariyət istəmədi,
Qamu özinüŋdür ki, qılupdur mənzum.

***

Tarixi-təsnif və buyuranuŋ zikri:

Muhəmməd Mustəfanuŋ hicrətindən
Doquz yüz qırq beş yıl keçmiş idi
Ki, Qazi xan Saru Şeyxüŋ oğlı
Buni döndərəgör türkiyə dedi.
Behəmdillah kim, anuŋ dəvlətindən
Təmam oldivü yoxdur naümmidi,
Şəhidlər həqqi içün, ya Rəb, aŋa.
İki aləmdə vergil rusəfidi.

İşrəti-kamilə hökmi ilən bu kitab[18] on[19] bab ilən mübəvvəb olubdur və əbvabuŋ fihristi budur:

Əvvəlki bab: Neçə peyğambərlərüŋ ibtilalərində (əleyhumussəlatu vəs-səlam);

İkinci bab: Qüreyş ilən kafirlərüŋ cəfaları Mustəfayə və Həmzə ilə Cə'fəri-Təyyaruŋ şəhadətinə;

Üçünci bab: Həzrət Mustəfanuŋ (əleyhissəlatu vəs-səlam) don dəgşürdüginə;

[5b] Dördünci bab: Həzrət Fatimənüŋ (əleyhassəlam) əhvalı: doğduğindən şəhadətinədək;

Beşinci bab: Həzrət əmirül-mö'minin Əlinüŋ (ə) əhvalı: doğduğindən şəhadətinədək;

[18] Əlyazmada: *kitabı.*
[19] Əlyazmada: *on on.*

Altıncı bab: Həzrət İmam Həsənüŋ (ə) fəzayili: viladətindən şəhadətinədək;

Yedinci bab: Həzrət İmam Hüseynüŋ (ə) viladəti və əhvalı: doğduğindən şəhadətinədək;

Səkizinci bab: Müslim bin Əqilüŋ neçə uşağları ilən şəhid olduğinə;

Doquzuncı bab: Həzrət İmam Hüseynüŋ (ə) Kərbəlayə yetdügi və səvaş olduği və şəhadət bulduğinə;

Onuncı bab: Neçə vaqiələr ki, Əhli-Beytə vaqe oldı səvaşdan soŋra.

***

ƏVVƏLKİ BAB

NEÇƏ ƏNBİYANUŊ İBTİLALƏRİNDƏN
(əleyhumussəlatu vəs-səlam)

Nüxüst Əbül-Bəşər hekayəti

Rübaiyyə:
Toprağ ilə su o gün ki urdi bərhəm,
Adəm adına qıldı rəqəm mihnətü qəm.
Andan dəmi qayğudən dəgüldür xali
Kim, namzəd oldi qüssəyə ol dəm.

Həzə Adəmi-Səfi (ə) ədəm kətmindən vücud səhrasinə, yə'ni darlığa qədəm basmamış idi ki, firiştələr Adəmə tə'nə urdılar və anuŋ qan tökməginə və fəsad etməginə danuğluğ verdilər. Andan soŋra Əzrail Məliki-Cəlilüŋ buyruği ilən yerüŋ qamu əczasindən bir avuc toprağ götürüb nü'man qarnında tökdi. Taŋrı-təala bir arı bulut anuŋ üstində düzətdürdi və əylə müqərrər qıldı ki, qırq gün ol toprağə yağə və əsla bu müddətdə anuŋ üstindən kölgəsi götürməyə. Ol bulut Taŋrınuŋ hökmi ilən otuz doquz gün qayğu dəŋizindən [**6a**] su götürüb, ol toprağə yağdı şol qədr ki, ol toprağ qayğu suyi ilən balçıq oldı.

Beyt:
Adəmüŋ toprağı qayğu suyilə[20] *oldi xəmir,*
Andan ötrüdür orada mihnətü qəm caygir.

Qırqıncı gün şadiliğ dəŋizindən neçə qətrə ol balçıqə səpdi. Bəs, bu səbəbdəndür ki, Adəmüŋ qayğusi çoxdur və şadiliğ az.

[20] Əlyazmada: *su ilə*.

Beyt:
Var imiş bir hikmət əvvəl gündə Adəm halinə,
Şadiliğ az oldüğindən mihnətü qəm bişümar.

Həman ki Adəmüŋ cəsədinə ruhi üfürdilər, tə'zim içün mələklərüŋ qibləsi oldı və Həvva anayı sol qapurğasından yaradub aŋa yoldaş və munis eylədilər. Dərhal buyruğ gəldi ki, *"ya Adəm, uskun əntə və zovcukəl-cənnətə"*[21], yə'ni sakin ol sən xatunuŋ ilən uçmağdə və yeyiŋiz bu yemişlərdən hər yerdən ki, xatiriŋiz istər isə və hər yemək ki, köŋlüŋiz dilər olsa, geyiŋiz dürlü-dürlü geyəsi. Əmma bu ağacə yaxın olmaŋız ki, ol buğda ağacıdur firdövsüŋ ortasında ki, varı yemişlər anda cəm'dür və hər kim yēr idi, varı yəxşi və yaman bilür idi.

Pəs, Adəm və Həvva cənnətdə məqam dutdılar. Təlbislü İblis anlaruŋ əhvalinə və övqatinə günilədi və tavus ilə yılan vəsiləsi ilən uçmağə girdi və çoq al və məkrü hilə ortayə gətürüb, yalan andlar ilən Adəmi aldadı, ta ol ağacdan ki, aŋa mən' etmiş idilər, yedilər. Həman anı yeyincə bəla ləşkəri anlarə yüz qoydı. Adəm andan iləri uçmağuŋ sultanı idi: izzət tacı başında, kəramət **[6b]** hülləsi əgnində. Qilman ilə vildan qulluğində xidmətkar, rizvan ilə hurlar Həvva ananuŋ ögində pərəstar. Çün ol yemişdən yedilər, saətdə şərəf tacı başlarından düşdi və cənnət hüllələri əgnindən töküldi, çıpçıplağ qaldılar. Hər ağacə ki, yaxınlaşur idilər, ol ağac anlardan irağ olur idi. Adəm çıplağlığından xəcil olub, hər yanə qaçar idi və ağaclar ardına gizlənür idi. Taŋrıdan xitab gəldi: "*Əfirarən minna"*[22], yə'ni bizdən qaçarsən? Adəm cəvabə gəlüb dedi: "*Bəl həyaun minkə"*[23] – günahum utanduğından sərgərdan olubəm. Həzrətüŋdən necə qaçayım ki, Səndən qaçmaq mümkin olmaz.

Beyt:
Eşigüŋdə mənüm çoxdur günahum,
Vəli qapüŋdən özgə yoq pənahum.

---

[21] *Ey Adəm, sən zövcənlə cənnətdə qal.* (Quran, 7:19)

[22] *Bizdən qaçırsan?*

[23] *Sizdən həya etdiyim üçün.*

Aqibət, əncir yaprağı ilən cəsədini örtdi. Əmr oldı kim, uçmağdan çıq. Adəm Həvva ananuŋ əlini dutub uçmağ içindən dışxarı gəldilər.

Adəm dəmadəm ardına baxar idi kim, bulay kim, ol qayğu gecənüŋ bir səbahi və ol bağlu qapunuŋ bir kilidi və miftahi gözükə. Hiç tərəfdən murad yeli əsmədi. Çün Adəm cənnətdən çıxmaq istədi, "*Bismillahir-Rəhmanir-Rəhim*"[24] dilinə keçdi. Cəbrail dedi:

– Ya Adəm, böyük ad dilüŋə keçürdüŋ. Ümmidvar ol ki, qeyb məşriqindən nicat və xilas yulduzi dirəxşan ola.

Xitab gəldi ki, ey Cəbrail, qoy kim, getsün.

Cəbrail dedi:

– Ya Rəbb, Adəm Səni "*Bismillahir-Rəhmanir-Rəhim*" kəlməsi ilən oxudı. Nola əgər aŋa rəhmət eyləyüb suçini bağışlayasən?

Taŋrı-təala **[7a]** dedi kim, mənüm rəhmətüm az dəgül. Bağışlamağdan məlalət və pəşimanlığum yoxdur. Əmma əgər bu gün aŋa rəhmət edəyəm, bir adəmə rəhmət eyləmiş olam. Qatlan, ta daŋla ki Adəm cənnətə yüz qoya, miŋ-miŋ günahkarlar və suçlular və asilər fərzəndlərindən anuŋlən bilə olalar, qamusinə rəhmət edəyəm, ta mənüm rəhmətümnüŋ çoxlığı[25] aşkar olsun.

Çün "*əhbitu minha*"[26] sədası çıqdı, hökm oldı kim, cənnətdən dünyayə eniŋiz.

Ol saət Adəm Həvvanuŋ əlini dutub dedi:

– Gəl gedəlim ki, qayğu çağı və qəribliğ mihnəti ögümizə gəldi.

Rübaiyyə:

Gəl kim, gedəlim, imdi məşəqqət çağıdur,
İşrət dəmi keçdi, rəncü mihnət çağıdur.
Vəslində ikən çü qədrini bilməz idüŋ,
Ey göz, qan axıt bu gün ki, firqət çağıdur.

[24] *Mərhəmətli və bağışlayan Allahın adı ilə.*

[25] Əlyazmada: *çoxlığını*.

[26] *Oradan enin.* (Quran, 2: 38)

Həman ki Adəm ilən Həvva anası rəvanə oldılar, Cəbrail gəldi ki, ey Adəm, buyruğ bəylə olupdur ki, Həvvanı qoyub, anuŋ vəsli ətəgindən əlüŋi qısadəsən ki, hər biriŋiz bir tərəfə getmək gərəksiŋiz.

Bəs, Adəm Həvvadən ayrılub, hər biri bir yanə vardılar. Adəm ağlayub der idi: "*Va ğurbətah*"[27].

Və Həvva çığırurdı ki, "*va firqətah*"[28].

Firiştələr durub anlaruŋ əhvalinə baxub Adəmüŋ firqətinə və Həvvanuŋ izzətinə ağlar idilər və anlar bir-birini itürdilər: nə bu, anuŋ halından xəbərdar və nə ol bunuŋ qayğusindən vaqif. Və sahibi-əsrar Adəm Sərandib dağı üstinə düşdi və Həvva Hindustan dənizinüŋ qırağına kim, ol [**7b**] yerüŋ adı Ciddədür, endi.

Adəm (ə) iki yüz yıl Sərandib dağı üstində ağlar idi. İbn Əbbas dedi: "Hər qaçan ki Adəm uçmağı aŋar idi, ussı gedər idi, yoq uçmağ içün, bəlkə uçmağuŋ iyəsi üçün".

Cəbrail gəldi və əlini Adəmüŋ başına sürtdi və Taŋrıdan Cəbrailə əmr oldı ki, ey Cəbrail, Adəmüŋ müsahibi ol ki, ol ğəribdür. Həman ki Cəbrail getməgə əzm eylər idi, Adəm der idi:

– Ey Cəbrail, bir zəman dur ki, köŋlümüŋ qayğusini saŋa deyəyim və qüssənüŋ dəftərini saŋa oxuyayım. Bəs, hər qaçan ki Cəbrail Adəmuŋ gözi qarşusindən napeyda olur idi, Adəm əylə ağlar idi ki, həvadakı quşlaruŋ rəhmi aŋa gəlür idi. Və Adəm ol qədr ağlar idi ki, çaylar anuŋ gözi yaşından axar idi.

Beyt:
Ol gün ki gözümiz yüzüŋizdən cüda ola,
Göz incə yaş axə ki, cəhan cümləsi dola.

Və Həvva daxi Ciddə dəŋizinüŋ qırağında ağlayub, nalələr çəküb zarilik edər idi.

Bir gün Adəm Cəbraildən sordı ki, ey qərdaş, Həvva xandadur? Dedi:

[27] *Ah, qürbət (ayrılıq).*
[28] *Ah, ayrılıq.*

– Dəŋiz qırağında sənüŋ fəraqüŋdə ağlar və sənüŋ halüŋdən xəbərsizdür.

Adəmüŋ ussı getdi. Cəbrail anuŋ başını dizi usnə qoydı. Nagah ol huşsizliğdə gördi kim, Həvva dəŋiz qırağında oturub ağlar və der:

– "*Həbibi Adəm*"[29], yə'ni ey dustum Adəm vey munisüm və həmdəmüm Adəm, "*ə'cayiun əm əntə şə'banin*"[30], yə'ni ey Adəm, aya, acmısan, **[8a]** ya tox? "*Ənaimun əm yəqzan*"[31] – aya, uyurmısan, ya oyağ?

Adəm istər idi kim, cəvabını verə, bu halətdə oyandı və əfğan və xüruşə düşüb, Cəbrail dedi:

– Ya Adəm, saŋa nə oldı?

Adəm ötmiş vaqiələri aŋa dedi və əylə çığırdı ki, Cəbrail naləyə gəlüb dedi:

– İlahi, bu iki ğəribi-biçarələrə rəhm et.

Həzrətdən Cəbrailə xitab gəldi kim, Adəmə muştuluq ver kim, yaqın oldı kim, fəraq gecəsi tükənə və ümmid Ayı murad məşriqindən tülu eyləyə.

Beyt:
Daŋ nəsimi muştuluq verdi kim, keçdi qəm tüni,
Qayğulənmə, xürrəm ol, gəldi daxi işrət güni.

Pəs, Allah-təala öz kərəmindən Adəmüŋ tövbəsi qəbul etdi və üləmanuŋ bu babda sözləri çoxdur. Bir mühəqqiqi-arifdən nəqldür ki, Adəmüŋ tövbəsi qəbul olduği səbəbi üç nəsnə idi: biri – həya, ikincisi – ağlamağ, üçünci – dua. Əmma Adəmüŋ həyası ol qayətdə idi ki, çün gögdən yerə endi, üç yüz yıl başını yuxarı eyləməyüb gögə baxmadı şərmsarlığından. Və əmma ağlamağı ol həddə idi ki, Peyğambərümiz (s) nəql eyləyübdür ki, əgər bitün aləmüŋ ağladuği cəm' eyləyələr, Davud peyğambərüŋ ağladüği anlardan artuq ola. Və əgər Davud ilə cəmiyi-aləmüŋ ağlamağı Nuhuŋ ağladüğinə müqabil

[29] *Dostum Adəm.*

[30] *Acsan, ya toxsan?*

[31] *Yatmışsan, ya oyaqsan?*

eyləyələr, Nuhuŋ ağladuği anlardan artuq ola. Və əgər Davud və Nuhuŋ və bitün aləmüŋ ağlamağı yığsunlar, Adəmüŋ ağlamağı anlardan **[8b]** artuq. Və "Üyunür-Riza" kitabında ki [yazılupdur:[32]] Adəmüŋ gözi yaşı bir ulu seyl kimi rəvan idi və sağ gözindən Dəclə çayı kimi axar idi və sol gözindən Fərat çayı kimi.

Və rəvayətdür ki, Adəmüŋ[33] (ə) ol müddət ol qədr həsrət yağışı gözi bulutundan pəşimanlığ yerinə yağdı ki, mübarək yüzindən iki cuğur çay peyda oldı və anuŋ yaşından bulağlar axdı və uçan quşlar anuŋ gözi yaşından içər idilər və bir-birinə söylər idilər:

– Bu, nə yəxşi datlu sudur kim, biz hərgiz bəylə su hiç yerdən içməyübüz.

Və Adəm gümanlandı ki, quşlar bu söz əfsus və təˀnə yüzindən söylərlər. Bir savux ah dərdlü köŋlindən çıxarub dedi:

– Ya Taŋrı-təala, mənüm halum muŋa yetdi kim, uçan quşlar başümə məsxərəlik qılurlar. Axir suclularuŋ gözləri yaşı nə olacaqdur?

Xitab gəldi ki, ey Səfiyullah, köŋlüŋi incitmə ki, quşlar gərçək derlər. Biz hiç gövhər yəxşiraq və faidəlü niyazməndlərüŋ gözləri suyindən özgə yaratmayıbuz.

Şe'r:

Göz yaşıdur bəhalu bir gövhər,
Yüzlərüŋ suyi yaşıdur muni bil.
Ağlagil kim, saŋa dəgər assısi.
Durmayub tök yaşüŋi, ey aylə yıl.

Əmma duası ol idi ki, axirzəman Peyğambəri ə'ni Muhəmməd Rəsulullah (s) yüzi suyi bərəkətinə yapışub dedi:

– Ya Rəbb, Muhəmmədüŋ məhəbbətinə və ali-Məhəmmədüŋ həqqinə ki, mənüm tövbəmi qəbul eylə.

Allah-təala sordı ki, ya Adəm, sən Muhəmmədi necə tanıduŋ?

Dedi:

---

[32] Mötərizədəki söz farsca orijinala əsasən bərpa edilmişdir.

[33] Əlyazmada: *Adəm*.

– Ya Rəbb, ərşüŋ [**9a**] baldurinə anlaruŋ adlarını öz aduŋ ilə qərin eyləyüb gördüm. Dedim ki, yaradılmışlaruŋ seçməsi həzrət Allah-təalanuŋ yanında bunlar olacaqdurlar.

Pəs, çün Adəm həzrət Mustəfayı (s) öz suçinə şəfaətci eylədi, tövbəsi qəbul oldı.

Nəzm:
Muhəmməd çün şəfaətxahi oldı,
Muradi cümlə bir dilxahi oldı.
Əgərci Adəm andan ilərüdür.
Şəfaət çağında andan geridür.

***

Daxi Adəmüŋ qayğusi bir çağ idi ki, Qabil Habili öldürdi

Və anuŋ hekayəti bəylə idi ki, çün Adəm Həvva ilən söhbət eylər idi, hər qatla iki uşağ gətürdi: biri oğlan və birisi qız. İgirmi qatla Həvva boğaz oldı və qırq uşağ gətürdi. Və çün uşağları kamil və baliğ olur idilər, əvvəlki doğan qız soŋrakı oğlanə verür idilər və soŋrakı qız əvvəlki oğlanə. Və Adəmüŋ şəriəti zərurətən bu idi. Və ol qız ki, Qabil ilən bilə gəlmiş idi, İqlimiya adlu idi və bəqayət görkyüzlü idi və yüzi günəş kimi dirəxşan və saçı ipar kimi ənbərəfşan.

Beyt:
Bir yüz idi, nə yüz kim, bir gün idi dirəxşan,
Bir saç idi, nə saç kim, cayi-dili-pərişan.

Habilüŋ qarındaşı Əlyuza[34] adlu idi və iŋən cəmalsiz idi. Çün baliğliğ həddinə yetdilər, Adəm (ə) Habilüŋ qarındaşı Qabilə verdi və Qabilüŋ qızqarındaşı Habilə. Qabil[35] bu nikahlarə riza verməyüb dedi:

– Mənüm qarındaşum[36] gögcəkdür və ana qarnında bilə idük, ol **[9b]** maŋa layiq və övladur.

[34] Farsca orijinalda: *Ləyuza*.
[35] Əlyazmada: *Habilə.*
[36] Əlyazmada: *qarındaşumı.*

Adəm (ə) dedi:

– Taŋrınuŋ buyruği bəylə olupdur, munda mənüm hiç ixtiyarum yoxdur.

Misra:

Hökm anuŋdur, buyruğ anuŋ, biz anuŋ məhkumiüz.

Qabil munı qəbul etməyüb dedi:

– Sən Habili məndən artuğrağ sevərsən, andan ötrü gögcəgi aŋa verursən.

Adəm dedi:

– Əgər mənüm sözümi inanmazsən, hər biriŋiz bir qurban eyləŋiz ol nəstəyə ki, ələüŋizdən gəlür. Hər kimüŋ qurbanlığı qəbul olsun, İqlimiya anuŋ ola.

Habil qoyunlu idi. Bir simiz quzı ki, anı çox sevər idi, gətürdi və dağuŋ üstinə qoydı və niyyət qıldı ki, əgər mənüm qurbanluğum[37] qəbul olmaya, İqlimiyayı Qabilə müsəlləm edəyim.

Və Qabil əkinci idi, bir dəvtəm arux buğda gətürdi və həm ol yerdə qoydı və dedi:

– Əgər bu qurbani qəbul olsun, qarındaşum mənümdür, yox isə Habilə qoyayım.

Pəs, gögdən tütünsiz bir ot enüb quzını yedi və Qabilüŋ qurbanlığına dolaşmayub andan ötdi.

Qabilüŋ qəzəb odı şö'lə urub, həsudliğ tütüni bəsirət gözini qarardub, qərdaşınuŋ öldürdüginə bel bağladı və intiqam bususinə oturdı. Və fürsətə baxub intizar çəkər idi. Həman ki Adəm beytülməʾmuruŋ ziyarətinə əzm etdi, Qabil fürsət məcalı görüb qoyun üstinə vardı. Habili gördi yatur, bir daş götürdi və Habilüŋ başına urdı, əylə kim bəyni ağzına töküldi.

Beyt:

[10a] *Hiç qərdaş qərdaşın bisər qıla?*
Kafərəm, gər bəylə iş kafər qıla.

[37] Əlyazmada: *qurbanluğumı*.

Çün Habil öldi, Qabil bilməz idi ki, anuŋ ilən neyləyə. Pəs, anı bir nəstəyə çulğayub, arxasına çəküb yabanə yüz qoydı. Qırq [gün] hər tərəfə gezüb çarəsini bilməz idi. Andan soŋra bir qara qarğayı gördi kim, bir yerə qonub, minqarı ilən yeri qazub çuxur eylədi və bir ölü qarğayı orada tapşurub ustinə toprağ tökdi ol qədr ki, ol ölmiş qarğa[38] örtüldi. Qabilə ögüt olup, həm ol dəstur yeri qazdı və Habili orada qoyub üstini örtdi və qayıdub el içinə irdi.

Əmma çün Adəm hərəm ziyarətindən qayıtdı, uşağları anuŋ qarşusinə vardular, Adəm nə qədr ki baxdı, Habili görmədi. Və Adəm anı çox sevər idi kim, ol bir yigit idi görkyüzlü və saçları qəra qarğa iləgi kimi və Adəmüŋ fərzəndlərindən hüsnü cəmal ilən yegrak idi.

Beyt:
Ey ay yüzi bu surətü mə'ni ki, səndədür,
Divar surəti kimidür hur ilə pəri.

Həzə Şis (ə) anadan doğmamış idi. Və həzrət Peyğambərdən rəvayətdür ki, Adəmi-Səfinüŋ uşağlarından Şis (ə) görkrak idi, andan ötrü ki, Muhəmmədüŋ nuri anuŋ alnından zahir idi.

Əmma çün Adəm Habili görmədi, anuŋ bulmağında cəhd etdi. Hər kimsədən ki, sorar idi, hiç nişan [**10b**] verməz idilər və der idilər ki, bir neçə gün var ki, ol görünməz olupdur. Bilməzüz kim, nərəyə gedüpdür, nə işə məşğul olupdur. Adəm yedi gün və yedi gecə dağlar ilən yazıyı gəzüb anı bulmağdə idi və çoq cəhdlər edüb, dili bu beytlərə mütərənnim oldı.

Nəzm:
Ey oğul, gecəm qəradur, səndən ayru,nedəyim,
Sənsizin basdı məni rənc ilə qayğu, nedəyim?
Daŋ yeli hərgiz yanüŋdən əsmədi maŋa nədən?
Yoxdurur səndən yıraq gözümdə uyxu, nedəyim?

[38] Əlyazmada: *qarğayı*.

Səkizinci gecə düşdə gördi kim, Habil bir yerdə durub söylər: "*Ya əbətah, əl-ğiyas*"[39], yə'ni, ey ata, fəryadümə yet. Adəm ol düşüŋ həvlindən oyanub və xüruşə gəlüb ussı getdi. Çün özinə gəldi, Cəbraili gördi kim, başı üstində oturubdur. Adəm dedi:

– Ey qərdaş, Habilüŋ əhvalindən nə xəbərüŋ var ki, mən imdi anı düşdə gördüm, məzlumlar kimi maŋa yalvarur idi?

Cəbrail dedi:

– Ya Adəm, həzrət Taŋrı-təala buyurdı ki, "*əzəmə əcrukə*"[40], yə'ni böyük olsun sənüŋ səvabuŋ bu müsibətdə. Mə'lum et ki, Qabil Habili öldürdi və ol ol halətdə çığırurdı və "*əl-ğiyas*"[41] çağırurdı və hiç kimsə anuŋ fəryadinə yetmədi. İmdi həm ol çığırmağdur ki, yer altından zahir olur və daŋla Qiyamət güni daxi bəylə çığırə-çığırə Məhşərə gələcəkdür.

Adəm munı eşidincə fəryad ilə ağlamağə **[11a]** düşüb dedi:

– Ey qərdaş, anuŋ toprağı maŋa görsət.

Cəbrail Adəmi Habilüŋ gorı üstinə apardı. Adəm anuŋ üstindən toprağı gidərüb Habili gördi, başı yarəlü, gəvdəsi qanə bulaşmış. Mübarək yüzini anuŋ yüzinə sürtdi və dedi:

– "*Va həsrətah va kurbətah va ğurbətah*".[42]

Şe'r:

Dəriğ ol qamət ilə gözü qaşdən,
Dəriğ ol pəhləvani boyü başdən.
Əyağdən başədək zibavü mövzun,
Yatupdur imdi qəbr içində pürxun.

Adəm ol qədr ağladı kim, yedi gögüŋ bəgləri ağlamağə düşdilər və dedilər:

– Ya Rəbb, Adəm neçə gün ağlamağdan əpsəm olmışdı, daxi yeŋidən fəğan ilə ahü naləyə düşüpdür və bizim taqətimiz anuŋ ağladüğindən taq oldı.

---

[39] *Ey ata, kömək et!*

[40] *Əcrin (mükafatın) çox olsun.*

[41] *Kömək et*.

[42] *Vay həsrət, vay qəm-qüssə, vay qürbət.*

Həzrətdən xitab gəldi ki, ey Adəm, səbr et bu müsibətdə ki, səbr eyləyənlərüŋ səvabı çoxdur və biz hökm etdük ki, damunuŋ əzabı yarısı Qabilüŋ ola.

Və ariflərdən eşitmişəm ki, qamu islam əhli müttəfiqdürlər ki, həzrət Muhəmməd Rəsulullah Adəmi-Səfidən (əleyhumussəlam) ə`larak və əfzəlrakdur. Hər qaçan ki Adəmüŋ oğlı Qabil Habilüŋ öldürdügindən ötrü damunuŋ yaru əzabı anuŋ içün müqərrər olmış ola, aya Mustəfa və Murtəzanuŋ (ə.m) cigərguşəsi öldürənüŋ halı nə ola?!

Və "Səhifeyi-Rizəviyyə"nüŋ əhadisində kim, ol həzrət sultani-Xorasan Əli bin Musa ər-Riza **[11b]** əleyhittəhiyyə vəs-sənadən rəvayətdür və ol həzrət ulu atalarından nəql eyləyübdür. Yazılıdur kim, İmam Hüseynüŋ (ə) öldüräni bir ulu sənduqdədür və əli-əyağı odlu zəncirinə bağlu və andan bir yaman iy gəlür ki, damu əhli ol iydən Taŋrıyə pənah aparurlar. Və necə bəylə olmaya bir zalimüŋ səzası ki, ağu su ilə verilmiş qılıcı İmam Hüseynüŋ (ə) susiz boğazına qoya? Və bir boğaz ki, həzrət Mustəfa (s) öpmiş ola, kin xəncəri ilə azürdə qıla.

Və "Kənzül-ğəraib" kitabında gətürübdürlar ki, bir gün həzrət Fatimeyi-Zəhra şahzadələr içün (ə.m) nimtənələr tikmiş idi və anlarə geydürüb həzrət Risalətə (əleyhissəlatu vəs-səlam) göndərdi. Çün şahzadələr ol həzrətə yetdilər, anları qucağlayub gördi kim, İmam Hüseynüŋ yəqəsi dardur və boğazına zəhmət verur. Filhal tükməsin açdı, baxdı kim, yəqənüŋ darlığından boğazınuŋ çəvrəsində bir xətt gözükür. Ol həzrətüŋ köŋlinə ağır gəldi. Filhal həzrət Cəbrail hazir olub dedi:

– Ey Seyyid, bu qədr xətdən köŋlüŋ pərişan oldı. Bir gün ola kim, xəncər zərbəsi ilən həm bu yeri kəsilmiş ola və mübarək başı gəvdəsindən ayru düşmiş.

Bu sözdən Xaceyi-aləm (s) ağlamağə düşdi. Və necə kimsənüŋ gözi bu müsibətdən ağlamayə və köŋli bu yasdə yanmayə?!

[12a] ***Nəzm***:

Görmədi mundan bətərrak dünyadə kimsə bəla,
Cümlə yaslardan qatıdur yə'si-Şahi-Kərbəla.
Ta susizliğdən Nəbinüŋ bağı soldı gülləri,

Bustani-din içində qalmadı bərgü nəva.
Ənbiyavü övliyanuŋ ibtilalar çoxdurur,
Leyk aləmdə munuŋtək yoxdurur hiç ibtila.
Gög nədən ağlamasun bu yasdə kanuŋ dəvridə,
Kərbəlanuŋ qissəsitək görmədi daxi əza.
Ağladuŋiz, ey yerü gög, gözüŋiz bu yasdə,
Ta müvafiq olasız ba-xaceyi-hər du səra.

***

Və ənbiya cümləsindən Nuhuŋ (ə) qissəsidür

kim, doquz yüz əlli yıl qəvm cəfasını çəkdi və ağulu şərbət mihnət cür'əsindən içdi və bir nəfəs Taŋrınuŋ risalətini yetürməkdən əpsəm olmadı və bir ləhzə Həqqüŋ dəʿvətini etməkdən inan döndərmədi. Və rəvayətdür ki, üç qərn xəlqi Taŋrıyə dəʿvət etdi və hər bir qərnüŋ xəlqi üç yüz yıl aləmdə durdılar. Çün anlaruŋ əcəli yaxınlaşur idi və dünyadən gedər idilər, anlaruŋ fərzəndlərini Taŋrıyə oxur idi. Və Həqq-təala Nuhə bir ün vermiş idi kim, hər qaçan ki dəʿvəti bünyad eylər idi və hər kim anuŋ ümməti idi, anuŋ üni eşidür idi və həm xəlvətdə anlarə ögüt verür idi və həm el içində məlamət edər idi. Anlar anuŋ sözlərini qəbul etməyüb, aŋa daşlar atar idilər və qaburğaları sındurur idilər. Və gah-gah bəylə olur idi ki, ol qədr [**12b**] daş aŋa urar idilər kim, daşlar altında qalur idi və qəvm der idilər kim, ol öldi və xatirləri cəm' olur idi. Gecə Cəbrail (ə) gəlüb daşlar anuŋ üstindən götürür idi və öz qanatını aŋa sürtüb, yaraları bitün və dürüst olur idi. Və daŋlası gənə qəvmi içinə girüb der idi: "*Qulu lailahəilləllah-tuflihu*"[43], yə'ni söyləŋiz "*lailahəilləllah*"[44], ta nicat tapıp rəstgar oləsiz. Gənə ol daşyürəklülər cəfa əli aŋa uzadub, incitmək oqı inkar yayına qoyub, ol səbur peyğambərə [daşlar] atar idilər və ol həzrət qəza oqına riza qədəmi ilən qarşulayub, səbr qalxanı yüzinə çəküb bəlalar meydanində

[43] "*Allahdan başqa məbud (ibadət edilən) yoxdur", - deyin, nicat tapın. (*hədis*)*
[44] *Allahdan başqa məbud yoxdur.*

təslim zirehi geyər idi, çe yəqin ilə bilür idi kim, bəla ətanuŋ eynidür və andan ötrü dustlarına həvalə eylər. Və rahət və neʾmət qəflət səbəbidür, anuŋ içün düşmənlərinə göndərür.

Beyt:
Dustliğ yeŋinə ol əldür girən
Kim, cəhanuŋ neʾmətindəndür irağ.

Rəvayətdür kim, atalar öz uşağlarını çiginlərinə götürüb, Nuh yanına (ə) gəlüb, uşağlarına görsədüb der idilər:

– Ey oğullar, bu kişi dəlüdür. Hazir oluŋız kim, hərgiz munuŋ sözlərinə aldanmayasız və kəlamını eşitməyüb, e'timad etməyəsiz ki, bu kişinüŋ sözi tav dəgül və bizim atamız muŋa cəfalar **[13a]** edər idilər və biz həm anı xarü zar dutaruz. Siz həm bu təriq ilən munuŋ ilə əməl eyləmək gərəksiz, mütləqa sözlərinə qulaq asmayasız.

Bir gün bir kişi öz oğlını kəndü çigininə alub Nuh yanına gəldi və bu vəsiyyətlər qıldı. Oğlan dedi:

– Ey ata, vəqt ola kim, andan ilərü kim bu vəsiyyətləri yerinə yetürəm, əcəl maŋa yoluxub, məni gidərə və anuŋ incitməgindən məhrum qalam. Məni çiginiŋdən endür, ta bir neçə daş anuŋ qaburğasına yeturəyim.

Ata oğlını yerə qoydı. Oğlan bir daş götürüb Nuhə urdı əylə kim, mübarək başını sındurdı və qan yüzinə axıtdurdı. Nuh ol qanı yüzindən arıdub dedi: *"Rəbbəhu ənni məğlubun fəntəsir"*[45], yə'ni, ey Pərvərdigar, mən bəylə qəvmə məğlub və aciz qalubəm və düşmənlərüŋ çəngalinə giriftar olubəm. Yariliğ eylə və məni buləgör.

Misra:
Rəhm eylə, ey Rəhim ki, rəhmət çağıdurur.

Bu vaqiədən soŋra Taŋrıdan əmr oldı kim, ya Nuh, gəmi düzət. Pəs, Nuh bir gəmi düzətdi və öz əhlini gəmiyə girdürdi. Və tufan və əzab zahir olub, aləm əhli varı həlak oldılar. Və altı ay ol gəmi dəŋiz üstində qaldı və varı yerüŋ üstində təvaf eylədi.

[45] *Allahım, məğlub oldum, mənə kömək et.* (Quran,54:10)

Və "Kənzül-ğəraib"də yazıludur ki, Nuh gəmisi su üstində aləmüŋ ətrafinə gəzər idi. Həman ki Kərbəla yeri üstinə yetdi, gəmi yeriməkdən durdı. Nuh münacat eyləyüb dedi:

– Ya Rəbb, bu nə yerdür [**13b**] və gəminüŋ burada durdugi hikmət nədür?

Xitab gəldi ki, bu yer bir yerdür ki, *"məsələ Əhli-Beyti kə-məsəli səfinəti Nuhun"*[46] gəmisi burada qan girdabında qərğə olacaqdur.

Və rəvayətdür ki, çün İmam Hüseyn (ə) Mədinədən çıxub Kufəyə əzm etdi, anuŋ bir qızı var idi yedi yaşında və sayrulıq səbəbi ki, ol qızuŋ var idi, biləsincə aparamazdı və Ümmül-mö'minin, yə'ni Ümmü Sələmənüŋ evində qoydı. Və ol qız evdə olurdı və həmişə atasınuŋ halını sorub təfəhhüs qılurdı. Əmma ol saət ki, şahzadəni şəhid etdilər, bir qarğa gəldi və qanatı yeyləgi İmam Hüseynüŋ qanına bulaşdurub Mədinə saruyə getdi və Ümmü Sələmənüŋ evi divarı üstində oturdı. Və qəzadən İmam Hüseynüŋ (ə) qızı evdən bağçayə çıxdı, ol qarğayı qanə bulaşmış qanatların gördi. Dərhal əl urub, başından ismət miˀcəri götürüb yerə urdı və dedi: "*Va əbətah va Huseyniyah va ummətiyah* "[47].

Hücrələrüŋ xatunları çıxub anuŋ yanına cəm' oldılar və sordılar:

– Ey qız, saŋa nə oldı və bu çığırmağuŋ səbəbi nədür?

İmam Hüseynüŋ (ə) qızı ol quşə işarət eyləyüb dedi:

– Bu qanə bulaşmış qarğayə baxuŋız. Qarğa Nuh gəmisinüŋ xəbər vericisi idi. İmdi burada Əhli-Beytüŋ gəmisini xəbər verür və bəylə məˀlum olur ki, *"məsələ-Əhli-Beyti* **[14a]** *kə-məsəli*[48] *səfinəti Nuhun"* gəmisi bu gün qan ğərqabında ğərq olubdur.

Əhli-Beyt müxəddəratından fəryadü fəğan çıxdı. Ümmü Sələməyə xəbər yetdi, yerindən qalxub ol qızuŋ yanına gəldi, aŋa təsəlli və təskin verür idi və der idi:

---

[46] *Əhli-Beytimin [vəziyyəti] Nuhun gəmisinə bənzəyir.*

[47] *Vay ata, vay Hüseyn, vay ümmət.*

[48] Əlyazmada bu söz həm 13b vərəqinin sonunda, həm də sonrakı vərəqin (14a) əvvəlində təkrar yazılmışdır.

– Ey qız, bu vaqiədən ki, xəbər verürsən, mənüm yanümdə bir nişanəsi var: Kərbəla toprağından bir cüzvicə maŋa nişanə verübdürlər və şişədə saxlamışam. Və büzürgvar cəddüŋ (s) buyurubdur ki, hər qaçan ki fərzəndüm Hüseynüŋ (ə) qanını Kərbəla toprağında tökələr, ol toprağ qan rənginə dönər.

Və bu qəvldə üləmanuŋ ixtilafı var. Qazı İyaz "Şifa" kitabında yazubdur ki, həzrət Peyğambər (s) xəbər verdi İmam Hüseynüŋ (ə) şəhid olduği Təffdə və Kərbəla yeri Təff[49] adı ilən məşhurdur və mübarək əli ilən bir toprağ çıxardı və buyurdı: *"Fihi məzcə'əti"*[50], yə'ni İmam Hüseynüŋ (ə) yatışı yeri bu toprağda olacaqdur. Yafei "Miratül-cinan" kitabında nəql eylər ki, bir mələk ki yelə müvəkkildür[51], Mustəfanuŋ (s) hücrəsi eşiginə gəlüb girməgə dəstur dilədi. Seyyidialəm (s) aŋa rüxsət verdi, Ümmü Sələməyə əmr etdi ki, evüŋ qapusı bağla, ta kimsə evə girməsün.

Ümmü Sələmə qalxdı kim, qapuyi bağlaya, İmam Hüseyn (ə) yetdi və hücrəyə girmək istər idi. Ümmü Sələmə anı girməkdən [**14b**] mən' etdi. İmam Hüseyn (ə) özini cəhd ilə hücrəyə girdürdi və büzürgvar cəddi yanına gəlüb, əlini ol həzrətüŋ boynına çulğayıb, çigninə və boynına yuxaru gedüb aşağəyə enər idi. Yelə müvəkkil mələk dedi:

– Ya Rəsulullah, bu oğlanı sevərsən?

Peyğambər buyurdı:

– Bəli, anı sevərəm.

Ol mələk dedi:

– Ey Seyyid, tez ola kim, ümmətüŋ munı şəhid eyləyələr və şəhadət şərbətini içürələr. Və əgər istərsən ol yeri ki, anı orada şəhid eyləyəcəkdürlər, saŋa görsədəyim.

Pəs əlin uzadub bir avuc qızıl toprağ ol həzrətə görsətdi. Ümmü Sələmə ol toprağı şişəyə qoyub saxladı. Çün İmam Hüseynüŋ şəhadəti vaqe oldı və mütəhhər qanını ol toprağ üstinə tökdilər, ol toprağ ol şişədə qanə döndi.

---

[49] Farsca orijinalda: *Təftəf*.

[50] *Onun dəfn yeridir*.

[51] Əlyazmada: *müvəkkil*.

Və "Şəvahidün-nübüvvə" kitabında gətürübtürlər ki, Ümmü Sələmə dedi: "Bir gecə həzrət Rəsulullah mənüm evimdə idi. Nagah çıqdı, bir bəxşi saətdən soŋra qayıtdı, saçları tozlu və pərişan və əlində bir nəstə. Dedim: Ya Rəsulullah, bu nə halətdür ki, səndə gördüm? Buyurdı kim, bu gecə məni bir yerə apardılar İraqdən kim, ol yerüŋ adı Kərbəladur. Və İmam Hüseynüŋ[52] neçə fərzəndlərüm ilə şəhid olduğı yeri maŋa görsətdilər və mən anlaruŋ qanlarını götürdüm, budur əlümdə. Pəs mübarək avucunı açdı və dedi: Munı al və saxla. Mən anı götürdüm, bir qızıl toprağ idi, şişədə qoydum və anuŋ başını bərk etdüm. Çün İmam [**15a**] Hüseyn[53] (ə) İraq tərəfinə rəvan oldı, mən ol şişəni hər gün çıxarub baxər idüm və ağlamağə düşər idim. Mühərrəm ayınuŋ onuncı gündə ol şişəyə baxdum, ol toprağ qan olmış gördüm və bildüm ki, anı şəhid eyləyübdürlər".

Əvvəlki nəql eyləyən der ki, çün İmam Hüseynüŋ (ə) qızı iztirabdə gördi, Ümmü Sələmə ol şişənüŋ üstinə varub baxdı kim, ol toprağ qan olubdur. Əhli-Beytdən xüruş çıxdı. İmam Hüseyn əleyhissəlamuŋ qızı çığırub der idi:

– Ya əbətah, məni ğərib və yalğuz qoyduŋ və fəraq əli ilən müsibət ələmi turğuzduŋ.

Beyt:

Aləm xərab oldi, Hüseyna, nə haldur,
Kimdi[54] *nəsibi-ali-Muhəmməd məlaldur.*
Ey çərx Ayı, məğribə bat, daxi doğma kim,
Dinüŋ günəşi batdivü vəqti-zəvaldur.
Andan qərarsız olubəm mən ki, Kərbəla
Beyt əhli içün ol yeri beytül- vəbaldur.
Peyğambər ali-beyti ilə məkr qıldılar.
Tilkülərüŋ həmişə işi məkrü aldur.

***

[52] Əlyazmada: *İmam Hüseyni.*
[53] Əlyazmada: *İmam Hüseyni.*
[54] *Ki imdi.*

Andan soŋra İbrahim Xəlil sələvatüllahir-rəhman

neçə türlü bəlalardə mübtəla oldı, andan kim, adı Xəlil qoydı və Xəlilüŋ məˀnisi dustdur. Bu karxanədə məhəbbət şuri mihnətsiz olmaz. Həqq-sübhanəhü və təala hər qaçan ki bir bəndəni bir bəlayə müşərrəf eyləyə, anı öz nəzərinə inayət mənzuri eyləsün, ta bəla çəkməkdə və mihnət yükini götürməkdə əylə xoşdil olur ki, özgələr neˀmət və rahətdə.

[15b] Ariflərdən birisin söyləmiş ki, *"nəhnu nəfrəh bil-bəla"*[55], yəni biz xürrəm və fərəhlü oluruz bəlayə. *"Kəma yəfrəhu əhlud-dunya bin-nəəm"*[56], yə'ni əylə ki dünya əhli ne'mət ilən necə xoşdil olurlar, zira kim bəla bir seyqəldür ki, könül güzgüsi həva və həvəs pasından arıdur və mihnət bir cövhəri-darudur ki, bəsirət gözi anuŋ ilə aydın olur ol qayətdə kim, dürlü-dürlü mihnətə mübtəla olan arif həzrət Taŋrı-təala cəmalı müayinə görür və yəqin bilür ki, ol mihnət və bəlalar qamu Andandur və hər nəstə kim, dustdan gəlür, qamu ziba və yəxşidür.

Nəzm:
Dəgüldür bibəla eşqüŋ təriqi,
Bilür hər kimdə var eşqi-həqiqi.
Dəgərsə caninə yüz türlü mihnət,
Anı rahət bilür ol, bəlkə minnət.

Və həzrət İbrahim Xəlilüŋ ibtilalərindən birisi oldur kim, anı odə saldılar. Və rəvayətdür ki, çün Nəmruduŋ odı şö`lə urdı və İbrahimi məncənəqə qoydılar odə salmağə, firiştələrdən fəğan qopdı və gög ilən yer və uçən ilə yeriyən ağlamağə düşdilər və ərşi götürücilər və kürsi üstində oturucılar firiştələr ağlamağ bünyad etdilər. Mələklər dedilər:

– Bari-Xudaya, Şərqdən Qərbədəkin həman bu, bir adəmidür ki, Səni pərəstiş eylər və birligüŋə iqrar edər. İmdi istərlər ki, anı daxi odə salalar. Bizə rüxsət ver, ta aŋa mədəd eyləyəüz.

---

[55] *Biz bəlaya görə sevinirik.*

[56] *Dünya əhli bu dünyadakı nemətlərə sevindiyi kimi.*

Xitab gəldi kim, anuŋ yaqınına varuŋ. Əgər sizdən [**16a**] mədəd istəyə, aŋa yardım oluŋ. Pəs əvvəl yel saxlayıcı mələk İbrahimə gəldi və səlam verdi. İbrahim sordı kim, sən kimsən ki, biçarələrə səlam verürsən? Dedi:

– Mən bir mələkəm ki, yellər mənüm fərmanümdədürlər. Gəlmişəm saŋa mədəd eyləməğə. Əgər buyruğuŋ olsa, əmr edəyim, ta varı oduŋ kömürləri götürüb, nəmrudlarnuŋ evlərinə atsunlar və anlaruŋ gəvdələri və ev imarəti və yəraqı varı od ilə yandursunlar.

İbrahim (ə) dedi:

– Bu halətdə istəmənəm ki, Allah-təaladan özgə kimsəyə pənah aparayım.

Andan soŋra bulutlar saxlayıcı mələk gəldi və dedi:

– Ey Xəlil, qamu bulutlar mənüm fərmanümdədürlər. Əgər əmrüŋ olsa, hökm edəyim, ta ol qədr yağış bu odlarə yağsunlar kim, oddan əsər qalmasun.

İbrahim dedi:

– İşümi Taŋrıyə qoyubəm.

Andan soŋra dağları saxlayan mələk gəlüb dedi:

– Ey millətüŋ atası və dustluğ iyəsi, hökm et, ta Babil dağlarını nəmrudilərüŋ başlarına endürəyim və qamusini ulu dağlar altında naçiz edəyim.

İbrahim dedi:

– İstəmənəm ki, Taŋrıdan özgə kimsə mənüm işümdə dəxl eyləyə.

Və daxi bir mələki ilərü gəldi və dedi:

– Ey Taŋrınuŋ Xəlili, bitün yer mənüm hökmümdədür, icazət ver, ta yerə deyim, ta təmami-nəmrudiləri gömdürsün.

İbrahim dedi:

– Məni həbibüm ilən [qoyuŋ], ta hər nəstə ki xatiri dilər, mənüm ilən eyləsün.

Beyt:

[16b] *Öz işümni qoymişəm mən Taŋrıyə,*
Öldürürsə vər qoyarsa, ol bilur.

Bulardan soŋra Cəbrail (ə) gəldi ol saətdə ki, İbrahim məncəniqdən ayrıldı və odə yaqın oldı. Cəbrail bir nəʾrə urub dedi:

– Ey Xəlil, *"həl ləkə min hacəti"*[57], yə'ni məndən hiç hacətüŋ var?

İbrahim dedi:

– *"Əmma ileykə fəla"*[58] – hacətüm var, əmma yoq saŋa.

Cəbrail dedi:

– Ol kimsədən ki hacətüŋ var, istə.

Cəvab verdi kim, *"əllimuhu bihali, həsbiyə min suali"* [59] – çün mənüm halüm bilür, istəmək nədən olur?

[Beyt:]

Hacətüm çoxdur, vəli dilüm istəməgə,
Çün vericidür Kərim, andan nə hacət istəyək?

Rəvayətdür ki, çün Cəbrail aŋa dedi nişün ol kimsədən ki, hacətüŋ var, diləməzsən, İbrahim dedi:

– Çün dust məni yandürmək istər, dirilmək rəva dəgül.

Həm ol saət xitab gəldi ki, çün dust dustuŋ muradın istər, anı yandurmək səza dəgül.

Və bəzi deyübdürlar ki, İbrahim Cəbrailüŋ cəvabında dedi ki, mənüm hiç hacətüm yoxdur və nəfsnüŋ hiç hekayəti qalmayubdur və Nəmruduŋ odından hiç şikayət yoxdur və iradət anuŋ iradətüdür: *"Yəf'əlullahu ma-yəşau [bi-qudrətih]*[60] *və yəhkumu ma-yurid"*.[61]

Taŋrı-təaladən xitab gəldi ki, ey od, çün Xəlil öz təbiətindən keçdi, sən daxi öz təb'üŋdən ki, ol yandürməkdür, çıq: *"Ya naru kuni bərdən və səlamən* [**17a**] *əla İbrahim"*[62], yə'ni, ey od, İbrahimə savux və səlamət ol. Hər kim dust bəlasində təslim və riza təriqinə gələ, əlbəttə, məhəbbət kürəsindən xalis və arı çıxa.

---

[57] *Bir istəyin varmı?*

[58] *Var, ancaq səndən yox.*

[59] *Halımdan xəbərdardır, istəməyə ehtiyac yoxdur.* (hədis)

[60] Mötərizədəki söz əlyazmada yoxdur.

[61] *Allah istədiyini qüdrəti ilə edər və istədiyinə öz böyüklüyü ilə hökm edər.* (hədis)

[62] *Ey od (atəş)!İbrahimə qarşı sərin və zərərsiz ol!* (Quran, 21: 69)

Şe'r:
Xəncərindən dustuŋ hər kim özin qurban edə,
Şəkk dəgüldür kim, başindən əyağədək can edə.
Od içində kim ki, sidq ilən qədəm qoydi isə,
Ol yanan odi özinə bağ ilə bustan edə.

***

Andan soŋra İsmailüŋ qurban olduğidür

Əylə ki Qur'anda xəbər verür: "*İnnə haza lə-huvəl-bəlaul-mubin*"[63] – bu, bir bəla idi zahir, ta bu yoluŋ mühibləri və bu dərgahuŋ müqərrəbləri bilələr ki, hər kim məhəbbət də'visin edər, ta cahü cəlalını tərk etməz, bər-həm yetməz.

Beyt:
Qan rəvandur mülkümizdə daima,
Cürʾələr qandən dolu sübhü məsa.

Rəvayətdür ki, İsmail (ə) bir gün avdan qayıtmış idi. Yüzinə toz qonmış və günəşüŋ issiliğindən saçları pərişan olmuş idi və həzrət Xəlil anuŋ yolı üstində durmış idi. Çün gözi İsmailə yetdi bir rüxsar gördi gül kibi açılmış və bir izar gördi iki həftəlik qəmər kibi görklik məşriqindən çıxmış. Atalik mehri hərəkətə gəlüb, İbrahimüŋ köŋli sevindi. Taŋrınuŋ qeyrəti məhəbbət silsiləsi təprətməgə gəldi.

Misra:
Çün məhəbbət gəldi, əsbabi-fəraq oldi təmam.

Həman ki gecə oldi, İbrahim adətincə ibadət və taət şərti əda qılub, [**17b]** istirahət yastuğinə baş qoyub, düşdə gördi kim, anuŋ başına xitab etdilər ki, ey Xəlil, məhəbbətimizüŋ dəʾvisin eylərsən və oğluŋ məhəbbəti köŋlündə yer verürsən.

[63] *Şübhəsiz ki, bu, açıq-aşkar bir imtahan idi.* (Quran, 37: 106)

Beyt:
Məndən özgə kimsəyə baxə mühibb,
Qeyrət odi kainati yandurə.

Ey Xəlil, əgər vüsalimizüŋ susizisən, əyağə qalxub əziz fərzəndüŋ boğazı arxını xəncər suyi ilən qanə ğərq et.

İbrahim bu düşüŋ heybətindən oyanub İsmailüŋ anasına – Hacərə dedi:

– Qalx və İsmailə yəxşi don geydür və başdan əyağinədək bezət ki, anı bir dustuŋ qonağına aparuram.

Hacər yeŋi don oğlına geydürdi və yüzi ilən saçlarını yuyub darağladı və dedi:

– Ey ananuŋ canı, bilməzəm ki, ataŋ səni hanğı məclisə aparəcəkdür, əmma sənüŋ saçüŋdən fəraq iyi eşidürəm və məʾlumum dəgül ki, səni nərəyə aparur, vəli biryan könlümi kəbab olmış bağırınuŋ xunabı görərəm.

Şe'r:
Getmə gözümdən, nigara, bir nəfəs qatlan, otur,
Dil sənüŋdür, olmagil hiç özgəyə mehman, otur.
Getməgə əzm eylədüŋ, canum vida etdi cəsəd ,
Ta tənümdə baqidür can, getməgil, ey can, otur.

İbrahim Hacərə dedi:

– Bir iti bıçaq ilən bir bərk ipi gətür, ta bilə götürəyim.

Hacər dedi:

– Ey İbrahim, qonağlığ məhəbbət ilən ulaşmaq səbəbidür və bıçaq hicran ilə ayrılmək aləti. Xəyalümdə bu keçər kim, bunları aparməkdə, əlbəttə, bir hikmət var.

[18a] İbrahim buyurdı kim, bulay kim, yolda, ya mənzildə bir qurban etməlü oləüz və bıçaq ilə ipsiz müşkildür.

Pəs Xəlil və İsmail Hacəri vida edüb evdən çıxdılar. Təlbislü İblis xəbərdar olub özinə dedi: Çağıdur kim, bir məkr edəyim ki, Xəliliüŋ evini bünyaddən yıxayım. Pəs, özinə dedi: Dişilərüŋ masıkəsi azdur və analaruŋ könli uşağlarə müşfiqraqdur. Əvvəl aŋa vəsvəsə

edəyim, bulay kim, anı yoldan azdurayım. Bəs, surəti bir qarı kimi düzədüb Hacərə gəldi və dedi:

– Ey Hacər, hiç bilürsən ki, Xəlil İsmaili nərəyə aparəcəkdür?

Dedi:

– Bir dustuŋ qonağlığına aparur.

İblis dedi:

– Ey qafil, anı öldürməgə aparur.

Hacər dedi:

– Ey xərif olmış qarı, əcəb əgər sən İblis dəgülsən. Xəlil kimi bir ata və İsmail kipi bir oğul necə köŋlindən gələ ki, ömri budağınuŋ yemişi ki, xüllət bağınuŋ novbavəsi və millət bustanınuŋ güldəstəsi ola, həlak toprağına sala?

Dedi:

– Ey Hacər, İbrahimüŋ müddəası oldur ki, düşdə həzrət İzzət aŋa demiş ki, mənüm yolümdə dilbənd fərzəndüŋ qurban et və riza yüzindən bu fərmanı yerinə yetür.

Hacər dedi:

– Xəlil yalan deməz və çün Taŋrınuŋ buyruği bəylə sadir olmış ola, Hacər ilə İsmailüŋ miŋ canı Allah-təalanuŋ həzrətinə fəda olsun.

Beyt:

Var bizdə bir can, ol daxi Cananəyə[64] *olsun fəda,*
Hər nəstə kim buyruğidür, biz vermişüz aŋa riza.

İblis Hacərdən naümid olub [**18b]** Xəlil yanına gəldi və dedi:

– Ey İbrahim, yüz miŋ müqəddəs canları İsmailüŋ qaşı yayına qurban olsun. Sən istərsən ki, anı qanə bulaşdurub toprağə saləsən və bu nübüvvət çırağununŋ taban şəmʾi və fütüvvət əhlinüŋ aydın gözi ki, miŋ ruhi-mütəhhər cəmalinə pərvanədürlər, bıcaq ilən başını götürəsən. Bu işdə bir təəmmül eylə və bu babda bir fikr et.

Beyt:

Bağban, gər sərviŋizdən dil götürdüŋ, fikr qıl
Kim, pəşiman olacağsən soŋrəvü yox çarəsi.

---

[64] Təsəvvüfdə: Allah.

İbrahim (ə) bildi kim, bu söz şeytanuŋ kəlamıdur, "*əuzu billahi min əş-şeytanir-rəcim*"[65], – dedi. İblis ol *"əuzu"*dən inciməyüb dedi:

– Ey İbrahim, ol düşi ki, görmişsən, şeytanlığ düşdür, yoxsa, Taŋrı-təala nahəqqanə necə əmr eyləyə?

İbrahim dedi:

– Sən şeytansən və peyğambərlərə məkr ilə alə ələüŋ yetməz. Mənüm düşim rəhmanidür və bir hökm ki, Dustum[66] buyurmış ola, hikmətdən xali dəgüldür və mən Anuŋ bəndəsiəm və buyruğini can ilə qəbul etmək gərəkəm.

İblis dedi:

– Ey Xəlil, köŋlündən gəlür ki, bəylə fərzəndi şəhid eyləyəsən?

İbrahimüŋ qəzəb odı şöʿlə urub dedi:

– Ey məlʿun, ol çağ ki məni odə atar idilər, Cəbrail ki ol dərgahuŋ müqərrəblərinüŋ bədrəqəsidür, sınamağ içün istədi ki, təvəkkül inanum və təvəssül zimamum ol həzrətüŋ təvəccöh təriqinə [döndərə]. Anuŋ sözi mənüm köŋlümdə əsər qılmadı. İmdi sən ki sürülmişlərdən[67] **[19a]** geridəsən, istərsən ki, mənüm yolümi kəsub nafərmanbərdarlığ edəyim dersən? Bu, bir işdür ki, müyəssər olmaz. Taŋrıtəala həqqi içün ki, əgər mənüm məşriqdən məğribədək doptalu fərzəndüm olsa və Allah-təaladan əmr gəlsə ki, qamusini öz ələüŋ ilən öldür, filhal ələüm uzadub ol fərzəndləri anuŋ yolində qurban edəyəm və hiç fikrü təəmmül etməyəm, zira kim Anuŋ rizasından özgə hiç murad xatirümdə və köŋlümdə yoxdur.

Beyt:

Köŋlümizdə cüz rizayi-Taŋrı keçməz nəstə hiç,
Can fəda qılsaq yolində, bizğə yoxdur tabü piç.

Məlʿuŋ şeytan İbrahim cəvabindən və öz vəsvəsəsindən məhrum qaldı. İsmail yanına gəlüb dedi:

– Ey risalət gülistanınuŋ çiçəgi vey izzət və cəlalət bustanınıŋ miməsi, hiç bilürsən ki, ataŋ səni nərəyə aparur?

---

[65] *Qovulmuş şeytandan Allaha sığınıram.*

[66] Qədim bir mənası: Allah.

[67] Əlyazmada: *sürülmiş.*

İsmail dedi:

– Bir əzizüŋ qonağına aparur.

Dedi:

– Qələt güman aparubsən, səni qurban etməgə aparur və qasid saŋa bəylə der ki, Taŋrı-təala məni uyxudə deyüpdür ki, fərzəndüŋi qurban eylə.

İsmail dedi:

– Ey tədbirsiz xacə vey təlbislü qarı, çün həzrət Cəlili-kəbirdən buyruğ olsa, İsmaili-həqirüŋ miŋ canı Aŋa nisar olsun.

Beyt:

Gər mənüm canum qəbul eylər isə ol Dilrüba,
Sanma kim, canum əsirgərəm Anuŋ fərmaninə.

İblis dedi:

– Ey oğul, sənüŋ iti qılıcə qatlənmək taqətüŋ yoxdur, ataŋ sözini qəbul etmə və anuŋ qarşusindən qaçəgör.

İsmail dedi:

– Sən bu sözdən [**19b]** keçəgör ki, mən Taŋrınuŋ fərmanindən qaçmənəm və atam məsələhətindən baş çəkmənəm.

Beyt:

Atam fərmanidən baş çəkmənəm gər başümi kəssün,
Mənüm bayramum ol gün ki, Həqq qurbaninə qılsun.

Ey nabaliğ qarı, bilməzsən ki, Cəlil hökminə razi olmaq rahəti-ruhumdur və Xəlil fərmaninə varmaq fəthü fütuhum.

Nəzm:

Dildar maŋa dedi ki, qanuŋ tökərəm,
Dedim, qılıcuŋ sür ki, munuŋçün durərəm.
Bir can nolə, gər var isə məndə yüz can,
Cümləsi nisari-rahi-Canan edərəm.

İblis daxi mübaliğələr etdi. İbrahim bir parə yol ilərü idi. İsmail çığırdı ki, ey ata, bu gümrah qarı məni incidür.

İbrahim dedi:

– Ey fərzənd, ol qərayüzlü İblis bu qapınuŋ itlərindən əksük bir qəddardur. Anı daşə tut ki, it mayeyi-qovğa və səvaşdur və anuŋ səzası hərbə ilən daşdur.

İsmail neçə daş ol məlʿunə atdı və ol iti səngsar etdi və dedi:

– Ey məlʿun, səni bu həzrətdə dedilər başuŋ endür, boynuŋ çəkdüŋ, lacərəm, *"və innə əleykə laʿnəti ila yovmid-din"*[68] tuği boynuŋa düşdi. Maŋa derlər başuŋ oynat, əgər təslim olmayam, nəuzübillah, canum boynını "*innəhu kanə sadiq əl- vəʿd*"[69] tövqindən məhrum qala.

Misra:[70]

Qoymisüz yolində baş, hökminə təslim olmişüz.

Əmma həman ki İbrahim ilə İsmail Minayə yetdilər, İbrahim oturdı və İsmail qarşusində oturtdı. Bıçaq ilə ipi yeŋindən çıxarub yerə qoydı və dedi:

– Ey oğul, sən bilürsən ki, Taŋrınuŋ ğürbəti təhəmmüli **[20a]** kürbətsiz müyəssər olmaz və liqa şəhidinüŋ içməgi ağusız və bəlasız əl verməz. Və mən çoq müddətdür ki, bu dərgahdə bəla kəməri belümə bağlayub mihnət ilə məşəqqətüŋ ləşkəri yolında oturmışam. Əmma hiç bəla bu ibtilayə yetməz ki, düşdə maŋa görsədübdürlər ki, sənciləyin fərzəndüŋ fəraq dağı biryan köŋlümə qoymək gərəkəm və səni bidəriğ qılıcı ilən qurban etmək gərəkəm.

Beyt:

Dilbər fəraqinə necə aşiq ola səbur,
Hiç kimsə ixtiyar ilə candan olamı dur?

İsmail ədəb ilə atasına dedi: "*Ya əbəti əfʿəl ma tuʿməru*"[71], yəʼni ey ata, ol nəstə ki saŋa buyruğ olupdur, əmələ gətür. Ey ata, İsmailüŋ tayı bulunur və həzrət Cəlilüŋ bədəli bulunmaz, uşağlaruŋ əvəzi mümkindür və həzrət İzzətüŋ mümkin dəgül. İmdi Taŋrıdan buyur-

[68] *Qiyamət gününə qədər Mənim lənətim sənin üzərindədir.* (Quran,38:78)

[69] *Şübhəsiz, o, sözündə sadiq idi.* (Quran, 19:54)

[70] Əlyazmada: *beyt.*

[71] *Atacan, sən əmri yerinə yetir.* (Quran, 37:102)

mək və İsmaildən başını endürmək. Səndən ki Xəlilsən, bıçaq çəkmək və məndən ki İsmailəm, müti`i-fərman olmək. Ey ata, əgər mundan soŋra deyəcəkdürlər ki, İbrahim Taŋrı hökmi ilən oğlını qurban etdi, munı daxi dillərinə keçəcəkdür ki, İsmail Anuŋ rizası üçün başını oynadı.

Beyt:

Yoluŋa qıldum fəda başümni, qurban olduğum,
Qıl qəbul anı ki, aləmdə budur varü yoğum.

İbrahim dedi:

– Ey oğul, hiç vəsiyyətüŋ var ki, deyəsən və mən anı yerinə yetürəyim.

İsmail dedi:

– Üç vəsiyyətüm var: məndən qəbul qıl. Əvvəl, ol ki, məni qurban etmək çağı əlüm ilən əyağümi bərk bağləyəsən.

İbrahim dedi:

– [**20b**] Ey oğul, Taŋrı yanına gedərsən, yalvarub cəzə᾽ eylərsən?

Dedi:

– Ey ata, zəbun olub cəzə᾽ etməzəm, əmma ol vəsiyyət iki mə᾽nidən ötrüdür. Biri ol kim, çün bıçaq yarəsi bu gəvdəyə yetə, olmaya, olmaya ki, ixtiyarsız əlüm ilən əyağum təprənə və bir iztirab məndən zahir olsun və bu təqsirdən ötrü adümi sabirlərüŋ dəftərindən çıxaralar. İkincisi, ol kim, sənüŋ izzətüŋ və hörmətüŋ saxlamək maŋa vacibdür, qorxaram ki, bıçaq sürmək çağı əlüŋ və donuŋ qanümə bulaşə və bu ədəbsizlik ilən asilərdən olayım.

Beyt:

Dedüŋ tökərəm qanüŋi, andan yemənəm qəm,
Qayğum odurur kim, bulaşə ol ələ qanum.

İbrahim bu vəsiyyəti qəbul etdi və dedi:

– Daxi nə vəsiyyətüŋ var?

Dedi:

– İkincisi vəsiyyət oldur ki, qurban çağı yüzümi niyaz toprağına qoyəsən və bu vəsiyyətdə iki nəstə mülahizə eylərəm: Biri ol kim,

həzrət Taŋrı-təala bəndələrüŋ xarilik ilən zariligi sevər və türlü yüzlər və toprağə bulaşmış alınlar daxi yanında əzizdür. Çün məni bu haldə görə, maŋa rəhmət eyləyə və daxi ol kim, atalaruŋ məhəbbəti uşağlarə çoxdur və qorxaram ki, ol dəm ki boğazümə bıçaq qoyəsən, gözüŋ yüzümə və saçümə yetə və məhəbbət silsiləsi və atalığ mehri hərəkətə gələ və Taŋrınuŋ fərmanı yerinə yetürməkdən bir təvəqqüf ortayə gələ.

İbrahimüŋ bu halətdə ağlamağı gəldi və dedi:

– Bu vəsiyyəti daxi qəbul etdim, ey İsmail. Üçünci vəsiyyət nə nəstədür?

Dedi:

– Ya Xəlilullah, bilürəm ki, çün evə qayıdəsən, **[21a]** ol fəraq yükini çəkmiş[72] aŋam Hacər çün məni sənüŋ ilən bilə görməyə, cuşə gəlüb qüssədən ağlamağə düşəcəkdür və bağır odından və köküs hərarətindən nəˀrələr çəkəcəkdür. Səndən umdügüm oldur ki, anuŋ ilən yəxşı diriləsən və qatı söz aŋa söyləməyüb xatirinə təsəlli verəsən ki, fərzəndlərüŋ fəraqı analarə bəqayət qatıdur. Və mənüm səlamı aŋa yetürüb deyəsən ki, İsmail dedi: – "Ey ana, məni həlal eylə və fəraqümdə səbur ol ki, Taŋrı-təala səbr eyləyənləri sevər. Ey ana, hər yerdə ki, bir açuxyüzlü yigiti görəsən, mənüm qanə bulaşmış rüxsarümi aŋub duadən fəramuş etməyəsən və bir yoluŋ üstində ki, bir ötən dilbəri baxəsən, mənüm boyum sərvindən əndişə eyləyəsən. Ey ana, bu müstəmənd fərzənd sənüŋ didarüŋ ilən ögrənmiş idi və sənüŋ xidmətüŋdə adət eyləmiş idi. Toprağum üstindən əyağuŋ çəkməyüb ziyarətümdən qafil olməyəsən".

Nəzm:

Qəbrüm üsnə, ey ana, bir dəm otur, rəhmət et maŋa,
Firqətüŋdə issi yaşü savux ahüm gör mənüm.
Həsrətüŋ camın içüpmən xişti balin etmişəm,
Xabü xurdüm sənsizin, ey ana[73]*, bəylədür mənüm.*

[72] Əlyazmada: *çəkilmiş*.

[73] Əlyazmada: *ey, ey*.

Ey ata[74], müsahiblərümə və məktəb uşağlarə məndən səlam yetür və söylə kim, İsmail dedi ki, hər yerdə ki, söhbət və cəm'iyyətlik edəsiz, mənüm pərişanliğümdən və yalğuzliğümdən yad eylənjiz və xeyr duası ilən məni unutmayınjız və hər məclisdə ki işrət şəmʾi yandurəsiz, bu bəla tiğinüŋ küştəsi və ibtila meydanınıŋ sərgəştəsindən fəramuş etmənjiz.

[21b] İbrahim bu vəsiyyəti daxi qəbul etti və İsmailüŋ əli və əyağı bağladı.

Beyt:
Mələklərdən fəğanü nalə çıqdı,
Fələk səbr evi əz-bünyad yıqdı.

Firiştələr varı nəzzarəyə durub baxər idilər və ata və oğlınuŋ halında və ata Taŋrınuŋ buyruğini yerinə yetürmək və oğlı təslimifərman olub qəzayə riza verməkdə[75] ağlayub der idilər:

– Ya Rəbb, nə ulu bəndədür İbrahim kim, anı sənüŋ içün odə saldılar və hiç bak etmədi və imdi rizanjiz içün öz fərzəndini qurban edər və hiç qəm yeməz.

Həqq-təala anlarə xitab etdi ki, biz anja "xillət", yə'ni dustliğ xəl`ətini geydürübüz və məhəbbət sağəri anja içürubüz və məhəbbət gülistanınuŋ yolı ibtila və bəla tikənindən xali dəgül.

Nəzm:
Eşqümizə hər ki dolaşə, gərək
Ketmiyə[76] pəhriz bəladən dəmi.
Hər kim anuŋ yüzinə çəksə qılıc,
Başı fəda qılsə, yeməyə qəmi.

Rəvayətdür ki, İbrahim iti bıçaq İsmailüŋ boğazına qoyub yetmiş qatla surtdi, anuŋ dərisindən və damarından və sümügindən zərrəcə kəsmədi. İbrahim qəzəbə varub bıçağı əldən bıraxdı. Taŋrınıŋ qüdrətindən ol bıçağ anja dilə gəldi və dedi:

---

[74] Əlyazmada: *ana.*

[75] Əlyazmada: *riza vermək.*

[76] *Ki etməyə.*

– Ey Peyğambər, maŋa qəzəb etmə kim, *"Əl-Xəlilu yə'muruni bil-qət'"*[77], yə'ni Xəlil məni kəsməgə buyurur. *"Vəl-Cəlilu yənhani"*[78] – və Məliki-Cəlil məni kəsməkdən mən' eylər və mən anı eylərəm ki, Taŋrı-təala istər.

[*Beyt*]:

[22a] *Cəhanuŋ tiği təprənsə yerindən,*
Kəsəməz bir damar Taŋrı deməsə.

Rəvayətdür ki, firiştələr bu işdə əcəb qaldılar və bu vaqiədə heyran olub der idilər:

– Aya, İbrahim səxirakdur bu işdə, ya İsmail ki, Taŋrınuŋ rizası üçün öz canını tərk edər?

Pəs Xəlil hal dili ilə söylər idi:

– Mənüm kərəmüm və cəvanmərdliğüm artuğdur ki, əziz fərzəndüm Dust rizası içün qurban edərəm.

Və İsmail işarət lisanı ilən buyurur idi ki, mən səxirakəm ki, mən öz əziz canümi Anuŋ yolında oynadub nisar edərəm. Ey ata, sənüŋ daxi fərzəndlərüŋ var və anlaruŋ məhəbbəti ilən övqatüŋi keçürürsən və mənüm həman bir canum var ki, anı Həzrətə töhfə eylərəm və əsirgəməzəm.

Əmma Taŋrı-təala bu işdə ikisin məʾzul etdi və buyurdı:

– Mən ikisindən cəvanmərdəm ki, öldürməmiş İbrahimi[79] öldürmiş hesabinə və istəməyən fəda İsmail içün göndərürəm. Ey Cəbrail, var və fəda apar və İbrahimə söylə ki, *"qəd səddəqtər - ru'-ya"*[80], yə'ni öz düşüŋi dürüst etdüŋ və fərmanbərdarlığ şərti yerinə yetürdüŋ.

İbrahim bıçaq əldən qoyub mütəhəyyir qalmış idi ki, Cəbrail hazir oldı və bir qoyun cənnətdən gətürüb dedi:

– Ey vəfadar Xəlil, vey sabitqədəm, Taŋrı saŋa səlam yetürüb dedi ki, dustliğ də'visi yerinə gətürdüŋ. İsmailüŋ əli və əyağı çiz.

---

[77] *Xəlil mənə kəsməyi əmr edir.*

[78] *Cəlil (Allah) isə qadağan edir.*

[79] Əlyazmada: *İsmaili.*

[80] *Sən yuxuna sədaqət göstərdin.* (Quran, 37:105)

İbrahim munı eşidincə İsmailüŋ əli və əyağı çizdi **[22b]** və qoyunuŋ əyağlarını bağlədi və dedi:

– Ey fərzənd, Cəbrail səlami-Məliki-Cəlil saŋa gətürüb, der ki, ey İsmail, bəla qılıcümizə səbr ettiŋ və təslim və itaət rəsmi təmam qıldıŋ. Dua əli götür və hər nə kim könlüŋ dilər, izhar edüb Həzrətdən dilə, ta hər nəstə ki istəyəsən, murad ətəgünə qoyayım.

İsmail əl götürüb niyaz ilən dedi:

– Ya Rəbb, hər kim axirzəman Peyğambərinüŋ (s) ümməti dünyadən getmək çağı öz canını şəhadət tiği ilən tövhid yolında rəvan eyləyə, günahların maŋa bağışləyə.

Cəvab gəldi ki, ey İsmail, muraduŋ hasil etdim və günahkarlaruŋ suçlarını bağışlədim.

Şe'r:

Çünki olduŋ sidq ilə qurbanümə,
Çəkmədüŋ başüŋni əz-fərmanümə,
Hər dua kim eylədüŋ, qıldım qəbul,
Rəhmətüm gögdən yerə etdi nüzul.

İmam Əliyyi-Musa Rizadan (ə) nəqldür kim, çün Həqq-təala İsmail içün qoyun göndərdi və İbrahim anı boğazlədi, öz mübarək xatirinə keçdi ki, əgər fərzəndümi öz əlüm ilə qurban etmiş ola idüm, ulu səvab tapmış ola idüm. Həqq sübhanəhü və təala aŋa vəhy göndərdi ki, varı xəlayiqlərdən kimi sevərsən?

İbrahim dedi:

– Muhəmməd Mustəfayı (s) ki, Sənüŋ həbibüŋdür, varı kimsələrdən artuqraq sevərəm.

Xitab gəldi ki, anı artuqraq sevərsən, ya özüŋ və anuŋ fərzəndləri artuqraq sevərsən, ya öz fərzəndlərüŋ?

İbrahim dedi:

– Anı özümdən çoqraq sevərəm, anuŋ fərzəndləri yanümdə **[23a]** əzizraqdurlar uşağlarumdan.

Xitab gəldi kim, anuŋ əzizraq fərzəndi yüz miŋ zarilig ilən acsusiz və ğərib Kərbəla dəştində şəhid eyləyəcəqdürlər.

İbrahim çün munı eşitdi, gözlərindən həsrət yaşı yəŋağ səfhəsinə rəvan etdi.

Xitab gəldi:

– Ey İbrahim, bu qədr ağlamağ ki, sən Hüseyn içün eylədüŋ və bu qədr mihnət və ələm ki, köŋlüŋə ol məzlum içün çəkdüŋ[81], səvabı andan artuqdur ki, öz ölüŋ ilən fərzəndüŋi qurban edəsən.

Ey əziz, bir fikr və təəmmül et ki, İmam Hüseyn içün ağlamağuŋ səvabı nə qədərdür?! Və Əhli-Beytüŋ İmamlarından rəvayətdür ki, hər bir qətrə su ki, İmam Hüseynüŋ (ə) matəmindən mö`minüŋ gözlərindən axa, anı şərəf sədəfində bir qiymətlü dürr edərlər və ol mö`minüŋ ə`mali-həsənə iqdinə çəkərlər və anuŋ qiyməti Qiyamət bazarında xəlqə zahir olacaqdur.

Beyt:

Hüseynüŋ matəmində yaşlar kim, gözlərdən axsə,
İrür qiymətlü gövhər, həşrdə zahir olur qədrin.

Səhl bin Əbdullah Tüstəri buyurubdur ki, Aşura güni ağlar idim və öz-özümə der idim ki, əgər Kərbəladə Aşura günində İmam Hüseyn ilən bilə dəgül idim ki, şəhidlər şahınuŋ qulluğində qanümi tökələr, bu gün ol həsrətdən neçə qətrə yaş gözlərümdən axdurayım. Gecə həzrət Risalətpənah (s) vaqiədə gördüm kim, maŋa dedi:

– Ey Səhl, Zülcəlaluŋ böyükligi həqqi içün ki, bir qətrə ki, mənüm fərzəndi-dilbəndüm **[23b]** müsibətinə tökdüŋ, zaye olmaz və ol ağlamağ ki, bu gün səndən zahir oldı, daŋla saŋa ol qədr səvab verələr ki, yerüŋ bitikciləri və gögüŋ müstövfiləri anuŋ hesabindən aciz qalalar.

Beyt:

Hüseyni-Əli içün ağla müdam
Ki, bu ağlamağdən bulur abruy.
Xətadən o namə ki oldi qəra,
Bu su ilə olur anuŋ şüstüşuy.

[81] Əlyazmada: *çəkdi.*

Rəvayətdür ki, İmam Hüseyn (ə) Qiyamət günində Ərəsatə gələ[82] qanə bulaşmış çöhrəsi ilən və deyə: "*Rəbbi, şəf'ini fimən bəka əla musibəti*"[83] – ey Taŋrı-təala, məni şəfi eylə ol kimsənüŋ həqqinə ki, mənüm içün ağlamış ola. Hər kim şəhidliğ və məhrumliğ və məzlumliğ və bikəslig və susizlig ilən aclığimnə ağlayə, anı maŋa bağışlə. Və sabit olupdur ki, İmam Hüseyn içün ağlayanlərə nicat bəratı ərzani edəcəkdürlər.

[***Beyt***]:
Gər gözüŋdən yaş rəvan etsən bə-rahi-Kərbəla,
Suçlaruŋ bağışləyə Taŋrı bə-Şahi-Kərbəla.

***

Andan soŋra ənbiya firqəsindən və əsfiya zümrəsindən Yəʾqubuŋ rənc və bəlayı Yusifdən ötrüdür

Və anlaruŋ əhvalı Yusif surəsində yazıludur və Mövlana Rüknəddin Məs`ud Yusif surəsiniŋ tərcüməsində gətürdübdür ki, bu surənüŋ endügi səbəbində[84] təfsiri üləmanuŋ qəvli çoxdur və bir qəvl budur ki, bu surə həzrət Risalətpənahuŋ (s) təsəllisi içün enübdür İmam Həsən və İmam Hüseyn (ə.m) vaqiəsi eşidəndən soŋra. Və bəylə rəvayətdür ki, bir gün **[24a]** Seyyidi-sadat əleyhi əfzəlüssəlat oturmış idi və İmam Həsən və İmam Hüseyn (ə.m) ətəginə oturmış idilər və mundan yəxşiraq nə ola: məqsud qucağdə və həsudlar andan irağdə. Seyyidi-aləm (s) gah dodağı İmam Həsənüŋ dodağına qoyar idi və gah yüzi İmam Hüseynüŋ yüzinə sürtər idi. Bu halətdə Cəbraili-Əmin həzrət Rəbbül-aləmindən gəldi və dedi:

– "*Ətuhibbuhuma*"[85], yə'ni İmam Həsən və İmam Hüseyni sevərsən?

---

[82] Əlyazmada: *gəlsün*.
[83] *Allahım, mənim müsibətim üçün ağlayanlara məni vasitəçi (şəfaçı) et*.
[84] Əlyazmada: *səbəbindən*.
[85] *Hər ikisin sevirsənmi?*

Xaceyi-aləm (s) buyurdı:

– Bəli, *"ovladunə əkbaduna"* [86], necə sevməyəm ki, bular bağırımuŋ iki parəsidürlər və bəsərimüŋ aydınlığı.

Cəbrail dedi:

– Ey Seyyid, hanğısın artuğ sevərsən?

Dedi:

– Ey qərdaş, ikisi bir sədəfüŋ dürridürlər və bir gögüŋ bədri. İkisi bir mədinənüŋ pasibanı və bir bustanuŋ sərvi-rəvanıdurlar. Ya qərdaş, ikisin daxi sevərəm.

Cəbrail dedi:

– Ey Seyyid, Məliki-Cəlil buyurur ki, ey mənüm həbibüm, xəbərüŋ yoxdur ki, munlardan birisi ağu ilən həlak edələr və birisi qılıc ilən başını götürsünlər.

Həzrət Peyğambər çün Cəbraildən bu sözlər eşitdi, buyurdı:

– *"Mən yəf'əlu bihima"*[87] – mənüm cigərguşələrüm ilən bu işlər kim eyləyəcəkdür və bu cəfa daşı fərzəndimüŋ yüzinə kim atacəkdür?

Cəbrail dedi:

– Ümmətüŋdən bir taifə.

Peyğambər (s) dedi:

– *"Yu'minunə bi"*[88] – ol cəmaət maŋa iman gətürələr və *"yərcunə şəfaəti"*[89] [**24b**] – və mənüm şəfaətümə ümmidvardurlar *"və yəqtulunə ovladi"* [90] – və fərzəndlərümi öldürələr və bağırparələrümi bəla çənginə çəkələr?!

Dedi:

– Bəli, öldürələr və zarilig ilən başları qılıc ilən götürələr və bir içim su anlaruŋ susiz boğazlarına dəriğ eyləyələr.

---

[86] *Övladlarımız ciyərimizin bir parçasıdır.* (hədis)

[87] *O ikisinə [bunu] kim edər?*

[88] *Mənə iman gətirərlər.*

[89] *Şəfaətimə ümid edərlər.*

[90] *Və övladlarımı öldürərlər.*

Həzrət Risalət buyurdı kim, ey Cəbrail, ümmətüm nədən ötrü Həsənümə ağu şərbəti içürsünlər[91] və nə səbəb ilən Hüseynümi abdar xəncər ilən başını götürsünlər?

Cəbrail dedi:

– Səbəbsiz və cinayətsiz bəylə işlər eyləyələr.

Mehtəri-aləm (s) ümmət cəfasindən ağladı və hicran qubarı mübarək köŋli yüzinə qondı. Cəbrail həzrət Seyyidüŋ köŋül xürsəndliği içün peyğam yetürdi ki, "*nəhnu nəqussu əleykə əhsənəl-qəsəsi*"[92]. Ümmətüŋ üsyanliğindən bunı əcəb görmə, Yusifüŋ qərdaşlarınuŋ vaqiəsindən bir fikr eylə ki, əgər bunlar sənüŋ çakərüŋdürlər, anlar anuŋ qərdaşı idilər. Və əgər bunlar bixəbərdürlər, anlar əvladi-peyğambər idilər. Pəs, Yusifüŋ qissəsi ol həzrətüŋ təsəllisi içün və Kərbəla bəlakeşləri xatiri içün gögdən endi və munuŋ içün bu surənüŋ "*Əhsənul-qəsəs*"[93] adı qoyubdur.

Şe'r:

Qissələrüŋ yegi Yusif surəsi
Hər kim eşitdi, olur xoş-mümtəhən,
Anuŋ içün dedi Həqq yəxşi qisəs
Kim, təsəllidür Hüseyn ilə Həsən.

Və bu ibtilalar qissəsi iki növdür: biri ol kim, müfariqət dərdi Yəʿqubə yetdi zəhmət ilə məşəqqətdən və birisi **[25a]** ol kim, Yusif çah və zindandə çəkdi mihnət ilə bəliyyətdən və hər birisindən neçə kəlmə deyəcəgüz.

Rəvayətdür ki, Yəʿqub peyğambərüŋ (ə) on iki oğlı var idi və qamusindən Yusifi artuğ sevər idi və tərbiyət nəzəri anuŋ əhvalinə artuğraq salur idi, andan ötrü kim, həm kəmal zinəti ilən arastə idi və həm kəmal pirayəsi ilən pirastə. Surəti kəmali-məʿnidən [xəbər] verür idi və məʿniyi-cəmalı surət güzgüsində cilvə qılur idi.

---

[91] Əlyazmada: *içsünlər*.

[92] *Biz sənə qissələrin (hekayətlərin) ən gözəlini danışırıq.* (Quran, 12:3)

[93] *Qissələrin ən gözəli.*

Beyt:
Surətüŋə baxərəm, məʾniyə heyran olurəm,
Ta nə məʾnisində var kim, surətüŋdür bəylə görk.

Qərdaşlarınuŋ həsəd tozı mundan ötrü köŋül güzgülərinə qonmış idi və günilik rəqəmi köküsləri lövhinə nəqş olmış idi, ta ol vəqt ki, Yusif (ə) düşdə gördi ki, Gün ilə Ay on bir yulduz ilən gögdən enüb aŋa səcdə eylədilər. Və ol bu düşi atasına dedi və qərdaşları eşitdilər, həsədləri artdı. Qamusı ittifaq eylədilər kim, anuŋ xiyalı Yəʾqubuŋ köŋlindən gidərələr və Yusifüŋ sevdası atasınuŋ başından bərtərəf eyləyələr. Yəʾqubdən yalvarmək ilən rüxsət aldılar ki, Yusifi bilələrincə yazıyə aparalar. Bəs, Yəʾqub dedi ki, Yusifə yəxşi geyəsilər geydürələr və anlar ilən rəvanə eyləyələr. Qəza dili der idi ki, vüsal gecəsi içün zibü zinət yəxşidür, bu gün fəraq günidür, bəzənmək nə işə yarar?

***Beyt*:**
Keçdi vəsl əyyamivü yetdi gənə şami-fəraq,
Olmasun kimsə əsiri-rənci-əyyami-fəraq.

[25b] Əlqissə, Yəʾqub (ə) Yusifi qərdaşlarına tapşurub dedi:

– Kən'an dərvazəsindən çıxuŋız və Şəcərətül-vida altında bir saət təvəqqüf eyləŋiz mən gəlincə.

Və Şəcərətül-vida bir ağac idi ki, hər kim səfərə gedər idi, ol ağacuŋ altında qəvm anı vida eylər idilər və dust ilə qəvmləri orayədakin bədrəqə edər idilər və sağınursən kim, ol ağacuŋ köki[94] qayğu suyi ilə tərbiyət tapmış ola.

Beyt:
Köŋül bağində dehqani-məhəbbət tikti bir ağac,
Budağı qəm, yemişi dərd, ağacı qayğu, köki hüzn.

Oğlanlar ata fərmanı ilən Kən'an şəhrindən çıqub ol ağacuŋ kölgəsində qərar dutdılar. Və Yəʾqub bir don yuŋdan geyüb və bir

[94] Əlyazmada: *kökini.*

əmmamə yuŋdan başına sarub, belini bağladı və əsa əlinə dutub, dərvazəyə yüz urub vardı. Və çün hərgiz rəsm dəgül idi ki, Yəʾqub öz uşağlarına bədrəqəlik eyləyə, hər kim ol halı görər idi, heyrətliğ dəŋizində qalub, təəccüb edər idi və işüŋ həqiqətindən bixəbər idi. Və Yəʾqubuŋ hal dili bu sözi der idi və Yusifüŋ huş qulağından özgə üni eşitməz idi.

***Beyt*:**
Səfər əzminə belüŋ bağladuŋ, yol üsnə durmışdur,
Gözüm yaşi ki, yoluŋ bağlaya, getmə Xuday üçün.

Əmma çün Yəʾqubuŋ oğullarınuŋ gözi atayə düşdi, yerdən qalxub atanuŋ əllərin-əyağların öpdilər və Yəʾqub hiç hanğısinə iltifat etməyüb, Yusifi qucağlayub, yüzini anuŋ yüzinə **[26a]** qoydı və dedi:

– Ey oğullar, məni məʾzur dutmək gərəksiŋiz ki, Yusifdən atam ilən cəddümüŋ iyisi gəlür və bunuŋ didarindən mütləqa doymım.

***Beyt*:**
Nə yüzdür bu kim, anı gündə gər baxər isəm yüz kəz,
Həzə hər qatla daxi baxmağ içün arizuməndəm.

Andan Yusifə dedi:

– Ey Yusif, əgər müyəssər ola idi, seni çignüm ilən götürüb apararurdum və gətürürdüm, əmma ataŋ zəif və qocaləyübdür və sənüŋ didaruŋa müntəzir. Zinhar, zinhar ki, gecə yazıda əglənməyəsən və atanuŋ köŋli çehrəsi fəraq dırnağı ilən məcruh eyləməyəsən: *"Ya bunəyyə ləv-bəqitul-leylə əhturəqət"*[95] – ey oğul, əgər bu gecə yazıda qalub, ataŋa qayıtmayəsən, fəraq odı məni yandürəcəgdür.

Yusif istər idi ki, atasınuŋ əyağını öpə, ata anuŋ başını dutub alnını öpdi və dedi:

– Ey gözüm aydınlığı, bir dəm məni qucağlayub qərar dut: **"***Əlleylə-hubla***"**[96] – kim bilür kim, daŋla başımıza nə yazubdurlar və halümiz ağacı təqdir əli ilən hanğı vadidə əkübdürlər?

---

[95] *Ey oğul, gecə də orada qalsan, ayrılıq odu məni yandıracaq.*

[96] *Gecə hamilədir.*

***Beyt*:**
Kəştiyi-vəslüŋ zimami saxlagil, ey naxuda,
Kim, dəŋizdə düşdi tufan, bilməzüz biz aşina.

Ey Yusif, saŋa dörd vəsiyyət eylərəm, sözlərüm eşit və həmişə xatirüŋ ögində durğuz: **"***Ya bunəyyə, la tənəsəllah bikulli halin***"**[97] – ey oğul, hiç hal ilən Taŋrını unutmə və hər işdə ki olasan, Allah-təalanuŋ zikri dilüŋə keçür ki, səfərdə hiç ğürbət və həzərdə hiç həmdəm anuŋ zikri və şükri kimi yoxdur. *"Və iza vəqəʿət* **[26b]** *bəliyyətin fəstəizu billah"*[98] – əgər bir bəladə qalasan və afiyət səndən irağ ola, Taŋrı-təalanuŋ fəzlindən mədəd və yarilig istə ki, hər kim tədbir ipi əldən qoydı, əgər Həblül-Mətinüŋ kərəminə əl urmasa, əyağdən tez düşə. Üçünci vəsiyyət: qəvlüŋ **"***həsbunəllahu və niiməl-vəkil"*[99] daim olmaq gərəkdür və bu kəlməyi çoq söylə ki, cəddüŋ Xəlilürrəhman çün odə saldılar, bu kəlmə dedi, Nəmruduŋ odı aŋa zərər və şərər vermədi və ismət çehrəsinə azar dəgmədi. Dördünci vəsiyyət: **"***ya bunəyyə, la tənsani***"**[100] – ey oğul, məni unutma, **"***fə-inni la ənsakə***"**[101] ki, mən səni unutməyacəgəm, ta qan seyli cigər evi pozmayacəgdür, köksimüŋ qəmkədəsinüŋ sakini sənüŋ vüsaluŋ sevdası olacəqdür və ta məhəbbət əli qayğu gülabi ilən gözümnüŋ lövhini yumayəcəgdür, cəmaluŋ xiyalı anuŋ pərdələrinüŋ nəqşi olacəqdür.

***Beyt*:**
Sənüŋ mehrüŋlə toprağə girarəm,
Sənüŋ eşqüŋlə toprağdan çıxarəm.

Rəvayətdür ki, Yusifüŋ bir qızqərdaşı var idi, adı Dəyna. Ol saət ki atası qərdaşları ilən gedər idilər, ol yatub uyumış idi. Nagah düşdə görər ki, on qurt Yusifi atası qucağından qapdılar. Bu vaqiənüŋ qorxusından uyqudən oyandı, sordı kim, Yusif xandadur? Dedilər:

---

[97] *Ey övladım, heç bir halda Allahı zikr etməyi unutma.*
[98] *Bir bəla ilə üzləşsən, Allaha sığın.*
[99] *Allah bizə bəs edər. O, nə gözəl vəkildir*. (Quran, 3:173)
[100] *Ey oğul, məni unutma.*
[101] *Mən də səni umutmayacağam.*

– Qərdaşlar ilən yazıyə getdi.

Dedi:

– Atam Yəʾqub rüxsət verdi?

Dedilər:

– Bəli.

Qız dedi:

– Qəza öz işini işlədi **[27a]** və qədər Yusifüŋ fəraqi ilən köŋlümizdən tütün çıxardı.

Bəs, başı ilən əyağı yalın dərvazəyə yüz qoydı, ta Şəcərətül-vida dibinə yetdi. Atası gördi kim, Yusif ilən söyləşməkdə idi. Ol dağı gəldi və Yusifüŋ əyağinə düşüb başından miʼcəri götürüb boynına saldı və dedi:

– Ey əziz qərdaş, əylə sağın kim, mən sənüŋ bir qəravaşiəm, məni bilənçə apar, ta hər yerdə kim qonasən, mən ol yerüŋ toprağı kirpügüm süpürgəsi ilən süpürəyim və çün su istəyəsən, su gətürəyim və çün nuşi-can eyləyəsən, iki əlümi camuŋ altına dutayım və əgər yemək bişirməlü ola, mən odunı yığayım. Və əgər, əlbəttə, məni aparməzsən, ey xubliğ göginüŋ[102] günəşi vey Yəʾqub sədəfinüŋ gövhəri, zinhar kim, bu biçarənüŋ yüzi fəraq tütüni ilən qəra etməyəsən və bu zəifənüŋ bağırı hicran odı ilə yandurməyəsən.

Yusifüŋ yürəgi qızqardaşınuŋ sözindən yanub gözindən qan yaş rəvan oldı. Yəʾqub bir yandan ağlar idi və Yusif bir yandan yaş tökər idi və Dəyna bir tərəfdən nalə çəküb zarilig edər idi. Bu məhəldə göglərüŋ qapuları açux olub və hur və in durub, dərgah müqərrəbləri cuşü xüruşə gəlüb, əzəli hikmətüŋ dili der idi:

– Ey Yəʾqub, sən bir gecəlik fəraqindən ağlarsən və qırq yıllig hicrandən xəbərsizsən!

Pəs, Yusif atası və qızqardaşını vida eylədi.

***Beyt*:**

Vidaʾüŋ, ey oğul, qılmək çətin işdür maŋa, billah,

[27b] *Əgər sənsiz həyat abı içəm, nişdür maŋa, billah.*

---

[102] Əlyazmada: *gögüŋ.*

Oğlanlar getməgə əzm eylədilər. Yəʾqub bang verdi ki, ey oğul, mən burada oturub şəhrə getməzəm, ta siz qayıdasız. Və böyük oğlına – Ruilə[103] dedi:

– Sən mənüm əvladümdən böyükraksən, Yusifi saŋa tapşurdum. Taŋrınuŋ həqqi içün kim, anuŋ halından qafil olmayub, özgə qərdaşlaruŋa eʿtimad etməyəsən.

Ruil atasından qəbul etdi və yolə düşdilər. Əmma çün neçə qədəm irağ oldılar, Yəʾqub ün çıxardı ki, getməkdə təʾcil etməŋiz və ahəstə gediŋiz ki, Yusif uşağ və nazükdür, olmaya kim, əyağı ağrıya.

***Beyt*:**

Bir qədəm ahəstə bas kim, yürəgə qoyduŋ əyağ,
Bir nəfəs ahəstə get kim, can sənüŋləndür rəvan.

Anlar gedər idilər və ol büzürgvar xacə anlaruŋ əsərinə və yerişinə baxub ahəstə qədəm urər idi və hər qədəmdə gözindən yaş tökər idi və hər dəm köksindən bir ah çəkər idi.

***Beyt*:**

Gedər ol dildar və mən həm dəmbədəm,
Sürərəm ardına bir gülgün əşk.

Rəvayətdür ki, çün qərdaşlar neçə qədəm vardılar və yaxın oldı kim, ata nəzərindən qayib olalar, Yəʾqub bir ah çəküb dedi:

– Ey oğlanlarum, Yusifi geri gətürüŋiz, ta bir qatla daxi yüzini görəyəm.

Yusifi gəri gətürdilar. Ata anı qucağə dutub dedi:

– Ey əziz fərzənd, yolə düşdüŋ və məni fəraqüŋdə qoyduŋ.

***Beyt*:**

Getdüŋ və köŋlümdə eşqüŋ qayğusindən qaldı dağ,
Zülfüŋüŋ sevdası qıldı məni aşüftədimağ.

[28a] Yusif atasına təsəlli verüb qaytədürdi. Yəʾqub geri qayıdıb, Şəcərətül-vida altına yetüb, ol ağacuŋ budağlarından "*əl-fəraq, əl-*

[103] Farsca orijinalda: *Rubil.*

fəraq"[104] üni eşidürdi. Bildi kim, qeyb pərdəsində özgə rəngi tərtib edübdürlər və özgə neyrəng düzədübdürlər.

Əmma fərzəndləri ata nəzərində Yusifi bir-birindən qapar idilər və cigni ilən boyunlarına götürür idilər və ta Yəʾqubuŋ gözi ortada idi.

Şe'r:

Yusifi can kipi sevar idilər,
Bir-birindən anı qapar idilər.
Gəh muni götürürdi cignində,
Gah ol idi yanində bir bəndə.
Yetdilər çün tikənlü səhrayə,
Saldılar anı ah ilə vayə.
Qıldılar rəhmsizlər aŋa cəfa,
Qılmadılar ata sözinə vəfa.

Yəʾqubuŋ oğlanları çün ata nəzərindən qayib oldılar, Yusifi yerə urdılar ki, sənüŋ gəvdəŋ yükini xaçanədək çəkəlim və günilik şərbəti xaçanədək içəlim?! Öz əyağuŋ ilən ögümizdə yügür. Yusif ağlamağə düşüb dedi:

– Ey ulu qərdaşlarum, mən neyləmişəm ki, mənüm ilən bəylə xarilig eylərsiz və məni yəyağ, yalın əyağ yügürdürürsiz?

Dedilər:

– Ey yalan düşlərüŋ iyəsi, ol Günəş ilən Aydan ki saŋa səcdə eylədilər, mədəd istəgil, ta ğəvrüŋə yetələr.

Yusif bir neçə qədəm getdi və yoruldı və nə`leyniniŋ bağı üzüldi və qərdaşları qorxusindən yalın əyağı tikənə və daşə qoyar idi.

[28b] ***Beyt*:**

Ol əyağ kim, səfadə idi çün ruh,
Tikən zəxmilə oldi xarü məcruh.

Qərdaşlarınuŋ hər birisinə ki varur idi, bir çəpəlaq anuŋ yüzinə urar idi və hər kimüŋ ətəginə yapışur idi, yaqəsini dutub irağə salur idi.

[104] *Ayrılıq, ayrılıq.*

[*Beyt*]:
Kimüŋ kim ətəginə əl urardı,
Əyağ zərbilə başını yarardı.

Bu təriq ilən yabanə yügürtdürür idilər, ta ol çağ ki, günəş gögüŋ övcinə yetdi və cəhan Yəʿqubuŋ köksi kimi göynülü oldı. Yusif susiz olub Ruilə dedi:

– Ey qərdaş, sən qərdaşlarümdən uluraksən və mənüm dayəzəm oğlısən. Atam məni saŋa tapşurdı və işlərümi sənüŋ öhdəŋdə eylədi. İmdi bir böyüklig eylə və kiçilüğimə rəhm et.

Ruil anuŋ sözinə iltifat etməyüb yüzinə [bir çəpəlaq] urdı ki, bənəfşə yaprağıtək qarardı. Andan Şəmʿun yanına gəldi ki, maŋa bir içim su bu parçdan ver ki, susizligdən canum dodağə yetübdür, ta bir neçə qətrə su içəyim və özümi susizlig badiyəsində qırağə çəkəyim. Və ol parç bir parç idi ki, Yusif içün su ilən sütdən doldurub Şəm'unə tapşurmış idi ki, həzə Yusifüŋ dodağından süt iyisi gəlur, həman ki susiz ola, parçdan aŋa su veriŋiz. Çün Yusif Şəm'undən su istədi, ol nəstə ki parçda idi, yerə tökdi və su ilən süt toprağə töküb bir-birinə bulaşdırdı və ol şərbəti toprağə verdi və ol tifli-məʿsumə vermədi.

[29a] İmam Hüseynüŋ (ə) daxi Yusif vaqiəsi vaqe oldı: ol bədkişlərüŋ cəfasını çəkər idi və Yusif qəvm ilə xişlərdən rənc görər idi. Ol cəmaət toprağə su töküb qərdaşə su verməz idilər və bu cəfakarlar Fərat suyiniŋ qırağında itləri sirab edüb, imamət bişənüŋ aslanzadələrə su verməyüb, susizliğdən cigərləri yandurur idilər.

Əlqissə, Yusif dedi:

– Ey Şəmʿun, bu suyi nişün tökdüŋ?

Dedi:

– Bizim müddəamız oldur ki, sənüŋ boğazuŋdan qan axıtdurəüz, yoq ki boğazuŋa su tökəüz. Sən sunuŋ susizligisən və biz qanuŋ susizligiüz.

Yusif çün öldürmək hədisin eşitdi, özinə titrədi və can qorqusindən içməgi və yeməgi unutdı. Və ol məhəldə susizligdən Yusifüŋ ağzı və dili və əngəgi lalətək atəşbar olmış idi və gözüniŋ hədəqəsi suyə dəgmiş nərgis kimi taqətsiz olub ahü naləyə düşdi.

***Nəzm*:**
Fəğanə düşdi çün nömid oldi,
Könjül xunabidin gözləri doldi.
Yaturdi gah toprağə pərişan,
Gəhi qan içrə sərgərdanü heyran.
Der idi: Ey ata, sən nərədəsən?
Nola fəryadümə bir kəz yetəsən.

Əmma Yəʾqub xanda idi kim, öz əziz fərzəndini görə idi, yeriməkdən əyağı qabarub, çəpəlaqdən yüzi ufanmış.

Aya, Mustəfa (s) xanda idi, ta öz cigərguşəsinüŋ halını baxə idi ki, gülnar kibi yəŋağı [**29b**] xəvariclərnüŋ[105] qılıcı zəxmi ilə qanə bulaşmış və ismət müxəddəratınuŋ həsrət suzindən və ğürbət kürbətindən xüruşdə və fitnəvü qovğa dəŋizi Ali-əba istisalı içün cuşdə.

Şe'r:
Rövzeyi-pakizədən başüŋ götür, ya Mustəfa,
Ta görəsən necədür əhvali-Şahi-Kərbəla.
Ya Rəsulullah, güzər qıl Kərbəlayə, gör necə
Kərbəla toprağidür pürzəhmətü kərbü bəla.
Kərbəla məzluminüŋ saçlarıdur pürxakü xun,
Bu nə mihnətlərdürür, ya Rəb, nə qayğuvü əna.

Əmma çün qərdaşlarınuŋ qəsdi[106] Yusifə mühəqqəq oldı, duayə yüz qoyub dedi:

– Ya Rəbb, atamuŋ cəddi Nəmrud odınuŋ şərərindən xilaslığ verdüŋ və mənüm cəddimə "*Və barəkna əleyhi və əla İshaq*"[107] muştuluqin göndərdüŋ. Mənüm atamə rəhmət eylə və məni qərdaşlarımuŋ qəsdindən nicat ver.

Yəhuda çün bu münacatı eşitdi, qərdaşlığ məhəbbəti hərəkətə gəlüb, mürüvvət ərəqi yüzinə qondı. Bəs, Yüsifə dedi:

---

[105] Əlyazmada: *xəvariclərinüŋ.*

[106] Əlyazmada*: qəsdini.*

[107] *Biz ona – İshaqa xeyir və bərəkət verdik*. (Quran, 37:113)

– Ey qərdaş, könlüŋə təsəlli ver ki, ta mənüm canum gəvdəmdədür, qoymayacagəm ki, kimsə saŋa dolaşub qəsd eyləyə.

Misra:

Başümə yetsə işüm, başindən anuŋ keçərəm.

Qərdaşlar çün gördilər ki, Yəhuda Yusifi öz himayət ətəgi altında saxlar, xəyanət və öldürmək əli ədəb yeŋinə çəküb, anuŋ həlak etməgindən keçdilər. *"Vəcmə'u ən yəc'əluhu fi ğəyabətil-cubbi"*[108] – pəs, anlaruŋ tədbiri aŋa müqərrər oldı ki, anı bir quyıya salalar. Pəs, anı ol quyınıŋ başına ki, bir ağac yol **[30a]** Kənʾandən irağ idi, çəkdilər. Yusif nə qədr ki əllərin qərdaşlarınuŋ ətəklərinə urar idi, faidə verməz idi. Gah atasınuŋ böyük hörməti içün yalvarur idi və gah öz uşağlığını şəfiʾ eylər idi. Anlar bu sözlərə hiç qulağ asmayub, faidə verməz idi. Nə qədr ki gözindən həsrət yaşı axıdur idi, qərdaşlarınuŋ himmət yerindən vəfa ağacı bitməz idi, Peyvəstə ah nəsimi könli gülşənindən əsər idi, vəli qərdaşlarınuŋ şəfəqqət rövzəsidə mehr çiçəgi açılmaz idi. Yusif anlaruŋ əyağlarinə düşüb hal dili ilən bu beytləri əda qılurdı:

Şe'r:

Qalmışam biyar, qərdaşlar, nedəyim bilməzəm,
Tapmışam azar, qərdaşlar, nedəyim bilməzəm.
Atadan oldum yırağ, ey dustlar, yari qılıŋ,
Oluŋız qəmxar, qərdaşlar, nedəyim bilməzəm.

Yusif (ə) çün gördi kim, qərdaşları bidad başından keçməzlər və mərhəmət nəzəri ilə anuŋ hali-zarinə baxməzlər, dedi:

– Maŋa möhlət veriŋiz, ta iki rikʾət nəmaz əda qılayım.

Dedilər:

– Sən nəmazı qılmaq nə bilürsən?

Dedi:

– Axir, peyğambərzadəəm və atam ilən taət mehrabində çox durubəm.

[108] *Onu quyunun dibinə atmaq qərarına gəldilər*. (Quran, 12, 15)

Yəhuda qərdaşlardan dərxast eylədi kim, qoysunlar, ta iki rikʾət nəmazı qılsun. Ol, nəmazə məşğul olub, səlamdən soŋra yüzini toprağə qoyub dedi:

– Ey Taŋrı-təala, özümi Saŋa tapşurdum və ixtiyar inanı təqdirüŋ əlinə verdüm.

Beyt:

Qapüŋdən özgə mənüm daxi mənzilüm yoxdur,
Gərək bağışlə məni və gərək öldür.

[30b] Çün münacatdən fariğ oldı, qərdaşları dedilər:

– Köŋləgüŋ çıxar.

Dedi:

– Heyhat, heyhat, dirinüŋ əvrəti örtülü gərək və ölüyi kəfənsiz olmaz. Mənüm köŋləgümi[109] gəvdəmdən çıxarmaŋız ki, əgər öləm, kəfənsiz ölməyəm və əgər diri qalam, əvrətüm örtmüş ola.

Dedilər:

– Əlbəttə, köŋləgüŋ çıxarmak gərəksən.

Və anlaruŋ məqsudi ol idi ki, qanlu könləgi [atalarınuŋ yanına aparalar və deyələr ki, anı qurt yedi][110].

Yusif (ə) iki əli ilən köŋləgüŋ yəqəsini dutmış idi. Anlar güc eyləyüb köŋləgi başından çıxarub, belinə ip bağlayub quyıya asdılar.

Nəzm:

Beli kim incəlikdən qılcə idi,
Yuŋuŋ ipiylə oldi bərk dər-bənd.
Çıxardılar güc ilə köŋləgini,
Cəsədin qıldılar hurayə manənd.

Həman ki quyınıŋ ortasına yetdi, Yusif dedi:

– Ey qərdaşlar, hər nəstə ki etməlü idi, etdiŋiz və hər nə kim köŋlüŋiz dilər idi, yerinə yetürdüŋüz. İmdi mən sizə bir ögüt verürəm[111], can qulağı ilən eşidiŋiz və mənüm sözümdən çıxmaŋız.

---

[109] Əlyazmada: *köŋlümi.*

[110] Mötərizədəki hissə farsca orijinala əsasən bərpa edilmişdir.

Dedilər:

– Nə ögüt verürsən?

Dedi:

– Anı derəm ki, atamuŋ hörməti yəxşicə saxlayub, qulluğını anuŋ köŋli diləgincə eyləŋiz və əylə qılıŋız kim, bilməsün ki, siz maŋa nettiŋiz. Əgər bilsə kim, mənüm ilən nə əməl eyləmişsiŋiz, sizə qəzəb edüb, üqubət eyləyəcəkdür. Və əgər siz qıydıŋız kim, maŋa bəylə cəfalar ettiŋiz, mənüm taqətüm yoxdur ki, atam sizə qəzəb ilə üqubət sürə.

Ruil bu sözdən bərhəm olub bıçaq çəküb ipi kəsdi. Yusif quyınıŋ ortasında idi, dedi:

– Ey dəriğ kim, atam didarindən doymayincə **[31a]** dirilik riştəsi üzüb, quyınıŋ dibinə düşdüm.

Canından köŋül götürüb özini Taŋrıyə tapşurdı. Cəbrailə xitab gəldi kim, "*ədrik əbdi*"[112], yə'ni mənüm bəndəmi bulagör. Cəbrail dərhal sidrətül-müntəhadən quyınıŋ ortasında Yusifə yetüb anı dutdı. Yusifüŋ ussı getmiş idi. Bəs, ahəstə-ahəstə quyınıŋ dibinə yetürüb bir böyük daş üstinə yatdurdı. Xitab gəldi ki, ey Cəbrail, uçmağdən bir hüllə gətür və aŋa geydür və cənnətüŋ Kövsərindən şərbətlər aŋa içür və anuŋ başını götür və dizüŋ üsnə qoy və qanatuŋ anuŋ yaralarına sürt, ta sağalsun. Çün ussı gələ, mənüm səlamum aŋa yetür və soylə: hiç qayğulənmə ki, biz səni təxtü cah[113] içün yaratmışuz, nə quyınıŋ dibi içün. Cəbrail dedi kim, icazət ver kim, özümi Yəʾqub surətinə aŋa görsədəyim, ta bir saət anuŋ ilən təsəlli və təskin tapa. Taŋrıdan əmr oldı kim, bəylə eylə. Cəbrail Yəʾqub surətinə dönüb, Yusifüŋ başını götürüb, dizi üstinə qoydı. Yusif çün ol ussusizlikdən əqlə gəldi, başını gördi kim, atası kənarindədür. İki əli ilən Ruhüləminüŋ [boynına] çəküb, fəryad çıxardı kim, ya əbətah, xanda idüŋ ki, qərdaşlar maŋa nə cəfalar etdilər və məni[114] sənüŋ qulluğuŋdan

---

[111] Bu cümlə əlyazmada səhvən iki dəfə yazılmışdır.

[112] *Mənim bəndəmi tap*.

[113] Əlyazmada səhvən *çah* (quyı) yazılmışdır.

[114] Əlyazmada: *mən.*

ayrıdub, səni mənüm fəraqümə mübtəla qıldılar və məni[115] baş-əyağ ilən yalın tikənlü yabanlərdə səgirtdilər və məni ac-susiz qoydılar və yəŋağümdən çəpəlaq ilən qanı rəvan etdilər **[31b]** və saçümi toprağ ilə qanə bulaşdurdılar. Ol köŋlək ki, öz əlüŋ ilən maŋa geydürmiş idiŋiz, başümdən çıxardılar və xarilig ip belümə bağladılar və bidadlığ əyağı arxamə urdılar və başı quyi quyıya asdılar. Ey ata, yüzümə bax və çəpəlaq yarəsi gör və qapurğam ilən arxamə bax və cərahətləri təfərrüc et.

Yusif bunları der idi və quyınıŋ divarlərindən nalə üni gəlür idi və Cəbrail xüruş edərdi və mələikə ağlar idilər. Soŋra Cəbrail taqətsiz olub dedi:

– Ey Yusif, mən Yəʾqub dəgüləm, bəlkə Cəbrailəm və Taŋrı-təala məni göndərübdür.

Pəs Taŋrınıŋ səlamı aŋa yetürdi və xilas və nicat muştuluqi qulağına söylədi və öz məqaminə qayütmək istədi. Həzrət İzzətdən nida gəldi ki, ey Cəbrail, üç-dörd gün quyıda qərar dut və Yusifüŋ başı dizüŋ üsnə qoy ki, ğəribdür və yarü diyarindən irağ düşüb, köŋli qərdaşlarınuŋ rəhmsizligindən pərişan və pürdağ olupdur.

Beyt:
Anuŋ yoq munisi, yoq qəmgüsari,
Düşüpdür quyidə bəylə bə-xari.

Rəvayətdür ki, Yəʾqubuŋ oğlanları ol gecə Kən'anə vardılar və Yəʾqub ol gün Yusifüŋ intizarində Şəcərətül-vida kölgəsində oturub, Yusifüŋ qızqərdaşı ilən şövq sözində idilər. Əxşam nəmazı çağı gəldi və oğlanlarınuŋ gəldügindən hiç əsər gözükmədi. Yəʾqubuŋ canından tütün iyi dimağ günbədinə çıxdı və dedi.

Beyt:
Gəldi əxşam və mənüm gültək nigarüm gəlmədi,
[32a] *Yandı köŋlüm qayğulərdən, qəmgüsarüm gəlmədi.*

Yəʾqub dedi:

[115] Əlyazmada: *mən.*

– Ey Dəyna, qərdaşlaruŋa nə oldı kim, gec gəlürlər və səbəb nədür ki, Yusifüm rüxsarınuŋ Ayı vüsal məşriqindən taleʼ olməz və camalıniŋ şəmʾi qəraŋğulu fəraq külbəsi yüzi nurindən aydın eyləməz? Ey qız, Yusifüŋ müfariqət xiyalindən və anuŋ mühacirət təsəvvürindən həsrət odı şöʿlələnüb qərar və aram gəmisi iztirab dəŋizinüŋ ğərqabinə düşüpdür.

Beyt:
Noldi, ya Rəb, kim, bu gün arami-canum gəlmədi,
Getdi canum təndən, ol ruhü rəvanum gəlmədi.

Yusifüŋ qızqərdaşı Dəyna atasına təsəlli verüb der idi:

– İşlərüŋ təvəqqüf səbəbi çoxdur.

Əlqissə, Yəʾqub gecə həm ol ağacuŋ altında yatdı. Səbah bir ucə təpənüŋ ustinə çıqdı və qızını yamacında oturtdı və gözi yolə tiküb intizar çəkər idi.

Beyt:
Gözümdür yoldə kim, yarüm gəlisər,
Səvinür dil ki, dildarüm gəlisər.

Əmma Yəʾqubuŋ oğlanları ol gecə quyınıŋ[116] üstində yatdılar və uyxu anları apardı. Yəhudanuŋ uyxusi gəlməz idi. Həman kim gördi kim, qərdaşları uyudılar, qənimət bulub, yalğuz[117] qalxub ol quyınıŋ başına vardı və avaz verdi ki, ey qərdaşum Yusif, aya dirimisən, ya ölü?

Yusif anuŋ ünin eşidüb cəvab verdi kim, sən kimsən ki, biçarələrüŋ halını sorarsən və ğəribləri aŋarsən?

Dedi:

– Mənəm[118], Yəhuda – sənüŋ qərdaşuŋ. Ey qərdaş, haluŋ nədür?

Yusif **[32b]** ağlamağə düşüb dedi:

---

[116] Əlyazmada: *quyun*.

[117] Əlyazmada: *yalğub.*

[118] Əlyazmada: *mənüm*.

– Ey qərdaş, nola bir kimsənüŋ halı ki, atasınuŋ kənarindən ayrılmış ola və quyınıŋ dibində ölümə yaxınlamış ola? Gəvdəsi çəpələq, dodağı susız, qarnı ac, köŋli pərişan və yürəgi fəraq odı ilən biryan. Anuŋ nə munisi və nə yarı, nə həmdəm ilə qəmgüsarı[119]. Nə yerüŋ üstində yeriyən kimi yerür və nə yerüŋ altında ölülər kimi yatur.

Yəhuda Yusifüŋ yürəgi dərdindən xüruşə gəlüb, anuŋ uşağlığinə və ğəribliğ ilən yalğuzlığinə çoq ağladı.

Yusif quyınıŋ dibində avaz çəküb dedi:

– Ey qərdaş, vəsiyyət çağıdur, nə tə'ziyət həngamı.

Yəhuda dedi:

– Vəsiyyətüŋ nədür?

Yusif dedi:

– Mənüm vəsiyyətüm oldur ki, çün əxşam nəmazı çağı qərdaşlaruŋ ilən evə gedəsən, mənüm bikəslügimdən aŋasız və yemək çağı aclığümdən yad eyləŋiz. Səbah çün yastuğdən baş götürüb don geyəsiz, mənüm çıplağlüğümni unutməŋiz və şadiliğ çağında ki, bir-biriŋiz ilən oturub hənəkləşəsiz, yalğuzliğ ilə pərişanliğümni xatiriŋizə keçürüŋ.

Beyt:

Murad belinə çün əllərüŋ kəmər qıləsiz,
Aradə söhbətimüŋ əhdi yad ediŋ, zinhar.

Və nə müvafiqdür bu vəsiyyət Şəhidi-Kərbəla vəsiyyətinə. Axir qatla ki meydanə varur idi, fərzəndi-ərcüməndinə – İmam Zeynəlabidin (ə) kim, anı çağırub, qucağlayub dedi:

– Ey atanuŋ əzizi vey atanuŋ ğəribi və yetimi! Məndən soŋra cəddüŋ **[33a]** saleh ümmətlərinə va atam və anam dustlarinə söylə ki, Hüseyn (ə) sizə səlam yetürdi və buyurdı ki, ey dustlar və həvadarlar, hər yerdə kim, bir ğəribüŋ zikrin eşidəsiz, mənüm ğəribliğüm ilən yalğuzliğümdən yad eyləŋiz və hər mənzildə kim, bir şəhidnüŋ adın aparəsiz, mənüm şəhidliğümni xatiriŋizdə keçürüŋiz və çün su içəsiz, cigərüm yanmış susizliğindən fəramuş eyləməŋiz.

---

[119] Əlyazmada: *qəmgüsar.*

Beyt:
Çün içəsiz bir savux su, məni bir kəz yad ediŋ,
Bağrımuŋ qanından, əz-suzi-cigər fəryad ediŋ.

Əlqissə, Yəhuda ol vəsiyyətüŋ suzindən xüruş çəkdi və ol bir yigit idi qatı ünlü. Avazı qərdaşlaruŋ qulağına yetdi və ol avazuŋ əsərinə getdilər. Çün quyınuŋ başına yetdilər, gördilər kim, Yəhuda quyi üstində oturub ağlar. Dedilər:

– Ey Yəhuda, nişün yığlarsən?

Dedi:

– Bu yetim ğəribüŋ halına və biçarə avarənüŋ ətvarinə yığlaram və necə yığlamayım?!

Şe'r:
Gözümdən qan rəvan oldi anuŋ qəddi halindən,
Qərarum qalmadı bir dəm anuŋ yadi cəmalindən,
Qodüg[120] *əldən düzliğini, könüldən damdı xuni-dil,*
Sanasın bir damardur, can asılmış xəmü dalindən.

Qardaşlar Yəhudayə məlamət etdilər və quyınuŋ başına bir daş qoyub Kənʾan sarusinə rəvan oldılar. Və Yusifüŋ könləgi qan ilə bulaşdurub, bilə götürüb, ikindü nəmazı çağı ol təpənüŋ yavuğinə ki, Yəʾqub anuŋ üstində idi və həmə gün[121] gözi intizar yolinə tiküb oturmış idi, yetdilər. Nagah bir toz ol yabandan **[33b]** qopdı. Yəʾqub qızından sordı kim, bu, nə tozdur? Dedi:

– Əcəb dəgül ki, mənüm qərdaşlarumdurlar kim, gəlurlər.

Dedi:

– Yaxşıcə baq kim, anlardurlar, ya yoq?

Dəyna baxdı, gəvdəsi titrəməgə düşdi. Yəʾqub dedi kim, ey qız, saŋa nə oldı? Qız dedi:

– Ey ata, qərdaşlarum gəlürlər, əmma Yusif anlar ilən bilə dəgüldür.

---

[120] *Qoyduq.*

[121] Əlyazmada: *gün həmə gün.*

Yəʾqub bu xəbərdən bir ah çəkdi və dedi:

– Anları çağır, ta bu təpə üstinə çıxsunlar.

Dəyna bir nəʾrə urdı ki, ey qərdaşlar, yuqaru gəlüŋ ki, büzürgvar ataŋız burada sizüŋ intizarindədür. Və çün oğlanlar bildilər ki, atası andadur, həm ol aşağədə əl urub yaqaları çak etdilər və daŋ xorusi kimi xüruşə gəldilər ki, *"va həbibahu va əxahu va Yusifah"*.[122]

Yəʾqub dedi:

– Ey qız, bu, nə fəryad və qovğadur və bu nə çığırmağ ilən ahü əfğandur ki, gözlərdən qan rəvan edər və bu nə yanməkdür ki, anuŋ əsərindən heyrət odı köküs ocağında yanar və bu nə xüruşdur ki, anuŋ heybətindən həsrət suyi didədən axar.

Şe'r:

Hər gözümdən görərəm kim, mövc urar tufani-qəm,
Hər dodağdan eşidür guşum sədayi-zirü bəm.
Yusifüŋ əhvalini bilmən necə keçdi, vəli
Bu qədr bildüm ki, hala məndədür cövrü sitəm.

Dəyna qulağ asdı kim, məʾlum eyləyə ki, qərdaşlarınuŋ fəryadı nədən ötrüdür və atasına xəbər verə. Bu qovğadə Yəʾqub əyağdən düşüb ussı uçdı. Dəyna çığırdı ki, ey qərdaşlar, yügürüŋ və qarı ataŋızı buluŋ kim, anuŋ halı xərabdur [**34a**] və ixtiyar əldən gedər. Anlar yügürüb təʾcil ilən yetdilər, atayı ol halətdə gördilər, canlarından fəryad çıxdı. Ruil gəldi və atasınuŋ başı dizi üsnə qoyub, əlini anuŋ ağzı yanına aparub, nəfəsin əsəri görmədi, çığırmağə düşdi. Yəhuda dedi:

– Ey qərdaşlar, bu, nə əməl idi ki, özüŋüzə eylədiŋiz: ataŋızı zayeʾ ettiniz və qərdaşıŋızı quyıya saldıŋız və xəlqüŋ məlamət dili özüŋizə uzatdıŋız və yad ilə tanışuŋ ağzını özüŋizə açdıŋız və öz namus pərdəŋizi əlüŋiz ilən yırttıŋız və qəvmlik riştəsi kəsilmək qılıcı ilən üzdüŋiz?!

Bəylə çığırə-çığırə atayı götürüb evə apardılar. Yəʾqub həm bəylə ol gecə ussız yatmış idi səhər çağınədək ki, daŋ yeli Taŋrınuŋ lütfindən əsdi. Yəʾqub gözin açdı və dedi:

---

[122] *Vay əzizim, vay qardaşım, vay Yusif!*

– Gözümnüŋ aydınlığı xanı?

Anlar qanlu köŋləgi çıxarub qurtuŋ hekayəti ortayə gətürdilər. Yeŋidən Yəʾqub bihuş oldı. Dəyna atası başı yanına ağlayə-ağlayə gəldi və əlin anuŋ mübarək fərqinə qoyub vaveylah nəʾrəsi və va musibətah üni çəküb gözlərindən yaşlar axdı və yaşından bir qətrə Yəʾqubuŋ mübarək çehrəsinə damdı. Gözin açub dedi:

– *"Əynə ənа?"*[123], yə'ni mən nərədəəm?

Dedilər:

– Öz kəramət mənziliŋdə və səadət eviŋdə.

Dedi:

– Mənüm Yusifüm mundadur?

Dedilər:

– Yoq, özgə oğlanlaruŋ bundadurlar.

Beyt:

Gülü bənəfşə qamu cəm'ü gülizarum yoq,
Nigarlar qamu əldə, vəli nigarum yoq.

[34b] Əlqissə, Yəʾqub Yusifüŋ fəraqində ol qədr nalələr çəkdi ki, bitün firiştələr fəryadə gəlüb dedilər:

– İlahi, Yusifi aŋa gerü ver, ya Yəʾqubi xamuş eylə, ya bizə rüxsət ver, ta dünyayə varub, Yəʾqub ilən ahü nalədə müvafiqət eyləyəüz.

Hər səbah Yəʾqub yazılarə varub, Kən'anuŋ çəvrəsinə gəzüb der idi:

– Ey dilbənd fərzənd, vey gözüm nuri vey köŋlümüŋ bağınuŋ yemişi və yürəgümüŋ sərvəri vey bağırum parəsi, *"fi əyyi bi'iri tərədukə"*[124]– aya, səni hanğı quyıya salubdurlar? *"Bi-əyyi səyfin qətlukə"*[125] – aya, səni hanğı qılıc ilən həlak eyləyübdürlər? *"Bi-əyyi bəhrin əğrəqukə"*[126] – aya, səni hanğı dəŋizə salubdurlar? *"Bi-əyyi ərzin dəfənukə"*[127], – hanğı büqʾədə səni dəfn qılubdurlar?

---

[123] *Mən haradayam?*

[124] *Səni hansı quyuya salıblar?*

[125] *Səni hansı qılıncla öldürüblər?*

[126] *Səni hansı dənizdə batırıblar?*

Bəylə pərişan ol yazılarda gəzüb gözindən həsrət yaşı axar idi, əylə suz ilə ki, əflak günbədinə urar idi. Cəbrail aŋa gəlüb dedi:

– Ey Yəʾqub, gögüŋ firiştələri ağlamağünŋdən yığlamağə düşdilər və ərşüŋ mələkləri naləyə və əfğanə gəlübdürlər.

Yəʾqub dedi:

– Ey Cəbrail, ağlamayub neyləyim?

Beyt:

Qan ilə köŋlüm doludur, necə nalə çəkməyim?
Candurur qayğulu, necə ağlamayım zar-zar?

Əlqissə, Yəʾqubüŋ gözi Yusifüŋ fəraqindən ağlardı əz-bəs kim ağladı, əylə ki, Taŋrı-təala buyurubdur: "*Vəbyəzzət əynahu min əl-huzni fəhuvə kəzim*".[128]

Rəvayətdür ki, İmam Zeynəlabidin Əli ibnül-Hüseyn (ə) Kərbəla vaqiəsindən soŋra çoq ağlar idi.

[35a] Dedilər:

– Ya Bin Rəsulullah, çox ağlarsən və qorxaruz ki, çox ağladüğünŋdən bir nöqsan gəvdəŋə, ya bir zəhmət gözüŋə dəgə.

Dedi:

– Ey dustlar, məni məʾzur dutmək gərəksiŋiz. Yəʾqub Taŋrınuŋ peyğambəri idi və on iki oğlınuŋ atası. Anlardan birisi itdi, ol qədr ağladı kim, gözi ağardı. Mənüm ki nəzərümdə büzürgvar atam qərdaşlarum ilən və əmmümlərüm və əmmüm oğlanları ilən və qəvmüm və dustlarum şəhid eyləmiş olalar, necə ağlamayım? Bir adəmüŋ fəraqində ol qədr ağlamağ vaqe oldı, yetmiş iki şəhidlərüŋ halı necə?

Beyt:

Aləmdə fəraqdən yamanrak nə ola?
Ol kimsə ki çəkmədi fəraq,ol nə ola?
Derlər maŋa kim, fəraqdən ağlama cox,
Kim ağlamasa fəraqdən, ol nə bula?

***

---

[127] *Səni harada dəfn ediblər?*

[128] *Kədərindən gözlərinə ağ gəldi. Bununla belə o, dərdini içində çəkirdi.* (Quran, 12: 84)

Yusifün (ə) ibtilası məxluquŋ bəndəligi idi

Rəvayətdür ki, çün Yusif (ə) quyıdan xilas oldı, qərdaşları xəbər buldılar, filhal gəldilər və Yusifə yabışub dedilər ki, bu, bir quldur xanəzadımız və bizdən qaçmış idi. Munı nərədə buldıŋız? Əlqissə, çox bəhslər etdilər, axir anı on yedi qəlb dirəmə satdılar, ol şərt ilən ki boynına bir qüll taxalar və əlləri ilən zəncirə çəksünlər ki, qaçıcı quldur. Və anı daim ac-susiz və çıplaq saxlasunlar ki, mütəkəbbir və sərkeşdür, ta boynın qulluğə endürə. Yusif qərdaşlarına baxub bu sözləri anlardan eşidür idi, **[35b]** vəli söz deməgə qüdrət bulməz idi və gizlü razı aşkar eyləmək məcal görməz idi.

Beyt:
Açılmus bir əcaib gül mənüm bağümdə kim, anuŋ
Nə rəngin aşkar etmək olur, ni buyi gizlətmək.

Malik ki Yusifi satun almış idi, adəmlərinə dedi kim, qüll ilə zənciri hazir etsünlər. Həman ki Yusifüŋ gözi qüll və zəncirə düşdi, fəryad çəkdi. Malik dedi:

– Ey qulcuğaz, iztirab etmə ki, hər kim qaçıcı oldı, əlbəttə, anı bu bəlalərə giriftar etmək gərəkdür, ta aŋa pənd olsun.

Yusif dedi:

– Mən bu zəncir və qüldən əfğan çəkmədüm, ol gündən fikr eylədüm ki, Taŋrı-təala damunuŋ zəbanilərə əmr etsün ki, dutuŋız bu asi bəndəni və boynına qüll taxuŋız ki, xidmətdən boyun əgibdür və fərmandən baş çəkübdür və əyağı zəncirə çəküŋ ki, buyruğ dairəsindən əyağ dışxarı qoyubdur.

Malik bu sözlərdən mütəhəyyir olub gizlü aŋa dedi ki, qəm yemə ki, mən xacələrüŋ nəzərində səni bənd eylərəm. Köŋlüŋ xoş dut ki, çün anları pəsi-sər eyləyəüz, boynüŋdən qüll və əyağüŋdən zəncir götürdərəm[129]. Pəs, qərdaşları hüzurində

Beyt:
Dəmürdən əyağinə qoydılar bənd
Kim, olur sərv daim pay dər-bənd.

[129] Əlyazmada: *götürdüm.*

Bir əski şal aŋa geydürdilər və çoq təhdid ilə qorxu verdilər. Yəʾqubuŋ oğlanları xatirləri cəmʾ qıldılar və Kən′anə yuz urdılar. Yusif daxi ağlamağə düşdi. Malik dedi:

– Ey qul, nişün ağlarsən, iztirab etmə [**36a]** və səbr qapusı köŋlüŋ yüzinə aç.

Dedi:

– Ey Malik, fəraqdə təhəmmülüm yoqdur, maŋa rüxsət ver, ta varayım və məni satanlarə vida edəyim.

Malik dedi:

– Ey oğul, mən[130] anlardan sənüŋ içün zərrəcə mehrü məhəbbət görmədüm və səndən nifrət edüb vəhşət eylərlər. Sənüŋ rəğbətüŋ anlardan nədən ötrüdür?

Dedi:

– Əgər anlaruŋ məndən nifrəti var, mənüm köŋlüm anlarə çox rəğbəti var və əgər anlar məni sevməzlər, mən anları sevərəm. Sən bir kərəm eylə və anlarə söylə kim, təvəqqüf etsünlər.

Malik çığırdı kim, ey yigitlər, bir saət duruŋ ki, bu qul istər ki, sizdən hələallığ istəyə. Pəs Yusifə dəstur verdi kim, var və xacələrüŋi vida eylə. Yusif əyağı zəncirlü ahəstə-ahəstə qərdaşları yanına gəlüb dedi:

– Ey əzizlər, hər nəstə kim qıldıŋız, təhəmmül eylədüm. İmdi sizdən umaram ki, atamuŋ ağlamağ çağı təsəlli verəsiz və anuŋ qulluğın can ilə eyləyəsiz və mən ğəribi-bəlakeşi[131] xatiriŋizdən gidərməyəsiz.

Yəhuda ağlamağə düşdi və Yusifi qucağlayub dedi:

– Ey qərdaşuŋ canı, ər kimi ol və öz işüŋi Taŋrıyə həvalə eylə.

Və Yusifi pəlas ilə qüll və zəncir bilə devəniŋ ustinə saldılar və bir irixuylu, çirkinyüzlü qula anı tapşurdılar və karvan Misr tərəfinə rəvan oldı. Yusif ardına baxub dedi:

– Ey ata, bədürud ol və məndən məʾzur dut ki, ğəribliğ rəncinə və bəndəlik [**36b]** xariliğinə giriftar olubəm.

---

[130] Əlyazmada: *məni.*

[131] Əlyazmada: *bəlakeş.*

Karvanlu[132] qamu gecə[133] devələri sürər idilər. Səhər çağı İshaquŋ alınuŋ guristaninə yetdilər. Yusif aşağə baxdı, anasınıŋ qəbrini gördi. İxtiyarsuz olub özini devə üstindən anası qəbri üstinə saldı və ol həqlərdən ki uşağlığ çağı ana aŋa salmış idi və mehri və şəfəqqəti xatirinə gətürüb, gözlərdən neysan yağışı kimi yaşlar ərğəvani yüzi təki axdı və dedi: "*Ya ummahu, irfə' rə'siki*"[134] – başüŋi gotür və toprağ pərdəsi nəzərüŋ qarşusindən gidər. "*Və unzuri ila ibnəki*"[135] – və fərzəndi-dilbəndüŋ halına bax. "*Əna ibnəkil-məğlul*"[136] –mənəm, oğluŋ ki, boynümdə qüll və ələüm ilə əyağümdə zəncir və əgnümdə əski şal var və bəndəlik töhmətinə məni satdılar və qarı atamuŋ köŋli hicranümdən yandurdılar. Rahil gurindən bir avaz çıxdı kim, "*ya qurrətu eynah*"[137], yə'ni ey bəgənilmiş fərzənd vey gözümüŋ nuri, "*əksərət həmmi*"[138] – mənüm qayğümi çoxaltduŋ və canümi dərd qılıcı ilən əfgar etdüŋ. "*Fəsbir*"[139], "*innəllahə məəs-sabirin*"[140] – səbr eylə ki, səbr eyləyənlərüŋ yardımcısı Taŋrıdur. Hər kim səbr qalxanı yüzinə çəkə, zəfər ələmi murad meydanində durğuzə.

Nəzm:

Səbr ilə zəfərdürlər bir-birilə eski yar,
Hər kimə zəfər gərək, səbr etmələüdür naçar.
Gər ağuyi içürsə dövran saŋa, igrənmə
Kim, səbr qılur şirin ağzuŋ, səni qoymaz xar.

Əmma çün gün aydın oldı, ol **[37a]** qul ki, Yusifüŋ saxlacısı idi, baxdı kim, Yusif devə üstində yoxdur, geriyə səgirtdi, gördi kim, bir qəbrüŋ üstində oturub zar-zar ağlar. Ol rəhmsiz qul Yusi-

---

[132] Əlyazmada: *karvan.*

[133] Əlyazmada bu söz birləşməsindən əvvəl *gecə* sözü yazılmışdır: *gecə qamu gecə.*

[134] *Ey anam, başını qaldır.*

[135] *Oğluna nəzər sal.*

[136] *Mənəm – əli və ayağı zəncirlənmiş oğlun.*

[137] *Ey gözümün işığı.*

[138] *Dərdimi çoxaltdın.*

[139] *Səbr et.*

[140] *Allah səbr edənlərlədir.* (Quran, 2: 153)

füŋ yəŋağinə bir çəpəlaq urdı kim, nazik rüxsarı çatlayub qan rəvan oldı. Pəs dedi:

– Ey qul, xacələrüŋ doğru dedilər ki, sən qaçıcısən.

Yusif hiç [nə] demədi, əmma əylə dərd ilən ağladı ki, mələkut sövməəsində[141] qəlqələ və cəbərut məcmə'ində vəlvələ düşdi. Filhal bir tünd yel əsdi və bir qübar və toz qalxdı və bir ildırım və saiqə çıxdi [ki,] şərhin etmək olmaz. Karvanlu dedilər:

– Bizdən bu yaxında hiç suc zahir olmadı ki, bu üqubətüŋ mövcibi ola.

Daşyürəklü qul gəldi kim, mənüm şumlüğümdəndür ki, bu saət bu ibri quluŋ yüzinə bir çəpəlaq urdum və ol gözindən yaş axdurub köŋül dərdindən naləyə gəldi. Həman ki andan bu surətlər zahir oldı, bu qovğalər qopdı. Malik dedi:

– Ey qul, bu ədəbsizligüŋ səbəbi nə idi?

Qul dedi:

– Ol özini devədən salmış idi və istər idi kim, qaça.

Malik dedi:

– Bu, namə'qul sözdür, hiç kimsə qüll ilə zəncir [ilə] qaça bilür?

Bəs Yusifüŋ yanına gəlüb dedi:

– Ey yigit, qaçməgə qəsd eyləmiş iduŋ?

Dedi:

– Ey Malik, mənim sitiz başum və güriz əyağum yoxdur. Anamuŋ qəbri üstinə yetdüm və səbrə təhəmmülüm qalmadı, taqətüm **[37b]** ipi iztirab qılıcı ilən kəsildi. Andan kim, anamuŋ xatirində hərgiz keçməmiş idi ki, mən qüll və zəncir ilən anuŋ toprağı üstinə və bəndəlik dağı ilən gələm. Çün anuŋ qəbrini gördüm, ixtiyarsız özümi devənüŋ üstindən yerə saldum və köŋlümüŋ qayğusi aŋa izhar edərdüm və qüssəlü qissəmi aŋa der idüm ki, nagah bu qul gəldi və yüzümə bir çəpəlaq urdı və mən hiç qarqış eyləmədüm, vəli dərdlü köŋlümdən bir ah çəkdüm.

[141] Əlyazmada: *sövməədə.*

Karvanlu varı ağlamağə düşdilər və çox zarilik etdilər. Aya, həzrət Risalətpənahuŋ hücrəsi müxəddəratı Kərbəla dəştində çün şəhidlərüŋ başları cidə başında gördilər və gəvdələri başsız toprağ ilə qanə bulaşmış baxdılar, ağlamağı nə qayətdə və zarilik etdükləri nə həddə imiş?!

Rəvayətdür ki, İmam Hüseynüŋ (ə) şəhadətindən soŋra məlˈun Ömər Səˈdi kim, şəhidlərüŋ başları cidə başına eyləyüb, gəvdələri meydan toprağı içində qoydılar və hökm etdi kim, İmam Hüseynüŋ hərəmi və qızqərdaşları və qızları ol səvaş meydanində keçürsünlər. Həman ki ismət pərdənişinlər və təharət və iffət hücrəkilər ol hərb meydaninə yetdilər və ol başsız gəvdələri gördilər, ixtiyarsız nalələr çəkdilər və gög sarusinə əfğan ələmi durğuzdılar. Zeynəb ki İmam Hüseynüŋ qızqərdaşı və Fatimeyi-Zəhranuŋ qızı idi, fəğan qopardı ki, **[38a]** "*va Muhəmmədah va əvlu cəddah və həza Huseynikə bil-əza*"[142] –bu, sənüŋ Hüseynüŋdür ki, bu yazıda başını kəsübdürlər və hörmət pərdəsi vəqahət əli ilən yırtubdurlar. "*Muraməməl bid-dima*"[143] – bu, sənüŋ gözüŋ aydınlığıdur ki, mübarək bədəni kim, qucağuŋda tərbiyət almış idi, toprağ ilə qan içində düşübdür. "*Munqəta ul- əˈ-za*"[144] – bu, nübüvvət bağınuŋ reyhanəsidür ki, gəvdəsi parə-parə eyləyübdürlər.

Rəvayətdür ki, Zeynəbüŋ sözindən qamu ləşkərlər ağladılar və qanlu yaş gözdən axıtdurdılar.

Ey əziz, Kərbəla şəhidlərüŋ halına düşmənüŋ gözi ağlamaqdən diŋməz**.** Əgər dustlar və mühiblər aŋlaruŋ müsibətində[145] ağlaşalar, hiç ğərib və əcib yoxdur.

Nəzm:

Ey gözüm, gəldi mühərrəm ayı, dur qan ağlagil,
Mustəfanıŋ sibtiçün durma, firavan ağlagil.
Çəkməgil mundən gerü gizlüdə ahi-dərdnak,

[142] *Vay Məhəmməd, vay baba, bu, sənin Hüseyninin matəmidir.*
[143] *Qanına qəltan olmuş.*
[144] *Bədəni parça-parça doğranılmış.*
[145] Əlyazmada: *müsibətdə.*

Kərbəla şahi içün peydavü pünhan ağlagil,
Ey könjül, övladi-Peyğambərni yad et hər nəfəs,
Qətrə-qətrə axma yaş, çün əbri-neysan ağlagil.

***

Yusifün bir ibtilası daxi

Bavücud ol kim, hicran dərdi çəkmiş idi və zindan rənci görmiş idi, ol ki Misr əzizi Yusifi satun aldı və Züleyxa anuŋ eşqinə giriftar oldı, nə qədr ki hilələr eylər idi, müyəssər olmadı ki, Yusifi həva nəfsinə müqəyyəd eyləsün. Və Misr xatunları Züleyxayə məlamət dili açdılar. Çün Züleyxanuŋ eşqi məcazi [idi], ənduh və məlaməti götürməz idi, anuŋ içün kim, anuŋ eşqi avazəsi və şövqi təntənəsi bitün Misr məmləkətində məşhur və məʿruf olmış idi. Çün iş **[38b]** töhmət və böhtanə yetdi, bavücud ki özi günahkar idi, Yusifə töhmət bağladı və dedi:

– Məndən hiç eyb zahir olmadı, bəlkə bu qüsur Yusifüŋ tərəfindən zühur olubdur.

Və munuŋ ilən razi olmadı və məʿşuqəsi zindanə saldı, ta töhmət hekayəti və şikayət məlaməti andan dəfʿ olsun. Əmma bu məʿniyə yetmiş idi ki, məlamət gərçək aşıqlərüŋ süfrələrinüŋ duzıdur.

Beyt:
Bu məşəqqət kuyidür, munda məlamət çoxdurur,
Gər çəkəməzsən məlamət, girmə bu meydan ara.

Əlqissə, çün xəlqüŋ dili Züleyxanuŋ irzində uzandı və hər tərəfdən məlamət qapusı anuŋ yüzinə açıldı, dəmürciyi çağırub dedi:

– Bir ağır zənciri düzət və bir bərk silsilə tərtib et kim, bu ibri quluŋ əyağinə və əlinə qoyayım və bir neçə gün zindanə salım, ta aŋa ögüt olub yumşansun.

Dəmürcinüŋ nəzəri həman ki Yusifüŋ əlinə və əyağinə düşdi, dedi:

– Ey Züleyxa, bu oğlan həzə yaş ilən kiçidür və ağır zənciri götürəməz və taqətsiz olur.

Züleyxa anı hayxırub dedi:

– Sən nişə aŋa rəhm eylərsən və günahkarlarə rəhm yoxdur.

Bəs dəmürci zəncir və bəndi düzədüb gətürdi və Yusifüŋ əlinə və əyağinə qoydı. Züleyxa buyurdı kim, anı bəylə zəncirlü dəvarə mindirdülər və Misr bazarında gəzdürdilər və carçı biləsincə carladı ki, hər kim əziz hərəmində xəyanətlik eyləyə, anuŋ səzası budur. Və Züleyxa bir eski don geydi və Yusifüŋ[146] yoluŋ üstində **[39a]** oturdı, ta baxsun ki, Yusif nə deyəcəkdür. Bəs, Yusif naləyə gəlüb dedi:

– Ya Rəbb, sən canumuŋ sirrindən xəbərdarsən ki, mən atam qayğusindən ba-naləvü əfğanəm və qərdaşlarum cəfasindən ğürbətdə sərgərdanəm və imdi daxi giriftari-bəndü zindanəm. Səndən özgə kimsəni bilməzəm.

Nəzm:

Misr eli işümə heyrandur, İlahi, neylim,
Xatirüm qatı pərişandur, İlahi, neylim,
Sən maŋa yar ol ki, Səndən özgə kimsə bulmənəm
Kim, köŋül yarası dərmandur, İlahi, neylim,
Zariliklə məni ayırdı fələk Yə'qubdən,
Qayğudən köksümni biryandur, İlahi, neylim,
Bir köŋül qaldı maŋa ğürbətdə anuŋ içi həm
Hicrdən doptalu əfğandur, İlahi, neylim,

Cəbrail gəldi və dedi:

– Ey Yusif, qayğulənmə.

Misra[147]***:***

Silsilə zəncir dövri-əslanlərə zivərdürür.

Zinhar ki, zindandən qəm yemə və zəncirdən köŋlüŋə ənduh gətürmə ki, zindanə girmək dəvlət bustanınuŋ təravəti səbəbidür və qızılgül qönçənüŋ darlığından canpərvər iyi hasil edər və əzfər ipar göpəgindən qoxuyi ələ gətürür.

---

[146] Əlyazmada: *Yusifi.*

[147] Əlyazmada: *Şe`r.*

Nəzm:

Gərçi dardur, Yusifa, zindan saŋa,
Andan artar saŋa izz ilə şərəf.
Anuŋ içün incü qiymətlüdürür
Kim, yatubdur neçə gün əndər-sədəf.

Əmma, ey Yusif, bil kim, Züleyxa gəlübdür və yoluŋ üstində oturubdur kim, görsün ki, sən necə pərişansən və xilas içün kimə yalvarursən. Zinhar ki, yüzüŋi tazə dutub qaşüni [**39b]** dügünləmə və ögüŋdən baş çıxarmayub sağə və solə və öŋə və ardə baxmayəsən. Gülə-gülə get və xatirüŋdə keçürmə ki, səni gülistandən zindanə aparurlar, ta mən ol zindanı saŋa gülistan kib edəyim.

Beyt:

Qəm yemə, çün kim yerüŋ zindan olur,
Səndən ol bustani çün zindan olur.

Çün Yusifi əziz qapusindən zindanə apardılar, yüz miŋ adəm: ərkək və dişi anuŋ təfərrücinə çıxdılar. Kişilər daşlar köküslərinə urər idilər və dişilər dırnağları ilən yüzləri parə-parə edər idilər. Misrüŋ elindən qovğa qopdı. Birisi der idi "biçarədür" birisi çığırurdı kim, "məhrumdur", birisi fəryad qılurdı kim "bu kən'anlu ğərib içün yüz miŋ ah". Birisi der idi: "Bu zindanlu əsir içün yüz miŋ fəryad". Ol ün çıxarur idi ki, "bu, nə rəhmsizlikdür". Bu, fəryadə gəlür idi kim, "bu nə bidadlikdür". Bir boyun ki görkyüzlü hurlaruŋ əlləri gərək kim, aŋa həmayil ola, zəncirə nə nisbət və bir əl ki mişkinsaçlu dilbərlər boynı gərək kim qucağlasun bəndü kəməndə nə cəhət? Hər kimüŋ nəzəri Yusifüŋ cəmalınə düşər idi, filhal ussı gedüb, dəlü olub, eşqə giriftar qalub könli əldən gedər idi və hal dili bu nəğmə ilən mütərənnim olur idi.

Beyt:

Rəqib, ol sərvi-dilcunuŋ nə səbəb bəndü zəncirə,
Məni zəncirə çək kim, olmişəm divanə ol Aya[148].

[148] Yusifin üzünün Ay kimi gözəl olmasına işarədir.

[40a] Rəvayətdür ki, çün Yusif Züleyxanuŋ qarşusinə yetdi, carçınıŋ dilinə keçdi kim, *"həza ğulamun min Kən'an"*[149] – bu, bir quldur Kən'anlu, ibri dillü, *"vəl-Əziz əleyhi ğəzbani*[150]" – və Misr əzizi aŋa qəzəb eyləyübdür. Cəbrail gəldi və dedi:

– Ey Yusif, carçınıŋ cəvabını ver kim,*"həza xeyrun min ğəzəbir-Rəhman"*[151] – bu xarilik yegrakdür Taŋrınuŋ qəzəbindən və Sübhanuŋ üsyanindən və dinüŋ müsibətindən *"və duxulin-niran"*[152] – və damunuŋ odından və qətranuŋ köŋləgi geyməgindən, ta biz qüdrət kəmali ilən ünüŋ Züleyxanuŋ qulağına eşitdürəlim və hiç kimsə Misr əhlindən bu sözi eşitməyə.

Yusif bu dəstur ilə cəvab verdi. Züleyxa eşidüb özinə titrədi və evinə gəldi və adəm saldı zindan bəginə ki, bu qulı qəraŋğulu bir dar yerdə saxlasun və su ilə əkmək aŋa verməsün.

Bəs, Yusifi zindanə gətürdilər və yedi yıl zindandə qaldı və gecə-gündüz ağlar idi ol həddə ki, zindanilər anuŋ ünindən təngə gəlüb dedilər:

– Ey qul, gündüz ağla və gecə əpsəm ol, ta biz daxi bir asayiş bulalım. Və əgər gecə ağlarsan, gündüz dinc ol, ta bir aramiş tapalım.

Züleyxayə bu sözdən xəbər verdilər. Buyurdı kim, zindandə bir evi boşatdılar və bir bacə andan küçəyə qoydılar, ta Yusif[153] ol bacənüŋ yanında otursun və kuçənüŋ gələn-gedəni baxsun və ağlamağı tərk etsün və zindanilərüŋ **[40b]** aramı bulunsun.

Qəzadən ol bacə Kən'anuŋ yolı üstində vaqe olmış idi. Həman ki gecə olur idi, Yusif ol bacənüŋ yanına oturub ağlar idi. Və hər yel ki, Kən'an tərəfindən əsər idi, hal dili ilən Yəʾqubdən sorər idi və hər nəsim ki, Kən'an saruyə varur idi, öz peyğamını Yəʾqubə göndərür idi.

Beyt:

Gəl, ey badi-səba, nəzzarə qıl əhvali-zarimni,
Xəbərdar eylə bu məzlumi-bikəsdən nigarimni.

---

[149] *Bu, Kənandan olan bir quldur.*

[150] *Misir əzizi ona qəzəblənibdir.*

[151] *Bu, Allahın qəzəbindən daha xeyirlidir.*

[152] *Və cəhənnəmə getməkdən (daha xeyirlidir).*

[153] Əlyazmada: *Yusifi.*

Bir gecə oturmış idi və intizar gözini yolə qoymuş idi kim, nagah bir səs qulağına gəldi və bəylə idi kim, bir ə`rabi bir devəyə minüb istər idi ki, badiyə yolinə gedə. Devəsi andan baş çəküb zindan tərəfinə yüz qoydı. Ə`rabi nə qədər kim anı dögər idi, faidə verməz idi. Əlqissə, ə`rabi aciz qalub, devədən enüb yəyağ oldı. Devə noqtəsi ə'rabinüŋ əlindən çəküb zindan tərəfinə vardı və çün ol bacənüŋ yamacına yetdi, durdı və fəsih dili ilən Yusifə səlam verüb dedi:

– Ey görkliğ çəmənüŋ səməni vey Yəʾqub gülşəninüŋ yasəməni, Kənʾandən Misrə gəlmiş idüm və imdi Misrdən Kənʾanə gedərəm. Ol fəraq ilən mübtəla qarıya hiç peyğamuŋ varmı?

Yusif həman ki Yəʾqubuŋ adı və Kənʾan şəhrinüŋ avazəsi eşitdi, fəryadü fəğanə düşüb zar-zar ağladı.

Beyt:

Gətürdi ol gülistandən maŋa bir qoxu daŋ yeli,
Sevindürdi qəfəslü əndəlibüŋ can ilə köŋli.

Bu halda ə'rabi devənüŋ ardından **[41a]** yetdi əlində bir mətraq. Devəyə urmaq istədi, yer anı dutub əyağı baldurinədək yerə batdı. Yusif avaz verdi kim, "*ya əxal-ərəb*"[154] bir saət dur, ta bir söz saŋa deyəyim.

Ə`rabi dedi:

– Mən durmışam və yer daxi məni təprənməgə qoymaz. Sən nə sorarsan?

Yusif dedi:

"*Min əynə təcyi*"[155] – nərədən gəlürsən?

Dedi:

– Kənʾandən.

Yusif dedi:

– Hanğı öləngdə devəŋi otlayubdur?

Dedi:

– Ali-Yəʾqub öləngində otlamış və Kənʾan bulağından su içübdür.

---

[154] *Ey ərəb qardaş.*

[155] *Haradan gəlirsən?*

Yusif dedi ki, Kənʾanuŋ yeri üstində hiç ağacı bilürsən kim, anuŋ on iki budağı var idi və ol budağlardan birisi kəsildi və imdi neçə yıldur, ta ol ağacuŋ köki ol budağuŋ fəraqindən nalandur və ol ağacuŋ əsli öz fərʾinüŋ hicranindən gün keçürür?

Ə`rabi dedi:

– Bu ki sən söylərsən, Yəʾqub peyğəmbərüŋ halı surətidür kim, anuŋ on iki oğlı var idi. Ol on iki oğlından birisi qayib oldı və Yəʾqub çoq müddətdür kim, anuŋ fəraqində yığlar və yoluŋ üstində bir ev yapupdur və anuŋ adını Beytül-əhzan qoyubdur. Hər kim ol yollardan ötər, ol itmiş oğlınuŋ halın sorər və hiç kimsə andan xəbərü əsər və namü nişan verməz.

Şe'r:

Məndən itmiş dilbərümdən kimsə vermədi xəbər,
Köŋlüm anüŋlə bilədür, bilməzəm andan əsər.
Gözlərümə iki aləmdür qəra ansız, bilüŋ
Kim, fəraqi eylədi köŋlüm evi zirü zəbər.

Bu xəbərdən Yusifüŋ qayğu üstinə qayğu **[41b]** artdı, dedi:

– Ey ə`rabi, getdügüŋ nərəyə?

Dedi:

– Badiyəyə gedərəm ki, yəxşi məta'i satun alub Kənʾanə aparam.

Yusif dedi ki, bu müamilədən neçə sud ələüŋə düşər?

Dedi:

-Yüz dirəm.

Yusif dedi:

– Bir yaqut saŋa verəyim ki, igirmi miŋ dirəm dəgər ola. Mundan qayıt və Kənʾanə var və çün gecə gələ, ol Beytül-əhzanə get və söylə: Ey Taŋrınuŋ peyğambəri, mən ğəriblər və zindanilərdən bir elçiəm. Ol saətdə ki dərdüŋ artə və fəraq suzinüŋ nəhayətə yetə, həzrət Biniyazə əl götür və bir dua ilən bizi aŋagör. Əylə ki biz səndən fəramuş eyləməzüz, sən daxi bizi unutmə.

Ə`rabi dedi:

– Sənüŋ aduŋ nədür?

Dedi:

– Maŋa rüxsət verməyübdürlər ki, adümi kimsəyə deyəm. Əmma mənüm yüzümə bax və surətüm sifəti köŋlüŋ səfhəsinə səbt et və nəqşüm rəqəmi və yüzüm hilyəsi xiyal lövhinə yazdur və bu sifətlərdən ol kəramətlü xacəyə xəbər ver. Və əgər bu bəŋdən ki, sağ yəŋağümdədür, xəbər sorsa[156], söylə kim, ol məhrumi-məzlum söylər kim, ol nöqtə göz yaşınuŋ yolı üstində düşupdür əz-bəs ağlamaqdən ol bəŋ gözükməz olupdur.

Misra[157]**:**

Mənüm halum budur, hala qalupmən qayğulu.

Ey ə`rabi, bu ğəribüŋ səlamı və bu əsirüŋ pəyamı ol qocəyə yetür ki, bu xəbərdən ki, sən aŋa yetürürsən, çoq bərəkət və səadət saŋa yetəcəkdür. Ey ə`rabi, çün Yə`qubuŋ mihnətlü evinə yoluxəsən, ol qədr səbr et ki, gecədən bir daŋ keçsün və əvam qovğası otruşsun və **[42a]** heyvanlik nəfsi həvas rəxtini bilinmək büsatindən götürsün və Yə`qub öz dərdindən fariğ olsun, sən anuŋ əhzan külbəsinüŋ qapusinə var və söylə: "*Əssəlamu əleykə, əyyuhəl-məğmum*"[158], yə'ni səlam olsun saŋa ey qəmləri yeyən, "*min əl-ğəribil-məhmum*"[159] – bir yüz miŋ qəm ilən mübtəla ğəribdən. Və söylə kim, ol ğərib der, ta xidmətüŋdən məhrum qalubəm, ağlamağdən və nalədən diŋməmişəm və ta sənüŋ cəmalüŋi görməz olubəm, rahət döşəginə və asayiş və fərağət yastuğinə oturmayub dayanmamışam.

Ey ə`rabi, gəl və bu qiymətlü yaquti məndən al və Yə`qubdən həm bir dua istə ki, ol xacənüŋ duası və ol dərdməndlü peyğambərüŋ Taŋrı-təala dərgahinə istədügi müstəcabdur.

Ə`rabi dedi:

– Yanuŋa necə gələyim ki, yer məni dutupdur.

Yusif dedi:

---

156 Əlyazmada: *xəbər sorsun.*

157 Əlyazmada: *beyt*.

158 *Ey qəm içində boğulan, sənə salam olsun.*

159 *Qəribdən və ürəyi sıxılandan.*

– Devəni urmək xatirüŋdən gidər, ta yer səni qoysun və bu devəni incitmə kim, ol maŋa ol Beytül-əhzan içində oturən qocədən xəbər verübdür və məni özümdən xəbər eyləyübdür.

Beyt:

Dedim sorım badi-səbadən xəbərüŋ,
Buyuŋlə idi, qıldı məni bixəbər ol.

Ə`rabi dedi:

– Devənüŋ sərkeşligindən keçdüm.

Filhal əyağları yerdən çıxdı və Yusifüŋ yaqınına gəldi və yüziniŋ görməlü nişanələri gördi və mübarək əlindən yaquti alub Kənʿan yolını dutub rəvan oldı.

Yusif anuŋ ardından baxub zar-zar ağlar idi **[42b]** və der idi: "*Ya leytə Rahilu ləm təlidni*"[160] – noləydi kim, Rahil məni doğmamış olaydı, ta bu qayğular ilə giriftar olmayaydum.

Beyt:

Sənsiz çü dünyadə qalur idim, nolə idi
Kim, doğmayaydı anə məni, ya boğə idi.

Çün ə`rabi Kənʾanə gəldi, ol qədr səbr qıldı kim, gecədən bir daŋ keçdi, piri-əhzan qapusinə gəlüb dedi:

– "*Əssəlamu əleykə, ya Nəbiyullah*"[161].

Yəʿqubuŋ köŋlinə ol avazdən bir rahət yetdi. Filhal evdən dışxarı gəlüb dedi:

– "*Və əleykəssəlam, ya əbdullah*"[162] – kimsən və gəldügüŋ nərədən?

Dedi:

– Bir peyğam gətürübəm.

Yəʿqub dedi:

[160] *Kaş ki, Rahil məni doğmayaydı.*

[161] *Sənə salam olsun, ey Allahın peyğəmbəri.*

[162] *Sənə də salam olsun, ey Allahın bəndəsi.*

Beyt:

Yəxşi gəldüŋ, qasida, xandan gəlürsən, söyləgil,
Xeyri-məqdəm, xanı dilbər, yol qanı, vergil xəbər.

– Kimüŋ elçisisən?

Dedi:

– Ğəriblərüŋ qasidiəm və zindanilərüŋ rəsuliəm, Misr elindən gəlürəm.

Və görmiş nişanələri və ötmiş vaqiələri qamu hekayətlədi. Yəʾqub çün ol sözləri eşitdi, nalələr çəküb dedi:

– Əgər sən ğəriblərüŋ elçisisən, mən daxi ğəriblərüŋ fəraqində giriftarəm. Və əgər sən məhcurlaruŋ xəbər vericisisən, mən daxi hicran odı ilən yanmışam. Və əgər sən zindanilərüŋ qasidisən, mən daxi Beytül-əhzanuŋ sakiniəm. Ey ə`rabi, bir muştuluq verdüŋ ki, andan vüsal burnumə yetdi və bir xəbər gətürdüŋ kim, anuŋ ilən həsrət dügüni köŋüldən açıldı. Anuŋ əvəzin nə istərsən?

Dedi:

– Ya Nəbiyullah, nəstə ki məqsudim idi, andan maŋa dəgübdür, səndən bir dua istərəm.

Yəʾqub dedi:

– Ya İlahi, ölüm **[43a]** çağı bu bəndəni səkəratdən saxla.

Ə`rabinüŋ devəsi fəryadə gəlüb dedi ki, bu peyğamuŋ səbəbi mən idim və ə'rabini zindanə mən gətürmişəm və bu peyğam ki ə`rabi yetürdi, mənüm daxi bir ülüşüm var. İmdi səndən bir dua istərəm.

Yəʾqub dedi:

– Ya Rəbb, bu devəni uçmağuŋ devələrindən birisin eylə.

Ə`rabi dedi:

– Ey Taŋrınuŋ səçilmişi, ol zindanə giriftar içün daxi bir dua eylə.

Yəʾqub dedi:

– "*Əllahummə ətləqə ənh*"[163] – ya Rəbb, ol zindaniyə ol bənddən xilaslik ver, "*vəsiluhi bi əqaribihi*"[164] – və anı qəvm ilə qərdaşlarinə yetür.

---

[163] *Allahım, onun düyününü aç (onu azad et).*

Ey əziz, qəvm və qərdaşlarə yetmək rahətüŋ pirayəsidür və anlardan ayrılməg həsrət sərmayəsi. Axir Şəhidi-Kərbəlanuŋ halına bir nəzər eylə ki, dustları və uşağları və qəvmləri bir-bir anuŋ gözi yamacında şəhadət şərbəti içürdilər və söhbət ipi müfariqət tığı ilə kəsdilər ol vəqtədəkin ki, ol həzrət ğərib və yalğuz Kərbələdə qaldı. Hər tərəfə ki baxər idi, nə yarı görər idi və nə dildarı, nə munisi bulur idi və nə qəmgüsarı. Yarlardan və qərdaşlardan və uşağlardan aŋar idi və savux ah issi köksindən çıxarur idi və yalğuz qalduğindən həsrət yeyər idi.

Beyt:

Qalmışam yalğuz, əzizlər getdilər, yüz miŋ dəriğ,
Köŋlümə yüz miŋ cəfalər etdilər, yüz miŋ dəriğ.
Ömr bağindən açıldı bir neçə gül neçə gün,
Bu çəməndən zarliğlə etdilər, yüz miŋ dəriğ.

Rəvayətdür ki, çün İmam Hüseyn (ə) yalğuz qaldı, münacatə durub dedi:

Beyt:

İlahi, qalmışam yalğuz, olupmən zarü sərgərdan,
[43b] *Keçər zariliğ ilə gün, qalupmən işümə heyran.*

Risalət Əhli-Beytinüŋ mütəhhərələri və təharət və cəlalət hücrənüŋ müxəddərələri çün bu sözi şahzadədən eşitdilər və yalğuzlığ və qəribliğ və öz işinə heyranlığını gördilər, mihnət tütüni köŋüllərindən çıqub, qəm odı ol pakizələrüŋ canına düşdi. İmam Hüseynüŋ qızı yüzini yürək qanı ilə boyadub ded: "*Ya əbətah*"[165]. Və qızqərdaşı həsrət köŋləgi heyrət əli ilən çak urdı və dedi: "*Ya əxah*"[166]. Möhtərəm hərəmi nalələr çəkdi ki, bu yəŋağ güli heyf ki, həyat budağından yerə tökəcəkdür. Və əziz fərzəndi İmam Zeynəlabidin (ə) zarilik edüb

[164] *Qohum-əqrəbaya yetir.*
[165] *Ey atam.*
[166] *Ey qardaşım.*

dedi: "Yüz min əfsus ki, qəddar ruzigar yetimliğ qübarı başümə tökəcəkdür".

Cəfalu zəmanə ol məzlumlərə rəhm eylər idi və bərkyürəklü cəhan bavücudi-rəhmsizligi, ol məcruhlarə köŋli yanər idi və fələk dili heyrət ilən söylər idi.

Beyt:
Üzdi dəvlət riştəsi, va həsrəta,
Bükdi dəvlət arxası, va həsrəta.
Və yer niyaz yüzi ilə nalə qılub der idi.

[*Beyt:*]
Qovğayə bax ki, aləm pürfitnəlü qılur,
Bidadi gör ki, dəhri-sitəmkar görsədür.

Və İmam Hüseyn (ə) Əhli-Beytini təsəlli verüb səbr buyurur idi ki, səbr nicat kilididür.

Beyt:
Ey ki qalduŋ əz həvadis dər-hərəc,
Səbr qıl, "kis-səbr miftahül-fərəc".[167]

***

Andan soŋra Musayi-kəlimüŋ

sərgərdanlığı və fir`ondən qaçduği [**44a**] və qəvmlərindən cövru cəfalər gördügi və qatı sözlər böyükdən və kiçikdən eşitdügi bitün aləmə məşhurdur və İmam Hüseynüŋ (ə) Şam bəglərindən cəfalar gördügi və cəddi-büzürgvarı ziyarətindən ayrulduğı və Kərbəla dəştində mübtəla qalduğı bu kitabda öz yerində yazılacaqdur.

***

[167] *Səbir çətin işlərin açarıdır.*

Andan soŋra Əyyubuŋ bəlalar çəkdügi

məşhurdur. Və anuŋ səbri ol mihnətlərdə varı dillərdə məzkurdur. Bəli, neʾmət ləşkəri çün kim gəlür, yadlaruŋ evinə varur və mihnət çərisi çün kim gögdən enər, tanışlaruŋ qapusini istər. Ey dünya eliniŋ bayları, eyş ilə işrət və naz ilə ne'mət sizə layiqdür. Və ey fəqr və niyazməndlik çəkənlər, dustlar, sizə zəhmət ilə məşəqqət nəsibdür. Gögdən enmiş kitablardan birisində yazıludur ki, ey adəm uşağları, biliŋiz kim, gög firiştələrüŋ xəzanəsidür və cənnət hur ilə qilmanuŋ xəzanəsi və dəŋizlər sulu incülərüŋ yeridür və dağlar gövhərlərüŋ məʾdənidür. Və uslularuŋ köksi qədim əsrarınuŋ məxzənidür və dustlaruŋ köŋli qayğu ilə ənduhuŋ xəzanəsidür və mən sınmış köŋülləri sevərəm ki, **"***əna indəl-munkəsirəti qulubuhum***"**[168] – və hər kimsədə ki, bəla ləşkəri köŋlində qondı, qayğulu olur. Və mən qayğuluları məhəbbət məqamində qondururəm ki, **"***innəllahə yuhibbu kullə qəlbin həzin***"**[169].

[***Şe'r:***]
Hər kimə var isə anda dərdi-rah,
Yanduği halinədür anuŋ güvah.
[44b] *Gər anuŋ vəslin dilərsən, ey köŋül,*
Dərd istə, dərd istə salü mah.

Əyyubi-səbur (ə) mihnət ilə məşəqqətdən ilərü qırq yıl neʾmət və izzətdə gün keçürür idi. On iki oğlınuŋ atası idi və dörd yüz qul varı[170] çuban və sarvan eşigində bəndəfərman idilər: hər birisi bir sürü qoyun və bir rəmə devə ilən. Və qırq bostanı var idi: varı yemişlü ağaclar içində tikilü. Bir gün Cəbraili-Əmin yanına gəldi və dedi:

– Ey Əyyub, çox müddətdür ki, neʾmətdə gün keçürürsən. İmdi hökm olubdur ki, neʾmətüŋ halı mihnətə dönə və baylığuŋ yoxsullığa yüz qoyə və səhhətlik gedə və sayrulik gələ və təndürüstlik gəvdəŋ mülkindən köçləyüb, xəstəlik vücuduŋ mülkində çadır tikə.

---

[168] *Mən qəlbi sınıqların yanındayam.* (hədis)
[169] *Allah bütün qəmli könülləri sevər.* (hədis)
[170] Bu söz iki dəfə yazılmışdır.

Əyyub dedi:

– Çün Taŋrınuŋ buyruğidur, rizası ilən ola. Biz qəzayə köŋül qoydük, hər nə kim Məhbubdən[171] yetə, mətlubdur və hər bəla ki, Ol bizə göndərür, varı yəxşi və xubdur.

Beyt:
Hər nə Məhbubdən gəlür, mətlubdur,
Hər bəla kandandurur[172], ol, xubdur.

Beyt:
Dəmürlü ox çü gəldi Yar[173] əlindən,
Mühiblarğə durur rəhmət yağışı.

Əyyub (ə) çox müddət bəlanuŋ intizarı çəkər idi, ta bir gün daŋ nəmazı qılub nübüvvət mehrabinə dayanmış idi və məclis hazirlərinə ögüt verür idi ki, nagah məscidüŋ qapusindən bir fəryad qopdı. Dərhal qoyun miqbadı qapudən içərü girüb dedi:

– Ey Əyyub, dağdan bir güclü seyl axdı və qamu qoyunları **[45a]** sürüb dəŋizə yetürdi.

Bu sözdə idilər ki, sarvanbaşı gəldi və dedi:

– Ey Nəbiyullah, bir səmum yeli əsdi kim, əgər dağə dəgə idi, dağı yazı kimi eyləyəydi və əgər Günəşə əsə idi, Günəşi Ürkər kimi qılə idi. Devələrə dəgdi və varı devələri həlak etdi.

Bu sözdə ikən bağban köŋləgi çak urmış gəlüb dedi:

– Ey Taŋrınuŋ [Nəbisi], gögdən bir ildurum çaqub bağınuŋ bitün yemişlü ağacları yandurdı.

Əyyub bu sözləri eşidüb, təhəmmül eyləyüb, Taŋrı zikri dilinə keçürür idi. Nagah oğlanlarınuŋ lələsi yetdi, köksinə daşlar urub nalələr çəkər idi. Və bəylə təqrir qıldı ki, ey Taŋrınuŋ Nəbisi, on bir oğluŋ böyük oğluŋuŋ evində qonağ idilər. Eviŋ günbədi anlaruŋ üstinə endi: neçənüŋ ağzında tikə və neçənüŋ əli çənağdə, qamusı həlak etdi.

Əyyub səbr eyləyüb, səcdəyə düşüb dedi:

---

171 Təsəvvüfdə: Allah.

172 *Ki andandur*.

173 Təsəvvüfdə: Allah.

– Qayırmaz, çün Taŋrı mənüm iləndür, qəm dəgül.

Beyt:

Dünyavi üqbadə gər yoq nəstə, məndə yoq qəmüm,
Çünki Sən mənüm ilənsən, daxi nəstə istəmən.

Çün uşağları malı ilən varı həlak olub getdi, neçə türlü sayrulığ və bəla aŋa yüz qoydılar. Və rəvayətdür ki, dört miŋ qurt mübarək cəsədində və şərif bədənində bulunub, etlərini yeyər idilər və bəla oğrıları şəbixun gətirüb gəvdəsinüŋ divarını dəldilər və yürəgi və dili sağ qaldı. Qurtlar çün Əyyubuŋ **[45b]** etlərini yedilər, köŋlinə və dilinə qəsd etdilər.

Əyyub fəryad çıxarub dedi ki, "*ənni məssəniyəz-zurru*"[174], yə'ni məni incidürlər bu qurtlar, anuŋ içün kim, mundan ilərü cəsədüm tilsimini ufadur idilər və səbr qılur idum. İmdi məhəbbətüŋ evinə və mə'rifətüŋ xəzanəsini qəsd eyləyübdürlər və istərlər kim, anı tarac eyləyələr və dil kim, münacatuŋ əfzarı tovhid kəlamı deməkdəndür, bərtərəf qılalar, rəhm qıl "*və əntə ərhəmur-rahimin*"[175] – və sən varı mehribanlardan mehribanraksən.

Beyt:

Mehrüŋ xəzanəsi dil və həmdüŋ yeri dilüm[176],
Bu, ikidür sənüŋ, maŋa rəhm eylə, ey Kərim.

Taŋrı-təala Əyyubə bağışlayub hər nəstə kim andan almış idi, iki ancılayın aŋa gerü verdi.

Ey əziz, dört miŋ qurt Əyyubuŋ cəsədində idilər və ol zəhmətdə səbr eylər idi. Kərbəla şahına[177] daxi igirmi iki miŋ başkəsici qılıc və canalıcı cidə mübarək cəsədinə həvalə etmiş idilər, səbr qalxanın yüzinə çəküb, qatlanmək zirehi geyüb, anlardan inciməyüb hiç kimsədən yariliğ istəmədi və Allah-təaladən özgə kimsəyə dayanmayub

---

[174] *Mən bir dərdə düçar oldum*. (Quran, 21:83)

[175] *Sən rəhmlilərin ən rəhmlisisən*. (Quran, 21:83)

[176] Misradakı *dil* sözü iki anlamda işlənmişdir: Birincisi fars sözü olub *ürək* deməkdir, ikincisi isə türkmənşəlidir: *ağızdakı dil* mənasını daşıyır.

[177] Əlyazmada: *şahə.*

münacat eylər idi kim, "*Rəbbi əhkəm*"[178] – ey Taŋrı, hökm eylə "*beyni və beyni qovmi*"[179] – mənüm ilən qəvmüŋ arasında, yə'ni bu kufilər mənüm ilən yalan söylədilər və dedilər kim, buraya gəl, mən anlaruŋ sözlərinə e`timad eyləyüb gəldüm. Soŋra məni qoydılar və cəddüm Mustəfanuŋ [**46a**] və atam Murtəzanuŋ və anam Bətuli-Əzranuŋ hörmətini saxlamadılar və görərəm ki, həyasizlik qalxanı yüzləri qarşusinə çəküb, ayrılmək qılıcı və rəhmsizlik cidəsi kinəsiz köksümə həvalə eyləyübdürlər və kufilərüŋ vəfasizligindən

Misra:[180]
Ol qədr azar gördüm kim, demək olmaz anı.

Və həyasız şamilərdən

Misra:[181]
Ol qədr çəkdüm ələm kim, qalmadı təndə canı.

Hala səbrdən özgə çarəm yoxdur və öz işümi Taŋrıyə tapşururəm.

Beyt:
Demənəm Taŋrıdan özgə könlümüŋ əhvalini,
Hökm Anuŋdur, buyruğ Anuŋ, Ol bilür can halini.

***

Andan soŋra Zəkəriyya və Yəhyanuŋ (ə.m) ibtilasıdur

Və anuŋ keyfiyyəti məşhurdur. Rəvayətdür ki, çün Zəkəriyya Taŋrı-təala ilən münacat eylədi ki, qarılığ güclənüb məni basdı: "*Fəhəb li min ləduŋkə vəliyyən*"[182] – pəs, bağışla maŋa yanüŋdən bir oğlan ki, Sən anı sevər olasan və ol Səni sevər ola. Həqq-təala aŋa bir oğlan

---

[178] *Allahım, hökm et.*
[179] *Mənimlə tayfam arasında.*
[180] Əlyazmada: *nəzm.*
[181] Əlyazmada: *təmmət.*
[182] *Mənə öz dərgahından bir oğul- varis bəxş et.* (Quran, 19: 5)

verdi adı Yəhya. Və Yəhya bəqayət Taŋrıdan qorxan[183] kişi idi. Və Taŋrı-təala aŋa uşağlığda elm və hikməti ərzani qıldı.

Rəvayətdür ki, ol vəqt ki ol üc yaşında idi, məhəllət uşağları Zəkəriyyanuŋ evi qapusinə vardılar və Yəhyanı çağırdılar ki, dışxarı gəl, ta oynayalım. Yəhya həm eviŋ içindən cəvab verdi kim, bizi oynamağ [içün] yaratmayubdurlar və nişat və hənək **[46b]** içün bu aləmə gəlməmişüz. Və Yəhyaŋuŋ[184] köŋül nazikligi və fəhmtizligi və Taŋrıdan qorxusı ol qayətdə idi ki, çün Qiyamət əhvalindən bir xəbər eşidür idi, filhal köŋli pərişan olub, ruhi quşi uçmağə meyl eyləyüb biqərar qalur idi. Və geyəsilərdən bir pəlas ilən qənaət eyləyüb, yeməklərdən bir quru əkməgi bəgənmiş idi.

Şe'r:

Taŋrınuŋ şövqü zikriçün bizğə
Köŋülü dil iki cəhandə yetər.
Dünyanuŋ geyəsivü yeməklərdən
Eski şalü yarım çörək xoştər.

Dört yaşarda Tövrit kitabı hifz eyləmiş idi və on yaşarda Tövrit şəriətinüŋ əhkamində sahibvüquf eyləmiş idi, incə mənzilət və rütbət ilən ol qədr ağlamış idi ki, yüzinüŋ dərisi və əti tökülüb, həman damar və siŋir və sümük qalmış idi. Pəs anası şəfəqqət üzərindən keçədən iki vəslə iki gözinüŋ mehrabinə qoyub, dəmadəm anı götürüb sığar idi və gənə yerinə qoyar idi. Bir gün Zəkəriyya dedi:

– Ya Rəbb, Səndən bir oğlan istədim ki, köksümüŋ rahəti ola. Bu oğlan istirahət köŋlümdən gidərdi. Və bir fərzənd dilədüm ki, köŋlüm andan şadiliğ görə, bu bağırparəsi əna tügüni canümə qoydı. Taqətüm anuŋ ağladüğindən taq oldı.

Xitab gəldi ki, sən məndən bir dust oğlan istədüŋ və dustlaruŋ işi ağlamağdur və məhəbbət yükini götürmək və nalə üni çəkmək övliyanuŋ **[47a]** pişəsidür.

---

[183] Əlyazmada: *qorxulu*.

[184] Əlyazmada: *Yəhya.*

Beyt:
Qəmzəvü nazü kirişmə nazəninlər işidür,
Aşiqüŋ əczü niyazü dərdməndlük kişidür.

Ol gün ki məhəbbət büsatı döşətdilər və şövq ələmi eşq aləmində durğuzdılar, murad ilə rahətlərə od urub yandurdılar və ümmidsizlik ilə həsrət toxmi ənbiyavü övliyanuŋ köŋüllərində əkdürdilər və bəla və qayğu yağışı ilə tərbiyət verdilər, məhəbbət yolınuŋ binası qəhr zərbəti ilən qoydılar və aşiqlər ilən mühiblərüŋ şərbətinə ağu qatdılar. Ey Zəkəriyya, sən həzə xandasan, qatlan, ta ol gün ki cəfa tığı oğluŋ nazik boğazına qoysunlar və səni başdan əyağədək bıçqu ilə iki bölsünlər. Himmət beli bağla və riza qədəmi ilən bəlanuŋ qarşusinə var və dərdimizə qatlanub, dərmanuŋ adın aparma.

Nəzm:
Taŋrı çün kim səndən istər dərdü rəncü xəstəliğ,
İstəmə mərhəm yarəŋçün, dərdə dərman istəmə.
Anuŋ odi dəmbədəm saŋa verür bir yeŋi can,
Yan bu oddə xoşdil ilən, abi-heyvan istəmə.

Əlqissə, Yəhyanuŋ qorxusi ol qayətdə idi ki, bir məclisdə ki hazir olur idi, Zəkəriyya Taŋrınuŋ üqubətlərindən bir kəlməcük söyləməz idi və qamu Bari-təalanuŋ rəhmət asarını şərh edər idi, zira kim Yəhyanuŋ qüvvəti yoq idi Taŋrınuŋ və'də və vəidi eşitmək və əgər ol babdan bir cüzvi hekayət qulağına dəgə idi, ol qədr ağlar idi kim, ölməgə yaxın olur idi.

Bir gün Zəkəriyya minbər üstinə çıxdı və sağə və solə baxdı, Yəhyanı görmədi və Yəhya bir dirəgüŋ ardına gizlənüb bir gilim üzərinə culğamış idi. Çün Yəhya[185] gözinə **[47b]** gəlmədi, bir neçə söz Taŋrınuŋ iqab və vəidlərindən ortayə gətirüb dedi kim, damudə bir ulu dağ var oddan və anuŋ adı Ğəzbandur və hiç kimsə andan ötməyəcəkdür, məgər ol kimsə kim, dünyadə Taŋrınuŋ qorxusından ağlamış ola. Yəhya çün bu sözi eşitdi, yerindən sıçrab, əgnindən gilimi

[185] Əlyazmada: *Yəhyanuŋ.*

bıraxub məsciddən dışxarı çıxdı və fəryadə düşüb der idi: **"***Əl-veyl liman dəxələ Ğəzban"*[186], yə'ni vay ol kimsəyə kim, anuŋ yeri Ğəzban ola. Nə᾽rələr urub nalələr çəkər idi, ta şəhrdən çıqdı. Zəkəriyya minbərdən enüb evinə vardı və Yəhyanuŋ anasına dedi:

– Mən bunı bilməz idüm ki, oğluŋ məsciddədür və bir kəlmə Taŋrınuŋ əzabından bəyan etdim. Ol anı eşidüb, əyağ ilən baş yalın məsciddən çıxdı və eşitdüm ki, yazı tərəfinə varubdur. Gəl kim, anuŋ ardına varalım, olmaya ki, xəbərsiz bir quyıya düşə.

Bəs, Zəkəriyya ilə xatunı anuŋ ardına varub, üç gecə ilə gündüz yazılarda gəzdilər və hiç yerdə anuŋ əsəri bulmadılar və xəbərin daxi eşitmədilər.

Beyt:

Nərəyə varduŋ, degil, ey bağı-canuŋ gülbüni,
Ataŋ-anaŋdən nədən ayrılduŋ, ey canlar canı.

Bir çobanə yetdilər, andan sordılar kim, Yəhyadən hiç xəbərüŋ var?

Dedi:

– Aŋa nə olupdur?

Dedilər:

– Taŋrınuŋ qorxusından baş-əyağ yalın şəhrdən çıxdı və biz üç gündür ki, anuŋ tələbindəüz və andan hiç xəbər və əsər bulməzüz.

Çoban dedi:

– Mən daxi anı hiç görmədüm, əmma uç gecədür ki, bu [**48a**] dağdan bir nalənüŋ üni gəlür və mənüm qoyunlarum ol avazdan otlamazlar və qulağların asub gözlərindən yaş axıtdururlar.

Beyt:

Dilbərüŋ hicranidən göz ol qədr qan ağladı
Kim, anı hər kimsə kim gördi, yürəgin dağladı.

Zəkəriyya dedi:

– Bu nalə Yəhyanuŋ nişanəsidür.

---

[186] *Vay olsun Ğəzbana (cəhənnəmə) girənin halına.*

Ata və ana ol saruyə yüz qoydılar. Anası tezrak yetdi, Yəhyanı gördi kim, bir bucağdə səcdəyə baş qoyub, ol qədr ağlayubdur ki, səcdə yeri anuŋ yaşından balçıq olubdur. Anası oturdı və Yəhyanuŋ başını götürüb dizi üstinə qoydı. Yəhya gözini yumub, əylə sağındı ki, mələkül-mövtdür ki, ruhi almağa gəlübdür. Yəhya dedi:

– Ey Əzrail, bir qarı ata və anam vardur. Ol qədr möhlət ver ki, anlardan həlallığ istəyim və köŋulləri xoşnud eyləyim.

Anası xüruşə gəlüb dedi:

– Ey ananuŋ canı, bu, Əzrail dəgül, sənüŋ anaŋdur.

Yəhya gözin açdı və anasını görüb, yerdən sıçrayub qaçmağə əzm eylədi. Anası mübarək əmcəgi əlinə dutub dedi:

– Ey Yəhya, ol sütüŋ həqqi içün ki, bu əmcəkdən əmübsən ki, mənüm ilən evə gəl.

Bu halətdə Zəkəriyya daxi yetdi və çoq mübaliğələr edüb Yəhyanı evə gətürdilər. Və üç gün idi ki, Yəhya hiç yemək datmamış idi. Bir qazan mərcümək aşı bişürdilar, Yəhya andan cüzvicə yedi, andan uyuməgə meyl edüb yatdı. Düşdə[187] görür kim, aŋa dedilər:

– Ey Yəhya, məgər Ğəzbanı unuttuŋ ki, mərcümək aşı xoş doyunca yeyüb muraduŋca yatduŋ?!

Yəhya munı görincə uyxudan **[48b]** oyanub, gənə səhrayə yüz qoydı.

Yəhya məʾsum ömrində hərgiz suç eyləməmiş idi və hiç günahuŋ əndişəsi mübarək xatirinə gətürməmiş idi, bavücud bəylə ismətliğ Taŋrı-təalanuŋ qorxusindən.

Beyt:

Muyədən olmişdi qıltək, nalədən bir naltək,
Boyi Taŋrı qorxusindən bükmiş idi daltək.

Rəvayətdür ki, Qiyamət günində iki qatla carlasunlar, əylə ki Məhşər əhli qamusı eşitsünlər. Əvvəlki çağırmağ bu ola kim, ey bəşər qoşunı, gözləriŋiz açub baxuŋız, ta görəsiz bu mənüm bəndəmi ki, hərgiz günah eyləməyübdür və xatirinə suç xiyalı daxi keçməyüb-

[187] Əlyazmada: *düşdi.*

dür. Məhşər əhli baxsunlar, Yəhyanı görələr kim, ötər. Günahkarlar qamusı xəcalətdən başları öginə salalar. İkinci çağırmağ bu ola ki, ya Məhşər əhli, *"ğuzzu əbsarəkum"*[188], yə'ni gözləriŋizi yumuŋ həm ərkəklər və həm dişilər ki, Rəsulullahuŋ qızı ötər. Üləma deyübdürlar ki, məqsud göz yumməkdən ol dəgül ki, anlar naməhrəmdürlər, əmma səbəbi oldur ki, Fatimeyi-Zəhra bir sifət ilən Ərəsatə gələ ki, hiç kimsənüŋ taqəti qalmaya kim, anı görə. İmam Həsənüŋ[189] ağulu köŋləgi sağ çigninə salub, İmam Hüseynuŋ (ə) qanlu[190] geyəsi sol çigninə salub, əmirül-mö'minin Əli (ə) qanlu əmmaməsi əlinə dutub ərşi-əzimə yüz qoya və əylə dərd ilən xüruşə gələ ki, mələklər naləyə gələlər və peyğambərlər kürsilərdən düşələr. Uçmağuŋ hurları ağlamağə düşələr. Həzrət Fatimeyi-Zəhra ərşüŋ dirəginə əl urub desün: **[49a]** "İlahi, mənüm dadümi ver və fəryadümə yet". Cəbrail xüruşə gəlüb Seyyidi-aləm (s) yanına gəlsün ki, ya Rəsulullah (ə), Fatimə ərşüŋ dibinə gəlübdür qanlu köŋləklər ilən. Yaqındur ki, qəhharlıq dəŋizi cuşə gətürə. Əgər sən gəlməyəsən, bir əzim xətər vaqe olacaqdur. Seyyidi-aləm (s) minbərdən enə və ərşüŋ dibinə gələ və deyə: "Ey Fatimeyi-Zəhra vey Mustəfanuŋ gözi nuri, bu gün ümmətüŋ ğurinə yetmək çağıdur, nə fəryad çəkmək. Bu gün nəvaziş günidür, nə güdaziş. Bu gün götürmək günidür, nə qoymək. Mən məzlumlaruŋ şəfaətxahiəm, sən zalimlərüŋ şəfaətin eylərsən". Fatimə (ə.s) deyə: "Ey ata, neylim, İmam Həsənüŋ ağulu[191] könləgini görərəm və cigərüm yanər və İmam Hüseynüŋ qanə bulaşmış geyəsilərin baxərəm, köŋlüm xərab olur".

Seyyidi-aləm (ə) deyə: "Ey əziz qızum, qanlu köŋlökləri götür və söylə: İlahi, İmam Həsənüŋ ağulu könləgi həqqi içün və İmam Hüseynüŋ nahəqq qanı tökülmiş həqqi içün ki, hər kim mənüm fərzəndlərümi sevmiş ola və məhəbbət toxmi köŋül məzrəəsində əkmiş ola və anlaruŋ vaqiələrindən məlul olmış ola və anlaruŋ müsibətində

188 *Gözlərinizi yumun.*

189 Əlyazmada:*İmam Hüseynüŋ.*

190 Əlyazmada: *ağulu*.

191 Əlyazmada: *qanlu*.

ağlamış ola, qamusı maŋa bağışla. Ey qızım, gəl kim, mizan yanına gedəlim ki, miŋ-miŋ asilər və taətdən müflislər köŋülləri bizə bağlayub intizardədürlər. Sən bu qanlu köŋləkləri ələünə dut, ta mən toprağlu saçümi ələümə dutayım. Sən sınmış yürək ilən nalə qıl, ta mən ufanmış dişüm ilən [**49b**] şəfaət edəyim, bulay kim, Ərhəmərrahimin ümmətimnüŋ suçlarına rəhmət eyləyüb bağışlaya".

Şe'r:

Asilərüŋ günahini iştər bə-ruzi-həşr,
Hiç ümmətüŋ pəyambəri bəylə şəfiq yoq.
Eşiginə ümmid yüzini gətürdilər,
Asilərüŋ ki lütfidən özgə rəfiq yoq.

Əmma Yəhyanuŋ şəhadəti səbəbi ol idi kim, ol zəmanənüŋ padşahı bir yəhud idi və xatunınuŋ əvvəlki ərindən bir qızı var idi və bu qız bəqayət gögcək idi və xatun özi qarıb, qızını istər idi kim, öz ərinə verə. Padşah bu babdan ötrü Yəhya ilə danışdı. Yəhya dedi ki, ol qız saŋa həramdur. Padşah ol qızuŋ başından keçdi. Ol məlʿunə xatunuŋ xatirinə bu söz ağır gəlüb səbr etdi, ta bir gün ki, padşahilayəʿqil sərxoş idi, qızını bəzəndürüb ərinüŋ nəzərində cilvəyə gətürdi. Padşah ol qıza qəsd eylədi.

Əvrəti dedi:

– Bu iş müyəssər olmaz, məgər ol çağ ki, Yəhyanı öldürəsən kim, bu qızuŋ süt bəhası Yəhyanuŋ başıdur.

Padşah anuŋ öldürməgiŋə əmr etdi. Üləmayə xəbər oldı, qamusı durub, padşahuŋ eşiginə varub dedilər:

– Əgər Yəhyanuŋ qanı bir qətrə yerə tökülsə, daxi yerdən hiç ot bitməyə.

Padşahdan əmr oldı kim, Yəhyanuŋ başı bir teştdə kəssünlər və qanını bir quyıya töksünlər. Pəs divandan adəm Yəhyanuŋ gətürdüginə göndərdilər və padşahə bildirdilər ki, Yəhyanuŋ [**50a**] atası Zəkəriyya müstəcabüd-dəʿvədür. Əvvəl anı öldürmək gərək, ta oğlından soŋra öldürənə qarqamayə.

Padşah hökm etdi ki, əvvəl Zəkəriyyanı öldürsünlər. Yəsavullar Zəkəriyyanuŋ evinə girdilər. Zəkəriyya ilən oğlı[192] nəmazdə idilər. Yəhyanı atasınuŋ yanından çəküb, əllərini bağladılar və Zəkəriyyanı dutmağa qəsd etdilər. Zəkəriyya anlaruŋ ögindən qaçub, yəsavullar neçəsi anuŋ ardına yügürüb, neçəsi Yəhyanı köşkün eşiginə yetürdilər. Anlar kim Zəkəriyyanuŋ ardına varub aŋa yaqın oldılar, Zəkəriyya taqətsiz olub ol yaqında bir ağacə yetdi. Aŋa işarət eyləyüb ağac yarıldı[193]. Zəkəriyya ol ağacuŋ içinə girdi. İblis dərhal hazir olub, Zəkəriyyanuŋ ridası ucı dutub, ağacuŋ dışxarısında qalub, ağac gənə bir-birinə gəldi. Bu məhəldə yəsavullar yetdilər. İblis özini bir qocə kimi anlarə görsədüb sordı kim, nə istərsiz? Dedilər:

– Bəylə sifətlü kişi ögümizdə gedər idi, nərəyə getdi?

İblis anlarə dedi ki, istəduŋiz kişi bu ağacuŋ içindədür və ridası ucı nişanə içün dışxarıda qalubdur. Sordılar:

– Ey qocə, nə tədbir ilən anı bu ağacuŋ içindən çıxaralım?

Dedi:

– Anı nə içün çıqarursız?

Dedilər:

– Öldürmək içün.

Şeytan dedi:

– Munuŋ içində anı həlak etmək olur.

Və tə᾽lim verdi kim, ikibaşlu bıçquyi gətürdilər və ağacuŋ başına qoyub iki bölməq istədilər. Həzrət İzzətdən nida gəldi **[50b]** ki, ya Zəkəriyya, olməyə kim, bir ah çəkəsən, yoxsa səbr eyləyənlərüŋ[194] dəftərindən aduŋı pozaram. Düşmənlər səni vücud şəhrindən çıxaralar və biz səni şühud hücrəsinə qoyauz[195].

Pəs, həman ki bıcqu Zəkəriyyanuŋ başına yetdi, dedi:

– Ya Rəbb, yüz miŋ şükr ki, qanümi məhəbbətüŋ kuyi başında tökərlər.

---

[192] Əlyazmada: *oğlını*.

[193] Əlyazmada: *yardı*.

[194] Əlyazmada: *eyləyənlərinüŋ*.

[195] Əlyazmada: *qoymayauz*.

Beyt:
Töksələr qanümni eşqüŋ cürmidən, olman zəbun,
Qıluram yüz şükr kim, eşqüŋ şəhidiəm bu gün.

Pəs, Zəkəriyya səbr etdi və bir ah çəkmədi. Ol saətdə ki anı iki bölər idilər, əgər kimsə andan sora idi kim, nə istərsən, anıŋ gəvdəsinüŋ əczasindən eşq nəʾrəsi gəlür idi kim, anı istərəm ki, Qiyamətədək bıçquyi çəkələr və gəvdəmi iki bölələr və gənə yeŋidən ol ikiyi bir-birinə peyvənd eyləyüb bir eyləyələr və daxi iki bölələr. Hər kim bəla ləzzətini datdı, hiç məşəqqət və mihnət aŋa yüz qoyməz və öldürməkdən və kəsməkdən və asməkdən və iki bölməkdən qəm yeməz.

Şe'r:
Var bəlalər içündə bir ləzzət,
Datmayub kimsə, qədrini bilməz.
Kimsə kim, ləzzəti-bəla bildi,
Dərddən özgə müddəa qılməz.

Əmma anlar ki, Yəhyanı dutub padşah eşiginə yetürdilər, hökm oldı kim, Yəhyanı dışxarıda öldürsünlər və başını gətürsünlər. Ol daşyürəklülər Yəhyanuŋ boğazını həlici içündə kəsdilər. Və hər qan ki, boğazından həlicidə yğıldı, bir quyıya tökdilər. Ol qan ol quyıda cuşə gəldi və Həqq-təala Büxtün-Nəssər Babili Tətus[196] Rumi ilən ol yəhudlaruŋ [**51a**] üstinə göndərdi, ta yetmiş miŋ adəmi Bəni-İsraildən öldürdilər, ta Yəhyanuŋ qanı cuşdan otruşdı.

"Şəvahid" kitabında İmam Zeynəlabidindən (ə) nəqldür kim, ol çağ ki, Məkkədən Kufə sarusinə vardük, hiç mənzildə qonmədük ki, atam İmam Hüseyn (ə) Yəhya və Zəkəriyyanuŋ adların aparmadı. Bir gün buyurdı kim, dünyanuŋ e'tibarsizligindən birisi oldur ki, Yəhyanuŋ başını bir uruspi nabəkar əvrətə hədiyyə içün göndərdilər.

Və İbn Əbbas rəvayət eyləyübdür ki, həzrət Rəsulullahə (ə) vəhy gəldi kim, Yəhyanuŋ qanı içün yetmiş miŋ kişini öldürdük, sənüŋ fərzəndüŋ içün iki qatla yetmiş miŋ nabəkarı öldürəcəgüz.

[196] Farsca orijinalda: *Taytus* (bəzi nüsxələrdə: *Tartus*).

Və bir rəvayət daxi var ki, həzrət Mustəfanuŋ fərzəndi içün (s) yetmiş kəz yetmiş miŋ kişi həlak edəcəgüz və bəylə idi. Və ol işlər ki, Muxtar bin Əbu Übeydeyi-Səqəfi və Müseyyib[197] bin Qə'qa Xüzai və İbrahim bin Malik Əştər Nəxə'i[198] və yetmiş üç məvali xüruc etdilər və bunlar hər birisi neçə miŋ şamlu və kufilü yezidlərdən öldürdilər və soŋra sahibüd - də'və Əbu Müslim Mərvəzi neçə miŋ mərvani cəhənnəmə göndərdi və mərvanilərün zürriyatından tütün çıxardı.

Və "Üyunür-Riza" kitabında rəvayət eyləyübtürlər ki, İmam Mehdi (sələvatullahi və səlamühü əleyh) İmam Hüseynüŋ öldürənlərinüŋ nəsli və nəticəsi, hər kim qalmış ola, həlak eyləyəcəkdür.

Ey əzizlər, Muhəmməd Mustəfanuŋ **[51b]** məvali ümmətlərinüŋ köŋülləri tökülmiş İmam Hüseynüŋ nahəqq qanı içün əylə dərdlüdür ki, ağlamağdan özgə hiç dəvası yoq və dustlaruŋ köküsləri bu fikrdən əylə yarəlüdür ki, nalədən özgə hiç şəfası yoq.

Beyt:

Əcəb yarədürür bu kim, munuŋdur mərhəmi nalə,
Əcəb dərd oldi bu kim, ağlamaqdan özgə yoq dərman.

[197] Farsca orijinalda: *Müsəbbəb*.

[198] Farsca orijinalda: *Nəcəi*.

İKİNCİ BAB

Qüreyşüŋ cəfaları və özgə kafərlərüŋ ədəbsizligi Peyğambər ilən (s) və Həmzə ilən Cə`fəri-Təyyaruŋ şəhadətliği

Həzrət Risalətpənah (s) buyurur ki, *"İnnəllahə ə`zəməl-cəzai məə izəmil-bəla"*[199], yə'ni bədürüsti ki, böyük səvab və cəzalar böyük bəlalar içündür. Hər kimüŋ bəlası böyükrak – cəzası artuğrak.

Ey əziz, Taŋrınuŋ lütf ilə mərhəmətindən birisi oldur ki, bir bəndəni məhəbbət təşrifi ilən tərbiyət eyləyə və məhəbbətüŋ nişanəsi ibtiladur. Yəhya Müaz Razi münacatda der idi: "Ya Rəbb, dünya əhli hər kimi sevərlər, aŋa çox nəvaziş ilə tərbiyətlər edərlər və ne`mət ilə rahət qapusı anuŋ yüzinə açarlar və Sən hər kimi sevdüŋ, istərsən kim, anı türlü-türlü bəlalərə mübtəla eyləyəsən və mihnət və əna odı ilən anı yandurəsən və məşəqqət yağışı anuŋ başına yağdurəsən". Bir hatif cəvab verdi kim, bilməzsən ki, dustlarımızuŋ nəsibi canyandurıcı odlardur. Hər kimi sevdük, bəla ləşkəri aŋa göndərürüz, ta məxluqdən yüzini çəvirüb[200] bizim sarusinə təvəccöh eyləyə. Həman ki bizə yüz qoydı, biz anı Kibriya[201] xəlvətxanəsinüŋ **[52a]** məhrəmi eyləyəüz. Çün mihnət sağərindən bir cür`ə aŋa içürəüz, dərhal vilayət adını qoyəüz.

Şe`r:

Hər kimə biz bəla əta qıldük,
Anuŋ adını övliya qıldük.
Bir göhərdür giranbəha bu bəla,
Qamu kimsəyə qılməzüz bu əta.

---

[199] *Həqiqətən, Allahın cəzasının (mükafatının) böyüklüyü bəlanın böyüklüyünə görədir. (*hədis*)*

[200] Əlyazmada: *çəvrilib.*

[201] Lüğəvi mənası: *böyüklük, əzəmət*. Burada Allah anlamındadır.

Pəs, bilmək gərək kim, bu məʾnidən mihnət eyni-rəhmətdür. Gögdən endügi kitablarda gəlübdür ki, ey adəmi, çün bəla yolı saŋa açılsun və mihnət və qayğu əsbabı sənüŋ içün amadə olsun, *"fəqərr eynakə"*[202], yə'ni gözüŋ aydın et və xürrəm ol ki, ol, ənbiyanuŋ təriqi və yolıdur ki, saŋa yüz urar və övliyanuŋ fütuh qapularıdur ki, saŋa açarlar. Çün məʿlum oldı kim, zəhmət ilə mihnət çəkmək ənbiya və övliyanuŋ sifətləridür və hər necə kim bəla artuğrak, əta çoxrak. Bu nüktəni daxi məʿlum etmək gərək ki, ənbiyadən hiç peyğambər ol qədr cəfa çəkməyübdür ki, həzrət Mustəfa (ə) çəkübdür. Əgər xirqə geydi, anda bir qəhr bəxyəsi var idi və əgər löqmə yedi, anuŋ içində təʾbiyə ağu idi. Mustəfanuŋ hal dili işarət eyləyübdür ki, *"ma uziyə nəbiyyun mislə ma uzitu"*[203].

Beyt:
Görmədi hiç kimsə mihnət anca kim biz görmişüz,
İçmədi hiç kimsə ağu, anca kim biz içmişüz.

Ol bəla dəgül idi ki, Zəkəriyyanı bıçqu ilə iki böldilər və ol mihnət dəgül idi ki, Yəhyanuŋ başını bıçaq ilə kəsdilər. Mihnət budur kim, bizə tökdilər və bizi gög ilə yerüŋ əhlinə müqəddəm eylədilər. Anlaruŋ **[52b]** işləri ciləvi bizim ehtimam əlimizə verübdürlər və ümmətüŋ günahlarını bizim şəfaət ətəgimizə bağlayubdurlar və peyvəstə əmr ilən nida gəlür: *"Və minəl-leyli fətəhəccəd bihi nafilətən ləkə"*[204], yə'ni gecələr qalx və müflis suçlu ümmətüŋ sözini ərzimizə yetür. Qəflət döşəkləri üstində yatənlərinüŋ əvəzini sən oyağ ol və rahət ilə işrət evi içində oturənlərinüŋ yerində sən gözüŋ yaşını tök. İmdi kahillərüŋ işini biz etməlüüz və mücrimlərüŋ üzrini biz diləməlü. Bir yandan dustlaruŋ işlərini düzətmək gərəküz və bir yandan düşmənüŋ cövrini çəkmək gərəküz. Bir çağ bizi qabi-qövseynüŋ təxti üstində oturtdururlar və bir çağ Əbu Cəhlüŋ cəfası qapusinə göndərürlər. Gah bizi "Bəşir" və "Nəzir" ləqəb qoyarlar və gah şair və dəlü ad

[202] *Gözünüz aydın olsun.*
[203] *Heç bir peyğəmbər mənim qədər əziyyət çəkməyibdir.* (hədis)
[204] *Gecənin bir vaxtında yalnız sənə məxsus (təhəccüd) namazı qıl.* (Quran, 17: 79)

edərlər. Bir vəqt Xeybər qəl'əsi dustlarımız əli ilən açarlar və bir vəqt dişlərimizi müşriklərüŋ daşı ilən ufadurlar. Bunlar qamusı anuŋ içündür ki, bu yolda bəlalar dəŋizi mövc urmağdadur və ənalar odı yanməkdə. Əgər kimsədə bu yolun yəraqı vardur, yolə düşsün, yoq isə özinə zəhmət verməyüb tək dursun.

Nəzm:

Eşqnüŋ yolində vardur çox bəla,
Qayğu üsnə qayğu, rənc üsnə ənа.
Faniyi-mütləq olur ol kimsə kim,
İstər olur Taŋrıdan bu kimya.

Əvvəl bəla töhfəsi kim, ol həzrətə yetdi, ol idi kim, atası Əbdullah bin Əbdülmüttəlib **[53a]** başından götürdilər[205], ta ata mehri və şəfəqqəti görməyə və anuŋ məhəbbət ətəgində oturməyə. Və həzə ana qarnında idi ki, atası don dəgşürdi və yetimliğ dügüni mübarək köŋlinə qoydılar. Rəvayətdür ki, məlaikə ol vəqt anuŋ adını yetim qoydılar və yetimliği içün gözlərindən yaş axıtdurdılar. Həqqtəala mələklərinə xitab qıldı: "Əgərçi mənüm həbibüm yetimdür, əmma mən anuŋ saxləyicisiəm. Siz sələvat aŋa göndərüŋiz və anuŋ qədəmi mübarək biliŋiz". Və çün Seyyidi-aləm altı yaşına yetdi, anası daxi Taŋrı rəhmətinə getdi və iki yandan yetim qaldı.

Beyt:

Adı gər dürri-yetim oldi anuŋ, andan nə qəm,
Cövhəri artuğ qılur dürri-yetimüŋ qiyməti.

Rəvayətdür ki, çün ol həzrət altı yaşar oldı, anası anı götürüb Mədinəyə apardı atasınuŋ Əbdullah ziyarətinə ki, anda vəfat eyləmiş idi. Və Mədinədən qayıtmağ çağı çün Əbvayə yetdilər, anası xəstə düşdi. Bir gün Rəsulullah (s) anuŋ başı üstində oturub anasınuŋ yüzinə baxar idi və yalğuzliğinə və öksizliğinə ağlar idi.

Beyt:

Qatıdur öz dilbərindən ayru qalmək aşiqüŋ,
Ayrulik qayğusini kimə deyəm mundan gerü.

[205] Əlyazmada: *gördilər*.Farsca mətnə görə: *yanından götürdülər* olmalıdır.

Və Aminə xatun ol saət ussız idi. Çün ussı yerinə gəldi, oğlınuŋ yüzinə baxub, anuŋ gözindən yaş axar gördi, ağlamağə düşdi və anuŋ təsəllisi üçün neçə beytlər söylədi kim, məʾnisi budur: "Ey oğul, Taŋrı **[53b]** bərəkət versün ol nəstədən ki mən düşdə görmişəm sənüŋ üçün və qeyb hatifindən eşitmişəm, gərcək və doğrudur. Bəs, sən Taŋrı peyğambəri olacəqsən adəmilərə". Andan dedi: "Ey oğul, hər diri ölümlüdür və hər yeŋi eski olacaqdur. Hər kim yoxlığ aləmindən varlığ məmləkətinə gəlür, soŋucı anuŋ işi aŋa yetər kim, əcəl xəncəri ilən ümmid boğazı kəsilə və hər kim dirilik məclisində həyat şərbəti datdı, qayəti oldur ki, ölüm ağuyi içə.

***Nəzm**:*

Bu yas evində ki, cüz mihnətü ələm yoxdur,
Xanı o dil ki, oradə bəlavü qəm yoxdur.
Həyat doni iŋən yaxşıdur, vəli nə assı
Ki, yox bəqası anuŋ, soŋi cüz ədəm yoxdur.

Əmma, ey oğul, əgər mən ölsəm, mənüm adum diri qalacəqdür və zikrüm ruzigar səfhəsində pozulmayacəkdür, anuŋ içün kim, sən təki arı fərzəndi doğmışam və səncə yəxşi işlüyi yadigar qoymışam".

***Beyt**:*

Hər kimüŋ ötsə ruzigari anuŋ,
İtmədi, qalsa yadigari anuŋ.

Rəvayətdür ki, çün Aminə xatun vəfat oldı, cinnilərüŋ avazı gəlür idi kim, anuŋ içün ağlaşub der idilər.

***Rübaiyyə**:*

Nəbki əl-fətatə əl-bərrətul-Əminə,
Ummu Rəsulullah zil-səkinə.[206]
Ağlaruz bu yəxşi işlü dişi üçün zar-zar
Kim, anuŋ oğli olur soŋra Rəsuli-bavəqar.

[206] *Allahın vüqarlı Peyğəmbərinin anası olan,*
Cavan, yaxşı əməl sahibi bir qızın matəmində [ağlayırıq].

Çün ol həzrət səkiz yaşar oldı, ulu dədəsi Əbdülmüttəlib ki, anuŋ qəmxarı və müşfiqi idi, daxi vəfat oldı **[54a]** və anı Əbu Talibə ki, əmmüsi idi, tapşurdı igirmi yaşınadək. Beş yıl çobanlık etdi və igirmi beş yaşında Xədicə xatunı aldı və qırq yaşında Taŋrı-təaladən vəhy aŋa endi və qırq üç yaşında xəlayiq islamə və dininə də`vət etdi. Və on yıl Məkkədə müşriklər ilən kafərlərüŋ əhlindən çox ədəbsizlik və qatı məzərrət və məşəqqət gördi və çəkdi. Əvvəla ol kim, evi iki yaman qonşınıŋ ortasında idi: biri Əbu Ləhəb və biri Üqbə bin Əbi Müayt[207]. Və çoq mihnətlər və üqubətlər anlardan zahir olur idi və tikən ilən pihin və nəcasat gecə gətürür idilər, ta ol həzrətüŋ arı ətəgi anlar ilən müləvvəs ola. Və Ümmü Cəmil ki, Əbu Ləhəbüŋ əvrəti idi, gecələr qalın tikənlər gətürüb yolı üstinə qoyar idi, ta mübarək əyağinə bata. Çün ol həzrət nəmaz çağı evindən çıxar idi, ol tikənləri yol üstindən götürüb bir qırağə qoyar idi və yumşağlığ ilən der idi: "Bu necə qonşılikdür ki, mənüm ilən eylərlər".

***Beyt**:*
Tökərlərdi yoli üstinə tikənlər,
Vəli anuŋ yüzi gültək açardı.

Tariq bin Əbdullah der ki, bir gün Məkkə bazarında ötər idüm. Bir yigiti gördüm bir qızıl hüllə geymiş idi və fəsih dili məlih bəyanı ilən der idi. "*Qulu la ilahə illəllah tuflihu*"[208], yə'ni söyləŋiz şəhadət kəlməsi, ta rəstgar olasız. Bir ərəbi gördüm kim, anuŋ ardısərə gedər idi və der idi: "Munuŋ sözini eşitməŋiz kim, ol yalancıdur". **[54b]** Və ol həzrətə daşlar atar idi, ol qədr ki, topuği yarələndi və qan axdı. Mən sordum: "Bu, kimdür?" Dedilər: "Ol yigit ki, hüllə geyübdür, Muhəmməd bin Əbdullahdur ki, xəlqi Taŋrıyə yol görsədür və ol ərəb ki, aŋa daş atar və anı yalancı çıxarur, anuŋ əmmüsi Əbu Ləhəbdür". Və Qüreyşüŋ bəgləri bu işdə Əbu Ləhəb ilən müttəfiq idilər. Hər kim Həcc çağı və qeyri-Həcc vəqti Məkkəyə gəlür idi, anı ol həzrətüŋ söhbətindən mən' eyləyüb saxlar idilər və qoymazdılar kim, ol

[207] Əlyazmada: Ütbə ibn Əbi Müğəyt.
[208] *Deyin: "Allahdan başqa məbud (ibadət edilən) yoxdur" – qurtulun.* (hədis)

həzrət ilən söyləşə və müxalif sözlər həqqində söylər idilər. Və bir çağ şair və məcnun və bir çağ kazib və caduçi ləqəbini qoyar idilər və bu səbəbdən məlal tozı anuŋ mübarək xatirinə qonar idi. Və həzrət Zülcəlal anuŋ köŋli təsəllisi içün öz kəlamı göndərür idi kim, biz hiç peyğambəri göndərmədük illa ki, qəvm aŋa caduçi və dəlü ad qoymadılar və ol Peyğambər qəvmüŋ cəfasinə qatlanub təhəmmül edər idi və səbr yolı cəhd qədəmi ilən kəsər idi ki, "*fəsbir kəma səbərə ulul-əzmi*"[209] – bəs, sən daxi səbr et, əylə ki ulül-əzm etdilər. Bəs, nə qədr ki məzərrət ilə mihnət qəvmlərdən görər idi, səbr edüb, də`vəti tərk etməz idi.

***Beyt**:*
Barəkallah, ey köŋül kim, hər necə gördüŋ cəfa,
Eşqi tərkin qılmaduŋ, qılduŋ yamacində vəfa.

Və "Rövzətül-əhbab" kitabında məzkurdur ki, Ürvətəz-Zübeyr, Əbdullah bin Ömər Asdan sordı kim, ol ədəbsizliklər kim, **[55a]** Qüreyş eli Peyğambərə yetürdilər, hanğısı artuğraq idi? Dedi: "Bir gün Qüreyşüŋ bəgləri hücrədə oturmış idilər və mən anda hazir idim. Rəsulullahuŋ sözi ortaya gətürdilər və dedilər: "Biz görmədük özümizi hərgiz bəylə əpsəm və səbur hiç işdə, əylə ki səbr etdük ol nəstədən ki, bu yigitdən, yə'ni Muhəmməd bin Əbdullahdən zahir olub və bizi incidür. Aqillərümizi cahil sanar və atamızı sögər və bizə eybü məlamət eylər və cəmaətümizi mütəfərriq eylər və cəmiyyətümizi pərişan edər və taŋrılərimizə lə`nət oxur. Və bu əziyyətləri andan görərüz və anı qoyub hiç dinməzüz". Bu sözdə idilər ki, nagah həzrət Seyyidi-aləm (s) hərəm içinə girdi və hərəmüŋ təvafinə məşğul oldı və təvaf ortasında anlarə yoluxdı. Müşriklar aŋa qatı sözlər söyləyüb dolaşdılar və mən pərişanlik əsəri anuŋ mübarək yüzində zahir gördüm. İkinci təvafində və üçüncidə həm bəylə ədəbsizliklər etdilər. Ol həzrət qatlanub durdı və dedi: "Eşidiŋiz, ey Qüreyş eli, ol Taŋrınuŋ həqqi içün ki, Muhəmmədüŋ canı anuŋ qüdrət qəbzəsindədür ki, gətü-

[209] *Ulül-əzm (əzm və dözüm sahibi) peyğəmbərlər kimi sən də səbir et*. (Quran, 46: 35)

rübəm sizüŋ içün bir boğazləmək, yə'ni əgər mənüm sözümi eşitməyəsiz və mütabiət eyləməyəsiz, qoyun kimi boğazınıza qılıc sürəcəgəm və qamuŋızı öldürəcəgəm. Sanursız ki, mənüm əlümdən asanlığ ilən can aparəcəksiz?!" Çün həzrət Muhəmməd (ə) bu sözi söylədi, əylə sağın kim, anlaruŋ boğazları dutuldı və gəvdələrinə **[55b]** titrəmə düşdi. Andan soŋra təvazö'ə düşüb dedilər: "Ya Əbül-Qasim, qayıt və öz yoluŋa var. Sən[210] cahil dəgülsən, yə'ni öz işüŋdə danasən və etdügüŋ və söylədügüŋ bilmək üzərindəndür". Bəs, Rəsul (s) qayıtdı və öz təvafını təmam etdi. Daŋlası həm ol cəmaət həm ol məhəldə cəmʾ oldılar və mən anlar ilən bilə idim. Biri-birinə dedilər: "Ol qədr kim, dünə gün Muhəmmədə (ə) təʾn ilə səbb eylədük, həman ki qarşumizə gəldi və bizi sögdi, hiç cəvabını vermədük və əpsəm oldük. Əylə sağın kim, dilimiz lal oldı. Bu, nə idi ki, biz qıldük? Əgər bu qatla anı buləüz, bilürüz ki, aŋa netmək gərək". Bu sözdə idilər ki, həzrət Risalətpənah (ə) gəldi və hərəmüŋ təvafinə məşğul oldı. Müşriklər çün anı gördilər, qamu bir uğurda anuŋ yanına varub dedilər: "Sənsən ki, bizim həqqimizə və taŋrılarımıza nasəza sözlər söylərsən?" Dedi: "Bəli, mənəm ki, bunları derəm". Bir ədəbsiz namərdi gördüm ki, ol həzrətüŋ ridası ucı dutub Peyğambərüŋ boynına bıraxdı və əylə burdı kim, nəfəs yolı[211] bağlandı. Bir kişi hazir idi, fəryad çıxarub dedi: "Ey Qüreyş eli, öldürürsiz bir kimsəni ki, der: mənüm pərvərdigarum Taŋrıdur və bəllü mö`cüzələr sizə görsədür. Ol nabəkar taifələr Peyğambərdən əl çəkdilər və aŋa yapışdılar və anuŋ səqqalını dutub ol qədr yüzinə çəpəlaq urdılar ki, başı ufandı".

[56a] Əlqissə, Rəsulullah (s) bu cəfaları görər idi və bu ənaları çəkər idi və bilür idi ki, bəlalərdə səbr etmək bir külli səbəbdür və rəncü ənа çəkmək bir əsli mövcibi.

***Beyt**:*
Qayğular altində var çox şadlığ,
Bəndəliğ altındadur azadlığ.

---

[210] Əlyazmada bu sözdən qabaq səhvən yazılmışdır: *Əgər*.
[211] Əlyazmada: *yolını*.

İbn Əbbas rəvayət eylər ki, Qüreyş oymağı müttəfiq olub cangıladılar ki, bu qatla çün Muhəmmədi görəlim, anı diri qoymayalım. Həzrət Fatimə (ə.s) anı eşidüb atası qulluğinə gəldi, gözi yaşları yüzinə axar.

***Beyt**:*
Gözlərindən qan yaşı gül yüzinə axar idi,
Bağrınuŋ qaniydi kim, göz yolidin çıxar idi.

Həzrət Peyğambər çün Fatiməni ağlayu gördi, dedi:

– "*Ma yubkik*"[212], ey atanuŋ əzizi, nə nəstə səni ağlamağə salupdur və bu ağlamağuŋ səbəbi nədür?

Fatimə dedi:

– Ya əbətah, ey ulu ata, "*innəl-qovmə əzzəmu ə'la ən yəqtulukə*"[213], yə'ni Qüreyş eli əzm eyləyübdürlər ki, səni həlak eyləyələr və hər kimsə öz nəsibi sənüŋ qanüŋdən özi ilən müqərrər eyləyübdür.

Həzrət Peyğambər dedi:

– Qayırmaz, qayğu yemə və su gətür, ta səlahi – "*əl-vuzu' silahul-mu`minun*"[214] geyəyim və ismət zirehi əgnümə bıraxayım.

Pəs, dəstnəmaz alub və əzm qılub məscidə qədəm basdı. Ol müşriklər anuŋ heybətindən gözləri yumuldılar. Xaceyi-aləm (ə) bir avuc qum götürüb anlaruŋ yüzinə saçdı və dedi: "*Şahətil-vucuh*"[215], yə'ni çirkin olsun yüzüŋiz. Ol saçdugi qumlar hiç **[56b]** kimüŋ gözinə dəgmədi, illa ki, Bədr ğəzası güni həlak oldı. Və ilqa güni Əbu Cəhlə və Üqbəyə və Şeybəyə və Üməyyə Əbi Ləhəbə və Əmmarəyə həlak duası eylədi və hər kimsəyə kim, ol duada adın aparmış idi, qamu həlak oldılar və Bədr güni ənsaruŋ əlindən məqtul oldılar.

Və Kərbəla müxaliflərüŋ qissəsi həm bəylə idi ki, anlardan igirmi iki miŋ şamlu və kufilü ki, İmam Hüseyn ilən (ə) səvaşdılar, hiç kimsə qalmadı ki, həm ol yılda bir bəlayə mübtəla və bir əzayə girif-

---

[212] *Niyə ağlayırsan?*

[213] *Bu qövm səni öldürmək istəyir.*

[214] *Vüzu (dəstəmaz) möminin silahıdır.*

[215] *Üzləri qara olsun.*

tar olmadı. Və çün bir yıl təmam keçdi və mühərrəm ayı gəldi, ol ağır ləşkərdən bir adəm diri qalmadı. Həm anlar ki, səvaşedici idilər və həm anlar ki, ləşkərüŋ qəralığı idilər və necə bəylə olməyə kim, İmam Hüseyn Mustəfanuŋ (ə) gözi nuri idi və Murtəzanuŋ bəgənilmiş fərzəndi və Bətuli-Əzranuŋ bağırparəsi və İmam Həsəni-Rizanuŋ can ilə bərabər qərdaşı.

Və "Kənzül-ğəraib" kitabında Əbu Cə`fər Həmədani [nəql] eylər bəsrəlü Əbu Əbdullah Qazıdan ki, bir tanışı gördüm kor olmış. Dedim: "Sən mundan ilərü gözüŋ görər idi, gözüŋə nə oldı?" Dedi: "Əyyuhal-qazi, mən Ziyadoğlınuŋ ləşkəri ilən bilə idim Kərbələdə. Çün İmam Hüseynüŋ (ə) qissəsi vaqe oldı, öz yurtumə qayıtdum. Bir gecə yatsı nəmazı qıldum, andan yatdum. Düşdə gördüm ki, bir kimsə gəldi və dedi: "İcabət eylə Taŋrınuŋ Rəsuli". Mən anuŋ ardısərə rəvan oldum, ta ol həzrətüŋ **[57a]** xidmətinə[216] yetdüm. Gördüm ki, bir məsciddə mehrab yanında oturubdur və sağında və solında səhabələr çox oturubdurlar və çox qələbəliğ yanlarında əyağə durubdurlar. İmam Hüseyni gördüm ki dizi üsnə çökübdür, qanlu köŋləgi geyüb. Ahəstə bir söz öz-özi ilən der idi. Və İmam Hüseyni (ə) öldürənlərini əvladı ilən qəvm və qərdaşı gətürür idilər və həzrət Risalət qəzəb üzərindən buyururdı: "*Və izribuhu bis-səyfi və əhriquhu bin-nari"*[217], yə'ni qılıc ilən öldürüŋ və odə uruŋ". Pəs, anları qılıc ilən keçürür idilər və həman ki birisinə qılıc dəgər idi, ol zərbdən bir od sıçrayub aŋa düşüb yandurur idi və gənə diri olub, yeŋidən qılıc aŋa urar idilər. Çün ol halətləri gördüm, qorxdum və yerimdən sıçrayub ol həzrətüŋ yanına vardum və dedim: "*Əssəlamu əleykə, ya Rəsulullah* (s)". Ol həzrət heybət üzərindən bir nəzər maŋa saldı və səlamum cəvabını vermədi və bir saət qatlanub dedi: "*Ya əduvvullah*[218], mənüm hörmətümi qoyduŋ və ədəbümi saxləmədüŋ və mənüm əvladumı öldürdüŋ və peyğambərliğümni aŋmədüŋ və qəzəbümdən qorqmədüŋ". Dedim: "Ya Rəsulullah, İmam Hüseynüŋ (ə) yüzinə və ləşkərinə və əshabinə qılıc çəkmədüm və cidə və tə`nə hiç kimsənə yetürmədüm

[216] Əlyazmada bu söz səhvən iki dəfə yazılmışdır.

[217] *Qılıncla vurun və oda atın.*

[218] *Ey Allahın düşməni.*

və ol həzrətüŋ ləşkərinə ox atmədüm. Bəli, suçum həman idi ki, müxalifüŋ ləşkərində idüm və baxər idüm". Buyurdı: "Gərçək dersən, qılıc **[57b]** çəkmədüŋ və cidə yetürmədüŋ və ox atmədüŋ. Əmma kəsrətis-səvadi-ləşkərüŋ qarası idüŋ. Mənüm yaqınümə gəl". Çün ilərü getdüm və bir qılıc gördüm qandan dolu yanında durur. Dedi: "Bu, mənüm cigərguşəmüŋ qanıdur". Pəs, andan bir milcə götürüb gözümə çəkdi. Qorqusindən oyandum, gözüm görməz oldı". Qazı dedi: "Ey məlʿun, bu, dünyanuŋ üqubətidür və kim bilür ki, Qiyamət güni sənüŋ ilən neyləyəcəkdürlər?"

Nəzm:

Səvaş günində əya Taŋrıdan utanmaz şum,
Gəl anı gör ki, nələr eylədüŋ bə-cayi-Hüseyn.
Xuday hakimü dəʿviedici Peyğambər,
Necə verürmisən insaf macərayi-Hüseyn.
Rəva xaçan ola kim, qan ilə bulaşmış ola,
Günəş kimi yüzü gisuyi-müşksayi-Hüseyn.

***

Gəldük yenə Peyğambərüŋ ibtilalərinüŋ bəqiyyəti

Muhəmməd bin İshaq der ki, kafərlər çün gördilər ki, Əbu Talib həzrət Peyğambərə himayət eylər, incitmək əli andan qısatdılar və ulu səhabələr çün qəvmlü və qərdaşlu idilər, yamanlığ anlarə dəgdürəməz idilər. Pəs, hər yerdə ki, bir öksiz fəqiri-namuradı görər idilər, aŋa əzab eylər idilər və neçəsi aclığ ilən susızlığ əzabın qılur idilər və neçəsinə dəmür zirehi geydürür idilər və günəşdə durğuzub dögər idilər ki, gəlüŋ və bu dindən dönüŋ. Və müşriklərdən birisi Ümməyyə bin Xələf idi kim, Bilal Həbəşini Bəthayə aparub anı çıplaq edər idi və günəşüŋ issiliğində qum içində yatdururdı **[58a]** və isinmiş daşı köksinə qoyar idi və der idi: "Muhəmməd dinindən keç və Lat ilən Üzzayə iman gətür". Bilal der idi: "Əhədən, əhədən, Taŋrınuŋ birliginə iqrar gətürübəm". Və həm bəylə Sühəyb və Xəbbab və Amir bin

Qəhirə[219] və anlaruŋ misli çox üqubətlər ilən əzabə giriftar edər idilər və bunlar mütləqa din təriqindən dönməz idilər və bu bəlalarə riza qədəmi ilə qarşuyə varub der idilər: "Bəla Taŋrıdan ətadur və ətadən incinmək xətadur. Gəvdənüŋ riyazəti canuŋ rahətidür və toprağ ilə sunuŋ xərablığı köŋül mə`murliğinüŋ səbəbi".

Nəzm:

Hər üqubət kim, gəlür Cananədən,
Köŋlüŋ incitmə, demə ki, bu, nədən?
Gər səlamət yoli bağlandı, nə qəm,
Çün kəramət qapusı Həqdür açən.

Əlqissə, iş oraya yetdi kim, mö`minləri öldürməgə əl uzatdılar və Əmmar Yasirüŋ atası-anası ilən ömri xərməni həlakət yelinə verdilər. Pəs, zərurət oldı ol həzrətüŋ işarəti ilən bir qələbəliğ ilən əshabdən kim, Həbəşə sarusinə hicrət eyləyələr. Çün Rəsuluŋ canbazları Məkkədə azaldı, kafərlər[220] Mustəfanı incitməkdə bəcidd durdılar. Bir gün həzrət Rəsulullah Həcun guristaninə varur idi. Nagah Əbu Cəhlə və Ədiyy bin Həmrayə və neçə kafərlərə yoluxdı ki, yol üstinə oturmış idilər. Həman ki Peyğambəri (ə) gördilər, aŋa dolaşub ədəbsizlik **[58b]** yüzi ilən sözlər söylədilər. Ol həzrət "*Və iza xatəbəhumul-cahilunə qalu səlama*"[221] hökmi ilən mübarək başını öginə salub, anlaruŋ sözinə hiç mültəfit olmadı və bir məqbərənüŋ üstində oturdı qayğulu və məhzun. Əbu Cəhli-məl`un gəldi və əylə ki dil ilən ol həzrəti incitmiş idi, əl ilən daxi güstaxlığ etdi, ol qədr ki neçə ər və əvrət ol qəbih qəvl və fe`li eşitdilər. Bu halətdə Mustəfanuŋ əmmüsi Həmzə avda idi və üç gün dağ ilən yazılarda gəzüb əlinə hiç av düşməmiş idi. ac-susiz qəzəblü qayıdub Məkkənüŋ dərvazəsinə yetdi. Əbdullah Cəd`anuŋ qaravaşı anı görüb dedi:

– Ey Həmzə, av sənüŋ nə vəsləŋa yarar və bu namussizlik nərəyə aparəsən ki, sənüŋ qərdaşuŋ oğlına ol nəstə ki etməməlü idi, etdilər.

---

[219] Farsca orijinalda: *Fəhirə.*

[220] Əlyazmada: *kafərlərə.*

[221] *Cahillər onlara söz atdıqları zaman (onları incitməmək üçün) salam deyərlər.* (Quran, 25:63)

Həmzə bu sözdən bəqayət pərişan olub andan ötdi və öz evinə gəldi və yemək istədi. Xatunı süfrə gətürüb öginə saldı və bir yemək hazir idi. Həmzə xatunınə baxub ağlayu gördi. Dedi:

– Nişün ağlarsan?

Xatunı dedi:

– Ya Əba Əmmarə, necə ağlamayım ki, bir yetim sizüŋ oymağuŋiz yetimlərindən, yoxsa bir əməkdaşlariŋizdən bu qədr cövrü cəfa kimsə rəva görməz ki, bu gün Haşimüŋ gözi nuri və Əbdülmüttəlibüŋ köksi sərvərinə vaqe oldı.

Həmzə dedi:

– Sözüŋ mundan aydınrak söylə.

Xatunı dedi:

– Ol nəstə ki bu gün Əbu Cəhl qərdaşuŋ oğlına eylədi, ancax ola.

Həmzə dedi:

– Nə vaqe **[59a]** oldı?

Xatunı dedi:

– Ey Həmzə, Əbu Cəhl neçə müşrik ilən Muhəmmədi dutdılar və ol qədr dögdilər ki, mübarək alnından qan axdı və qutlu yüzini ki, günəş andan bir nişanədür, yerə sürtdilər.

Həmzə dedi:

– Vaveylah, əmmüsi Əbu Talib xanda idi?

Dedi:

– Öz şibinə varub, qoyuni otlayub, bu haldan xəbərsizdür.

Dedi:

– Əbu Ləhəb anda dəgül idi?

Dedi:

– Ol daşyürəklü anda oturmış idi və der idi: "Dögüŋ və öldürüŋ bu caduci kəzzabı".

Həmzə dedi:

– Əbbas qanda idi?

Dedi:

– Əbbas pərvanə kimi ol iki cəhanuŋ günəşi çəvrəsində gəzüb çığırur idi və der idi: "Rəhm eyləŋiz öz Seyyidiŋizə". Və ol bədbəxtlər anuŋ sözinə mültəfit olmaz idilər.

Əmir Həmzə zar-zar ağladı və bavücud ki üç gün idi ki, yemək yeməyüb, su datmamış idi, süfrə üstindən qalxub dedi:

– Yemək ilə içmək özümə həram eylədüm ol vəqtədək ki, Muhəmmədüŋ intiqamını ol kafərlərdən çəkməyəm.

Pəs, həzrət Rəsulullahuŋ tələbində məşğul olub, sorağını Məscidül-həramdə aldı. Həmzə anuŋ xidmətinə müşərrəf olub dedi:

– Əssəlamu əleykə, ey qərdaşum oğlu, budur sənüŋ əmmüŋ gəldi kim, sənüŋ heyfüŋ düşmənlərüŋdən ala.

Ol həzrəti-mütəhhərüŋ gözlərindən neçə qətrə yaş axdı və yüragindən bir savux ah çəküb dedi:

– Qoy axı bir öksiz yetimi kim, anuŋ nə atası var və nə anası və nə dayısı var və nə əmmüsi və nə yarı var **[59b]** və nə munisi, nə dildarı var və nə qəmxarı, nə məhrəmi var və nə qəmgüsarı, nə mədədvericisi var və nə yoldaşı.

***Nəzm**:*

Nedəyim kim, qəmümğə məhrəm yox,
Mihnətüm çox, vəleyk həmdəm yox.
Məni yandürdi yürəgüm odi,
Kimsədən yürəgümğə mərhəm yox.
Çox cəfalar çəküpdürəm hər gün,
Şükr kim, məndə qayğudən kəm yox.

Əmir Həmzə munı eşidincə ağlamağə düşüb Lat və Üzza ilən and içdi ki, ey mənüm əziz fərzəndüm, sənüŋ himayətüŋ içün gəlübəm. Həzrət Peyğambər (s) buyurdı kim, ey əmmüm, ol Taŋrınuŋ həqqi içün ki, məni doğrılığ ilən xəlqə göndərübdür ki, əgər abdar qılıc ilən müşriklərdən damar çıxardəsən və mənüm himayətüm içün ol qədr səvaş edəsən ki, özüni qan ilən bulaşdurəsən. Həzrət İzzət dərgahindən irağlığından özgə hiç nəstə saŋa dəgməz və ol səvaş etdügüŋdən hiç faidə hasil olməz, məgər ol vəqt ki Taŋrınuŋ birliginə və mənüm peyğambərliğümə iqrar edəsən. Ey əmmü, əgər istərsən ki, maŋa bir şərbət kərəmüŋdən içürəsən və bir rahət mərhəmi yürəgüm

yarəsinə qoyəsən, söylə: *"Lailahəilləllah Muhəmmədən Rəsulullah "*[222]. Əmir Həmzə dedi:

– Ey əmmünüŋ canı, əgər mən bu kəlməni deyəm, könlüŋ xoşnud olub, xürrəm olursan?

Dedi:

– Bəli, mənüm xoşlığum və Taŋrınuŋ rizası bu kəlmədən hasil olur.

Əmir Həmzə şəhadət kəlməsi dilinə keçürdi və andan məsciddən dışxarı çıxub, Əbu Cəhl intiqaminə vardı. Həman ki anuŋ eşiginə yetdi, gördi kim, Əbu Cəhl neçə ərəb bəgləri ilən **[60a]** oturubdur. Bir yay Əmir Həmzənüŋ əlində idi. Həman aŋa yetincə anuŋ başına əylə urdı kim, başı yarub qan axdı. Pəs, dedi:

– Sən Muhəmmədi sögüb azarlərsən?

Oturanlardan birisi əyağə qalxub dedi:

– Ya Əba Əmmarə, qəzəblüsən, bir saət səbr et, ta soŋucı pəşiman olmayasan.

Əmir Həmzə dedi:

– Nişün pəşiman oluram. Danuğlığ verürəm ki, Taŋrı birdür və Muhəmməd (s) anuŋ Rəsulidür və bu millətdən dönmənəm və bu qəvldən yüzüm döndərmənəm.

***Beyt**:*
Açılur işüm çü eşqi yolidən, ey dustlar,
Gər kəsələr başümi, andan yüzüm döndərməzəm.

Qüreyş eli çün bu sözlər eşitdilər, qayğuları artdı və dinüŋ qüvvəti və islamuŋ izzəti zahir oldı. Bu halətdə neçə kimsələrə islam şərəfi hasil olub, müsəlmanlar qoşuninə girdilər. Əmma çün kafərlər gördilər ki, islam günbəgün güclənür və müsəlmanlaruŋ qüvvəti artar və ol həzrətüŋ işi aydınlığ tapar, həsədləri artdı və ol həzrətüŋ öldürməginə durdılar və Əbu Talib ilən çox bəhslər etdilər və soŋucı işləri cəng ilə səvaşə müqərrər oldı.

[222] *Allahdan başqa məbud yoxdur, Məhəmməd Onun Rəsuludur.*

Əbu Talib Bəni Haşim və Bəni Əbdülmüttəlibi çağırdı və ol həzrətüŋ saxlamağına vəsiyyət etdi. Bəs, varı qəvm ilə qərdaş müttəfiq oldılar Əbu Ləhəbdən özgə. Andan soŋra Bəni Haşim və Bəni Əbdülmüttəlib gördilər ki, Qüreyş oymağı çoxlığdur və bular anlaruŋ hərifi dəgüldürlər, qamu ev və barx ilən köçlənüb Əbu Talib şi'binə vardılar və həzrət Muhəmmədüŋ (ə) keşigini **[60b]** saxlar idilər. Nabəkar Qüreyş əhdü şərt etdilər ki, Bəni Haşim ilən almağ-verməğ və söz söyləmək və vüslət etmək və söhbət dutmək eyləməyələr və hiç nəstə anlarə satmayalar və anlardan nəstə almayalar. Və əgər bir kimsə anlaruŋ ulusından çıxub irağ olur idi, anı dutub dögər idilər. Və Həcc çağı daxi ki təvafə gəlür idilər, Qüreyş qoymaz idi kim, hiç kimsə anlarə bir nəstə sata. Bu zarinci ilən üç yıl ol ulusda giriftar idilər. Soŋra Bəni Haşimüŋ işləri təngə gəldi və gecələr anlaruŋ uşağlar çığırdüği və zəiflər ağladüğindən Məkkə eli uyumaz idilər.

Üç yıldan soŋra Allah sübhanəhu və təala anlarə xilaslığ verüb şibdən çıxdılar. Səkiz ay igirmi bir gündən sonra Əbu Talib vəfat oldı və həzrət Muhəmməd (ə) anuŋ öldügindən çox qayğulu oldı. Andan beş ay, ya bir ay və beş gündən soŋra həzrət Xədiceyi-Kübra Taŋrı rəhmətinə vasil oldı. Rəvayətdür ki, ol saət ki, həzrət Xədicə rihlət eylər idi, həzrət Peyğambər (ə) anuŋ hücrəsinə girdi və həzrət Xədicə mərəzinüŋ qatılığından şikayət eylər idi. Həzrət Seyyidi-aləm ağladı və aŋa xeyr duayi eyləyüb buyurdı:

– Ey Xədicə, uçmağ didaruŋa müştaqdur.

Xədicə dedi:

– Ya Rəsulullah, mən ölümdən qorxməzəm, əmma sənüŋ söhbətüŋdən irağ olduğümdən həsrət yeyərəm.

***Beyt**:*

Ölümdən yoxdurur qorxum, vəli andandurur,
Ki, məndən soŋra sən özgələrüŋ dildarı oləsən.

[61a] Ya Rəsulullah, mən öz qızlərümdən xatirüm cəmʾ eyləmişəm ki, qamusinüŋ evi-barxı ayrudur və öz xanü mani ilə samaninə

vasil olubdurlar. Əmma mənüm Fatiməmüŋ[223] həzə hiç sərəncamı bulunmayubdur, anı saŋa tapşururəm və umərəm səndən ki, şəfəqqət əli anuŋ başından götürməyəsən və anuŋ işini təmam etmək özünə vacib eyləyəsən.

Bəs, həzrət Rəsulullah (s) anuŋ hüzurində Fatiməni çağırdı və qucağladı və dedi:

– Fatimə mənüm bağrımuŋ parəsidür.

Əmma çün Fatimə büzürgvar anası səkəratdə gördi, fəryad çıxarub yüzini anasınuŋ yüzinə sürtər idi və fəraqindən zar-zar ağlar idi. Və necə fəraqdən kimsə ağlamayə?

***Beyt**:*

Gecətək günüm qəradur ol pərinüŋ hicrindən,
Yandurur firqət məni, ey dustlar, səbr edəmən.

Rəvayətdür ki, çün həzrət Xədicənüŋ ömri nəhayətə yetdi, bildi kim, köçməq çağıdur, həzrət Peyğambərə (ə) dedi:

– Ya Rəsulullah, bir saət yanümdə otur, ta bu soŋ nəfəsümdə didarüŋi təfərrüc edim və cəmaluŋ datluğini axirət yolınuŋ yol azuqin eylim və niyaz dili ilən soŋ vidani ərz edəyim.

Həzrət Muhəmməd (ə) yanında oturdı, Xədicə xatun (r) dedi:

Ya Rəsulullah, ömrümi xidmətüŋdə sərf etdim. İltimasum oldur ki, Qiyamət güni məni buldurəsən və mənüm sözümi Taŋrı həzrətinə söyləyüb mənüm içün şəfaət eyləyəsən və əgər qulluğuŋdə bir təqsirliğ eyləyübəm, bağışləyəsən. Və mənüm **[61b]** Fatiməm[224] uşağdur, anasız qalur, yəxşicə saxləyəsiz.

Andan dedi:

– Bir böyük kəlmə ağzümdədür və saŋa deyəməzəm, əmma Fatiməyə derəm, ta sənüŋ ərzüŋə yetürsün.

Pəs, həzrət Rəsulullah ağlayə-ağlayə əyağə qalxdı, Fatimə gəldi və anası yanında oturdı. Xədicə (r) dedi:

---

[223] Əlyazmada: *Fatiməmi.*

[224] Əlyazmada: *Fatiməmi.*

– Ey qızım, ataŋa söylə: anam der ki, ehsanüŋdən umərəm ki, həman ki mən dünyadən gedəm, ol mübarək ridaŋi ki, Cəbrail endügi çağında mübarək başuŋa qoyar idüŋ, mənüm kəfənüm eyləyəsən, bulay kim, anuŋ bərəkəti içün Taŋrı-təala maŋa rəhm eyləyə.

Fatimə gəldi və bu vəsiyyəti həzrət Rəsulullahə ərz etdi. Ol həzrət ağladı və ridası Fatimənüŋ əlinə verüb anasına göndərdi, ta aŋa görsədüb könŋli təsəlli olsun. Filhal Cəbrail endi və dedi:

– Ya Muhəmməd (s), Taŋrı-təala saŋa səlam göndərür və der: Sən öz ridaŋı saxla ki, Xədicə hər nəstəsi ki var idi, bizim yolımızda fəda eylədi. Anuŋ kəfəni mənüm kərəmümdədür. Biz anı kərəm libası ilən örtəcəgüz[225] və uçmağdan anuŋ kəfəni göndərəcəgüz.

Və Xədicənüŋ vəfatindən xaceyi-aləm (s) çoq qayğulu oldı.

Şe'r:

Can ənadə qaldı kim, arami-canı qalmadı,
Dil ələmdən yandı kim, ruhi-rəvanı qalmadı.
Bu qəfəsdən söylə kim, hasil nədür şimdən gerü,
Çün kim anuŋ tutiyi-şirinzəbanı qalmadı.

Rəvayətdür ki, Əbu Talib ilə Xədicənüŋ vəfatindən soŋra Qüreyş eli qorqusız[226] olub, incitmək əli düşmənlik **[62a]** yeŋindən çıxarub, cəfadən hər nəstə kim, müyəssər olur idi, ol həzrətə yetürür idilər. Və soŋucı ol həzrətüŋ işi aŋa yetdi kim, Məkkədə durə bilməz idi, Taif məmləkətinüŋ tərəfinə vardı və anda daxi kafərlərüŋ azarından iqamət eləyəməz idi, gənə Məkkəyə qayıtdı. Əlhasil, mə`lum et ki, on yıl Rəsulullah (ə) Məkkədə kafərlərüŋ cəfaləri çəkdi, ta həzrət Taŋrı-təaladan əmr oldı kim, Məkkədən Mədinəyə hicrət eylə. Çün Mədinəyə yetdi, yəhudilər daxi düşmənlik belini bağladılar və münafiqlər məkrü ğədr və hiləyə durdılar və kafərlər səvaş fikrini qılur idilər.

---

[225] Əlyazmada: *örtüləcəgüz*.

[226] Əlyazmada: *qorsız*.

***

Əvvəl ğəza ki həzrət Peyğambər anda hazir idi, Bədr ğəzasidür və ol həzrətüŋ Əhli-Beytindən əmmüsi oğlı Übeydə bin[227] Haris bin Əbdülmüttəlib şəhadət şərbətin içdi və ol bir yaşamış kişi idi və adını Şeyxül-mühacirin qoymış idilər və həzrət Rəsulullah anı çox sevər idi. Və əvvəl kimsə ki Rəsulullah (s) anuŋ içün mübarək əli ilən[228] liva bağlədi, ol idi. Və anuŋ şəhadət səbəbi bəylə idi ki, çün iki ləşkər Bədr quyınuŋ üstində yüzbəyüz oldılar və ələmləri durğuzdılar, kafər ləşkəri doquz yüz əlli namərd idilər və yüz at və yedi yüz devə anlaruŋ çərisində var idi və anlar çoxı silahlu idilər. Və islam ləşkəri üç yüz əlli kişi idilər: çoxı silahsuz və yetmiş devə və iki at və altı zireh və səkiz qılıc bilələrincə var idi. Çün iki səf müqabil oldı, kafər **[62b]** ləşkərindən üç müşrik meydanə girdilər və cövlanlar edüb islam çərisindən mübariz istədilər. Anlaruŋ adları: biri – Ütbə bin Rəbiə, ikinci – qərdaşı Şeybə bin Rəbiə, üçünci – Ütbənüŋ oğlı Vəlid. Və islam ləşkərindən üç mədinəlü yigitlər anlaruŋ qarşusinə vardılar. Kafərlər sordılar kim, siz kimlərsiŋiz? Dedilər: "Biz mədinəlü ənsarilərdənüz". Dedilər: "Biz sizüŋ ilən işimiz yoxdur və biz öz qəvmümizi istərüz". Pəs, birisi çağırdı ki, ya Muhəmməd, bizim həmnəbərdimizi göndər. Həzrət Rəsulullah (ə) buyurdı ki, ya Übeydə və ya Həmzə və ya Əli, üçüŋiz meydanə giriŋiz. Bu üç bəhadır mə`rəkəyə vardılar və Übeydə qocə kişi idi: Ütbənün hərifi oldı ki, ol daxi qarı idi. Və Əmir Həmzə qırğıl idi, Şeybənüŋ qənimi oldı ki, ol daxi qırğıl idi. Və əmirül-mö'minin Əli (ə) yiğit idi: Vəlidüŋ yamacına vardı ki, ol daxi yeŋiyetişmiş yigit idi. Və əmirül-mö'minin və Əmir Həmzə həriflərini öldürdilər və Übeydə ilə Ütbə bir-birini yarələdilər və Ütbə bir zəxm Übeydənüŋ baldurinə urdı ki, sümükləri ufandı və iligi töküldi. Übeydə əyağdən düşdi. Əmirül-mö'minin Əli və Həmzə həman ki anı gördilər, Ütbəyə yüz urub anı həlak etdilər və Übeydəni götürüb həzrət Peyğambərə yetürdilər və sümügindən ilik tökülür

[227] Əlyazmada: *bəni*.

[228] Əlyazmada: *əlinə*.

idi və ussı getmiş idi. Çün gözin açdı, Peyğambərüŋ mübarək **[63a]** cəmalını gördi, dedi:

– Ya Rəsulullah, *"ələstu şəhidən"*[229], yə'ni aya, mən şəhidəm?

Həzrət dedi:

– Bəli, şəhidsən və şəhidlərüŋ sərdəftərisən.

Və Bədr ğəzasindən qayıtmək çağı Rövha yurtində Übeydə (r) vəfat oldı. **"***İnna lillahi və inna ileyhi raci`un"*[230].

***

Və ikinci şəhid Əhli-Beytdən Əmir Həmzə idi ki, Ühüd ğəzasindən şəhid düşdi. Və Ühüd ğəzasinüŋ şərhi bəylə idi ki, müşriklər Bədr səvaşindən soŋra islam ləşkərinüŋ kininə bel bağladılar və bəgləri içün ki, ol uğraşdə öldürmiş idilər, intiqam çəkməgə bir ağır ləşkər cəmʾ etdilər. Üç miŋ adəm ki, yedi yüz geyimlü-gecimlü idilər və iki yüz at və üç miŋ devə anlaruŋ ləşkərində var idi. Mədinəyə gəlüb Ühüd dağınuŋ dibində durub səf bağladılar. Həzrət Risalətpənah yedi yüz yigit ilən qarşularına vardı və ləşkəriŋ tərtib edüb səfi durğuzdılar və bu mənzildə Ühüd dağı arddə və Mədinə ögdə və Əynin dağı sol qoldə vaqe olmış idi. Və bu Əynin dağınuŋ bir gədügi var idi ki, düşmən çərisi ol gədükdən islam ləşkəri üstinə gələ bilür idilər.

Həzrət Peyğambər Əbdullah Cübeyri əlli adəm ilən qamu oxatıcı ol gədükdə qoydı və müqərrər eylədi ki, ol gədügi saxlayub qoymayalar ki, kafərdən kimsə andan çıqsun və əmr etdi ki, hiç bab ilən öz yerindən təprənməsünlər. Və ol yeri əldən qoymayalar, gərək biz basəüz, ya basıləüz. Andan səfləri düzüldi **[63b]** və tuq ilə ələmləri durğuzdılar. Qüreyş ləşkərindən Təlhə bin Əbi Təlhə ki, kafərlərüŋ tuqçisi idi, meydanə girdi və mübariz istədi. Əmirül-mö'minin Əli (ə) anuŋ yamacına varub, bir qılıc ilən anuŋ başına əylə urdı ki, beyininə dəgüb həlak oldı. Anuŋ qərdaşı meydanə girdi, Əmir Həmzə anı daxi cəhənnəmə göndərdi. Əlqissə, Qüreyşüŋ tuqçiləri həlak

[229] *Mən şəhidəmmi?*

[230] *Biz Allahın bəndələriyik və O-na tərəf qayıdacağıq.* (Quran, 2:156)

oldılar və küfr tuqinüŋ başı quyi oldı və müsəlmanlar bir uğurda hav eyləyüb, kafərləri məʾrəkədən qaçdurub kəsbə məşğul oldılar. Ol əlli adəm ki, Əbdullah Cübeyr ilən gədük yolını saxlar idilər, gədugi boş qoyub kəsbə uzandılar. Nə qədr ki Əbdullah Cübeyr çığırə gördi kim, getməŋiz və Peyğambərüŋ əmr etdüginə xilaf etməŋiz, eşitmədilər. Və bu Əbdullah Cübeyr yerində bir az adəm ilən qaldı. Kafərlər çün ol gədügi boş gördilər, orayə yüz qoyub, Əbdullahı[231] yoldaşları ilən şəhid etdilər və müsəlmanlaruŋ ardına gəlüb, anlaruŋ qoşunlarını pərişan edüb, islam ləşkəri basıldı. Və ol kafərlər ki, arxa urub qaçar idilər, qayıdub islam ləşkəri ortaya dutdılar. Bu halətdə müsəlmanlar üç qoşun olub, bir qoşun Mədinə saruyə qaçub şəhrə girdilər və bir qoşun ol həzrətüŋ qulluğində sabitqədəm qalub durdılar misli-əmirül-mö'minin Əli və Səʾd Vəqqas və Təlhə və ğeyrihum. Və bir qoşun məʾrəkə ortasında sərgərdan gəzər idilər və anlardan neçəsi şəhid düşdilər və neçəsi soŋucı həzrət Peyğambərüŋ xidmətinə **[64a]** gəldilər.

Və rəvayətdür ki, Ühüd ğəzasində çün müsəlmanlar qaçmağə yüz qoydılar və həzrət Rəsulullahı yalğuz qoydılar, ol həzrət qəzəblü olub gördi kim, həzrət əmirül-mö'minin Əli (ə) yanında durubdur, dedi:

– Ya Əli, sən getmədüŋ?

Dedi:

– Ya Rəsulullah, "*innə li bikə usvətun*"[232], yə'ni mənüm müqtədam sənsən, müqtəda müqtədadan necə irağ ola.

Nəzm:

Can verür aşiq və Məʾşuq[233] kuyindən getməz,
Yüz tümən cövrü cəfa caninə qılsən, getməz.
Sifəti-aşiqi-sadiq, bəhəqiqət, oldur
Kim, kəsərlərsə anuŋ başini əz-tən, getməz.

---

[231] Əlyazmada: *Abdullah*.

[232] *Mən sənin arxanca gedirəm*.

[233] Təsəvvüfdə: Allah.

Bu halətdə neçə kafərlər Rəsulullah (ə) üstinə vardılar və ol həzrət buyurdı:

– Ya Əli, məni bunlardan saxləyəgör.

Əmirül-mö'minin Əli (ə) filhal anlarə yüz qoyub, ruzigarlərindən damar çıxarub neçələri qaçurdi və neçələri qılıcə keçürüb damuyə göndərdi. Bir qoşun daxi peyda oldılar. Həzrət Nəbiyullah vəliyüllahə (ə) işarət eyləyüb, anlaruŋ işini daxi bir yan eylədi. Ol vəqtdə Cəbrail endi və dedi:

– Ya Muhəmməd, bu cəvanmərdlik və müvasat idi ki, Əli sənüŋ ilə eylədi.

Həzrət buyurdı:

– "*İnnəhu minni və ənа minhu*[234]", yə'ni Əli məndəndür və mən andanəm.

Cəbrail dedi:

– "*Və ənа minkuma*[235]" – və mən daxi ikinizdənəm.

Və eşitdilər ki, qeybdən bu nida gəlür idi: "*La fəta illa Əli, la seyfə illa Zulfiqar*"[236].

Rəvayətdür ki, dörd kişi kafərlərdən bir-biri ilən əhd etdilər ki, həzrət Rəsulullahı şəhid eyləyələr: İbn Şihab və İbn Qəmiyyə və İbn Hümeyd və Ütbə bin Əbi Vəqqas. Pəs, bu halətdə **[64b]** ki müşriklər güclənüb müsəlmanları pərişan qıldılar və hər biri bir bucağə düşdilər, həzrət Risalətpənah az kimsə ilən bir yerdə durmış idi. Ol daşyürəklülər meydanı boş gördilər, ədəbsizlik əli həyasizlik yeŋindən çıxarub, daşlar [ol] həzrətə həvalə etdilər. İbn Qəmiyyə əleyhillə᾽nə neçə daş ol həzrətə atdı və andan bir daş nurani alnına ki könüllərüŋ mehrabi idi, dəgdi və yarələtdi və qan mübarək məhasinə axdı. Və ol həzrət ol qanları mübarək ridasi ilən arıdurdı və qoymaz idi ki, bir qətrə qan andan yerə tökülə[237] və buyurdı ki, əgər bir qətrə qan yerə tökər, gögdən yerüŋ əhlinə bəlalar nazil ola. Və İbn Şihab bir daş ol həzrətüŋ mübarək qolına dəgdürdi kim, andan ötüb lətif dodağı yar-

[234] *O, məndəndir və mən ondanam*. (hədis)

[235] *Və mən isə ikinizdənəm*. (hədis)

[236] *Əlidən başqa igid, Zülfiqardan başqa qılınc yoxdur*. (hədis)

[237] Əlyazmada: *tökülsə*.

dı və zərbindən hümayun dişi aşağə tərəfindən ufanub ağzından dışxarı düşdi. Və bu məhəldə neçə yarə ol həzrətə yetdi.

İbn Qəmiyyə bir qılıc ol həzrətə həvalə eylədi. Həzrət Rəsulullah anuŋ qılıcından ehtiraz eyləyüb, bir çuğurə düşdi və mübarək yüzi günəş kimi hicab bulutundə xamı kimsələrüŋ nəzərindən gizləndi. Bu vaqiədən dustlaruŋ gözinə nurani gündüzi qaraŋğulu gecəsi gözükdi.

Beyt:
Köŋüllər naləsi göglarə yetdi,
Bağırlar ahı ta səyyarə yetdi.

Məlʾun İbn Qəmiyyə sandı kim, şərʾüŋ günəşi fəna məğribinə batdı və kəmal övciniŋ ayı fövt və bəqa hicabinə gizləndi, öz qəvminə muştuluq verüb dedi kim, Muhəmmədüŋ işini bir yan eylədüm. İblis əleyhillənə bu sözi anuŋ **[65a]** dilindən alub qatı avaz ilən çığırdı kim, *"əla innə Muhəmmədən qəd qutilə"* [238], yə'ni biliŋiz ki, Muhəmməd öldi. İblisüŋ avazı Mədinəyə yetdi və bir saətdə bu pərişan xəbər Mədinədə dust-düşmən içində faş oldı. Müşriklər bu sözdən xürrəm olub kəsbə məşğul oldılar. Və Seyyidi-aləm (s) bir saətdən soŋra ol çuğurdən çıxub şi'b sarusinə vardı və əshabdən neçəsi anuŋlə bilə idilər.

Və bu ğəzadə Əmir Həmzə şəhid düşdi və anuŋ keyfiyyəti bu idi ki, Cübeyr bin Mütʾimüŋ bir həbəşi qulı var idi adı Vəhşi. Və ol bir yürəklü gürbüz səvaşlar görmiş kişi idi və zubin ilən səvaş edər idi. Çün Qüreyş ləşkəri Mədinəyə getmək əzm etdilər, Cübeyr Vəhşiyi çağırub dedi:

– Ey qul, bilürsəŋ ki, Bədr ğəzasində müsəlmanlar mənüm əmmüm Təimə bin Üzzanı nə zarinc ilən öldürdilər və mənüm həman ol yalğuz əmmüm var idi və Muhəmmədüŋ iki əmmüsi var: Həmzə və Əbbas. Və Əbbas indi Məkkədədür və Həmzə yanında. Əgər bu səvaşda anı öldürəsən, səni azad eyləyim və çox dirlik ilən səni bay edəyim.

---

[238] *Bilin ki, Məhəmməd ölmüşdür.*

Vəhşi ol sözi qəbul edüb, Həmzəni öldürməginə əhd eylədi. Və Əbu Süfyanuŋ əvrəti Hind adlu ki, ərəb oymağında görklik ilən məşhur idi və anuŋ atası Ütbə həm Bədr ğəzasində həlak olmış idi, Vəhşiyi çağırdı və dedi:

– Əgər Muhəmmədi (ə) mənüm atam əvəzini öldürəsən, köŋül istədügüŋ hər hacət ki var, məndən hasil olur, səni çox tərbiyətlər edəyim.

Və Haris bin Amirüŋ qızı daxi Vəhşiyə **[65b]** dedi:

– Mənüm atam Bədrdə öldürübdürlər və müsəlmanlardan üç kimsə atamuŋ tayıdurlar: Muhəmməd və Əli və Həmzə. Əgər bunlardan birisini öldürəsən, mən səni azadliğə yetürüb xürrəm edəyim.

Vəhşi cəvab verdi ki, Muhəmmədüŋ qətlünə ələüm dəgməz ki, səhabələr anı saxlamağdə yekcəhətdürlər. Əmma Həmzəni, Taŋrı bilür ki, əgər anı düşdə görəyim, anuŋ qorxusindən oyanəməzəm. Əmma çün əmirül-mö'minin Əli yeŋiyetişmiş yigitdür və mə'rəkələri az görübdür, olay kim, ələüm aŋa dəgə.

Bəs, Vəhşi bu və'dələrdən həzm olub, ləşkər ilən bilə Mədinəyə getdi. Səvaş günində bir busuyə gizləndi, gördi kim, ənsari canbazlar və mühacir sərdarlar həzrət Rəsulullahuŋ (ə) qulluğində can ilən durubdurlar. Andan naümmid olub, əmirül-mö'minin Əli əleyhissəlamuŋ tələbində idi. Baxdı kim, "la fəta" meydanınuŋ bəhadırı uğraşda əylə heybətlüdür ki, atınuŋ dırnağı altında yer özinə titrədür və sağdan və soldan xəbərsiz dəgül. Bildi kim, aŋa daxi əli[239] dəgməz. Həzrət Əmir Həmzəyə dolandı, gördi[240] kim, Əmir Həmzə sərxoş əslan kimi meydanə girər və Qüreyşüŋ səfini zirü zəbər eylər.

Və rəvayətdür ki, Əmir Həmzə ol gün iki əli ilən qılıc urər idi və hər kimə qılıcı dəgər idi, yerə baturur idi və əylə bəhadirliklər edər idi ki, əgər Sami-Nəriman diri olaydı, anı görəndə əyağdən düşər idi. Və əgər Rüstəmi-dəstan anuŋ dəstbürdi görə idi, əyağunuŋ dırnağını öpə idi.

---

[239] Əlyazmada: *əlini.*

[240] Əlyazmada: *göndərdi.*

***Beyt**:*
Çox zəmanlar dəvr edə bu günbədi-alimədar,
[66a] *Ta ki, bəylə şəhsüvari bir kəz edə aşikar*.

İttifaqən Siba' bin Əbdülüzzayə yetdi və qılıcı suyi zərbi ilən anı toprağ ilən bərabər edüb, damu odına göndərüb həyat xərmənini[241] fəna yelinə verdi və rəcəzlər söyləyüb meydan içində cövlan edər idi. Qüreyş ləşkərindən hiç kimsə anuŋ qarşusinə gələ bilmədi. Əmir Həmzə qəzəbə varub özini bir qoşun kafərlər içinə saldı və abdar qılıcı zərbi ilən anları pərişan etdi və dodağına köpük gətürüb, özini hiç kimsədən saxlamayub, ehtiraz eyləməz idi. Bu halətdə Vəhşi busudə oturub fürsət intizarını çəkər idi. Taŋrı hökmindən Əmir Həmzənüŋ atı səkəndəriyüb, Əmir Həmzə düşüb, əyağı bir ölüyə dəgüb, arxayə düşüb qarnı çıplaq oldı. Vəhşi busudən çıxub, zubini aŋa atub əylə qasuğinə dəgdürdi kim, ardından çıxdı. Əmir Həmzə qalxmək istədi kim, zəxmi uräni görə kimdür, müyəssər olmadı, yüzi quyi düşdi və mübarək alnını yerə qoyub, şəhadət kəlməsini ərz etdi və canı təslim edüb cənnətül-mə'vayə mənzil dutdı.

Vəhşi ol qədr səbr etdi ki, çəvrəsindən adəm irağ oldı, durə gəldi və hərbə ilən qarnını yırtdı və bağrını çıxarub, Hindi-məlʾunə yanına aparub dedi:

– Bu, ataŋ öldürəninüŋ Həmzə bağırı.

Ol məlʾuneyi-varunə ol bağırı aldı və ağzına aparub çəynədi, andan atdı və qızıllu yəraqlar ki geymiş idi, hər nəstə **[66b]** ki[242], boynində və əlində və əyağində var idi, qamusini çıxarub aŋa bağışladı və vəʾdə verdi ki, çün Məkkəyə yetə, on altun qızıl daxi aŋa verə. Bəs sordı kim, Həmzəni nərədə şəhid etdüŋ?

Dedi:

– Odur, meydan içində yatur.

Dedi:

– Gəl anı maŋa görsət.

---

[241] Əlyazmada: *xərməniniŋ.*

[242] *Nəstə ki* əlyazmada iki dəfə yazılmışdır.

Vəhşi anı gətürdi Həmzə üstinə. Hind bıcağ çəkdi və Həmzənüŋ qulağı və burnı və özgə əzaları kəsüb, bir ipə çəküb biləsincə apardı və ol büzürgvar gəvdəni müslə qılub, qan ilə toprağ içində qoydı.

Şe'r:

Toprağ ilə qan içrə xaçandur rəva o tən
Kim, din içün ədüvvi ilən karzar edər.
Yüz miŋ həzar cani-müqəddəs aŋa fəda
Kim, Mustəfayə cani-əzizin nisar edər.

Rəvayətdür ki, çün Mustəfanuŋ (s) şəhadət xəbəri Mədinəyə yetdi, hiç əvrət yox idi kim, gözlərindən yaş axmadı. Təharət hücrələrinüŋ müxəddəratı Ühüdə varməğə əzm etdilər. Həzrət Fatimə (ə.s) hücrənüŋ ardında durmış idi, qaçanlaruŋ[243] birisi ötdi. Fatimə istər idi kim, anuŋ ilən söyləşə və büzürgvar atasınuŋ xəbərini sora. Soŋra utanmağ aŋa baliğ olub hiç dinəmədi. Əmma məhəllənüŋ adəmləri bir qaçıcılərdən xəbər sordı. Dedi: "Nə sorərsən?"

Beyt:

Sormə məndən eviniŋ içindəki əhvalini,
Qapüdə qanlar gör, andan halı mə`lum eyləgil.

Fatimə bu sözi eşidincə başından tütün çıqdı və gözlərindən yaşlar axdı və vəsvas ilə fasid xiyallarə düşdi. **[67a]** Nagah bir qaçmış[244] daxi gəldi və dedi:

– Ey müsəlmanlar, Taŋrı sizə cəzayi-bəxeyr versün ki, Peyğambər (ə) şəhid düşdi.

Fatimə (ə.s) ki bu xəbər eşitdi, ussı qaçdı. Neçə xatunlar ki anda hazir idilər, yüzinə su səpdilər, ta huşi yerinə gəldi. Bəs, fəryad ilə ahü naləyə düşdi və dedi: "*Ya əbətah və ya həbib"*[245]. Andan ismət çadəri başına salub, Mədinə dərvazəsindən dışxarı çıxdı və Səfiyyə və Ümmü Əymən və bir neçə xatunlar anuŋlən yoldaş olub, Ühüd dağı sarusinə rəvan oldılar.

---

[243] Əlyazmada: *qaçənlərinüŋ.*

[244] Əlyazmada: *qaçmışı.*

[245] *Ey ata, ey dost.*

Rəvayətdür ki, həzrət Fatimə (ə.s) əylə ahlar urər idi ki, hiç kimsə anı eşidə bilməz idi və nalələr çəkər idi kim, hiç kimsənüŋ taqəti qalməz idi.

Beyt:
Bu nə ahdur ki, gögə yetsə, anı əbtər edər,
Dağ əgər eşidə bu nalə, olur zirü zəbər.

Həzrət Fatimə hər iki qədəm ki gedər idi, düşər idi. Özində nə yerimək qüvvəti bulur idi və nə durmək məcalı görür idi. Bu halətdə bir əvrət Bəni Dənyadən yetdi, sordı kim, ey Xeyrül-bəşər qızı, nərəyə gedərsən? Dedi:

– Atam yanına varmağ istərəm, əmma yerimək gücüm qalmayupdur.

Ol xatun dedi:

– Ey Seyyidətün-nisa, sən həm munda sakin ol, ta mən gedəyim və sənüŋ içün bir xəbər gətürəyim kim, əgər ataŋ səni bu halətdə görə bitaqət olur.

Fatimə bir divaruŋ kölgəsində oturub qərar dutdı, əmma köŋli qərarsız idi.

Ey əziz, bu sözi ol kimsə bilür ki, bir əzizüŋ fəraqinə giriftar olmış ola və bu qayğuni ol məhcuri tanur **[67b]** ki, bir səvgüdən ayrılmış ola.

Beyt:
Ol kimsə ki məntək qəmi yoq, anda nə bilsün,
Kanuŋ qəmidin köŋlümi necə keçürür gün.

Pəs, həzrət Fatimə (ə.s) dedi:

– Ey xatuŋ, çün gözüŋ atamuŋ iki aləmüŋ günəşi cəmalinə düşə, mənüm səlamum yetür və halümi bəylə ki görərsən, ol həzrətə ərz et və fürsət çağında söylə.

Şe'r:
Ey günəşyüzlü, gözümdən ta yüzüŋ oldı irağ,
Taqətüm taq oldı qəmdən, qalmışam ba-dərdü dağ.
Gözüŋ açgil, rəhmət etgil hali-zarümğə mənüm
Kim, gözüm yaş tökməgindən ni qəra qaldı, nə ağ.

Ol xatun Ühüd sarusinə rəvan oldı və həzrət Fatimə (ə.s) həsrət yaşı gözlərindən axıdurdı və yüz miŋ zariliğ ilən der idi:

– Ey əziz ata, məni qürbətə gətürdüŋ və ğəribliğ dərdinüŋ üstündə yetimliğ dügüni köŋlümə qoyduŋ. Nolaydı kim, anam Xədicə diri olaydı, ta yetimliğ ilə öksizliğümə bir dəva qılaydı və ğəribliğ ilə yalğuz qalduğum zəxminə bir mərhəm qoyaydı.

Burada həzrət Fatimə qayğuyə giriftar idi və orada ol xatun uğraş yerinə yüz qoyub yügürür idi və hər kimə yetər idi, həzrət Mustəfanuŋ xəbərini sorər idi. Və ol xatunuŋ qərdaşı ilə atası və oğlı – üçi daxi həzrət Peyğambər ilən səvaşə varmış idilər. Qəzadən çün uğraş məhəllinə yetdi, bir ölüyi gördi yol üstində düşmiş. Yəxşicə baxdı, məʿlum etdi kim, qərdaşıdur: torpağ ilə qanə bulaşmış. Gözini andan yumub ötdi **[68a]** və özinə dedi: "Həramdur maŋa anuŋ yüzini görmək Peyğambərüŋ yüzini görməyincə".

Çün bir parə yol daxi getdi, atası gördi şəhid olub toprağ üstinə düşüb. Andan daxi ötdi, nagah oğlını gördi yarəlü yatub, həzə həyatindən bir rəməq qalupdur. Oğlı çün anasını gördi, dedi:

– Ey ana, xoş gəldüŋ, bu soŋ nəfəsümdə didaruŋa çox müştaq idim. Bir saət yanümdə otur, ta didarüŋi baxayım.

Beyt:

Can tapşururəm uştə əyağuŋdə, nigara,
Bir ləhzə başum üsnə otur, şahi sevərsən.

Anası dedi:

– Ey ananuŋ əzizi və ananuŋ şəhidi, mənüm daxi fəraqüŋdə yürəgüm biryan və gözüm giryandur. Əmma Rəsulullah (s) qızı bir bucağda oturtdurubəm və anuŋ atası xəbəri aparməğə gəlübəm və həzə həzrət Rəsulullahuŋ xəbərini alməyübəm və həzrət Fatimə (ə.s) intizardədür. Məʿzur dut məndən ki, oturəməzəm.

Pəs, oğlını qoydı və Ühüd dağınuŋ dibinə yetdi, gördi kim, həzrət Rəsulullah şi'bdən çıxub, ələm altında səhabələr ilən durubdur. Ol xatun ilərü gəldi və həzrət Peyğambərüŋ (s) əyağinə düşüb dedi:

– Ya Rəsulullah, atam və oğlum və qərdaşum və bitün qəvmüm saŋa fəda olsun. Həzrət Fatimənüŋ (ə.s) səlamını gətürübəm və əhvalını qulluğüŋdə ərz eylərəm.

Həzrət Peyğambər (s) dedi:

– Sən anı nərədə qoyduŋ?

Ol xatun həzrət Fatimənüŋ **[68b]** qissəsi şərh etdi. Rəsulullah (s) dedi:

– Tez qayıt və mənüm diriligüm xəbərini aŋa yetür və nə qədr ki tezrak isə, anı maŋa yetürəgör.

Ol xatun yeldən yügürmək ariyət istəyüb qayıtdı və Peyğambərüŋ (ə) sağlığını qızına yetürüb dedi:

– Ataŋı gördüm əshab ilə durmış idi və başı üstinə ələmi sərəfraz eyləmiş.

Həzrət Fatimə dedi:

– Məni atamə yetür və muştuluq məndən al.

Ol xatun anı öginə salub Ühüdə yetürdi. Çün Rəsulullah (ə) irağdan Fatiməni gördi, aŋa qarşulayub qucağına aldı. Fatimə (ə) çox ağladı. Həzrət Rəsulullah (ə) aŋa təsəlli verüb xoşnud eylədi. Həzrət Fatimə dedi:

– Ya Rəsulullah, bu xatundan muştuluq qəbul edübəm.

Seyyidi-aləm (s) ol əvrətdən sordı:

– Muştuluq əvəzi Fatimədən (ə.s) nə umarsən?

Dedi:

– Ya Rəsulullah, andan bunı umaram ki, Qiyamət güni mənüm ələmi duta və məni unutmaya.

Fatimə (ə.s) dedi:

– Ya Rəsulullah, danuğ ol ki, mən Qiyamət güni ansız cənnətə qədəm basmayım.

Ol əvrət şadiliğindən ağlayub dedi:

– Ya Rəsulullah (s), rüxsət ver, ta şəhidləriŋ üstinə varayım ki, yalğuz qalupdurlar.

Həzrət Risalət (ə) rüxsətini verdi. Pəs əshabinə yüz ürub dedi:

– *"Ma fəalə əmmi"*[246] – bilmənəm ki, əmmüm Həmzə netdi və anuŋ əhvalı nəyə yetdi və nədən ötrü anı görmənəm.

Haris bin Səmmə ol həzrətüŋ yanından rəvan **[69a]** olub, Əmir Həmzənüŋ xəbərini gətürməgə [getdi] və gec qayıtdı[247]. Həzrət əmirül-mö'minin anuŋ ardınca getdi və Harisə yetdi, gördi kim, Əmir Həmzənüŋ başı yanında durubdur. Əmirül-mö'minin Əli (ə) çün Əmir Həmzəni o hal ilən gördi, ağlayu-ağlayu Peyğambər (ə) yanına gəldi və ol həzrəti anuŋ şəhadətindən xəbər verdi.

Beyt:
Nə xəbərdür bu ki, andan cigərüm qan oldi,
Yürəgüm yandivü köŋlümni pərişan oldi.

Seyyidi-aləm (s) mübarək qədəmi rəncidə qılub Əmir Həmzənüŋ üstinə vardı, gördi kim, əziz əmmüsi şəhid düşüb, müslə eyləyübdürlər. Qayğulu olub ağlamağə düşdi, zira kim Əmir Həmzəni bəqayət sevər idi, andan ki həm əmmüsi idi və həm əməkdaş qərdaşı. Və bu halətdə Səfiyyə ki, Peyğambərüŋ bibisi və Əmir Həmzənüŋ qızqərdaşı idi, irağdan göründi. Rəsulullah (ə) anuŋ oğlına – Zübeyrə dedi:

– Var anaŋı qayıtdur, ta burayə gəlməyüb, qərdaşını bu halda görməyə, olay kim, taqətsüz olub həddən artuğ ağlaşa.

Zübeyr anası öginə varub dedi:

– Nərəyə gəlürsən? Rəsulullahuŋ (ə) xatiri bəylə istər ki, sən qayıdəsən.

Səfiyyə dedi:

– Ey oğul, eşitmişəm ki, qərdaşum Həmzə şəhid eyləyüb, müslə qılubdurlar və bilürəm ki, bu bəla və mihnət Taŋrı rizası içün çəkübdür. Gəlmişəm, ta anı görəyim və Taŋrı daxi maŋa səbr versün, ta anuŋ riza dəvlətinə yetəyim.

Zübeyr qayıtdı və anasınuŋ sözi ol həzrətüŋ qulağına yetürdi. Həzrət Rəsulullah (s) aŋa icazət **[69b]** verdi, ta gəldi və qərdaşını gördi və anuŋ içün Taŋrıdan rəhmət istəyüb istiğfar qıldı, əmma özini

[246] *Əmim nə etdi?*

[247] Əlyazmada: *qayıdurdı.*

ağlamağdan saxləyə bilmədi. Rəsulullah (s) anuŋ ağladüğindən ağlamağə düşdi və Fatimə daxi həm ağlar idi. Həzrət Peyğambər (s) buyurdı: *"lən əsab bimislikə əbədən"*[248], yə'ni hərgiz səndən ötrü bəylə müsibətlü olmayacəgəm və hiç kimsənüŋ müsibəti sənüŋ müsibətüŋ kimi olmayacəgdür. Və müqərrərdür ki, bəylə müsibətdə ağlamağdan özgə və ah ilə [nalə] çəkməkdən özgə zahir olmayacəkdür.

Qitə:

Ey köŋül, bəylə yə'sü mihnətdə
Çəkgil ahuŋ içün bu gün ahəng.
Qanlu yaşlar gözüm gər axmayasən,
Saxləyübsən nə gün içün, söylən.

Və Səfiyyəyə dedi:

– Bəşarət olsun saŋa ki, Cəbrail gəldi və dedi ki, Həmzənüŋ adını yedi gögüŋ ortasında Əsədullah və Əsədi-Rəsulə yazdurdılar.

Və neçə rəvayətlərdə gəlübdür ki, həzrət Rəsulullah Ühüd şəhidləri üçün nəmaz qıldı: əvvəl Həmzə içün və hər şəhidi ki, gətürür idilər, Həmzənüŋ yanında qoyardılar və aŋa nəmaz qılur idilər.

Və "Nurül-əimmə" rəvayət eyləyübdür ki, Əmir Həmzə ikinci şəhiddür Əhli-Beytdən və yetmiş qatla Peyğambər Əmir Həmzəyə nəmaz qıldı. Və bəylə məʾlum olur ki, həzrət Rəsulullah (s) xəbər vermiş idi ki, yetmiş adəm İmam Hüseyn (ə) ilən şəhid eyləyəcəkdürlər və kimsə olmaya ki, ol şəhidlərə nəmaz qıla. Pəs, ol yetmiş qatla nəmaz bir kəz Əmir Həmzə içün və yetmiş qatla Kərbəla **[70a]** şəhidləri içün qıldı, ta Həqq-təala ol nəmazınuŋ səvabı ol şəhidlərüŋ ruhinə yetürsün, aŋlaruŋ şəhadət bulduğından soŋra. Və şəhidlərüŋ səvabı hədd və qayətdən dışxarıdur.

Rəvayətdür ki, çün bir kimsə şəhid olub əyağdən düşər, uçmağun hureyni anuŋ içün durubdurlar ki, ol şəhidüŋ başını götürüb dizi üsnə qoyalar. Və rəvayətdür ki, Əmir Həmzəyi həm ol qanlu köŋləkilən qəbrə tapşurdılar və Ühüddən qayıtdılar. Və hər kimsə öz şəhidi içün öz evində yas dutdılar və Əmir Həmzənüŋ evindən yas səsi

[248] *Sənin müsibətin kimi müsibət olmayacaq*. (hədis)

həzrət Rəsulullahuŋ (s) qulağına yetmədi və buyurdı kim, "*Əmma Həmzətun la bəvakiyə ləhu*"[249], yə'ni Həmzənüŋ bu şəhrdə qəvm və qərdaş dişiləri yoxdur ki, anuŋ içün ağlayalar, yə'ni ğəribdür və qəriblərüŋ qürbətdə kimsə ki anuŋ içün ağlaşa və şəfəqqət ilən yasın duta, az olur və qəriblərüŋ halı bəylədür. Və dünyadə nə qədər ki mihnət çox, ğəriblərüŋ nəsibi andan artuxdur. Və ulular buyurubturlar: iki vəqt iki kimsənüŋ həsrəti çox olur: birisi yetim ki, çün səbah qalxa, atasınuŋ yüzini görməyə və ikinci: əqşam çağı ğəribüŋ əhvali ki, hər tərəfə baxsa, bir tanış nəzərinə gəlməyə.

Və rəvayətdür ki, peyğəmbərlərdən birisi Əzraildən sordı kim, ey ruhlaralıcı mələk, bu qədr həsrət dügüni ki, adəmüŋ bağırınə qoyarsən, **[70b]** bu qədr əcəlüŋ acılığ şərbəti ki, xəlqi-aləmüŋ boğazına tökərsən, hərgiz hiç kimsənə rəhmüŋ gəldi?

Əzrail dedi:

– Ey Taŋrınuŋ Peyğambəri, mənüm köŋlümdən Taŋrı-təala rəhm götürübdur. Ruh almağda hiç kimsənə rəhm yoxdur, məgər ol qayğulu ğəribə ki, öz şəhrindən və qəvm və qərdaşlarından irağ olmış ola. Həman ki anuŋ ruhini almağa əl uzaduram, ol biçarə bilür ki, öginə nə nəstə gəlüpdür və sağə və solə baxə, nə ər görə və nə əvrət, nə uşax və nə qərdaş, nə ata və nə ana ki, anlar ilən köŋül qayğusini deyüb bir vəsiyyət eyləyə. Və nə bir yar və nə müşfiq ki, yetimlərini aŋa tapşura. Ol halətdə həsrət yaşı gözindən axa və pəşimanlığ yağışı bağır bulutından yüzinə dama. Mənüm ol halətdə aŋa rəhmüm gəlür və yumşağlığ ilən ruhini qəbz eylərəm.

Şe`r:

Hər gecə gedər köksidən arami-ğərib,
Qəm şərbətidən acı olur kami-ğərib.
Derlər yoxdur bətər ölümdən nəstə,
Bişəkk, andan bətərdür şami-ğərib.

Mədinəlü çün munı eşitdilər, öz evlərinə gəlüb, xatunlarını Həmzənüŋ evinə göndərdilər ki, əvvəl Əmir Həmzə içün ağlayub yasın du-

[249] *Həmzənin burada heç kəsi yoxdur ki, onun üçün ağlasın.*

talar. Pəs, Həmzənüŋ evində yarım gecəyədək cığrışub ağlaşdılar. Seyyidi-aləm (s) uyumış idi. Həman ki oyandı, ağlamağ səsi Həmzənüŋ evindən eşitdi. Sordı:

– Bu, nə avazdur?

Dedilər ki, ənsar xatunlarıdurlar **[71a]** ki, sənüŋ əmmüŋ içün ağlarlar. Rəsulullah (ə) buyurdı ki, Taŋrı-təala sizün dişilərinizdən xoşnud olsun.

Ey əziz, Kərbəla qissəsində daxi yəxşicə bax ki, İmam Hüseyn əvlad və əshabı ilən ğərib idilər və Kərbəla yazısında kimsə yox idi ki, anlar içün ağlayə. Lacərəm, gög anlar içün ağladı. Və Mühyissünnə "Məalimüt-tənzil"də nəql eylər ki, çün İmam Hüseyni şəhid etdilər, gög ağladı və hər günbatan çağı bu şəfəq qızıllığı ki, məğrib tərəfində gözükür, ol gündən bərlü gözükdi. Və Sə'ləbi təfsirində Muhəmməd bin Sirindən rəvayətdür ki, İmam Hüseynüŋ (ə) şəhadətindən ilərü bu şəfəq nişanələri yox idi.

Beyt:
Gülgun şəfəq ki çərxi-eski[250] *xəlqə görsədür,*
Hər şam çağı şəhidlərüŋ qan nişanidür.

Və rəvayətdür ki, ol gün ki, İmam Hüseyni (ə) şəhid etdilər, Beytül-Müqəddəs ətrafində hiç daş yerindən götürmədilər kim, anuŋ altında tazə qan yox idi. Və daxi rəvayət edərlər ki, ol gün ki, İmam Hüseyn (ə) [251] şəhadət şərbətin içdi, gögdən qan yağdı və Kərbəladəkilərüŋ geyəsiləri qamu qanlu oldı və neçə gün anlaruŋ gözinə gög bağlamış qan kimi gözükür idi.

Və "Uyunür-Riza" kitabında yazıludur ki, İmam Əli bin Musa ər-Riza (əleyhittəhiyyət vəs-səna) Rəyan bin Şeybə[252] [buyurur ki], ya Bin Şeyb, ol gün ki cəddümi şəhid etdilər, gögdən **[71b]** qan yağdı və bir toprağ qızıl boyağlu gögüŋ ətrafindən yerə endi. Ya Bin Şeyb, bədürüsti ki, dörd miŋ mələk gögdən anuŋ himayəti içün yerə endilər və rüxsət bulmadılar səvaşməğə. Bəs, ol həzrətüŋ ziyarəti üstində qə-

[250] Əlyazmada: *iki.*
[251] Əlyazmada: *İmam Hüseyni.*
[252] Farsca orijinalda: *Bin Şəbib.*

rar dutub, saçları pərişan və yüzləri tozlu ağlarlar və həm andadurlar Qiyamətədək.

Şe'r:

Bu müsibətdə məlaik dəmbədəm ağladılar,
İnsü cinn yəxşi-yaman cümlə zi-qəm ağladılar.
Kürsi yerdən getdivü düşdi əyağdən sidrət həm,
Ərş nalə qıldivü lövhü qələm ağladılar.
Aləmi rövşən qılan xurşid çəkdi naleyi-zar,
Qarımış göglər daxi ba-püşti-xəm ağladılar.
Mustəfanuŋ sibtiçün cənnət içində hurilər,
Badiyə düşmişlər içün ba-ələm ağladılar.

***

Üçünci şəhid Əhli-Beytdən

Cə'fər bin Əbi Talib idi – Murtəza Əlinüŋ (ə) qərdaşı. Anuŋ əhvalı bu idi ki, islam əvvəlində müsəlmanlar ilən Həbəşə varmış idi və padşahi-Həbəşə Nəcaşi adlu anuŋ əli ilən müsəlman oldı və soŋra Həbəşədən çıxub Xeybər ğəzasində həzrət Peyğəmbərüŋ (ə) xidmətinə yetdi. Və ol həzrət bəqayət xürrəm olub buyurdı kim, bilmənəm kim, hanğı fütuh ilən şadiliğ edəyim: Cə'fərüŋ gəldügi içün, ya Xeybərüŋ qəlʾəsi fəth olduği içün. Və Rəsulullah (s) anı çox-çox sevər idi və anuŋ həqqində buyurdı: *"Əşbəhtə xəlqi və xuluqi"*[253] – sən maŋa bənzərsən surət və sirət ilən və bu, tə'rifüŋ nəhayətidür. Və rəvayətdür ki, səkizinci yıl Rəsulullah (ə) **[72a]** bir ləşkər Şürəhbil Ğəssani üstinə göndərür idi. Cə'fər ol ləşkər ilən bilə idi. Və islam ləşkəri üç miŋ adəm idilər və Şürəhbilüŋ çərisi yüz miŋ atlu ilən yəyağ idilər. Və çün islam ləşkəri Şam məmləkətinüŋ ölkələrinə yetdilər kim, ol yerüŋ adı Bülqa idi, yekcəhət mübarizlər bavücud ki anlaruŋ yamacında az idilər, düşmənüŋ çoxluğindən qorxmayub, bitün e`tiqad ilən təvəkkülüllahuŋ ətəginə əl urub, səbat əyağı durməğ üzəngüsinə bərkidüb, ixtiyar ciləvi Taŋrı-təalanuŋ təqdirinə qoydılar.

[253] *Sən əxlaqına və fitrətinə görə mənə bənzəyirsən.* (hədis)

Beyt:
Çün bəndənüŋ əlində iradət inani yox,
Həqqüŋ iradətinə qodük ixtiyarımız.

Ərlər kimi meydanə yüz qoydılar və müxaliflər ilən uğraşub, bəhadirlər təki səvaşə məşğul oldılar. Əvvəl qatla Zeyd bin Harisə şəhid düşdi. Cə'fər bin Əbi Talib ələmin götürüb, atdan yəyağ olub atını siŋirlədi. Və əvvəl kimsə kim, islamda atını siŋirlədı, ol idi. Andan soŋra səvaşə məşğul oldı. Bir qılıc anuŋ sağ əlinə urdılar, əylə kim, əli düşdi, sol əli ilən ələmi dutdı, anı daxi saldılar. Ələmi qolları ilən bərkidüb, bir namərd Rum ləşkərindən aŋa bir zəxm yetürüb, əyağdən saldurdı. Və həzrət Allah-təala öz Peyğambəri bu uğraşuŋ vaqiələrindən xəbərdar eylədi və hicab pərdəsi ortadan götürüldi, ta hər nəstə ki ol məˀrəkələrdə vaqeˋ olur idi, həzrət Peyğambər (s) anı **[72b]** təmamətin görər idi. Bəs Mədinədə əshabinə der idi: Zeyd bin Harisə ələmi götürdi, anı şəhid etdilər. Pəs Cə'fəri-Təyyar ələmi aldı və ol daxi şəhadətə yetdi. Bəs Rəvahə ələmi götürdi, anı dəxi şəhid qıldılar. Bu sözləri söylər idi və mübarək gözlərindən yaşlar yüzinə axar idi. Və buyurdı kim, Cə'fəri-Təyyar cənnətə girdi və Taŋrı-təala iki qanat anuŋ əlləri əvəzinə verdi kim, hər yerdə kim, xatiri istər, uçar. Və əmirül-mö'minin Əlidən (ə) nəqldur ki, Rəsulullah (s) buyurdı ki, Cə'fəri-Təyyarı gördüm cənnətdə mələklər kimi uçmağda idi. Və rəvayətdür ki, anı düşdə gördilər ki, uçmağda cənnətdəki quşlar ilən uçar idi. Mundan ötrü aŋa Cə'fəri-Təyyar der idilər. Və əmirül-mö'minin Əli (ə) şeˋrdə bəylə buyurubdur.

Beyt:
Və Cəˋfər əlləzi yusbih və yəmsi,
Yuteyru məəl-məlaikətu ibn ummi.[254]

Yə'ni ol Cə'fər ki, hər əxşam və hər səbah mələklər ilən uçar idi, mənüm anam oğlıdur, yə'ni mənüm qərdaşum.

[254] *Hər səhər-axşam mələklərlə uçan Cəfər*
Mənim anamın oğludur (qardaşımdır).

Və özgə kitablarda yazubturlar ki, Cə'fəri-Təyyarə ol səvaşdə əlli zəxm öginə yetmiş idi. Həman ki məʾrəkədə yatdı, kafərlərdən kimsənüŋ zəhrəsi yox idi kim, yanına varə başını kəsməgə, əz-bəs ki heybətlü idi. Pəs, rumlu bir uğurda həmlə edüb, anı cidə ilən yerdən götürdilər. Və çün bu məhəldə həzrət Peyğambər minbərdə idi və bu əhvalı görər idi və həman ki Cə'fəri yerdən götürdilər, **[73a]** Mustəfa (ə) yüzini gögə eyləyüb dedi: "Ya Rəbb, mənüm əmmüm oğlı rüsva etmə". Həzrət Həqq-təala dərhal aŋa iki qanat bağışlayub, kafərlərüŋ cidaları ucından uçdı və cənnətül-mə'vayə girdi.

Rəvayətdür ki, çün həzrət Rəsalətpənah Cə'fərüŋ keyfiyyətini məʾlum etdi, anuŋ evinə gəldi və Əsma bint Əmis ki, anuŋ xatunı idi, çağırub sordı ki, Cə'fərüŋ oğlanları [xandadurlar?] Mənüm yanümə gətür. Pəs anları hazir etdilər. Həzrət Rəsulullah anları öpdi və iyiləyüb qucağladı və mübarək ətəgi üstində oturtdı. Və ol həzrətüŋ gözlərindən yaşlar axar idi. Əsma dedi:

– Ya Rəsulullah, Cə'fərüŋ oğlanları əylə nəvaziş eylərsən ki, yetimlərə eylərlər və anlar ilən əylə müamilələr eylərsən ki, atasızlara edərlər. Məgər Cə'fərüŋ xəbəri gəlüpdür və aŋa bir nəstə vaqe olupdur?

Həzrət Peyğambər (s) buyurdı:

– Bəli, şəhid olubdur.

Əsma çığırmağə düşdi və xatunlar anuŋ üstinə hazir olub ağlamağə düşdilər. Rəsulullah anlarə təsəlli verüb səbr etməgə buyurdı.

Və rəvayətdür ki, həzrət Rəsulullah andan qalxub gözləri yaşlu Fatimənuŋ mənzilinə təşrif ərzani qıldı. Gördi ki, Fatimə ağlayub der idi: "*Ya əmmah*"[255]. Peyğambər (s) dedi: "*Əla misli-Cə`fər fəltəbək əl-bakiyə*"[256], yə'ni əgər kimsə ağlayə, Cə'fər kimi kişi içün ağlasun.

Qitə:

Cə'fər içün yürəgüm pürqandurur,
Sorma məndən halümni, bəŋzümni gör.
[73b] *Özgələr içün gözüm yaş axdisə,*
Sənüŋ içün bağrümi qan axıdur.

[255] *Ey əmi.*

[256] *Əgər kimsə ağlasa, Cəfər kimi kişi üçün ağlasın.* (hədis)

Və Əbdullah bin Cə'fəri-Təyyardan rəvayətdür ki, yadumda var ki, ol həzrət bizim evimizə gəldi və atam yasını verüb, mübarək əlin mənüm başümə və qərdaşum başına sürtdi və yüzimizi öpdi və gözlərindən yaş axar idi, əylə ki, məhasini-şərifinə rəvan olur idi. Və buyurdı ki, ya Rəbb, Cə'fər yegrak səvabə mülhəq oldı. İmdi sən anuŋ xəlifəsi ol, zürriyatinə yaxşı xilafət eylən. Və üç gündən soŋra genə anlaruŋ evinə gəldi və Cə'fərüŋ uşağlarını sorub köŋüllərin aldı və dəllakı çağırub, başlarını qırxub buyurdı ki, Muhəmməd bin Cə'fər mənüm əmmümə – Əbu Talibə oxşar idi. Əmma Əvn bin Cə'fər surət və sirət ilən atasına bəŋzər. Və anlar içün dualar etdi.

Rəvayətdür ki, anlaruŋ anası ağlayub uşağlarınuŋ yetimliğini aŋar idi və ögsizliğlərindən nalə çəkər idi. Həzrət Rəsulullah (s) buyurdı: *"Ətəxafinə əleyhim və ənа vəliyyihum fid-dunya vəl-axirə"*[257] – aya, Cə'fərüŋ uşağları içün ağlarsan kim, anlaruŋ mədədi və müşfiqi yoxdur. Mə`lum et ki, anlaruŋ qayıranı mənəm dünyadə və axirətdə.

Və Cə'fərüŋ yedi-səkiz oğlı var idi və anlardan Əvn və Muhəmməd Əsğər Kərbələdə İmam Hüseyn ilən şəhadət şərbətini içdilər və anlaruŋ hekayəti mundan soŋra deyəcəgüz.

Şe'r:

Əhbabnuŋ yürəkləridin qan rəvan olur,
Hər yerdə kim, Hüseyni-şəhidüŋ sözin ötə.
[74a] *Hiç kimsə gör yanində rəvamı ki, şamludən,*
Peyğambər Əhli-Beytinə mundaq cəfa keçə.

***

Daxi ol həzrətüŋ ibtilası biri

əziz fərzəndinüŋ İbrahim adlu müsibətidür. Və İbrahim Mədinədə səkizinci yıl hicrətdən zilhəccə ayında Mariyeyi-qibtiyyədən doğdı və əbəsi Səlma ki Rəsulullahuŋ azadkərdəsi idi, müqərrər oldı. Və ol öz ərinə – Əbu Rafi`ə dedi ki, Mariyə oğlan doğdı və ol bu xəbəri

[257]*Onlar fəqirlikdən qorxmasınlar, mən bu dünyada və axirətdə onların qəyyumuyam.*(hədis)

Peyğambərə (s) apardı. Və ol həzrət bu muştuluqdən ötrü bir qulı Əbu Rafi`ə bağışladı. Və həm ol gecə anuŋ adını İbrahim qoydı və Cəbrail (ə) gəlüb dedi: "Əssəlamü əleyküm, ya İbrahim". Və həzrət Rəsulullah bu səbəbdən xürrəm olub, anuŋ içün dayə müqərrər eylədi və bir yıl yarım dirildi və onunki yıl hicrətdən vəfat oldı. Peyğambər (s) anuŋ fövtindən çox ağlaşub qayğulu oldı. Və səhih olupdur ki, çün ol həzrətə yetürdilər ki, İbrahim səkəratdədür, Əbdürrəhman Əvf ilən dayəsi yanına gəldi və İbrahimi andan alub ətəgində oturtdı. Çün oğlını ol halətdə gördi, mübarək gözindən yaşlar rəvan oldı. Əbdürrəhman Əvf dedi:

– Ya Rəsulullah (s) sən daxi ağlarsan. Axir nə ölülər içün ağlamağdan mən' eyləyübsən?

Həzrət Nəbiyullah səl'əm (s) dedi:

– Ey Əvfoğlı, mən' etmişəm yüz ilən saçı yırtmağdən və köŋləgi çak etməkdən və yəŋağə çəpəlaq urməqdən. Əmma göz yaşını **[74b]** tökmək rəhmət əsəridür. Və hər kim rəhm etməyə, aŋa rəhm etməyələr. Andan soŋra dedi: "Ölmək bir əmrdür olmalu və əgər nə, ol olaydı ki, bizim axirimiz əvvələ race' olacaqdur. Səndən ötrü mundən artuq qayğulu olurdum".

Andan buyurdı: "*Əl-eynə yədməˀu vəl-qəlbə yəhzənu*"[258] – göz yaş axıdar və köŋül qayğulu olur: "*Və la nəqulu illa ma yurza Rəbbuna*"[259] – və söyləməzəm bir söz, məgər ol nəstə ki Taŋrı-təala bəgənə. "*Və inna bifəraqinə ya İbrahimu ləməhzunun*"[260] – və biz sənüŋ fəraqüŋdə çox qayğuluyuz. Və necə kimsə öz yürəkparəsi içün qayğulu olmasun, çi uşağ bir üzvdür ata ilə ananuŋ ə'zalərindən və çün üzv andan kəsilə, külli qəm və məlal baqi ə'zayə yetər.

Beyt:
Özgələr peyvəndidən asandurur olmağ, köŋül,
Leyk can peyvəndidin köŋül götürməkdür çətin.

[258] *Göz yaşarır, qəlb kədərlənir.*

[259] *Biz ancaq Rəbbimizin razı olacağı sözləri söyləyərik.*

[260] *Ey İbrahim, sənin ayrılığına görə üzgünük.* (hədis)

Və "Şəvahidün-nübüvvə" kitabında və özgə kitablarda yazıludur ki, bir gün Mustəfa (ə) İmam Hüseyni (ə) sağ budi üstinə oturtmış idi və öz oğlını İbrahim sol budi üstinə. Cəbrail (ə) gəlüb dedi:

– Ya Həbibullah, Taŋrı-təala bu iki cövhəri saŋa qoymayacəkdür və birisi səndən alacəqdür. İmdi sən ixtiyar et: hər hanğı ki, köŋlüŋ dilər.

Rəsulullah (ə) dedi:

– Əgər İmam Hüseyn vəfat olur, həm mənüm canum yanar və həm Əlinüŋ köŋli məlul olur və həm Fatimənüŋ bağırı dəlinür və həm İmam Həsən qayğulu olur. Və əgər İbrahim gedər, ancax mənüm yalğuz canümdə mihnət qonar. Mən bu mihnəti öz canümə rəva görərəm **[75a]** və anlarə dəgməzəm.

Pəs üç gündən soŋra İbrahim vəfat oldı. Və hər qaçan ki İmam Hüseyn (ə) Peyğambər (s) yanına gəlür idi, anı öpüp der idi: "Mərhəba ol kimsəyə ki, mən öz əziz fərzəndümi aŋa fəda edəyim". İmdi insaf ver ki, Peyğambər (ə) anuŋ həqqində bəylə sözlər söyləmiş ola, aŋa bəylə işlər rəvamıdur?

"Kənzül-ğəraib" kitabında rəvayət eyləyübdürlər ki, İmam Hüseyn (ə) bir gün Rəsulullah (s) yanında idi və evinə getmək istər idi və yol balçıq idi və yağış yağar idi. Həzrət Nəbiyullah (s) İmam Hüseynə baxub gördi kim, məluldur, buyurdı:

– Ey cəddüŋ canı, nişün məlulsən?

Dedi:

– Atamə və anamə getmək istərəm və yağış yağar və yol balçıqludur.

Həzrət Rəsulullah (ə) dua qıldı, ta yağış diŋdi. Andan İmam Hüseyn (ə) evinə vardı. Və ol həzrət yağışı rəva görməz idi kim, İmam Hüseynüŋ (ə) başına yağa. Kərbəladə ağulu oxlar İmam Hüseynüŋ (ə) şərif gəvdəsinə necə rəva olur?!

Nəzm:
Köksiniŋ yaprağını iti tikən asibidən
Qönçənüŋ ceybitək çak eylədilər, miŋ dəriğ.
Boyiniŋ sərvi ki çəkdi qədi yüz e'zaz ilən,
Yer içində anı bipak eylədilər, miŋ dəriğ.
Çün yəŋağı gördilər qanlu, mələklər dedilər:
Bu əzadə bizni qəmnak eylədilər, miŋ dəriğ.

Və bu heyf və dəriğ[261] Qiyamətədək bu ümmətüŋ matəmzədələri içində qalacəqdür və hər yıl **[75b]** çün mühərrəm ayı gəlür, İmam Hüseynüŋ (ə) mühibb olan şiələri gözləri yaşlu və yürəkləri qanlu olur. Taŋrı-təala dünyadə dostlarınıŋ qayğusini Qiyamət şadiliğinə səbəbi eyləsün və şahzadənüŋ müqəddəs ruhi Kərbəla şəhidləri ilən bizdən xoşnud eyləsün.

Nəzm:
Ya Rəb, bizə lütf eylə, əta bağışla,
Bu xəstə köŋüllarğə şəfa bağışla.
Biz necə günəhkarü pərişanhalüz,
Bizni bəşəhidi-Kərbəla bağışla.

[261] Əlyazmada: *dəriği*.

ÜÇÜNCİ BAB

Həzrət Peyğambərüŋ (ə) don dəgşürdüginə

Bəni-Adəm aqillərinüŋ xatirində və fazillərinüŋ zəmirində zahir və bahirdür ki, adəmüŋ dirilik geyəsi ariyətdür və ömri bünyadı bəqayət bəqasız. Hər gün ilən hər tün ki keçər, axirətüŋ irağ yolınuŋ bir mənzilidür. Və hər ay ilə yıl ki gəlür və gedər, bu qanyeyici dünyanuŋ ötənlərinüŋ qonacaq yurtları. Əlbəttə, hər kim anadan doğar, ölməlüdür və hər kim dünya büsatı üsnə qədəm basdı, getməlü. Burada durmək kimsənüŋ nişanı yox və vəfa və səbat istəmək ömrdən kimsənüŋ yarlığ tuğrası yox.

Nəzm:

Bu toprağdə yoxdur əman gəncini,
Bu sümükdə yoxdur vəfa iligi.
Çənağları bu süfrədə boşdurur,
Kim aŋa sunar əl, yanar iligi.

Ey əziz, bu cəhanuŋ güli tikən ilən yoldaşdur və bu bustanuŋ çəməni qumlu və pürdaş, çaxırı xumar ilən bilədür və **[76a]** gənci mar ilən bilə. Rahəti zəhmət ilən həmxanədür və məhəbbəti mihnət ilən həmkaşanə. Hanğı sərv vücud çəmənində boy çəkdi ki, fəna bıçqusi ilən anı kəsməyüb, həlak toprağına salmadı və hanğı budağ həyat gülşənində bitdi ki, məmat baltəsi ilən kökini qoparmadı?

Beyt:

Çəkdi hanğı sərv boy kim, soŋra anı salmadı,
Kim nəstə verdi kim, soŋuci gerü almadı?!

Hər kim yoxlığ dərvazəsindən varlığ səhrasinə qədəm basdı, şəksiz, gənə fəna gədügindən dışxarı getməlüdür və hər kim əməl ilə ümmid qumaşı dirilik məmləkətinə çəkdi, əlbəttə, can məta᾽i əcəl təmğaçisinə tapşurmalu:

Nəzm:
Dünyadə hər kim oturdi fariğü qoydi köŋül,
Əylə sandı kim, anuŋ bir möhlətü tə'xiri var.
Çadırın degil qoparsun, qazuğı bərkitməsün,
Yükini söylə götür, öz başuŋ algil, yeri-var.

Pəs, ey zəmanənüŋ yatmışları, oyanuŋ ki, əcəl busudədür vey dünyanuŋ sərxoşları huşyar oluŋ ki, qayıtdıŋız yer[262] "*lailahə illa hu*"[263]dur. Ey əyyam şadiliğinüŋ məğrurları, dirilik mənzilində qafil olmıŋ ki, həyatuŋ şərbəti məmatuŋ ağusi ardındadur.

Beyt:
Kim qədəm basdı cəhandə, kandədür[264] *kövnü fəsad,*
Kim ədəm yolinə axir varmadı, ol namurad.

Hiç evi görübsən kim, anuŋ bacəsindən ölüm tütüni çıxmadı və hiç eyvanı eşidübsən kim, əcəl qəhri anı əyağdən salmadı. Məxluqat varı fəna şərbəti içmələdürlər və xamı kimsə bu ölmək **[76b]** yükini çəkmələü. Xaqan ilə əmir və sultan ilə vəzir, münşi ilə dəbir və qəni ilən fəqir, böyük ilən kiçi və daşı ilən içi, yigit ilən qarı, çirkin ilən arı, alim ilən cahil, aqil ilən qafil, sağ ilən bimar, sərxoş ilən huşyar, güclü ilən zəif, vəzi' ilən şərif, müvəhhid ilən mülhid, fasiq ilən zahid mələkül-mövtüŋ qəbzəsində bərabərdürlər.

Beyt:
Çün kim tükənür ömr və əcəl yeli əsər,
Sultanü gəda cümlə bərabərdürlər.

Əgər bu cəhandə kimsənüŋ əbədi həyat müyəssər ola idi, bu qiymətlü xəl`ət Peyğambərüŋ boynına düz ola idi. Və əgər sultani-əcəl kimsənə möhlət verə idi və bəqanuŋ qapusı kimsənüŋ yüzinə açə idi, gərək idi kim, Mustəfayə kim, anuŋ kəramət tuğrasınuŋ mənşuri "*əna*

[262] Əlyazmada: *yeri.*
[263] *Ondan başqa məbud yoxdur.*
[264] *Ki andadur.*

Seyyidu vələdi Adəmə"[265] tuğrasinə müvəşşəhdür və nəhayətsiz mənaqibi "*və lakin rəsulullahi və xatəmən-nəbiyyin"*[266] mürəşşəh, vəfat şərbəti içməyəydi və məmat geyəsiyi geyməyəydi. Həzrət Həqq sübhanəhu təala bu ümmətüŋ təsəllisi üçün ol həzrətüŋ ariyeyi-həyatı səfhəsinə məmat rəqəmi çəkdi ki, "*İnnəkə məyyitun və innəhum məyyitun"*[267].

Ey əziz, çün Aşura güni ağlamağ çağı və məhzun və qayğulu olmağ günidür, neçə kəlmə həzrət Risalətpənahuŋ (s) vəfatindən qələm dili ilən bəyan səfhəsinə təhrir olur.

Əlqissə, rəvayətdür ki, üçünci yıl hicrətdən ki, ol həzrət Həccətül-vida' əda qıldı, Ərəfə güni Ərəfatdə bu ayət endi: **[77a]** "*Əl-yovmə əkməltu ləkum dinəkum*"[268], yə'ni bu gün siziŋ diniŋiz siziŋ içün kamil eylədüm "*və ətməmtu əleykum ni`məti*"[269] – və öz ne`mətümi sizə təmam etdüm.

Peyğambər (s) bu ayətüŋ məzmunindən darül-vüsal rövzəsinə getmək qoxusi can burnına dəgdi. Ci hər nəstə ki kəmal rəqəmi aŋa çəkdilər, zəval anuŋ ardındadur.

Beyt:
Çün gögüŋ ortasinə yetdi günəş, buldi kəmal,
Xamı kimsə bildi kim, anuŋdurur vəqti-zəval.

Rəvayətdür ki, ol xütbədə ki təqrir eylər idi, buyurdı kim, həcc və mənasik adabı məndən mə'lum eyləŋiz ki, vəqt ola kim, mundan soŋra məni görməyəsiz. Və xütbənüŋ içində söylədi ki, sizi məndən sorəcəkdürlər, yə'ni Qiyamət güni sizdən sorəcəkdürlər ki, sizüŋ ilən Muhəmməd necə dirildi. Siz nə cəvab verəcəksiz? Ümmət qamusı dedilər ki, deyəcəgüz ki, həzrət Muhəmməd (s) risalət və əmanət ədasın eylədi və ol nəstə ki irşad şərti və nəsihət qaidəsi idi, yerinə yetürdi.

---

[265] *Mən Adəm oğlunun seyyidiyəm (ağasıyam).* (hədis)
[266] *Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur.* (Quran, 33: 40)
[267] *Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər*. (Quran, 39: 30)
[268] *Bu gün dininizi sizin üçün kamil etdim*. (Quran, 5: 3)
[269] *Sizə olan nemətimi tamamladım*. (Quran, 5: 3)

Bəs, ol həzrət təşəhhüd barmağı göyün sarusinə götürdi və yerə endürdi və dedi: "Ya Rəbb, danuğ ol". Və çün Həcdən qayıtdı, yol ortasında bir yurtda qondı ki, anuŋ adı Ğədiri-Xümm idi və anda günorta nəmazı əda qılub əshabinə və ümmətinə yüz qoyub dedi: "*Ələstu əvla bil-mu`mininə əvla min-ənfusihim*"[270], yə'ni aya, mən səzavarrak **[77b]** dəgüləm mö'minlərüŋ nəfsindən anlarə. Dedilər: "Ya Rəsulullah, bəylədür ki, buyurursən və sən bizdən əvlarəksən". Daxi dedi: "*Mən kuntu movlahu fə-Əliyyun movlahu*"[271], yə'ni hər kim mən anuŋ mövlasiəm, əmirül-mö'minin Əli (ə) anuŋ mövlasidür.

Və bir rəvayətdə daxi var ki, dedi: "Allah-təala mənüm mövlamdur və mö'minlərüŋ mövlasi mənəm". Andan soŋra əmirülmö'minin Əli əleyhissəlamuŋ əlini dutub dedi: "Hər kim mən anuŋ mövlasiəm, Əli bin Əbi Talib anuŋ mövlasidür". Pəs, beş dua anuŋ həqqində eyləyüb dedi: "*Əllahummə vaali mən valahu*"[272] – bari-Xudaya, sən sevgil hər kim Əliyi sevər. "*Və adə mən adahu*"[273] – və düşmən ol hər kim Əliyə düşməndür. "*Vəxzul mən xəzələhu*"[274] – və xar dut hər kim Əliyi xar dutar. "*Vənsur mən nəsərəhu*"[275] – və yariliğ et hər kim Əli ilən yariliğ eylər. "*Vədirul-həqqə məəhu həysə kan*"[276] – və Həqq anuŋ ilən bilə eylə hər yerdə ki var.

Rəvayətdür ki, Ömər qalxdı və əmirül-mö'minin Əlinüŋ (ə) əlini dutub dedi: "*Bəx bəx ləkə yəbnə Əbi Talib*"[277], yə'ni yəxşiliğ ilən xürrəmliğ olsun saŋa, ey Əbu Talib oğlu. "*Əsbəhtə movlayə və movla kulli mu`minin və mu`minə*"[278], yə'ni səbah eylədüŋ və mö'minlərüŋ mövlasisən ərkək ilən dişisi ilən. Və bu hədisdən bu mə`ni mə`lum olur ki, əmirül-mö'minin Əlinüŋ (ə) buyurdugi imanuŋ kəmalidür və anuŋ düşmənligi damununŋ silsiləsinə giriftar edər.

---

[270] *Mən möminlərə özlərindən artıq ixtiyar sahibi deyiləmmi?* (hədis)

[271] *Mən hər kəsin mövlasıyamsa (baçşısıyamsa), Əli də onun mövlasıdır.* (hədis)

[272] *Allahım, onu (Əlini) sevənləri sev.*

[273] *Onun düşmənləri ilə düşmən ol.*

[274] *Onu xar etmək istəyənləri xar et.*

[275] *Ona yardımçı olmaq istəyənlərə kömək ol.* (hədis)

[276] *O, harada olsa, Haqq onunladır.*

[277] *Xoş sənin halına, ey Əbi Talibin oğlu.*

[278] *Sən mənim və bütün mömin kişi və qadınların mövlası (ağası) oldun.* (hədis)

[78a] ***Nəzm***:

Hər kim ol Murtəzayə xəsm oldi,
Feʾlü qəvlində eʿtibari dəgül.
Atası görməyübdürür, tanımaz,
Anasınuŋ ətəgi arı dəgül.

Və bir rəvayətdə daxi var kim, həm bu vəqt Ğədiri-Xümmdə buyurdı kim, əylə məʿlum etmişəm ki, məni bəqa aləminə çağırdılar və mən qəbul eylədüm. Biliŋiz ki, mən sizüŋ içiŋizdə iki nəstə qoyaram, biri birindən böyükrakdur: biri Qurʾan, ikincisi Əhli-Beytüm. Görüŋiz və ehtiyat eyləŋiz ki, məndən soŋra bu iki nəstə ilən necə əməl eylərsiŋiz və anlaruŋ həqqini necə yerinə götürürsiŋiz. Və bu[279] dedügüm iki nəstə[280] bir-birindən ayrılmaz, ta ol çağ ki Kövsər hovzi qırağında maŋa yetələr.

İmdi görüŋiz vəfasız ümmətlərüŋ halına ki, həzrət Peyğambər anlarə Kövsər həvzi şərbətini vəʾdə eylər və bunlar anuŋ bağırparələri ac-susiz, ağu şərbət ilən qəhr zərbəti ilə həlak eylərlər.

Nəzm:

Mən qılupmən sənün həqqiŋdə vəfa,
Sən qılubsən vəfa yerində cəfa.
Taŋrıdan yadü qafil olmişdüŋ,
Tanış etdüm ögütlə səni aŋa.
Məhşərüŋ güni çün susiz qaləsəŋ,
Həvzdən verürəm savux su saŋa.
Kərbəladə mənüm uşağlarümi
Qoyasən ac-susiz, rəvamı ola?

Və "Nurül-əimmə" məqtəlində gətürübdür ki, İmam Hüseyn (ə) Mədinə məhəllələrində uşağlar ilən oynar idi. Həzrət Rəsulullah (ə) **[78b]** bir küçədən gözükdi. Çün İmam Hüseyn[281] (ə) gözinə gəldi,

[279] Bu sözdən sonra səhvən *iki* sözü yazılmışdır.
[280] Əlyazmada: *nəstəni.*
[281] Əlyazmada: *İmam Hüseyni.*

anı dutməğə qəsd eylədi. İmam Hüseyn (ə) uşağlaruŋ içinə qaçar idi və cəddi (ə) anuŋ ardına yügürür idi və ol özini sağə və solə salur idi. Rəsulullah (ə) dedi:

– Ey Hüseyn, bu, nə qaçmaqdur?

Dedi:

– Ey cəddüm, səndən qaçmənəm, əmma səni tələbümdə səgirtdürürəm. Mə`şuqə ki aşiqdən qaçar, ol qaçmaq dəgül, bəlkə aşiqüŋ tələb odı terzak eylər.

Əlqissə, xaceyi-aləm anı dutdı və bərk qucağlayub, duayə əl götürüb dedi: *"Əllahummə hibbəhu fə-əhibbəhu"*[282], yə'ni, ey Taŋrı, mən Hüseyni sevərəm, sən daxi anı sevgil. Həm ol saət qeyb aləmindən bu peyğam gəldi ki, ey mənüm həbibüm, bu cigərguşəŋ Kərbəladə issiliğ sacında biryan olacaqdur və bu nübüvvət gülşəninüŋ reyhanəsindən su kəsəcəkdürlər. Bizim dərgahimizdə susiz dodağları sevərlər və yolımızda qanə bulaşmış yəŋağları istərlər. Mənüm içigilər ilən müqərrəblərüm kəsilmiş mühiblərüŋ başları ilən and içərlər. Mundan ötrü anı ilən atası və qərdaşı şəhadət səadəti ilən dərgahimizə gələcəkdürlər: Əliyyi bir hərbət ilən və Həsəni bir şərbət ilən və Hüseyni bir zərbət ilən.

Şe'r:

Ol birinüŋ başinə tiği-cəfa endürələr,
Birisinə verələr ağulu şərbəti- cangüsil.
Ac-susiz birisi daxi qılıc ilə edərlər həlak,
Kərbəla dəştində qan ilən olur toprağı gil.

[79a] Rəvayətdür ki, Həccətül-vida'də Mina günində *"İza caə nəsrullah"*[283] surəsi endi. Rəsulullah (s) Cəbrailə (ə) dedi:

– Ey qərdaş, məni xəbərdar edərlər ki, bu aləmdən getməlüsən.

Cəbrail dedi:

– *"Və lil-axirətu xəyrun ləkə min əl-aula"*[284] – bətəhqiq, bəqa aləmi saŋa yegrakdur bu aləmdən.

---

[282] *Allahım, onu sevənləri sev.*

[283] *Allahın köməyi və zəfəri yetişincə.* (Quran, 110:1)

[284] *Şübhəsiz ki, axirət sənin üçün dünyadan daha xeyirlidir.* (Quran, 93: 4)

Ol həzrət andan soŋra axirət işində cəhdi artuqrak edər idi və gecə-gündüz bu kələmatı: "*Subhanəkə əllahummə və bihəmdih əllahummə əğfir li innəkə əntəl-təvvabur-Rəhim*"[285] təkrar edərdi. Sordılar: "Ya Rəsulullah (ə), bu kələmatı çox oxursən, səbəbi nədür?" Dedi: "Biliŋiz kim, məni bəqa aləminə çağırubturlar". Və çox ağladı. Dedilər: "Ey Seyyidi-rəsul, ölümdən yığlarsən və bətəhqiq, sənüŋ ötənüŋ və gələnüŋ Taŋrı-təala bağışlayub-yarlığayubdur". Həzrət buyurdı: "Ögümizdədür ölüm həvli və ölməgüŋ xəbəri və qəbrüŋ darlığı və ləhədüŋ qəraŋğulığı və Qiyamətüŋ sorğusi, yə'ni bunları xamu görməlü və çəkməlüüz". Və müqərrərdür ki, bu sözləri eşidənlərüŋ ögüdi içün buyurur idi, yox isə ol həzrət bunlardan eymən idi. Və nəql bəylədür ki, çün həzrət Rəsulullah (s) Fəth surəsinüŋ[286] məzmunindən və "*Əl-yovmə əkməltu ləkum dinəkum*"[287] ayətindən bu fani dünyadən getmək xəbərini mə`lum etdi, müştaqlik günəşiniŋ şövqi həzrət Taŋrı-təalayə və əsli yurt **[79b]** və məqaminə "*ərcii ila Rəbbikə*"[288] mətlə`indən anuŋ müqəddəs nəfəsinə yetdi, vəfatindən bir ay ilərü xassə əshabını evinə[289] çağırdı və çün mübarək nəzəri anlarə yetdi, yaş qətrələri şəhla gözindən axdı. Və həmana ol ağlamağ ol həzrətüŋ rəhm və şəfəqqət əshabları içün idi ki, anlaruŋ hicran yükini çəkmək taqətləri yox olacaqdur.

[*Nəzm*]:

Diyarü yar vida'i keçər çü xatirdən,
Gözüm yaşindən olur ev qamusı malamal.
Oduŋ içində oturmağ olur bəsi asan,
Vəleyk hicrüŋ otində qərarü səbr mühal.

---

[285] *Allahım, Sən bütün naqis sifətlərdən pak və uzaqsan. Sənə daim həmd edirəm. Allahım, məni bağışla, Sən tövbələri qəbul edənsən, rəhmlisən.*

[286] Əlyazmada: *surənüŋ.*

[287] *Bu gün dininizi sizin üçün kamil etdim.* (Quran, 5: 3)

[288] *Ağanın yanına qayıt.* (Quran, 12: 50)

[289] Farsca orijinalda, eləcə də Füzulinin "Hədiqətüs-süəda"sında: *Ayişənin evinə.*

Pəs, hazirlər içün bu dualar dedi: "*Mərhəba bikum və həyakumullahu bis-səlam*"[290] – eyş ilə bollığ və cəmʾiyyət ilə kəmal sizə vasil olsun və Taŋrı-təalanuŋ səlamı sizə olsun ki, səlamət dəlili və kəramət səbəbidür: "*Cəmʾu kumullah*"[291] – Taŋrı-təala sizi təfriqədən cəmʾ etsün; "*Rəhiməkumullah*"[292] – Allah-təala siziŋ ilən rəhmət və mehribanlığ eyləsün; "*Heyrətukumullah*"[293] – Çələb sınmışlarıŋızı bitün eyləsün; "*Nəsərrukumullah*"[294] – Taŋrı-təala varı əhvaldə sizə yariliğ eyləsün; "*Rəfəʾkumullah*"[295] – Allah-təala sizüŋ mənzilətiŋizi ucaltsun[296]; "*vəffəqəkumullah*"[297] – Bari-təalanuŋ tövfiqi sizə rəfiq olsun; "*qəblukumullah*"[298] – Allah-təala sizi qəbul eyləsün; "*hədakumullah*"[299] – Həqq-təala sizə doğru yolı görsətsün; "*ədarukumullah*"[300] – Taŋrı-təala sizi öz lütfi pənahində saxlasun; "*vəqikumullah*"[301] – Allah-təala sizi himayət eyləsün; **[80a]** "*suləmikumullah*"[302] – gərəkməz nəstələrindən Taŋrı sizi saxlasın; "*rəzəqəkumullah*"[303] – Taŋrı-təala öz fəzli xəzayindən çox rizqi ərzani qılsun. Pəs dedi: "Vəsiyyət eylərəm sizə təqva ilən təharət və Taŋrıdan qorxmaq və sizi Taŋrıyə tapşurdum və Taŋrı-təala sizə xəlifə eylərəm və sizi qorxudurəm Allah-təaladən. Gərək kim, təkəbbür və ğülüvv etməyəsiz və bəla və fitnənüŋ qapusini açmayasız ki, Taŋrı-təala buyurdı ki, axirət evi, yəʾni anuŋ nəimləri mühəyya və amadə eyləmişəm anlar içün ki, təkəbbürlik və baş çəkməgi istəməzlər və yer üstində və bəgənilmiş aqibəti müttəqilərüŋdür".

---

[290] *Xoş gəlmişsiniz, Allah sizə gözəl həyat bəxş etsin.*
[291] *Allah sizin hamınıza birlik nəsib etsin.*
[292] *Allah sizə rəhm etsin.*
[293] *Allah sınmışlarınızı birləşdirsin.*
[294] *Allah sizə kömək olsun.*
[295] *Allah sizin məqamınızı ucaltsın.*
[296] Əlyazmada: *ucalsun.*
[297] *Allah sizə uğur versin.*
[298] *Allah sizi qəbul etsin.*
[299] *Allah sizə doğru yol göstərsin.*
[300] *Allah sizi lütfündən əsirgəməsin.*
[301] *Allah sizi qorusun.*
[302] *Allah sizi gözlənilməz hadisələrdən qorusun.*
[303] *Allah sizə ruzi versin.*

Əshabuŋ bu kələmatindən bəylə məfhum və mə`lum oldı ki, Seyyidi-aləm (s) əshabını vida eylər və bu mübaliğələr axirət səfəri yaqın olduği içündür. Dedilər:

– Ya Rəsulullah, sənüŋ rihlət çağı xacan olacaqdur?

Buyurdı ki, fəraq vəqti yaqın olubdur və qayıtmək çağıdur Taŋrıyə və cənnətül-ma'vayə. Dedilər:

– Ya Rəsulullah, sənüŋ qüslüŋ kim eyləsün və kim ol işə məşğul olsun?

Buyurdı ki, Əhli-Beytim ərləri: hər kimsə ki, maŋa yaqınrak ola. Dedilər:

– Hanğı köŋləkdən kəfənüŋ eyləyəlim?

Buyurdı kim, həm bu geyəsiləri ki, geymişəm və əgər istərsiz Misri köŋləklər, ya Yəməni hüllələr, ya ağ köŋləklər.

Dedilər:

– Kim saŋa nəmaz eyləsün?

Munı deyincə varı ağlamağə düşdilər. Ol həzrət daxi ağladı, andan dedi:

– Səbr eyləŋiz və zarilig etməŋiz, Taŋrınuŋ **[80b]** rəhməti sizə vasil olsun və suçlarıŋızı Taŋrı-təala bağışlasun və Peyğəmbəriŋizdən ötrü sizə cəzayi-xeyr ərzani qılsun. Bəs, çün məni yuyub qüsl və kəfəni edəsiz, həm bilə cənazə üstində bu ev içində qəbrüŋ qırağında qoyuŋız və varıŋız dışxarı çıxıŋız. Və biliŋiz kim, əvvəl kimsə ki, maŋa nəmaz qıla, Cəbrail olacaqdur, andan Mikail, andan İsrafil, andan məlәkül-mövt qalın firiştələr ilən. Anlardan soŋra siz qoşun-qoşun giriŋiz və maŋa nəmaz qılıŋız. Əvvəl kimsə əshabdən ki, maŋa nəmaz qılalar, mənüm Əhli-Beytüm ərləri olsunlar, andan soŋra Əhli-Beytüm dişiləri, andan soŋra əshab.

Dedilər:

– Ya Rəsulullah, kim səni qəbrə girdürsün?

Dedi:

– Təyyibeyni-Əhli-Beytüm məlaikələr ilən ki, anlar sizi görsünlər və siz anları görməyəsiz.

Bəs, hazirlərə xeyri-yad eyləyüb dedi:

– Mənüm səlamı ol əshabələrə yetürüŋiz ki, ğaibdürlər və hər kim mənüm dinümi qəbul eylər, anı məndən səlam ilən məxsus eyləŋiz və təhiyyətüm ilən anı sərfəraz qılıŋız.

Beyt:
Ol gün ki, bizə səlam gəlsün səndən,
Cənnət qapusı sağın bizə açmışsən.

Çün vəsiyyətləri təmam etdi, Seyyidi-aləm (s) müntəzir idi kim, xaçan ola ki, fani dünyanuŋ mənzilindən köçə və mütməinnə nəfsinüŋ həzrət Zülcəlaldən "*fədxuli fi ibadi*"[304] peyğamı yetə. Ta səfər ayınuŋ səkizinci[305] gecəsi ərbəa günində on bir yıl hicrətdən gedəli Bəqi` guristanuŋ ziyarətinə vardı. Və Əbu Müvəyhibə ol gecə ol həzrət ilən **[81a]** bilə idi. Və Əbu Müvəyhibə nəql eyləyübdür ki, ol həzrət ol guristanda yatanları içün ol qədr istiğfar və dualar eylədi ki, mən der idüm nolaydı ki, mən ol guristanuŋ yatanlarından ola idüm, ta ol duanuŋ şərəfini bulmış ola idüm.

Andan yüzini maŋa çevirüb dedi:

– Ey Müvəyhibə, yerüŋ üstindəki xəzanələri maŋa ərz etdilər və məni ortada müxəyyər eylədilər ki, dünyadə baqi qalam və andan soŋra uçmağə varub, Taŋrınuŋ liqasını görəm.

Dedim:

– Ya Rəsulullah, atam ilə anam saŋa fəda olsun, dünyadə baqi qalmək və xəzanələri əlüŋdə olmək və andan cənnətə girmək ixtiyar et.

Buyurdı kim, yox, yox, Pərvərdigaruŋ liqası və cənnəti ixtiyar etdüm.

Rəvayətdür ki, Rəsulullahə əmr oldı ki, Bəqiʾə varsun və ol məqbərələrüŋ [əhli] içün istiğfar eyləsün. Ol həzrət Bəqi`ə vardı və dua və istiğfar eylədi.

Bəs qayıdub uyudı. Gənə aŋa dedilər Bəqiʾ əhli içün istiğfar et. Daxi vardı və anlar içün istiğfar qıldı və qayıdub istirahətə məşğul oldı. Gənə əmr oldı ki, Ühüdə var və andakı şəhidləri içün dua qıl. Ol həzrət Ühüdə varub dualar qıldı. Və bir rəvayət daxi var ki, Ühüd şə-

[304] *Bəndələrimin zümrəsinə daxil ol.* (Quran, 89: 29)

[305] Farsca orijinalda və Füzulinin "Həqidətüs-süəda"sında: *iyirmi səkkizinci.*

hidləri içün nəmaz qıldı səkiz yıl Ühüd ğəzasindən soŋra. Bu halətdə həmana ölüyi və diriyi vida' eylər idi.

Daŋlası ol həzrətə baş ağrığı peyda oldı, mübarək **[81b]** başını bir əsabə ilən bağladı. Və ol gün xatunlarından Meymunənüŋ növbəsi idi. Çün mərəzi artdı, xatunları varı anda cəmʾ oldılar. Həzrət Rəsulullah (s) buyurdı: "*Əynə əna ğədan*"[306], yə'ni daŋla mən nərədə olacağəm və kimüŋ növbəsidür? Bu sözi mükərrər söylər idi. Həzrət Fatimeyi-Zəhra (ə.s) atasınuŋ xatunlarına dedi ki, Peyğambərə zəhmət ilə məşəqqət yetər hər gün birəgünüŋ evinə getmək. Qamuŋız birisinüŋ mənzilinə razi olmək gərəksiŋiz. Anlar varı razi oldular ki, Ayişənüŋ evində yatsun.

Bəs, ol həzrət Meymunənüŋ hücrəsindən çıxub bir əli əmirülmö'minin Əlinüŋ (ə) çigninə və bir əl Fəzl bin Əbbasuŋ çigninə qoydı və mübarək əyağları yerə sürtər idi, ta Ayişənüŋ hücrəsinə gəldi və anda döşəgini saldılar. Və qamu xatunları orada hazir olub, Peyğambərüŋ qulluğinə məşğul oldılar. Və ol həzrətüŋ xəstəligi qatılığə yüz urdı və bir ağır isitmə zahir oldı.

Əbdullah bin Məs`ud rəvayət eylər ki, ol saətdə həzrət Rəsulullahuŋ qulluğinə hazir oldum və mübarək gəvdəsinə əl qoydum və əylə issi idi ki, ələüm taqətsiz oldı. Dedim:

– Ya Rəsulullah, qatı isitməŋ var.

Buyurdı:

– Bəli, mənüm isitməm iki sizüŋ isitməŋizcədür.

Pəs, dedim:

– Sizüŋ cəzaŋız[307] iki olacaqdur.

Dedi:

– Bəli, ol Taŋrınuŋ həqqinə ki, mənüm nəfəsüm Anuŋ **[82a]** qüdrəti əlindədür ki, hiç bəndə yeruŋ üstində yoq idi ki, bir zəhmət ilə mərəz və məşəqqət ilə qayğu aŋa dəgmədi, illa ki, Taŋrı-təala anuŋ suçlarını tökmədi[308], əylə ki ağaclaruŋ yaprağları tökülür.

---

[306] *Sabah mən harada olacağam*?

[307] Əlyazmada: *cəzaŋızı.*

[308] Əlyazmada: *tökülmədi.*

Rəvayətdür ki, Əbu Səid Xudridən ki dedi: "Ol həzrətüŋ qulluğinə gəldüm. Gördüm əziz başını bir qətifə ilən örtmiş və isitmənüŋ hərarəti qətifənüŋ üstindən mə`lum olur idi. Və əlimüŋ taqəti yox idi ki, ol həzrətüŋ mübarək bədəninə yetürəyim. Əcəbdə qalub dedim: "Sübhanəllah". Buyurdı: "Hiç kimsənüŋ bəlası ənbiyadən qatırak yoxdur və əylə ki anlaruŋ bəlası çoxrakdur, əcrləri daxi artuğrakdur". Və Allah-təala anları şöylə yoxsullığa mübtəla eyləyübdür ki, geyəsilərdən ancaq həman bir don iyəsi idilər ki, gecə ilən gündüz geydükləri həman ol idi. Və peyğambərlərüŋ xürrəmliğ ilən şadiliğ bəlalərdən artar idi. Bəli, bu yoluŋ mühiblərinə və bu dərgahuŋ müqərrəblərinə hər yarə ki, yetər idi, mərhəmüŋ əyni idi və hər ağrığ ki, dust içün çəkər idilər, məhzi-əta və kərəm idi.

Şe'r:

Hər ələm kim, dustlar içün çəkəm,
Mübtəla canum içün rahətdürür.
Yarələri könlümə mərhəmdürür.
Anuŋ ağrığı maŋa şərbətdürür.

İbnül-Bərrüŋ anası der ki, bu isitmə çağda həzrət Rəsulullahə vardum. Həzrət Rəsulullah buyurdı kim, xəlq mənüm içün nə derlər? Dedim: "Xəlqüŋ gümanı odur **[82b]** ki, zatülcənb mərəzi həzrət Peyğambərə vaqe` olupdur". Buyurdı ki, Taŋrınuŋ lütfində səzavar dəgül ki, zatülcənb mərəzi ki, şeytanuŋ vəsvəsidür, maŋa müsəllət eyləyə və şeytanuŋ əli [məndən] irağdur. Vəli bu mərəz ol ağulu ətüŋ əsəridür ki, Xeybərdə oğluŋ ilən maŋa yedürdilər və bir neçə müddət zəhməti məndə artar və imdi ayrılmək çağıdur və həyatuŋ damarı kəsiləcək vəqti. Və zahirən hikmət munda budur ki, Peyğambər[309] (s) daxi şəhadət şərbətindən banəsib ola.

Və "Ruhül-ərvah" kitabında yazıludur ki, əcəb sirdür bu fütüvvət mə`dəni nübüvvət bez'esi ilən qərin oldı iki şahvar dürri zahir oldı: "*Yəxrucu minhumal-lo'lo'u vəl-mərcan*"[310]. Hər biri bir atanuŋ mira-

[309] Əlyazmada: *Peyğambərüŋ.*

[310] *O iki dənizdən inci və mərcan çıxar*. (Quran, 55: 22)

sını apardılar; böyük ata həzrət Mustəfa (ə) idi, ağu əsəri ilən aləmdən rihlət eylədi. Və bir ata daxi əmirül-mö᾽minin Əli (ə) idi, qılıc zərbəti ilən axirətə təvəccöh qıldı. İmam Həsən (ə) həm anlaruŋ ulu fərzəndi idi: Mustəfa ittifaqi[311] ilən ağu şərbətin içdi. Və İmam Hüseyn (ə) kiçi fərzəndi idi: atası müvafiqəti ilən əmirül-mö᾽minin Əli (ə) qılıc zəxmi ilən şəhid oldı.

Rəvayətdür ki, on dörd gün həzrət Rəsulullah sayru idi və ol neçə günlərdə çox nəstələr təhqiq olubdur və biz anlardan neçəsi "Rövzətül-əhbab" kitabında və andan qayru buraya gətürdük. Əvvəl oldur ki, sabit olupdur Ayişədən **[83a]** kim dedi: "Görmədüm hiç kimsə ki, Peyğambərə (ə) oxşar idi Fatimeyi-Zəhradən özgə sirət yüzi ilən helm və vəqardə və qiyam ilən qüuddə".

Həman ki həzrət Fatimə (ə.s) atası yanına gəlür idi, ol həzrət anuŋ tə᾽zimi içün əyağə qalxub yüzini anuŋ tərəfinə eylər idi və anı issi-issi sürüb öpər idi və öz yerində oturtdurur idi. Və çün ol həzrət Fatimənüŋ evinə (ə.s) gəlür idi, ol daxi büzürgvar atası ilən həman[312] təriqi riayət eylər idi. Ol sayruliğdə Fatiməni çağırdı. Çün hazir oldı, dedi: "*Mərhəba, ya binti*"[313]. Və anı özi yanında oturtdı və çox təvazö'lər anuŋ ilən etdi. Andan soŋra bir gizlü söz məşvərət ilən aŋa söylədi. Fatimə (ə.s) ağlamağə düşdi. Daxi həm güzlü təriqi ilən bir söz aŋa söylədi. Bu qatla həzrət Fatimə (ə.s) güldi. Ayişə der: "Həzrət Fatimədən sordum ki, ey xeyrülbəşər qızı, görmədüm hiç gülmək ağlamağ ilən yaqın bəylə ki, bu gün səndə gördüm". Həzrət Fatimə ol sözləri ol gün Ayişəyə demədi, əmma andan soŋra demiş imiş ki, əvvəlki qatla atasınuŋ dedügi bu idi ki, ey qız, bilgil kim, Cəbrail (ə) mundan ilərü bir yıl bir qatla gəlür idi Qur᾽an dərsi içün və mənüm oxuduğümə qulağ asur idi. Bu yıl iki qatla enüpdür: gümanum oldur ki, mənüm əcəlüm **[83b]** yaqın olupdur və mənüm şövqüm[314] qüds aləminə qayətə yetüpdür və həm bu yaqında bu fani mənzildən həz-

311 Əlyazmada: *tifaq.*

312 Əlyazmada: *həm.*

313 *Xoş gəldin (salam), qızım.*

314 Əlyazmada: *sövqimi.*

rət Rəbbül-aləmin civarinə rihlət eyləyəcəgəm. Mənüm söhbətümi qənimət bil və əlüŋdən gəldügincə ətəgümdən əlüŋ qısatmə.

Misra[315]:

Kim ola, məni istəyübən, bulmayasan.

Bu qayğulu xəbərdən çox pərişanlığ xatirümə gəldi və ağlamağdan çox yaşlar yüzümə axdı. Çün atam məni bu halda gördi, məni öz yanına çağırub dedi: "Ey gözüm nuri və köksümnüŋ sərvəri, qayğu yemə ki, saŋa iki muştuluq verürəm və qayğu pasını xatirüŋ güzgüsinə qoyməzəm. Biri oldur kim, cənnətdə imanlu xatunlərüŋ Seyyidisən, yə'ni ulusi. Və daxi ol kim, Əhli-Beytdən əvvəl kimsə ki, maŋa yetəcəkdür, sən olacəqsən". Andan ötrü güldüm və bu xəbəri eşitdügimdən xürrəm olub sevindüm.

Və bir rəvayətdə daxi var ki, Peyğambər (s) buyurdı: "Ey Fatimə, Cəbrail maŋa xəbər gətürdi ki, müsəlman dişilərdən hiç əvrət yox ki, anuŋ zürriyati sənüŋ zürriyatiŋdən artuğ ola. Gərək kim, səbr eyləyəsən və sənüŋ səbrüŋ özgə əvrətlərdən əksük olmaya". Bu sözdən məqsud ögüt idi ki, atasınuŋ fəraqindən çox cəzəʾlər etməyüb səbr eyləyə. Çi ol həzrətüŋ yanında zahir idi ki, anuŋ söhbətindən ayrılmağ Fatimənüŋ (ə.s) xatirində iŋən qatıdur.

Şe'r:

Ol gün ki, gözümiz yüzüŋizdən cüda düşə,
[84a] *Göz incə ağləyə ki, yoluŋ duta sağü sol.*
Dediŋ o dil ki, səbr edə, fariğ ola qatı,
Hüsnüŋ zəmanidə qanı səbrü qanı köŋül.

Daxi rəvayətdür ki, həzrət Rəsulullah (s) ol xəstəliğdə buyurdı kim, yedi ağzıbağlu tuluğdan su ki, yedi quyıdan doldurmış olalar, maŋa töküŋ kim, olamı ki, mərəzüm az ola və dışxaru çıxub ümmətümə vəsiyyət edəyim.

Bəs əylə ki, buyurmış idi, tərtib edüb, ol həzrəti bir böyük teştüŋ içində oturtdurub ol tuluğlardan aŋa su tökdilər, ol qədr ki mü-

[315] Əlyazmada: *beyt.*

barək əli ilən işarət eylədi kim, yetər, hər nəstə ki dedim, yerinə yetürdüŋiz. Pəs mərəzinüŋ qatılığından bir parə səhl olub, dışxarıya qədəm basub, ümməti ilən nəmazını əda qıldı və xütbə oquyub, Taŋrınuŋ həmdü sənadən soŋra Ühüd şəhidləri üçün istiğfar eylədi və dedi: "Ənsar, yə'ni mədinəlü mənüm xassəimdürlər. Məkkədən hicrət eyləyüb anlarə gəldüm, maŋa yer verdilər. Anlaruŋ yaxşılarını əziz dutuŋız və yamanlarından yamanlığı keçürüŋiz, məgər Taŋrınuŋ hüdudlarından bir hədd".

Və bir rəvayətdə daxi nəql eylərlər ki, ol həzrətüŋ mərəzi günbəgün artar idi. Ənsar anı mə`lum eyləyüb öz evlərində oturəməz idilər və qayğulu, pərişan Nəbinüŋ (ə) məscidində heyran olub gəzər idilər. Əbbas, həzrətə gəlüb anlaruŋ əhvalını **[84b]** ərz etdi. Andan soŋra Fəzl bin Əbbas daxi gəldi və ənsaruŋ pərişanlığını izhar qıldı. Pəs, əmirül-mö'minin Əli (ə) içərü girüb, ənsari səhabələrüŋ qayğularını ol həzrətüŋ səm`inə yetürdi. Peyğambər (s) əllərini qaldurub buyurdı kim, mədəd eyləsünlər, ta düz oturdı. Pəs, buyurdı ki, ənsar nə derlər? Əmirül-mö'minin Əli (ə) dedi: "Ya Rəsulullah, derlər qorxaruz ki, Peyğambər dünyadən nəql eyləyüb istər, bizüm halımız nəyə yetəcəkdür?" Həzrət Nəbiyullah munı eşidincə əyağə qalxub bir əl əmirül-mö'minin Əli (ə) çigninə və biri daxi Fəzl bin Əbbasuŋ çigninə salub çıxdı və minbərüŋ əvvəlki payəsi üstində oturub, mübarək başına bir əsabə bağlamış idi. Xəlq aŋa cəm' oldılar. Pəs, bir xütbə oxudı. Taŋrınuŋ həmdü sənadən soŋra ənsarə və mühacirə vəsiyyətlər edüb bir-birinə ismarlədi və Qüreyş içün sözlər söylədi.

Və rəvayətdür Fəzl bin Əbbasdan ki, dedi: "Taŋrı Rəsuli (ə) xəstəliğ çağında bir gün mənüm ələmi dutub evdən çıxdı və minbər üstinə oturub başına bir əsabə bağlayub dedi: "Bilalı çağırıŋız". Bilal hazir oldı. Buyurdı: "Carla, ta xəlq qamu hazir olub yığılsunlar kim, istərəm ümmətümi öğütləyəm. Və söylə bu soŋ vəsiyyətümdür sizə". Bilal ol həzrətüŋ buyruği ilən bazarlardə və məhəllələrdə carladı və təmami-xəlayiq: böyük ilən kiçi, uşağ **[85a]** ilən yigit çün ol carı eşitdilər, məscidə hazir oldılar. Peyğambər (ə) buyurdı: "Ey xəlayiq, biliŋiz ki, mənüm əcəlüm yaxınlaşubdur. Mə'lum etmişəm ki, siz məndən ayrılursız. Çün məndən cəsəd ilən ayrılasız, can ilə köŋül məndən irağ ol-

maŋız. Daxi mə`lum ediŋiz ki, Taŋrınuŋ hiç peyğambəri dünyadə qalmadı ki, mən qalam və mənüm şövqüm Taŋrınuŋ liqasinə artmış".

Və bir rəvayətdə daxi var ki, dedi:

– Ey mənüm yarlərüm, mən necə Peyğambər idim sizə? Nə sizüŋ ilən ğəzalər qıldum, ta dişüm şəhid düşdi və yəŋağümi qan ilə bulaşdurdılar və çox bəlalər ilə rənclər çəkdüm və qəvmüŋ cahillərindən qatı ədəbsizliklər gördüm və aclığdan qarnuma daş bağladum.

Dedilər:

– Bəli, ya Rəsulullah, sən Taŋrı yolında sabir idiŋ və bizi gümrahlığdan Taŋrıyə doğru yol görsətdüŋ və yamanlığdan mənʾ etdiŋ. Həqq-təala bizdən ötrü sizə cəzayi-bəxeyr versün.

Rəsulullah (s) dedi:

– Mənüm Pərvərdigarum and içdi ki, hiç zalimüŋ zülmindən keçmənəm. Pəs, sizə derəm: Taŋrı həqqi içün ki, hər kim mən anı incitmiş olam, imdi durub məni qisas eyləsün və hər kimsəyə sitəm görsətmiş olam, anuŋ mükafatı məndən diləsün. Və əgər kimsənüŋ malını almış olam, budur durubəm, gəlsün və öz həqqini geri alsun və deməsün ki, qorxaram Peyğambərdən qisas almağa kim, olmaya ki, xatiri məndən qala. Biliŋiz ki, düşmənlik ilən ədavət mənüm **[85b]** köŋlümdə yoxdur və mən andan irağəm və mənüm yanümdə ol kimsə[316] əzizdür ki, əgər məndən bir həqqi almalu ola, gəlsün və alsun, ya məni həlal qılsun, ta çün Taŋrıyə vasil olayım, nəfsüm arı ola. Və bəylə bilürəm ki, bu dedügüm kəlamı bir qatla yetər dəgül, yə'ni bu sözi mükərrər eylərəm, ta hər kimsənüŋ ki məndə bir həqqi var ola, öz həqqini gəlsün alsun.

Pəs, minbərdən enüb, günorta nəmazı əda qılub, gənə minbər üstinə vardı və ötmiş sözləri təkrar qıldı. Bir kişi əyağə qalxub dedi:

– Ya Rəsulullah (s), məndən sizdə üç dirəm var.

Həzrət buyrudı:

– Yalancı çıxarmənəm hiç söz deyəni və and daxi vermənəm, əmma söylə kim, nə səbəbdəndür?

Dedi:

---

316 Son iki söz (*ol kimsə*) əlyazmada iki dəfə yazılmışdır .

– Ya Rəsulullah (s), bir gün bir dilənci sizə yoluxub səndən bir nəstə dilədi.

Maŋa dedüŋ:

– Üç dirəm aŋa ver. Mən verdim və əvəzi[317] maŋa dəgmədi.

Ol həzrət Fəzl bin Əbbasə dedi:

– Üç dirəm aŋa ver.

İsmail Xarəzmi "Siyər"i kitabında və Qazı Sədidəddin "Rövzətül-islam" kitabında yazıludur kim, ol məclisdə Ükkaşə bin Mihsən Əsədi əyağə qalxub dedi:

– Ya Rəsulullah, əgər ol dəgül ola idi ki, sən mübaliğələr eyləyüb təkrar qılursən ki, əgər deməsəŋ, asi oluruz. Bunı derəm ki, Təbuk səfərində bir qəmçi istərdüŋ ki, Ğəzba naqəsinə urəsən, mənüm dalümə dəgdi və andan çox azari gördüm. İmdi anuŋ qisasını istərəm.

Həzrət Rəsulullah **[86a]** dedi:

– "*Cəzakallahu*"[318], ya Ükkaşə ki, bu mükafatı Qiyamətə qoymaduŋ və mən dünyadə qisas çəkmək axirətdən ki, peyğambərlər və vəsilər və övliya və şühəda hazir olalar və dərgahuŋ firiştələri və Kibriyanuŋ müqərrəbləri xamı hazir olub baxar olalar, artuğ sevərəm. Ya Ükkaşə, bilürsən kim, ol hanğı taziyanə idi?

Dedi:

– Bəli.

Pəs, salığın verdi. Həzrət Rəsulullah (ə) Səlmanə buyurdı:

– Fatimənüŋ evinə var və ol qəmçiyi al gətür.

Səlman yolda gedər ikən der idi: "Ey xəlayiq, kimdür ki, öz nəfsindən insaf ala, andan ilərü kim Qiyamətdə andan alsunlar".

Beyt:

Alasən insaf nəfsüŋdən bu gün yegdür saŋa
Kim, Qiyamət güni səndən alalar ba-səd cəfa.

Çün Səlman həzrət Fatimənüŋ hücrəsi eşiginə yetdi, dedi:

– Əssəlamu əleyk, ya əhlül-nübüvvət.

---

[317] Əlyazmada: *əvəzini.*

[318] Farsca orijinalda: *Cəzakullahu xeyrən* (Allah sənə xeyir versin).

Fatimə (ə.s) Səlmanuŋ avazı eşidüb dedi:

– Ey Səlman, qanda idüŋ?

Səlman dedi:

– Ya Seyyidətün-nisa, ataŋ filan qəmçiyi istər.

Dedi:

– Ey Səlman, atam issidür və minmək çağı dəgül.

Səlman dedi:

– Ataŋ minbər üstində durub, ümmətlərini vida eylər və xəlqüŋ borclarını ödər və der ki, hər kimüŋ məndə bir həqqi var ola, gəlsün istəsün. Məgər bir gün bu qəmçiyi bir devəyə urmağ istər imiş, bir kimsənüŋ dalüsinə dəgmiş. İmdi gəlüpdür ol həzrətdən qisas istər.

Həzrət Fatimə bir xüruş çıxarub dedi:

– Ey Səlman, Taŋrı həqqi içün ki, ol kişiyə söylə kim, atamə rəhm eyləsün ki, **[86b]** zəif və sayrudur.

Səlman qəmçiyi alub qayıtdı. Fatimə dedi:

– Həsən və Hüseyni (ə.m) maŋa göndər.

İmam Həsən və İmam Hüseyn gəldilər. Həzrət Fatimə (ə.s) dedi:

– Ey ananuŋ canları, cəddiŋiz məsciddədür və bir kimsə istər ki, aŋa qəmçi ura. Varıŋız və cəddiŋiz əvəzinə hər biriŋiz yüz taziyanə qəbul eyləŋiz ki, sizə ursunlar ki, ol sayrudur.

Anlar məscidə gəldilər. Əmma çün Səlman taziyanəyi hazir etdi, səhabələrdən fəğan çıxdı. Həzrət buyurdı:

– Ey Ükkaşə, qalx və qəmçiyi al və əylə ki mən urmışam, maŋa ur.

Ükkaşə qəmçini götürdi. Səhabələr durub dedilər:

– Ya Ükkaşə, bir zərbnüŋ əvəzinə yüz zərb bizə ur ki, Rəsulullahuŋ isitməsi var və bizim dərdimizi arturma.

Həzrət Rəsulullah (s) anlarə üzrxahlığ edər idi və der idi:

– Qisası maŋadur, qəmçi sizə urmağ maŋa nə faidə.

İmam Həsən ilə İmam Hüseyn (ə.m) ağlayu-ağlayu məscidə gəldilər. Səhabələrdən munı görincə fəğan qopdı. Şahzadələr dedilər:

– Ey büzürgvar cədd, eşitdük ki, bir kişi səndən qisas istər. Gəlmisüz, ta hərəmizə bir qəmçinüŋ əvəzinə yüz qəmçi ursun.

Həzrət Rəsulullah (ə) buyurdı:

– Ey cəddüŋ cananı, mən taziyanə urubəm, nədən ötrü siz qisasını çəkmək gərəksiŋiz? Ey Ükkaşə qalx və qisas et.

Ükkaşə dedi:

– Ya Rəsulullah (ə), ol gün mənüm dalüm[319] çıplaq idi, anı istərəm ki, sən daxi dalüŋi **[87a]** çıplaq edəsən.

Həzrət Rəsulullah əl urub çignindən dürraəsini bıraxdı. Mələklərdən fəğan qopdı və əshabdən xüruş çıxdı. Əmma çün Ükkaşənüŋ nəzəri ol həzrətüŋ dalüsinə yetdi və nübüvvət möhri nəzərinə gəldi, sıçrayüb ol nübüvvət xatəmi öpüp, yüzini ol həzrətüŋ iki dalusinüŋ ortasına sürtüb dedi:

– Ya Rəsulullah, mənüm gərəküm qisas dəgül idi, bəlkə muradum ol idi ki, nübüvvət möhri görəyim və mübarək gəvdəni məss edəyim, yə'ni yüzümi aŋa sürtəyim ki, sən demişsən ki, "*mən məssə cildi la yəmləssəhun-nar*"[320] – hər kim mənüm gəvdəmi məss eyləsün, damu odı aŋa məss etməyə.

Andan soŋra Seyyidi-aləm (s) minbərdən enüb soŋ ögüdi bu idi. Əmma çün ol həzrətüŋ xəstəliği artdı, qüds aləmindən bu səda ol alihəzrətüŋ qulağına gəlür idi.

Beyt:

Munca əglənmə qəribistandə, ey bədri-düca,
Qədrüŋi qürbətdə kimsə bilmədi, gəl yurtuŋa.

Bir gün Cəbrail (ə) Məliki-Cəlildən enüb dedi:

– Ya Seyyid, Taŋrı-təala saŋa səlam göndərdi və buyurdı kim, əgər istərsən, sayruliğüŋə şəfa verəyim və bu mərəzdən səni qurtarayım. Və əgər dilərsən kim, səni dünyadən aparub məğfirət dəŋizindən qərq edəyim.

Həsrət Rəsulullah (ə) dedi:

– Mən öz işümi Taŋrıyə qoymışəm, ta hər nəstə ki istər, eyləyə. "*Fə-inşaˀə əhyani və inşaˀə əmatəni*"[321] – sənüŋ təqdirüŋə qoydum, işim-

[319] Əlyazmada: *dalümi.*

[320] *Mənim bədənimə toxunana cəhənnəm atəşi toxunmaz*. (hədis)

[321] *İstəsə, məni yaşadar, istəsə öldürər.*

nüŋ yegragi oldur. **[87b]** Mənüm hiç ixtiyarum yox, gərək saxla, gərək öldür.

Əlqissə, hər gün Bilal həzrət Peyğəmbərə (ə) eʾlam eylər idi və ol həzrət çıxub xəlayiq ilən nəmaz qılur idi. Bu xəstəliğüŋ soŋunda üç gün çıxa bilmədi. Yatsı nəmazı çağı gəldi. Bilal hücrənüŋ qapusinə gəlüb dedi:

– "*Əs-səlatu, ya Rəsulullah*"[322].

Həzrət Peyğambər ağır idi, çıxmaq qüvvəti özində görmədi, əmma buyurdı:

– Ya Bilal, yetürdüŋ, Taŋrı saŋa cəzayi-bəxeyr versün.

Bilal bir saət əglənüb daxi dedi:

– "*Əs-səlatu, ya Rəsulullah*".

Həzrət Peyğambər könləgi özindən gidərüb dedi:

– Yetürdüŋ, ya Bilal, Taŋrı saŋa rəhmət qılsun.

Bilal bir zəman daxi təvəqqüf edüb dedi:

– "*Əs-səlatu, ya Nəbiyullah*".

Həzrət Rəsulullah ğəşdə idi, hiç cəvabını vermədi.

Bilal dedi:

– Ah, həzrət Rəsulullah (ə), cəmaət tərkin etdi zəhmət artuğlığından.

Bəs, ağlamağə düşüb dedi:

– "*Va ğəvsahu va inqitaʾi rəcahu va inkisarə zəhrah*"[323], yə'ni ah kim, mənüm fəryadümə yetər ki, ümmid ipi kəsildi və təmənnam arxası ufandı. Noləydi kim, ana məni doğmamış ola idi, yoxsa doğandan soŋra ölmiş ola idüm, ta bu halları həzrət Rəsulullahdə görməyəydüm.

Əshab çün Bilalı ol halətdə çığırmağ ilən ağlamağda gördilər, özlərini ağlamağdan saxlaya bilmədilər. Bir uğurda ah ilən zariliğə düşdilər[324].

---

[322] *Ey Allahın elçisi, Sənə salam olsun.*

[323] *Ah, mənim fəryadıma çatan, ümid ipi kəsildi və arxam qırıldı.*

[324] Orijinalın, eləcə də "Hədiqətüs-şüəda"nın bu yerində minbərdə imamlığın Əbu Bəkrə həvalə edilməsi haqqında kiçik bir epizod vardır ki, Nişati həmin hissəni buraxmışdır.

Həzrət Rəsulullah (s) Fatimədən sordı kim, bu, nə qovğadur?

Dedi:

– Ya Rəsulullah, sənüŋ əshabuŋdurlar ki, fəraqüŋdən **[88a]** ağlayub çığrışurlar.

Pəs, əmirül-mö'minin və Fəzl bin Əbbası çağırdı və anlarə dayanub hücrədən çıxdı və məscidə gəldi və imamət eyləyüb ümmət ilən nəmaz qıldı.

Və Ümmü Sələmə rəvayət eylər ki, xəstəliğ çağında bir gün ol həzrətüŋ yastuği yanında oturmış idim. Gördüm ki, mübarək dodağlarını təprədür, qulağ asdum. Eşitdüm ki, Həqq-təala ilən münacat eyləyüb der: "İlahi, ümmətümi damu odından nicat ver və Qiyamət sorğusi anlarə asan et". Mən sordum:

– Ya Rəsulullah, haluŋ nədür?

Buyurdı:

– Ey Ümmü Sələmə, məndən bədürud ol, yə'ni vida eyləmişlərdən ol ki, az zəman qalupdur ki, andan soŋra mənüm ünüm eşitməyəsən.

Bu halətdə əmirül-mö'minin Əli (ə) qapudən içərü girdi, dedi:

– Ya Rəsulullah, düşdə gördüm ki, bir zirehi geymiş idim, nagah məndən irağ oldı və mən zirehsiz qaldum.

Həzrət Rəsulullah (s) dedi:

– Ya Əli, ol zireh mən idim və hala mən gedərəm və sən yalğuz qalaçaqsən. Ya Əli, məndən soŋra pərişanlıq işlər saŋa yetəcəqdür. Gərək kim, köŋlüŋə təsəlli verüb, sabir olasan və çün görəsən ki, özgələr dünyayı sevib, ixtiyar eyləyələr, sən axirəti ixtiyar et və bil kim, əvvəl kimsə ki Kövsər həvzi qırağında maŋa yetər, sən olacaqsən.

Nagah həzrət Fatimə içərü girüb dedi:

– Ya Rəsulullah, düşdə gördüm ki, müshəfdən bir vərəq ələmdə idi və andan Qurʾan oxurdum. Nagah ol vərəq[325] nəzərümdən qayib oldı.

Həzrət Rəsulullah **[88b]** dedi:

[325] Əlyazmada: *vərəqi.*

– Ey fərzənd, ol müshəf vərəqi mənəm ki, gözüŋdən qayib olacağəm və sən məndən irağ qalacaqsən.

Bu halətdə İmam Həsən və İmam Hüseyn (ə. m) gəlüb dedilər:

– Ey ulu cədd, ikimiz daxi düşdə gördük həvadə bir təxt yerir və biz ol təxtüŋ altında başlarımız çıplaq gedərüz.

Həzrət Rəsulullah (ə) dedi:

– Ey cəddüŋ cananı, ol təxt mənüm tabutumdur ki, götürürlər və siz anuŋ altında başlarıŋız çıplaq və saçlarıŋız bulaşuğ gedəcəksiz.

Ümmü Sələmə dedi ki, bu düşlərüŋ təʾbirindən Əhli-Beytdən xüruş çıxdı və fəraq əsərindən gözləri ağlayu və xirman şərərindən canları biryan oldı.

Daxi rəvayətdür ki, ol həzrətüŋ fövtindən üç gün ilərü Cəbrail (ə) gəlüb dedi:

– Ya Rəsulullah (s), Pərvərdigar saŋa səlam yetürür və səndən sorar ki, özüŋi necə görərsən?

Nəbiyullah (ə) buyurdı:

– Ya əminüllah, özümi qəmlü və yürəgüm dərdlü görərəm.

Gənə bir gün gəldi və həman bu sözi sordı. Üçünci gün mələkül-mövt gəldi bir mələk ilən İsmail adlu ki, yüz miŋ mələkiŋ üstə hakim və tabınbaşı idi ki, hər birisi anlardan yüz miŋ mələkə hökm edər[326].

Cəbrail dedi:

– Ya Rəsulullah (s), mələkül-mövt qapudə durub, girməgə rüxsət istər və səndən ilərü hiç bəni Adəmdən ruhin almağ içün rüxsət istəməyübdür, səndən soŋra daxi istəməyəcəkdür.

Həzrət Rəsulullah dedi:

– Ya əminüllah, girməgə rüxsət ver.

[89a] Bəs, icazət ilən mələkül-mövt içərü girdi və səlamdən soŋra dedi:

– Ya Rəsulullah, Həqq-təala məni saŋa göndərüb, buyurubdur ki, əgər əmrüŋ olsa, şərif ruhuŋi qəbz edəyim yuqaru aləmə aparmağa. Və əgər buyurəsən qayıdayım.

---

[326] Əlyazmada bu sözdən sonra yazılmışdır: *eylər.*

Həzrət Rəsulullah Cəbrail (ə) tərəfinə baxdı.

Cəbrail dedi:

– Ya Rəsulullah (s), Taŋrı sənüŋ didaruŋa müştaqdur.

Pəs həzrət Rəsulullah (ə) dedi:

– Ya mələkül-mövt, ol işə ki saŋa əmr olupdur, məşğul ol ki, qeyb hatifindən ol həzrətüŋ qulağına yetər idi.

Beyt:

Aləmi-qüdsnüŋ quşisən, məclisi-ünsüŋ bəgi,
Heyf ola kim, qalәsən fani cəhandə, gəl bəri.

Və daxi İbn Əbbas rəvayət eyləyübdür ki, Allah-təaladən mələkül-mövtə əmr oldı kim, yerə var mənüm həbibüm yanına və andan dəstursiz hücrəsinə girmə və rüxsətsiz ruhini alma. Pəs, mələkülmövt miŋ mələk ilən qamusı əbləq atlara minilmiş və mürəssəʾ geyəsilər geyilmiş ol həzrətüŋ eşiginə gəldilər və Əzrailüŋ əlində bir bitik Taŋrıdan. Pəs, qapunuŋ dışxarısında bir əʿrabi surətinə durub dedi:

– Əssəlamu əleykum, ya əhlül-beytül-nübüvvət və məʿdənül-risalət, rüxsət veriŋiz hücrəyə girməgə kim, biz irağ yoldən gəlübüz.

Həzrət Fatimə Rəsulullahuŋ (ə) yanında idi, cəvab verdi kim, hala girməgə məcal yoxdur ki, Rəsulullah öz işinə məşğuldur. Mələkül-mövt bir daxi **[89b]** rüsxət istədi və Fatimə daxi həm ol cəvab verdi. Üçünci qatla avaz ilən dəstur istədi əylə heybətlü ki, hər kim ol evdə idi, qorxudan titrədi. Həzrət Rəsulullah özinə gəlüb, mübarək gözlərin açub sordı kim, sizə nə olur? Fatimə (ə) dedi:

– Ya Rəsulullah, bir ğərib kişi heybətlü surət ilən qapudə durub girməgə rüxsət dilər. Üç qatla aŋa üzrxahlığ etdim, eşitmədi.

Həzrət dedi:

– Bildüŋ kim, ol kimdür?

Fatimə dedi:

– Taŋrı və Rəsuli bilürlər.

Peyğambər (s) buyurdı kim, bu, dadləri sındurən və cəmiyyətləri pərişan edən və uşağları yetim qılan və əvrətləri dul eyləyəndür. Bir hərifdür ki, kilidsiz qapuları açar və qılıc ilən bıçaqsız canları alur. Əgər yüzinə qapu bağlarlar, bacədən girər. Və hər evə ki, anuŋ

içərisinə girə, andan tütün çıxarə. Bu, mələkül-mövtdür ki, ataŋ ruhini qəbz etməgə gəlübdür. Bizim eşigimizüŋ hörmətini saxlar, yoxsa rüxsət istəmək anuŋ adəti dəgül. Qalx və qapunı aç.

Fatimə (ə.s) çün bu sözi eşitdi, dedi: "*Va mədinətahu xərrəbətil-Mədinə* "[327] – ey dəriğ ki, Mədinə şəhri xərab oldı ki, həzrət Rəsulullah andan əzimətin istədi. Həzrət Risalətpənah Fatimənüŋ əlini dutub öz köksinə qoydı və bir saət gözlərini yumdı, əylə ki sandılar ki, müqəddəs ruhi mütəhhər cəsədindən müfariqət eylədi. Fatimə (ə) **[90a]** başını yaqınına aparub dedi:

–"*Ya əbətah*"[328].

Hiç cəvab eşitmədi. Ağlayə-ağlayə dedi:

– Ey ata, mənüm canum saŋa fəda olsun, maŋa bax və bir söz mənüm ilən söyləş.

Həzrət Rəsulullah (ə) gözün açub dedi:

– Ey qızum, ağlama ki, ərşgöricilər sənüŋ ağladuğüŋdən ağlamağə düşərlər.

Və mübarək əli ilən Fatimənüŋ yəŋağından yaşı arıdub, aŋa bəşarətlər verüb köŋlini alur idi və dedi:

– Ya Rəbb, mənüm fəraqümdə aŋa bir səbr ver.

Pəs dedi:

– Ey Fatimə, çün mənüm ruhumi qəbz eyləyələr, söylə: "*İnna lillahi və inna ileyhi raci`un*"[329].

Fatimə dedi:

– "*Və əkrəbə əbahu*"[330].

Həzrət buyurdı:

– Bu gündən soŋra ataŋa hiç kərb ilə ənduh yoxdur, yə'ni ənduh ilə bəla dünyanuŋ cismani əlayiqindən ötrü olur. İmdi ki ol əlayiqi kəsildi və Məliki-mütəaluŋ vüsalinə intiqal eylədük, həsrət ilə ənduh nişün ola?

---

[327] *Ah, mənim Mədinə şəhərim dağıldı.*

[328] *Ey ata.*

[329] *Biz Allahın bəndələriyik və O-na tərəf qayıdacağıq.* (Quran, 2: 156)

[330] *Atana qəm-qüssə yoxdur.*

Beyt:
Yari Yarə[331] *yetürən ölümdür, ol*
Kimdürür kim, mərgdən xürrəm dəgül?

Bu halətdə Peyğambərüŋ xatunları hazir oldılar. Anlarə ibadət ilə təqva və təharət vəsiyyət eylədi. Andan Fatiməyə (ə.s) dedi:

– Oğlanlaruŋ çağır.

Həzrət Fatimə (ə.s) oğlanlarına adəm saldı ki, özüŋüzi türkən cəddiŋizə yetürüŋ. Çün bu xəbər anlarə yetdi, dedilər:

– Vaveylah, hərgiz anamız bizi bəylə qədəğən ilən çağırmadı, ta munuŋ səbəbi nə ola?

Şahzadələr **[90b]** səgridüb özlərini Peyğambərə yetürdilər. Hücrəyə girincə səlam verüb qarşudə durdılar. Çün ulu cəddi ol halətdə gördilər, ağlamağə düşdilər. Hər kim ol hücrədə idi, anlaruŋ ağladüğindən ağlamağə düşdi. Və İmam Həsən yüzini ol həzrətüŋ yüzinə və İmam Hüseyn (ə) başını ol həzrətüŋ köksinə qoydılar. Ol həzrət gözini açub, anlarə şəfəqqət və mərhəmət nəzəri ilən baxub, anları öpüp iyilədi və anlaruŋ təʾzimi və hörməti içün vəsiyyətlər eylər idi.

Və "Nurül-əimmə" məqtəlində var ki, ol həzrət ahəstə der idi:

– Dəriğ bu yüzlərdən ki, yetimliğ tozı anuŋ üstünə qonacaqdur və heyf bu saçlərdən ki, qəribliğ ələmi ilən bulaşacaqdur. Bilmənəm kim, cəfalu ümmətlər sizüŋ ilən neyləyəcəkdürlər və məndən soŋra sizüŋ işüŋiz nəyə yetəcəkdür?

Şahzadələr dedilər:

– Ey ulu cədd, yüzümizi çox öpdüŋ və köksümizi köksüŋizə çox qoyduŋ. Səndən soŋra pənahımız kim olacaqdur və qayğularımızı kim yeyəcəkdür?

Fatimə dedi:

– Ey ata, mundan soŋra qayğümi kimə deyim və əgər Həsən ilə Hüseynüŋ nəstə gərəklüləri ola, kimdən istəsünlər? Ey qəriblərüŋ munisi vey yetimlərüŋ qayrıcısı vey bicarələrüŋ əlləri dutıcısı, sənüŋ fəraqüŋdə necə səbr edə biləüz?!

---

[331] Təsəvvüfdə: Allah.

Şe'r:
Sənsizin dünyadə qalmaq, ey ata, müşkildürür,
Gər saŋa asan isə, billah, maŋa müşkildürür.
Sən gedərsən, qanlu köŋlümdür sənüŋlən, Həqq bilür,
[91a] *Qalduğum sənsiz köŋülsiz, dünyadə müşkildürür.*

Səhabələr hücrənüŋ dışxarısında idilər, şahzadələrüŋ ağladüğindən ağlamağə düşdilər. Çün anlaruŋ ağlamağ üni ol həzrətüŋ qulağına yetdi, ol daxi ağladi. Ümmü Sələmə dedi:

– Ya Rəsulullah (s), nə sənüŋ günahlarıŋı[332] ötmişləri və gələnləri Taŋrı-təala bağışlayubdur. Ağladügüŋ səbəbi nədür?

Buyurdı kim, cağırıŋız mənüm vəsiyyümi[333]. Cağırdılar. Bəs, əmirül-mö'minin Əli (ə) gəldi və ol həzrətüŋ yastuği yanında oturdı. Peyğambər başını yastuğdən götürdi və əmirül-mö'minin qolları altına girdi və mübarək başını qolı üstünə qoydı və ol həzrətüŋ hər vəsiyyəti ki, var idi, əmirül-mö'mininə dedi. Həzrət əmirül-mö'minin Əli (ə) dedi ki, Rəsulullah miŋ elm babı maŋa ögrətdi ki, hər babdan miŋ bab maŋa açıldı.

Pəs, çün məlәkül-mövt qapudən rüxsət istədi və ol həzrət məʿlum etdi və Əhli-Beytə dedi kim, məlәkül-mövtdür. Buyurdı kim, girsün. Bəs Əzrail girəndən soŋra dedi:

– Əssəlamu əleykə, əyyuhan-nəbi, Taŋrı-təala saŋa səlam göndərdi və maŋa buyurdı kim, ruhuŋi qəbz etməyəm, məgər rüxsətüŋ ilən.

Ol həzrət buyurdı kim, ey Əzrail, səndən bir hacətüm var.

Əzrail dedi:

– Ol, nə nəstədür?

Buyurdı kim, ol qədr qatlanub ruhumi qəbz etməyəsən, ta Cəbrail gələ.

Məlәkül-mövt dedi:

– Əmr sənüŋdür.

---

[332] Əlyazmada: *günahlarıŋızı.*

[333] Farsca orijinalda: *bəradər-e mən Əlira (qardaşım Əlini).*

[91b] Bəs Həqq-təala əmr etdi damunuŋ malikinə ki, mənüm həbibüm mütəhhər ruhini[334] gögə götürəcəkdürlər və damu odı otruşdur. Və buyruğ oldı rizvanə ki, mənüm Rəsulum ruhi içün uçmağı bezət. Və hureynə hökm oldı kim, özlərini bezətsünlər. Və mələkuti-mələklərə xitab oldı ki, qalxub qoşun-qoşun səflər bağladuŋız ki, Muhəmmədüŋ ruhi gəlür. Cəbrailə əmr oldı ki, həbibüm yanına var və cənnətdən bir məndil sündüsdən anuŋ içün apar.

Cəbrail (ə), Peyğambərüŋ (s) yanına gəldi və ol həzrət dedi:

– Ey qərdaş, bu halda məni yalğuz qoyarsan?

Cəbrail (ə) dedi:

– Ya Rəsulullah, işlərüŋə məşğul idim və yəxşi xəbərlər sənüŋ içün gətürübəm.

Dedi:

– Ol, nə bəşarətdür?

Cəbrail dedi:

– Damu odı səndən ötrü otruşdı və uçmağı bezətdilər ruhuŋ yetdügi içün.

Şe'r:

Cənnəti-Ədn ilə hurilər bezətdilər qamu
Sənüŋ içün, xoş-xüraman ol, qədəm basgil aŋa,
Göglərüŋ qəsrini aydın et yüzüŋ şövqi ilən
Kim, iŋən müştaqdurlar hureyn didaruŋa.

Həzrət Rəsulullah (s) dedi kim, ey qərdaş, bu bəşarətlər qamu yəxşidür, Əmma mənüm xəbərüm[335] maŋa ver ki, gözüm aŋa nigərandur və gözüm aydınlığı andandur.

Cəbrail dedi:

– Özgə peyğambərlərə ümmətləri ilən uçmağə girmək həramdur, ta ol çağ ki sən ümmətüŋ ilən aŋa girəsiz.

Həzrət dedi:

– Maŋa **[92a]** bir muştuluq ver mundan təmamrak və ucarak.

---

[334] Əlyazmada: *ruhinüŋ.*

[335] Əlyazmada: *xəbəri.*

Cəbrail dedi:

– Ya Rəsulullah, müqərrər olupdur ki, Qiyamət güni ol həsrət ilə nədamət məʾrəkəsində əvvəl kimsə kim, şəfaət tacı başına qoyalar və şəfaəti qəbul olduği yarlığı əlinə verələr, sən olacaqsən.

Peyğambər (ə) dedi:

– Ey vəhyyetürici qərdaş, bir muştuluq maŋa ver ki, məlal düğüni köŋlümdən açıla və xələl pası zəmirüm lövhindən gidərə.

Cəbrail dedi:

– Ey ənbiyanuŋ imamı və pişvası, söylə ki, nə nəstənuŋ fikrindəsən ki, bu qədr yəxşi xəbərlər saŋa verürəm, köŋlüŋ təsəlli bulməz.

Həzrət dedi:

– Ey qərdaş, mənüm qayğum[336] ümmətdən ötrüdür ki, məndən soŋra ümmətüm Qur'anuŋ məʾnisi kimdən eşitsünlər və rəməzanuŋ orucı mənsiz necə açsunlar və Məkkənüŋ hacıları mənsiz Minayə necə varsunlar və Qiyamətdə soŋ işləri nəyə yetər?

Cəbrail dedi:

– Ey ənbiyanuŋ sərvəri, köŋlüŋ anlardan təsəlli ver ki, Həqq-təala ümmətlərüŋ bu gün öz pənahində saxləyəcəkdür və daŋla ki Qiyamət güni ola, ol qədr ümmətüŋ günahkarlərindən saŋa bağışlayəcəkdürlər ki, sən razi olasan.

Peyğambər (s) buyurdı kim, imdi köŋlümuŋ təskini bulundı. Ey mələkül-mövt, ilərü gəl və ol nəstə ki, saŋa əmr olubdur, yerinə yetür. Mələkül-mövt ol həzrətüŋ mütəhhər ruhini qəbz etməgə məşğul oldı və Rəsulullah ol saət eviŋ yuqarusinə baxub əllərini götürüb der idi: "*Ya ər-Rəfiqəl-əʾla*"[337] ki, nagah mübarək əli meyl eyləyüb vüsal aləminə nəql etdi.

[***Məsnəvi***]:

[92b] *Getdi ərşüŋ sarusinə Mustəfa,*
Çün eşitdi ərşdən buyi-vəfa.
Ruhnuŋ laçini ufatdı qəfəs,
Vardı Taŋrı yaninə həm dər-nəfəs.

---

[336] Əlyazmada: *qayğumı.*

[337] *Ey ən ali dost (Allah-taala).*

Və əmirül-mö'minin Əlidən (ə) nəqldür ki, çün ol həzrətüŋ müqəddəs ruhini firdovsi-əʿlayə apardılar, gögdən eşidürdüm ki, avaz gəlür idi: "*Ya Muhəmməddah*"[338]. Və həzrət Peyğambərdən soŋra (s) həzrət Fatimə (ə.s) hərgiz gülmədi və kimsə anuŋ gülməgi görmədi ol günədəkin ki vəfat oldı, bəlkə gecə-gündüz ağlar idi və andan artuğdur ki, bu dəftərdə yazıla və anlaruŋ məzmuni qamu dəriğ ilə həsrət və əfsusdur.

Və rəvayətdür ki, hər göz kim, həzrət Peyğambər içün ağlayə, damu odı anı yandurmayə və bu məʿni lazım dəgül ki, yas zəmanində ola, bəlkə cəmi`yi-ümmətlərinə Qiyamətədək vacibdür ki, həman ki ol həzrətüŋ vaqiəsi eşidələr, ağlayalar, zira kim, ol həzrətüŋ müsibəti qamu ümmətüŋ müsibətidür: "*Əzəməllahu ucurəna bi-musabənar-Rəsul (s) və rəzəqna şəfaət əl-kubra və ədxulina livaihil-ə`zəm*".[339]

[338] *Ey Məhəmməd.*

[339] *Allah bizim əcrlərimizi Peyğəmbərin çəkdiyi müsibətin əzəməti qədər etsin və onun böyük şəfaətini bizə ruzi qərar versin, bizi Onun bayrağının altına daxil etsin.*

DÖRDÜNCİ BAB

Həzrət Fatimeyi-Zəhranuŋ əhvalindən: viladətindən vəfatinədəkin

Bilmək gərək ki, həzrət Fatimeyi-Zəhra Peyğambərüŋ əziz fərzəndi idi və həzrət Xədiceyi-Kübranuŋ qızıdur və doğduği İmam Muhəmməd Bağıruŋ rəvayətində beş yıl be'sətdən soŋra idi. Və çün həzrət Fatimə **[93a]** Xədiceyi-Kübranuŋ qarnında məqam dutdı, həzrət Peyğambər (ə) dedi: "Cəbrail gəldi və maŋa xəbər verdi ki, bu, bir qızdur Fatimə adlu, mütəhhər və arı, çox bərəkətlü". Əmma çün viladəti yaqın oldı, həzrət Xədicə [bir kəsi] öz qəvmlərüŋ yanına göndərdi kim, üstümə hazir oluŋ. Anlar cəvab göndərdilər ki, ey Xədicə, sən bizdən asi olduŋ və sözümizi qəbul etmədüŋ və Əbu Talibüŋ yetiminə varduŋ və yoxsullığa baylığdan ixtiyar qılduŋ. Biz yanuŋa gəlməzüz və işüŋə dolaşməzüz. Həzrət Xədicə bu sözdən məlul oldı. Nagah dört xatun aŋa zahir olub: qamu buğdabəŋizlü, uzunboylu, əylə ki sağınurduŋ ki, Bəni Haşimüŋ xatunlarıdırlar. Xədicə çün anları gördi, qorxdı. Anlardan birisi söylədi:

– Ey Xədicə, qorxma ki, Taŋrı-təala bizi saŋa göndərübdür və sənüŋ qızqərdaşlariüz: mən Sarəəm və ol biri İmranuŋ qızı Məryəm, üçünci Musanuŋ qızqərdaşı Külsümdür, dördünci Firo`nuŋ xatunı Asiyədür və bunlar uçmağdə sənüŋ rəfiq ilə yoldaşuŋ olacaqdurlar.

Biri sağ tərəfində oturdı və biri ögində və biri ardında. Həm ol saətdə həzrət Fatimə mütəvəllid oldı, əylə ki Məkkənüŋ evləri içisi nurani oldı və yerüŋ şərqində və qərbiŋdə hiç yer qalmadı ki, ol nur anı aydın etmədi.

Beyt:
[93b] *Hidayət gögidə*[340] *bir nur oldi zahir,*
Nübüvvət bağidə bir gül açıldı.

Rəvayətdür ki, Allah-təala on hur uçmağdən həzrət Muhəmmədüŋ hücrəsinə göndərdi [hər] birisi ilən bir aftabə. Həlici və aftabələrdə Kövsər suyi. Bəs, ol xatun ki, Xədicənüŋ ögində idi, Fatiməni dutub, Kövsər suyi ilə yuyub ağ qundağə bağladı və bir vəslə çıxarub mi`cər əvəzi başına bağladı və dedi:

– Ey Xədicə, dut bu fərzəndi-mutəhhərə və arı ki, munuŋ nəslinə bərəkət verübdürlər.

Və özgə xatunlar daxi mübarəkbad deyüb təhniyət verdilər. Xədicə anı xürrəmlığ ilən aldı. Bəs həzrət Rəsulullah (ə) hücrəyə girdi. Həzrət Xədicə Fatiməni ol həzrətüŋ ətəginə qoydı və həzrət Rəsulullah əylə ki buyruğ olmış idi, adını Fatimə qoydı və künyəti Ümmü[341] Muhəmməd və ləqəbi Raziyyə və Mərziyyə və Meymunə və Zəkiyyə və Bətuli Zəhra. Və anuŋ fəzli və mənqəbəti çoxdur. Ayişədən sordılar ki, adəmilərdən kim dustrak idi Peyğambər (ə) yanında? Dedi:

– Dişilərdən Fatimə və ərkəklərdən əmirül-mö'minin Əli.

Və sabit olupdur ki, bir gün həzrət Rəsulullah səhabələr söhbətində sordı ki, əvrətlərdən nə yegrak? Kimsə munuŋ mə'nisini bilmədi. Əmirül-mö'minin Əli (ə) öz evinə gəlüb ol məclisdə ötən sözi Fatiməyə dedi. Fatimə cəvab verdi:

– Nişün demədüŋ ki, əvrətlərdən nə yegdür ki, ərlər anı görməyələr və anlar ərlərə baxməyələr.

Əmirül-mö'minin Əli (ə) məclisə qayıdub ol həzrətə bu cəvab verdi. Peyğambər (ə) **[94a]** sordı kim, kimdən tə'lim alduŋ? Əmirülmö'minin dedi:

– Fatimədən.

Həzrət Rəsulullah dedi ki, "*biz'ətun minni*"[342], yə'ni ol məndən bir parədür.

---

[340] Əlyazmada: *gögdə*.
[341] Əlyazmada: *Əbu*.
[342] *Ətimizin bir parçasıdır*. (hədis)

Və səhih olupdur ki, Taŋrı-təala acığa gedər Fatimənüŋ acığından və xoşnud olur anuŋ xoşnudliğindən. Aya həzrət Fatimə (ə.s) uşağlarınuŋ öldürənlərindən acığlu olacəqdür, ya razi? Və ol xud mühaldur ki, Bətuli-Əzra fərzəndlərinüŋ öldürənlərindən xoşnud ola və şəksiz, anlarə qəzəb eyləyəcəkdür. Və Fatimənüŋ qəzəbi Taŋrınuŋ qəzəbi səbəbidür. Bəs, ol zalımlar Taŋrınuŋ qəhri və qəzəbinə giriftar olacaqdurlar və hər üzri-namə'qul ki deyəcəkdürlər, qəbul olmayacaqdur.

Rəvayətdür ki, Rəsulullah əmirül-mö'minin Əli (ə) ilən bir ğəzayə varmış idilər və İmam Həsən və İmam Hüseyn həzə yaş ilən kiçi idilər. Bir gün İmam Hüseyn evdən çıxub Mədinənüŋ nəxlistaninə düşmiş idi və hər tərəfə gəzüb xurmanuŋ ağaclarını təfərrüc edər idi. Nagah bir yəhudi ki, anuŋ adı Saleh bin Rüf`ə idi, orada ötübən nəzəri İmam Hüseynə (ə) düşdi. Filhal anı dutub, evinə aparub bir yerdə gizlətdi. Ol gün ikindü nəmazı çağına yetüb, İmam Hüseyn (ə) bulunmadı. Qiyamət xatununıŋ köŋli cuşlənüb, mübarək dili xüruşə gəlüb, yetmiş qatla hücrənüŋ ardına gəlüb qayıtdı və kimsəni görmədi ki, İmam Hüseynüŋ (ə) ardına göndərə. Axir **[94b]** İmam Həsənə (ə) dedi:

– Ey oğul, qalx və qərdaşünı buləgör ki, mənüm yarə köŋlüm[343] anuŋ fəraqində yanar.

İmam Həsən (ə) Mədinədən çıxub, nəxlistanuŋ çəvrəsində gəzüb dedi: *"Ya Huseyn bin Əli və ya qurrətə eynən nəbiy"* [344] - sən xandasən və nişün didarünı qərdaşuŋa görsətməzsən?

İmam Həsən nə`rə urar idi və hiç cəvab gəlməz idi. Nagah bir ceyran zahir oldı. İmam Həsən (ə) dedi:

– Ey ceyran, qərdaşum İmam Hüseyni gördüŋ?

Ol ceyran Taŋrınuŋ buyruği ilən Mustəfanuŋ bərəkətindən dilə gəlüb dedi:

– Ey Peyğambərüŋ nuri və Zəhra ilən Heydərüŋ köküsləri sərvəri, Saleh bin Rüf`ə yəhudi İmam Hüseyni dutub, evinə aparub gizlədübdür, anı andan istə.

---

[343] Əlyazmada: *köŋlümi*

[344] *Ey Əlinin oğlu Hüseyn, ey Peyğəmbərin gözünün işığı.*

Şahzadə, Saleh bin Rüf'ənüŋ qapusinə gəldi. Saleh evindən çıxub, İmam Həsəni gördi. İmam Həsən (ə) dedi:

– Ey Saleh, qərdaşümi evüŋdən çıxar və maŋa tapşur, yoxsa anamə deyəm ki, bir dua ilən Taŋrıdan istəsün, ta bir cühud yer üstində qoymasun və atama deyəm, ta abdar qılıc ilən yəhudlardən tütün çıxarsun və cəddümdən istəyəm, ta dua ilən qamu yəhudları həlak etsün.

Saleh ol sözlərdən heyran qalub dedi:

– Ey oğlan, anaŋ kimdür?

İmam Həsən (ə) dedi:

– Anam zühreyi-Zəhradur və rövzeyi-xəzra: risalət xanəvadənüŋ səfvəti, cəlalət ilən izzətüŋ qiladəsi. Mübarək gəvdəsi uçmağuŋ almasından yoğrulmış və asilərüŋ azadlığı **[95a]** cignində yazılmış, seyyidlərüŋ anası, yə'ni Fatimeyi-Zəhra (ə.s).

Saleh dedi:

– Anaŋı bildüm, ataŋ kimdür?

İmam Həsən dedi:

– Atam şahi-mərdan, Taŋrınuŋ əslanı, iki qılıc ilən ğəza eyləmiş[345], iki cidə ilən müşrikləri həlak eyləmiş, Taŋrınuŋ nəmazı, Mustəfa ilən (ə) iki qiblədə qılınılmış, öz canını ğar gecəsi Peyğambərə fəda etmiş. Cəbrail anuŋ cəvanmərdliği içün nida verilmiş, adını Taŋrı Əli qılmış. Rəsulullah (ə) anuŋ tə`zimi içün özinə vəsi və vəli etmiş, qaliblər üsnə qalib əmirül-mö'minin Əli ibn Əbi Talib (ə).

Saleh dedi:

– Ataŋ daxi mə`lum oldı, cəddüŋ kimdür?

İmam Həsən (ə) dedi:

– Cəddüm Xəlilüŋ şərəfi sədəfində bir dürr və İsmailüŋ nəsli ağacında bir yemiş, nübüvvət qəndilindən bir nur. Məkkədə yatsı nəmazı əda qılmış, həm ol gecə Beytül-Müqəddəsdə sünnəti etmiş. Ərşüŋ dibində vitr nəmazı içün qiyam etmiş. Həqq-təala aŋa səlam vermiş və ərşdən keçürüb qabi-qövseynə yetürmiş. Rəsuli-səqəleyn və İmami-aləmeyn, hərəmüŋ müqtədası, əhli-aləmüŋ pişvası, sibteynüŋ cəddi, yə'ni İmam Həsən ki, mənəm və İmam Hüseyn ki, qərdaşumdur.

---

345 Əlyazmada: *edənilmiş*.

Şahzadə bu mənaqibləri oxuyub, küfrüŋ pası Salehüŋ köŋli güzgüsindən[346] gidərdi və anuŋ gözlərindən nədamət yaşı axıtdurdı. Saleh İmam Həsənüŋ yüzinə baxub, bu müsəccə fəsih kəlamindən **[95b]** mütəhəyyir olub dedi:

– Ey Rəsulullahuŋ bağırparəsi vey Əliyyi-vəliyüllahuŋ gözi nuri vey Fatimeyi-Zəhranuŋ köksi sərvəri, andan ilərü ki qərdaşüŋi saŋa tapşurayım, cəddüŋ dini təriqi maŋa ərz et, ta imanə müşərrəf olub, Qur'an ilən islamə müti` olayım.

İmam Həsən (ə) islam aŋa ərz etdi. Saleh ixlas ilən müsəlman olub evinə girdi və İmam Hüseynüŋ əlini dutub çıxardı və İmam Həsənə (ə) tapşurdı və bir təbəq qızıl ilən gümişdən dolu başlarına nisar etdi. İmam Həsən qərdaşınuŋ əlini dutub, evinə qayıdub, anasınuŋ əlinə tapşırdı. Həzrət Fatimənüŋ köŋli təsəlli buldı.

Beyt:

Yüzüŋi görsətdüŋü köŋlüm fərəhnak eylədüŋ,
Gəldügiŋdən canumuŋ evi tərəbnak eylədüŋ.

Daŋlası Saleh yetmiş kişi öz qəvm ilə qərdaşları[347] müsəlman olub, Fatimənüŋ (ə.s) eşiginə gəldilər və şəhadət avazını çəküb, ağ səqqalını Zəhranuŋ eşigi toprağına sürtər idi və köküs odı ilən nalələr çəküb der idi:

– Ey Mustəfanuŋ xatun qızı, yaman qıldum ki, sənüŋ fərzəndüŋ incitdim. Ol hərəkətdən pəşiman olubəm, mənüm suçümdən keçəgör.

Fatimə aŋa peyğam göndərdi ki, mən öz ülüşümdən keçdüm, əmma anlar Murtəzanuŋ oğlanlarıdurlar, andan üzr diləmək gərəksən.

Saleh səbr qıldı, ta Murtəza Əli (ə) ğəzadən qayıtdı. **[96a]** Bəs, həzrət əmirül-mö'minin Əlinüŋ (ə) qulluğinə gəlüb, ötmiş haluŋ surətini ol həzrətə zahir etdi. Əmirül-mö'minin Əli (ə) buyurdı:

– Ey Saleh, mən daxi öz ülüşümdən keçdüm. Əmma anlar risalət bustanınuŋ reyhanəsi və cəlalət hədiqəsinüŋ[348] güli [və] Mustəfanuŋ ümmidlü uşağləridürlər. Ol həzrətüŋ yanına var və üzrüŋi dilə.

---

[346] Əlyazmada: *güzgüsində.*

[347] Əlyazmada: *qərdaşlarını.*

[348] Əlyazmada: *hədiqənüŋ.*

Pəs, Saleh, Peyğambərə (ə) varub dedi:

– Ya seyyidül-mürsəlin və rəhmətən lil-aləmin, Saleh xəta qıldı və sənüŋ cigərgişələrüŋ ilən cəfa etmiş ki, ata ilən anasından dəstursiz İmam Hüseyni öz evinə aparmış. Əmma çün mə`lum etdi qərdaşına tapşurdı və islam kəmərini belinə bağlamış, tövbəyə gəlüpdür. Ol nəstədən ki vaqe olupdur, çox həsrətlər yedi. Hiç olamı kim, aŋa rəhm eyləyüb günahindən keçəsən.

Həzrət Rəsulullah (ə) buyurdı kim, ey Saleh, mən öz ülüşümdən keçdüm, əmma anlar Taŋrınuŋ seçilmişləridürlər. Əgər Allahtəala səndən xoşnud ola, sənüŋ ziyanuŋ xamı sudə dönə.

Biçarə Saleh yazıya yüz qoyub, zariligə məşğul olub dedi:

– Ya Rəbbül-aləmin, suçluyəm və halümi təbah eyləyübəm və əməlüm naməsi bu ədəbsizlik ilən qəra edübəm.

Nəzm:

Suçluyəm, hiç bilmənəm halum nə olə, gəlmişəm,
Qaçmış idüm eşigüŋdən, şimdi yolə gəlmişəm.
Suçluyəm, əfv eylə, yüzüŋi döndərmə kim,
Ağladum çox, leyk imdi gülə-gülə gəlmişəm.

On yedi gün ağlayub səhradə gəzər idi və gecələr naləsi gögə yetər idi. On səkizinci **[96b]** gün Cəbrail (ə) həzrət Taŋrıdan Rəsulullahə (ə) gəlüb dedi:

– Taŋrı-təala saŋa səlam yetürür kim, ol məcruh qarıyı çağır ki, biz anuŋ tövbəsini qəbul etdük və suçlarını əfv qıldük və adını dustlar dəftərində yazdürdük.

Ey əziz, bu mə`nidə nəzər qıl ki, bir kafər bu qədr xəta qıldı ki, İmam Hüseyni evində gizlətdi, nə anı azarlədi və nə incitdi və nə yüzinə bir qatı söz söylədi. Andan soŋra ki müsəlman olub küfri gidərdi, bu qədr zarilik qılmaq gərək, ta Həqq sübhanəhü və təala andan xoşnud ola. Ol sitəmedicilər ki, Zəhranuŋ gözləri nuri qəhr ağusi ilən yetmiş iki parə eyləyələr, Murtəzanuŋ pəsəndidə fərzəndi qılıc zəxmi ilə yetmiş iki adəm ilən Kərbəla butəsində bəla odında əritsünlər, halları necə olacaqdur?!

Şe'r:
Ey Rəsuluŋ sibtinüŋ kininə bağlamış kəmər,
Taŋrınuŋ damu odindən bir kəz etmədüŋ həzər.
Ah, o gündən kim, çığırə Fatimə, dad istəyə,
Mustəfa səndən qəzəblü, Murtəza xunincigər.

Rəvayətdür ki, Hüzeyfə bin əl-Yəman dedi:

– Bir gün anam məndən sordı kim, neçə çağdur ki, Peyğambərüŋ qulluğinə varubsən?

Dedim:

– Bir az müddət var ki, xidmətinə varduğum yoxdur.

Maŋa çox xarilik etdi və çox nasəzalar söylədi. Dedim:

– İmdi gedərəm ki, ol həzrət ilən əqşam nəmazı əda qılayım və səndən ötrü özüm içün iltimas edüb məğfirət istəyim.

Pəs, vardum və Rəsulullah (ə) ilən əqşam nəmazı və yatsı nəmazı qıldım. Çün nəmazdən **[97a]** fariğ oldı, qalxub hücreyi-mütəhhərəsinə mütəvəccih oldı, mən anuŋ ardısərə vardum. Yolda bir kişi ol həzrətüŋ qarşusinə gəldi və gənəşüb neçə sözlər Rəsulullah ilə söylədi və qayib oldı. Ol həzrət daxi rəvan oldı və mən ardına gedər idüm. Əyağum səsi mübarək qulağına dəgdi. Sordı kim, Hüzeyfədür? Dedim:

– Bəli, ya Rəsulullah (ə).

Dedi:

– Hacətüŋ nədür?

Dedim:

– Muradum oldur ki, mənüm ilən anam içün bir dua eyləyəsən.

Buyurdı:

– *"Ğəffərəllahu ləkə və li-ummikə"*[349].

Andan dedi:

– Bu şəxsi ki mənüm ögümə gəldi, gördüŋ?

Dedim:

– Bəli, ya Rəsulullah .

[349] *Allah sənin və ananın günahlarını bağışlasın.*

Buyurdı ki, bu, bir mələk idi ki, mundan ilərü yerə hərgiz gəlməmiş idi. Allah-təaladən rüxsət istəyüb yerə gəldi kim, maŋa səlam verüb muştuluq versün ki, Fatimə cənnət dişilərüŋ seyyidəti və İmam Həsən və İmam Hüseyn (ə.m) uçmağ yigitlərinüŋ seyyidi olacaqdurlar.

Və İbn Xaluyə[350] "Al" kitabında İmam Həsəni-Əskəridən nəql eylər ki, çün Həqq-təala Adəm ilən Həvvanı cənnətdə sakin etdi, anlar uçmağ içində gəzüb, özlərini izzət məqamində görər idilər. Bir gün Adəm Həvvayə dedi ki, Taŋrı-təala səndən görkrak yaratmayubdur. Hiç kimsənün vücudi lövhinə nəqşüŋdən yəxşiraq çəkməyübdür. Allah-təala Cəbrailə vəhy etdi kim, bunları ə`layi-firdövsə apar. Həman ki uçmağə yetdilər, bir qız göstərdilər ki, cənnətüŋ döşəklərindən bir döşəgüŋ üstünə oturmış və nurdan bir tac başında və nurdan bir ısırğa qulağlarında və anuŋ nurani şövqindən uçmağ nurani olmış.

[*Misra*]:

[97b] *Yüzüŋi görsətdüŋü aləm münəvvər eylədüŋ.*

Adəm dedi:

– Ey Cəbrail, bu kimüŋ qızıdur bəylə görk ilə ki, uçmağ munuŋ şövqindən nurani olmış?

Cəbrail dedi:

– Bu, Fatimə əleyhassəlamdur – həzrət Mustəfanuŋ qızı ki, sənüŋ fərzəndlərüŋdən axirzəman Peyğambəri olacaqdur.

Adəm dedi:

– Ol tac nə nəstədür kim, anuŋ başındadur?

Dedi:

– Anuŋ əridür Əli ibn Əbi Talib.

Dedi:

– Ol iki ısırğa nə nəstədür kim, anuŋ qulağlarındadur?

Dedi:

– Uşağlarıdur: biri İmam Həsən və biri İmam Hüseyn.

Adəm dedi:

[350] Farsca orijinalda: İbn Babəveyh

– Ey Cəbrail, Taŋrı-təala anları məndən ilərü yaradubdur?

Cəbrail dedi:

– Ey Adəm, anlar var idilər Taŋrınuŋ elmi içində dörd miŋ yıl səndən ilərü. Və bətəhqiq mə'lum olupdur ki, həzrət Peyğambər (ə) bir gün evindən çıxub yuŋdan bir əbayi biləsincə idi. İmam[351] Həsən gəldi. Həzrət Peyğambər (ə) anı ol əbayinüŋ altına girdürdi. Andan soŋra İmam Hüseyn gəldi, anı daxi əbayiyə girdürdi. Pəs, həzrət əmirül-mö'minin Əli yetdi və həzrət Fatimə daxi gəldi, anları həm ol əbayiyə yer verdi. Bəs, Peyğambər (s) buyurdı: "*İnnəma yuridullahu li-yuzhibə ənkumur-ricsə əhləl-beyti və yutəhhirəkum təthira*"[352], yə'ni Taŋrı-təala istər ki, gidərsün sizdən, ey Əhli-Beyt, nəcəslik və arı etsün sizi, yəxşicə arılığ ilən və bu dörd tənüŋ həqqində söyləmiş: "*Əna hərbun li-mən harəbəkum və silmun li-mən saləmukum*"[353], yə'ni **[98a]** mən səvaşuram bir kimsə ilən ki, bunlara səvaşur və barışuram ol kimsə ilən ki, bunlar ilən barışur.

Və həzrət Fatimə səkiz yıl ki, atasınuŋ qulluğində idi və ol həzrətdən çox kəramatlar nəql eyləyübdürlər. Anlardan birisi oldur ki, neçə kitablarda nəql edübdür ki, həzrət Peyğambər bir gün məscidül-həramdə oturub, Kə'bənüŋ divarinə arxa vermiş idi. Qüreyşüŋ xatunları eyş və naz geyəsilərdə xürrəm və şadiman, səllanə-səllanə ol həzrətüŋ qulluğinə gəlüb dedilər:

– Ya Muhəmməd, əgərçi millətdə yadüz, əmma nəsəbdə qəvmüz və bu şəhrdə qonşiüz. İstəməzüz ki, qəvmliğüŋ sərriştəsi səndən kəsdürəüz. Bu gün bir toyümiz var ki, mundan umaruz ki, qızuŋı Fatimə əleyhassəlamı göndərəsən, ta bizim toyümizi təfərrüc etsün və qəvmliğ şərtini yerinə yetürsün və mübarək əyağı ilən mənzilimizi müşərrəf qılsun və bizüm mənzilimizi müzəyyən etsün.

Xaceyi-aləm (s) bir saət təəmmül eyləyüb, pəs başını qaldurub dedi:

---

[351] Əlyazmada sözün sonundakı م (mim) hərfi yoxdur.

[352] *Ey Əhli-Beyt, Allah sizi günahlardan təmizləyərək pak və tərtəmiz etmək istər.* (Quran, 33: 33)

[353] *Mən sizinlə savaşanlarla savaşır, barışanlarla barışıram.* (hədis)

– Yəxşi, ola, siz varuŋız ki, mən Fatiməni göndərürəm.

Anlar vardılar və həzrət Mustəfa Fatimənüŋ yanına varub dedi:

– Ey atanuŋ canı, bizə buyurubdurlar ki, xəlq ilən xülq edəlim və düşmənlərdən cəfa və cövr təhəmmül eyləyəlim və anlaruŋ münafiqlik ağusi şükrüŋ şəkkəri ilən müqabil edəlim. Bu gün ərəbüŋ xatunları yanümə gəlüb dərxast edübdürlər ki, anlaruŋ evinə varub mənzilləri müşərrəf edəsən və mən qəbul etmişəm **[98b]** ki, səni göndürəyim. Sən nə məsləhət görərsən?

Fatimə dedi:

– Ey büzürgvar ata, buyruğ Taŋrı və Rəsulinüŋdür. Mən buyruğ bəndəsiəm və sənüŋ hökmüŋdən baş çəkmənəm.

Beyt:

Sən mənüm canümsən, ey iki cəhanuŋ sərvəri,
Hər nə kim buyruğuŋ olur, oldur işüŋ behtəri.

Sənüŋ hökmüŋ ilən anlaruŋ məclisinə gedərəm, əmma heyrətdəəm ki, hanğı don geyəyim və hanğı libas ilən özümi bəzəndürəyim? Ol məclisdəki xatunlar xamı yəxşi geyəsilər geyübdürlər və özlərini qiymətlü lilbaslar ilə bəzəyübdürlər. Olmaya ki, məni eski geyəsilər ilə görələr və maŋa tə'nə uralar. Ütbənüŋ xatunı və Şeybənüŋ qızı və Əbu Cəhlüŋ qızqərdaşı və özgə ədəbsiz rə'nalar anda hazirdürlər. Ey ulu ata, sən dəvlət ilən ərəb qızlarınuŋ laf ilə gəzafı yəxşicə bilürsən. Həmmalət əl-Hətəb ki, sənüŋ yoluŋ üstinə tikənlər salur və Əbu Süfyanuŋ xatunı Hind ki, anuŋ işi gecə-gündüz sənüŋ qeybətüŋdür, ol məclisdədürlər. Ey büzürgvar ata, sənüŋ yanuŋda mə`lumdur ki, bular varı mənüm anamuŋ eşigini yeŋləri ilə süpürür idilər və xidmət içün hər gün anuŋ qulluğinə varur idilər. Bu gün dibalar ilən misri xəzlər və yəmani bürdlər, hüllələr geyüb oturubdurlar və yəxşi cəvahir ilə incülər təkəllüf üzərinə özlərinə bağlayub, mürəssə taclar başlarına qoyub, zərbəft döşəklərə dayanubdurlar. Və mənüm bir çadürüm var ki, xurma ağacınuŋ qabağından iplər neçə yerdə bərhəm tikübəm və yuŋdan bir don **[99a]** ki, neçə vəslə anuŋ yeŋinə və yəqəsinə tikdürübəm, ol məclisə varayım. Çün məni görələr, deyəcəkdürlər ki, bu qıza nə olubdur və anasınuŋ boyunbağı ki,

gəlin olan çağı boynında idi və bir məmləkətüŋ[354] xəracinə dəgər idi, netdilər ki, bu gün bəylə eski pəlas geyübdür. Ya Rəsulullah, anlaruŋ mə'ni gözləri bağludur ki, bilələr ki, bir ağac ki, nübüvvət bustanindən bitmiş ola, mürəssə donlar ilən bəzənilmişdür və bu dünyanuŋ qürur məta`inə aldanmayəcəkdür. Anlaruŋ nəzəri surətdədür və mə'ni tərəfinə bəsirət gözi salmazlar.

Beyt:
Çün mənüm mə'nidən ol surətpərəst agəh dəgül,
Netmək olur çünki bilməzlər necədür izzü yol?

Ey ata, nolaydı ki, anam Xədicə hazir olaydı, ta anlaruŋ xatirlərinə bu xiyal keçməyəydi? İmdi ol, Taŋrınuŋ rəhmətinə vasil olupdur və mən anuŋ güz fəraqində gülistanuŋ iyisindən bülbül kimi zar nalələr çəkərəm və ərəb xatunlarınuŋ tə'nəsindən ki, mənüm infialümdən ötrü oturubdurlar, ağlərəm.

Beyt:
Hər xaçan kim könlüm ol dilbər qəmindən ağlayə,
Hər ki naləm eşidə, dərdim yürəgin dağlayə.

Həzrət Fatimə bu sözləri söyləyüb həsrət yaşları yənağinə axar idi. Həzrət Rəsulullah (s) daxi ağlamağə düşüb dedi:

– Ey atanuŋ canı, məlul və qayğulu olma ki, dünyanuŋ gögçək libaslar və cəvahürlü tacları[355] bizim yanımızda qədrsiz və bəhasızdur. Hüdhüdüŋ başında tac var, əmma yaman qoxusindən xəlqüŋ burunlarını azarlar və tavus [müləmmə] **[99b]** libaslar geyər, əmma qəra əyağı anı rüsva eylər. Anlar ki, gül kimi qızıl ilə saru libaslar içinə girüb təkəbbür çəmənində cilvə eylərlər, daŋla qiymətsiz tikən kipi damunuŋ odı içində olacaqdurlar. Əbu Cəhlüŋ qızqərdaşı ki, bu gün qızıldan bir boyunbağı boynına taxubdur, daŋla oddan güllər boynında olacaqdurlar. Və Ütbənüŋ qızı ki, dünyadə işrət mütəkkəsinə dayanubdur, Qiyamətdə itab ilə qəzəb eşigində duracaqdur.

[354] Əlyazmada: *məmləkətinüŋ*.
[355] Əlyazmada: *taclar*.

Əmma, ey qız, bizim sərfərazligimiz fəqrüŋ kəlimi iləndür ki, Musa-yi-kəlim kəlim ilən Turdə müqərrəbi–Rəbbi-Ğəfur oldı.

Anlar bu sözdə idilər ki, Cəbrail həzrət Məliki-Cəlildən yetüb dedi:

– Ya Rəsulullah, Taŋrı-təala saŋa səlam yetürüb buyurur ki, Fatiməyə söylə ki, ol toyda hazir olsun ki, orada anuŋ bərəkəti ilən bir əcaib rəmzlər zahir olacaqdur və ol xatunlardan neçəsi anuŋ seydi olacaqdurlar və anuŋ mübarək qədəmindən küfrdən xilas olacaqdurlar.

Bəs, xaceyi-aləm (s) dedi:

– Ey mənüm bağrımuŋ parəsi, budur vəhyyetürici və əmrü nəhyedici, məlaikənüŋ tavusi sidrətül-müntəha yuvasindən gəlüb həzrət Taŋrı-təalanuŋ buyruğin yetürdi ki, Fatiməyə söylə kim, ol məclisə varsun.

Fatimə dedi:

– Ey şəfii-əhli-məhşər və seyyidi-bəşər, mən buyruğin can ilən qəbul eylərdüm və xatirimdə bu keçərdi ki, Taŋrıdan hökm oldı təvəqqüf etmək olmaz.

Bəs, həzrət Bətuli-Əzra fəqrüŋ miqnəəsi başına salub, ismət çadəri geyüb, atasınuŋ **[100a]** evindən günəş kimi yalğuz çıxdı. Və Taŋrı-təala ismət hifzi ilən anuŋ eski donınıŋ ətəgi xəlqüŋ nəzərindən gizlədür idi. Qüreyşüŋ qızları anuŋ yolına göz tikmiş idilər və ərəbüŋ xatunları intizardə idilər ki, xaçan ola kim, Mustəfanuŋ (ə) qızı eski donlar ilə, yuŋlu miqnəə ilən ol məclisdə hazir ola. Və xatirlərində bu keçər idi ki, həman ki Fatimə ol vəslələü geyəsilər ilən gəlüb bu qızıllu geyəsilər və mürəssə zivərlər görə, əlbəttə, həsrətdən anuŋ gözlərindən qayğu yaş axəcəkdür. Bunlar bu fikrdə idilər ki, xəbər yetürdilər ki, Fatimə gəldi.

Həman ki həzrət Fatimeyi-Zəhra əyağı ol evüŋ qapusinə ki, anlar oturmış idilər, basdı, evüŋ dörd divarı anuŋ cəmalınuŋ şövqindən günəş kimi dirəxşan və aydın oldı. Həzrət Fatimə (ə.s) islam təriqi ilən anlarə səlam verdi. Heyrətdən hazirlərüŋ məcal olmadı ki, səlamıŋ cəvabını verələr. Əmma gördilər ki, həzrət Fatimə (ə.s) səllanəsəllanə gəlür və bir hüllə ki, ruzigaruŋ gözi ancılayın don görməmiş idi, geymiş və bir mürəssə tac doptalu dürri-şahvar və yaqut ilə ləʾli-

abdar xirə olur idi, başında və biləgində bir biləzük ki, dünyanuŋ dükanində ancılayın xalis qızıl gəlməyübdür və hiç zərgərüŋ təsərrüf əli aŋa yetməyübdür və **[100b]** salxım-salxım incülər geydügi hüllənüŋ çəp-çəvrəsində asılu. Cənnətüŋ huriləri[356] qulluğində yüz miŋ ədəb ilən rəvan. Birisi çadərinüŋ ucı əli ilən götürmiş, ta yerüŋ tozı ilə bulaşmaya və birisi miqnəənüŋ ətəgi hörmət ilən qaldurmış kim, olmaya kim, ucı yerə dəgə. Və birisinüŋ əlində bir yelpək və qoymaz idi kim, issilik aŋa dəxl eyləyə. Və birisinüŋ əlində bir udi-suz ögində yerir, ta anuŋ qoxusi aləmüŋ dimağini müəttər eyləyə və ta düşmənlərdən yaman göz dəgməyə. [Kimsə] üzərlik yandurur idi bu əzəmətə. Və izzət ilən Fatimə ol evə girdi. Ol xatunlaruŋ dilləri bu beyt ilən mütərənnim oldı.

Beyt:
Hanğı qapudən ki, sən girərsən, ey xublər bəgi,
Sanasən kim, ol evüŋ içi olur cənnət təki.

Ərəb xatunlarınuŋ gözləri həman ki ol xülq ilə ədəb gövhərinüŋ sədəfinə düşdi, gözləri xirə və əql ilə fəhmüŋ güzgüsi tirə oldı. Öz yerindən qalxub bir-birinə der idilər:

– Aya, bu hanğı sultanuŋ qızıdur və hanğı xatunuŋ hərəminüŋ məhrəmidür?

Beyt:
Hurmidür, yoxsa mələk kim, bəylə naz ilə yerür,
Yoxsa Taŋrı nuridir kim, Taŋrı yanindən gəlür?

Bu hanğı xatundur ki, yüzinüŋ nuri Günəş ilə Ayı xəcil eylər və bu necə donlardur ki, ərəb padşahlarınuŋ xəzanədəki zərbəftləri qiymətsiz edər? Bu donları Misir məmləkətinüŋ ustadları **[101a]** toxuyubdurlar, yoxsa Firəngüŋ hünərməndləri munuŋ ipəgi aşıyubdurlar. Bilmədilər ki, ol bir libasdur ki, qeyb karxanəsindən zühurə gəlüpdür. Həman ki mə`lum etdilər ki, ol Fatimeyi-Zəhra əleyhassəlamdur, ə'zalarına titrəmə düşdi. Filhal təxt ilə şahnişin Fatiməyə tapşurub, hər birisi bir bucağə varub, xəcalət başını öginə salub dedilər.

[356] Əlyazmada: *hurilər*.

Beyt:
Hər nazənin ki Aylə Günə satur idi hüsn,
Yüzini çünki gördi, unutdi cəmalini.

Ol kafərlər ki, tövfiq mədədi anlardan kəsilmiş idi, ol məclisdən qaçdılar və ol surəti sehr ilə caduyə nisbət etdilər və bir neçəsi ki imanə müvəffəq oldılar, orada qalub dillərini üzrxahlığ ilən açub dedilər:

– Ey Mustəfanuŋ qızı, biz saŋa təklif eylədük, olmaya kim, xatirüŋə bir qübar qona? Bir hökm buyur ki, biz anı əmələ gətirəüz, ta sənüŋ xatirüŋ[357] andan xoşnud olsun. Buyur kim, yeməklərdən hanğısın ögünə gətürəlim və şərbətlərdən nə nəstə yanuŋa çəkəlim?

Fatimə (ə.s) dedi:

– Mənüm xatirüm yemək ilə içmək sevməz ki, aclıq atam ilə mənüm sənətümizdür. Əylə ki, atam buyurdı: "*Əcu'u yovmeyni*"[358], yə'ni iki gün ac oluram "*və əşbə'ə yovmən*"[359] – və bir gün tox oluram. Əgər mənüm xoşnudliğüm istərsiz və Taŋrı Rəsulinüŋ rizası, küfrüŋ zülmətindən imanuŋ aydınlığa qədəm basuŋız və Taŋrınuŋ birliginə tanış olub müşriklərdən yad oluŋiz.

Anlardan neçəsi ki, Fatimənüŋ **[101b]** kəlamını eşitdilər və ancılayın kəraməti öz gözi ilən gördilər, donları çak edüb, başlarından miqnəələri bıraxub, kəlmeyi-teyyibeyi – "*La ilahə illəlah, Muhəmmədən Rəsulullah*"[360] dillərinə keçürüb Fatimənüŋ qutlu əyağindən ol dəvlət ilə səadətə yetdilər.

Beyt:
Can tazə qılur sözüŋni, ey yari-vəfalu,
Hər yerə qədəm basduŋ, o yer oldi səfalu.

---

[357] Əlyazmada: *xatirüŋi.*
[358] *İki gün ac oluram.*
[359] *Bir gün tox.*
[360] *Allahdan başqa məbud yoxdur, Məhəmməd Allahın elçisidir.*

Rəvayətdür ki, çün Peyğambərüŋ hicrətindən bir yıl keçdi, Əhli-Beytüŋ rəvayəti ilən Fatimə otuz[361] yaşında idi və bir rəvayətdə on dörd yaşında və bir rəvayətdə igirmi yaşında və mundan özgə rəvayətlər edübdürlər. Və rəcəbüŋ ayı iki yıl hicrətdən soŋra, ya səfər ayı, ya rəməzan ayı anı əmirül-mö'minin Əliyə (ə) verdilər. Və Əbül-Əlayi-Həmədani rəvayət eyləyübdür İmam Hüseyndən (ə) ki, bir gün Rəsulullah (s) Ümmü Sələmənüŋ evində idi, bir mələk gögdən endi kim, anuŋ igirmi başı var idi və hər başında min dil var idi. Və hər dili bir nə't ilən Taŋrınuŋ təsbihi və təhlili söylər idi ki, bir lüğət bir lüğətə bənzəməz idi. Və avuci yedi gög ilən yerdən böyükrak idi. Həzrət Rəsulullah (ə) əylə sandı ki, məgər bu, Cəbraildür.

Dedi:

– Ey qərdaş, sən hərgiz bu surət ilən yanümə gəlməyübsən.

Ol firiştə dedi:

– Ya Rəsulullah (ə), mən Cəbrail **[102a]** dəgüləm, mənüm adum Hərxiyayildür[362]. Həzrət Allah-təala məni qulluğuŋa göndərübdür: nuri nurə vermək içün.

Həzrət Rəsulullah dedi:

– Ya Hərxiyayil, kimi kimə verməlü?

Dedi:

– Fatiməni Əliyə vermək gərək.

Pəs, həzrət Peyğambər filhal Fatiməni əmirül-mö`mininə (ə) verdi Cəbrail ilə Mikailüŋ danuğluği ilən. Və "Dürərüs-sibteyn" kitabından rəvayətdür ki, bir səhabə demiş ki, mən Mustəfanuŋ xidmətində hazir idim və vəhyüŋ əsəri Mustəfanuŋ mübarək yüzində gördüm. Həman ki vəhy zail oldı, dedi:

– Hiç bilürsən ki, Cəbrail Taŋrı-təala yanından maŋa nə xəbər gətürübdür?

Dedim:

– Atam ilə anam saŋa qurban olsunlar, nə peyğam gətürdi?

Dedi:

---

[361] Farsca mətndə və "Hədiqətüs-süəda"da: *doqquz.*

[362] "Rövzətüş-şühəda"da: *Xərzail*, "Hədiqətüs-süəda"da: *Sərsail*.

– *"İnnəllahə təala yə`murukə ən-tuzəvvicə Fatimətən min Əli"*[363], yə'ni Allah-təala əmr etdi ki, Fatiməni Əliyə ver. Əyağə qalx və mühacir ilə ənsarı çağır.

Mən vardum və təmami-əshabı çağırdum. Çün hazir oldılar, əmirül-mö'minin Əli daxi yetdi. Həzrət Rəsulullah bir xütbə oxudı, soŋra dedi:

– Maŋa əmr olubdur ki, Fatiməni nikah ilən Əliyə verəm, dörd yüz misqal gümiş ilən. Ey Əli, sən razi olduŋ?

Əmirül-mö'minin Əli dedi:

– Bəli, razi oldum, ya Rəsulullah.

Pəs, Peyğambər Əli və Fatimə (ə.m) içün duayi-xeyr eyləyüb dedi:

– *"Cəmə'əllahu şəmləkuma"*[364], yə'ni cəm' eyləsün Taŋrı-təala sizüŋ pərişanlığunızı. *"Və əs`ədə cəddəkumə"*[365] – sə'd eyləsün bəxtüŋizi. *"Və barəkə əleykumə"*[366] – və bərəkət versün sizə. *"Və əxruc minkumə kəsirən teyyibən"*[367] **[102b]** – və çıxarsun sizdən çox uşağlar xamı pak və arı.

Və Xarəzminüŋ "Mənaqib" kitabında yazıludur bir uzun hədis, mə'nisi bu ki, Cəbrail (ə) Peyğambərüŋ həzrətinə gəlüb cənnətdən bir parə sünbül və qərənfil gətürdi. Peyğambər (ə) anı alub iyilədi və dedi:

– Ey Cəbrail, bunları gətürdügüŋ səbəbi nədür?

Cəbrail həzrət Rəsulullahə (ə) xəbər verdi ki, həzrət Allah sübhanəhü və təala cənnətə əmr etdi kim, özüŋi bəzət və Tuba ağacına dedi kim, yemişüŋ götür və hur ilə eynə dedi ki, cəvahir ilən özlərüŋizi bəzətiŋiz. Və firiştələrə əmr oldı kim, beytül-mə'muruŋ çəvrəsində cəm' oluŋız. Və anda nurdan bir minbər var ki, Adəm (ə) anuŋ üstində xütbə oxur idi. Pəs, Rahilə ki bir firiştədür və Pərvərdigaruŋ bargahinə bir hacibdür, əmr oldı ki, ol minbərə çıxub bir xütbə oxu-

---

[363] *Allah-taala sənə Fatimə ilə Əlini evləndirməyi əmr edir.* (hədis)

[364] *Allah sizin pərişanlığınızı yox etsin.*

[365] *Sizi xoşbəxt etsin!*

[366] *Sizə bərəkət versin.*

[367] *Və sizdən çoxlu pak övladlar dünyaya gəlsin.*

sun və mələikənüŋ içində andan şirindillü yoxdur. Pəs, Rahil ol minbərün üstinə varub, Həqq-təalanuŋ həmdi əylə oxudi ki, göglərüŋ firiştələri qamu xoşvəqt və xürrəm oldılar. Pəs, aŋa vəhy oldı kim, mənüm həbibimüŋ qızı Fatimə Əli ilən nikah bağla. Pəs, Rahil nikahuŋ əqdini bağladı və mələikə danuğ oldılar və qəza divanınıŋ yazıcıları bu söz ilən yazdurub səbt etdilər. Pəs, Cəbrail (ə) həsirdən bir vəslə həzrət Peyğambərə (ə) görsətdi ki, dedügüm keyfiyyət[368] bu hərirdə yazıludur. Taŋrınuŋ **[103a]** buyruği ilən saŋa ərz etdüm və mən munı ipar üzügi ilən möhr edəcəgəm və uçmağuŋ xadiminə–Rizvan tapşuracagəm. Və həman ki nikahuŋ işi təmam oldı, firdövsüŋ ağacları sünbül ilə qərənfil saçdılar və mən andan bunları töhfə ilən yanuŋa gətürübəm. Pəs əmr oldı Tuba ağacına ki, bəzətdügüŋ zivərləri saçaqla və hur ilə eyn anları götürüb sərfərazlık edərlər Qiyamətədək.

Və bəylə nəqldür ki, Tuba ağacı rüq'ələr saçdı, Əhli-Beytüŋ dustları ədədincə və hər rüq'ədə bir kimsənüŋ adı yazduruplar ərkəklər ilən dişilərdən. Və hər firiştə ki anda hazir idi, andan bir rüq'ə götürdi və saxlarlar, ta Qiyamətdə ol rüq'əni iyəsinə tapşurə və rüq`ənüŋ məzmuni bu ola ki, filan ərkək, ya filan dişi Əhli-Beytüŋ məhəbbətindən ötrü damu odından azaddur.

Nəzm:

Dustlarğə yetər bərati-nicat,
Xəsm qalur həmişə dər-dərəkat.
Dust ol kim, nə kim dilər köŋlüŋ,
Yetürür Əhli-Beyt dilədügüŋ.

Pəs, Cəbrail dedi ki, Həqq-təala buyurur ki, sən daxi yer üstində Fatimənüŋ nikahını Əli ilən bağla, əylə ki gögdə vaqe olupdur. Seyyidi-aləm (s) Fatiməni Əliyə verdi və Ümmü Sələməyə dedi:

– Mənüm qızumi Əliniŋ evinə apar və aŋa tapşır və söylə kim, ivməsün, ta mən gələnədək, ta anları bir-biri ilən görəyim.

Və çün yatsı nəmazı əda qıldı, bir kuzə su götürüb anlaruŋ **[103b]** yanına gəldi və ağzınuŋ tükürdügi ol kuzəyə saldı və "*Qul*

[368] Əlyazmada: *keyfiyyəti.*

əuzu bi-Rəbbil-Fələq"[369] və *"Qul əuzu bi-Rəbbin-Nas"*[370]surəsi və özgə dualar ol suyə oquyub Əliyə verdi ki, mundan iç və təharət al və Fatiməyə dedi:

– Sən daxi mundan iç.

Və bir rəvayətdə daxi var ki, bir parə su Fatimənüŋ başına və iki əmcəginüŋ ortasına səpdi və dedi: "*Əllahummə... İnni ə`izuha bikə və zurriyyətəha min əş-şeytanir-rəcim*[371]", yə'ni bari-Xudaya, saŋa pənah gətürdüm anı və uşağlarını sürülmiş divüŋ şərrindən, yə'ni iblis. Pəs, ol sudan bir parə əmirül-mö'minin Əlinüŋ başına və iki dalınuŋ ortasına səpdi, bəs dedi: "*Əllahummə innəhuma mənni*[372]" – Ya Rəbbül-aləmin, bu ikisi məndəndürlər "*və əna minhina*"[373] – və mən daxi anlardanam. "*Əllahummə"* – ey Taŋrı, *"kəma əzhəbət ənni ər-ricsə*"[374] – əylə ki məndən gidərdüŋ nəcasəti. "*Və təhhərtəni*"[375] – və məni arı etdüŋ, "*fətəhhərtuma*"[376] – pəs, bu ikisini nəcasətdən ariyət [et]. Pəs, dedi:

– Qalxuŋız və doşəgə giriŋiz ki, Taŋrı-təala siziŋ araŋızda məhəbbət ilə ülfət versün və nəsliŋizdə bərəkət qılsun.

Və özi qalxub evdən dışxarı gəldi. Həzrət Fatimə ağlamağə düşdi. Həzrət Peyğambər dedi:

– Ey qızım, nə nəstə səni ağlamağə salur? Mə'lum et ki, səni bir kimsəyə verdim ki, anuŋ islamı xamı kimsədən artuğ və xülqi qamu kimsədən yegrak və irfanı Taŋrı-təala yanında xamu kimsədən artuğraq.

[104a] Və bir rəvayətdə daxi var ki, çün Rəsulullah (s) Fatiməni ağlayan gördi, lütf və xülq ilən dedi:

– Ey atanuŋ canı, sənüŋ həqqində təqsirliq etmədüm və səni bir kimsəyə verdüm ki, ol mənüm Əhli-Beytümnüŋ yegidür və and içə-

---

[369] *De: Pənah aparıram sübhün Rəbbinə.* (Quran, 113: 1)

[370] *De: Pənah aparıram insanların Rəbbinə.* (Quran, 114:1)

[371] *Allahım, "Onu və övladını qovulmuş şeytanın şərindən Sənə əmanət edirəm".* (Quran, 3: 36)

[372] *Allahım, bu ikisi məndəndir.*

[373] *Mən də onlardanam.*

[374] *Məni pisliklərdən uzaqlaşdırdığın kimi.*

[375] *Və məni pak etdiyin kimi.*

[376] *Bu ikisini də pak et.*

rəm Taŋrınuŋ həqqinə ki, səni bir kimsənə verübəm ki, iki cəhanuŋ seyyididür.

Və müqərrərdür ki, Fatimə anuŋ içün ağlar idi ki, atasınuŋ xidmətindən irağ düşər idi.

Və rəvayətdür ki, həzrət Fatimənüŋ cəhazı iki don idi bürdi-yəmanidən və iki qolbağı gümişdən və bir qətifə ki gəvdəsi təmam örtülməz idi. Və bir qədəh və bir əl dəgirməni və bir ələk və iki su tuluğı və bir məşrəbə və iki döşək yoğun kətandan ki, birisinüŋ içindəki pənbuğ əvəzinə xurma lifi idi doptalu və birisinüŋ içində səxtiyanuŋ yonulmuşi idi və dörd yastuq: ikisinüŋ içində xurma lifi.

İmam[377] Seyfünnəzər Tusi rəvayət eyləyübdür ki, bir münafiq Mədinədən həzrət əmirül-mö'mininə məlamət etdi ki, varduŋ və bir qız alduŋ ki, anuŋ cəhazı azdur və çaşti yeməgi şamə yetməz. Əgər mənüm qızumi almış ola idüŋ, ol qədr cəhaz anuŋ ilən bilə göndərürdüm ki, mənüm evümdən sənüŋ evinədək devələri dura idi, yükləri qamu qızuŋ cəhazı. Həzrət əmirül-mö'minin Əli (ə) buyurdı ki, bu iş təqdir iləndür, nə tədbir ilən: "*Fəl-hukmu lillahil-əliyyil-kəbir*"[378] – bizim nəzərimiz qəddar dünyanuŋ mal ilə məta'inə dəgül, bəlkə məqsudümiz Pərvərdigaruŋ **[104b]** rizasıdür. Sərfərazligimiz ə`mal iləndür, nə mal. Və müfaxirətimiz kirdar iləndür, nə dirəm və dinar.

Və çün həzrət Murtəza özini Taŋrıyə tapşurmış idi və Taŋrınuŋ qəzasinə riza vermiş idi, gizlüdə aŋa nida verdilər:

– Ya Əli, başuŋ qaldur, ta Taŋrınuŋ qüdrətindən[379] Fatimənüŋ cəhazını görəsən və anuŋ qədr ilə şövkətini təfərrüc qılasan.

Əmirül-mö'minin Əli (ə) mübarək başını qaldurub başından ərşədək böyük hicablar nurdan gördi və ərşüŋ altında bir geŋ meydan nəzərinə gəldi. Ol meydan uçmağuŋ devələrindən dolu yükləri xamu dürri-gövhər və ipar ilə ənbər. Hər devənüŋ üstində Ay təki bir qəravaş minmiş və hər devənün nöqtəsi bir sərvi-xuraman təki quluŋ

---

[377] Əlyazmada: *əmma.*

[378] *Hökm ancaq ucalardan uca olan böyük Allaha aiddir*. (Quran, 40: 12)

[379] *Əlyazmada bu söz səhvən iki dəfə yazılıbdır*.

əlində və çağırur idilər ki, *"həza cəhazi Fatimə binti Muhəmməd"*[380], yə'ni bu, Fatimə binti-Muhəmmədüŋ cəhazıdur. Murtəza Əli (ə) çün anları gördi, xoşvəqt olub, ol münafiqdən yüzini çəvirüb, Fatimənüŋ evinə girüb istər idi ki, Fatiməni mundan xəbər eyləyə. Andan ilərü xud Fatiməyə xəbər vermiş idilər. Həman ki həzrət əmirül-mö'minin oturdi, həzrət Fatimə dedi:

– Ya Əli, əvvəl sən söylərsən, ya mən söylim?

Əmirül-mö'minin Əli (ə) dedi:

– Sən söylə.

Fatimə buyurdı:

– Əgər münafiqlərüŋ baş qaxduğı eşitdüŋ, mənüm cəhazümi daxi əyan gördüŋ.

Və "Şəvahid" kitabında vardur ki, bir gün həzrət xaceyi-aləm (s) buyurdı ki, Süleyman peyğambər (ə) öz qızı içün **[105a]** bir cəhaz tərtib etmiş idi bəqayət yəxşi və kürəkanı içün bir mürəssə tac düzətmiş idi yeydi yüz gövhər ilən mükəlləl. Murtəza Əli Seyyidül-bəşərdən (ə) anı eşidüb öz evinə gəldi və həzrət Fatimənüŋ yanında təqrir qıldı. Fatimənüŋ mübarək xatirinə keçdi kim, olamı ki, həzrət əmirül-mö'minin Əlinüŋ xatirinə keçər ola ki, Süleyman bir peyğambər idi və bizim daxi bir peyğambərimiz var: andan ə`la və ulu. Və ol peyğambərüŋ qızı ol qədr cəhazı var idi və bu peyğambərüŋ qızı bəylə müflis. Ol kürəkanuŋ bir mürəssə tacı var idi və bu kürəkanuŋ yoxsulluği. Bu qayətdə həzrət Fatimə bu sirri öz köŋlində saxlar idi və hiç kimsəyə zahir etməz idi, ta ol çağ ki dünyadən rihlət qıldı.

Bir gecə həzrət Murtəza Əli (ə) anı uçmağuŋ sədrində gördi bir mürəssə təxtüŋ üstinə oturmış və hur ilə eynlər anuŋ təxtinüŋ çəvrəsində qulluğ eyləmək içün bel bağlayub əyağə durmış və bir qız bəqayət sahibcəmal qalın zivərlər ilən durub, iki təbəq əlində saçaq içün təxtüŋ yanında durur intizardə ki, həzrət Fatimə aŋa baxa. Əmirül-mö'minin Əli (ə) sordı:

– Bu, kimdür və kimüŋ qızıdur?

Fatimə dedi:

[380] *Bu, Məhəmmədin qızı Fatimənin cehizləridir.*

– Süleyman peyğambərüŋ qızıdur ki, Allah-təala anı mənüm qulluğum etmək içün burada müqərrər eyləyübdür. Ol gün ki, munuŋ cəhazı hekayəti atamdan eşidüb, mənüm yanümdə nəql eylər idüŋ, mənüm xatirümdə bu keçdi. **[105b]** Bu gün mənüm təxtüm əyağində izzət ilə hörmət içün tə'yin eyləyübdürlər. Və ol tacuŋ əvəzi ki, Süleyman kürəkanı içün tərtib etmiş idi, livayi-həmd sənüŋ içün müqərrər qılupdur.

Və livayi-həmd bir ələmdür ki, həzrət Muhəmmədüŋ xassəsidür və ol ələmüŋ miŋ yıl yol uzunlığıdur və ələmüŋ dirəgi beyzadəndür və küpi qızıl yaqutdən və anuŋ üç buynuzi, yə'ni şəqqəsi var: biri məşriqdə və biri məğribdə və biri Məkkənüŋ üstində. Və hər bir şəqqədə bir-bir sətr yazılu. Birisində: "*Bismillahir-Rəhmanir-Rəhim*"[381] və ikisində: "*Əlhəmdulillahi Rəbbil-aləmin*"[382], üçüncüsində: "*La-ilahə illəllah Muhəmmədən Rəsulullah*"[383]. Və bu ələmi Ərəsatdə hazir eyləsünlər və carçılar carlasunlar ki, xandadur Muhəmmədi-ərəbi, xaceyi-Haşimi, Seyyidül-mürsəlin və xatəmün-nəbiyyün. Pəs, həzrət Muhəmməd[384] (ə) ilərü gələ və ol ələmi mübarək əli ilən götürə. Andan soŋra təmami-ənbiya: Adəmi-Səfidən İsa peyğambərədəkin (sələvatullahi əleyhim əcməin) bitün şəhidlər ilən sadiqlər və mö`minlər ilən salehlər və ariflər ilən yəqin əhli ol ələmüŋ altında yığılsunlar, əylə ki Peyğambər buyurdı: "*Adəmə mən dunəhu təhtə livai yovməl-qiyamə*"[385]. Andan soŋra bir tac nurdan gətürələr və ol sultanuŋ başına ki, ins ilə cinnüŋ padşahıdur, qoyalar və yaşıl hərirdən bir xəl'ət aŋa geydürsünlər və yəraqi hazir etsünlər, ta Əsra Bəidə meydanınuŋ şahsüvarı atlansun və ənbiyalar içün hərəsinə bir yəraq və bir hüllə **[106a]** və bir tac gətürələr və ol peyğambərlər bəylə atlu cənnətə varmağə[386] yüz qoyalar. Və çün həzrət Rəsulullah (s) atlansun, ələmi həzrət əmirül-mö'minin Əlinüŋ əlinə verələr və ol həzrət peyğam-

[381] *Bağışlayan və rəhmli Allahın adı ilə*. (Quran, 1: 1)

[382] *Aləmlərin Rəbbinə həmd olsun*.

[383] *Allahdan başqa məbud yoxdur və Məhəmməd Allahın elçisidir*.

[384] Əlyazmada: *Məhəmmədi*.

[385] *Qiyamət günü Adəm və digər peyğəmbərlər mənim bayrağım altında olacaqlar*.

[386] Əlyazmada: *varmağ*.

bərlərüŋ ögüsərə yerir ola və ol ələm bir tac şəkli ola ki, həzrət əmirül-mö'minin Əlinüŋ başı üstində ola və nida qılsunlar ki:

– Ey Əli, bu tac yəxşirəqdür, yoxsa Süleyman kürəkanınuŋ tacı ki, Fatimənüŋ hüzurində təəccüb üzərində təqrir eylər idüŋ?

Mövlana Nəcməddin Nəsəfi "Fatihə"nüŋ təfsirində rəvayət eylər ki, Peyğambər (s) Fatimənüŋ tahir hücrəsinə girdi, gördi ki, Fatimə qayğulu oturubdur və ağlar. Andan sordı ki, nişün ağlarsən və nədən ötrü qayğulusən? Dedi:

– Ya Rəsulullah, hekayət üzərinə nə, şikayət təriqinə söz söyləərəm. Mə`lum et ki, üç gündür ki, evimizdə təam bulunmayubdur. Uşağlarum: Həsən ilə Hüseyn taqətsiz olub aclığından ağlarlar və anlaruŋ ağladüğindən ağlaram. Və əmirül-mö'minin daxi ağlar idi və biz səndən gizlərdük. Əmma bu gün İmam [387] Hüseyn ilən İmam Həsəndən bir söz eşitdük ki, taqətimiz taq oldı. Bir-birinə söylər idilər:

– Aya hiç uşağ bəylə aləmdə var ola ki, bizüz?

Mən həman ki munı eşitdüm, aləm gözümə qəra oldı. Ey ulu ata, sən nə dersən? Bu, necə ola? Əgər bir bəndə öz Taŋrısı ilə münacatda bir güstaxlığ eyləyə, əcəb olmasun?! Seyyidi-aləm (s) buyurdı:

– Ey fərzənd, Taŋrı-təala bəndələrüŋ güstaxlığını **[106b]** sevər.

Fatimə evinə girüb iki rik'ət nəmaz qıldı. Çün nəmazdan fariğ oldı, əlləri götürüb niyaz dili ilən münacat ağaz qılub dedi:

– Ya Rəbbül-aləmin, sən bilürsən ki, dişi əhlilərüŋ peyğambərlər kimi qüvvət ilə qüdrəti[388] yoxdur. Əgər sənüŋ atamuŋ ilən bir sirrüŋ var, *"Əbitə ində Rəbbi yət`imuni və yəsqini"*[389] qüvvəti ilən aclığ çəkə bilür. Mənüm ol taqətüm yoxdur. Ya maŋa taqət ver, ya qayğudən xilas et.

Bunı deyüb ussız düşdi.

Cəbrail gəlüb dedi:

– Ya Rəsulullah, qalx.

Həzrət Peyğambər buyurdı:

---

[387] Farsca orijinalda bu söz yoxdur.

[388] Əlyazmada: *qüdrət.*

[389] *Mən gecəni Allahın yanında keçirdim və O, məni yedirib-içirdi.* (hədis)

– Nə olupdur?

Cəbrail dedi:

– Ya Rəsulullah, Fatimənüŋ cuş ilə xüruşi firiştələri fəğanə gətürübdür. Anuŋ ğurinə yetəgör.

Xaceyi-aləm (ə) Fatimənüŋ evinə varub gördi kim, Fatimə huşsiz yatur. Oturdi və anuŋ mübarək başını yerdən götürüb dizi üstinə qoydı. Çün müşkbar saçlarınuŋ qoxusi Fatimənüŋ burnına dəgdi, ussı yerinə gəlüb qalxdı və başı öginə salub durdı. Həzrət Peyğambər əli anuŋ köksinə qoyub dedi:

– Ya Rəbb, anı aclığdan eymən et.

Həzrət Fatimə dedi:

– Andan soŋra hərgiz ac olmadum.

Ey əziz, sanma kim, əgər anlar dünyalik sevər olaydılar, anlarə verməz idilər? Əmma anlar öz ixtiyarı ilən riyazət təriqi qəbul etmiş idilər və hər dua kim özi və Əhli-Beyti qılur idilər, müstəcab olur idi.

Və "Məaric" kitabında yazıludur ki, bir gün Mustəfa (s) **[107a]** Fatimənüŋ (ə.s) evinə girüb sordı kim:

– Ey qız, necə keçər məaşuŋ?

Dedi:

– Ey ata, əmirül-mö'minin Əli və mən və uşağlarum üç gündür ki, dünyanuŋ yeməgini datmayubuz, bəlkə yeməgüŋ iyisi daxi eşitməyübüz.

Həzrət Mustəfa mübarək əlini duayə götürüb buyurdı: *"Əllahummə inzil əla Muhəmmədin və Əhli-Beytihi kəma unzilət əla Məryəmə binti İmran"*[390], yə'ni, ey Taŋrı, gögdən endür Muhəmməd ilə Əhli-Beytinə hər yemək, əylə ki İmranuŋ qızı Məryəm içün göndərdüŋ. Andan soŋra dedi:

– Ey Fatimə, qalx və eviŋ içinə gir və bax kim, nə nəstə görərsən?

Fatimə (ə) yeridi və İmam Həsən ilən İmam Hüseyn (ə.m) ardından yügürdilər. Nagah bir çənağ gördilər cəvahirdən mürəssə və ol çənağuŋ içində eşgənə və bir vəslə bişmiş et eşgənənüŋ üstinə du-

[390] *Allahım, İmran qızı Məryəmə nemətini göndərdiyin kimi, Məhəmməd və Onun Əhli-Beyti üçün də göndər.*

rur və andan ıpar qoxusi gəlür. Həzrət Fatimə ol çənağı götürüb, atası yanına gətürüb, oginə qoydı. Həzrət Peyğambər (s) buyurdı: *"Kulu bismi İlahi Muhəmməd"*[391] – yeyiŋiz Muhəmmədüŋ Taŋrısı adı ilən. Pəs, Peygambər ilə kürəkanı və qızı ilə uşağları ol yeməkdən nuşican etdilər.

Bir rəvayətdə daxi gəlübdür ki, yedi gün ol yemək həm ol dəstur ilən ol evdə durmış idi. Bu yedi gündə Əhli-Beytüŋ yedügi andan idi və zərrəcə əksilməz idi. Bir gün şahzadə İmam Həsən evdən çıxub ol ətdən bir löqmə əlində idi. Bir yəhuduŋ **[107b]** əvrəti ol əti göüb dedi:

– Ya Həsən, bu ət xandan sizə yetübdür?

İmam Həsən (ə) buyurdı kim, bu qeyb aləmindən bizə həvalə olubdur. Yalvardı ki, mənüm ülüşüm ver. Çün kərəm və mürüvvət anlaruŋ işi və karü pişəsi idi, əl uzatdı ki, ol löqməni ol əvrətə verə, qeybdən anı qapdılar və çənağ daxi ol evdən yuxarı apardılar. Həzrət Risalətpənah buyurdı kim, əgər bu sirri zahir olmaz idi, bu yemək sizdən hərgiz kəsilməz idi.

Və neçə təfsirlərdə yazıludur ki, bir gün həzrət Mustəfa (s) Fatimənüŋ evinə təşrifi-şərif ərzani qıldı və sordı kim, evüŋdə hiç yemək var ki, üç gündür ki, ataŋ yemək yeməyübdür və hərəmlərüm içində daxi yemək bulunmaz. Fatimə dedi:

– Ya Rəsulullah, bizdə daxi həm bu hal vaqedür.

Həzrət Peyğambər andan çıxdı. Həzrət Fatimə əl götürüb dedi:

– Ey Taŋrı, qeybdən bir yemək bizə şəfəqqət eylə və köŋlümi atamuŋ qayğusindən qurtar.

Həzə Fatimə (ə.s) dua edərdi kim, bir kimsə qapudən ün verdi. Fatimənüŋ xidmətkarı çıxub bir şəxs gördi kim, hərgiz görməmiş idi. İki əkmək və bir vəslə ət aŋa verüb dedi:

– Bu, bir hədiyyədür, Fatiməyə yetür.

Çün xidmətkar ol töhfəni həzrət Fatimənüŋ öginə gətürdi, Bətuli-Əzra, yə'ni Fatimeyi-Zəhra qonağlığ əshabı çün amadə gördi, anı

[391] *Məhəmmədin Allahının adı ilə yeyin.*

bir çənağə qoyub başını örtdi və İmam Həsəni (ə) **[108a]** atası çağırmağə göndərdi.

Və bir rəvayətdə daxi var ki, bir boş çənağ Fatimənüŋ yanında qoyulmış idi, çün dua qıldı və zarilik yerinə yetürdi kim, ol çənağdan bir tütün çıxar. Yəxşicə baxdı, gördi kim, çənağ yeməkdən doludur. Başını örtüb, İmam Həsən (ə) Mustəfanuŋ ardına göndərdi. Filhal həzrət Peyğambər qayıtdı və həzrət Fatimənüŋ hücrəsi mübarək hüzuri ilən müşərrəf qıldı. Həman ki Peyğambər anda oturdı, Fatimə ol yeməgi ortayə gətürüb ədəb əyağı ilən durdı. Çün ol həzrət çənağdan sərpuş götürdi, gördi çənağ bişmiş ətdən dolu və tazə əkmələr üstinə durur. Fatimə ol haldan mütəhəyyir olub bildi kim, ol, Taŋrınuŋ bərəkətindən və həzrət Risalətpənahuŋ duası himmətindəndür. Allah-təalanuŋ həmd ilə şükri və Peyğambərüŋ (s) sələvatı yerinə yetürdi. Xaceyi-aləm bu ibarət ilən sordı kim, "*ənna ləki haza*?"[392] – ey Fatimə, bu, xandandur? Zəhrayi-Bətulun dili saətdə təprənüb dedi: "*Huvə min indillah*"[393] – bu, Taŋrınuŋ yanındandur. "*İnnəllahə yərzuqu mən yəşau bi-ğeyri hisab*"[394] – bədürüsti ki, Taŋrı-təala hər kimi istər, aŋa rizq verür qeybüŋ xəzanəsindən. Çün bu sözləri həzrət Rəsulullahuŋ qulağına yetdi, mübarək yüzinüŋ güli şadiliğindən açılub buyurdı kim, şükr Taŋrıyə kim, izzət üzərindən səni Bəni İsrailüŋ **[108b]** seyyidəti, yə'ni İsanuŋ anası Məryəmə oxşatdı ki, hər qaçan ki Taŋrı-təala aŋa bir rizq göndərür idi, Zəkəriyya andan sorar idi:

– Bu, xandandur?

Məryəm anın cəvabını həman verür idi: "*Huvə min indillah*".

Pəs, Peyğambər buyurdı kim, İmam Həsən ilə İmam Hüseyni çağırsunlar və əmirül-mö'minin Əli (ə) daxi hazir oldı və varı ol yeməkdən nuşi-can etdilər və tox olub Peyğambərüŋ hərəmləri içün daxi ülüş göndərdilər. Rəvayətdür ki, Əhli-Beyt ilən xidmətkarları qamu doyincə yedilər və həzə ol çənağ dolu idi. Pəs, Fatimə qonşılarına daxi çənağ göndərdi və ol yeməgüŋ faidəsi xass ilə ammə yetdi.

---

[392] *Bunlar sənin üçün haradandır?* (Quran, 3: 37)

[393] *O, Allah tərəfindəndir.* (Quran, 3: 37)

[394] *Allah istədiyi kimsəyə saysız ruzi verir*. (Quran, 24: 37)

Və çün həzrət Fatimeyi-Zəhranuŋ fəzayili və kəramatı andan artuqdur ki, bu dəftərə sığışa, bu qədr ilən ixtisar etdük.

İmdi ol həzrətüŋ vəfatinə şüru eyləyəlim. Ravilər rəvayət eyləyübdürlər ki, Mustəfanuŋ fəraqı hiç kimsənüŋ ixtiyarı əlindən əylə almadı ki, Fatimənüŋ. Ol saət ki, həzrət Risalətpənah (s) don dəgşürdi, Mədinəyə bir qovğa qopdı ki, gün ağlamağə və yer titrəməgə düşdilər və pərilərüŋ nalələri adəmilərüŋ huş qulağına yetdi və mələklərüŋ əfğanı səsi ərşi-məciddən ötdi və Mədinənüŋ əhli ərlər ilə dişilərdən kimsə qalmadı ki, bağırı çak və köŋləgi dərdnak olmadı. Bu vaqiənüŋ qüssəsindən yürəklər qanlu və **[109a]** gözlər yaşlu oldı. Bu məhəldə əmirül-mö'minin Əli həzrət Fatimənüŋ yanına gəlüb dedi:

– Ey xeyrülbəşərüŋ qızı, bu gün Mədinədə Qiyamət qopupdur. Əgər istərsən ki, mən səndən razi olayım, öz ünüŋi kimsəyə eşitdürmə.

Dedi:

– Necə edəyim?

Həzrət əmirül-mö'minin Əli (ə) dedi:

– Səbr et, ta gecə gəlsün, andan soŋra ol həzrətüŋ rövzəsi üstinə varub ziyarət qıl.

Fatimə bilə ilən əməl etdi. Əmma çün gecə gəldi və xəlayiq toxtaşdılar və məscid boş qaldı, həzrət əmir evinə gəlüb Fatiməni gördi ussız yatur. Səbr etdi, ta oyanub özinə gəldi. Həman ki gözləri əmirül-mö'mininə yetdi, dedi:

– Ey Əbül-Həsən, gecədən nə qədr keçübdür?

Əmirül-mö'minin dedi:

– İki daŋ keçübdür.

Fatimə dedi:

– İmdi nəsihət verürsən ki, çıxub atamuŋ ziyarətinə varayım.

Dedi:

– Nola, əmma ol şərt ilən ki, kimsə ünüŋ eşitməsün.

Fatimə əyağə qalxmək istərdi, düşdi. Həzrət əmirül-mö'minin anuŋ əlini dutub ol müqəddəs rövzənüŋ üstinə apardı. Həzrət Fatimənüŋ nəzəri çün ol münəvvər məşhədə və mütəhhər mərqədə yetdi, nalə ilən dedi:

– "*Ma ləkə vət-turab*"[395] – ey arı gövhər, nişün toprağə yatubsən?

Pəs özini ol mütəhhər türbətə salub yüzini toprağına sürtər idi və nalələr çəküb hal dili ilən bu sözə mütərənnim oldı.

Beyt:

Bu müsibətdən cəhandə bir köŋül qəmsiz dəgül,
[109b] *Xəlq aləminüŋ gözi bu yasda nəmsiz dəgül.*
Cinn ilə insü mələk və vəhş ilə teyrü gögü yer
Hər kimə kim baxar oldum, canı matəmsiz dəgül.

Əmir dedi:

– Ey Fatimə, çox ağlama.

Fatimə (ə) dedi:

– Ey əmmüm oğlı, maŋa məlamət etmə ki, fəraquŋ ağrığı çətündür, xassə bəylə kimsənüŋ fəraqi.

Və ol qəsidədən ki, həzrət Fatimə atasınıŋ mərsiyəsində demiş idi, bir beyti budur:

Subbət ələyyə məsaibun ləv ənnəha,
Subbət ələl-əyyami sirnə ləyaliya[396].

Yə'ni tökübdürlər maŋa ol qədr müsibət kim, əgər anı gündüzə tökələr, qayğudən gecə kibi qəra ola idi.

Və bir rəvayətdə daxi derlər ki, çün həzrət Fatimə atasınuŋ ziyarətinə vardı, anuŋ məzarindən bir avuc toprağ götürüb, mübarək gözlərinə sürtüb ağlamağə düşdi.

Beyt:

Novbəharum nərəyə vardı, gül bağum xanı?
Yürəgümdür dağlu, ol mərhəm dağum xanı?

Və sabit olupdur ki, Fatimə atasınuŋ vəfatindən soŋra kimsə anı gülər görməyüpdür, bəlkə gecə-gündüz köŋül suzi ilən ağlar

[395] *Niyə torpağa düşübsən?*

[396] *Başıma elə müsibətlər gəldi ki,*
Gündüzün başına gəlsəydi, gecə olardı.

idi və ağlayışı ol qayətə yetmiş idi ki, Mədinənüŋ eli andan təngə gəlüb dedilər:

– Ey Mustəfanuŋ fərzəndi, gündüz ağla və gecə aram dut, ta biz daxi bir asayiş buləüz.

Fatimə andan soŋra gecələr şəhidlərüŋ qəbrləri üstinə varub, nə qədr ki taqəti var idi, ağlar idi.

Və İmam Cə`fəri-Sadiq (ə) demiş ki, dünyanuŋ ağlayanları **[110a]** beş tən idilər ki, hiç kimsə anlardan artuq ağlamayubdur: üç – peyğambərlərdən idilər və iki Əhli-Beytdən. Ənbiyalərdən əvvəl Adəmi-Səfiyüllah ki, uçmağuŋ fəraqindən ol qədr ağladı ki, yəŋağlarında iki arx peyda oldı. İkincisi Yə`qub idi ki, Yusifüŋ fəraqindən ol qədr ağladi ki, gözləri örtüldi. Üçünci Yusif ki, zindandə ol qədr ağladı ki, zindandakı anuŋ ağladüğindən fəğanə gəlüb Züleyxayə adəm saldılar ki, Yusif bizi öz halümizə qoymaz. Anuŋ içün bir yurt əlahiddə tərtib et ki, varsun və orada ağlasun və ağladüği üni zindanilərə yetməsün. Dördünci Əhli-Beytdən həzrət Fatimə idi ki, atasınuŋ fəraqindən ol qədr ağladı ki, Mədinənüŋ eli aŋa peyğam etdilər ki, ey Fatimə, "*Ləqəd azəytənə bi-bukayik*"[397], yə'ni bizi incidür sənüŋ ağladüğüŋ.

Pəs, andan soŋra həzrət Fatimə şəhidlərüŋ qəbri üsnə varub ağlar idi. Beşinci İmam Zeynəlabidin Əli bin əl-Hüseyn (ə) idi ki, Kərbəla vaqiəsindən soŋra qırq yıl ol müddətdə hərgiz yanına bir yemək gətürmədilər ki, ol qədr ağlamadı ki, ol yemək anuŋ gözi yaşından qərq olmadı. Və ol həzrətüŋ bir qulı var idi Müflih. Bir gün dedi:

– Ya İbn Rəsulullah, neçə ağlayasan, qorxaram ki, ağlamağdan həlak olasan.

Buyurdı kim, ey Müflih, neylim, hər qaçan ki Kərbəla hekayəti xatirümə gəlür ki, atam ilə qərdaşlarum və əmmüm ilə oğlanları və qəvm ilə şiələrümə nələr qıldılar və bir-birinüŋ gözi qarşusində **[110b]** nə hallar ilən şəhid etdilər, özümi ağlamağdan saxlayaməzəm. Və əgər köŋlümdəki qayğular qədərincə ağlayam, hiç kimsənüŋ eşitdügi taqəti qalmaya.

---

[397] *Bizi ağlamağınla incidirsən.*

Əmma rəvayətdür ki, iki ay yarum və bir qəvldə üç ay beş gün və bir rəvayətdə altı ay həzrət Peyğambərüŋ (s) vəfatindən soŋra Fatimə (ə.s) diri idi. Bir gün həzrət əmirül-mö'minin (ə) Fatimənüŋ hücrəsinə girdi, gördi ki, oturub unı yoğurdur və bir parə gil isladubdur kim, uşağlarınuŋ başları yuyub saçlarını darağlaya və yəraqdə idi ki, fərzəndlərinüŋ geyəsilərini yuya. Əmirül-mö'minin Əli (ə) ol haldan əcəbdə qaldı və heyrət üzərinə der idi:

– Ey aləmüŋ məxduməsi vey cəhanuŋ mə'suməsi, ey iki məzlumuŋ anası vey bir mə'sumuŋ novbavəsi, bu uzun müddətdə hərgiz görmədüm ki, bir gündə iki iş ögüŋa alasən. Əmma bu gün görərəm ki, üç işə məşğul olacəqsən. Bunda nə hikmət var?

Fatimə həman ki bu sözi eşitdi, mübarək gözlərindən yaşlar axıtdurub dedi:

– Ey *"həl əta"*[398] surəsinüŋ tacdarı vey *"la fəta"*[399] meydanınıŋ şəhsüvarı, ey *"səluni"*[400] minbərinüŋ xətibi vey *"ləv kusifə"*[401] məktəbinüŋ ədibi, ey həzrət Mustəfanuŋ sirdaşı vey şəriət meşəsinüŋ əslanı, ey Əbu Talib bustanınuŋ çiçəgi vey mö'minlərüŋ iki cəhandə istəgi.

Beyt:
Mehtərü behtəri-zəminü zəmən,
Mə'dəni-cövhəri-Hüseynü Həsən.

"Həza firaqun beyni və beynəkə"[402] – vüsaluŋ dəvləti tükəndi **[111a]** və fəraquŋ çağı gəldi.

Beyt:
Tükəndi vəsl əyyami, fəraquŋ çağıdur imdi,
Nişatü şadiliğ uçdi, qəmü ənduhliğ endi.

[398] *Quranın 76-cı surəsinin ilk ayəti.*
[399] *Yoxdur cavan.*
[400] *Soruşun.*
[401] *Aradan götürülsə...*
[402] *Bu artıq mənimlə sənin aranda ayrılıq vaxtıdır.*

Ya Əli, bu gecə atamı düşdə gördüm ki, bir ucə yerdə durub hər tərəfə baxar idi. Sağınurduŋ ki, bir kimsənüŋ intizarində idi. Mən həman ki ol həzrəti gördüm, fəryad çıxardum ki, ya əbətah, sən xandasən ki, fəraqüŋdə köŋlüm yanmış və gəvdəm ərilmiş. Dedi:

– Ey Fatimə, mən mundəəm və sənüŋ intizaruŋ çəkərəm. Ayrilig zəmanı həddən ötdi və sənüŋ şövqüŋdən taqətüm taq oldı. İmdi məcalıdur ki, cəsədüŋ qəfəsini sındurub, dünyanuŋ əlayiqindən köŋül götürüb, aşağə yerüŋ darlığından yuxaru aləmuŋ fəzasinə çadır tikəsən və mihnətlü dünyanuŋ zindanindən işrətlü cənnətüŋ bustaninə yüz qoyəsən. Tez gəl ki, sən gəlməyincə mən getmənəm.

Mən dedim:

– Ey ata, mən daxi sənüŋ didaruŋa çoq müştaqəm və gecə-gündüz istədügüm oldur ki, aŋa müşərrəf olayım.

Həzrət Peyğambər (s) buyurdı ki, tez ol ki, daŋlanuŋ gecəsi mənüm yanümdəsən. Mən bunları görincə düşdən oyandum və uçmağ aləminüŋ iştiyaqı məndə artdı. Və bilürəm ki, bu günüŋ əxşamı, ya gələn gecənüŋ əvvəlində gedəcəgəm. Əkmək anuŋ içün bişürdüm ki, daŋla sən mənüm yasümdə giriftar olursən, uşağlarum ac qalmayalar və anlaruŋ geyəsiləri yuyuram kim, bilməzəm kim, məndən soŋra anlaruŋ geyəsiləri kim yuyub, yetimlərimüŋ köŋülləri kim alacaqdur və saçlarını dararam ki, mə`lumum dəgül **[111b]** ki, məndən soŋra kim, anlaruŋ saçlarından toz ilə kir gidərəcəkdür.

Ey mö`min, yəxşicə bax: Fatimə (ə.s) rəva görməz idi ki, uşağlarınuŋ saçlarına bir toz qona. Aya, əgər baxə idi ki, ol günəşdən yeg yüzləri və ipardan qoxulu saçları toprağ ilə qanə bulaşubdur, necə anı təhəmmül eyləyəydi.

Nəzm:

Gər Hüseynüŋ yüzi toprağ ilə qanə bulaşuğ,
Kərbəladə görsə idi Fatimə ba-səd əna.
Ol qədr ağlar[403] *idi kim, ağlamağindən anuŋ*
Göglərüŋ sakinləri ağlaydılar əndər-məla.

[403] Əlyazmada: *ağla.*

Əmma çün həzrət əmirül-mö'minin Əli (ə) həzrət Fatimədən fəraq sözi dinlədi[404], həsrət yaşı gözlərindən axdurub dedi:

– Ey Fatimə, hənuz ataŋuŋ fəraq dügünündən qurtulməyübəm və ol həzrətüŋ vəfatindən könlumuŋ yarəsi sağalməyübdür. İmdi sənüŋ fəraquŋ çağı dağı gəldi.

Beyt:

Ataŋuŋ dağı könlümdə sənüŋ dağı dağ üstində,
Degil kim, [anca] diriləm iki dağuŋ arasində.

Fatimə buyurdı:

– Ey Əli, ol müsibətdə səbr etdüŋ, bu yasda daxi təhəmmül qalqanı ögünə dut. Bu gün məndən ayrılma ki, nəfəsüm sanamağə düşübdür və didar və'dəsi darül-qərarə yetübdür.

Munı der ikən şahzadələrüŋ donları təğarədə göz yaşı ilən yaşlardı və anlaruŋ mübarək rüxsarinə baxər idi və həsrət ahı dərdlü yürəgindən çəküb ənduh yaşı gözlərindən axub der idi:

– Noləydi kim, bilə idüm ki, məndən soŋra sizə nələr keçəcəkdür və işüŋiz soŋı nəyə yetəcəkdür?

İmam Həsən və İmam Hüseyn **[112a]** ananuŋ kəlamindən ağlamağə düşüb zarilik etdilər. Fatimə buyurdı:

– Ey ananuŋ cananı, bir saət Bəqi guristaninə varub anaŋız içün dua qıluŋ.

Anlar vardılar. Həzrət Fatimə bir döşəgə dayanub əmirülmö'minin Əliyə (ə) dedi:

– Otur kim, vida çağıdur.

Əli (ə) dedi:

– Ah və va həsrətah.

[*Beyt*]

Vidauŋ qılmaq, ey dilbər, çətindür, sanmagil asan,
Sağın kim, gəvdədən ayru düşər yüz mihnət ilən can.

[404] Əlyazmada: *diŋlədi.*

Pəs, həzrət əmirül-mö'minin Əli (ə) oturdı və həzrət Fatimə Əsma bint Ümeysi çağırub dedi:

– Bir yemək bişür ki, həman ki uşağlarum qayıdalar, bişmiş yemək durur ola. Çün gələlər, anları filan yerdə oturt və ögünlərinə yemək çəküŋiz, ta nuş eyləsünlər və qoyma ki, mənüm yanümə gəlüb məni bu hal ilə görələr.

Bir zəman mundan keçincə şahzadələr qayıtdılar və Əsma anlaruŋ qarşusinə varub ol məhəldə ki, Fatimə demiş idi, anları oturtdı və yemək ögünlərinə hazir etdi. İmamlar[405] dedilər:

– Ya Əsma, hərgiz gördügüŋ var ki, biz anasız yemək yedük? Bunuŋ nə mə'nisi var ki, bizi bir-birindən ayrursən?[406]

Əsma dedi ki, ananızuŋ bir məlaləti var və istəmənəm ki, bu halətdə siz anı görəsiz.

Dedilər:

– Ansız bizə yemək gərəkməz.

Dərhal qalxub hücrəyə girdilər, ananı gördilər döşəkdə yatur və həzrət əmirül-mö'minin Əli (ə) anuŋ başı üstində oturubdur. Çün Fatimə anları gördi, dedi:

– Ey Əli, **[112b]** bir saət anları atamuŋ rövzəsi üstinə göndər, ta Taŋrı-təala ilən münacatlar eyləyələr.

Əmirül-mö'minin Əli (ə) dedi:

– Ey atanuŋ cananı, bir ləhzə cəddi-büzürgvaruŋız ziyarətinə varuŋ ki, anaŋız sayrudur, ta ol bir saət asayiş dutsun.

Atasınuŋ buyurduği qəbul etdilər və rövzeyi-müqəddəsə varmağə yüz qoydılar. Pəs, Fatimə dedi:

– Ya Əli, bir saət oturub qərar dut və başümi ətəgüŋə al ki, həyatümdən azacuq qalupdur.

Beyt:

Can tapşururəm üştə əyağüŋdə, Xudara,
Bir ləhzə başüm üsnə otur, şahi sevərsən.

---

[405] Farsca orijinalda: *şahzadeqan* (*şahzadələr*).

[406] Əlyazmada: *ayrılursın.*

Həzrət əmirül-mö'minin Əli (ə) buyurdı:

– Ey Fatimə, bu sözləri eşitməgə taqətüm yoxdur.

Fatimə dedi:

– Ya Əli, bir yol ögümizdədür ki, naçar gərək-gərəkməz bu yolə getməliüz və köŋüldə bir qayğu qonubdur ki, əlbəttə, deməlüdür və fəraq şərbəti nakam ilən içməlü.

Pəs həzrət əmirül-mö'miniŋ Əli (ə) oturdı və həzrət Fatimənüŋ başını dizi üstinə aldı. Fatimə (ə.s) mübarək gözi yumdı. Bu halətdə əmirül-mö'miniŋ Əlinüŋ gözlərindən bir qətrə yaş axub həzrət Fatimənüŋ yəŋağinə damdı. Fatimə göz açub əmirül-mö'miniŋ Əliyi ağlayu gördi, dedi:

– Ey Əli, vəsiyyət çağıdur, nə tə`ziyət məcalı.

Həzrət əmir dedi:

– Ya xatunlaruŋ seyyidəti, nə vəsiyyətüŋ var?

Fatimə dedi:

– Dörd vəsiyyətüm var. Əvvəlki ol kim, əgər məndən bir təqsirlik vaqe olmış ola ki, andan bir məlal tozı xatirüŋdə qonmış ola, anı bağışlayub məni həlal eylə.

Həzrət əmir dedi:

– Həqqa ki, hərgiz səndən bir söz, ya bir fe`l zahir olmayubdur ki, mənüm köŋlümi incişmiş ola. Sən **[113a]** mənüm qəmxarum idüŋ, nə dilazarum və səni vəfalu bilmişəm, nə cəfalu. Və səni gül kimi görmişəm, nə tikən kimi. Daxi buyur.

Fatimə dedi:

– İkincisi vəsiyyət budur ki, mənüm uşağlarümi əziz dut və mənüm bağırparələrümnüŋ canibi əldən qoymə və şəfəqqət əli anlaruŋ başından götürmə. Və əgər anlardan bir güstaxlığ sadir olsun, öz kərəmüŋ ilən anı keçəgör. Üçünci vəsiyyət ol kim, məni gecədə qəbrə tapşur, ta əylə ki dirilikdə hiç kimsənüŋ gözi mənüm boyümi görmədi, öləndən soŋra tabutümi kimsə görməsün. Dördünci vəsiyyət bu kim, mənüm ziyarətümdən əyağ kəsməyəsiz ki, mən sənüŋ ilən ögrənmişdüm və gecə-gündüz sənüŋ ilən dirilmiş idüm. İmdi naçar və nakam səndən ayruluram.

Həzrət əmirül-mö'minin çün bu sözləri eşitdi, yürəgindən fəğanlar çıxdı və zarilik ilən dedi:

– Bu vəsiyyətləri qəbul etdüm və can-baş ilən yerinə yetürəyim. Sən daxi mənüm vəsiyyətümi eşit.

Fatimə dedi:

– Buyur.

Həzrət əmir dedi:

– Əvvəl ol kim, əgər xidmətüŋdə bir təqsirlik vaqe olmış ola, anı əfv et. İkinci ol kim, çün həzrət Rəsulullahə yetəsən, mənüm səlamümi ol həzrətə yetürəsən. Üçünci ol kim, məndən saru bir şikayət ol həzrətə yetürməyəsən.

Fatimə dedi:

– Həqqa ki, hərgiz səndən bir nəstə görməmişəm və bir söz eşitməmişəm ki, şikayət səbəbi ola, bəlkə qamu mürüvvət və yəxşi sözlər və iyi fe'llər səndən görüb eşitmişəm[407].

Anlar bu sözdə idilər ki, bir nagahdə qapudən bir çığırmağ **[113b]** üni gəldi və bir ah ilə əfğan səsi çıqdı. Gördilər İmam Həsən ilə İmam Hüseyn idilər ki, der idilər:

– Ey ata, hücrənüŋ qapusini aç, ta anamızuŋ soŋ didarını görüb vidain qıləüz.

Əmirül-mö'minin Əli qalxub qapuyi açdı və şahzadələri qucağlayub çox nəvazişlər etdi və anlarə dedi:

– Ey atanuŋ canları, siz necə bildiŋiz ki, anaŋız dünyadən köçəcəkdür?

Dedilər:

– Ey mehriban ata, sən buyurduŋ ki, büzürgvar cəddüŋiz rövzəsi üstinə varun. Həman ki orayə yaxınlaşdük, bir avaz qulağümizə yetdi ki, budur İbrahim Xəlil der: Fatimeyi-Zəhranuŋ yetimləri gəldilər. Budur İsmaili-zəbih der: Qiyamət şəfaətciləri gəldilər. Budur Muhəmməd Rəsulullah (ə) der: Mənüm bağırparələrüm gəldilər. Çün rövzəyə yetdük, səlam verdük, həzrət Rəsulullahuŋ rövzəsindən cəvab gəldi: Ey mənüm fərzəndlərüm vey gözlərümnüŋ aydınlı-

[407] Əlyazmada: *eşitməmişəm.*

ğı, qayıdınız, ta anaŋızuŋ soŋ didarını baxəsiz ki, biz sizüŋ anaŋızuŋ qarşulamağə gəlübüz.

Biz həman anı eşitdük, qayıtdük. Pəs özlərini ol evəyə saldılar ki, həzrət Fatimə anda yatmış idi. Dərhal əlinə və əyağinə düşüb ağnar idilər və yüz miŋ zarilik ilən ağlayub der idilər:

– Ey ana, mübarək gözüŋi aç və bizim ilə bir söyləş və öz yetimlərüŋi bir sözcuğaz ilən xürrəm et və kəlamüŋdən möhtərəm et.

Beyt:

Bir nəzər sal ki, hicrüŋ yürəgüm qan etdi,

[114a] *Söylə bir söz ki, fəraquŋ məni bican etdi*.

Çün anlaruŋ səsi Fatimənüŋ qulağına yetdi, qolın açub, anları qucağlayub dedi:

– Ey ananuŋ cananı vey ananuŋ məzlumları, bilmənəm ki, məndən soŋra sizüŋ halüŋiz nərəyə yetəcəkdür və düşmənlərüŋ əllərindən nə cəfalar görəcəksiz?

Qızlarını daxi çağırub qərdaşlarına tapşurdı və qamusı Murtəza Əliyə ismarladı.

Və bir rəvayətdə daxi var ki, İmam Həsəni və İmam Hüseyni (ə.m) bir daxi rövzeyi-Peyğambərə göndərdi və Ümmü Sələməyə dedi:

– Mənüm içün bir su hazir et, ta bir qüsl edəyim.

Ümmü Sələmə der, suyi hazir etdüm və həzrət Fatimə bir qüsl qıldı ki, mən ömrümdə hərgiz görmədüm ki, bir kimsə ancılayın qüsl eyləmiş ola.

Soŋra dedi:

– Mənüm təharətlü geyəsülərüm gətür.

Hazir etdüm, varı geydi.

Bəs dedi:

– Mənüm döşəgümi evüŋ ortasına sal.

Əylə eylədüm.

Ol həzrət gəlüb orada sağ qolı üsnə yatdı və mübarək əli sağ yəŋağınuŋ altına qoydı. Pəs, Əsma bint Ümeysi çağırub dedi:

– Ey Əsma, atamuŋ sayrulığ çağında bir gün Cəbrail gəldi və bir parə uçmağuŋ kafuri kəfəni içün gətürdi və atam anı üç bəxş etdi: birisi özi götürdi və iki ülüş maŋa verüb dedi:

– Birisi sənüŋ olsun və birisi əmirül-mö'mininüŋ. Ey Əsma, ol kafuri filan yerdə qoyubəm, qırq misqaldur. Mənüm ülüşüm götür və anuŋ ilən məni **[114b]** qüsl eylə və igirmi misqal ki, əmirül-mö'mininüŋdür, bir yerdə saxla.

Əsma buyurduğinə əməl etdi. Daxi dedi:

– Ey Əsma, dışxarı çıx və məni yalğuz qoy, ta öz Taŋrım ilən münacat edəyim.

Əsma çıxub bir saət durdı. Nagah Fatimənüŋ ağlamağ səsin eşitdi. İçərü girdi, gördi kim, Fatimə ağlar və Qaziyülhacat ilən münacat eylər. Əsma der, qulağ asdum, eşitdüm ki, der idi:

– Ey Taŋrı, atamuŋ hörməti içün anuŋ müştaqliği həqqi içün və Əliyyi-Murtəzanuŋ yürək ağrısı həqqi içün ki, mənüm fəraqümdə zar-zar ağlar və İmam Həsən ilən İmam Hüseynüŋ köŋül odı həqqi içün ki, mənüm yasümi dutacaqdurlar və yetişməmiş qızlarumnuŋ zarliği həqqi içün ki, mənüm müsibətümdə qərarsız olacaqdurlar ki, atamuŋ ümmətlərinə rəhmət qıl və asilərüŋ günahlarını əfv et.

Bu məhəldə Əsma ağlamağə düşdi. Fatimə baxdı. Əsmayı gördi, dedi:

– Saŋa demədüm ki, bir saət məni yalğuz qoy və dışxarı çıx və müntəzir ol və bir saətdən soŋra məni çağır. Əgər cəvab verdüm, xub, yoxsa mə'lum et ki, Pərvərdigarum yanına varmışam və büzürgvar atamə vasil olubəm.

Əsma dışxarı çıxdı və bir saət qatlanub pəs dedi:

– Ya qürrətül-eyni-Rəsulullah .

Hiç cəvab eşitmədi. Daxi dedi:

– Ya Seyyidətün-nisa, ya bintül-Mustəfa.

Cəvab gəlmədi. İçərü girüb mübarək yüzindən örtüldügi götürdi. Gördi kim, əna hücrəsindən və fəna külbəsindən liqa hicləsinə **[115a]** və bəqa rövzəsinə nəql eyləyübdür. Əsma əyağdən düşüb, yüzini anuŋ mübarək əyağinə sürtüb dedi:

– Ey Peyğambərüŋ qızı, çün həzrət Rəsulullahə yetəsən, mənüm səlam ilən niyazümi ərz et.

Bu məcaldə İmam Həsən və İmam Hüseyn (ə.m) qapudən içərü girdilər və sordılar:

– Əsma, anamız necədür?

Əsmanuŋ taqəti qalmadı, əl urub başından miqnəəsi götürüb yerə urdı. Şahzadələr anuŋ etdügindən hekayəti mə`lum edüb ağlayə-ağlayə məscidə vardılar. Həzrət əmirül-mö'minin səhabələri ilən oturmış idilər. Çün oğlanlarınuŋ ağlamağ ünin eşitdi, bildi kim, anasınuŋ getdüginə ağlarlar. Murtəza Əli əleyhissəlamuŋ ussı getdi. Əshab su gətürüb yüzinə səpdilər, ta özinə gəlüb, uşağlarınuŋ qarşusinə varub sordılar:

– Ey şahzadələr, sizə nə oldı və nişün ağlarsız?

Dedilər:

– Necə ağlamayalım, imdicə Zəhranuŋ əziz canı və Bətuli-Əzranuŋ gəvdəsi mihmanı şərif bədənindən *"vallahu yəd'u ila daris-səlam"*[408] evinə meyl eyləyüb, büzürgvar ruhi *"ərci` ila Rəbbikə"*[409] cazibəsi ilən *"kulli nəfsin zaiqətəl-movti"*[410] şahrahindən əla əliyyinə seyyidül-mürsəlin həzrətinə vardı.

***Misra**:*

Dustə vardı dust, yarə vardı yar.

Büzürgvar şiələr bu haldan vaqif olub çox ağlaşdılar və həzrət Peyğambərüŋ (s) yasın yeŋidən dutdılar. Və həzrət əmirül-mö'minin Əlinüŋ (ə) Fatimənüŋ **[115b]** mərsiyəsində beytlər var və anlardan ikisi budur:

Li kullu ictimain min xəlileyni firqətun[411].

İki dustuŋ aralarında hər vüsaluŋ bir fəraqı ardındadur.

---

[408] *Allah istədiyini əmin-amanlıq yurduna – cənnətə dəvət edər.* (Quran, 10: 25)

[409] *Ağanın yanına qayıt*. (Quran, 12: 50)

[410] *Bütün canlılar ölümü dadacaq.* (Quran, 21: 35)

[411] *Hər iki dostun arasında ayrılıq vardır*.

Misra:
Və kullul-bəlai dunəl-firaqi qəlilu[412].

Və nə qədr ki bəlalar çoxdur, fəraq anlardan artuxdur.

Və inə iftiqadi Fatimətə bə`də Əhmədin[413].

Və itürdügüm Fatiməni Peyğambərüŋ hicrətindən soŋra.

Dəlilun əla ənla-yədumu-xəlilu[414].

Dəlalət eylər ki, yə`ni hiç dustluğ aləmdə daimi dəgül.

Pəs, mə`lum oldı ki, söhbətüŋ qaidəsi Qiyamətədək qalmaz, bəlkə qəddar ruzigaruŋ adətidür ki, fəraq qılıcı ilən məhəbbət ipin üzüldürür və neçə kimsələri kimsələrdən irağ edər və ayrilik dügüni eski dustlaruŋ bağrına qoyar.

Beyt:
Mundən özgə yox fələknüŋ işi hiç,
Kim, salur xəlqüŋ işinə tabü piç.

Və Əhli-Beytüŋ rəvayətindən ol həzrətüŋ vəfatı rəməzan ayınuŋ üçində on bir yıl hicrətdən imiş və rövzədə yatur.

[412] *Bütün bəlalar [dost] ayrılığının yanında çox azdır.*

[413] *Fatiməni Əhməddən (s) sonra itirməyin.*

[414] *Dostun bu dünyada daimi olmamasına bir dəlildir.*

BEŞİNCİ BAB

Həzrət əmirül-mö'minin Əlinüŋ hekayəti (ə): doğduğindən şəhadətinədək

"Şəvahidün-nübüvvə" kitabından rəvayətdür ki, əmirül-mö'minin Əli əvvəlki imamdur on iki imamdan. Və ol həzrətüŋ fəzayili və kəmalatı andan artuqdur ki, dil təqriri və qələm təhriri ilən anlardan bir şəmməcük bəyan etmək olur. Və hiç səhabədən ol qədr fəzl və kəmalat zahir olmayubdur ki, ol həzrətdən. Doğduği Məkkədə filüŋ yılından otuz yıl soŋra cümə güni rəcəb ayınıŋ on üçində. Və Şeyx **[116a]** Müfid (r) rəvayət eyləyübdür ki, Yəməndə bir kişi var idi, gecə-gündüz ibadət mehrabinə yüz götürüb, təqva və təharət mədədi ilən dəni dünyayə arxa verüb, fani aləmüŋ mətainə məğrur olmayub. Adı Müsrim bin Vəib və Yəmənlü Zahid ilən məşhur olmış idi və yüz doqsan yaşlu qocə idi. Bir qatla münacatda söylər idi: İlahi, möhtərəm hərəmüŋdən bir kimsə maŋa görsət. Anuŋ oxı duası icabət butəsinə yetüb, Əbu Talib ki, Yəmənüŋ səfərinə varmış idi, anuŋ ziyarətinə vardı. Müsrim çün anı gördi, çox tə'zimlər edüb öz yanında oturtdı. Andan soŋra sordı:

– Sən kimsən və qandan gəlübsən?

Əbu Talib dedi:

– Təhamədən bir kişiəm.

Müsrim dedi:

– Hanğı Təhamədən?

Dedi:

– Məkkədən.

Dedi:

– Hanğı qəbilədən?

Dedi:

– Haşim bin Əbd Mənafdən.

Zahid çün munı eşitdi, bir qatla daxi əyağə qalxub, Əbu Talibüŋ başı və yüzi öpüp dedi:

– Əlhəmdülillah ki, mənüm duamı Taŋrı-təala rədd eyləməyüb müstəcab oldı və maŋa ölüm vermədi, ta hərəmi-şəriətdən bir mücavir maŋa görsətdi.

Pəs dedi:

– Sənüŋ aduŋ nədür?

Dedi:

– Əbu Talib.

Dedi:

– Atanuŋ adı nə idi?

Dedi:

– Əbdülmüttəlib.

Zahid buyurdı kim, oxumışam ki, Əbdülmüttəlibüŋ iki nəvəsi var ola: birisi Taŋrınuŋ Peyğambəri və anuŋ atası Əbdullah ola. Çün ol Peyğambər otuz yaşına yetə, Taŋrınuŋ vəliyyi anadan doğəcəkdür. Ya Əbu Talib, ol peyğambər vücudə gəlübmidür?

Dedi:

– Bəli, Muhəmməd doğubdur. İmdi igirmi doquz **[116b]** yaşındadur.

Daxi dedi:

– Ey Əbu Talib, bəşarət olsun saŋa ki, bu yıl sənüŋ sülbüŋdən bir fərzənd zühurə gələcəkdür ki, müttəqilərüŋ imamı və mö'minlərüŋ pişvası oləcəqdür. Ey Əbu Talib, çün Məkkəyə varasan, ol qərdaşuŋ oğlına söylə ki, Müsrim çox-çox səlam və niyazməndilik yetürür. Və çün sənüŋ oğluŋ dünya yüzinə gələ, aŋa daxi həm məndən səlam yetürüb söylə kim, ol qocə kişi sənüŋ dust və həvadaruŋ idi. Və bəylə dedi ki, sən peyğambərüŋ vəsiyyisən. Ol nəbiyə peyğambərlik tükənsün və səndən vilayət aşkar olsun və ol nəbinüŋ xatəmi ola və sən vilayətüŋ əvvəli olasən. Əbu Talib dedi:

– Ya Müsrim, ol nəstədən ki, söylərsən, necəlik ilən mə'lum olur? Məgər bir dəlil maŋa görsədəsən?

Müsrim dedi:

– Nə istərsən, ta mən Taŋrıdan istəyim, ta icabət eyləyüb, zahir qılsun. Və həm bu yerdə saŋa görsətsün.

Əbu Talib baxdı, bu quru ənar ağacı gördi kim, ol məğarənüŋ eşigində durur. Dedi:

– İstərəm ki, bir quru ağacdan bir tazə ənar verəsən.

Müsrim filhal duayə əl götürüb dedi:

– İlahi, əgər ol nəstələrdən ki, sənüŋ Peyğambərüŋ vəsiyyisi ilən sirlərindən dedim isə, gərcəkdür, bizə bu quru ağacdan tazə ənar ver.

Taŋrınuŋ qüdrəti ilə ol ağac gögərüb, yaprağı ilən çiçəgi zahir oldı və iki lətif ənar bağlandı və həm saətdə yetişdi. Zahid ol ənarları derüb Əbu Talibüŋ öginə qoydı. Əbu Talib anı kəsüb gördi kim, lə'li-rümmani[415] kimi danələri içində var. **[117a]** anlardan neçə danələri nuş etdi. Ol danələrüŋ rəngi[416] sülbində nütfəyə dutub, həzrət əmirül-mö'minin Əlinüŋ yüzi bəŋzi andan idi.

Əlqissə, Əbu Talib xürrəm və xəndan ol məclisdən çıxdı. Çün Məkkəyə yetüb həzrət əmirül-mö'minüŋ nütfəsi atası sülbindən Fatimə bint Əsədə ki, anası idi, nəql etdi. Çün doquz ay, doquz gün mundan keçdi, Fatimə rəvayət eylər ki, hərəmüŋ təvafində idim ki, doğmağ ağrığı məndə peyda oldı. Dördünci təvafdə həzrət Rəsulullah[417] (ə) məni gördi, dedi:

– Ey ana, saŋa nə olubdur ki, bəŋzüŋ mütəğəyyir olmış?

Qissənüŋ halını və keyfiyyətini ol həzrətüŋ ərzinə yetürdüm. Dedi:

– Ey Fatimə, təvafı təmam etdüŋ?

Dedim:

– Yox.

Dedi:

– Təvafuŋ tükət və əgər ağrığuŋ arta, hərəmüŋ içinə gir ki, Taŋrınuŋ sitridür.

---

[415] Əlyazmada: *lə'li-zəmani*.

[416] Əlyazmada: *rəngini.*

[417] Əlyazmada: *Rəsulullahı*.

Və "Bəşairül-Mustəfa" kitabından rəvayətdür ki, bir kişi dedi: "Mən Əbbas bin Əbdülmüttəlib və neçə adəm Bəni İzzi oymağından ilən hərəmüŋ evində oturmış idük. Fatimə bint Əsəd məscidə gəldi və təvafə məşğul oldı. Bu halətdə doğmağ əsəri andan zahir oldı və çıxmaq məcalı bulmadı". Dedi: "Ey bu eviŋ[418] Taŋrısı, bu hərəmüŋ hörmətiçün ki, bu ağrığı maŋa asan et".

Ravi der: "Gördüm ki, filhal hərəmüŋ divarı yarıldı və Fatimə içərü girüb xəlayiqüŋ gözindən qayib oldı və biz istərdük ki, girəüz, müyəssər olmadı. Dördünci gün çıxdı və həzrət əmirül-mö'minin Əliyi əli üstində".

Və rəvayətdür ki, Əlidən ilərü və **[117b]** Əlidən soŋra hiç kimsənüŋ bu şərəf ilə mərtəbəsi yox imiş ki, hərəmüŋ içində doğmış ola və bu mə`nidə deyübdürlər.

***Beyt*:**
Vələdəthu fil-hərəmil-muəzzəm və əminihi,
Tabət və tabə vəliduha vəl-məvalid[419].

Əmma çün Fatimə bint Əsəd əmirül-mö'minin Əli ilən hərəmdən çıxdı, anı evinə gətürüb beşigə bağladı. Əbu Talib türkən gəldi ki, oğlınuŋ yüzini beşikdə görə. Həzrət Əli (ə) bağırdağdan əl çıqarub, atasınuŋ əlini dutub qoymadı ki, aŋa əl yetürə və yüzini qaşıdı.

Və bir rəvayətdə daxi var ki, Fatimə istərdi ki, əmcəgin anuŋ ağzına qoyub əmzürə, qoymadı və anasınuŋ yüzini qaşıdı. Əbu Talib dedi:

– Ey Fatimə, bu oğlına nə ad qoyalım ki, munuŋ əli ayası əslanuŋ ayasına bənzər.

Fatimə dedi:

– Munuŋ adı atamuŋ adı – Əsəd qoyacagəm.

Əbu Talib dedi:

---

[418] Əlyazmada: *eviniŋ.*

[419] *O, Allahın əzəmətli evində (Kəbədə) dünyaya gəldi,*
Pak idi, pak doğuldu və doğulduğu yer də pak idi. Beyt Seyid İsmayıl Himyərinindir (723-795).

– Mən munuŋ adı Zeyd qoydum ki, Qüssinüŋ adaşlusi ola ki, bitün Qüreyş oymağlarınuŋ bəgi idi.

Pəs Fatimə anuŋ əllərini bağlayub özgə işə məşğul oldı. Çün yəxşicə baxdı, gördi kim, beşiginüŋ bağırdağı üzülüb, əllərin daxi açubdur.

Əmma çün həzrət əmirül-mö'minün doğduği xəbəri həzrət Rəsulullahə (ə) yetdi, sordı kim, aŋa nə ad qoyubdurlar? Dedilər ki, Əbu Talib Zeyd dedi və anası Əsəd qoydı.

Dedi:

– Anuŋ adı Əliyyi-ə'la qoymaq gərək.

Fatimə çün bu söz eşitdi, dedi:

– Taŋrı **[118a]** həqqiçün ki, mən bir hatifdən eşitdüm ki, munuŋ adını Əli qoyuŋ, əmma gizlər idüm.

Pəs, həzrət Rəsulullah (ə) Əbu Talibüŋ evinə gəlüb beşigüŋ yanına vardı.

Fatimə dedi:

– Ey oğul, ehtiyat ilən beşigüŋ yanına var ki, bu uşağ əslan sifətlüdür: atasınuŋ yüzi və anasınuŋ yəŋağı qaşıtdı. Olmaya kim, saŋa daxi bu əməl zahir eyləyə.

Peyğambər (ə) dedi:

– Ey Əlinüŋ anası, mənüm ilən hərgiz bu əməl zahir etməyəcəkdür.

Pəs beşigə yaxınlaşub əmirül-mö'minin Əlinüŋ yüzinə baxdı. Əli uyxudə idi. Çün Peyğambərüŋ saçı qoxusi həzrət əmirül-mö'minin Əlinüŋ burnına dəgdi, oyanub nəzəri həzrət Peyğambərüŋ cəmalınə düşdi, anuŋ yüzinə baxdı, hal dili ilən bu məzmun oxudı.

Beyt:

Çünki gördi gözlərüm ol nazəninüŋ yüzini,
Xürrəm olub bir yan etdüm köŋlümüŋ ənduhini.

Ol həzrət anı beşikdən çıxarub qucağladı və yüzini anuŋ yüzinə və dilini anuŋ ağzına qoyub, həzrət əmirül-mö'minin çox zəman ol həzrətüŋ dilini əmər etdi və ol ağızuŋ lüabı rəşhəsindən ki, "*Və ma*

yəntiqu ənil-həva"[420] bulağınuŋ sərçeşməsi idi, "*şərbəti həza luʾabu Rəsulullah fi fəmi"*[421] dadar idi. Və uslular deyübdürlər ki, həzrət əmirülmöʾminin qoymadı ki, Əbu Talib anı götürə. Hikməti bu idi ki, istərdi ki, əvvəl kimsənüŋ əli kim, aŋa yetə, həzrət Risalətüŋ əli ola. Və ol ki, anasınuŋ əmcəgini almayub, sütini əmmədi, ol idi **[118b]** ki, əvvəl qatla bir nəstə ki anuŋ boğazına girə, iki cəhanuŋ sərçeşməsi həyatı suyi ola.

Beyt:
Bir müfərrih xəstələrnüŋ ağzinə yetürəgör,
Ol səadət kimyasindən ki, ağzindədürür.

Bəs, həzrət Rəsulullah teşt və aftabəni diləyüb, həzrət əmirülmö`minin anuŋ içində oturdurub öz mübarək əli ilən anı yuyar idi. Həman ki, sağ qolı[422] yuyuldı, həzrət əmirül-möʾminin Əli teşt içində çəvrildi. Həzrət Rəsulullah çün bu halı baxdı, ağlamağə düşdi. Fatimə bint Əsəd dedi:

– Ey oğul, nişün ağlarsan?

Həzrət seyyid dedi:

– Bəylə görərəm ki, bu oğlan əcəlüm yetdügi çağ məni qüsl edəcəkdür.

Və bəylə idi ki, ol məhəldə ki, həzrət Peyğambər (ə) ğürur evindən sürur aləminə vardı, həzrət əmirül-möʾminin Əli ol həzrəti (ə) qüsl etdi. Və bəylə gözükür idi ki, ol həzrətüŋ mübarək cəsədi yuyanda əldən ələ çəvirür idi.

Və "Bəşair" kitabında yazıludur ki, ol həzrət əmirül-möʾminini tərbiyət eylər idi və daim andan xəbər alur idi. Və ol həzrətüŋ qucağında pərvəriş tapdı. Və çün beş yaşına yetdi, ol vəqt Məkkədə bir qəht və qızlıq düşdi və xəlayiq qatılığ ilən məaş keçürür idilər. Və Əbu Talib uşağlar iyəsi idi. Bir gün həzrət Rəsulullah (ə) əmmüsinə – Əbbasə dedi ki, sən baysən və qərdaşuŋ Əbu Talib yoxsuldur və əya-

[420] *O meylinə (arzusuna) görə bir şey söyləməz*. (Quran, 53: 3)

[421] *Ağzımdakı Allahın elçisinin ağzının suyudur.*

[422] Əlyazmada: *qolını*.

li çox və bitün xəlayiq qızlığda giriftar. Gəl gedəlim və hərəmiz anuŋ uşağlarından birisini götürəüz, ta yüki yüŋül olub, **[119a]** çox zəhmət çəkməsün. Əbbas qəbul edüb, həzrət Rəsulullah ilən Əbu Talibüŋ evinə vardılar və gəŋəşini Əbu Talibə dedilər. Əbu Talib dedi:

– Oğlanlarümdən Əqili maŋa qoyuŋ, qalanı siz bilürsiz.

Bəs, həzrət Risalətpənah əmirül-mö'minini qəbul etdi və Əbbas Cə'fəri götürdi. Və Murtəza Əli (ə) Peyğambərüŋ qulluğində olur idi, ta ol çağ ki həzrət Rəsulullahə vəhy gəldi, aŋa iman gətürdi və həm ol həzrətüŋ xidmətində qiyam eylər idi, ta ol vəqt ki həzrət Fatimeyi-Zəhranı aŋa verdi və anlar içün bir xass hücrə tərtib etdi.

Əmma əmirül-mö'minin Əlinüŋ künyəti Əbül-Həsən və Əbu Turab idi və əmirül-mö'mininə Əbu Turab[423] xoşraq gəlür idi və bu künyət içün neçə qəvl vardur. "Şəvahid" kitabından rəvayətdür ki, bir gün həzrət Rəsulullah Fatimənüŋ evinə gəldi, Əlini görmədi. Fatimədən sordı kim, əmmüŋ oğlı xandadur?

Dedi:

– Ya Rəsulullah, aramızda bir xatirmandəlik vaqe olubdur. Məndən küsüb dışxarı vardı.

Rəsulullah (ə) bir kişi saldı kim, görə ki, ol nərəyə varubdur. Ol kişi qayıdub dedi:

– Ya nəbi, məsciddə uyuyubdur.

Rəsulullah (ə) oraya varub gördi kim, yatur və çignindən ridası irağ düşüb, çignini toprağə bulaşubdur. Rəsulullah (ə) ol toprağı mübarək əli ilən gidərüb dedi:

– "*Qum, ya Əba Turab*"[424] .

Və "Rövzətül-əhbab"də rəvayətdür ki, ikinci yıl hicrətdən Züləşirə ğəzasindən **[119b]** Peyğambər həzrət Əliyə (ə) aŋa Əbu Turab künyət qoydı. Və Əmmar bin Yasir der: Əşirə ğəzasində Əli ilən mən bir xurma ağacınuŋ dibində yatmış idük bir qumlu yerdə. Həzrət Rəsulullah başümiz üstinə gəldi və bizi oyatdurub Əliyə dedi:

– *"Qum, ya Əba Turab".*

---

[423] Əlyazmada: *Əbu Turabı.*

[424] *Qalx, ey Əbu Turab (Torpağın atası).*

Andan soŋra dedi:

– Ya Əba Turab, saŋa xəbər verəyim ki, adəmüŋ bədbəxti kimdür?

Əmirül-mö′minin Əli dedi:

– Bəli, ya Rəsulullah.

Həzrət Rəsulullah dedi:

– Adəmüŋ bədbəxti iki kimsədürlər: biri ol kim, Saleh peyğambərüŋ devəsini siŋirlədi və biri ol kim, sənüŋ yüzüŋ ilən mübarək səqqalunı qan ilən boyada.

Munı der idi və əli anuŋ yüzinə və səqqalinə çəkər idi.

Və bir künyəti daxi Əbər-Reyhaneyndür. Cabir Ənsaridən nəqldür ki, eşitdüm həzrət Rəsulullahdan (ə) vəfatindən üç gün ilərü ki Əliyə dedi:

– Ya Əbər-Reyhaneyn, vəsiyyət eylərəm saŋa mənüm iki reyhanümi: biri İmam Həsən və biri İmam Hüseyn ki, anları yəxşicə saxlayəsən. Və yaxın oldı ki, sənüŋ iki rüknüŋ ufatduralar.

Çün həzrət Rəsulullah (ə) vəfat oldı, həzrət Murtəza Əli dedi: "*Həza əhədu rukni*"[425] – mənüm bu, bir rüknüm idi ki, ufandı və Fatimədən soŋra dedi: "*Həza ruknus-sani*"[426] – bu, ikinci rükn idi ki, ufandı.

Və rəvayətdür ki, həzrət Əlidən ki, [buyurmuş]: Mən çox mihnətləri gördüm və məşəqqətləri çəkdüm və qatırak zəhmətlər **[120a]** ki, maŋa yetdi, üç nəstə idi. Birisi – Seyyidi-kainatuŋ (ə) vəfatı ki, çün ol həzrət dünyadən rihlət eylədi, mənüm belüm ufandı və yürəgüm yanub, gözlərüm həsrətdən ol qədr ağladı ki, şərhin etmək olmaz.

Nəzm:

Neylim, ey mehribanlar, qalmışam biyar mən,
Ruzigaruŋ qüssəsindən olmışam əfgar mən.
Mustəfa çün qayib oldı iki gözlərdən mənüm,
Qalmışam məhzunü heyran qayğulərdən zar mən.

İkincisi – həzrət Fatimənüŋ vəfatı ki, qəmlü könlümüŋ şikvəti və can ilə yürəgümüŋ qüvvəti və ruzigarum ənisi və hər işdə mənüm

[425] *Bu, birinci rükndür (sütundur).*

[426] *Bu, ikinci rükndür (sütundur).*

cəlisim[427] idi. Anuŋ fövtində Mustəfanuŋ müsibəti yarəsi tazələndi və fəraq dağınuŋ üstində bəla dağı qoyuldı. Üçünci – mənüm cigərguşəmnüŋ şəhadət xəbəri kim, maŋa eşitdürdilər.

"Şəvahid" kitabından rəvayətdür ki, həzrət əmirül-mö'minin Əli (ə) səfərlərdən Kərbəla səhrasinə yetdi və ağlayə-ağlayə andan keçdi, pəs dedi:

– Vallah, bu yer o yerdür ki, devələri yatdururlar və anlaruŋ şəhidliğ mənzili olacaqdur.

Əshab sordılar:

– Bu, nə yerdür?

Buyurdı kim, Kərbəla səhrasidür. Burada bir qəvmi şəhid eyləyələr ki, hesabsız uçmağə girələr.

Və daxi hiç nəstə demədi və andan ötdi, ta ol gün ki İmam Hüseynüŋ vaqiəsi vaqe oldı.

İmam Murtəza Əlinüŋ (ə) əlqabı çoxdur: biri – Əmirün-Nəhl və biri – Beyzətül-bələd və biri – Yə'subüddin və biri Kərrari-qeyri-fərrar və biri – Əsədullah əl-Ğalib.

Və həzrət Rəsulullah **[120b]** ol həzrəti çox sevər idi.

Və rəvayətdür ki, [həzrət Rəsulullah] bir gün İmam Həsən ilə İmam Hüseynüŋ əllərini dutub dedi:

– Hər kim məni sevər, bu iki fərzənd ilə atası və[428] anası sevsün ki, Qiyamət güni mənüm mərtəbəmnüŋ hesabindədür.

Və "Firdövsül-əxbar"də nəqldür Müaz[429] bin Cəbəldən ki, Əli məhəbbəti bir həsənədür ki, hiç seyyiə aŋa zərər eyləməz və Əlinüŋ düşmənliği bir seyyiədür ki, hiç həsənə aŋa nəf` yetürməz.

Və rəvayətdür ki, bir gün həzrət Rəsulullah (ə) oturmış idi. Həzrət əmirül-mö'minin Əli (ə) gəldi. Ol həzrət anı qucağlayub gözlərinüŋ ortasını öpdi. Əbbas bin Əbdülmüttəlib anda hazir idi, dedi:

– Ya Rəsulullah, munı sevərsən?

Dedi:

---

[427] Əlyazmada: *cəlisi.*

[428] Əlyazmada bu sözdən sonra *həzrət* də yazılıb.

[429] Əlyazmada: *Müad.*

– Ey əmm, nə'əm, munı sevərəm və çox sevərəm və bilmənəm ki, hiç kimsə munı məndən artuğ sevmiş ola. Allah-təala varı peyğambərlərüŋ zürriyəti anuŋ sülbində qoyubdur və mənüm zürriyətüm Əlinüŋ sülbində vədiət qoymış.

Və Səlmandan sordılar:

– Nə çox sevərsən?

– Əliyi, – dedi. Mən həzrət Rəsulullahdən (s) eşitmişəm ki, hər kim Əliyi sevər, məni sevübdür və hər kim Əliyə düşməndür, mənüm düşmənümdür.

Və həzrət Risalət anuŋ həqqində buyurubdur:

– Ey Taŋrı, sən sevgil hər kim Əliyi sevər və düşmən dut hər kim Əliyi düşmən dutar.

"Şəvahid" kitabından rəvayətdür ki, bir saleh kişi bu ümmətdən dedi:

– Bir gecə Qiyaməti qopmış düşdə gördüm və qamu xəlayiqi Məhşərdə hesab içün durubdurlar. Siratə yaxın oldum və **[121a]** andan daxi ötdüm. Nagah gördüm ki, Rəsulullah (ə) Kövsər həvzinüŋ qırağında durur və İmam Həsən ilən İmam Hüseyn (ə.m) xəlqə su verürlər. Anlaruŋ yanına varub su istədim, vermədilər. Həzrət Rəsulullahuŋ yanına vardum, dedüm:

– Ya Rəsulullah, buyur kim, maŋa su versünlər,

Rəsulullah (ə) dedi kim, su saŋa verməyəcəkdürlər.

Dedim:

– Ya Rəsulullah, nişün?

Dedi:

– Anuŋ içün ki, sənüŋ qonşuŋda bir kimsə Əliyə məzəmmət eylər və anuŋ düşmənidür və sən aŋa mən` eyləməzsən.

Dedim:

– Ya Rəsulullah, qorxaram ki, maŋa qəsd eyləyə və mənüm ol qədr gücüm yoxdur ki, anı mən` edə biləm.

Həzrət Rəsulullah bir yalın bıçaq maŋa verdi ki, var anı öldür. Mən düşdə anı öldürdüm və qayıtdum. Rəsulullahuŋ yanına varub dedim:

– Ya Rəsulullah, anı öldürdüm.

Pəs Peyğambər dedi:

– Ey İmam Həsən, muŋa su ver.

İmam Həsən (ə) maŋa su verdi və mən ol həzrətüŋ əlindən su aldum və bilmədüm ki, içdüm, ya içmədüm. Dərhal uyxudən oyandum qorxulu-qorxulu. Pəs təharəti aldum və nəmazə məşğul oldum, ta ol saət ki, sübhi-sadiq çıqdı. Nagah fəğan qopdı ki, filan kimsəni döşəkdə öldürübdürlər. Daruğanuŋ nökərləri gəlüb günahsız qonşılarını dutdılar. Dedim:

– Sübhanəllah, bu, bir düşdür ki, mən görmişəm və Taŋrı-təala anı gərçəklədi.

Filhal qalxub daruğanuŋ yanına varub dedim:

– Bu, bir işdür ki, mən eyləmişəm və qonşılar **[121b]** qamu günahsızdurlar.

Daruğa dedi:

– Vay saŋa, bu, nə sözdür ki, dersən?

Dedim:

– Bu, bir düşdür ki, mən görmüşəm və Taŋrı-təala anı dürüst gətürüpdür və mənüm suçum nə nəstədür?

Və düşüŋ hekayətini yanına şərhlədüm. Daruğa dedi: "*Qum cəzakəllahu xeyrən*"[430] – dur get ki, sən suçsizsən və dutulanlar daxi suçsizdürlər.

Və "Şəvahid" kitabında rəvayətdür İmam Hüseyn bin əmirülmö'minin Əlidən (ə) ki, dedi: İbrahim bin Hişam əl-Məxzumi ki, Mədinənüŋ bəgi idi və hər cümə günləri bizi minbərə yaxın oturtdurur idi və özi minbərüŋ üstinə çıxar idi və əmirül-mö'mininüŋ (ə) həqqində nasəzalar söylər idi. Bir cümə ol məqam[431] xəlqdən doptalu idi və mən minbərüŋ yanında oturmış idüm. Nagah uyudum, düşdə gördüm ki, Peyğambərüŋ qəbri yarulub, andan bir kimsə çıqdı ağ donlu. Maŋa dedi:

– Ya Əbu Əbdullah, səni incitməz bu sözləri ki, İbrahim söylər.

Dedim:

---

[430] *Qalx, Allah sənə xeyirli mükafat versin.*

[431] Əlyazmada: *məqamı.*

– Bəli.

Dedi:

– Gözüŋ yatdur və aç və Taŋrınuŋ qüdrətinə bax.

Çün göz açdum, gördüm ki, İbrahim minbərdən düşüb həlak oldı.

Şe'r:

Hər kim içdi Murtəzanuŋ büğzidən bir cür'əni
Əzrailüŋ əlindən içər ol cami-həlak.
Anuŋ əhvali bu gündür bəylə, əmma ruzi-Həşr
Taŋrınuŋ qəhri anuŋ bağrını eylər çak-çak.

Və əylə ki, həzrət Risalətpənah anı sevər idi, Allah sübhanə və təala daxi anı sevər idi. Ol qəvlüŋ dəlili ilən ki, Xeybər ğəzasində Peyğambər dedi ki, daŋla ələmi bir kimsənüŋ əlinə verürəm ki, sevər Taŋrıyı və Rəsuli **[122a]** və sevərlər Taŋrı ilə Rəsuli daxi anı.

Və Murtəza Əlinüŋ **mərtəbəsi** Taŋrınuŋ dərgahində bu hədis ilən mə'lum etmək olur ki, "Rövzətül-əhbab" kitabında Cabir bin Əbdullah Ənsaridən nəqldür ki, həzrət Peyğambər (ə) Taif ğəzasində əmirül-mö'minin Əliyi çağırdı və anuŋlan canğıtdı və gizlü sözlər ol həzrətə söylədi və anlaruŋ canğı zəmanı gecikdi. Səhabələr dedilər: Əcəb uzun raz ilə əsrar əmmüsi oğlı ilən söylədi. Peyğambər (ə) dedi kim, "*Əntəceytuhu və ləkinnəllahu əntəcahu*"[432], yə'ni mən öz-özüm ilən aŋa raz söyləməzdüm, bəlkə Taŋrı-təala anuŋlən raz söylər idi. Və bu hədis[433] Nəsai [və] Buxari "Səhih"ində yazılıdur. Və Tirmizi daxi vəqf eyləyübdür və deyübdür ki, Rəsulullah dedi ki, Taŋrı anuŋ ilən raz söyləyübdür, yə'ni maŋa əmr eyləyübdür ki, anuŋ ilən razümi söyləyim və hər kim razdə və əsrardə məhrəmdür, padşahuŋ xassəsi və həmdəmidür.

Əmma ol həzrətüŋ **sifati** vəhm ilə qiyasdən artuqdur və idrakdən daxi dışxarı və bir şəmmə halınuŋ həqiqətindən qafillərüŋ zəmi-

[432] *Mən özüm ona sirr söyləməzdim, lakin Allah-taala ona sirr söylərdi.* (hədis)

[433] Əlyazmada: *hədisi.*

rinə və aləmlərüŋ xatirinə zahir və vazehdür, əmma bəhökmi – *"Ənə mədinətul-ilmi və Əliyyun babuha"*[434].

İki-üç kəlmə hər babdan gətürəcəküz ol həzrətüŋ uca nəsəbi Mustəfanuŋ hədisindən bəllü kim, dedi: *"Əliyyun minni və ənə minhi"*[435].

Və **həsəbi** həm kəlami-fərxündə əncamində (s) mə`lumdur ki, *"Əntə minni bu-mənziləti Harun min Musa"*[436].

Və **elmi** ol qayətdə ki, aləmüŋ **[122b]** alimləri yanında rövşən və vazehdür: *"Ənə mədinətul-ilmi və Əliyyun babuha"* nüktəsi ilən mə`lumdur və kəlamı ol mərtəbədə ki gətürübdürlər ki, ol həzrətüŋ hədisləri var ki, bitün ərəbüŋ fəsihləri anuŋ yamacında acizdürlər və minbər üstinə çıxub dedi: *"Səluni əmma dunəl-ərş"*[437], yə'ni soruŋız məndən hər nəstə ki, sormaludur və mənüm iki dalumuŋ ortasında aləmlər çoxdur və Taŋrınuŋ həqqi içün ki, əgər əmr olsun ki, Tövrit ilə İncildən söz deyəm, mən ol iki kitabuŋ əhkamindən xəbər verəyim və ol kitablar maŋa təsdiq eyləyələr və şəkk dəgül ki, bu elmi *"və əlləməkə ma ləm təkun bişey'ən"*[438] məktəbində ögrənmiş. Əylə ki buyurdı Rəsulullah (ə), miŋ bab elm maŋa ögrətdi ki, hər bab andan miŋ bab maŋa açıldı.

Əmma **ibadəti** ol heysiyyətdə ki, hər gecə anuŋ xəlvətindən miŋ qatla təkbir eşidür idilər.

Əmma **helmi** ol qayətdə ki, öz qulı divaruŋ ardında durmış idi və həzrət əmir yetmiş qatla anı çağırdı və ol cəvab vermədi. Pəs həzrət əmir divaruŋ ardına baxdı, qulı gördi, dedi:

– Ey qul, mənüm ünüm eşidürdüŋ?

Dedi:

– Bəli.

Dedi:

– Nişün cəvab verməz idüŋ?

---

[434] *Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır.* (hədis)

[435] *Əli məndəndir və mən ondanam.* (hədis)

[436] *Sən mənə Harunun Musaya yaxınlığı qədər yaxınsan.* (hədis)

[437] *Ərşdən (Göydən) başqa məndən istədiyinizi soruşun.*

[438] *Bilmədiyin şeyləri sənə öyrətdi.* (Quran, 4: 113)

Dedi:

– İstərdüm ki, səni acığa aparam.

Dedi:

– Mən ol kimsəni acığa aparam ki, saŋa bu tə'lim vermiş, yə'ni şeytan.

Pəs buyurdı:

– Var kim, səni azad etdüm Həqq yolında və ta diri olam, yeməgünlə içməgüŋ məndən ola.

Və bu, əxlaq və hilmüŋ **[123a]** qayətidür.

Əmma **təvazöi** ol həddə ki, xilafəti çağında kim, Əfriqədən Səmərqəndədəkin ol həzrətüŋ buyruği təsərrüfində idi, Kufənüŋ bazarında yəyağ gedər idi və xəlayiq hər kimsə öz işinə və müamiləsinə məşğul idilər və ol həzrətüŋ keçdügindən xəbərsiz idilər. Və çün bazar qələbəliğ idi, ötmək yolı dar idi, buyurur idi: "Öz əmiriŋizə yol verüŋ". Xəlayiq ol həzrətüŋ mübarək üni eşidüb yol verür idilər.

Və məşhurdur ki, bir gün bazardan evinüŋ zərurətləri satun alub özi götürmiş idi. Xadimlərindən birisi öginə gəlüb dedi:

– Ya əmirül-mö'minin, bu götürdügüŋ nəstəni maŋa ver götürməgə. Buyurdı ki, "*Əbul-əyal əhəqqə ən-yəhmilə*[439]" – əyallaruŋ atası əyalınuŋ yükini çəkmək gərəkdür.

Xadim dedi:

– Sən zəmanuŋ xəlifəsi və mö`minlərüŋ imamisən. Bunı götürmək sənüŋ ilən həm nisbəti yoxdur.

Cəvab verdi: "*La yənqusur-rəculə min kəmalihi iza həmilə li-əyalihi*"[440] – kişinüŋ kəmalindən hiç əksük olmaz hər yük ki, öz əyalı içün çəkər ola.

Əmma **səxavəti** əylə məşhurdur ki, xəlqi-aləm qamu bilürlər və "Əsbabi-nüzul" kitabında Vahidi nəql eyləyüb ki, əmirül-mö'minin Əlinuŋ (ə) dünyalik məta'indən dörd dirəmi var idi, bavücud ki zərurətən məaş gərəklü idi. Taŋrınuŋ yolında nəfəqə[441] qılub sədəqə verdi. Bir di-

[439] *Yük daşıma haqqı ailə başçısınındır.*

[440] *İnsanın kamalı ailəsinə yük daşımaqla azalmaz.*

[441] Əlyazmada: *nəftə* (?)

rəm zahir və bir dirəm gizlü və bir dirəm gündüz və bir dirəm gecə. Taŋrı-təala bu ayəti göndərdi: "*Əlləzinə yunfiqunə əmvaləhum bil-leyli vənnəhari sirrən və'əlaniyətən*"[442].

Və əmirül-mö'minin Əliyyi **[123b]** bu təşrif ilən müşərrəf qıldı. Bəs, həzrət Peyğəmbər (s) sordı kim, ya Əli, nədən ötrü sən bu sədəqeyi verdüŋ və səbəbi nə idi? Cəvab verdi kim, mundan özgə malümdən nəstə görmədüm kim, Taŋrı yolına nəfəqə eylim, ol ümmid ilən ki, bunlardan birisi qəbul şərəfinə yetə və riza mənzilinə vasil ola və mənüm məqsudum Taŋrınuŋ rizası və xoşnudlığıdur. Peyğambər buyurdı ki, ya İbn Əbi Talib, "*əla in zalikə ləkə*"[443] – ey Əbu Talibüŋ oğlı, hər nəstə ki məqsuduŋ idi, bulduŋ və Əhli-Beytüŋ üruc ilə isarı "*Və yut'imyunət-təamə əla hubbihi miskinən və yətimən və əsira*"[444] qamu aləmdə zahirdür.

Və **zəhadəti** ol qayətdə idi ki, Cabir Ənsari (r) rəvayət eylər ki, görmədüm dünyada əmirül-mö'minin Əlidən (ə) zahidrak, zira kim fani dünyanuŋ məta'indən mütləqa himmət gözi bağlayub, riyazət təriqində üstüvar idi və çox müddətlər bəylə idi. Üç gün bir-birinüŋ ardısıra ərpə çörəgindən tox olmadı və der idi: "*Həsbi minət-təam ma yətimə zəhri*"[445] – yeməkdən ol qədr maŋa yetərdür ki, arxamı doğruda və ibadətdən məni aciz qılmaya.

Rəvayətdür ki, xilafət zəmanində bir qatla beytül-mal xəzanəsinə vardı, çox qızıl ilə gümişi orada gördi, anlarə hiç baxmadı. Bir saət yəxşicə təəmmül qılub dedi: "*Ya səfra, ya beyza ğurra ğeyri*"[446] – ey saru bəŋizlü qızıl vey ağ yüzlü gümiş, məndən özgə kimsəni məğrur qıluŋız ki, mən siziŋ şəkliŋizə və rəngiŋizə qürrə olmayub **[124a]** aldanmayəcəgəm. Və mən siziŋ üç tələquŋizi verübəm və aŋa dönmək mühaldur və sizə təsərrüf əli uzatmək yazuq və vəbal.

---

[442] *Gecə-gündüz, gizli və aşkara mallarını Allah yolunda xərcləyənlərin...* (Quran, 2: 274)

[443] *İstədiyini tapdın.*

[444] *Onlar yeməyə ehtiyac duysalar da, yoxsula, yetimə və əsirə yemək verirlər.*(Quran, 76:8)

[445] *Yemək mənə o qədər yetər ki, arxamı düzəldə.*

[446] *Ey sarı qızıl, ey ağ gümüş, sizə aldanmadım və sizlə qürrələnmədim.*

Əmma **kəramatı** ol qayətdə ki, "Şəvahid" kitabında səhih rəvayətlər ilən sabit olupdur ki, çün mübarək sol əyağı üzəngüyə qoyar idi atlanmağə, ta sağ əyağı daxi üzəngüyə yetürüncə və bir rəvayətdə ta at üstinə iyər içində dürüst oturunca kəlami-Allahuŋ bir xətmin eylər idi. Və həm "Şəvahid" kitabında nəql eyləyübdürlər ki, Əsma bint Ümeys (r) həzrət Fatimədən (ə.s) nəql eylər ki, ol gecə ki məni həzrət Əliyə verdilər, qorxdum, zira ki eşitmiş idüm ki, yer anuŋ ilən söyləşür. Daŋlası anı həzrət Rəsulullahə söylədüm. Ol həzrət Taŋrıyə bir uzun səcdə eyləyüb dedi:

– Bəşarət olsun saŋa, ey Fatimə ki, nəslüŋ pakizə və arı olacaqdurlar və Taŋrı-təala sənüŋ ərüŋi xəlayiqə fəzilətdən artuqlədi və yerə əmr etdi ki, sənüŋ ərüŋ ilən söyləşsün öz əhvalini və hər nəstə ki aŋa ötəcəkdür məşriqdən məğribədək.

Və həm ol kitabda yazıludur ki, çün həzrət əmirül-mö'minin Siffin ğəzasinə rəvanə olurdı, ləşkəri və əshabı suyə möhtac oldılar. Nə qədr ki sağə və solə gəzdilər, su bulmadılar. Həzrət əmirül-mö'minin düz yoldan qırağə çəkildi. Tərsalərüŋ[447] bir dəyri gözükdi ol yabandə. Neçə əshab su bulağından ötrü dəyrüŋ adəmlərindən sorağ aldılar. Tərsalar cəvab verdilər ki, mundan suyə iki ağac yoldur. Əshab dedilər:

– Ya əmirül-mö'minin, rüxsət ver, ta oraya varalım. Ola kim, **[124b]** andan ilərü ki güc ilə qüvvətimiz qalmaya, suya yetəlim.

Həzrət əmirül-mö'minin dedi:

– Varmək hacət dəgül.

Düldülüŋ yükini qiblə saruyə doğrutdı və bir yerə işarət etdi kim, bu yeri qazuŋ. Həman ki bir parə toprağ andan götürüldi, bir böyük daş andan peyda oldı ki, hiç qazmə və dəmürlü yəraq ol daşə kargər olmaz idi. Əmirül-mö'minin Əli (ə) buyurdı kim, bu daş su üstindədür. Cəhd və güc eyliŋiz və munı qalduruŋız. Nə qədr ki əshab müttəfiq olub sə`y etdilər, yerindən təprədə bilmədilər. Çün həzrət əmir anı gördi, mərkəbindən enüb, yeŋlərini döndərüb, mübarək barmağları ol daşuŋ altına urub, bulağuŋ üstindən götürüb irağə sal-

[447] Əlyazmada: *tərsalərüŋüŋ.*

dı. Bir su zahir oldı bəqayət səfalu və savux və şirin ki ol səfərdə andan datlu və yəxşü su içməmiş idilər. Ləşkəri qamu andan içüb nə qədr ki götürə bilür idilər, götürdilər. Bəs, həzrət əmirül-mö'minin Əli (ə) gənə ol daşı götürüb bulağuŋ üstinə qoydı və buyurdı kim, üstinə toprağ qoyub doldurdılar. Çün ol dəyrüŋ zahidi munı gördi, dəyrdən enüb, həzrət əmirül-mö'minin Əlinüŋ öginə gəlüb, əyağə durub sordı ki, sən mürsəl peyğambərmisən?

Dedi:

– Yox.

Dedi:

– Sən firiştəmisən?

buyurdı:

– Yox.

Dedi:

– Bəs sən kimsən?

Dedi:

– Mən Peyğambərül-mürsəlüŋ vəsiyyisiəm, yə'ni Muhəmməd bin Əbdullah ki peyğambərlərüŋ xatəmidür. Tərsa dedi:

– Əl ver ki, müsəlman oluram.

Əmirül-mö'minin mübarək əlini aŋa verdi. Dəyrüŋ qocəsi əmirül-mö'minin Əlinüŋ (ə) əlini dutub **[125a]** dedi:

– "*Əşhədu ən la ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah və əşhədu ənnə vəsiyyən Rəsulullah*"[448].

Andan soŋra həzrət əmirül-mö'minin Əli (ə) andan sordı ki, səbəb nə idi ki, çox müddət öz dinüŋdə idiŋ, bu gün iman gətürdüŋ?

Dedi:

– Ya əmirül-mö'minin, bu dəyrüŋ binası bu daşı götürən xatiri içün yapupdurlar və məndən ilərü çox kimsələr bu dəyrdə var idilər və biz öz kitablərimüzdə görmişüz və öz alimlərümizdən eşidübüz ki, bu yaxında bir bulağ var və üstində bir daş qoyubdur və kimsə

[448] *Şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur. Şahidlik edirəm ki, Məhəmməd Allahın elçisidir və [Əli] onun varisidir (canişinidir).* Orijinalda sonuncu iki söz (*vəsiyyi-Rəsulullah*) yoxdur.

anı götürəməz, illa bir peyğambər, ya anuŋ vəsiyyi. Və mən çün gördüm ki, səndən bu iş zahir oldı, lillahil-həmd ki, öz istədügümə yetdüm və hər nəstə ki anuŋ intizarını çəkərdüm, tapdum.

Çün həzrət əmirül-mö'minin anı eşitdi, ol qədr ağladı ki, mübarək səqqalı[449] gözi yaşından yaş oldı və dedi:

– Şükr Taŋrıyə kim, anuŋ yanında unudulmışlərdən dəgüləm və kitablərdə məni aŋubdur.

Pəs, ol rahib qocə həzrət əmirül-mö'minin Əliyə (ə) mülazim olub, Şamuŋ ləşkəri ilən ol qədr səvaşdı ki, şəhid düşdi və əmirülmö'minin anuŋ cənazəsinə nəmaz qıldı, bəs dəfn qıldılar və anuŋ içün Taŋrı-təaladən məğfirət istədi.

Və çox kəramatlar ol həzrətdən zahir oldı, əmma cür'əti və şücaəti və bəhadırlığı hiç kimsədən gizlü dəgül ki, ol nəstələr ki Bədr ilə Ühüd ğəzasində Taŋrınuŋ tövfiqi ilən aŋa müyəssər oldı və həzrət Mustəfanuŋ yarilığından kafərlərüŋ **[125b]** səvaşında bu nüktə yetərdür: "*La fəta illa Əli, la seyfə illa Zulfiqar*"[450]. Və Xəndəq ğəzasində Əmr və Əbdudi ki, ərəb bəhadirlərindən bir şüca idi namdar, toprağ ilə bir etdi və Mərhəbi-yəhudi Xeybərüŋ səvaşında bir zərb ilən iki buldı və Xeybərüŋ qapusini qopardığı Heydəri-Kərrardən bir əsərdür ki, Qiyamətədək adəmilərüŋ köŋül səfhəsində yazıludur və aləmuŋ xəlayiqi dilində cari. Və qalan övsaflər də bəylə olacaqdur.

Və ol həzrətüŋ **kəmalatı**[451] andan artuqdur ki, dil təqriri ilən kimsə deyə bilə. Və çün bu tə`lifdən məqsud şəhidlərüŋ əhvalıdır, bu qədr ilən ixtisar etdük.

Beyt:
Hər nə kim yazdük-dedük vəsfi-kəmalindən anuŋ,
Elə bil kim, demədük yüz miŋ tüməndən birisin.

Və ol həzrətüŋ **şəhadət** xəbəri bəylə idi ki, çün xilafət səriri anuŋ mübarək vücudinə müşərrəf oldı və Cəməl və Siffin ğəzaları ki,

---

[449] Əlyazmada: *səqqalını.*

[450] *Əlidən başqa igid, Zülfiqardan başqa qılınc yoxdur*. (hədis)

[451] Əlyazmada: *kəmalatını*.

keyfiyyəti təvarixdə səbt olupdur, vaqe oldı və həkəmeyn qissəsi zahir oldı, dörd miŋ kişi abidlərdən ilən zahidlərdən: qamu kufəlü əmirül-mö'minin Əli əleyhissəlamuŋ ləşkərindən çıxdılar və dedilər: "*La hukmə illa lillah*[452]". Və səkiz miŋ adəm daxi ləşkərdən aŋa müvafiqət eyləyüb, Hərurəyə mənzil dutdılar və özlərinə Kəvakənüŋ oğlını bəg tikdilər və bu taifəyə "xəvaric" derlər.

Həzrət əmirül-mö'minin Əli (ə) Əbdullah bin Əbbası anlaruŋ yanına göndərdi, ta anları ogütləyüb gəri gətürə. Anuŋ sözini və nəsihəti eşitməyüb qəbul etmədilər və dedilər:

– Həzrət **[126a]** (ə) həkəmeyn ilən razi oldı, biz andan ötrü andan döndük.

İbn Əbbas bu sözləri eşidüb qayıtdı. Pəs həzrət əmirül-mö'minin Əli (ə) özi atlanub anlaruŋ yanına vardı və sözə durub ögütlərdi. Ömər[453] bin Yərbu və Hərqus bin Züheyr dedilər:

– Ya Əli, böyük suç, haşa, eyləyübsən, tövbəyə gəl və ləşkərüŋ yəraqlə, ta şamilərüŋ səvaşına varaüz.

Əmirül-mö'minin (ə) dedi:

– Mən həkəmeyn ilən razi dəgül idüm, siz mübaliğələr qıldıŋız ki, səvaşı tərk et. Sizin xatiriŋiz içün aŋa razi oldum. İmdi özüŋiz gəlübəni e'tiraz eylərsiniz.

Xaricilərdən birisi dedi:

– Biz sənüŋ ilən səvaşəcəgüz.

Həzrət əmirül-mö'minin Əli (ə) dedi:

– Ta siz mənüm ilən səvaşmayasız, mən sizün ilən səvaşməzəm.

Əlqissə, anlar qamu şəhrlərə [adəm] göndərüb mədəd istədilər və Nəhrəvanə və`də qıldılar. Əmirül-mö'minin anlaruŋ xəbərlərini eşidür idi və mütləqa iltifat qılmaz idi və bir ləşkəri yəraqlardı ki, Şamə varə. Soŋra xəbər yetdi ki, xəvaric fəsad edərlər və mö`minləri öldürüb müsəlmanları qarət qılurlar və niyyətləri budur ki, çün əmirül-mö'minin Əli Şamə varə, anlar qayıdub Kufəni talayalar. Əmirülmömininüŋ ləşkəri dedilər:

---

[452] *Hökm yalnız Allahındır.*

[453] Farsca orijinalda: *Əmr*

– Əvvəl bunlaruŋ hekayətini bir yan etmək gərəkdür, yoxsa əgər bizi Şamə aparursən, anlar dönüb evlərimizi varı talayacəkdürlər və əvrətlərimiz ilən uşağları ulcəyə aparacəkdürlər[454].

Həzrət əmirül-mö'minin anlaruŋ üstinə **[126b]** ləşkər çəkdi və bir qatla daxi Əbdullah Əbbası anlarə göndərdi. İş hiç yerə yetmədi. Əmir özi anlaruŋ yanına varub ögütlədi və Taŋrınuŋ əzabindən qorxutdı. Səkiz miŋ adəm anlardan: "*Ət-tovbə, ət-tovbə*", – deyübəni qayıdub həzrət əmirüŋ ləşkərinə gəldilər. Və Kəvvanuŋ oğlı on kişi ilən xəvaric məzhəbindən dönüb, əmirül-mö'minin Əli əleyhissəlamuŋ yanına gəldilər. Və xəvaric Əbdullah bin Vəhbi və Hərqus bin Züheyri özlərinə bəg tikdilər və Nəhrəvanə yüz qoydılar və əmirülmö'minin anlaruŋ ardında rəvan oldı. Və həzrət Risalətpənah (ə) bunlaruŋ səvaşından əmirül-mö'minin Əliyə (ə) xəbər vermiş idi və anlaruŋ adını Mariqin oxumış idi.

Və "Şəvahid" kitabında yazıludur ki, həzrət Rəsulullah (ə) əmirül-mö'mininə xəbər vermiş idi ki, sən səvaşəcəksən bir cəmaət ilən ki, anlaruŋ adları Mariqin ola, yə'ni xəvaric ki, anlaruŋ içində bir kişi var ola ki, bir əlinüŋ yerində bir vəslə ət ola və çigni üstində əvrətlər kimi bir əmcək və ol ətüŋ üstində qıl bitmiş ola və adı Züşşədiyyə ola xəvariclərün ulusı və İbn Züheyrüŋ bəgligində şərik.

Və rəvayətdür bitün sənədlər ilən Əbu Səid Xudridən ki dedi: Rəsulullahuŋ yanında idim və ol həzrət bir nəstəni ulaşdururdı. Bəni Təmimdən bir yigit kim, anuŋ adı Zülxuvəysərə idi, gəldi və dedi:

– Ya Rəsulullah, ədl et.

Həzrət Rəsulullah aŋa dedi:

– Veyhək, **[127a]** əgər mən ədl etməsəm, ədl eyləyən kim olacəkdür.

Pəs, səhabə dedi:

– Ya Rəsulullah, buyur kim, bu kişinüŋ boynın urayım.

Həzrət Rəsulullah dedi:

– Anı qoy ki, bu kişinüŋ əshabı var ki, hər biriŋiz sizdən öz nəmazı anlaruŋ nəmazları yamacında azacuq görərlər və öz orucı anla-

[454] Əlyazmada: *aparayəcəkdürlər.*

ruŋ oruclarına həm bilə və sədəqə və xeyr etməkdən təqsir etməzlər və islamdan bəylə çıxacaqdürlər ki, ox yaydan. Və anlaruŋ bəgi bir namərd olacaqdur qəra bənizlü və anuŋ çigni üstində əvrətlərün əmcəgi kimi ət bitmiş ola və xüruc eyləyəcəkdür adəmlərüŋ yeginə və behtərinə. Əbu Səid Xudri der: "Danuğəm ki, mən eşitdüm Taŋrınuŋ Rəsulindən (ə) bu hədisi və həzrət əmirül-mö'minin Əli (ə) bu taifə ilən səvaşdı və mən ol həzrət ilən bilə idüm. Soŋra həzrət əmirül-mö'minin buyurdı kim, anı buldurub yanümə gətürsünlər. Çün hazir etdilər, baxdum, həm ol surət idi ki, həzrət Rəsulullah anuŋ sifətin eyləmiş idi".

Beyt:

Peyəmbər dili mö'cüz görsədürdi,
Nə kim söylər idi, əylə olurdi.

Daxi rəvayətdür ki, həzrət əmirül-mö'minin Əlinüŋ (ə) ləşkəri Nəhrəvan yolında bir dəyrə yetdilər və ol kəlisanuŋ içində bir tərsa kişi sakin idi. Kəlisanuŋ damı üstinə çıxub dedi:

– Ey islamuŋ ləşkəri, əmiriŋizə söyləŋiz ki, mənüm yanümə gəlsün.

Həzrət əmirül-mö'minin Əli (ə) çün munı eşitdi, cələvini döndərüb dəyrüŋ yanına vardı. Çün dəyrə [varid] **[127b]** oldı, tərsa qocə dedi:

– Ey əmir, nərəyə gedərsən?

Əmirül-mö'minin dedi:

– Düşmənlərüŋ hərbinə varurəm.

Tərsa qocə dedi:

– Ey əmir, bir az müddət munda əglən və ləşkərüŋ burada həm qondur və səvaşə varma ki, müsəlmanlaruŋ yulduzi hübutdədür və islam millətinüŋ talei bəqayət zəifdür. Neçə gün səbr et və qatlan, ta ol zəif yulduzi qüvvətlənə.

Həzrət əmirül-mö'minin Əli dedi:

– Sən göglərüŋ elmini də`vi eylərsən, filan yulduzdan maŋa xəbər ver.

Tərsa qocə dedi:

– Taŋrı bilür ki, mən hərgiz bu yulduzuŋ adını həm eşitməmişəm.

Bir sual daxi etdi, cəvabını verəmədi.

Həzrət əmirül-mö'minin dedi:

– Göglərüŋ əhvalindən xəbərsizsən, yerüŋ əhvalindən səndən bir nəstə soraram. Burada kim, durubsən, əyağuŋ altında nə var?

Dedi:

– Bilmənəm.

Əmirül-mö'minin Əli dedi:

– Bir qab içində doptalu sikkəlü əşrafilər gizlüdür və sikkəsində bəylə yazıludur.

Tərsa qocə dedi:

– Sən bu sözi qandan söylərsən?

Əmirül-mö'minin dedi:

– Mən Peyğambərüŋ dilindən bunı derəm. Və ol həzrət maŋa deyübdür ki, sən bu xəvaric ləşkəri ilən səvaşəcəksən və sənüŋ ləşkərüŋdən on adəmdən əksük şəhid olacaqdurlar və xəsmüŋ ləşkəründən on adəmdən əksük diri mə'rəkədən qaçacəqdürlər.

Tərsa qocə bu sözlərdən mütəhəyyir olub buyurdı kim, əyağı altını qazdılar. Ol dedügi qab aqcalar ilən həm ol sikkə ilən ki, buyurmış idi, çıqdı. Filhal tərsa qocə dəyrdən çıxub müsəlman oldı. Bəs, həzrət əmirül-mö'minin Nəhrəvanə yüz qoydı yüz miŋ sükuh və əzəmət ilən.

Beyt:

Sağ qolində fəthü nüsrət, sol qolində lütfi-Həqq,

[128a] *Biləsincə idi qamu əhvaldə Rəbbül-fələq.*

Və "Şəvahid" kitabında qətürübdür ki, Cündüb bin Əbdullah əl-Əzdi demiş ki, Siffin səvaşında həzrət əmirül-mö'minin Əli ilən bilə idim və mənüm zəmirümdə hiç şəkk yoq idi ki, Həqq həzrət əmirül-möminiüŋ tərəfindədür. Əmma çün Nəhrəvandə qondük, bir şəkk xatirümdə keçdi ki, ol cəmaət ki, anlar ilən səvaş etməlü idi, qamu zahidlər və yigitlər idilər. Oları öldürmək bir çətin iş olacəqdür. Bir ertə səbah bir mətarə su ilən ləşkərdən çıxdum. Bir yerdə cidamuŋ küpi batdurdum və qalxanum aŋa asub[455], kölgəsində oturdum.

[455] Əlyazmada: *asılub*.

Nagah həzrət Murtəza Əli (ə) orayə yetdi. Sordı kim, su biləncə varmı? Ol mətarə ki, biləmcə idi, mübarək əlinə verdüm. Anı alub ol qədr irağ oldı kim, xəlqüŋ gözlərindən gizləndi. Bir zəmandan soŋra qayıdub, təharət alınmış ol qalxanuŋ kölgəsində oturdı. Nagah gördüm ki, bir atlu gəzər və həzrət əmirül-mö′minini istər.

Dedim:

– Ya əmirül-mö′minin, bu atlu səni istər.

Dedi:

– Anı çağır.

Çağırdum, gəlüb dedi:

– Ya əmirül-mö′minin, xəvaric arxdan keçdilər və suyi kəsdilər.

Buyurdı ki, keçməyübdürlər. Ol atlu dedi:

– Vallah ki, anlar keçdilər.

Əmir dedi:

– Kəlla, anlar keçməyübdürlər.

Ol kişi dedi:

– Vallah, mən ta görmədüm tuqlarını, gəlmədüm.

Əmirül-mö′minin dedi:

– Vallah ki, anlar keçməyübdürlər. Necə keçsünlər ki, anlaruŋ qan tökmək yeri oradədür.

Andan soŋra qalxdı. Mən cidəmi götürdüm və öz-özümə dedim ki, bir mizan əlümə girdi ki, bu kişinüŋ halını mə`lum edəyim. Ya oldur ki, bu, bir bəhadir müddəidür ki, dürlü-dürlü bu sözlər **[128b]** söylər, ya Taŋrıdan bir əmr və işarət olupdur, ya Murtəzadan bir söz eşidübdür. Pəs, dedim, ya Taŋrı-təala, sənüŋ ilən əhd etdim ki, görim əgər xəvaric Nəhrəvandan keçübdürlər, əvvəl kimsə ki, əmirül-mö′minin ilən səvaşə, mən olam və əgər keçməmiş olalar, həm əylə ki xəvaricüŋ səvaşına bel bağləyübəm, mərdanə durub uğraşacəgəm. Çün səflərdən və qoşunlardan keçdük, gördüm ki, xəvaric öz yerində durubdurlar və bir adəm sudan keçməyübdür. Bu halətdə həzrət əmirül-mö′minin Əli (ə) mənüm əŋsəmi dutub təprətdi və dedi:

– Ey Cündüb, işüŋ həqiqəti[456] saŋa zahir oldı.

Dedim:

– Bəli, ya əmirül-mö'minin (ə).

Bəs, buyurdı:

– Öz işüŋə məşğul ol.

Mən mə`rəkəyə varub iki xəvarici öldürdüm və bir kimsə daxi yapışdum. Mən aŋa bir zəxm urdum və ol maŋa bir zəxm urdı. İkimiz daxi düşdük. Mənüm tabınlarum məni apardılar və ussız yatdum, ta ol çağ ki səvaş axir olmış idi.

Və rəvayətdür ki, Şahi-Mərdanuŋ ləşkəri ki, tə'n və zərb ilə urmək və çəkişməkdə baş oynamağ içün abdar qılıcdan baş çəkəməz idilər və səvaş çağında iradət yüzi ilən müharibət meydanində və bəhadirliğ mə'rəkəsində varur idilər.

Beyt:
Dəmürdə qərqi-qılıc cövhəritək,
Bəhadirliğdə qamu Heydəritək.

Xəvaric ləşkəri ilən ki, zəlalət yolında özlərini gümrahlik yabaninə və üsyanlik badiyəsinə salmış idilər və bədbəxtlik ilən islam və yəqin səfası eyb ilə namərdlik qəranğusi ilən mükəddər eyləmiş idilər.

Beyt:
Başları doptalu əz-sevdayi-xam,
Verdilər üsyani canlardə məqam.

[129a] İslam ləşkərinüŋ yamacına durub səvaşə məşğul oldılar. Hər xiyal ilə tədbir kim etmiş idilər, tərsinə döndi və hər fikr ilə əndişə kim, qılmış idilər, qamu batil və mühal oldı.

Beyt:
Ümmidləri qamu tərsinə döndi,
Əcəl canlarını damuyə sundı.

[456] Əlyazmada: *həqiqətini.*

Əmirül-mö'mininüŋ ləşkəri *"Vallahu yuəyyudi bi-nəsrihi mən yəşa'u"*[457] mühibbindən inayət nəsimi əsdi, *"fəqəd ca'əkumul fəth*[458]" gülşənindən murad güli bitdi.

Beyt:
Ümmid məşriqindən tale oldı bərqi-səfər,
Münafiqüŋ güni oldı qəranğuvü əbtər.

Ol dörd miŋ xəvaricdən üç miŋ doquz yüz doqsan bir namərdi öldürdilər və doquz adəm qaçub canını ol mə'rəkədən dışxarı apardılar və əmirül-mö'minin ləşkərindən (ə) doquz adəm şəhid oldılar və qalanı sapəsağ ol ğəzadən səlamət ilən can apardılar. Və həzrət əmirül-mö'minin Əli (ə) dedi ki, Züşşədiyyə ki, həzrət Peyğambər (s) andan nişanə vermiş idi, bulduruŋ. Bir qatla ölüləri içində gəzüb görmədilər və dedilər:

– Olamı ki, mə'rəkədən qaçmış ola?

Həzrət əmirül-mö'minin dedi:

– Vallah, mən yalancı dəgüləm və mənüm ilən yalan söyləməyübdürlər. Əlbəttə, anı öldürübdürlər.

Daxi nəfxəsinə düşüb anı buldılar qırq ölünüŋ altında qalmış idi, həm ol sifət ki, həzrət Mustəfadən (ə) eşitmiş idi. Pəs, əmirülmö'minin Əli (ə) dedi ki, kimdür ki, fəthüŋ xəbərini Kufəyə apara. İbn Mülcəm ilərü gəlüb dedi:

– Ya əmirül-mö'minin, əgər əmrüŋ olsa, mən aparayım və **[129b]** bu muştuluqi Kufənüŋ elinə iltürəyim.

Əmirül-mö'minin (ə) dedi:

– Taŋrınuŋ işini düzədəcəksən.

Və təvarix əhlinüŋ yazdığında var ki, İbn Mülcəm Misrdən gəlmiş anlar ilən ki, gəldilər və Osmanı öldürdilər və andan soŋra Kufəyə düşüb, əmirül-mö'minin Əlinüŋ (ə) ləşkərindən idi. Və bir rəvayət daxi var ki, ol çağ ki xəvariçüŋ ğəzasinə varur idi, qamu məmləkətlərdən adəm dilədi. Yəmən məmləkətindən on adəm gəlmiş idilər:

---

[457] *Allah öz istədiyini köməyi ilə yetirər.* (Quran, 3: 13)

[458] *Artıq sizə zəfər (qələbə) gəldi.* (Quran, 8:19)

İbn Mülcəm anlar ilən bilə idi: çirkin yüzlü, çil xuylu, heybətlü gəvdəlü. Bu gələnlər hər kimsə bir pişkeş və töhfə həzrət əmirüŋ öginə çəkər idilər və qəbul eylər idi. İbn Mülcəm bir qılıc gətürdi bəqayət qiymətlü və həzrət əmirül-mö'mininə pişkeş çəkdi. Həzrət Əli (ə) andan başın çəvirüb qəbul etmədi. İbn Mülcəm xəlvətdə əmirül-mö'minin yanına gəlüb dedi:

– Ya əmirül-mö'minin, mənüm yoldaşlərümüŋ pişkeşin qəbul etdüŋ. Nişün mənümki rədd eylədüŋ və bəylə qiymətlü qılıc ki, bitün ərəbüŋ oymağlarında yoxdur, məndən almazsən?

Əmirül-mö'minin (ə) dedi:

– Bu qılıcı səndən necə alım ki, məndən sənüŋ muraduŋ bu qılıc ilən bitər.

İbn Mülcəm özini yerə urub çox ağlayub dedi:

– Ya əmirül-mö'minin, heyhat, heyhat bu xiyal[459] hərgiz məndən sadir olmasun və bu fikr mənüm xatirümdə Taŋrı-təala hərgiz keçürməsün və mən sənüŋ qulluğuŋ xatiri içün evim ilə barxım və əkinim ilə biçinim tərk eyləmişəm və sənüŋ məhəbbətüŋdən dustluğ nəqşi köksümnüŋ lövhinə çəküb köŋül təxtində xiyaluŋ sultanı oturtmışam.

[130a] Həzrət əmirül-mö'minin Əli (ə) buyurdı:

– Bu, bir hekayətdür deməlü və bir qissədür eşitməlü və bir vaqiədür olmalu və sən məhəbbət güzgüsiniŋ üstində vəhşət tozı qonduracəksən və müvafiqət məqamindən nifaq badiyəsinə qaçacəqsən.

İbn Mülcəm dedi:

– Ya əmirül-mö'minin Əli, budur mən qulluğuŋdə durubəm. İki əlümi bağlayub qoyma ki, mundan çıxayım və əgər təhqiq olupdur ki, bu surət məndən zahir olacaxdur, məni öldür.

Həzrət Murtəza Əli dedi:

– Necə səni qisas edəyim ki, hala səndən bir nəstə zahir olmayubdur və mən bilürəm ki, anuŋ və`dələri xilaf dəgül və sözi həqdür.

Əmma çün həzrət əmirül-mö'minin (ə) xəvaric ğəzasindən fariğ oldı, Kufəyə qayıtməgə əzm etdi. İbn Mülcəm rüxsət alub, türkən

[459] Əlyazmada: *xiyalı*.

özini Kufəyə yetürdi və Kufənüŋ bazarına və məhəllələrinə gəzər idi və çığırur idi və qatı avaz ilən əmirül-mö'minin Əlinüŋ (ə) fəthin xəbərin xəlqə yetürür[460] idi. Bu halətdə nagah bir eşigə yetdi dəf ilə düdügüŋ üni andan eşitdi. Ol qapudə durub özinə dedi: Nəhy münkərdən vacibdür. Pəs mən` etməgə və anları Taŋrınuŋ əzabindən qorxutməgə sə`y etdi. Ey ariflər, görüŋ bu əcəb haləti bir kişiniŋ əvvəlindən işi nəhyi-münkər idi və axirdən əməli əylə naşayəst və əbtər. Əlqissə, bir neçə əvrətlər gördi kim, ol evdən çıxub yəxşi geyəsilər ilən və anlaruŋ içində bir əvrət var idi, **[130b]** iŋən sahibcəmal, adı Qütam[461]. Çün İbn Mülcəmüŋ gözi Qütamə düşdi, anuŋ kazib məcazı eşqini ol fasiq köŋlinə kargər olub, məhəbbət şö`ləsi kinəlü köksinə səbri xərməni məhəbbət bərqinüŋ şərarəsi ilən yandı. Soŋucı həya pərdəsi ortadan götürüb Qütamuŋ yanına varub dedi:

– Ey paslu köŋlümüŋ aramı və fasiq canumnuŋ cananı, sən hanğı qəvm ilə qəbilədənsən?

Dedi:

– Təmimül-rübab oymağındanam.

Və ol qəbilə varı xəvaric idilər və həzrət əmir Nəhrəvan ğəzasində anlardan neçəsi öldürmiş idi və bu Qütamuŋ atası ilə qərdaşı on iki qəvmi ilə həlak etmiş idi.

Əlqissə, İbn Mülcəm dedi:

– Dulmisən, yoxsa ərlü?

Dedi:

– Duləm.

Dedi:

– Hiç kimsəyə meyl eylərsən ki, aŋa varub xəlqüŋ dilindən qurtuləsən və fitnədən imən oləsən?

Qütam dedi:

– Çoxdandur ki, bəylə əri istərəm və əlümə girməz.

İbn Mülcəm dedi:

– Məni qəbul et.

---

460 Əlyazmada: *yetür.*

461 "Hədiqətüs-süəda"da: *Qutamə.*

Çün aralarında cinsiyyət var idi, Qütam anuŋ sözini qəbul eyləyüb mayil oldı və dedi:

– Mənüm ilən evimədək gəl, ta qəvm ilə qərdaşümə canğıdayım.

Pəs, ol məl`un İbn Mülcəm ol məl`unə Qütam ilən vardı qapusinədək. Qütam öz evinə girüb qapunı bərk bağladı. Yəxşi geyəsilər ilə hülyələr özini bəzəndürüb, səllanə-səllanə bacəyə gəlüb, yüz miŋ kirişmə ilən özini məl`un İbn Mülcəmə görsətdi. İbn Mülcəm çün anı ol halda gördi, bir uğurda giriftar oldı. Məl`unə çün gördi ki, eşqinüŋ oxı anuŋ canına dəgdürdi, dedi kim, mənüm vəkillərüm qəbul etməzlər saŋa varmək, **[131a]** illa bir ağır kavin ilən. Əgər anuŋ öhdəsindən çıxa bilürsən, xoş ola. İbn Mülcəm dedi:

– Kabinüŋ nə nəstə olacaqdur, ta mən daxi bilim.

Qütam dedi:

– Mənüm kabinüm üç nəstədür. Biri ol kim, üç miŋ dirəm nəqd maŋa gətürəsən. İkinci ol kim, bir qəvval qəravaş biləsincə ola. Üçünci ol kim, Əli bin Əbi Talibüŋ qətlin ixtiyar eyləyəsən.

İbn Mülcəm dedi:

– Aqça ilən qəravaş qəbulumdur, əmma Əlinüŋ qətlinə qadir olmam ki, ol məşriq ilə məğribüŋ şəhsüvarıdur və ərəb sərkeşlərinüŋ qatili.

Şe'r:

Çü qınından ol, Zülfıqarın çəkər,
Qılur yerü gög cümlə zirü zəbər.

Qütam dedi:

– Mən aqça ilən qəravaşı saŋa bağışlərəm, Əmma Murtəza Əlinüŋ qətlindən keçmənəm və ta atamuŋ ilən qərdaşumuŋ qanını andan almayınca aram və qərar dutmənəm. İmdi mə`lum et ki, mənüm kabinüm Əlinüŋ qətlidür. Əgər mənüm vüsalum istərsən, bu işi qəbul etmək gərəksən, yoxsa

Misra:

Əylə san kim, məni hərgiz görmədüŋ.

İbn Mülcəm çün bu sözləri eşitdi, münafiqlik odı köksindən şö`lə çəküb, cahiliyyət həmiyyətinüŋ qazanı cuşə gəlüb dedi:

– Vallah ki, əmirül-mö'minin Əlinüŋ sözi gərçəkdür və ol nəstə ki maŋa der idi, budur anuŋ əsəri zahir oldı və sağın kim, mən bu şəhrə gəlmədüm, illa bu iş içün.

Pəs dedi:

– Ey Qütam, bu sözə durub qəbul etdüm və əgər bir zərb ilən ki, aŋa yetürəyim, sən razi olursan, bu işə durayım.

Qütam dedi:

– Rəva ola və mən daxi neçə kimsələri tapup saŋa bu işdə mədəd etdürəyim. İmdi öz qılıcuŋ mənüm yanümdə **[131b]** nişanə ilən qoy kim, bu şərtdən dönməyüb, tez qayıdasən.

İbn Mülcəm öz qılıcını aŋa verüb əmirül-mö'minin qulluğinə varməgə yüz qoydı. Ol məhəldə Kufə əhli əmirüŋ qarşusinə varmış idilər. Xəlayiq qamu şadiliğ eyləyüb qutlulamağə durdılar.

Beyt:

Yüz miŋ həzar şükr ki, mənsurü kamkar,
Qayıtdı şah Kufəyə miŋ izz ilə vəqar.
Yüz miŋ həzar şükr ki, ol İsəvinəfəs
Qıldı bu sayru köŋlümə bir can təki güzar.

Əmma həzrət əmir mərkəbin sürər idi, ta Kufənüŋ məscidi eşiginə yetdi və mərkəbüŋ cələvini çəküb, üzəngüdən əyağ çıxarub yəyağ oldı və mübarək qədəmi məscidüŋ qapusinə qoyub içərü girdi və təhiyyət nəmazı əda qıldı. Həzrət əmirüŋ fərzəndləri və Küfənüŋ əyanı və əşrafı qamu hazir idilər. Həzrət əmirül-mö'minin (ə) minbər üstinə çıxdı və bir xütbə Taŋrınuŋ həmdi və Risalətpənahuŋ nə'ti oxuyub xəlayiqi Taŋrınuŋ üqubətindən qorxutdı və səvabinə ümmidvar qıldı. Pəs, minbərüŋ sağ qolına baxub əmirül-mö'minin Həsəni gördi kim, oturubdur, aŋa dedi:

– "*Ya bunəyyə, kəm məza şəhrina həza*?"[462], yə'ni bu aydan neçə gün keçübdür?

[462] *Ey oğlum, bu ayımızdan neçə gün keçibdir?*

Və ol ay rəməzan idi.

İmam Həsən dedi:

– Ayuŋ üçüncisidür.

Pəs minbərüŋ sol tərəfinə baxdı, İmam Hüseyni gördi. Andan sordı:

"Ya bunəyyə, kəm bəqa min şəhrina?"[463], yə'ni bu aydan neçə gün qalupdur?

Dedi:

– On yedi gün qalupdur, ya əmirül-mö'minin.

Həzrət əmir mübarək məhasininə əl sürtüb dedi:

– Bu ayda mənüm səqqalümi qan ilən **[132a]** boyadəcəkdür bu ümmətiŋ bədbəxtrakı.

Və bir beyt oxudı ki, məzmuni bu idi ki, məni öldürəcəkdür bir namərd Bəni Murad qəbiləsindən.

Rəvayətdür ki, bu söz İbn Mülcəmüŋ qulağına yetdi, bir qatı heybət ol sözdən aŋa düşdi. Qalxub həzrət əmirüŋ qulluğinə gəlub, qarşusində durub dedi:

– Taŋrıyə pənah aparuram, ya əmirül-mö'minin, ol nəstədən ki maŋa gümanlarsən, səndən umaram ki, buyurəsən ki, mənüm əlümi kəssünlər, ya məni yüz miŋ zarilik ilən öldürsünlər.

Həzrət əmirül-mö'minin dedi:

– Öldürməyənə qisas vacib dəgül, əmma Taŋrınuŋ Rəsuli (s) maŋa xəbər verübdür ki, səni öldürən Bəni Murad qəbiləsindən bir kişi olacaqdur və muradı içün bir zərb saŋa yetürəcəqdür, əmma öz muradinə yetməyəcəkdür.

İbn Mülcəm yalvarur idi və şəfaət eylər idi. Əmirül-mö'minin Əli (ə) dedi:

– Mən səni bir gizlü sirdən xəbər verəyim ki, sən andan xəbərsiz oləsən və sənüŋ dayəŋ[464] və hiç kimsə andan xəbərdar dəgüldürlər.

Əmirül-möminin Əli (ə) dedi:

– Sənüŋ dayəŋ və tərbiyət vericiŋ bir cühud əvrət idi?

---

[463] *Ey oğlum, bu ayımızdan neçə gün qalıbdır?*

[464] Əlyazmada: *dayənj.*

Dedi:

– Bəli, ya əmirül-mö′minin .

Daxi dedi:

– Bir gün ol cühud əvrət səndən açığlanub dedi: Ey ol kimsədən ki, Salehüŋ naqəsini siŋirlədi, bədbəxtrak. İnsafdır ki, bəylə idi.

Ol başını aşağəyə salub dedi:

– Bəli.

Əmirül-mö′minin ağlamağə düşdi, əylə ki, məhasini yaş oldı və məclisüŋ hazirləri daxi ağladılar.

Pəs dedi:

– Sağınmıŋız ki, ölümdən qorxərəm, yoq, yoq, mən həmişə ölümə müştaq imişəm və şəhadətüm intizarını çəkər idüm, əmma mənüm **[132b]** ağladuğum məzlum uşağlərüm içündür ki, hala qəribliğ dərdinə mübtəla və giriftardurlar və məndən soŋra yetimliğ zəhmətinə uğrayəcəqdürlər.

Pəs buyurdı:

– Ey hazirlər, mənüm peyğamümi qaiblərə yetürüŋiz ki, çün fərzəndlərümi şəhid eyləyələr və xəbərləri sizə yetə, anlaruŋ müsibətində ağlaŋız və anlaruŋ həsrətindən nalələr çəkiŋiz ki, siziŋ ağladuŋız mənüm əvladum içün zaye olmayəcəqdür. Pəs, ey əzizlər, bu əşur günlərində cəhd eyləŋiz, ta gözlərüŋiz neçə qətrələr yaşdən axıtdurəsiz ki, bəndənüŋ gözi suyi Taŋrınuŋ qəzəbi odı oturuşdurur və hər kim bu günlər nəfsüŋ ləzzətindən keçə və mənüm uşağlərümnüŋ yasında oturə və qayğu güli köküs bustanində tikdürə və nədamət quşi məlamət budağları üstində nəğməyə gətürə, ümmid oldur ki, daŋla cənnətdə murad yemişi ümmid bustanindən dərəcəkdür və rüxsarı əhvalı məal xətti və ucə dərəcati-kəmalı zib ilə zinət görəcəkdür.

Nəzm:

Hər kim ol bu gün şəhidlər xatiriçün qəm yeyə,
Daŋla yüz miŋ rahət ilə cənnət içində gəzər.
Ey əzizlər, bir kəz əhvali-Həsəndən yad ediŋ
Kim, necə ağu içürdilər aŋa namərdlər,
Daxi fikr eyliŋ Hüseyni-Kərbəlanuŋ qətlidən.
Əhli-Beytüŋ günləri ol qayğudə necə keçər?

Dodağı suziz, bağır yarə, köŋül pürdərdü qəm,
Qan ilə toprağ içində, gəvdəsi necə düşər?

Əlqissə, çün həzrət əmirül-mö'minin minbərdən endi, bir gecə İmam Həsənüŋ evində orucın açdı və bir gün İmam Hüseynüŋ evində və üç löqmədən artuq yemədi.

[133a] Dedilər:

– Ya əmirül-mö'minin, nişün yeməgi çox yeməzsən?

Buyurdı kim, yaxın oldı kim, Taŋrınuŋ dərgahinə varam. İstərəm ki, çün Taŋrınuŋ əmri yetə, bulaşuğ olmayam.

Bəs, İbn Mülcəm həm ol gecə Qütamuŋ evinə vardı və Qütam, Vərdan adlu bir namərd Timi oymağından buldurmış idi kim, aŋa yardım ola. Və İbn Mülcəm daxi Şis bin Bəhrə Əşməi ilən bu babda söz demiş idi və anı özinə yar etmiş idi ki, əmirül-mö'minin Əlinüŋ qətlinə müvafiqət eyləyə. Pəs, ol gecə bu üç xəvarici Qütamuŋ hüzurində bey'ət aldılar Murtəza Əlini şəhid etməğinə. Və İbn Mülcəm qılıcını ağu ilən su vertdürmiş idi və fürsətə baxar idilər ta rəməzanuŋ on doquzıncı gecəsində və ol gecə həzrət əmirül-mö'minin taətə məşğul olmış idi və hər saət qalxub evinüŋ həyatinə gəlüb gögə baxər idi der idi:

– Səddəqə Rəsulullah, vallah ki, hərgiz Taŋrınuŋ Rəsuli yalan demədi, bəs nə nəstə manedür məni öldürməkdən.

Və həm bəylə keçürürdi, ta ol vəqt ki, cağı oldı məscidə varmağ.

Pəs, yeŋidən təharət alub belini bağladı və çün qurşağın bağlar idi, dedi:

"Əşdud həyazimukə lil-movt,
Fə-innəl-movtə laqika"[465], –

yə'ni belüŋ bərk bağla ölüm içün ki, saŋa mülaqat edəcəkdür.

"Vəla təcz`ə minəl-movt,
İza həllə bi-vadika"[466].

---

[465] *Kəmərini ölüm üçün bərk bağla.*
Əlbəttə, ölümlə görüşəcəksən. (Həzrət Əli, "Divan")

Və cəzə və fəryadü fəğan etmiŋ, çün ölüm sənüŋ mənzilüŋdə qona. Hiç yaradılmışuŋ səfhəsinə qalmaq rəqəmi çəkilməyübdürlər və cavidanlığ həyat şərbəti hiç kimsəyə içürməyübdürlər.

Beyt:

[133b] *Ömrnüŋ bünyadi yoxdur bərk hiç,*
Dünyanuŋ işidürür pürtabü piç.

Çün həzrət əmirül-mö'minin Əli (ə) evindən çıxmağə meyl etdi, bir neçə ördək ki, ol həzrətüŋ evində idilər, həzrət əmirül-mö'minin Əlinüŋ yolı üstinə gəlüb, çığırə-çığırə ətəgini burnı ilə dutub qoymaz idilər çıxmağə. Əmirül-mö'mininüŋ qızları anları mən` edər idilər. Əmirülmö'minin (ə) dedi:

– Qoyuŋız anları ki, maŋa növhə qılurlar yasum ilə fəraqümdə.

Ol gecə həzrət İmam Həsənüŋ (ə) evində idi. Çün həzrət əmir bu kəlməni söylədi, İmam Həsən buyurdı:

– Ya əbətah, bu nə faldur ki, özünə urərsən və bu nə sözdür ki, dersən? Bizim könlümiz dərdlü və canümiz qayğulu oldı.

Dedi:

– Ey oğul, bu fal dəgül, əmma könlüm danuğluğ verür ki, bu ay şəhidlərdən olacəğəm.

Pəs, uşağlarını vida üzərinə sözlər söylər idi və sağın kim divardən və eşikdən fəraq üni gəlür idi.

Pəs, həzrət əmirül-mö'minin məscid saruyə rəvan olub der idi:

"Xəlu səbilə-mu`min əl-mucahid,
Fillahi la yə`budu ğeyril-vahid" [467], –

yə'ni yol veriŋiz ğəza eyləyən Taŋrınuŋ yolında mö'mini ki, hərgiz vahid mə'buddən özgə bir pərəstiş eyləməz.

---

[466] *Elə ki ölüm səni haqladı,*
Fəryad etməyin mənası yoxdur. (Həzrət Əli, "Divan")

[467] *Yol verin Allah yolunda cihad edən möminə ki,*
Yalnız tək olan Allaha ibadət edər. (Həzrət Əli. "Divan")

Çün məscidüŋ qapusinə yetdi, nəmaz bangı dedi və xəlayiqi nəmazə oxudı və məscidə qədəm basub nəmazə durdı.

Əmma ol üç xəvarici gecə Qütamuŋ evində çaxır içmiş idilər və ol üç vəqtdə sərxoş və əbtər düşmiş idilər. Çün Qütam nəmaz bangı eşitdi, İbn Mülcəmi oyadub **[134a]** dedi:

– Qalx ki, çağı gəldi. Budur Əli (ə) məscidə gəldi və yaxındur ki, xəlayiq məscidə yığılalar. Tez var və mənüm hacətümi rəva eylə və türkən qayıt və fəraquŋ dərdini vüsaluŋ şərbəti ilən dəva qıl.

İbn Mülcəm qalxub qılıcını götürüb dedi:

– Sınmış boynı ilən varayım və bədbəxt olub qayıdayım. Görmiş ol nəstə kim, görməlü dəgül ki, mən həzrət əmirül-mö'minin Əlidən bir nəstə Peyğambərüŋ qəvlindən eşitmişəm ki, dedi ki, ilərüki bədbəxlərdən Qüdamə bin Saləf idi ki, Saleh peyğambərüŋ dəvəsini siŋirlədi və axirzəman bədbəxti əmirül-mö'minin Əlini şəhid eyləyəndür.

Munı dedi və məscidə varub özini yatanlərüŋ içində saldı. Əmma çün həzrət əmirül-mö'minin məscidüŋ təhiyyət nəmazindən fariğ oldı, qalxub yatanlaruŋ üstinə gəzüb nəmaz içün oyatdurdı. İbn Mülcəmilə'in yüzi quyi yatmuş idi. Həzrət əmirül-mö'minin əyağınuŋ barmağını aŋa urub dedi: "*Qum və səlli*"[468], yə'ni oyan və nəmaz əda qıl.

Və andan ötdi və gənə mehrabuŋ yanına varub nəmazə durdı. İbn Mülcəm qalxub yoldaşınuŋ əlini dutub dedi:

– Qalx ki, fürsət fövt olur.

Və təvarixdə yazıludur ki, həzə əmirül-mö'minin nəmaz bangı verürdi ki, ol üç xariciyi məscidə gəldilər. Şəbib iə Vərdan məscidüŋ qapusində hər birisi qapunuŋ bir yanına durub dedilər:

– Hər birimiz bir qılıc yetürəlim, əgər birisi xəta ola, birisi kargər olsun.

Və İbn Mülcəmə dedilər:

– Sən məscidüŋ içinə gir ki, bizim əlimizdən hiç iş gəlməz.

Əmma çün həzrət əmir bangdan fariğ oldı, məscidə qədəm basdı. **[134b]** Şəbib bir qılıc yuxaru aparub endirmək istərdi, məscidüŋ tağına

[468] *Qalx və namaz qıl.*

dəgüb yetürəmədi və Vərdan daxi qılıcını endürüb məscidüŋ divarına dəgdürdi.

İkisi daxi qaçdılar. İbn Mülcəm dedi:

– Va əfzihtah, imdicə xəlayiq yığılacəqdürlər və bizi dutacəqdürlər.

Qılıcın çəkdi və mehrabuŋ yanına gəlüb, həzrət əmir nəmazdə idi. Ol qədr əgləndi ki, əvvəlki səcdə əda qıldı. Həman ki mübarək başını səcdədən qaldurdı, ol bədbəxti-məlʿun qılıcını endürdi. Taŋrınuŋ qəzasından həm ol yerə dəgdi ki, Xəndəq ğəzasində Əmr və Əbduduŋ zəxmi dəgmiş idi. Çün bu yarə ol yarənüŋ üstinə dəgdi və mübarək beyninədək yetdi, bir ün həzrət əmirdən çıxdı kim, dedi: "*Fuztu bi-Rəbbil-Kə'bə*"[469], yə'ni qurtuldum və firuzi tapdum Kə'bənüŋ Taŋrısı həqqiçün.

İbn Mülcəm çün bu üni eşitdi, məsciddən qaçdı və filhal avazə qopdı: "*Qutilə əmirul-mu'minin*"[470].

Küfənüŋ əhli bir uğurda məscidə yüz qoydılar. İmam Həsən ilə İmam Hüseyn çün bu xəbəri eşitdilər, səbr könləgini çak edüb, təhəmmül əmmaməsi başlarından götürüb məscidə gəldilər. Büzürgvar atasını gördilər mehrabdə düşübdür. Qədəminə düşdilər və mübarək əyağinə yüzlərini sürtər idilər. Həzrət əmir öz əli ilən başınuŋ qanını götürüb yüzinə və mübarək məhasininə sürtər idi və der idi:

– Bu halət ilən Taŋrınuŋ Rəsulini görəyim və Fatimeyi-Zəhra ilən mülaqat edəyim və bu surət ilən əmmümi Əmir Həmzə – seyyidüş-şühədayı **[135a]** baxayım və bu hey'ət ilən qərdaşümi – Cə'fəri-Təyyarə nəzər salayım.

İmam Həsən ilən İmam Hüseyn ağlar idilər və Kufənüŋ böyükləri ilə əşrafı ağlayub: "*Va musibətah, va veylah*"[471], – der idilər.

Sordılar:

– Ya əmirül-mö'minin Əli, sənüŋ ilən bu işi kim eylədi?

Dedi:

---

[469] *Kəbənin Rəbbi üçün xilas oldum və qələbə çaldım.*

[470] *Möminlərin əmiri öldürüldü.*

[471] *Vay başımıza gələn müsibət.*

– Səbr eyliŋ ki, həm bu saətdə gələcəkdür.

Bu sözdə idilər ki, Şəbib ki, əvvəl ol qəsd eyləmiş idi, məscidə girdi. Andan sordılar ki, məgər sən bu qılıcı urubsən? İstərdi kim, deyə: "yox", ixtiyarsız dedi "nə'əm", yə'ni bəli. Xəlayiq munı eşidincə filhal anı salub əyağ altına aldılar və ol qədr cəzalar verdilər ki, həlak olub cəhənnəmə vardı. Və İbn Mülcəm qaçub, öz əmmüsiniŋ oğlı evinə varub səlahı özindən çözər idi ki, əmmüsi oğlı gəldi, anı təşviş-lü görüb sordı kim, Əliyi öldürən məgər sənsən? "Yox" demək istər-di, "bəli" dilinə keçdi. Əmmüsi oğlı anuŋ yaqasını dutub çəkə-çəkə məscidə gətürdi.

Və bir qəvldə daxi var ki, İbn Mülcəm məsciddən qaçər ikən Həmədan oymağından bir kişi aŋa yoluxub gördi kim, yalın qılıc ilən. Ol kişinüŋ başında bir qətifə var idi, götürüb İbn Mülcəmüŋ yü-zinə urub anı dutdı və yetənlər aŋa mədəd verüb, əlini boynına bağ-layub məscidə gətürdilər. Və həzrət əmirül-mö'minin İmam Həsənə demiş idi ki, imamət eyləyüb xəlayiq ilən nəmazı qılsun. Əmma çün İbn Mülcəmi gətürdilər, əmirül-mö'mininüŋ gözi aŋa yetdi, dedi:

– "*Ya əxa Murad*"[472], məgər mən yaman əmir idüm sizə?

Dedi:

– Məazallah, ya əmirül-mö'minin.

[135b] Dedi:

– Bəs nişün mənüm fərzəndlərümi yetim qılduŋ və mənüm xa-nidanümə gədük salduŋ? Nə mən sənüŋ ilən yəxşiliğ etmiş idüm.

Dedi:

– Bəli, əmma vaqe oldı bu iş: "*Və kanə əmrullahi qədərən məqdurən*"[473].

Həzrət əmirül-mö'minin buyurdı kim, munı zindanə saluŋ, ta mən diriəm anuŋ yeməgi içməgi mənüm yedügüm-içdügümdən verüŋ. Əgər diri qalam, hər nəstə ki mənüm kərəmümə layiq ola, anuŋlən əməl edəyim və əgər öləm, aŋa bir zərbdən artuq urmıŋ ki, maŋa bir zərbdən artuq urmayubdur.

---

[472] *Ey qardaş Murad!* (Həzrət Əlinin (ə) qatili Əbdürrəhman bin Mülcəm əl-Muradi əl-Xariciyə işarədir)

[473] *Allahın əmri əzəli hökmdür*. (Quran, 33: 38)

Pəs, həzrət əmirül-mö'minini bir gilimün üstinə yatdurub, gilimün bir ucı İmam Həsən (ə) çigninə aldı və bir ucı İmam Hüseyn (ə). Həman ki məsciddən dışxarı çıqdılar, daŋ yulduzi çıxub cəhan yüzindən aydın etdi. Həzrət əmirül-mö'minin buyurdı kim, məni məşriqün sarusinə durğuzuŋ. Əylə eylədilər.

Dedi:

"*Vəs-subhi iza tənəffəsə*"[474] – ey sübh, ol Taŋrınuŋ həqqi içün ki, Anuŋ buyruği ilən çıqduŋ və Anuŋ hökmi ilən nəfəs urduŋ ki, Qiyamət günində səndən danuğluğ istəyəcəgəm və gərək kim, çün sən doğruliğə sadiqsən, danuğluğ verəsən ki, ol gündən bərlü ki, Taŋrınuŋ Rəsuli ilən ol vəqtdə nəmaz qılmış idim, bu günədəkin hərgiz sən çıqduŋ ki, məni uyur gördüŋ və mən səni çıxmamış ikən gördüm.

Bəs başını səcdəyə qoyub dedi:

– Ey Taŋrı-təala danuğ ol: "*Və kəfa billahi şəhidən*"[475]. Daŋla Qiyamət güni ki, yüz igirmi dört miŋ peyğambər hazir olalar və mələikələr hazir olalar və şəhidlər yığılalar və **[136a]** ərşi-ə`zəmə baxıcı olalar, danuğluğ verəsən ki, sənüŋ Peyğambərüŋ əli ilən iman gətürdüm və hər nəstə ki buyurduŋ, can ilən qəbul etdüm. Və hər nəstədən ki mən` eyləmiş idüŋ, yaxınına varmadum və sənüŋ buyruğuŋa və Rəsuluŋ sözinə xilaf demədüm və xatirümdə daxi keçürmədüm.

Kufənüŋ böyükləri hazir idilər, xamusindən nə'rə və əfğanə çıxdı.

Beyt:

Köŋüllər həsrət odilən kəbab oldi o qayğudən,
Köküslər dərdnak oldi, cəhan oldı dolu şivən.

Əmma çün həzrət əmirül-mö'minini evinə gətürdilər, həzrət Fatimeyi-Zəhranuŋ uşağlarından fəğan qopdı. "*Va əbətah*"[476] naləsi və "*va Əliyyah*"[477] qovğası yerüŋ yüzindən ucə əflakə yetdi. Və uşağları bir-bir gəlür idilər və mübarək qədəminə düşüb, əyağlarını öpüp der idilər:

---

[474] *Və sökülməkdə olan dan yerinə*. (Quran, 81:18)

[475] *Allahın şahid olması yetər*. (Quran, 13: 43)

[476] *Vay ata!*

[477] *Vay Əli!*

– Ey ata, bu nə halətdür ki, biz görərüz? Noləydi kim, anamız diri ola idi, ta bu mihnətdə bizə təsəlli verə idi? Noləydi kim, biz Mədinədə həzrət Risalətpənahuŋ (s) türbəti üstində oturmış ola idük? Bu nə halətdür ki, bizə vaqe olupdur? Bir yanından qəribliğ və bir yanından yetimliğ müttəfiq oldılar.

Və rəvayətdür ki, uşağlarınuŋ zariliğindən əmirül-mö'mininüŋ köŋlində bir həsrət odı şö`lə urdı ki, hazirlərüŋ köŋli yandurdı və hər kim anlaruŋ naləsi eşidür idi, gözlərindən qan axar idi. Pəs, həzrət əmirül-mö'minin uşağlarını bir-bir qucağlayub başları ilə yüzlərin öpər idi və səbrə buyurur idi və der idi ki, siziŋ cəddiŋiz yanına və anaŋız **[136b]** hüzurinə [gedirəm]. Və bu gecələr həzrət Mustəfanı düşdə gördüm ki, mübarək yeŋi ilən yüzümdən tozı gidərür idi və buyurur idi:

– Ol nəstə ki saŋa vacib idi, yerinə yetürdüŋ. Bu düşüŋ tə'birindən bəylə fəhm olur ki, bu cismüŋ niqabı ruhuŋ çehrəsindən götürəcəkdürlər, ta təfərrüc içün qüdsüŋ aləminə vara.

Beyt:

Pərdədür canümğə qüdsüŋ aləmindən bu təni,
Ey xoş ol saət ki, bu yüzdən bıraxəm pərdəni.

Bu halətdən Ömər bin Nü'mani-cərrah qapudən içərü girdürdilər. Çün cərrahuŋ gözi həzrət əmirüŋ yarəsinə düşdi, əmmameyi başından götürüb, yəqəsi çak edüb dedi:

– Vaveylah, bu qılıcı ağu ilən su vermiş imişlər və bu yarə mərhəmi götürməz. Sənciləyin müqtədadan yüz heyf və sən kimi imamdən yüz dəriğ.

Yeŋidən İmamuŋ xanidanından fəryadü fəğan qopdı.

Və rəvayətdür ki, həzə cərrah gəlmədin Ümmü Külsüm ol eviŋ ki, İbn Mülcəm anda məhbus idi, qapusinə varub dedi:

– Ey məl`un, sən damə düşdüŋ və həzrət əmirüŋ yarəsindən hiç bakı yoxdur.

İbn Mülcəm dedi:

– Ey qız var və ağlamağ özünə qoy ki, mən ol qılıcı miŋ altun ilən almışam və miŋ altun vermişəm, ta aŋa ağu suyi verübdürlər və

əgər məsələn, bu zəxmi Kufənüŋ əhli varısinə dəgmiş olə idi, bir adəm can aparmaz idi, xassə ki bir adəm isə.

Və bu vaqiə cümənüŋ gecəsində idi rəməzan ayınuŋ on doquzunda və həzrət əmir yekşənbə gecəsi ayuŋ igirmi birisində bəqa aləminə qədəm basub, uçmağı hüzuri ilən müşərrəf etdi və ol **[137a]** gün vəsiyyətnaməyi yazdı və fərzəndlərini vida eyləyüb, yekşənbə gecəsi buyurdı kim, ol həzrəti öz xass evinə apardılar. Pəs, Ümmü Külsümə dedi:

– "*Ya bunəyyətə əğləq əla əbikəl-bab*"[478], yə'ni ey mənüm qızum[479], atanuŋ yüzinə qapuyi bağla.

Ümmü Külsüm qalxub qapuni bağladı və İmam Həsən ilən İmam Hüseyn (ə) qapunuŋ dışxarısında oturdılar. Nagah bir hatifüŋ üni eşitdilər ki, dedi:

– "*Əfəmən yulqa fin-nari xeyrun əm-mən yə'ti aminən*" [480].

Və bir firiştə anuŋ cəvabını verüb dedi kim, "*həl mən yə'ti yovməl-qiyamə*"[481].

Və rəvayətdür ki, çün həzrət əmiri ol hücrəyə apardılar və qapuni bağladılar, *"la ilahə illəlah*"[482] ünin eşitdilər. Şahzadələrüŋ taqəti qalmayub qapuyi açdılar və hücrəyə girdilər. Həzrət əmirül-mö'minin əleyhissəlam və təhiyyət vəl-ikram Taŋrı rəhmətinə vasil olmış idi.

Və "Şəvahid" kitabından rəvayətdür ki, İmam Hüseyn (ə) dedi ki, çün əmirül-mö'minin Taŋrınuŋ civarinə vardı, eşitdüm ki, bir deyici dedi:

– Bu bəndəni bizə qoyuŋız və qamuŋız dışxarı çıxıŋız.

Biz dışxarıyə varduk, içərüdən avaz eşitdük ki, dedilər:

– Muhəmməd (ə) vardı və anuŋ vəsiyyi şəhid düşdi. Mundan soŋra ümməti kim saxlayacakdur?

---

[478] *Ey qızım, atanın üzünə qapını bağla.*

[479] Əlyazmada: *qızumı.*

[480] *Oda atılanmı, yoxsa (Qiyamət günü) əmin olaraq gələn kəs daha xeyirlidir*. (Quran, 41: 40)

[481] *Əlbəttə, Qiyamət günü əmin olaraq gələn [daha xeyirlidir].*

[482] *Allahdan başqa məbud yoxdur*.

Birəgü cəvab verdi kim, anlaruŋ yolı və sirəti öginə alub qədəm dışxarı qoymayalar. Çün bu sözlər oturuşdı, içərü girdük anı gördük qəslin[483] etmişlər və kəfənə çulğatmışlar. Aŋa nəmaz qıldük.

Və bir rəvayət **[137b]** daxi var ki, həzrət əmir buyurmış idi ki, mən çün axirətə nəql eyləyəm, evüŋ içində bir lövh gözükə. Məni ol lövhüŋ üstinə qoyub qəsl eyliŋ və evin eşigindən kəfən ilə tabut zahir oləcəkdür. Məni kəfənə dutub tabutə qoyuŋ və evüŋ ortasında tabutumi vəz` eyliŋ və fərzəndlərümi gətürüŋ, ta atasını vida eyləyüb, bir qatla İmam Həsən maŋa nəmaz qılsun və bir qatla İmam Hüseyn (ə.m). Andan soŋra tabutuŋ ögi yerdən qalxar. Siz tabutuŋ ardı götürüŋ. Hər yerdə ki, tabutumuŋ başı yerə qona, orada qoyuŋız və ol yeri qazuŋ ki, sacdan[484] bir tabut bulunur. Məni orada dəfŋ eyləŋiz.

Və "Şəvahid" kitabında məzkurdur ki, həzrət əmirül-mö'minin Əli İmam Həsənə və İmam Hüseynə (ə.m) demiş idi ki, çün məni bir təxtüŋ üstinə qoyub götürüŋiz Ərəbeynə[485] yetürüŋ ki, orada bir ağ daş gözükür ki, andan nur çıxar. Anı qazuŋ ki, bir açux yer zahir olur, məni orada tapşuruŋ.

Pəs, əmirül-mö'minin Əlinüŋ (ə) vəsiyyəti hökmi ilən gecə tabutı şəhrdən çıxarub, həm orada dəfn etdilər. Və hala ol yer Nəcəf ilən məşhur olupdur. Və mübarək mərqədi gizlədüb yer ilən həmvar etdilər və hiç kimsə aŋa yol aparmaz idi, məgər Əhli-Beytüŋ neçəsi və həm bəylə gizlü idi, ta Bəni Əbbas çağında bir bəg[486] avə varmış idi. Avlar qamu bir təpənüŋ üstinə ərbəində yığıldılar. Nə qədr ki avcı quşlar anlarə saldılar və tazi **[138a]** itlər səgirtdilər, hiç hanğısı varmayub qayıtdılar. Ol bəg və ləşkərləri bu surətdə heyran və əcəbdə qaldılar, ta ol yerüŋ adəmlərindən bir qocə kişidən bu halı sordılar. Ol qocə dedi:

---

[483] Bu söz daha çox *qüsl* şəklində işlənir, əlyazmada isə hərəkəyə görə onu məhz *qəsl* kimi oxumaq lazım gəlir. Qədim lüğətlərdə sözün *qəsl* variantı da qeydə alınmışdır.

[484] Əlyazmada: *saçdan*.

[485] Bu söz farsca orijinalda Qəzneyn, "Hədiqətüs-süəda"da isə Qəribeyn kimi verilmişdir.

[486] Farsca orijinalda: *Harunərrəşid.*

– Atalərümdən maŋa bəylə xəbər yetübdür ki, əmirül-mö'minin Əlinüŋ mərqədi buradadur.

Ol bəg avlarə dolaşmayub qoyə verdilər. Bəs ol yeri ziyarət eyləyüb qayıtdı və hər yıl ziyarət xatiriçün orayə varur idi.

Əlqissə, çün şahzadələr həzrət əmiri Kufədən gecə çıxardılar və ol yerdə ki, vəsiyyət eyləmiş idi, tapşurub qayıtdılar, mühiblər ilə şiələrdən neçəsi ki xəbərdar oldılar, ardlarına varur idilər. Çün şahzadələri gördilər, əyağlarına düşüb der idilər: Ey məxdumzadələr, əmirül-mö'minini neylədiŋiz və imamül-müttəqini nərədə qoyduŋız və Zülfiqaruŋ iyəsi qanı və Düldülə minən nərəyə vardı?

Nəzm:

Həsrətü qəmdən doludur şəhr, qanı şəhriyar,
Bu müsibətdən gögüŋ yulduzi ağlar zar-zar.
İki aləmnüŋ ümmidi oldurur ümmətlərüŋ,
Nərə vardı söyləŋiz ol zübdeyi-həftü[487] *çar.*
Xoş keçərdi günləri ariflərüŋ anı bilə,
Yəxşi günlər keçdi anlardan qalupdurlar nəzar.

Pəs, ol cəmaət çox təəssüflər yeyüb ol yazılarda nə qədr ki gəzdilər, əsla ol həzrətüŋ ziyarətindən əsər bulmadılar.

Rəvayətdür ki, çün İmam Həsən və İmam Hüseyn (ə.m) atasını tapşurmaqdan soŋra qayıtdılar, Küfənüŋ şəhrinə yetdilər, bir pozuğ viranədən bir nalənüŋ üni eşitdilər. Ol ünüŋ ardına varub, **[138b]** bir zəifi-nəhifi gördilər ol viranədə toprağ üstinə yalğuz yatub. Başını bir kirpüçüŋ üstinə qoyub zarilik ilən ağlar idi və gözlərindən həsrət yaşı axdurur idi. Sordılar:

– Sən kimsən və nədən ötrü bəylə zar-zar ağlarsən?

Dedi:

– Bir qərib kişiəm və aciz və sayru və işlərdən qalmışam və xamu tanış ilə bilişdən irağ olubəm. Nə bir atam var və nə bir qərdaş və nə bir anam var və nə yoldaş və nə bir məhrəmüm var və nə bir sirdaş.

Dedilər:

[487] Farsca orijinalda: *həşt (səkkiz).*

– Bəs sənüŋ qulluğuŋ kim edər?

Dedi:

– Bir yıldur ki, mən bu şəhrdəəm. Hər gün bir kişi gəlür idi və başum üstinə oturur idi müşfiq atam kimi və mehriban anam təki maŋa qəmxarlığ edər idi.

Dedilər:

– Ol kişinüŋ adını bilürsən?

Dedi:

– Yox, bilmənəm.

Sordılar:

– Hərgiz andan sorduŋ ki, aduŋ nədür?

Dedi:

– Bəli, sordum cəvab vedi ki, sənüŋ nə işüŋ var mənüm adum ilən? Mən sənüŋ riayətüŋ Taŋrı içün eylərəm, nə şöhrət və riya içün.

Dedilər:

– Anuŋ bəŋzi və şəkli və hey`əti necə idi?

Dedi:

– Mən koram və bəŋzindən nişanə verəməzəm. Əmma üç gündür ki, yanümə gəlməyübdür və riayətüm eyləməyübdür. Bilmənəm ki, aŋa nə olupdur.

Dedilər:

– Ey qocə, sözlərindən və etdügindən hiç nişanə verə bilürsən?

Dedi:

– Nişanəsi oldur ki, həmişə dilində təsbih və təkbir keçər idi və həman ki ün çıxarur idi, təsbih içün gögüŋ qapuları sağın kim, açılur idi və məlikənüŋ təsbihi üni qulağümə gəlür idi, bəlkə divar ilə qapudən **[139a]** və daş ilə kəsəkdən təsbih üni eşidürdüm. Və çün maŋa yaxın olur idi, der idi: "*Miskinu caləsə miskinən*"[488], yə'ni bir dərviş-dür ki, bir dərviş ilən söhbət və mücalisət eylər, "*ğəribun caləsə ğəribən*"[489], yə'ni bir qəribdür ki, bir qərib ilən mücalisət və söhbət dutar. Şahzadələr munı eşidincə bir-birinə baxub, zar-zar ağlayub dedilər:

[488] *Miskin miskinlə oturub-durar.*

[489] *Qərib qəriblə oturub-durar.*

– Bu nişanələr qamu bizüm atamuzuŋ nişanəsidür – Əli bin Əbu Talib (ə).

Qocə sordı kim, aŋa nə oldı ki, bu üç gündə gözükməz?

Dedilər:

– Ey qocə, bir bədbəxti-məl'un aŋa bir zərb urub, qürur evindən bəqa və sərvər mənzilinə nəql etdi və imdi biz anuŋ dəfnindən qayıduruz.

Qocə həman ki bu xəbəri eşitdi, çığırub, özini yerə urub dedi:

– Mənüm nə həddüm var ki, əmirül-mö'minin Əli hər gün mənüm üstümə qədəm rəncidə qılub riayətüm eyləyə.

İmam Həsən və İmam Hüseyn (ə.m) ol qərib qocəni təsəlli və sükun verür idilər. Və ol çox iztirablər eyləyüb der idi.

Şe'r:

Bilmənəm kim, necə iş düşdi maŋa
Kim, vəliyüllahdən düşdüm cüda.
Bu pozuğ viranədə yalğuz qalub,
Qalmışam zarü həzinü binəva.

Bəs, dedi:

– Ey məxdumzadələr, büzürgvar cəddüŋiz həqqi içün və müqəddəs atanızuŋ ruhi içün ki, ələmi dutub əmirül-mö'minin Əlinüŋ ziyarəti üstinə aparuŋız, ta münəvvər mərqədini ziyarət edüb, andin bir feyz maŋa dəgə.

İmam Həsən qalxub, anuŋ sağ əlini [dutub] və İmam Hüseyn (ə.m) sol əlini dutub əmirül-mö'mininüŋ **[139b]** rövzəsi üstinə apardılar və ol kor xocə mərqədüŋ üstinə düşüb çox zarilik edüb dedi:

– İlahi, bu rövzənüŋ iyəsi həqqi içün ki, mənüm canümi al ki, anuŋ fəraqi çəkəmənəm.

Filhal qocənüŋ duası müstəcab oldı, ol rövzənüŋ üstində canın təslim etdi.

Misra:

Zərrə idi, qoydi xurşidə yüzin.

İmam Həsən ilə İmam Hüseyn (ə.m) aŋa çox ağladılar və yəraqını görüb həm ol rövzənüŋ ətrafində yerə tapşurdılar.

Və məşhurdur ki, həzrət əmirül-mö'minin ol vəqtdə altmış üç yaşında idi və mundan daxi artuq və əksük söyləyübdürlər.

Əmma daŋlası İmam Həsən (ə) Kufənüŋ məscidinə varub, minbər üstinə çıxub, bir fəsih xütbə oxuyub dedi:

– Ey cəddümüŋ ümmətləri, hər kim məni bilür, xud bilür və hər kim bilməz bilsün: "*Əna ibnul-bəşir ən-nəzir*"[490] – mənəm bəşarətverici və qorxudıcı Peyğambərüŋ oğlı, yə'ni Muhəmməd Mustəfa (s) və mənəm Əliyyi-Murtəzanuŋ fərzəndi və anam Fatimeyi-Zəhradur. Mənüm cəddüm sizə doğru yol görsədür idi və atam sizi Taŋrınuŋ dininə oxur idi. Mən daxi sizüŋ ilən həman əməl eylərəm.

Bəs, Əbdullah Əbbas əyağə qalxub dedi:

– Ey xəlayiq, biliŋiz ki, bu yigit Peyğambərüŋizüŋ fərzəndi və yolgörsədici imamuŋızdur. Anuŋlən bey'ət qıluŋız və imamətliğindən sərfərazlik ediŋiz və əhd eyləŋiz ki, andan dönməyəsiz.

Hazirlər qamu dedilər: "*Səm'ən və taətən*"[491] – eşitdük və fərmanbərdar **[140a]** oldük. Bəs əl uzatdılar və Imam Həsən ilən (ə) bey'ət etdilər. Andan soŋra [bir kimsəni] göndərdi və İbn Mülcəmi zindandən çıxartdı və minbərüŋ əyağində düzətdilər. İmam Həsən aŋa dedi:

– Ey ümmətüŋ bədbəxtkarı, bu nə çəpəl əməl idi kim, etdüŋ və dini dəldüŋ?

İbn Mülcəm baş qaldurub dedi:

– Ey İmam Hüseyn, ötəni ötdi və keçəni keçdi.

[***Misra***]:
İmdi ahü nalələrdən nə bitər?!

[490] *Mən müjdə verənin və qorxudanın (Məhəmməd (s) Peyğəmbərin) oğluyam.*
[491] *Eşitdik və itaət etdik.*

Məni öldürmə, ta Şamuŋ bəgi ki, atanuŋ düşməni idi, öldürəyim. İmam Həsən anı sözə qoyməyüb, qılıcın çəküb, ucını anuŋ köksinə baturub, özi yanına çəküb boynına bir zərb əylə urdı ki, başı on arşun irağə düşdi. Pəs, şiələr ol məl'uni məsciddən dışxarı aparub buriyayə çulğadılar və od urdılar, ta yanub kül oldı. Və şahzadələr tə'ziyətə məşğul oldılar və xəlayiq qoşun-qoşun gəlüb aŋa yas verür idilər.

Şe'r:

Bu müsibətüŋ yeridür kim, günəş qan ağlayə,
Göglərüŋ bağırlarıŋ firqət odilən dağlayə,
Leyk Taŋrınuŋ qəzası çün yuxarudən enər,
Söz deməkdən əhli-irfanuŋ dodağın bağlayə.

ALTINCI BAB

İmam Həsənüŋ fəzayili və əhvalı: doğduğindən şəhadətinədək

"Şəvahid" kitabından rəvayətdir ki, İmam Həsən (ə) ikinci İmamdur on iki İmamdan və künyəti Əbu Muhəmməd və ləqəbi Nəqi və Seyyid, doğduği Mədinədə rəməzan ayınuŋ ortasında, hicrətdən üç yıl keçmiş və Cəbrail anuŋ adını **[140b]** hədiyyə ilən Müstəfanuŋ (s) yanına gətürdi uçmağuŋ hərirində yazılmış. İmam Rizanuŋ "Səhifə"sində yazıludur ki, Əsma bint Ümeys rəvayət etdi ki, mən həzrət Fatimənüŋ əbəsi idim İmam Həsən ilən İmam Hüseynə (ə.m). Və ol vəqt ki, İmam Həsənüŋ səadətlü yulduzi vilayət burcindən tülu etdi və aydın gövhəri ismət və təharət dürcindən zühur qıldı.

Nəzm:

Oldi bir Ay məşriqi-iqbaldən tale kim, ol
Töv'əman olmişdi xurşidi-cəhanara ilən.
Ta uşağlar beşigiŋ təprətdürər çərxi-fələk,
Beşigində görmədi ol surətü bala ilən.

Gün doğduği xəbəri həzrət Risalətpənah əleyhissəlamə yetdi, dedi:

– Ey Əsma, mənüm fərzəndümi gətür.

Bəs şahzadəni bir saru qundağə çulğayub gətürdi və ol həzrətüŋ ətəginə qoydı. Həzrət Rəsulullah ol saru qundağı götürüb, irağə atub dedi:

– Nə mən sizüŋ ilən əhd eyləmişəm ki, uşağları saru əskiyə bağlamıŋ.

Pəs, vardı[492] bir ağ qundağ gətürüb İmam Həsəni aŋa bağladı və Peyğambərüŋ (ə) ətəginə qoydı. Həzrət Seyyidi-aləm (s) nəmaz bangı sağ qulağına və qamət bangı sol qulağına oxuyub əmirülmö'minindən sordı kim, anı nə ad qoyubsan? Həzrət əmirül-mö'minin dedi:

– Ya Rəsulullah, mən ol kimsə dəgüləm ki, səndən ilərü fərzəndlərümə ad qoyam. Əmma xatirümdə keçər ki, əgər icazət verəsən, adını **[141a]** Hərb qoyam.

Və bir rəvayətdə daxi var ki, dedi:

– Əgər buyruğ olsa, əmmümüŋ adını – Həmzə qoyam.

Həzrət Peyğambər (ə) dedi ki, mən Taŋrıdan ilərü fərzəndümə ad qoymanam. Dərhal Cəbrail enüb dedi:

– Ya Muhəmməd, həzrət Əliyyi-ə'la saŋa səlam yetirüb buyurur ki, Əli sənüŋ ilən Harun ilən Musanuŋ mənzilətindədür. Pəs, bu oğlanı Harunuŋ oğlınuŋ adı qoy.

Peyğambər (s) sordı kim, Harunuŋ oğlı adı nə idi?

Dedi:

– Şəppər[493].

Həzrət Risalətpənah dedi:

– Ey Cəbrail, mənüm dilüm ərəbidür və bu, ibri dilidür.

Cəbrail dedi:

– Şəppərüŋ mə'nisi Həsəndür.

Pəs, yedisində əqiqə eyləyüb iki kəbş ilən və kəbşüŋ budi əbəsinə verdi və başını qırqdı, gümiş ilən bərabər eyləyüb sədəqə verdi.

Əmma İmam Həsən təmam həzrət Mustəfayə oxşar idi. Və Ənəs Malikdən nəqldür ki, hiç kimsə bəylə Peyğambərə oxşamaz idi ki, İmam Həsən.

Və rəvayətdür ki, bir gün ol həzrətüŋ mövt mərəzində Fatimeyi-Zəhra İmam Həsən ilə İmam Hüseynüŋ əllərini dutub Mustəfanıŋ yanına gətürüb dedi ki, "*həzani ibnak*"[494] – bunlar sənüŋ fərzəndlərüŋ-

---

[492] Əlyazmada: *vardılar*.

[493] Farsca orijinalda və "Hədiqətüs-süəda"da: *Şəbbər.*

[494] *Bunlar sənin oğullarındır.*

dürlər. *"Fəvərrisuhuma şey'ən"*[495] – pəs, bunlarə bir miras ver. Həzrət Peyğambər dedi:

– Həsənüŋ mirası məndən siyadət və sirətdür və İmam Hüseynüŋ – məndən siyadət ilə kərəm və şücaətdür.

Və "Səhiheyn"də məzkurdur ki, Bəra bin Azib dedi ki, gördüm Mustəfanı ki, İmam Həsəni cigninə almış idi **[141b]** və dilinə keçürür idi: *"Əllahummə inni uhibbəhu fə-əhibbəhu"*[496], yə'ni ey Taŋrı, mən munı sevərəm, sən daxi anı sev.

Və bir rəvayətdə daxi var ki, dedi: "Sevərəm ol kimsəni ki, munı sevər".

Və Əbuzər Qəffari der ki, hərgiz İmam Həsəni görmədüm, illa ki, gözümdən yaş axmadı, andan ötrü ki, bir gün Rəsulullah ilən (ə) Qənˈa[497] bazarinə varmış idük ki, andan qayıdanda məscidə girdük. Həzrət Peyğambər (ə) dedi:

– Ləkə'i çağıruŋ.

Bir saətdən soŋra İmam Həsən (ə) gəlüb, özini ol həzrətüŋ qoynına salub, mübarək məhasini içində əl sundı. Həzrət Rəsulullah (ə) ağzını anuŋ ağzına qoyub dedi: *"Əllahummə inni uhibbəhu əv uhibbu mən yuhibbəhu"*[498].

Və İbn Əbbasdan mərvidür ki, həzrət Rəsulullah (s) İmam Həsəni çigninə oturtmuş idi. Bir kişi dedi: *"Niˈm əl mərkəbu rəkibtə"*[499] – ya qulam, yəxşi mərkəbdür ki, aŋa minmişsən. Həzrət Rəsulullah dedi: *"Və niˈm ər-rakibi"*[500] – bu, daxi yəxşi atludur.

Və "Şəvahid" kitabında məzkurdur ki, bir gün Rəsulullah (s) minbərə çıxub, İmam Həsən (ə) anuŋ ilən bilə idi. Bir vəqt ümmətlərinə baxər idi və bir vəqt İmam Həsənə der idi:

– Bu, mənüm oğlum və seyyiddür və tez ola ki, Taŋrı-təala səlah eyləyə munuŋ vəsiləsi ilən iki qəvmüŋ aralarında müsəlmanlərdən.

---

[495] *Bunlara bir miras ver.*

[496] *Allahım, mən onu sevirəm, sən də (onu) sev.*

[497] Farsca orijinalda: *Qəniğa.*

[498] *Allahım, mən onu sevirəm, sən də (onu) sev və onu sevəni də sev.* (hədis)

[499] *Mindiyin nə gözəl bir minikdir (minik heyvanıdır).*

[500] *Gözəl bir minicidir (atlıdır).*

Və səhih hədislər İmam Həsənün mənaqibində çoxdur və həman bu **[142a]** hədis ki, "*huma reyhanətayə min əd-dunya*"[501] arifə və bilənə yetərdür və "*əl-Həsənə vəl-Huseynə seyyidən şəbabi-əhlil cənnə*"[502] ulu dəlildür. Və Əli bin əl-Fəzl "E'lamül-vəra" kitabında gətürübdür İbn Əbbasun rəvayətindən ki, biz Rəsulullahun yanında idük, həzrət Fatimə ağlayu gəldi. Həzrət Risalətpənah (ə) andan sordı:

– Nə nəstə səni ağlatdı?

Dedi:

– Ya Rəsulullah, Həsən ilə Hüseyn evdən çıxubdurlar və imdiyədək gəlmədilər və Əli munda dəgül və mənüm kimsəm yoxdur ki, anlarun ardınca göndərəyim[503]. Və bilməzəm ki, anlar nərədədürlər? Peyğambər (s) dedi:

– Ol Taŋrı ki, anları yaradubdur, anlarə səndən mehribanrakdur.

Pəs, mübarək əlləri duayə götürüb dedi:

– Ya Rəbbül-aləmin, əgər yabandədürlər, saxla və əgər dəŋizdədürlər, səlamətliğ ilən qırağə sal.

Filhal həzrət Cəbrail gəlüb dedi:

– Ya Əhməd, qəm yemə və qayğulənmə ki, anlar fazillərdürlər dünyadə və ululardurlar axirətdə. Və anlaruŋ atası anlardan yegrəkdür. Və imdi Bəniünnəccaruŋ həzirəsindədürlər və Həqq sübhanə və təala iki firiştə anlarə qoşubdur ki, anları saxlayalar.

İbn Əbbas dedi:

– Ol həzrət əyağə qalxdı və biz daxi müvafiqət eyləyüb əyağə qalxdük və Peyğambər ilən Bəniünnəccaruŋ həzirəsinə vardük. Baxdük İmamları gördük: əlləri bir-birinüŋ qucağlarına salub orada yatubdurlar və bir firiştə bir qanadı anlarıŋ altına döşəyübdür və bir qanadı ilən anları örtübdür. Pəs Mustəfa İmam Həsəni götürdi və ol firiştə İmam Hüseyni **[142b]** götürdi və xəlayiq əylə gördilər ki, Rəsulullah ikisini daxi götürübdür. Əbu Əyyub Ənsari (r) ilərü gəlüb dedi:

---

[501] *O ikisi [Həsən və Hüseyn] dünyadan mənim iki reyhanımdır*. (hədis)

[502] *Həsən və Hüseyn cənnətdəki gənclərin ağasıdırlar.* (hədis)

[503] Əlyazmada: *görəyim*.

– Ya Rəsulullah, ikisindən biri maŋa ver, ta götürəyim və sən yüŋül olasən.

Peyğəmbər dedi ki, bunlar ululardurlar dünyadə və axirətdə. Və bunlaruŋ atası bunlardan ulurakdur və mən bu gün bunları müşərrəf eylərəm ol nəstə ilən ki, Taŋrı-təala bunları müşərrəf eyləyübdür. Pəs, bir xütbə oxuyub dedi:

– Əyyuhan-nas, xəbər eyləyim sizə adəmlərüŋ yəxşisindən cəddi ilə cəddəsi tərəfindən?

Dedilər:

– Bəli, ya Rəsulullah .

Dedi:

– Anlar İmam Həsən və İmam Hüseyndürlər ki, anlaruŋ cəddi Rəsulullahdur və cəddələri Xədicə bint Xuvəylid. Pəs, dedi:

– Xəbər verəyim sizə adəmlərüŋ yegrakindən və ə'larakindən ata ilən ana tərəfindən?

Dedilər:

– Bəli.

Dedi:

– İmam Həsən və İmam Hüseyndürlər ki, anlaruŋ atası Əli bin Əbu Talibdür və anası Fatimə bint Muhəmməd.

Daxi dedi:

– Ey ümmətlərüm, xəbər verəyim sizə kimsələrdən ki, yegrakdurlar xəlayiqdən dayısı ilə dayəzəsi səbəbindən?

Dedilər:

– Bəli.

Dedi:

– İmam Həsən və İmam Hüseyndürlər ki, anlaruŋ dayısı Qasim bin Rəsulullahdur və dayəzəsi Zeynəb bint Rəsulullah.

Daxi dedi:

– Xəbər verəyim sizə mərdümlərüŋ yeglərindən əmmi ilə bibisi tərəfindən?

Dedilər:

– Bəli.

Dedi:

– İmam Həsən və İmam Hüseyn ki, əmmi Cə'fəri-Təyyardur və bibiləri Ümmü Hani bint Əbu Talib.

Və İmam Həsənüŋ fəzayil ilə mənaqibi çoxdur və cümlədən biri **[143a]** ol kim, bir səfərdə Zübeyrüŋ əvladlarından birisi ilən yoldaş idilər. Bir nəxlistanə yetdilər ki, xurma ağacları qamu qurumış idi, orada qondılar. Çakərlər bir quru ağacuŋ dibində İmam Həsən içün yer döşətdilər. Və İmam Həsən (ə) orada oturdı, Zübeyrüŋ oğlı daxi bir ağacıŋ dibində qondı İmam Həsənə yaqın və dedi:

– Nolaydı kim, bu nəxldə yaş xurma var olaydı, ta biz yeyəydük.

İmam Həsən dedi:

– Yaş xurma istərsən?

Dedi:

– Bəli.

Şahzadə əllərini duayə götürdi. Filhal bir xurma ağacı gögərüb tazə xurma bər gətürdi. Bir sərvan ki, anda hazir idi, dedi:

– Vallah, bu, sehrdür.

İmam Həsən dedi:

– Vallah, bu, sehr dəgül, bəlkə bir müstəcab düadan idi ki, Peyğambərüŋ oğlı dedi.

Bəs, ol ağacə vardılar və hər nəstə ki bər gətürmiş idi, kəsdilər və endürüb xamusinə kifayət idi.

Və hər nəstə ki anuŋ mənaqibində elm ilə ibadət və kərəm ilə bəxşiş və əxlaq ilə mürüvvət kitablərdə yazdurubdurlar, xamusi səhih və sabit olupdur və hala munda yüz miŋdən birisi yazıldı.

Əmma ravi rəvayət eylər ki, çün həzrət əmirül-mö'minin Taŋrı civarinə vardı, daŋlası İmam Həsən minbər üstinə varub qayət fəsahət ilə bəlağətdə bir xütbə oxudı, soŋra dedi:

– Ey cəddüm ümmətləri, bu gecə içiŋizdən bir kimsə çıxıbdur kim, ilərükilər anuŋ misli və nəziri görməyübdürlər və axirzəman xəlayiqi anuŋ kimi görməyəcəkdürlər və Taŋrınuŋ dərgahinə bir gecə varubdur **[143b]** ki, Müsayi-Kəlim ol gecə aləmdən nəql eyləyübdür və İsayi-Məryəm (ə) ol gecədə gögə varubdur və bu ümməti Taŋrıyə oxur idi. Mən daxi həm ol təriqi ilən sizi Taŋrıyə doğru yol görsədüb oxuram.

Əlqissə, xəlayiq ol həzrət ilən bey′ət etdilər və əvvəl kimsə ki, ol həzrətüŋ mütabiətinə və bey′ətinə əl urdı, Qeys bin Übbadə Ənsari idi. Və andan soŋra özgələr bey′ət etdilər və qırq min adəm ol həzrətüŋ bey′ətinə əhd etdilər. Əmma çün həzrət əmirül-mö′minin şəhadət xəbəri Şamə yetişdi, Şamuŋ bəgi altmış miŋ adəm ilən İraq məmləkətinüŋ təsxirinə rəvan oldı və İmam Həsən (ə) bu haldan vaqif oldı, qırq miŋ adəm ilən Kufədən çıxdı və Əbdürrəhman dəyrünə nüzul etdi və Qeys bin Səʿd bin Übbadə Ənsari on iki miŋ adəm ilən qəravulluğə göndərdi. Və çün Mədainüŋ sabatına yetdilər, neçə gün anda əgləndilər, ta ləşkər yığılsun və dəvarlar qüvvətlənsün. Və neçə kimsə ləşkərdən bəylə gümanladılar ki, şahzadə anuŋ içün munda əgləndi ki, səvaşə niyyəti yoxdur və gah-gah söylər idi ki, mənüm hiç kimsə ilən düşmənligüm yoxdur və müsəlmanlaruŋ əmn və səlamət və fərağət və cəmiyyət və islahi-xəlayiq yanümdə əzizraqdur mö′minlərüŋ pərişanlığından. Əmma bəs bu səbəbdən ötrü ləşkər aŋa yağı olub, şahzadənüŋ evinə girdilər talatmağə və hər nəstə ki buldılar qarət etdilər və bir qali ki, üstinə oturmuş idi, altından çəkdilər **[144a]** və bir rida çignində idi, anı daxi çəküb aldılar. Ol həzrət bunları görüb, atlanub Mədainə yüz qoydı. Yoluŋ bususində Cərrah bin Qəbisə Əsədi oturmış idi. Bixəbər busudən çıxub bir xəncər həzrətüŋ mübarək budinə urdı ki, sümüginədək yetdi və Əbd bin Fəzl Tayi yoldaşı ilə Cərrahuŋ əlindən xəncəri alub anı parə-parə qıldılar. Və ol həzrət yaralu Mədainüŋ Əbyəz qəsrində nüzul etdi və cərrahlar anuŋ müalicəsinə məşğul oldılar, ta yarası sağaldı.

Və İmam Həsən (ə) çün gördi ki, kufəlü anuŋ atası ilən nələr etdilər və anuŋ ilən bu hərəkət qıldılar, anlardan köŋli savudı və Müaviyə ilən neçə şərt ilən ki, anlaruŋ şərhin etmək kitab uzun olur və məqsuddən qaluruz, barışdı və hər necə[504] kim hər yandan fitnəəngizlik tərhini salur idilər, hiç yerə yetmədi və münafiqlərüŋ məlamətindən əndişə qılmayub, qamusı eşitməmiş sandı və öz xassə şiələri ilən Mədinəyə vardı.

[504] Əlyazmada: *neçə.*

Və rəvayətdür ki, bir gün Mədinədə Əli bin Bəşir[505] Həmədani aŋa dedi:

– Ya Bin Rəsulullah (ə), Şamuŋ bəgi ilən barışmamək gərək idi.

İmam Həsən dedi:

– Əpsəm ol ki, biz Taŋrınuŋ əsrarı gəncinüŋ xəzanədariüz və biz bilürüz ol nəstə ki bizdən özgə kimsə bilməz və mən barışdügüm Müaviyə ilən məqsud ol idi ki, dostlarumuŋ qanı tökülməyə, zira kim səvaşda ləşkərüŋ təqsirliğini mə'lum etdüm və yəqin bildüm ki, əgər barışmayam, qamu şiələrüm[506] **[144b]** hələk olacaqdurlar. Və saŋa məlumdur ki, Kufə eli ki, mənüm ləşkərüm idilər, atamı şəhid etdilər və mənüm otaqum ilə evümi taladılar və məni xəncər zəxmi ilən məcruh qıldılar. Və Taŋrı bilür ki, əgər qamu dağlar ilə ağacları anuŋ səvaşına varur idüm, soŋra bu işi aŋa rücu etmək gərək idüm, əylə ki, cəddimüŋ düşi aŋa dəlalət etdi.

Və "Şəvahid" kitabında yazıludur ki, əmirül-mö'minin Həsən (ə) buyurdu ki, Bəni Ümməyyənüŋ hökuməti Taŋrı-təala cəddümə görsətdi və ol həzrət gördi ki, anuŋ minbərinə yuxaru varur idilər biri-birindən soŋra.

Bu mə`ni ol həzrətə çətin gəldi, Taŋrı-təala *"İnna ə'təynakə'l-Kovsər"*[507] surəsi aŋa göndərdi, yə'ni bir arx saŋa uçmağda əta qıldum və anuŋ adı Kövsərdür və daxi *"İnna ənzəlnahu"*[508] endürdi ki, *"leylətul qədri xeyrun min əlfi şəhr"*[509], yə'ni qədrüŋ gecəsi yegdür miŋ aydan. Və bu miŋ aydan məqsud Bəni Ümeyyənüŋ bəglik müddətidür.

Rəvayətdür ki, Bəni Ümeyyənüŋ məliki [müddəti] hesab eylədük miŋ ay idi. Əmma çün sülh çağından bir az müddət keçdi, Şam məmləkətinüŋ məl`un adəmlərin öz səlahi içün gördilər ki, İmam Həsəni (ə) ortadan gidərələr və anuŋ yaraqinə və əsbabinə məşğul oldılar. Pəs, əvvəl Bəsrənüŋ cimrilərə ismalət verüb buyurdılar ki,

---

[505] Hədiqətüs-süəda: *Təmir.*

[506] Əlyazmada: *şiələrümi.*

[507] *Şübhəsiz ki, Biz sənə Kövsər bağışladıq.* (Quran, 108: 1)

[508] *Şübhəsiz ki, Biz onu (Quranı) endirdik.*

[509] *Qədr gecəsi min aydan daha xeyirlidir.* (Quran, 97: 1-3)

İmam Həsənüŋ (ə) adəmləri ki, anda idilər, üstinə şəbixun aparalar. Otuz səkiz adəmi şəhid eylədilər və qalanı qaçub şahzadəyə pənah apardılar. Çün **[145a]** bu keyfiyyət şəhzadənüŋ ərzinə yetdi, ol həzrətə mə`lum oldı ki, şamilər əhdi sındurub müxalifət eyləyəcəkdür. Əbdullah Əbbas ilən məşvərət etdi və Diməşqə mütəvəccih oldılar və hər yerə kim, yetər idi, xəlayiq xürrəm olub, xidmət təriqini riayət eylər idilər, ta Mosulüŋ şəhrinə dəlalət etdilər və Mosulüŋ rəisi Muxtaruŋ əmmüsi Sə'd Mosuli idi. Filhal ki İmam Həsənüŋ gəldügindən vaqif oldı, çoq ələfə və ələüfə və töhfə və təbərrük gətürüb qarşu vardı və ol həzrətüŋ əyağinə düşüb xidmət vəzifəsi yerinə yetürdi və dedi:

Şe'r:

Ni səadətdür ki, yüzin maŋa görsətdi bu gün,
Din yolində qeybdən Xızr oldı maŋa rəhnəmun.
Can ilə köŋlin fəda qılsun yoluŋa hər kim ol
İstər isə kim, qıla Taŋrı anuŋ qədri füzun.

Neçə gündən soŋra Mosuldən Diməşqə rəvanə oldı. Bəs, Müaviyə ilən mülaqat eyləyüb hər bir şikayət ki Bəsrənüŋ böyükləri ilən cimriləründən var idi, etdi və muradincə cəvablar eşitdi. Gənə Mədinəyə mütəvəccih oldı. Çün Mosulə yetdi, anda bir dusti var idi ki, yekcəhətlik lafını urar idi. İmam Həsən (ə) anuŋ evində qondı və həzə İmam Həsən oraya yetmədin münafiqlər dünyalik ilən anı aldayub bir şişə doptalu ağu aŋa göndərdilər, ta fürsət çağında bir yeməginə, ya içməginə qatub ol həzrətə yedürsün. Bəs, ol səadətsiz dünyalik xatiri içün bəqa nəimindən gözin bağlayüb, bitün dini qürur bazarında **[145b]** xəyanət aqçası ilən satub ol işi qəbul etmiş idi. Gün İmam Həsən anuŋ evinə nüzul etdi, ol məl`un üç qatla ol həzrətə ağu yedirüb kargər olmadı. Şahzadə içdügindən soŋra sayru düşər idi və çox nəstələr xatirinə keçər idi və qonağçınıŋ vəfasizligi ol həzrətə zahir oldı və hal dili bu sözləri əda qılur idi.

Nəzm:

İstəmə kimsədən vəfa, zinhar
Kim, cəhandə vəfalu adəm yox.

Vardı hörmət qırağə, qaçdı vəfa,
Xəlq içində bəğeyr matəm yox.
Qalmadı duzlə əkməgüŋ həqqi,
Sanasan doğrulığ bə-aləm yox.

Əlqissə, hər qaçan ki şahzadə sayru düşər idi, əlləri duayə qaldurub sağlığın dilər idi və Allah-təala şəfa verür idi. Və həmin məl`un mosellü, ağuyi göndərənə adəm saldı ki, üç qatla İmam Həsənə (ə) ağu verdüm və hiç kargər olmadı. Gənə yeŋidən bir parə həlahili-ağuyi göndərdilər və namədə yazdurdılar ki, sə`y edüb bu ağuyi aŋa bir parə içürt kim, əgər bir qətrə mundan mühit dəŋizinə tökülsə, qamu dəŋizüŋ canəvərləri həlak olalar. Taŋrınuŋ qəzasından ol ağu ilə bitigi gətürən bir ağacuŋ dibinə yetüb, devədən enüb bir yemək zəhrimar etdi, yürəgi zəhməti aŋa güclü olub ussı getdi. Bu halətdə bir qara qurt yabandan gəlüb anı həlak etdi, devəsi qaçmağə meyl etdi, noqtəsi bir ağacə bərk olub, həm orada durdı. **[146a]** Və bu vəqtdə İmam Həsənüŋ nökəri bir yerdən gəlür idi, bu mənzilə yetdi və bu halları gördi. Devəniŋ[510] noqtəsi ağacdan cizüb yükini açdı, ol bitig[511] ağu şişəsi ilən gözükdi. Qamusini götürüb şahzadə yanına gətürdi. Həzrət İmam Həsən bitigi mütaliə eyləyüb, səccadəsi altına qoyub kimsənə görsətmədi, ta hiç kim aŋa müttəle olmayıb, qonağcınuŋ xəcalət səbəbi olmasun. Əmma mübarək bəŋizi qızarub, bir əzim təğəyyür halından peyda oldı. Nə qədr ki məclis hazirləri sordılar ki, bu, nə bitikdür və bu nə şişə, İmam Həsən (ə) anlaruŋ cəvabını verməz idi və büzürgvar cəddindən bir hədis nəql eylər idi və oturanları anuŋ ilən məşğul etdi. Bu canibdə Mosuli Səʾd ahəstə döşəgüŋ altına əl uzadub bitigi çıxardı və oxuyandan soŋra özinə titrəyüb, əyağə qalxub, İmam Həsənüŋ əyağinə düşüb dedi:

– Ya Bin Rəsulullah, (s) bizə dəstur ver, ta bu kişidən soralım ki, bu, nə hekayətdür?

İmam Həsən (ə) dedi:

---

510 Əlyazmada: *devəni.*

511 Əlyazmada: *bitigi.*

– Mən bu əməli bəgənməzəm, anuŋ içün ki, xəcalət və infial səbəbi olur və mən istəməzəm ki, bu qədr xidmətdən soŋra ki, bizə eyləyübdür, məndən ötrü şərməndəlik aŋa yüz ura.

Səʾd bu babdan çox mübaliğələr edüb, İmam Həsəndən rüxsətsiz anı çağırub dedi:

– Ey məlʾun, səndən bir söz soraram, cəvab ver. Həzrət Rəsulullah sənüŋlən nə yamanlığ etmiş idi?

Ol kişi dedi:

– Mən həzrət Peyğambərüŋ qulluğinə yetməmişəm və haşa ki, andan bir cəfa kimsənə yemiş ola.

Sə'd dedi:

– Əmirül-mö'minin Əli sənüŋlən nə yamanlığ etmiş idi?

[146b] Dedi:

– Mən çox müddət anuŋ qulluğində idim və hərgiz andan bir məlal tozı xatirümə qonmadı.

Sə'd dedi:

– Pəs, nişün anlaruŋ bağırparələri ilən bəylə ədavət eylərsən və bəylə qəsdlər aŋa gizlü edərsən? Budur sənüŋ bitigüŋ ki, Şamə göndərdüŋ ki, aŋa ağı içürübəm və iş işləməmiş. Budur bitigüŋ cəvabı və hələhili-ağu ki, andan göndərübdürlər.

Ol kişi anı inkar edüb dedi:

– La, vallah, mən yazməyübəm və mundan xəbərsizəm[512].

Filhal Səʾdüŋ nökərləri anı dutub ol qədr dögdilər ki, dər-dəm həlak oldı.

Bəs, İmam Həsən sayru Mosuldən çıxub Mədinəyə vardı və Mədinənüŋ bəgi ol vəqtdə Mərvan idi və ol İmam Həsəni zahirdə çox əzizlərdi və bir dəqiqə xidmət və qayğusindən təqsir etməzdi. Əmma batində anuŋ qəsdində idi və qətlinə tədbirlər edər idi, ta bir gün bir rumi qəravaş ki, Mədinədə dəllallığ edər idi və İsunyə adlu idi və qamu evlərə tərəddüd eylər idi, Mərvanuŋ şum evinə vardı. Mərvan sordı:

[512] Əlyazmada: *xəbərsiz*.

– Ey İsunyə, İmam Həsənüŋ (ə) evinə gəlüb-gedərsən və anuŋ xatunı ilən Cəʾdə[513] bint Əşʾəs tanşlığuŋ var?

Dedi:

– Bəli.

Dedi:

– Ey İsunyə, sənüŋ ilən bir gizlü sözüm var. Əgər sirri saxlaya bilürsən, saŋa miŋ altun verürəm və əlli Misri dəq və budur yüz altun beyʿanə al.

İsunyə çün aqçanı gördi və dəqi-Misrinuŋ vəʿdəsin eşitdi, ğillaz və şidad ilən and içdi ki, Mərvanuŋ razını faş etməyə və hər iş ki aŋa buyurə, can ilən sərəncam eyləyə. Mərvan dedi ki, istərəm ki, Cəʾdənüŋ köŋli İmam Həsənüŋ **[147a]** məhəbbətindən döndərüb söyləyəsən ki, hüsn ilə cəmaluŋ avazəsi və ğənc ilə dəlaluŋ təntənəsi şahə yetübdür və Yezidüŋ köŋli saŋa çox nigəran və aşiqdür və sənüŋ qayğuŋdən ölümə yaxındur. Pəs, əgər sən Yezidüŋ xatunı olasən, Şam ilə İraquŋ banusi olacəqsən. Əgər Cəʿdənüŋ köŋli bu söz ilən aŋa mayil olur, maŋa xəbər yetür, ta bu bab içün bir fikr edəyim.

İsunyə dedi:

– Minnət dutaram.

Bəs Mərvanuŋ evindən çıxub həzrət şahzadənüŋ dəvlətxanəsinə vardı. Həzrət İmam Həsən ilən İmam Hüseyn (ə.m) Əqiq mənzilinə varmış idilər və Cəʿdə evdə yalğuz oturmış idi. İsunyə içərü girdi və sözlər ortayə gətürdi və ol yerdən ki əvrətlərüŋ naqis tədbirləri olur, söz orayə yetürdi ki, məqsud zahir etdi.

Və din əkabirlərindən rəvayətdür ki, şeytani-rəcimüŋ məkri kəlamullahda[514] zəif sifəti ilən məzkur olubdur ki, "*innə keydəş-şeytani kanə zəifa*"[515] və dinsiz əvrətlərüŋ məkri Qurʿani-məciddə əzəmət səmti ilən məsturdur ki, "*innə keydəkunnə əzim*"[516].

---

[513] Farsca orijinalda: *Əsma.* "Şühədanamə"də də babın sonunda bir yerdə: *Əsma.*

[514] Əlyazmada: *kəlamullah*.

[515] *Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir*. (Quran, 4: 76)

[516] *Doğrudan da, sizin məkriniz böyükdür*. (Quran, 12: 28)

***Beyt**:*
Üsyandən urər hər dəm şeytani-nəfs, əmma bil,
Əvrətlərədür muzdur məkrü hiyəl etməkdən.

Əlqissə, İsunyə əfsun müqəddiməsi ilən fərib odı yandurub, dəbdəbə ipi ilən Cə`dənüŋ köŋlinə Yezidüŋ məhəbbəti vəsləsi tikdi. Cə`də mülkü mal xatiriçün Yezid eşqnüŋ camı nuş qıldı və İmam Həsənüŋ eski söhbəti həqqini fəramuş edüb biryan etdi: *"İnnə keydəkunnə əzim"*.

***Nəzm**:*
Dişilərdən eşitməgil mehr hiç
[147b] *Kim, qılurlar məkr ilə ərlərini gic*.

İsunyə çün gördi ki, Cə`də anuŋ məkri torına giriftar oldı, andan çıxub, Mərvanə varub hali-surəti aŋa bildürdi. Mərvan daxi peyğam göndərdi ki, ta İmam Həsən (ə) diridür, bu iş təmam olmaz. Cə`də dedi:

– Mən anuŋ dəf`ini bilməzəm ki, necəlik ilən olur.

Pəs, bir parə hələhili-ağu aŋa göndərdilər ki, munı aŋa içürəgör. Ol məl`unə Mustəfanuŋ bağırparəsi qəsdini eyləməgə özinə müqərrər etdi. Ol ağuyi bala qatub ol həzrətə içürdi. Pəs, İmam Həsən ol balı yeməkdən sayru düşdi və gecə xamı gecə qusməğə düşüb yürək zəhməti çəkdi. Həman ki daŋ çıqdı, Mustəfanuŋ müqəddəs rövzəsi üstinə ki, dərdmənlərüŋ darüş-şəfasıdur, təvəccöh eylədi və özini ol ə'la mərqədinə sürtüb və şəfa bulub öz mənzilinə qayıtdı. Və Cəʾdənuŋ həqqində gümanlu olub, daxi anuŋ evində yemək yemədi, bəlkə Qasimüŋ anası evindən, ya İmam Hüseynüŋ (ə) evindən yemək gətürür idilər iki qatla, ta bir gün Cə`dənüŋ evinə vardı. Cəʾdə dedi:

– Ya İmam Həsən, Mədinənüŋ yaxın nəxlistanində tazə xurma gətürübdürlər. Əgər meylüŋ var isə, gətürəyim.

Şahzadənüŋ köŋlı tazə xurmayı çox sevər idi. Buyurdı:

– Gətür.

Cəʾdə vardı, bir təbəq xurma gətürdi, anlardan neçəsi ağuyə bulaşdırmış və neçəsi öz halı ilən qoymış və hərəsinə bir nişanə qoymış. İmam Həsən (ə) dedi:

– Sən daxi mənüm ilən ye.

Cəʾdə ağusız xurmayı bilür idi, andan yeyər idi və şahzadə mülahizəsiz **[148a]** tənavül eylərdi, ta yedi ağulu xurma yedi, mübarək yürəgi bulaşub yeməkdən əlin çəkdi. Qərdaşınuŋ evinə gəldi və ol gecə səbahadək çığırub fəryad edərdi və ələssəbah daxi cəddinüŋ rövzəsi üstinə varub dedi.

Beyt:

Eşigüŋ darüş-şəfadur, ey Rəsulül-aləmin,
Dərdməndüz, qapuŋa gəldük, şəfa vergil həmin.

Bu qatla daxi büzürgvar cəddinüŋ ruhi içün sağlığ bulub qayıtdı və gənə Cə'dənüŋ evinə varub dedi:

– Ey Cəʾdə, ol rütübdən ki sənüŋ evüŋdə yedüm, nələr çəkdüm?

Cəʾdə dedi:

– Ya Bin Rəsulullah, mən təbəqüŋ başını örtmiş idüm və sizüŋ ilən müvafiqət edüb xurma yedüm.

İmam Həsən acığlu olub, anuŋ evindən çıxub hal dili ilən söylədi.

Rübaiyyə:

Bəs[517] *naxoşü qara ruzigarum vardır,*
Təni-xəstəvü bəstə, karü barum vardır.
Mihnət dəŋizüŋ içində qərqə olubəm,
Hər necə ki dünyadən kənarum vardur.

Bəs qərdaşlarını çağırub dedi:

– Ey əzizlər, iki yıldur ki, mən bu şəhrdən bir gün xoşluğ görməyübəm va daim sayruəm. Niyyətüm oldur ki, neçə gün Mosulə varub, su ilə həvası təğyir edəyim, olamı ki, sağlığ bulam və bir az müddət düşmənlərüŋ məkr ilə keydindən qurtulam.

[517] Əlyazmada: *pəs*.

Bəs İbn Əbbas ilən neçə xassə nökərləri ilə çakərlərindən Mosulə yüz qoydılar. Əmma Şamuŋ eli çün eşitdilər ki, ol həzrət Şamə vardı, dustları xürrəm və düşmənləri dijəm oldılar. Və Diməşqdə zahir ilə batin bir kor kişi var idi və Əhli-Beytüŋ **[148b]** düşməni idi. Eşitdi ki, İmam Həsən (ə) Mosulə varubdur, öz-özinə dedi: "Bu, mənüm düşmənüm və düşmənüm oğlıdur və razi olmanam, illa anuŋ qətlinə. Və hiç kimsə maŋa yaman güman aparmaz. Andan yeg dəgül ki, Mosulə varam və dustliğ tərhini salam və fürsət çağında anuŋ ilən bir iş ki, müyəssər ola, edəm".

Pəs, əsasınuŋ küpi buyurdı kim, ağu suyi verdilər. Anı götürüb Mosulə əzm eylədi. Çün orayə yetdi, bir məscidə vardı ki, İmam Həsən anda nəmaz qılur idi. Xalisi-e'tiqadindən xəbər verüb hər gün gəlür idi və İmamuŋ ardından nəmaz qılur idi və hədisinə qulağ asar idi və ökür-ökür ağlar idi. Və daim bu fikrdə idi ki, aya qaçan ola ki, mən bu sinanı İmam Həsənüŋ bir üzvi gəvdəsindən yetürmiş olam və ol ağuyi anuŋ cəsədinə batdurub anı həlak eyləmiş olam və əgər miŋ canı var ola, birisin aparmaya. Ta bir gün İmam Həsən ikindü nəmazı qılub, məsciddən çıxub, məscidüŋ qapusində bir süffədə oturmış idi və sağ əyağı sol əyağınuŋ üstinə qoymış idi və əshab ilən söyləşür idi. Ol bəsirətsiz kor məsciddən çıqdı və: "İmam Həsən, İmam Həsən", – deyərdi və əsası yerə urərdi. Qəzadən ol əsa İmam Həsənüŋ əyağı üstinə yetürdi. Kor bildi ki, əsasınuŋ küpi ol həzrətüŋ əyağinə dəgdürübdür. Güclənüb əsanuŋ küpi baturdı. Filhal İmam Həsən bir ah çəküb düşdi **[149a]** və əyağı şişüb yaradan qan rəvan oldı. Əbdullah Əbbas İmamuŋ şiələri ilən korı dutdılar azarlamağə. İmam Həsən (ə) dedi:

– Qoyuŋız ki, bəylə ki zahir gözi kordur, batin bəsirəti ilən daxi nabinadur və Qiyamətdə həm bəylə kor həşr oləcəqdür.

Həman ki korı qoydılar, tə`cil ilən yügürdi, ta xəlqüŋ gözindən gözükməz oldı. Şahzadə əyağ ağrığından fəryadə düşdi və dedi:

– İstər idüm ki, bir neçə gün mihnət ilə bəladan və məşəqqət ilə ənadən və düşmənləriŋ keydindən və cəfakar əhlinüŋ məkrindən

qurtulam, müyəssər olmadı. Hər yerə ki, gedərəm, mihnət ilə yoldaşam[518] və bəla və qayğu ilə qərin.

Bəs cərrah çağırdılar. Çün cərrahuŋ gözi ol yarəyə düşdi, dedi:

– Əsanuŋ küpinə ağu suyi vermiş idilər, bu yarə qəsd ilən urubdurlar.

Sə'd dedi:

– Ya Bin Rəsulullah, qoymaduŋ ki, biz ol korı cəza ilə səzasinə yetürəli.

İmam Həsən (ə) dedi:

– Ol öz əməlinüŋ mükafatinə yetəcəkdür: "*Vəla yəhiqül-məkrus-səyyiu illa bi-əhlihi*".[519]

Əmma cərrah bir dana kişi idi, əlacinə məşğul oldı və ol ağuları şahzadənüŋ gəvdəsindən çəkdi. Və əshab ol korı bulmağə durdılar və ol məl'un bir yerdə gizlənmiş idi. On dörd gün mundan keçəli on beşinci gün Diməşq yolına doğrulub gedər idi. Qəzadən ol gün Əbbas bin Əli (ə) Sə'düŋ evinə varur idi. Korı gördi, əlindən əsayı **[149b]** aldı və ol qədr anuŋ başına urdı ki, əsa parə-parə oldı. Pəs qullarına buyurdı kim, başını kəsdilər və ol şəqinüŋ öldürdügi səsi Mosulə düşdi. Səʾd qərdaşı oğlı ilən Muxtar gəldilər və neçə yük odun gətürüb ol məlʾuni yandurdılar.

Və şahzadə gənə Mədinəyə vardı və bir rəvayətdə daxi var ki, Şamə vardı və Müaviyə ilən sözlər söyləyüb, hüccətlər sabit edüb Mədinəyə qayıtdı. Və həman bəylə sayru idi və Cəʾdənüŋ evinə gəlmək-getmək bərtərəf etdi. Daxi İsunyə bir parə əzilmiş əlmas bir yüz incüsi ilən Mərvanuŋ yanından Cə`dənüŋ yanına aparub dedi:

– Yezid sənüŋ məhəbbətüŋdən sayrudur və peyğam göndərübdür ki, iştiyaqümiz didaruŋa çoxalubdur, türkən olub ol işi qayır, ta nə qədr ki tezrak isə, fəraq vüsalə dönə. İmdi, ey Cəʾdə, cəhd edüb bu əlmasdən bir parə İmam Həsənə su ilən içürəgör, ta sən qurtulub Şam məmləkətinuŋ banuyi olasan.

---

[518] Əlyazmada: *yoldaşum.*

[519] *Pis tələnin zərəri ancaq onu qurana dəyər.* (Quran, 35: 43)

Cəʾdə çün incüyi gördi, aŋa aldanub İmam Həsəni şəhid etməğə durdı. Nə qədr ki cəhd eylər idi, fürsət bulmaz idi, zira kim İmam içün bir xass hücrə tərtib etmiş idilər ki, gecə ilən gündüz orada idi, ta bir qatla adinə gecəsi səfər ayınuŋ igirmi səkizində Cəʾdə bir parə əlmaz götürüb ol hücrəyə yüz qoydı. Özinə müqərrər eylədi ki, əgər bir kimsə məni görə, deyəm ki, mundən artuq fəraq yüki çəkəməz idim, anuŋ içün İmamuŋ qulluğinə **[150a]** gəldüm və əgər məni görməsünlər, işümi qayurub qayıdayım. Pəs hücrənüŋ üstinə çıxdı, şahzadəni gördi kim, yatub uyur və qızqərdaşları qızları ilən qəravaşları çəp-çəvrəsində uyuyubdurlar. Pəs Cəʾdə ahəstə-ahəstə vardı və su kuzəsi ki, İmamuŋ başı yanında durmış idi, götürub gördi ki, kuzənüŋ başı bir eski ilən bağlayub möhrlüdür. Ol eskinüŋ üstində əlmas tökdi və barmağların aŋa sürtdi, ta əlmas qamu eskidən keçüb kuzəyə vardı. Bu şum əməli edüb, hücrədən enüb öz mənzilinə qayıtdı və hiç kimsə anı görmədi.

Əmma bir saətdən soŋra İmam Həsən (ə) oyanub qızqərdaşı Zəynəbi çağırdı, dedi:

– Ya əxtah, cəddüm Mustəfa və atam Murtəza və anam Fatimeyi-Zəhra (ə.s) düşdə gördüm, aftabeyi yanümə gətür, ta bir dəstnəmaz alayım.

Və özi mübarək əlini uzadub,kuzəni götürüb həman bəylə möhrlü andan bir doyuncə su içdi. Pəs dedi:

– Ah, bu necə su idi ki, boğazümdən göbəgümədək yarıldı.

Dərhal [bir kimsəni] göndərdi və İmam Hüseyni çağırdı. Çün İmam Hüseyn gəldi, İmam Həsən (ə) qollarını açub, qərdaşını qucağlayub dedi:

– Vida et ki, didar Qiyamətə düşdi.

Şe'r:

Fəraq yükini biz yüklədük, həman vardük,
Cəhani- fanidə əglənmədük, rəvan vardük.
Dedük ki, bir neçə gün dustlarlə oturəüz,
Əcəl yetüb, nəfəsi verməyüb əman, vardük.

[150b] Ey qərdaş, imdicə cəddüm ilə atam və anamı düşdə gördüm kim, cənnət içində gəzər idilər və çox hurlar maŋa görsədür idilər. Cəddüm (ə) maŋa dedi:

– Ey oğul, şad ol ki, düşmənlərüŋ əlindən qurtulduŋ. Daŋla gecəsi bizim yanımızda olacəksən.

Bu düşi görincə oyandum və bu kuzədən bir su içdüm. Gördüm ki, boğazümdən göbəgümədək yırtdı.

İmam Hüseyn (ə) ol kuzəni götürüb yerə urub sındırdı və suları tökdi. Hər yerə ki ol su[520] yetdi, cuşə gəlüb yarıldı. Pəs şahzadənüŋ yürəgi ilə qarnı ağrımağ bünyad etdi və özini yerə urub ağlar idi. Həman ki gün çıxdı, qusmağə düşdi. Bir həlici yanına qoydılar, bağırı parə-parə olub boğazından çıxar idi. Bir qəvl ilən yüz yetmiş parə çıxub həliciyə düşdi. Əmma çün gün ucaldı, İmam Həsənüŋ mübarək bəŋzi yaşıla döndi. Sordı kim, mənüm bəŋzüm nə rəngdür?

Dedilər:

– Yaşıl.

Dedi:

– Ey qərdaşum İmam Hüseyn, me'racuŋ hekayəti zahir oldı?

Dedi:

– Bəli.

Və əlini İmam Hüseynüŋ boynına çəküb, yüzini anuŋ yüzinə qoyub, ikisi daxi ağlamağə düşdilər. Hazirlərdən xüruş çıxdı və dedilər:

– Ya Bin Rəsulullah, meʾracuŋ hədisindən bizə xəbər ver.

İmam dedi ki, ol gecə ki cəddüm[521] Mustəfa me'racə vardı, buyurdı kim, məni uçmağə apardılar. İman əhlinuŋ mənzilləri ilən dərəcələri görsədür idilər. İki qəsri **[151a]** gördüm bir-birinüŋ yanında və hər dəstur ilən yaratmış idi: birisi yaşıl zümürrüddən kim, anuŋ şövqi gözləri xirə edərdi və birisi qızıl yaqutdən ki, səfası günəşüŋ şövqindən aydınrak idi. Rizvandən sordum ki, bu qəsrlər kimüŋdür?

---

[520] Əlyazmada: *suyı.*

[521] Əlyazmada: *cəddümi.*

Dedi:

– Biri İmam Həsənüŋdür və biri İmam Hüseynüŋ.

Dedim:

– Nişün ikisi daxi bir rəng dəgül?

Rizvan əpsəm oldı.

Həzrət Peyğambər dedi:

– Nişün cəvab verməzsən?

Cəbrail dedi:

– Ya Rəsulullah, ol deməgə utanur, mən deyim. Ol yaşıl köşk İmam Həsənüŋdür ki, aŋa ağu içürüb, bəŋzi yaşıla dönəcəkdür. Və qızıl köşk İmam Hüseynüŋdür ki, anı şəhid eyləyələr və bəŋzi qızıl qan ilə qızıl olacaqdur.

İmam Həsən munı deyüb, İmam Hüseyni bərk qucağlayub yüzini anuŋ yüzinə sürtər idi və alnını öpər idi və əylə zar-zar ağlardılar ki, kimsənüŋ taqəti qalmadı anları görməgə. Hazirlər daxi anlar ilə ittifaq eyləyüb ağlamağə düşdilər. Yer ilə gög və qapu ilə divar və daş ilə əşcar bulutlar kimi yaşlar axar idilər.

***Beyt**:*

Qoy ki, qanlar edəlim gözdən rəvan
Kim, cəsəddən ayru düşər bu rəvan .

Və əlhəqq, bəylə vaqiələrdə ağlamağı mən' etmək olmaz və bəylə yaslardə ağlayanı məʿzur dutmək gərək. Aya hanği köŋlüŋ taqəti var bu yüki çəkməgə və hanği gözüŋ təhəmmüli var yaşlarını saxlamagə?

Və "Şəvahid" kitabında yazıludur ki, İmam Həsənüŋ vəfatı çağında İmam **[151b]** Hüseyn (ə) üstinə gəlüb sordı:

– Ey qərdaş, kimə gümanuŋ gedər və bu ağuyi kim saŋa içürmiş ola?

Dedi:

– Əgər ol kimsə ola ki, mənüm gümanumdur, Taŋrı-təalanuŋ qəzəbinə giriftar olacaqdur ki, varı qəzəblərdən bətərdür. Və əgər ol olmasa, sevmənəm ki, bir suçsizi mənüm içün öldürəsiz.

Və Xacə Parsa "Fəslül-xitab"də demiş kim, altı qatla İmam Həsənə ağu yedürdilər və ol həzrətə kargər olmadı. Altıncı qatla işin işlədi və İmam Hüseyn (ə) qərdaşınuŋ üstinə gəldi və dedi:

– Ey qərdaş, əgər bilürsən ki, kim saŋa ağu yedürübdür, söylə ki, əgər saŋa bir iş vaqe olsa, anuŋlən düşmənlik edəlim.

Dedi:

– Ey qərdaş, bizim atamız Əliyyi-Murtəza ğəmmaz dəgül idi, yə'ni pərdəyırtıcı və aŋamız daxi ğəmz etməz idi və cəddimiz Muhəmməd Mustəfa (ə) ğəmmazlığdan mən' etmişdür və cəddəmiz Xədiceyi-Kübra ğəmz ilən məşhur olmayupdur və Əhli-Beytdən ğəmmazlığ gəlməz və bizdən əcəb gəlür.

***Beyt**:*

Vardük qəmi-eşqüŋni kimsənə demədük hiç,
Hər necə ki dünyadə bə-cüz qəm yemədük hiç.

Əmma Cəʾdəyi xəlvətdə çağırub dedi:

– Ey nalayiq xatun vey yaraşmaz banu vey cəfalu yar vey şumiqəddar, bil kim, mən kərəm yüzi ilən uşağlarum ilən qərdaşlarümə sənüŋ məkrindən xəbər vermədüm və işinüŋ üstindən pərdəni götürmədüm və sənüŋ işlədüŋi Qiyamət sorğusinə qoydum. Taŋrıdan hiç qorxmaduŋ və məndən utanmaduŋ? Axir dustlar ilə [bəylə] əməllər **[152a]** edərlər və mən təki vəfalu yarə bicəhət bəylə işlər etmiş ola.

***Beyt**:*

Kimsə hərgiz bisəbəb dildarı öldürmişdürür,
Mən təki yari-vəfalu dünyadə görmişdürür.
Görmədük, eşitmədük hiç yardən kim, aşiqi,
Eşigində min cəfavü cövr ilə sürmişdürür.

Pəs yüzini andan çevirüb dedi:

– Var kim, bilürəm ki, muraduŋa yetməyəcəksən.

Pəs İmam Hüseyn ilən uşağlarını və qərdaşlarını çağırub təqva və təharətə vəsiyyət qıldı və Ümmü Külsümi çağırdı və dedi:

– Ey qərdaşum və hər işdə-gücdə sirdaşum, oğlum Qasimi çağır.

Ümmü Külsüm buyurdı kim, Qasimi hazir etdilər. İmam Həsən anı qucağlayub, yüzini anuŋ yüzinə qoyub ökür-ökür ağladı. Andan soŋra Qasimüŋ əlini dutub İmam Hüseynüŋ əlinə verüb dedi :

– Ey qərdaş, filan qızuŋı Qasimə namzəd eylədüm, həman ki çağı gələ, aŋa tapşurəsən və atalik nəzəri və əmmülik şəfəqqəti andan dəriğ etməyəsən.

Pəs, şənbə gecəsi səfər ayınuŋ igirmi doquzunda ol həzrətüŋ halı pərişan olub, gözlərini yumdı. Qərdaşları ilən qızqərdaşı və uşağları üstində qamu hazir idilər. Çün gecədən iki daŋ keçdi, mübarək gözini açub dedi:

– Ya İmam Hüseyn, qərdaşlarum ilən uşağlarum saŋa tapşurdum və səni Taŋrıyə tapşurdum və şəhadət kəlməsini ərz edüb, "*və ma indəllahi xeyrun lil-əbrar*"[522] nəssi gözi yamacında durğuzub, "*və innə ləhu indəna li-zulfa və husnə məab*"[523] əlini götürüb

***Misra**:*
Yarə vardı yarü dustə vardı dust.
***Nəzm**:*
Vardı üqbanüŋ gülistaninə bir sərvi-çəmən,
Yə'ni nuri-dideyi-Zəhra, Əli oğlu Həsən.
Saçlarınuŋ şövqidən oldı ipar doptalu qan.
Getdi yüzi hicridən bustandə abi- nəstərən.
[152b] *Nərgisüŋ gözi ağardı piri-Kənʿan kimi uş,*
Getdi gözi qarşusindən Yusifi-gülpirəhən.

Qərdaşları anuŋ yəraqını görməgə məşğul oldılar və təchizi-təkfini eyləyüb Bəqi guristaninə aparub, cəddəsi Fatimə bint Əsədüŋ yanına dəfn etdilər. Və ol həzrətüŋ ömri səhih qəvli ilən qırq yedi yaş idi və cüzvicə artuğ həm deyübdürlər[524].

---

[522] *Əməlisaleh insanlar üçün Allah yanında olan nemətlər daha xeyirlidir*. (Quran, 3: 198)

[523] *Şübhəsiz ki, [Süleymanın] Bizim yanımızda ayrı bir yaxınlığı və gözəl bir aqibəti vardır*. (Quran, 38: 40)

[524] Əlyazmada: *deyübdür*.

Əmma bu yasdan soŋra Mərvani-Həkəm özi-özilən danışub dedi: İmam Hüseyn bir qeyrətlü kişidür və təhəmmül etməyüb qərdaşınuŋ öldüräni ardına varəcəqdür və əgər Cə`dəni duta, Cə`də öz qorxusindən deyəcəkdür ki, maŋa Mərvan ağu ilə əlmas göndərdi. İmam Hüseyn qatlanmayub, Bəni Haşim cığırəcəqdürlər və bir fitnə qopacaqdur ki, hiç tədbir ilə otruşmasun və bir od şö`lə uracaqdur ki, mühit dəŋizinüŋ suyi anı öldüräməz. Bəs Cə`dəyə peyğam göndərdi ki, Mədinədə oturubsən, qalx və ta əyağuŋ var, qaç ki, İmam Hüseyn sənüŋ fikrindədür.

Və Cə`də daxi qorqmış idi və ol yaman əməlindən pəşiman olmış idi, əmma faidəsi yox idi. Filhal evindən qaçub Mərvanuŋ evinə vardı. Mərvan üç qul anuŋlən qoşub üç qəravaş ilən Şamə göndərdi və bitik göndərdi ki, əlbəttə, bu əvrəti gizlədüŋ, yoxsa bir yerə göndərüŋ ki, hiç kimsə muna yol aparmasun ki, əgər bir rəmz bu hekayətdən faş ola, uyumış fitnə oyanub, qılıclar qınında aram dutmayub çıxaçaqdur. Bəs, sə`y etmək gərəksiŋiz ki, Cə`dədən bu razı aşkar olmasun və bizi rüsva qılmasun.

Əmma çün bitik ilə Cə`də Diməşqə yetdi, şahzadənüŋ xəbəri andan ilərü ol məmləkətə yetmiş idi. Və Müaviyə buyurdı kim, bazar dükanlarınuŋ qapuları bağladılar və dərvazələri qəra qıldılar və qamu Şamuŋ əkabiri qəra geydilər və üc gün-üc gecə yas dutdılar. Andan soŋra Cə`dəni cağırub ol **[153a]** haluŋ keyfiyyətindən sordı. Əsma durub ötmiş vaqiələri və ağular yedürdügi və əlmas içürdügi əvvəlindən axirinədək təqrir qıldı. Soŋra dedi ki, bu işi sənüŋ məhəbbətüŋ ilən Yezidüŋ xoşnudlığı içün eyləmişəm və Taŋrınıŋ acığı və əzabı və Rəsulullahuŋ qəzəbi və itabı və damunuŋ iqabı özümə ixtiyar etdüm. Müaviyə dedi:

– Taŋrınuŋ lə`nəti saŋa gəlsün. Taŋrıdan utanmaduŋ və Rəsulullahuŋ qəhrindən qorxmaduŋ və ol iki ənbər qoxulu saçə rəhm etmədüŋ və ol Ay təki yüzə həyfüŋ gəlmədi. Çün ol şahzadəyə rəhm etmədüŋ, Yezidüŋ söhbətinə daxi layiq dəgülsən. Yəxşicə fikr et ki, çün Rəsulullahuŋ bağırparəsi ilən muncılayın işlər eylədüŋ, mə`lumdur ki, Yezid ilən nələr eyləyəcəksən?

Şe'r:
Çü gəlməz cüz cəfavü cövr səndən,
Yəqin bil ki, cəfalu adəmsən.
Necə səndən vəfa umsun kişi, çün
İçündür doptalu əz-məkrü əfsun.

Ol qərayüzlü bədbəxt bir saət başını aşağəyə salub, İmam Həsənüŋ müsahibət ruzigarını aŋub zar-zar ağladı. Müaviyə dedi:

– İmdi ki özüni damuyə salduŋ və Taŋrı-təala ilən Rəsuli incitdüŋ, ol qədr ağla kim, gözüŋ kor olsun.

Rəvayətdür ki, üc gün ilə üc gecə ağlayub nə yemək yeyər idi və nə su içərdi, deyər idi:

– Zehi [dini] əldən verdüm və dünya əlümə girmədi. Və İmam Həsənüŋ qarqışı əsər qıldı. "*Xəsirəd-dunya vəl-axirətə, zalikə huvəl-xusranul-mubini*"[525] rəqəmi halumuŋ səfhəsinə çəkildi.

Misra:
Gər munuŋ tək qüssədə qan ağlasam, olur rəva.

Pəs Müaviyə dörd kişiyə buyurdı kim, anı Fil cəzirəsinə yetürüb, əli və əyağı bağlayub dəŋizə atsunlar. Çün bir ağac yol ol cəzirəyə qalmış idi, bir tufan qopdı və tozlu yel zahir oldı və ol məl`unəni yer yüzindən götürüb ol cəzirəyə saldı və andan soŋra hiç kim andan xəbər vermədi.

[525] *Dünyasını da, axirətini də əldən verər – açıq-aşkar ziyan da budur*. (Quran, 22: 11)

[153b] YEDİNCİ BAB

İmam Hüseynüŋ (ə) mənaqibi

"Şəvahid" kitabından rəvayətdür ki, İmam Hüseyn (ə) üçünci İmamdur Əhli-Beytdən və ol Əbül-əimmədür, yə'ni İmamlaruŋ atası və künyəti Əbu Əbdullah və ləqəbi Zəki və Şəhid. Doğduği Mədinədə düşənbə güni şə'ban ayınuŋ dördüncisində dört yıl hicrətdən soŋra. Ol saət ki, ol həzrət dünyayə qədəm basdı, həzrət Rəsulullahə (ə) bəşarət apardılar. Filhal həzrət Fatimənüŋ (ə.s) evinə təşrifi-şərif ərzani qıldı və Əsma bint Ümeys anı aq qundağə çulğayub cəddinüŋ (ə) dizi istinə qoydı. Aləmüŋ sərvəri nəmaz bangı sağ qulağına və qamət bangı sol qulağına dedi və buyurdı kim, ya Əli (ə), bu oğlana nə ad qoyubsən? Əmirül-mö'minin Əli (ə) dedi:

– Mənüm nə həddüm var ki, səndən ilərü öz başümə munuŋ adını qoyam? Əmma xatirimdə keçər idi ki, adını Hərb qoyam, ya qərdaşum adını – Cə'fər.

Həzrət Mustəfa (s) dedi:

– Mən gözədürəm ki, Allah-təaladən nə əmr gələ.

Həm ol saət həzrət Cəbrail (ə) yerə enüb dedi:

– Ya Nəbiyullah, munuŋ qərdaşı Harunuŋ böyük oğlınuŋ adını Şəppər qoyubsən. Muŋa daxi anuŋ kiçi qərdaşınuŋ adını qoy.

Peyğambər (ə) dedi kim, anuŋ adı nə idi?

Cəbrail dedi:

– Şəpir.

Peyğambər (ə) dedi:

– Bu, ibri dilidür və maŋa ərəb **[154a]** dili ərzani olupdur.

Cəbrail dedi:

– Ya Rəsulullah (ə), Şəpir mə'nisi ərəb dilincə Hüseyndür.

Pəs, ol həzrət anuŋ adını Hüseyn qoydı və yedisində əqiqə buyurdı iki qoyuna və başını qırqdılar və gümiş ilən müqabil edüb sədəqə verdi.

Və rəvayətdür ki, çün İmam Hüseyn (ə) doğdı, Taŋrı-təala Cəbraili[526] Rəsulinə göndərdi və dedi:

– Var həbibümə muştuluq ver və andan soŋra anuŋ qətlindən xəbər et və yasın ver.

Pəs Cəbrail gəldi və İmam Hüseyni gördi Mustəfanuŋ (ə) ətəgində və boğazı öpər idi. Pəs, Cəbrail təhniyət verüb soŋra müsibət yasını verdi. Həzrət Rəsulullah bildi ki, səbəbi-təhniyət nədür, əmma yas mövcibi mə`lum etməmiş idi. Cəbrail dedi:

– Ya Rəsulullah (ə), bu yer ki imdi sən öpdüŋ, atası ilən anasından soŋra cəfa qılıcı ilən məcruh eyləyəcəkdürlər.

Və bir şəmmə Kərbəla vaqiəsindən Mustəfanuŋ (ə) ərzinə yetürdi. Peyğambər (ə) ağladı. Əmirül-mö'minin Əli (ə) orada hazir idi. Sordı ki, ya Rəsulullah, bu ağlamağuŋ səbəbi nədür?

Mustəfa (s) daxi ağladı və ağlayu-ağlayu Fatimənüŋ (ə.s) hücrəsinə girdi. Çün Fatimə (ə.s) Əlini (ə) ağlayu gördi, dedi:

– Ey əmmüm oğlı, bu gün şadiliğ günidür, nə mihnət və qayğu çağı. Əgər şadiliğdəndür, söylə və əgər qayğudəndür, izhar eylə.

Murtəza (ə) dedi:

– Ya Fatimə, **[154b]** mənüm ağladuğum Hüseyndən ötrüdür ki, seyyidi-aləm anuŋ şəhidliğini Cəbrail dilindən təqrir eylədi.

Fatimə (ə.s) həman ki bu xəbəri eşitdı, çığırdı və ismət çadırı başına örtüb atasınuŋ hücrəsinə gəldi və fəryad eylədi və dedi:

– Ya Rəsulullah, Əli (ə) maŋa xəbər verdi ki, sən Cəbrail qəvlindən bəylə təqrir eyləmişsən ki, bir neçə cəfakar ümmətlər rəhmsizliğ ilən Hüseynüŋ boğazı ki, sənüŋ öpmək yeridür, cəfa qılıcı ilən məcruh eyləyələr.

Peyğambər (ə) buyurdı ki, bəli, Cəbrail bəylə dedi. Fatimə (ə.s) ah ilə naləyə düşdi ki, mənüm Hüseynüm nə günah eyləmiş ola ki, uşağlığda aŋa bəylə zülmlər keçə?

---

[526] Əlyazmada: *Cəbrail.*

Xaceyi-aləm (s) dedi:

– Ya Fatimə, bu vaqiə kiçiliğdə və yigitlikdə olmayacaqdur, bəlkə bir gün olacaqdur ki, nə mən olam və nə sən və nə atası Əli və nə qərdaşı Həsən.

Fatimə (ə.s) ağlamağə düşdi və dedi ki, ey ananuŋ məzlumi və şəhidi və bikəsi və ümidsizi,ol gündə ki, ataŋ ilən anaŋ və qərdaşuŋ olmayalar, kim ola kim, sənüŋ yasuŋ duta və yas şərtini yerinə yetürə. Nolaydı kim, mən ol gün diri olaydum, ta yasuŋ şərtincə duta idüm.

Beyt:

Ol gün ki olmayam mən ilə ataŋ, ey Hüseyn,
Kimdür ki, yas şərtini yerinə gətürə ?

Ravi der ki, bir hatif araz verdi ki, anuŋ matəmini axirzəman ümmətlər dutacaqdurlar ki, hər yıl çün mühərrəm ayı gələ ki, ol ayda anı şəhid eyləmiş olalar, anlar anuŋ yasını yeŋidən dutalar **[155a]** və müsibət şərti şərtincə yerinə yetürələr və nədamət yaşı gözlərindən rəvanə eyləyələr.

Beyt:

Bu müsibətdən dügünlər ki, köksümizdə var çox,
Bu əzadə kimsənüŋ köŋlində qeyr qayğu yox.

Şeyx Müfid rəvayət eylər ki, ol vəqt ki Cəbrail (ə) təhniyətə gəlür idi, bir firisteyi gördi yer üstinə düşüb zar-zar ağlar. Cəbrail anuŋ yanına getdi və anı tanıdı ki, üçünci gögüŋ mələklərindən idi: yetmiş miŋ mələkün böyügi və adı Fətrəteyn[527]. Cəbrail dedi:

– Ey Fətrəteyn, bu nə halətdür?

Fətrəteyn dedi:

– Ey Cəbrail, Həqq-təala maŋa bir əmr eyləmiş idi, cüzvi təqsirliğ məndən vaqe oldı, qeyrət ildurumi dəgdürüb qanatum yandurdı. Dünə gün izzət məsnədində idüm və bu gün məzəllət təhləkəsində.

[527] Farsca orijinalda: *Qətrəs.*

Beyt:
Kimsə yox idi mənüm təki hiç dünə gün
Mən kib daxi yox kimsə bu gün zarü zəbun.

– Ey Cəbrail, sən nərəyə gedərsən?

Dedi kim, məni Rəsulullah qulluğinə göndərübdürlər aŋa təhniyət verməgə ki, Taŋrı-təala bir səadətlü oğlan anlarə verübdür.

Fətrəteyn dedi:

– Nola gər məni biləncə aparasən. Vəqt ola ki, ol həzrət maŋa şəfaət eyləyə və Taŋrı-təala qanatum geri verə və öz yerümə gedəm.

Cəbrail anı götürüb bilə apardı və səlam və təhniyətdən soŋra Fətrəteynüŋ vaqiəsi Peyğambərüŋ (s) ərzinə yetürdi. Ol saətdə İmam Hüseyn (ə) Mustəfanuŋ (s) qucağində idi. Peyğambər (ə) **[155b]** dedi:

– Ey Fətrəteyn, gəl özüŋi Hüseynə sürt.

Fətrəteyn gəldi və özini Hüseynüŋ mübarək cəsədinə sürtdi. Filhal qanatları yetdi və öz yerinə qayıtdı.

Və İmam Hüseyn (ə) şəhadətindən soŋra çün Fətrəteyn vaqif oldı, dedi:

– Nolaydı kim, mənüm xəbərüm olaydı, ta öz rəfiqlərüm ilən yerə gedəydüm və anuŋ düşmənləri ilən səvaş eyləyəydüm.

Həzrət İzzətdən xitab gəldi ki, əgər ol halət fövt oldı, hala yetmiş miŋ firiştə ilən ki, saŋa tabındurlar, yerə var və anuŋ rövzəsi üstində mücavir ol və hər dünü gün anuŋ içün ağla və anuŋ səvabı anlarə ki, anuŋ içün ağlarlar, bağışla.

Fətrəteyin Taŋrı buyruği ilən yerə endi və Kərbələdə mücavir olub ol nəstəyə ki aŋa buyurmış idilər, məşğul oldı.

Beyt:
Bu vaqiədə mələk gözi giryandur,
Bu qayğudə günəş yürəgi biryandur.

"Şəvahid" kitabından rəvayətdür ki, İmam Hüseynüŋ (ə) bir cəmalı var idi ki, hər yerdə ki oturmış olaydı, anuŋ mübarək yüzinüŋ şövqi və nuri ol qayətdə idi ki, aŋa yol aparur idilər və başdan əyağinədək təmam həzrət Mustəfayə (ə) oxşar idi. Bəʾli bin Mərvə rəvayət

eylər ki, Mustəfadən (ə) eşitdüm ki, buyurdı ki, Hüseyn məndəndür və mən Hüseyndənəm. Taŋrı sevər ol kimsəni ki, Hüseyni sevər. Hüseyn bir sibtdür əsbatdən. Və ol həzrət İmam Hüseyni (ə) çox sevər idi **[156a]** və İmam Hüseyn sevəni yanında əziz idi.

Rəvayətdür ki, bir gün Rəsulullah (s) bir neçə əshab ilən bir küçədə ötər idi. Neçə uşağları oynamağdə gördi. Ol həzrət anlaruŋ ortasına girdi və anlardan bir oğlan götürdi və anuŋ alnını öpüb qucağına aldı. Sordılar ki, ya Rəsulullah, biz bu oğlanı ki, sən anı bəylə əziz eylədüŋ, bilməzüz kimdür? Peyğəmbər (s) buyurdu ki, ey dustlar, maŋa məlamət eyləməŋiz ki, mən bir gün gördüm ki, bu oğlan mənüm Hüseynüm ilən oynar idi və anuŋ əyağınuŋ toprağıŋı götürüb gözinə sürtər idi. O gündən bərlü munı sevər oldum və atasınuŋ anası ilən Qiyamətdə şəfaətcisi olacağam.

Şe'r:

Murtəza oğlını İmam Hüseyn
Ki, anuŋ kimi görmədi hiç eyn.
Mustəfa cigninə götürdi ani,
Murtəza gözlərinə sürtdi təni.
Hurlar xəlvətindədür içigi,
Təprədən Cəbrail idi beşigi.

Şeyx Kəmaləddin İbnül-Xəşab rəvayət eyləyübdür və "Şəvahid" kitabında daxi var ki, bir gün İmam Həsən ilən İmam Hüseyn (ə.m) Mustəfa qulluğində bir-biri ilən gürəşür[528] idilər. Fatimə daxi anda hazir idi. Mustəfa (ə) İmam Həsənə der idi ki, İmam Hüseyni dut. Fatimə dedi:

– Ya Rəsulullah, böyügə dersən ki, kiçiyi dutsun.

Mustəfa (ə) buyurdı kim, budur Cəbrail durur və Hüseynə der ki, Həsəni dut.

Və "Üyunür-Riza" kitabında yazıludur ki, İmam Hüseyn rəvayət eylər ki, bir gün Rəsulullahuŋ qulluğinə getdüm və Əbi bin Kəb yanında oturmış idi. Həzrət Rəsulullah maŋa dedi:

[528] Əlyazmada: *gürüşür.*

– "*Mərhəba bik, ya Əbu Əbdullah ya zəyyən əs-səmavat vəl-ərz* **[156b]**"[529], yə'ni xoş gəldüŋ, ey gög ilən yerüŋ zinəti. Əbi bin Kə'b dedi:

– Ya Rəsulullah, kimsə səndən özgə gög ilən yerüŋ zinəti olası ola?

Mustəfa (ə) dedi:

– Ey Əbi, ol Taŋrı-təala həqqi içün ki, məni doğrulığ ilən xəlqə göndərübdür ki, İmam Hüseyn bin Əli (ə) göglərdə böyükrakdur ki, yerdə və anuŋ adını ərşüŋ sağ qolında misbahi-hüda və nicat gəmisi yazubdurlar.

Və İbnül-Xəşab, İbn Əvanədən nəql eylər ki, həzrət Rəsulullah (s) buyurdı ki, İmam Həsən və İmam Hüseyn ərşiŋ iki ısırğasıdurlar və ol vəqtdə ki, həzrət İzzət-təala şənuhu cənnəti yaratdı, aŋa xitab etdi ki, sən miskinlərüŋ yeri olacaqsən.

Cənnət dedi ki, "*Ya Rəbb, lim cə'ältəni miskinəl-məsakin*"[530], yə'ni ey mənüm Pərvərdigarum, nə içün məni miskinlərüŋ məskəni eylədüŋ?

Nida gəldi ki, aya, sən razi dəgülsən ki, səni bəzətdüm bə-Hüseyn və Həsən. Uçmağ həman ki bu xəbəri eşitdi, səvindi və sərfərazlığ edüb dedi:

– "*Rəzitu rəzzəytu*"[531] – xoşnud oldum və razi oldum.

Ey mö'min, əgər uçmağ isə, İmam Həsən ilə İmam Hüseyn müzəyyən və arastədür və əgər mö'minüŋ köŋli isə, İmam Həsən və İmam Hüseyn ilən aydındur və əgər ərşi-məcid isə, ısırğası İmam Həsən və İmam Hüseyndürlər.

Nəzm:

Bu iki sibti-nəbi ilə köksümüŋ rövşən,
Olər məhəbbəti ilən köŋüldürür gülşən.
Beheşti-Ədn olərlən müzəyyən olmişdür,
Bu iki ilə Xuda ərşi rövşən olmişdür.

[529] *Sənə salam olsun, ey yerlərə və göylərə zinət olan Əbu Abdullah.*

[530] *Ya Rəbb, niyə məni miskinlərin məskəni etdin?*

[531] *Razı oldum və şad oldum.*

"Kənzül-ğəraib" kitabında nəql eyləyübdürlər ki, bir gün bir ə′rabi həzrət Rəsulullahə (s) **[157a]** gəldi və dedi:

– Ya Rəsulullah, bir ceyranı seyd eyləmişəm və yanüŋə töhfə və pişkeş gətürübəm.

Həzrət Rəsulullah (s) anı qəbul etdi. Nagah İmam Həsən (ə) məscidə gəldi və ol ceyranı gördi, aŋa meyl eylədi. Həzrət Rəsulullah (ə) anı İmam Həsənə verdi. Bir zəman mundan keçincə İmam Hüseyn gəldi, gördi ki, qərdaşı bir ceyranı var, və anuŋ ilən oynar. Dedi:

– Ey qərdaş, munı xandan gətürdüŋ?

Dedi:

– Cəddüm maŋa verdi.

İmam Hüseyn Mustəfa (ə) qulluğinə gəlüb dedi:

– Ey cəddah, qərdaşümə ceyran verdüŋ və maŋa vermədüŋ?

Və bu sözi təkrar eylər idi. Rəsulullah aŋa təsəlli verür idi və xatirini ələ gətürür idi, ta iş ağlamağə düşdi. Həman ki ağlamağ bünyad etdi, məsciddən qəriv qopdı. Nagah baxdılar, gördilər ki, bir dişi keyik yügürüb, bir ceyran ilən Rəsulullahuŋ qulluğinə gəldi və fəsih dili ilən dedi:

– Ya Rəsulullah, iki uşağum var idi, birisi səyyad dutub sənüŋ yanuŋa gətürdi və birisi mənüm ilən qalmış idi. İmdi anı əmzürürdüm, bir ün eşitdüm ki, tez ol və qalmış uşağüŋi götürüb həzrət Mustəfanuŋ (ə) qulluğinə yetür ki, İmam Hüseyn (ə) yanında durub ceyran içün ağlayacaqdur və mələklər taəti-sövməələrdə baş çıxarubdurlar və əgər ol yığlasa, müqərrəblər varı ağlayacaqdurlar. Yügür andan ilərü ki, mübarək yüzinə göz yaşı axıtsun. Ya Rəsulullah, irağ yoldən gəlübəm və behəmdillah ki, həzə anuŋ qutlu yüzinə yaş axmayubdur.

Beyt:

[157b] *Yüz miŋ həzar şükr ki, yüzinə axmadı.*
Bir qətrə yaş gözindənü köŋli daraxmadı.

Səhabələr munı görincə qovğayə düşdilər. Rəsulullah ol keyikə dua qıldı və İmam Hüseyn ol ceyranı götürüb, Fatimə hücrəsinə gəldi və keyfiyyəti anasına ərz etdi.

Ey mö'min, müqərrəb mələklər və Taŋrınuŋ Rəsuli istəməz idilər ki, İmam Hüseynüŋ (ə) qutlu yüzinə yaş axa. Aya, ol məlʾunlaruŋ halı ki, başından mübarək rüxsarinə qan axıtdurdılar, nə olacaqdur?!

Nəzm:

O yüz ki həzrəti-Peyğambər anı öpər idi,
Rəvan xacan ola kim, qan ilə bulaşmış ola.
O kimsə kim, aŋa Kövsər suyi ola miras.
Yezidlər aŋa bir su içim dolaşmış ola.
Yəqindürür ki, qalur cavidan cəhənnəmdə
O kim, Hüseyn ilə dünya için səvaşmış ola.

Aşura günində hər tərəfdən avazlar eşidür idilər, ki deyər idilər.

Misra:

Ey cinnü ins oymağları.

Şe´r:

Cəhənnəm içrə qalur hər kim ol, Hüseynə bu gün
Əlinə yay alubən ox yüzinə atmış ola.
Rəva ola ki, Rəsuluŋ əziz fərzəndi
Qan içrə Kərbi-bəla toprağində yatmış ola.

***

Həzrət İmam Hüseynüŋ əxlaqı

Anuŋ kəmalatınuŋ vəsfi və şərhi andan artuqdur ki, qələm dili ilən kimsə anları təqrir eyləyə bilə. Kərəmi ol qayətdə idi ki, yüz Hatəmi-Teyy aŋa möhtac idi. Və əgər diri ola idi, eşiginüŋ toprağı gözinə tutiya eyləyə idi və özgə kitablarda yazıludur. Və bəhadirliği Rüstəmi-dəstanuŋ dastanı mənsux eylədi və bir şəmmə Kərbəla səvaşında yazduracağız. Və rəvayətdür **[158a]** ki, qəhrinüŋ odı çün şö'lə urur idi, düşmənlərüŋ ömr xərməni bir uğurda yandurur idi. Və lütfinüŋ bulağından bir qətrə günahlar tozı asilərdən məhv eylər idi.

Helmi ol sifət idi ki, bir gün İmam Hüseyn (ə) bir neçə əziz qonağlar ilən oturmış idi. Nagah bir qulı bir çənağ issi aş ilən məclisə gəlür idi. İxtiyarsuz əyağı gilimüŋ ucına dəgüb, ol issi aşı İmam Hüseyn əleyhissəlamuŋ başına tökdi. Şahzadə ədəb üzərindən aŋa baxdı. Xadim qorxusından bihuş və mütəhəyyir qalub dilinə keçdi ki, "*əl-kaziminəl-ğeyzə*"[532]. İmam Hüseyn buyurdı ki, xəşmi yutdum. Və xadim dedi: "*Vəl-afinə ənin-nas*"[533]. Cəvab verdi ki, əfv qıldum və bağışladum. Xadim dedi: "*Vallahu yuhibbul-muhsinin*"[534]. İmam Hüseyn (ə) dedi: Öz malümdən səni azad qıldum və sənüŋ yeyigüŋ və yeməgüŋ özümə vacib etdüm.

[***Şe´r***]:
Ol kimsə ki, yəxşi sirəti var,
Adəm demək aŋa lazim olur.
Surətlə kişi dəgüldür adəm,
Yəxşi xulu bil ki adəmi var.

Məclis əhli çün bu helm və kərəmi gördilər, ittifaq ilən dedilər: "*Allahu ə`ləm heysu yəc`əlu risalətəhu*"[535] – Allah-təala bilür ki, nə vermək gərək və kimə vermək gərək.

Çün məqsudimiz bu kitabdan İmam Hüseynüŋ (ə) əhvalı təqrir etməkdür, bu məhəldə bu qədr izhar etmək yetərdür və qalan övsafı öz yerində zikrin eyləyəcəgüz və "*əlhəmdulillahi Rəbbil-aləmin*"[536].

Rəvayət eyləyübdürlər ki, çün şahzadə İmam Həsən (ə) **[158b]** fani dünyadən keçdi və darül-bəqanı məqam etdi.

Beyt:
Fani dünyadən çü rihlət eylədi,
Mənzilü mavayi cənnət eylədi.

---

[532] *Qəzəblərini udar.* (Quran, 3: 134)
[533] *İnsanların günahlarından keçərlər.* (Quran, 3: 134)
[534] *Allah yaxşılıq edənləri sevər.* (Quran, 3: 134)
[535] *Allah peyğəmbərliyi hara (kimə) göndərəcəyini Özü daha yaxşı bilir.* (Quran, 6: 124)
[536] *Həmd olsun Allaha – aləmlərin Rəbbinə.* (Quran, 1: 2)

Müaviyə ki, Şam vilayətinüŋ hakimi idi, istər idi ki, oğlını Yezid özinə qaimməqam eyləyə və Əhli-Şam və İraqdən beyʻət istədi. Anuŋlən beyʿət etdilər və köŋlinə keçdi kim, Qüreysüŋ əşraflərindən daxi Yezid içün beyʿət almaq gərək. Anlarə peyğam göndərdi, əşrafi-Qüreyş bu məʻnidə təvəqqüf etdilər. Axirüləmr Müaviyə Şamdən Mədinəyə gəldi və Mədinənüŋ xəlqi razi qılub anlardan beyʻət aldı. Əmma dörd adəm qəbul etmədilər: biri İmam Hüseyn (ə), ikincisi Əbdürrəhman bin Əbu Bəkr, üçünci Ömərüŋ oğlu Əbdullah, dördünci Zübeyrüŋ oğlı Əbdullah. Müaviyə nə qədr ki lütf və qəhr ilən anlarə sözlər söylədi, qəbul etmədilər və bu dörd rəfiq Mədinədən Məkkəyə vardılar. Müaviyə anlaruŋ ardına Məkkəyə vardı və anda daxi nə qədr ki təklif və təvazö eylədi, bərhəm yetmədi və qəziyyə bu halətdə qaldı, ta bir neçə müddət mundan keçdi. Müaviyə öldi, Yezidüŋ bəgləri ittifaq eyləyüb anı imarət döşəgində oturtdılar və anuŋ bəgliginüŋ avazəsi Əhli-İraq və Şamə, bəlkə xass və ammuŋ qulağına yetürdilər. Bəs, bəgləri Yezidə dedilər:

– Əgər istərsən ki, məmləkət sənüŋ ola və bəglik saŋa qala, ol dörd kişiyi ki ataŋdan beyʿət sözi qəbul etmədilər, hər növ ilə ki ələüŋdən gəlür, səʿy eylə və beyʻətə dəʻvət et. Əgər qəbul etdilər, fəhvülmurad, yox **[159a]** isə anları dəf' eylə. Yezid əleyhillənə, bu sözi qəbul eyləyüb, bir namə Vəlid bin Ütbəyə ki, ol çağ Mədinənüŋ bəgi idi, yazdurdı. Məzmuni bu kim, atam ki, bu məmləkətüŋ xəlifəsi idi, dünyadan axirətə rəvan oldı və məni dirilik çağında özinə qaimməqam və öz xəlifəsi eylədi və mən Əbu Turabuŋ nəslindən qorxaram. Gərək ki, əhli-Mədinədən mənüm içün beyʻət alasan. Və bir rüqʿə daxi yazmış idi ki, əlbəttə, əlbəttə, İmam Hüseyndən (ə) və Əbdullah Ömər və Əbdürrəhman və Əbdullah Zübeyrdən mənüm içün beyʻət alasan və təqsir və ehmal etməyəsən ki, sənüŋ öhdəŋdədür. Və əgər mənüm beyʻətümdən baş çəkələr, anlaruŋ başlarını kəsüb Şamə göndər.

Çün bu namələr Vəlidə yetdi və məzmuninə vaqif oldı, dedi: "*İnna lillahi və inna ileyhi raciun*"[537]. Mənüm nə işüm var həzrət Fati-

[537] *Biz Allahın bəndələriyik və O-na tərəf qayıdacağıq*. (Quran, 2: 156)

meyi-Zəhranuŋ oğluna (ə). Və fitnənüŋ qorxusından dərhal Mərvan ki, ol vəqtdə Mədinədə idi, çağırdı və bu şərhləri aŋa bildürdi və anuŋlən məşvərət etdi. Mərvan dedi ki, bu dörd kişini məclisüŋdə hazir et və bey'ət təklif qıl. Əgər qəbul etdilər və mütabiət qıldılar, xub, və illa iti qılıc ilən hökmüŋ anlarə sür. Və əmma İmam Hüseyn (ə) və Əbdullah Zübeyrdən qafil olma. Və andan ilərü ki, Müaviyənüŋ öldügi xəbəri zahir ola, ikisindən Yezid xilafəti içün beyʿət al. Vəlid İmam Hüseyni (ə) və Əbdullah Zübeyri çağırmağə adəm saldı və anlar Mədinənüŋ məscidində **[159b]** oturub bir-biri ilən söyləşür idilər. Vəlidüŋ nökəri gəldi və dedi:

– Vəlid sizi çağırur.

Anlar dedilər:

– Sən var ki, biz arduŋca gəlürüz.

Nökər qayıtdı. Əbdullah Zübeyr İmam Hüseyndən (ə) sordı:

– Hiç bilürsən ki, bizi nə içün çağırurlar?

İmam Hüseyn (ə) dedi:

– Mənüm xatirümdə bu keçər ki, Müaviyə ölübdür və mən bu gecə düşdə gördüm ki, anuŋ minbəri başı quyi oldı və evinə od düşmiş idi və bu xəbər imdi bu məmləkətə yetübdür. İstərlər ki, bizdən bey'ət alalar.

Zübeyroğlı dedi:

– Əgər bu xəbər gərçək ola, sən neylərsən?

İmam Hüseyn (ə) dedi:

– Mən eşitmişəm ki, Yezid çaxıriçici bir fasiqdür və mən Rəsulullah alinüŋ (ə) bəqiyyəsiəm. Niçük caiz ola ki, bəylə kişiyə mütabiət eyləyəm.

Anlar bu sözdə idilər ki, Vəlidüŋ nökəri bir daxi gəldi ki, siziŋ intizarıŋız çəkərlər. İmam Hüseyn (ə) anı hayxırdı ki, nə əvərsən, əgər kimsə gəlməz, mən gələcəgəm. Nökər qayudub ötmiş sözləri Vəlidə təqrir eylədi. Mərvan dedi:

– Ya Vəlid, İmam Hüseyn ğədr eyləyüb gəlməyəcəkdür.

Vəlid dedi:

– Əpsəm ol ki, İmam Hüseyn ğəddar degül və və'dəsinə vəfa qılur.

Qit'ə:
Gər mələk adəmi sifətdə ola,
Oldurur kim, təmam adəmidür.
Və'dəsinə xilaf eyləməz ol
Kim, vəfa edə və'də, adəmidür.

Rəvayətdür ki, Vəlid Taŋrıdan qorxar kişi idi və Əhli-Beytüŋ hörmətini bəqayət riyaət eylər idi. Çün vəfadarlig sifəti və arilik **[160a]** sirəti İmam Hüseyndən (ə) nəql eylədi, Mərvan əpsəm oldı.

Əmma çün Vəlidüŋ nökəri İmam Hüseyndən (ə) ayrıldı, İmam Hüseyn öz evinə gəldi və otuz yigit qullarindən və məvalilərindən yərağlədi və geyindürdi və buyurdı ki, mənüm ilən Vəlidüŋ evinədək gəlüŋ və anuŋ qapusində oturuŋ. Əgər mənüm avazum qatı eşidəsiz, filhal içəri girüŋiz. Əmma ta zahir olmayınca ki mənüm qətlümə qəsd eylərlər, hiç kimsəyə dəgmiŋ. Bəs, ol həzrət Mustəfanuŋ (ə) əsası götürüb rəvanə oldı və Vəlidüŋ evinə vardı və gördi ki, Vəlid Mərvan ilən oturubdurlar. Çün şahzadəni gördilər, tə'zim və təkrim eylədilər və İmam Hüseyn (ə) öz yerində oturub sordı ki, tələb səbəbi nə idi? Anlar Müaviyəniŋ öldügi və anuŋ oğlı Yezid yerinə oturdügi və bey'ət istədügi təmam şahzadəyə ərz etdilər. İmam Hüseyn (ə) buyurdı ki, layiq və münasib dəgül ki, mənciləyin kimsə xəlvətdə bey'ət eyləyə. Daŋla bu xəbər aşkar olacaqdur. Təmami-əhli-Mədinə xassə olsunlar, hər nə məsləhət isə, əmələ gələ. Vəlid dedi:

– Ya Əba Əbdullah, yəxşi söz buyurduŋ. Bu gün dəvlət və səadət ilən öz dəvlətxanəŋizə var və daŋla ertə təşrifi-şərif ərzani qıl.

Mərvan dedi:

– Ey Vəlid, İmam Hüseyni əldən qoyma ki, əgər anı əldən qoyasan, mundan soŋra əlüŋ aŋa dəgməz. Anı dama sal, ta bey'ət eyləsün və əgər qəbul etməyə, başını kəs.

İmam Hüseyn (ə) qəzəb gözi ilən Mərvanə baxub dedi:

– Ya İbnül-Zərqa [538], **[160b]** kimüŋ həddi və zəhrəsi var ki, mənüm ilən bu hərəkət xatirinə keçürə bilə. Sənciləyin kişi hökm eylər

[538] Farsca orijinalda və "Hədiqətüs-süəda"da belədir, əlyazmada yanlış olaraq: *İbnül-Vərquma.*

ki, mənüm başümi götürsünlər. Hər kim maŋa qəsd eyləyə, yer yüzi anuŋ qanından boyadam.

Pəs, Vəlidə xitab etdi ki, sən bilürsən ki, biz Əhli-Beyti-nübüvvət və mə`dəni-risalətüz və bizim evimiz rəhmət məhəlli və mələklərüŋ mənzilidür və Yezid çaxır içər və dürlü-dürlü yaman əməllər andan zahir olur. Necə anuŋ ilən bey'ət etmək olur? Daŋla ki məclis qurulsun, ol nəstə ki deməlü ola, deyəcəgüz və görəli ki, xilafətə və imamətə kim layiqdür?

Həman ki məvalilər qapudə İmam Hüseynüŋ (ə) qatı üni eşitdilər, istədilər ki, içərü girələr. Ol həzrət bu mə`niyi mə`lum eyləyüb, türkən qopup dışxarı çıxdı və məvalilərini girməkdən mən` etdi və öz mübarək mənzilinə təşrifi-şərif ərzani qıldı.

Mərvan Vəlidə dedi ki, mənüm sözüm ilən əməl etmədüŋ və İmam Hüseyni əldən qoduŋ. Vallah ki, sənüŋ hökmüŋ daxi aŋa keçməyəcəkdür. Vəlid dedi:

– Veyhək, ya Mərvan, maŋa İmam Hüseynüŋ (ə) qətlinə buyurursən. Vallah ki, əgər təmami-Şərq və Qərb aləmüŋ maŋa verələr, anuŋ qətlinə sə`y etməyəm. Ey məlʿun Mərvan, daŋla Qiyamətdə İmam Hüseynüŋ qatili əməl tərazusi həsənatdən boş olacəkdür və hər kimüŋ mizanı bəylə boş və yüŋül ola, Taŋrı-təala rəhmət nəzəri ilən aŋa baxmaya və dürlü-dürlü əzabi-əlim ilən giriftar və xarü zar olacəqdür.

Nəzm:

[161a] *Ol kimsə kim, Hüseyni edər qətl dünyadə*
Bişəkk, cəhənnəmüŋ dərəkatindədür müqim.

Mərvan çün bu sözlər eşitdi, xamuş oldı. Pəs Vəlid, Əbdullah Zübeyrüŋ ardına adəm saldı və çağırdı. Əbdullah gəlməkdə təəllül eylədi, ta gecə yetişdi, bir təriq ilən Məkkəyə saru bir gizlu yolla ki, kimsə bilməz idi, rəvanə oldı. Daŋlası [xəbərdar] oldılar, ardına ləşkər göndərdilər və anı görməyüb qayıtdılar. Vəlid bu surətləri Yezidə yazdı və cəvab gəldi ki, bir qatla daxi sərkeşləri bey'ətə də`vət eyləyəsən və Əbdullah Zübeyrə dolaşma ki, hər yerə ki, gedər ola, bizim üqubətimiz aŋa dəgəcəkdür. Əmma İmam Hüseynüŋ başını Ye-

zidə göndər və çox inayət və şəfəqqətlərə ümmidvar ol ki, saŋa yəxşi tərbiyələr eyləyəcəgüz.

Çün bu şum namə Şamdən gəldi və Vəlid oxudı, dedi: "*La hovlə və la quvvətə illa billahil-əliyyul-əzim*"[539]. Əgər Yezidi-məlˈun təmamirübˋi-məskunuŋ hökuməti maŋa ərzani qıla, Mustəfanuŋ (s) fərzəndi qanına səˋy etməyəcəgəm və hər zəhmət və qəzəb ki, Yeziddən maŋa dəgər olsa, dəgsün.

Rəvayətdür ki, Vəlid bir məhrəmüŋ əli ilən Yezid naməsinüŋ məzmuni yazub İmam Hüseynə (ə) göndərdi və dil ilən peyğam verdi ki, ya İbn Rəsulullah (s) Şamdən Yezidüŋ naməsi peyapey gəlür və sənüŋ qətlüŋə cəhd edərlər və maŋa hökm edərlər və mən bu qissədə heyran və təfəkkür badiyəsində sərgərdanəm.

Beyt:
Bu qissə içrə mən öz halümə pərişanəm,
Bu müşkil işdə bəqayət zəlilü heyranəm.

Əmma çün İmam Hüseyn (ə) bu rüqˈənüŋ **[161b]** keyfiyyəti məˋlum eylədi, səbr etdi, ta gecə oldı, cəddinüŋ rövzəsi üstinə (ə) vardı və dedi:

– Əssəlamu əleyk, ya Rəsulullah, mənəm – Fatimənüŋ fərzəndi, mənəm ol kimsə ki, sən rihlət çağında mənüm riayətümi ümmətlərə vəsiyyət eylədüŋ və anlar ol vəsiyyətləri unudub məni zaye və məhrum qoydılar. Bu, bir cüzvi nəstədür anlaruŋ cəfalərindən. Çün sənüŋlən mülaqat eyləyəm, anlaruŋ vəfasizligi və düşmənligi ilən cəfaları qulluğüŋdə ərz edəyəm.

Və zar-zar ağladı, andan soŋra nəmazə məşğul oldı daŋadək. Pəs öz mübarək mənzilinə müraciət eylədi. Gələn gecə daxi həm ol rövzənüŋ üstinə gəldi.

Beyt:
Ol rövzəyə yüz canü cəhanı sədəqə,
Ol mənzilə miŋ ruhü rəvanı sədəqə.

[539] *Güc və qüvvət yalnız uca və böyük olan Allaha aiddir.*

Münacatlərdən soŋra ağlayə-ağlayə başını ol mərqədi-müqəddəsə əla sakinəhə əleyhissəlat vəs-səlam qoyub uyudı. Düşdə gördi ki, həzrət Risalətpənah (s) qalın mələklər ilən hazir oldı və İmam Hüseyni qucağladı və iki gözinüŋ ortasını öpdi və buyurdı ki, zahirən görürəm ki, həm bu yaxında vəfasız ümmətlər səni Kərbəladə şəhid eyləyəcəkdürlər və ol saətdə sən susiz olacəqsən və su saŋa verməyəcəkdürlər və bavücud bu cəfakarlığı və ədəbsizligi maŋa ümmidi-şəfaət bağlayubturlar. Əmma mənüm şəfaətümdən məhrum qalacaqdurlar. Ey fərzənd, ataŋ Əli və anaŋ Fatimə yanümə gəldilər məlul və məhzun və hüzuruŋa çoq müştaqdurlar və sən daxi **[162a]** qayğulu mənüm yanümə gələcəksən və sənüŋ cənnətdə bir dərəcatuŋ var ki, anı şəhadət ilən bulmaq olur.

Əmirül-mö'minin Hüseyn (ə) dedi:

– Ya cəddah, mən bu dünyanı hiç sevməzəm, məni dut və qəbrüŋ içində girdür.

Peyğambər (ə) dedi:

– Ey oğul, dünyayə rücu eyləmək gərəksən, ta şəhid olasan ki, böyük səvablar sənüŋ içün mürəttəbdür.

İmam Hüseyn (ə) bu bəşarətləri eşidüb uyxudən oyandı və cəddi-büzürgvaruŋ cəmalı xiyalı nəzərində və şəhidliğ muştuluqi və əla dərəcati cənnətdə qulağində öz mənzili-şərifinə gəldi və Mədinə şəhrindən köŋül götürüb Məkkə səfərin ixtiyar etdi. Və Əhli-Beytini hazir edüb ötmiş vaqiənüŋ surəti anlarə təqrir qıldı. Qəvm ilə qərdaşı və dustları varı qayğulu oldılar və İmam Hüseyn gecə qərdaşınuŋ ziyarəti üstində ki, Bəqi guristanində idi, vardı və anı vida eyləyüb, andan anasınuŋ qəbri üstinə varub dedi:

– Əssəlamu əleyk, ya ana, oğluŋ Hüseyn vidauŋa gəlüpdür və bu soŋ ziyarətdür.

Rövzənüŋ yuxarısından bir avaz eşitdi ki, dedilər:

– Və əleykəssəlam, ey ananuŋ məzlumi və ananuŋ şəhidi.

İmam Hüseyn (ə) bir saət anda durub ağladı. Pəs vida qılub və himmətləşüb, mədəd istəyüb cəddinüŋ müqəddəs məşhədi üstinə gəldi, ta vida şərti yerinə gətürə. Həman ki səlam verdi və təvaf qıldı və nəmaz əda eylədi, uyudı. Daxi həzrət Mustəfanı (ə) **[162b]** düşdə

gördi ki, gəldi və İmam Hüseynüŋ başını dutdı və öz qucağinə qoydı. İmam Hüseyn (ə) dedi:

– Ya Rəsulullah, ümmətüŋ cəfalərindən çarəsiz olubəm və zərurət ilən sənüŋ ziyarətüni qoyub bu şəhrdən hicrət eyləmək gərəkəm. Və bəylə görərəm ki, daxi bu mübarək ziyarətinə yetməyəcəgəm.

Həzrət Rəsulullah (s) buyurdı ki, yaxın oldı ki, maŋa vasil olasən və baxərəm ki, sən ac-susiz Kərbəla toprağında yatub gəvdəŋ[540] yarəlü, başuŋ[541] gəvdədən ayru düşübdür. Ey oğul, səbr və təhəmmül qalxanı ögünə dut və öz işüŋdə pəhləvan ol ki, gec olmaz ki, sən daxi ataŋ və qərdaşuŋ kimi məzlum və qayğulu və anaŋ kimi mərhum və qəmlü maŋa yetəsən və mənüm ilən uçmağ süfrəsində oturub murad yemişi Taŋrı-təalanuŋ inayət budağından dərəcəksən. Əmirül-mö'minin Hüseyn rəvayət eylər ki, bu halətdə gördüm ki, Mustəfanıŋ (ə) qızıl bəŋzi sarardı və müşkbar saçı[542] tozlu oldı. Mən qorxdum və dedim:

– Ya Rəsulullah, bu, nə halətdür ki, Sizə zahir oldı.

Rəsulullah (s) dedi:

– Ey gözüm nuri vey bəgənilmiş fərzəndüm, bu, Kərbəlanuŋ toprağı nişanəsidür.

Bəs, İmam Hüseyn (ə) uyxudən oyandı və özinüŋ şəhidliğini mə`lum edüb, Məkkənüŋ səfərinə əzm eyləyüb, cümə gecəsi şə'ban ayınuŋ dördüncisidə altmış yıl hicrətdən keçəli Mədinədən çıxdı, doğru yolə – Məkkəyə rəvanə oldı. Və Musayi-**[163a]** Kəlimüŋ (ə) Misrdən qaçduği Fir'on qorxusindən və qibtilər qəsdindən aŋdı və bu ayəti oxur idi: "*Fəxərəcə minha xaifən yətərəqqəb qalə Rəbbi nəccini minəl-qovmiz-zalimin*"[543].

Pəs bir neçə məvalilər və dustlar dedilər:

– Ya Rəsulullah fərzəndi, cəddüŋ rövzəsi üstindən nərəyə gedərsən?

---

[540] Əlyazmada: *gəvdəŋi.*

[541] Əlyazmada: *başuŋi.*

[542] Əlyazmada: *saç.*

[543] *[Musa] qorxu içində ətrafına baxa-baxa oradan (şəhərdən) çıxıb: "Rəbbim, məni bu zalım tayfanın əlindən qurtar", – dedi.* (Quran, 28: 21)

Cəvab verdi ki, mən öz ixtiyarum ilən getməzəm.

Beyt:

Aşiq öz kami ilən kuyi-həbibdən getməz,
İxtiyar əldə ikən cövri-rəqibdən getməz.

Və bir neçə beytlər ki, şahzadənüŋ bu halətdə mübarək dilinə keçdi, mə'nisi budur:

Öz muradümlə Nəbi rövzəsindən getməz idüm,
Belə sərmənzili əldən qoyubən getməz idüm.
Gər maŋa gənci-Fəridunü Qubadü qardən
Verələr kim, buradən get, buradən getməz idüm.
Düşmənüŋ cövrlərindən gedərəm Məkkə saru,
Getdügüm munuŋ içün yox isə, mən getməz idüm.

Yol üstində nagah Əbdullah Müti'yə yoluxdı və Əbdullah İmam Hüseynə (ə) dedi:

– Nərəyə gedərsən, ya İbn Rəsulullah (s)?

Beyt:

Səfər əzmin qılubsən, Taŋrı yaruŋ, hər nəyə etsəŋ,
Çələb yoldaşuŋ olsun, şahzadə, nərəyə getsəŋ.

Əzimətüŋ nədən ötrü və nərəyə?

İmam Hüseyn (ə) dedi:

– Ya Əbdullah, zalimlər əlindən öz məmləkətümdən çıxub və atam və anam vətənindən qürbət ixtiyar edüb, dustlar və məvalilər söhbətindən irağ olub Məkkəyə gedərəm ki, Mədinədə hər gün bir qəm və mihnət və hər saət bir qayğu və ələm maŋa dəgdürürlər.

Rübai:

Köŋlümğə fələk çox qəmü mihnət gətürür,
Hər gün başümə hüznü məşəqqət gətürür.
[163b] *Cəddümdən irağ eylədi, saldi yabanə,*
Rahət gidərüb cövrü məzəllət gətürür.

Hala Məkkə əzimətin eyləyübəm. Həman ki orayə yetəm, görəyəm halumuŋ səlahı nə isə, əməl eylim.

Əbdullah dedi:

– Səhhət və səlamət və afiyət yoldaşuŋ olsunlar. Mənüm xatirümə bir nəstə gəlüpdür, əgər əmrüŋ ola, ərzədaşt edəyəm.

Əmirül-mö'minin Hüseyn (ə) dedi:

– Sən mənüm dostumsən və dustlaruŋ sözi eşitməlü. Hər nə kim xatirüŋə gəlüpdür, söylə.

Əbdullah[544] dedi:

– Ya Bin Rəsulullah (s), sən bu gün aləmüŋ sərvəri və behtəri və adəm əvladınuŋ yegi və mehtərisən. Var Məkkəyə və anda otur ki, hərəm əhli səndən özgə hiç kimsəni ixtiyar eyləməzlər və əmanət saŋa ki, kufilərüŋ sözinə məğrur olmayub anlaruŋ alinə aldamayasən ki, ataŋı oradə şəhid etdilər və qərdaşuŋ ilən vəfa etməyüb çox mihnətlər aŋa dəgdürdilər. Və mən bilürəm ki, anlar səni çağıracəkdürlər. Və əgər gedərsən, əlbəttə, səni yalğuz qoyacəgdürlər və əhd və şərtü vəfanı saxlamayub cəfa eyləyəcəkdürlər.

Misra:

Ki Kufə əhlində yoxdur mürüvvətü himmət.

İmam Hüseyn (ə) bu sözə təsdiq eyləyüb dedi:

– Gərçək dersən.

Pəs aŋa çox dualar eylədi və vida qılub rəvan oldı. Və mənzilləri qət eyləyüb nagah mübarək gözləri Məkkənüŋ dağlarını gördi. Musanuŋ halından və Mədainə yetdügi gündən aŋub bu ayəti oxudı: "*Və ləmma təvəccəhə tilqaə Mədyənə əsa Rəbbi ən yəhdeyni səvaəs-səbil*"[545]. **[164a]** Və çün məkkəlü anuŋ mübarək qədəmindən xəbərdar oldılar, dərhal qarşuyə çıxdılar və İmamuŋ qulluğinə müşərrət olub şadiliğ qıldılar və hal dilləri bu beytə mütərənnim oldı.

---

[544] *Əlyazmada iki dəfə yazılmışdır*.

[545] *[Musa] Mədyən tərəfə üz tutub gedərək: "Yəqin ki, Rəbbim mənə doğru yolu göstərər", – dedi*. (Quran, 28: 22)

Beyt:
Taŋrıdan vəslüŋ dilərdük, şükr kim, buldük anı,
Aydın oldi gözümiz yüzüŋdən, ey canlar canı.

Taŋrıyə yalvarub səni gögdən istərdük, əlhəmdülillah ki, yerdə buldük. Və hər mənzilə ki, qonar idi, qoşun-qoşun ərəb qəbilələri qulluğinə müşərrət olur idilər.

Əmma çün İmam Hüseynüŋ (ə) Mədinədən getdügi və Əbdullah Zübeyrüŋ xəbəri Yezidi-pəlidə yetdi, dərhal hökm etdi ki, çün Vəlid ki, Mədinənüŋ bəgi idi, anlaruŋ dutduğindən təqsir eyləyübdür, Mədinənüŋ bəgligindən mə'zul olsun. Və ol yerüŋ hökumətini İbnül-Əşdəqə rücu eylədi.

Əmma Məkkənüŋ bəgi ki, Səid bin As idi və İmam Hüseynüŋ (ə) bangcisi, beş vəqt nəmaz bangı qatı avaz ilən çağırur idi və qələbə adəm hər gün İmamuŋ ardında nəmaz qılur idilər. Səid qorxdı kim, olmaya ki, Həcc çağı ki, ətraf məmalikdən adəm Həccə gəlürlər, ittifaq eyləyüb İmam Hüseyn ilən (ə) xilafət içün bey'ət edələr və anı həlak qılalar. Qaçub Mədinəyə getdi və bitik Yezidə yazdı və İmam Hüseynüŋ (ə) Məkkəyə gəldügi və qəbayil və əşrafi-ərəb və məkkəlü qamu aŋa meyl etdügi varı şərh eylədi.

Əmma Kufənüŋ eli çün eşitdilər ki, hakimi-Şam öldi və İmam Hüseyn (ə) Yezid bey'ətindən baş çəkdi və Mədinədə oturəməz idi, **[164b]** Məkkeyi-mübarəkeyi-əzəmühallahə vardı və anda müqim oldı. Əmirül-mö'minin Əlinüŋ (ə) dustları və məvaliləri Süleyman bin Sürəd[546] Xüzainüŋ evinə cəm' oldılar. Süleyman dedi:

– Yaranlar, biliŋiz kim, Yezid İmam Hüseyni (ə) bey'ətinə mübaliğə eylər və ol həzrət zərurətən öz vətənindən çıxub Məkkəyə gedübdür və siz anuŋ şiəsi və atasınuŋ məvalilərisiŋiz. Gəlüŋiz və anuŋlən yariliğ qılıŋız, ta həqq öz yerinə qərar dutsun.

Yetmiş bəg Kufənüŋ böyüklərindən misli-Müsəbbəb[547] Fərari və Riafə bin Şədad[548] və Həbib bin Müzahir və Muhəmməd Kəsir və Ria

[546] Farsca orijinalda: *Hərv*.
[547] Farsca orijinalda: *Müseyyib.*

Qarib və Muhəmməd Əşʾəs və Əbdürrəhman bin Müxəffəf və Əbdullah Əfif və Tariq Əʾməş və Əğməş Tariq və Muxtar bin Übeydə və Ömər Səʹd və qeyrühüm qaziyi-şərih əlindən and içdilər ki, əmirül-möʹminin Əlinüŋ (ə) əvladinə həvadarlığda təqsir etməyələr və İmam Hüseyni (ə) əmanətliğ ilən götürələr və mal ilən canları yolına fəda eyləyələr. Bəs, namələr yazdurdılar niyazməndlik üzərinə. Məzmuni bu ki, "Filan və filan coq bəndəlik səlami-malakəlam yetürürlər və ərzə qılurlar ki, ataŋ düşməni Müaviyənüŋ oğlı Yezid istər ki, Əhli-Beytdən dəstursiz islam əhlinə hökumət eyləyə. Biz ki sənüŋ və ataŋ şiələriüz, anuŋ imarət və hökumətinə razi dəgülüz və xiyalümiz budur ki, sənüŋ ilən əhd və beyʹət eyləyəüz və can ilə malımızı sənüŋ içün fəda edəüz. Pəs, əlbəttə, əlbəttə, Kufəyə əzm eyləyüb **[165a]** türkən özüni bizə yetür ki, sən imami-bəhəqq və hümami-mütləq və xəlifeyi-vacibül-ətbasən. Və hala bizim hakimimiz Nüʹmandur və ol bir zəif [və] həqir kişidür və Kufədən hiç kimsə: nə böyük və nə kiçi anuŋ məclisinə getməzlər və nə bay və nə yoxsul anuŋ sözini eşitməzlər. Və ol darül-imarətdə oturubdur və həman bayram güni və cümə günləri anuŋ qapusı açılur. Əgər siz Kufəyə qədəm basasız, biz Nü`manı Kufədən sürüb qaçdururuz və ağır ləşkər ilən Şamə təvəccöh eylərüz.

Məsnəvi:
Səndən ələmüŋ götürmək işi,
Bizdən çəriləri sürmək işi.
Munda çəri çox, hərəsi filcə,
Boyunları buyruğində qılcə.

Və hər kim sənüŋ fərmanuŋa baş endürməyə, əgər gögdə isə endürəli və başını kəsüb yer altına xarü zar gömdüreli.

Əlqissə, çoq mübaliğələr etdilər və namələri Əbdullah Məsmə Həmədani və Əbdullah Məsmə Bəkri ilən İmamuŋ qulluğinə göndərdilər. Çün İmam Hüseyn ol namələri mütaliə eylədi, elçilərə hiç demədi və bitiklərinüŋ cəvabını daxi yazmadı. Çün bir az müddət mundan keç-

[548] Farsca orijinalda: Sədad.

di və elçilər Məkkədən Kufəyə qayıtmadılar və daxi kufəlünüŋ əkabir və əşraf və rəisləri Bəşir bin Məshər Zədavi və Əbdürrəhman bin Übeyd Ərci İmam Hüseynüŋ (ə) gətürdüginə saldılar və bunlaruŋ söhbətində əlli məktub göndərdilər.

"Nurül-əimmə"yi-Xarəzmi rəvayət eylər ki, yüz igirmi bitik İmam Hüseynə göndərdilər və İmam hiç hanğısınuŋ cəvabını yazmadı. Kufəlülər daxi Hani Səb`i və Səid bin Əbdullah **[165b]** Xətəmi[549] bitiklər ilən Məkkəyə rəvanə eylədilər və andan soŋra Şis bin Rəb`i və Ürvə bin Qeys və Ömərül-Həccac və bir neçə əşraf ki, Kufənüŋ böyükləri idilər, müttəfiq olub namə yazdılar və Səid bin Əbdullah Səqəfi ilən Məkkəyə saldurdılar. Və bu elçilər peyapey biri biridən soŋra İmamuŋ (ə) qulluğinə müşərrəf olur idilər və bitikləri təslim edər idilər və şərhləri həman İmamı Kufəyə də`vət etmək idi.

Əmma çün namələri və bitikləri hər gün yetər idi və çoq mübaliğələr edübəni şərtlər və qəvllər etmiş idilər, İmam (ə) anlaruŋ cəvabını yazdı ki, bitikləriŋiz maŋa yetdi və məzmunlarını ki, xamı məhəbbət izharı və yariliğ və dustliğ və həvadarlığ idi, aŋladum və anlardan bəylə fəhm oldı ki, iştiyaqıŋız mənüm vüsalümə çoxdur, istədüginiz[550] hüsulə mövsul olacaxdur. Və hala qərdaşum və əmmüm oğlı Müslim bin Əqili orayə göndərdüm, ta sizüŋ doğrulığıŋızı və yekcəhətiŋizi mə'lum eyləsün. Əgər yazduğıŋız[551] gərçəkdür, anuŋ ilən bey'ət eyləŋiz, ta ol məni sizüŋ bey'ətiŋizdən xəbərdar eyləsün və mən Kufəyə təvəccöh eylim. Və sizdəndür ki, Müslim ilən yariliq eyləyəsiz və hörmət və izzətini saxləyəsiz ki, bir imam ki, Taŋrınuŋ kəlamı buyruği ilən əməl eyləyə və alim və adil ola, bərabər degül bir hakim ilən ki, fasiq və facir ola. "*Vəssəlamu əla mənit-təbə' əl-hüda*"[552].

Nəql eylərlər ki, Əbdullah Əbbas İmam Hüseyn ilən **[166a]** mülaqat eylədi və kufəlünüŋ sözləri ortəyə saldı. İmam Hüseyn (ə) buyurdı ki, ya ibn əmm, sən bilürsən ki, mən Mustəfanuŋ (ə) qızınuŋ fərzəndiəm.

---

[549] Farsca orijinalda: *Xəşəm.*

[550] Əlyazmada: *istədüginizi.*

[551] Əlyazmada: *yazduğıŋızı.*

[552] *Haqq yolunu tutub gedənlərə salam olsun*. (Quran, 20: 47)

Əbbas dedi:

– "*Allahummə nə'əm*"[553], mən dünyadə hiç kimsənə səndən özgə Mustəfanuŋ fərzəndinüŋ fərzəndi tanımazam və qərdaşuŋ daxi bəylə bilürdük və yer üstində səndən özgə Peyğambərüŋ nəbirəsi yoxdur və sənüŋ izzətüŋi saxlamək və nüsrət və yarilik vermək varı ümmətlərə fərzdür.

İmam Hüseyn (ə) dedi:

– Ya İbn Əbbas, nə söylərsən ol cəmaətüŋ həqqində ki, məni öz xaniman və yurt və məqamü məkandən sürələr və cəddüm ziyarətindən (ə) irağ eyləyələr və qətlümə qəsd edələr, ol qayətdə ki hiç yerdə qərar dutəmənəm.

İbn Əbbas bu ayəti oxudı: *"Yuxadiunəllahə və huvə xadi`uhum*"[554].

Ayətüŋ axirinədək. Pəs dedi:

– Ya Bin Rəsulullah, mən danuğəm və danuğlığ verürəm ki, Peyğambər (s) dedi ki, ol Taŋrınuŋ həqqi ilən ki mənüm canum[555] anuŋ qüdrət qəbzəsindədür ki, mənüm fərzəndümi hiç qəvmüŋ içində öldürməsünlər ki, anlaruŋ əllərindən gələ ki, aŋa yariliq eyləyələr və eyləməyələr ki, nə Taŋrı-təala anlaruŋ köŋülləri [və] dillər arasında xilaf salməyə. Ey İmam Hüseyn, hər ki səndən e`raz eyləyə və saŋa yariliğ etməyə, anuŋ cəhandə hiç nəsibi yoxdur.

İmam Hüseyn (ə) dedi:

– "*Allahumə əşhədu*"[556], ey **[166b]** Pərvərdigar, danuğ ol.

İbn Əbbas dedi:

– Canum saŋa fəda olsun, sənüŋ sözüŋ aŋa bəŋzər ki, vəfatuŋdən xəbər verürsən və öz vaqiəŋdən məni agah eylərsən və məndən yariliq və nüsrət istərsən. Taŋrı danuğdur ki, əgər mən ögüŋdə ol qədr qılıc urayam ki, ələüm işdən düşsun. Həzə bir həqq sənüŋ həqlərüŋdən yerinə yetürməmiş olam. Və mən hala Mədinəyə gedəcəgəm

---

[553] *Ey Allahım, bəli.*

[554] *[Münafiqlər] Allahı aldatmağa çalışırlar, halbuki [Allah] onların oyunlarını öz başlarında çatladacaq.* (Quran, 4: 142)

[555] Əlyazmada: *canumı.*

[556] *Ey Allahım, şəhadət verirəm.*

və dilərəm ki, sən daxi mənüm ilən orayə gələsən və büzürgvar cəddüŋ türbəti üstində (əleyhissəlat vəs-səlam) oturub qərar dutəsən.

İmam Hüseyn (ə) dedi ki, düşmənlər məni orada xaçan qoyacaqdurlar ki, qərar dutam və əgər anda oturduğum müyəssər ola idi, nişün andan çıxardum?

Qit'ə:

Yoxdurur bidillərüŋ sərmənzili kuyi-vüsal,
Anlərüŋ mavasidür daim pozuğ viranələr.
Xanü manlarnı əgər viran olupdur, qəm dəgül,
Çün müsəlləmdür olarğə mihnətü qəmxanələr.

İbn Əbbas dedi:

– Ey İmam Hüseyn, çün mənüm iltimasum Mədinəyə gəlməgə qəbul etmədüŋ, zinhar ki, kufilərüŋ sözlərini eşitmə və bitiklərinə e'timad etmə və anlaruŋ yalan və`dələri ilən Məkkədən cıqma.

Əmma İmam Hüseyn (ə) Müslim bin Əqili Kufəyə[557] göndərməgə yekcəhət oldı və nə qədr ki Əbdullah Əbbas cəhd və mübaliğə qıldı, hiç yerə yetmədi, andan ötrü ki, müqəddər olmış idi ki, İmam Hüseyn və Əhli-Beyti-şərifin Kərbəladə şəhadət şərbətin içsünlər.

Beyt:

[167a] *Assı verməz kimsənüŋ öz işi cəhd etdüginə,*
Hər nə kim təqdir olupdur, gəlür axir öginə.

Əmma ravi rəvayət eylər ki, Məkkəniŋ hakimi qaçub Mədinəyə getdi və Şamə namə yazdı ki, İmam Hüseyn (ə) Məkkəyə gəldi və Məkkə əhli aŋa meyl etdilər. Yezid munı eşidincə namərdlik qeyrəti və mürüvvətsizlik həmiyyəti hərəkətə gəlüb tədbirlər eylədi ki, İmam Hüseyni (ə) şəhid eyləyələr və qonğay bəgləri ilən məşvərət qıldı. Çe anuŋ ədavəti İmam Hüseyn ilən və atasınuŋ düşmənliği Murtəza Əli ilən qədimdən bir əmri-müqərrər idi.

Və "Kənzül-ğəraib" kitabında məsturdur ki, düşmənlik əsbabı anlaruŋ aralarında çoxdur və bətəxsis biri bu idi ki, İmam Hüseyn (ə)

[557] Əlyazmada: *Kufə.*

Yezidiŋ bey′ətini qəbul etmədi və Müaviyə nə qədr ki cəhd etdi ki, İmam Hüseyn (ə) Yezidə bey′ət eyləyə, bər-həm yetmədi.Birisi daxi oldur ki, Əbdullah Zübeyrüŋ bir gögcək xatunı var idi. Yezidüŋ şum köŋli aŋa mail olub gecə-gündüz anuŋ fikrində idi ki, ta çox təzvirlər etdilər və dürlü-dürlü hiylətlər düzətdilər, ta Əbdullah Zübeyr xatununı boşatdı günahsız və xətasız. Bir az müddət mundan keçincə Yezid bir vəkalətnamə Əbu Musa Əş`əriyə yazdı ki, bu boşanmış xatunı anuŋ içün nikah eyləyə. Əbu Musa bir gün mundan ötrü ol xatunuŋ evinə gedər ikən Əbdullah Ömər yol üstində aŋa yetdi. Sordı kim, nərəyə gedərsən?

Dedi:

– Gedərəm ki, İbn Zübeyrüŋ mütəlləqəsi **[167b]** Yezid içün dilə-yəm ki, məni vəkil eyləyübdür. Əgər qəbul eyləyə, anuŋ içün nikah əqdini bağlayam.

Əbdullah dedi:

– Məndən saru daxi vəkil ol və düŋürlik eylə.

Çün andan ötti, həzrət İmam Hüseynə yetdi və hali-keyfiyyəti aŋa ərz etdi. İmam Hüseyn (ə) daxi buyurdı:

– Mən həm səni vəkil eylərəm ki, mənüm içün əqd eyləyəsən.

Əbu Musa qəbul edüb ol xatunuŋ evinə vardı və sözlər kinayət və sərih hənək yüzi ilən arayə saldı.

Xatun dedi:

– Ya Əbu Musa, hənəgi qoy. Əgər bir gizlü sözüŋ var, aşikar et.

Əbu Musa müddəası pərdədən dışxarı çıxarub dedi:

– Dörd kişi səni istəyüb, şər`i nikah ilən rəğbət eyləyübdürlər və mən bu iş içün gəlübəm ki, hanğısını ki bəgənəsən və rizayət verüb, mən anuŋ vəkili olub nikah eylim.

Dedi:

– Anlar kimlərdürlər?

Əbu Musa dedi:

– Əvvəl, özüm içün, əgər qəbul eyləyəsən; ikinci, Yezid içün; üçüncü, Əbdullah Ömər içün; dördünci, əmirül-mö′minin Hüseyn (ə) içün.

Xatun dedi:

– Mən bir yigit xatunəm və Əbdullah Zübeyr məni xəta və cürmsüz boşatdı və bu boşanmağuŋ səbəbi bilmədüm və bəylə dul oturmayacəgəm. Əmma sən bir qarı kişi və mən bir yeŋiyetişmiş yigit və ortamızda hiç münasibəti yox. Əmma sən təmə′ əyağı ortadan gəriyə çək və qərəzsiz ol, ta sənüŋlən oturub müşfiqlər kimi gəŋəşəlim.

Əbu Musa dedi:

– Bu söz ki, məndən ötrü dedüŋ, gərçək dersən və yəxşi buyurduŋ və mən dəxi bu **[168a]** xiyalı başümdən gidərdüm və məqsudum ol idi ki, çün yəxşi məta'ün müştərisi çox olur, mən daxi xiridarlar həlqəsində olam .

Şe'r:

Layiq dəgüləm xəl'ətüŋə, ey şəhi-xuban,
Diləmci xaçan yol tapa dər məclisi-sultan.

Pəs Əbu Musa istəyənlərüŋ şövqi və hekayəti xatunə bildirdi və dedi:

– Hər kimi ki bəgənəsən, ixtiyar et.

Xatun dedi:

– Mənim ilən bir atalığ eylə və söylə ki, bu üç kişidən hanğısına varayım.

Əbu Musa dedi:

– Mən anlaruŋ əhvalini soŋucı yetdügi saŋa ərz edim, andan məsləhətüŋi əqlüŋ ilən danış və bildügüŋ kimi əməl eylə.

Xatun dedi:

– Söylə.

Əbu Musa dedi:

– Əgər səltənət ilə malə meylüŋ var – Yezid və əgər yigit və zahid görk istərsən – Əbdullah və əgər dünyadə həsən ilə xülq və lətafət dilərsən və axirətdə üqubatdən nicat və cənnətə girmək və Xədiceyi-Kübra və Fatimeyi-Zəhra əleyhassəlamuŋ gəlinliği və Əhli-Beyti-Rəsulullah ilən cənnətdə seyran eyləmək – İmam Hüseyn (ə) ki, mən həzrət Peyğambərdən eşitmişəm ki, dedi ki, hər xatun ki, İmam Hüseynüŋ nikahinə gələ, damu odı aŋa həram olsun.

Xatun bir saət fikr qıldı və dedi:

– Dünyanuŋ malı və səltənəti fanidür və ol qədr dünyalikdən ki, Taŋrı maŋa ruzi eyləyübdür ömrüm axirinədək maŋa yetər və əgər yigitlik ilə hüsnü cəmal isə, axir qarılığa dönəcəkdir. Əmma Əhli-Beytüŋ xidmətində olmağ əbədi dəvlətüŋ səbəbi və sərmədi səadətiŋ tələbidür.

Bəs Əbu Musa İmam Hüseyn (ə) vəkalətindən anı nikah eylədi və ol dünya və axirətüŋ **[168b]** nikbəxti həzrət şahzadənüŋ qulluğində olmağ ixtiyar qıldı.

Beyt:
Hər kim Hüseyn qulluğini ixtiyar edər,
Taŋrı iki cəhandə anı bəxtiyar edər.

Çün bu xəbər Şamə yetdi, İmam Hüseynüŋ (ə) ədavəti Yezidipəlidüŋ köŋlündə artdı və dedi :

– Bu qədr məkr və hiylə eylədük, ta bu xatunı Əbdullah Zübeyrdən boşattürdük, soŋra İmam Hüseyn (ə) anı nikah əqdinə gətürdi və bizdən hiç mülahizə etmədi.

Və bu ədavət ilərüki düşmənligi ilən yar oldı. Bəs, İmam Hüseynüŋ (ə) xüsuməti və qəsdi köŋlündə yer verdi, ta soŋucı işi muŋa yetdi ki, İmamuŋ risalət və vilayət budağı Kərbəla toprağında susiz soluxdı.

Beyt:
Yaşlar yerində iki gözüm qanlar axıdur,
Hər sübhü şam təşnələbi-Kərbəla içün.
Çəkgil fəğani-zar köŋül kim, qalupdurur,
Əslanuŋ oğlı tilküyi-məkkarğə zəbun.

SƏKİZİNCİ BAB

Müslim Əqilüŋ şəhidliği iki oğlı ilən

Həzrət Risalətpənah Muhəmmədüŋ [558] (əleyhi əfzəlüssəlat) vəhyyetürici lisaninə cari olmış bu hədis: "*İnnəl-əbdə iza səbəqət ləhu min Allah mənzilətun ləm yəbluğha bi-əməlihi*"[559], yə'ni hər bəndə ki, Allah sübhanəhu və təala anuŋ içün əzəldə bir mənzil şəfəqqət eyləmiş ola, bəndə öz əməli ilən aŋa yetəməz. "*İbtəlahullahu fi cəsədihi əv fi malihi əv fi vələdihi ləm səbərrəhu əla zalikə hətta yəbluğəhul-mənzilətilləti səbəqət ləhu*"[560] – bəlkə ol bəndəni bir bəlayə mübtəla eylər, anuŋ içün kim, ol mənzilə ya anuŋ gəvdəsi **[169a]** bir mərəzə və xəstəliğə və ağrığa giriftar eylər, ya malı və verdügi əlindən alur və nöqsanlığ aŋa yetürür və yoxsul eylər, ya anuŋ əziz fərzəndləri ki, dirilik budağınuŋ xass yemişidürlər, yerə tökdürür. Pəs, ol bəndəyə səbr və təhəmmül verür, ta bu yükləri səbr və qüvvəti ilən çəkər. Bu vasitə içün ol mənzillərə ki, əzəldə anuŋ içün müqərrər olupdur, yetə. Ey mö'min, mə`lum et ki, yucə mərtəbələr və rəfi' mənzillər məhəbbət badiyəsinüŋ sərgəştələri içün namzəd olubdur.

***Məsnəvi**:*

Hər bəlayə bir əta yoldaşıdur,
Aşiqüŋ dərdü bəlalər aşıdur.
Rənclər altında gizlü gənclər,
Çeksün ol kim, gənci istər rənclər.

---

[558] Əlyazmada: *Məhəmmədi.*

[559] *Bəndə Allahın onun üçün müəyyən etdiyi məqama öz əməli ilə çata bilməz.*

[560] *Allah onun [bəndəsinin] vücudunu xəstə edərək, ya mallarına zərər verərək və ya övladını yox edərək sınayır, sonra bu sınaqlara dözdürür ki, Haqqın onun üçün müəyyən etdiyi məqama çatsın.* (hədis)

Bəs, hər kim istər ki, bu yoluŋ əri ola və bu dərgahuŋ arifi və bu həlqənüŋ sərvəri, gərək kim, hər yerdə ki, bir cür`ə rəncü mihnət və cami-qüssəvü ələm və məşəqqət ola, məhəbbət sərxoşları[561] kimi anı nuş eyləyə və incinməyə və canı riyazət qafiləsinüŋ qarşusinə göndərə.

Rübai:

Eşqüŋ torinə mürği-giriftar mənəm,
Qayğularüŋi canlə xiridar mənəm.
Mihnət oxuŋa canümi qalxan edübəm,
Didaruŋa müştaqü səzavar mənəm.

Məqsud bu neçə sözlərdən Kərbəla əhlinüŋ cəfakeşliği və məzlumliği və məhcurliğidür.

Əbdullah Mübarək nəql eylər ki, Məkkəyə əzimət etmiş idüm və təvəkkül badiyəsində yalğuz gedər idüm. Nagah bir oğlanı gördüm təxminən on bir yaşında və anuŋ bir yüzi var idi Ay kimi və bir saçı zilli-hümay kimi. Yalğuz, yəyağ badiyədə qədəm basub yel kimi yerir idi. Dedim:

– Sübhanallah, bu kim olacaxdur?

[169b] ***Beyt***:

Ya Rəb, bu kim ola ki, yerir bəylə Günəştək
Kim, badi-səba olməyə bunun ilə həm tək.

Qulluğinə vardum və səlam verdüm, cəvab verdi.

Dedim:

– Sən kimsən?

Dedi:

– Taŋrı bəndəsi.

Dedim:

– Nərədən gəlürsən?

Dedi:

– Taŋrıdan.

[561] Əlyazmada: *sərxoşlar.*

Dedim:

– Nərəyə gedərsən.

Dedi:

– Taŋrıyə.

Dedim:

– Nə istərsən?

Dedi:

– Taŋrı rizası.

Dedim:

– Yoluŋ azuği nə nəstədür?

Dedi:

– Təqva.

Dedim:

– Kölugüŋ nədür?

Dedi:

– İki əyağum.

Dedim:

– Bəylə uzun yaban və sən bir yeŋiyetişmiş oğlan. Necə eyləyəcəksən?

Dedi:

– Sən hiç kimsəni görübsən ki, bir dustuŋ ziyarətinə təvəccöh eyləyə və ol dust anı məhrum qoyə?

Dedim:

– Sən əgərçi yaşdan kiçi gözükürsən, əmma dedüğüŋ böyükdür.

Dedim:

– Aduŋ nədür?

Dedi:

– Ya İbnül-Mübarək, ruzigar mihnətləri çəkmişlərdən nə ad sorərsən və anlərdən nə istərsən?

Nəzm:

Mənəm kimsə kim, dünyadə yox nişanum,
Nə ismüm, nə rəsmüm, nə cismüm, nə canum.
Zəifəm, nəhifəm, qəm ilən hərifəm,
Nə mənzil müəyyən, nə xud xanü manum.

Dedim:

– Əgər aduŋ zahir eyləməzsən, söylə nə qəvm ilə qəbilədənsən?

Dərdlü yürəgindən bir savux ah çəkdi və dedi:

"Nəhnu qovmun məzlumən[562]*"*– biz sitəmgöricilərdənüz. *"Nəhnu qovmun mətrudun"*[563]– biz Vətən və məskənlərdən sürülmişlərdənüz. Biz bir taifəüz düşmənlər qəhrində giriftar.

Dedim:

– Bu kəlamlərdən hiç mə`lum etmədüm, daxi söylə.

Neçə beyt buyurdı, məzmunları bu ki, biz Kövsərüŋ suyi vericilərdənüz ki, hər kim bizə təqərrüb eylər, bizim vəsiləmiz ilən Kövsər suyi içər və cənnəti-ə`layə girər və hər kim bizim məhəbbətimiz ilən dünyadə dirilə, axirətdə **[170a]** bizim ilə bilə olə və hər kim bizə qəzəb ilən qəhr eyləyə, cəza məhkəməsində anuŋ ilən və`dəmiz ola.

Bu sözlər dedi və nəzərümdən qayib oldı. Çox təəssüf və qayğu yedim[564] ki, mə`lum etmədüm ki, ol kim idi? Çün Məkkəyə yetdüm, bir gün təvafdə bir qələbə xəlayiqi gördüm, əyağə durubturlar. İlərü getdüm, həman ol yigiti gördüm ki, mö`minlər andan həlal və həram məsələləri soruşur idilər və Qur'anuŋ əhkamı və hədisüŋ bəyanı andan istifsar edər idilər və anlarə fəsih dili ilən məlih üni cəvab verür idi və anlaruŋ müşkilləri həll edər idi. Bir kimsədən sordum ki, bu, kimdür?

Dedi:

– Veyhək, sən munı tanımazsən? Bu, ol kimsədür ki, Bətha yabanınuŋ qumları munı tanurlar. Bu adəm ali-əba və qürrətüleyni-Şəhidi-Kərbəladur, yə'ni İmam Zeynəlabidin.

Mən munı eşidincə anuŋ mübarək əyağlarını öpdüm və ağlayə-ağlayə dedim:

– Ya İbn Rəsulullah, ol nəstə ki öz Əhli-Beytüŋ məzlumliği və məqhurliğ babindən söylədüŋ, doğru dedüŋ. Bu ümmətdə hiç kimsəyə bəylə cəfalar keçməyübdür. Andan bəllüdür ki, Əhli-Beyti-Rə-

[562] *Biz zülmə düçar olanlardanıq.*

[563] *Biz didərgin salınmışlardanıq.*

[564] Əlyazmada: *yedi.*

sulullah gecə-gündüz rəncü tə`b ilən qərin idilər və qüssəvü qəm ilən həmnişin. Əgər xirqə geydilər, qəhr bəxyəsi ilə bilə idi və əgər löqmə yedilər, içində ağu təbiyə idi. Neçəsi ağu ilə şəhid oldılar və neçəsi qılıc zəxmi ilən məmat şərbəti içdilər. Və bitün Xorasan və İraq və Türkistanda anlaruŋ məşhədi və mərqədi var. Hər diyardə **[170b]** bir şəhriyaruŋ məzarı və hər yol üstində bir şahzadənüŋ rövzəsi və mərqədi. Hər təpədə Peyğambərüŋ bir fərzəndi yatur və hər yazıda Murtəzanuŋ bir qürreyi-eyni uyur. Bu cümlədən Müslim bin Əqilüŋ qüssəlü qissəsidür.

Müslim bin Əqil bin Əbi Talib İmam Hüseynüŋ (ə) əmmüsi oğlı idi və mundan ilərü anuŋ hekayəti ötdi ki, çün həzrət İmam Hüseyn (ə) gördi ki, kufilərüŋ bitikləri və nameləri hər gün və hər saət peyapey yetər, anlaruŋ cəvabında yazdı ki: "Bismillahir-rəhmanir-rəhim. Bu, bir namədür Hüseyn bin Əlidən mö`min ilən müsəlmanlarə. Biliŋiz ki, siziŋ namələriŋiz[565] maŋa yetdi və hər nəstə ki anda yazılu idi, mə`lum oldı. Yazmışdıŋız ki, əlbəttə, Kufəyə meyl və əzm etməlüsən ki, imamətlik və pişvalıq etmək mö`minlərə sən gərəklüsən. Mən hala əmmüm oğlı ki, elm və helm ilən zəmanənüŋ yeganəsi və cəhanuŋ nadirəsidür və mən anı qərdaşum yerində bilürəm, ol məmləkətə göndərdüm. Çün ol orayə yetə və sizin qəvl ilə canğınızı mə`lum edüb maŋa namə yazsun və böyüklériŋüzüŋ e`tiqadı və niyyəti maŋa bildürsün, andan soŋra nə qədr ki tezrak olə, özümi orayə yetürəcəgəm. "*Vəssəlamu əla mənit təbə'əl-huda*"[566].

Andan Müslim Əqili çağırdı və ögütləyüb ol kufəlünüŋ elçiləri ilən göndərdi. Həzə bir mənzil Məkkədən irağ olmayub bir səyyadı gördilər ki, sağ qolından gəlüb bir keyik ardından yügürür. Ol keyiki dutub boğazlədi. Müslim çün anı gördi, qayıtdı və İmam Hüseyn (ə) **[171a]** yanına gəlüb dedi:

– Ya İbn Rəsulullah (s), mən Kufəyə varduğümə hiç məsləhət yoxdur, zira kim yoldə bəylə halətlər gödüm və fal ilən bəgənmədüm.

---

[565] Əlyazmada: *namələriŋizi.*

[566] *Haqq yolunu tutub gedənlərə salam olsun*. (Quran, 20: 47)

İmam Hüseyn (ə) dedi:

– Ya ibn əmm, məgər qorxduŋ və əgər getməgə xatirüŋ yoxdur, getmə ki, mən özgə kimsəni göndərim.

Müslim dedi:

***Beyt**:*

Sənsən İmamü zübdeyi-əvladi-Mustəfa,
Yüz miŋ həzar cani-müqəddəs saŋa fəda.

– Ya İmam, mənüm qorxum andandur ki, sənüŋ qulluğüŋdən irağ oluram, yoxsa əmrüŋdən hiç kimsə baş çəkəməz və buyruğüŋizi can ilən qəbul eylərəm.

Şe'r:

Buyruğüŋdən çəkmənəm baş, ey İmami-rəhnüma,
Bayramum ol gündürür kim, saŋa qurban olmişəm.
Mən həm ol gün kim, sənüŋ eşqüŋ yolinə düşmişəm,
Canü başdən keçmişəm, məhkumi-fərman olmişəm.

Ya İbn Rəsulullah (ə), gedərəm, əmma gümanum budur ki, sizüŋ[567] mübarək cəmalüŋizi daxi görməyəcəgəm. Anuŋ içün qayıtdum ki, bir qatla daxi qutlu yüzüŋizi doyincə görəyim.

***Beyt**:*

Döndügüm yoldan anuŋçündür ki, bir qatla daxi,
Gözlərüm rövşən qılan fərrüx cəmalüŋdən sənüŋ.

Bəs, İmamuŋ əlini və əyağını öpdi və vida eylədi və ağlayə-ağlayə dedi:

– Bəylə bilürəm ki, bu, soŋ vida olaçaxdur.

***Nəzm**:*

Vidauŋ eylərəm, cana, budur axir vida, ey dil,
Cüda olmaq cəsəd candan bəsi müşkildürür, müşkil.
Maŋa yox taqəti-hicran, budur dərdi-bidərman,
Nəsibüm vəsldən hirman budur bir gəşti-bihasil.
Cəmaluŋ bir daxi görmək nəsibüm yox maŋa, bişəkk,
Hərəmdən Kufəyə getmək çü budur əvvəlin mənzil.

[567] Əlyazmada: *sənüŋ.*

[171b] İmam Hüseyn (ə) daxi ağlamağə düşdi və anı qucağlayub çoq nəvazişlər etdi. Müslim (əleyhirrizvan) getməgə başladı və ağlayə-ağlayə gedər idi. Dedilər, ey Müslim, həmana ölümdən qorxərsən?

Dedi:

– Ölümdən qorxməzəm, əmma İmam Hüseyndən ayrılmaq çətin işdür və ağladüğüm andandur kim, anuŋ ilən ögrənmiş idim və hərgiz andan ayrıldüğüm yox idi. Qorxərəm ki, daxi yüzini görməyəm və vəsl bustaniŋdən liqa yemişi derməyəm, lacərəm.

***Rübaiyyə**:*

Eşigüŋdən[568] *gedərəm həsrət ilən qürbətə mən,*
Bilmənəm kim, görəyim bir daxi yüzin sağ-əsən.
Gedərəm Məkkədən, əmma bilürəm mən, şəksiz,
Ki, şəhid olacağəm Kufədə bigurü kəfən.

Əlqissə, Məkkədən Mədinəyə vardı və gecə şəhrə girdi və Peyğambərüŋ müqəddəs rövzəsi əla sakiniha (ə) üstinə vardı və nəmaz qıldı və və ziyarət eylədi və təvaf şərtini yerinə yetürdi və andan soŋra öz evinə vardı.

Və anuŋ iki oğlı var idi kim, anları çox-çox sevər idi və anlaruŋ fəraqində səbr eyləyəməz idi. Anları bilə götürdi və əhlüəyalını vida eylədi və bir qəcərçiyi ücrət ilən dutdı, ta badiyə yolından Müslimi Kufəyə yetürə. Taŋrınuŋ təqdirindən qəcərçi yolı azdı və ol yazıda susizliğdən həlak oldı və Müslim və fərzəndləri yüz miŋ zəhmət ilən suyə yetdilər. Əmma İmam Hüseynüŋ fəraq odından yanər idi.

***Rübai**:*

Firqətüŋdən çəkərəm hər nəfəsi yüz fəryad,
Ah əgər naləmi bir kəz saŋa yetürsə bad.
Neylim munda əgər eyləməsəm ahü fəğan,
Çünki köŋlüm qəmü qayğuni qılupdur naşad.

[568] Əlyazmada: *eşigindən.*

[172a] Əmma çün Müslim Kufəyə yetdi, bir evdə ki, Dari-Muxtarə məşhur idi, qondı. Dustlar və mühiblər xəbərdar olub az zəmanda çox xəlayiq[569] yanında cəm` oldılar. Bəs, Müslim İmam Hüseynüŋ naməsi anlarə zahir eylədi və oxudı. Anlar anı eşidincə ahü nalə və fəryad ilən ağlaşdılar və günbəgün kufəlu[570] anuŋ qulluğinə gedər idilər və itaət və mütabiət izharını edər idilər, ta çoq xəlayiq anuŋlən bey'ət etdilər. Pəs, Müslim İmam Hüseynə (ə) namə yazdı ki, ya İbn Rəsulullah, Kufə əhli çoq rəğbət eylərlər bey'ətə və on səkiz miŋ adəm xamı bəhadir və səvaşedici bey'ət etdilər və bu işüŋ çoq qüvvət və rövnəqi var. Hər qaçan ki xatiriŋiz meyl eyləsə, təvvəccöh eyləsün ki, bunlaruŋ söhbəti özgə söhbətdür.

***Beyt**:*
Ey xoş ol saət ki, bu gözlər yüzüŋi görələr,
Vəslə vasil olələr, yol zəhmətindən sorələr.

Əmma Nü'man Bəşir ki, Yezid sarusindən Kufənüŋ daruğası idi, bu mə`nidən agah oldı, cümə məscidə vardı və carladı ki, kufilər vari məscidə hazir olsunlar. Çün bitün kufəlü hazir oldılar, minbər üstinə çıxdı və dedi:

– Ey Kufə əhli, xaçanədək fitnəəngizlik və münafiqlik eyləyəsiz? Axir bilməzsiz ki, fitnənüŋ soŋı vəbalə dönər. Taŋrıdan qorxuŋ və özüŋizə rəhm eliŋ. Və mən səvaşə müqəddəm olmənəm və uyur fitnəni oyatdurməzəm və kimsəni qorxutməzəm. Əgər siz öz günahiŋizdən tövbə eyləyəsiz, mən andan keçmək özümə vacib eyləyim, yox isə, billahül-ə`laül-əzim ki, qılıcümi çəkəm, ya məni **[172b]** öldürəsiz, ya sizi varıŋızı qırdurəm.

Və həman munı deyincə minbərdən endi və öz evinə vardı.

Və [Yezidüŋ] bir neçə casusları ki, Kufədə idilər, bitiklər Şamə yazdurdılar və Müslimüŋ gəldügi və Kufə əhli aŋa İmam Hüseyn içün etdügi və Nü'man Bəşirüŋ yumşağlığı varı şərh etdilər. Və bu mə'nini izhar qıldılar ki, əgər saŋa Kufə məmləkəti gərəklüdür, bir

[569] Əlyazmada: *xəlayiqi.*
[570] Əlyazmada: *bə-Kufə.*

zərblü daruğa göndər ki, burada bəglig eyləsün və düşmənləri dəf` etsün. Biz mə`lum etdügümizi saŋa bildürdük, daxi sən bilürsən.

Əmma çün Yezidi-pəlid bu nameləri ki, Qiyamətdə yazanə və oxuyanə və yetürənə və əməl eyləyənə *"fi cidiha həblun min məsəd"*[571] olacaxdur, oxudı, vəziri çağırdı və Kufənüŋ keyfiyyəti aŋa bildürdi. Vəziri əleyhillənə qonğay ağasına dedi ki, Əbdullah Ziyaddən özgə kimsə bu işüŋ öhdəsindən çıxmaz. Və hala sənüŋ buyruğüŋ ilən Bəsrənüŋ bəgidür, səlah bəylə görərəm ki, Kufənüŋ bəgligi daxi aŋa ərzani eyləyəsən və nişan yazdurəsən və anda qeyd eyləyəsən ki, Bəsrədə bir daruğa qoysun və özi durub Kufəyə varsun və bu fitnəni bərtərəf eyləsün.

Yezidi-pəlid bu tədbiri bəgəndi və Əbdullah Ziyadə yazdı ki, bəylə mə`lum eylədüm ki, Müslim Əqil Kufəyə varupdur və İmam Hüseyn içün bey'ət alur. Gərək ki, həman ki bu fərman[572] saŋa yetə, Kufəyə rəvanə olasan ki, Kufənüŋ bəgligi daxi həm saŋa verdüm və Müslim Əqili buldurub dərhal bitəəllül anı öldürəsən və başını **[173a]** göndərəsən ki, mütləqa sənüŋ üzrüŋ bu babda qəbul eyləməyəcəgəm.

Çün Yezidüŋ şum naməsi Şamdən ol məlʿunə yetdi, şadiman olub getməgə əzm eylədi. Və bu halətdə xəbər eşitdi ki, əmirülmö'minin Hüseyn (ə) neçə namələr Bəsrənüŋ böyüklərinə yazubdur və öz qulı ilən Səlman göndərübdür və namələrüŋ şərhi bu ki, mən sizi Taŋrıyə dəvət eylərəm, əgər qəbul eyləyəsiz, doğru yolı tapəsiz.

Nəzm:

Hər kimə doğru yol gərəklü ola,
Özini maŋa tez yetürsün.
Rövzeyi-dinə bir qədəm bassun,
Qüdsnüŋ əhli yüzini görsün.

Və budur ki, mən Kufəyə gedərəm, hər kim maŋa dust və həvadar ola, orayə mütəvəccih olsun: *"Vəssəlamu əla mənit təbə'əl-huda"*[573].

---

[571] *Boynunda xurma lifindən bir ip*. (Quran, 111: 5)

[572] Əlyazmada: *fərmanı.*

[573] *Haqq yolunu tutub gedənlərə salam olsun*. (Quran, 20: 47)

Çün Ziyadoğlı əleyhillə`nə bu mə`niyə vaqif oldı, adəmlər və casuslar saldı, ta Səlmanı buldı və çox təhdidlər ilən andan iqrar aldı ki, kimlər içün bitik gətürübdür. Bəs, ol kişiləri çağırdı və dedi ki, İmam Hüseynüŋ elçisi maŋa bəylə dedi ki, filanə və filanə bitik gətürübəm. Və siz bilürsiz ki, mən Ziyaduŋ oğlıəm və qan tökməkdə və siyasət eyləməkdə atam sünnəti yerinə yetürübəm. Və bu gün Kufənüŋ bəglig naməsi mənüm adümə gəlüpdür və maŋa buyurubdurlar ki, orayə gedəm və Müslim Əqili İmam Hüseynüŋ dustları ilən varı qırduram və daŋla rəvanə olacağam və öz qərdaşümi burada daruğa qoyacağam. Gərək kim, anuŋ fərmanindən **[173b]** baş çıxarmayəsiz və əgər qulağümə yetə ki, sizdən birisi anuŋ müxalifətin eyləmiş ola, anı və qəvm ilə qərdaşı varı siyasət eylərəm və qəzəb odı ilən evlərindən tütün çıxardururəm.

Nəzm:

Mehr ilə lütfi bərtərəf qılürəm,
Düşmənüm varı qırdurə bilürəm.
Hər kim ol mənüm ilə edə sitiz,
Kəsərəm boynini bə-xəncəri-tiz.

Bəsrəlü həman ki bu təhdidləri eşitdilər və qədəğənləri gördilər, qorxdılar. Və [İbn Ziyad] filhal Səlmanı çağırdı və buyurdı ki, boynın urdılar. Və daŋlası Bəsrə əhlindən hər kimə İmam Hüseynüŋ (ə) bitigi aŋa gəlmiş idi, atlandurub Kufəyə bilə apardı.

Və Ə`səm Kufiniŋ tarixində yazıldur ki, çün Übeydullah Ziyad Kufəyə yaxın oldı, ol qədr təvəqqüf etdi ki, gecədən iki saət keçdi. Başına əmmamə qoydı və yüzi və başı təyləsan ilən örtdi və qılıc həmayıl eyləyüb, yay qolına saldı və bir qatıra minüb ləşkəri ilən rəvan oldı və yaban yolından Kufəyə girdi. Və ol gecə bir Ay aydın gecəsi idi. Kufə eli eşitmiş idilər ki, İmam Hüseyn (ə) bu yaxında Kufəyə yetəcəkdür. Çün bu ləşkəri gördilər ki, yaban yolından gəlürlər və ləşkərbaşı əmmaməlüdür, gümanları bu idi ki, bu, İmam Hüseyn əleyhissəlamdur. Qoşun-qoşun gəlür idilər və səlam və ikram edüb der idilər ki, ya İbn Rəsulullah, xoş gəldüŋ, nə xoş gəlməkdür bu.

[Beyt]:

[174a] *Ey yüzüŋdən gözlər aydın, xeyri-məqdəm, mərhəba,*
Gəldügüŋdən zahir oldı canlərə yüz miŋ səfa.

Ziyadoğlı anlaruŋ cəvabını verür idi, əmma qəzəbdən bəylə idi ki, deməlü dəgül. Və çün darül-imarət qapusinə yetdi, Nüʾman Bəşir sağındı ki, İmam Hüseyn əleyhissəlamdur, qapuyi bağladı və dam üstinə çıxub dedi:

– Ya İbn Rəsulullah (ə), qayıt və fitnəni sıçratmə ki, Yezid bu şəhri saŋa qoymayacəkdür, özgə mənzilə varub düş, ta daŋla görəlim kim, iş nəyə yetər.

Pəs, Kufə əhli Nü'manı sögər idilər və der idilər:

– Gəl və qapuni aç ki, bu, Peyğambərüŋ fərzəndidür.

Ol halətdə Müslim bin Əmr Baheli dedi:

– Ey Kufə əhli, bu, Übeydullah Ziyaddur.

Bəs, Übeydullah əmmameyi yüzindən gidərdi və sözə gəldi. Kufəlü anı tanıdılar və varı qayıtdılar. Pəs, Nü'man aşağəyə gəlüb qapuni açdı, Ziyadoğlı darül-imarətə girdi. Daŋlası cümə məscidinə vardı və Kufənüŋ böyükləri ilən əşrafı və əkabiri varı çağırdı və Kufə bəgliginüŋ mənşuri anlarə oxutdı və çox yəxşi və`dələr verdi. Biri gün bir məclis düzətdi və xəlayiqi çox hədə-hədələr verüb qorxutdı.

Əmma çün Müslim Əqil Ziyadoğlınuŋ gəldügi mə`lum etdi, çox qorxu könlinə qalib olub, gecə Muxtaruŋ evindən çıxdı və Hani bin Ürvənüŋ evinə vardı və dedi:

– Ey Hani, mən bu şəhrdə qəribəm və sən kufəlünüŋ adəmlərini **[174b]** bilürsən. Saŋa pənah gətürübəm, məni himayət eylə düşmənlərüŋ şərrindən.

Hani qəbul etdi və evindən bir hücrə anuŋ içün tə`yin etdi və dedi:

– Səadət ilən gir və fərağət ilən otur.

Beyt:

Gözlərüm hücrəsidür mənzilü mavaŋ, aŋa gir
Ki, sizüŋdür bu ev ilən barxümi, ey bədri-münir.

Pəs, şiələr bildilər ki, Müslim nərədədür. Hər gün qoşun-qoşun gəlür idilər və Müslim anlardan İmam Hüseyn içün (ə) bey′ət alur idi və mübaliğə eylər idi ki, ey mö`minlər, bey′ətiŋizə vəfa qıluŋ və üzrdən irağ oluŋ. Ol taifələr bey′ətlər üstində andlar içdilər. Və rəvayətdür ki, on səkiz miŋ adəmüŋ bey′əti tumardə yazıldı.

Beyt:
Qamu bəhadirü ləşkərkeşü qılıcurucı,
Səvaş günində xamu başü can ilən durucı.

Əmma Ziyadoğlı həmə vəqt Müslimüŋ sorağində idi və hiç anuŋ mənzilini bulməz idi və axir bildi ki, bəylələlik ilən anı tapaməz, məkr ilə hilə bünyad etdi. Və anuŋ bir qulı var idi Mü`qıl adlu. Anı çağırdı və üç miŋ dirəm aŋa verdi və dedi:

– Var və İmam Hüseynüŋ (ə) şiələri bul və söylə ki, mən həzrət İmam Hüseynüŋ şiələrindənəm və çox aqça gətürübəm, zinhar, zinhar ki, məni ol həzrətə yetürüŋ, ta anuŋ mübarək yüzini görim və bu aqça anuŋ əlinə təslim edim, ta ol bununlən at və silah və yəraq alsun və düşmənləri ilən səvaşsun. Həman ki bu əməli edəsən və Müslimüŋ mənzilini mə`lum edəsən, maŋa xəbər ver, səni **[175a]** öz malümdən azad edim və çoq riayətlər qılım.

Mü`qil ol aqçaları alub çıqdı və böyük məscidə girüb, fikrdə idi ki, necəlik ilən bu işə varsun. Nagah gözi[574] bir kişiyə düşdi ki, ağ geyəsilər geymiş idi və çoq nəmazlar qılur idi və nəmaz içində çoq zarilik ilə yalvarmək Taŋrıyə eylər idi. Özinə dedi ki, şiələr ağ donlar geyərlər və nəmazı çoq eylərlər. Əcəb dəgül əgər bu anlardan dəgül ola.

Beyt:
Ol kimsə kim, anda Taŋrı eşqi vardur,
Ay ilə Günəş kimi yüzindən gözükür.

Ol qədr durdı ki, ol kişi nəmazdən fariğ oldı. Yanına varub səlam verdi və dedi:

[574] Əlyazmada: *gözini*.

– Canum saŋa fəda olsun, mə'lum et ki, mən bir dərviş kişiəm Şamdən və Taŋrı-təala maŋa çox minnətlər qoyub, Əhli-Beytüŋ məhəbbəti və anlaruŋ şiələri köŋlümdə salupdur. Üç miŋ dirəmüm var və nəzr eyləmişəm ki, bunları ol dəvlətlüyə verəm ki, bu şəhrə gəlübdür ki, İmam Hüseyn içün (əleyhissələvat və əleyhissəlam) bey'ət ala. Əgər məni aŋa yol görsədəsən, ta bu aqçanı aŋa tapşuram, saŋa səvab ola və maŋa minnət. Ol kişi dedi ki, bu qədr adəmdən ki, bu məsciddə nəmaz qılurlar, nədən ötrü mənüm yanümə izhar eylədüŋ. Mü`qil dedi ki, xeyrü sələh əsəri səndə çoxrak gördüm. Xatirümə gəldi ki, sən Əhli-Beytüŋ şiələrindənsən. Ol sadiqi-sayəköŋül[575] dedi:

– Sənüŋ zənnüŋ xəta dəgül. Mən Əhli-Beytüŋ həvadariəm və mənüm adum Müslim Əvsəcədür **[175b].** Gəl, imdi Taŋrı ilən bir əhd eylə ki, bu sirri hiç kimsəyə faş etməyəsən, ta mən səni məqsudə yetürəyim.

Mu`qil andlar içdi ki, hər sirr ki maŋa tapşurasan, hərgiz anı zahir etməyəm. Müslim Əvsəcə dedi:

– Bu gün get, daŋla mənüm evimə gəl, ta istədügüŋ saŋa yol görsədəyim.

Və öz evini aŋa salığ verdi.

Daŋlası Mü`qil Müslim Əvsəcənüŋ evinə vardı və Müslim anı Müslim Əqilə aparub halları şərh eylədi. Mü`qil Müslim Əqilüŋ əyağinə düşüb ol aqçaları anuŋ öginə qoydı. Müslim dedi:

– Müshəfi gətürüŋ, ta muŋa and verəyim.

Bəs Müshəfi gətürdilər və Müqil and içdi ki, siziŋ sirriŋizi hiç kimsəyə deməyəm və izhar etməyəm və məkrü hilədən irağ olayım.

Müslim Əqil ol andı inanub andan bey'ət istədi. Və ol gün əxşamadək anda idi və şiələrüŋ halından xəbərdar olub, gecə Übeydullah Ziyad yanına varub varı şərh eylədi.

Və daŋlası Əsma bint Xaricə və Muhəmməd bin Əş'əs İbn Ziyaduŋ məclisinə vardılar. Anlardan sordı ki, Hani Ürvə xandadur ki, anı görməzəm. Dedilər ki, çox müddətdür ki, sayru düşübdür. Ziyadoğlı dedi ki, eşitdüm ki, bu neçə gün yəxşi olupdur və qapusində

[575] Əlyazmada belədir, farsca orijinalda: *sadedel* (sadəlövh).

oturur və bilməzəm ki, nədən ötrü səlamümə gəlməz və biz anuŋ görməginə çox müştaqüz. Dedilər:

– Biz varalım, əgər atlana bilə, atləndürəüz və xidmətünə gətürəüz.

Bəs andan çıxub Haninüŋ yanına gəldilər və çoq mübaliğələr edüb, anı atləndürüb darül-imarətə rəvan oldılar. Hani **[176a]** həman ki köşkə yaxın gəldi, dedi:

– Ey dustlar, Übeydullah Ziyaddən köŋlümə bir qorxu düşüpdür.

Muhəmməd bin Əş'əs və Əsma bint Xaricə anuŋ köŋlinə təskin verdilər. Bəs, İbn Ziyaduŋ evinə girdilər və məclisdə oturdılar. Übeydullah Ziyad kinayə ilən bir söz dedi. Hani dedi:

– Əyyuhal-əmir, nə vaqe olupdur?

Ziyadoğlı dedi:

– Mundan bətər nə vaqe olacaxdur ki, Müslim Əqili öz evüŋə aparub, İmam Hüseyn içün (ə) xəlqdən bey'ət alursən. Xiyal eylərsiŋiz ki, mən siziŋ məkr ilə üzriŋizdən qafiləm.

Hani bu mə`nidən inkar eylədi. Ziyadoğlı Mü`qili çağırdı və Haniyə dedi:

– Bu şəxsi tanursən?

Hani həman ki baxdı və Mü`qili gördi, bildi ki, ol bir məkredici ğəddar imiş. Bu mə`nidən münfəil olub, alnında xəcalət əsəri zahir oldı və dedi:

– Ey əmir, Taŋrı həqqi içün ki, mən Müslimi evümə çağırmadum və fitnə içün sə`y etmədüm. Əmma bir gecə xəbərsiz mənüm evimə gəldi və məndən zinhar istədi. Maŋa utanmağ mane oldı kim, anı ümmidsiz eylim. İmdi and içərəm ki, evimə gedincə anı andan çıxarayım.

Ziyadoğlı dedi:

– Gümanuŋ budur ki, mundan dışxarı çıqacəqsən? Ta sən Müslimi buraya yetürməyincə səni qoymayacağəm.

Hani dedi:

– Mən munı hərgiz etməyəcəgəm və şəriət ədəbində və təriqət mürüvvətində cayiz dəgül ki, zinharlüyi düşmən əlinə verəm və vəfadarlıq qaidəsi və and və şərti bərtərəf eylim.

Beyt:
Mustəfa həqqi içün kanuŋ qaninə girməzəm,
[176b] *Başum ər getsün, anı düşmən əlinə verməzəm.*

Nə qədr ki Ziyadoğlı və məclis əhli bu babda Hani ilən söyləşdilər, qəbul etmədi. Bəs Haniyi köşkdə saxladılar. Əmma Əsma[576] bin Xaricə, Übeydullah Ziyadə dedi:

– Ey ğəddaredici nakəs, biz bu kişini sənüŋ işarətüŋ ilən burayə gətürdük və sən əvvəl yəxşi sözlər der idiŋ. Həman ki anı gördüŋ, anuŋlən bəylə işlər eylərsən və öldürmək təhdidi daxi verürsən. Bu, nə yaman işdür ki, səndən sadir olur?

Ziyaduŋ oğlı qəzəbə varub buyurdı ki, Əsmayı ol qədr dögdilər ki, dirilikdən ümmidsiz oldı. Bəs Əsma Haniyə dedi ki, mən öz ölümüm xəbəri saŋa yetürürəm. Pəs, Ziyaduŋ oğlı Haniyi daxi çağırdı və dedi:

– Ey Hani, öz canüŋi artuğ sevərsən, ya Müslim Əqilüŋ canını?

Hani dedi:

– Yüz miŋ mənüm canum təki Müslim Əqilüŋ canına qurban olsun. Əmma, ey İbn Ziyad, sən bəgsən və ixtiyar əlüŋdə. Müslimi bulmaqda ol, ta anı buləsən, məndən nə istərsən.

İbn Ziyad əleyhillə'nə dedi:

– Mən anı istəməkdə idim və sənüŋ evüŋdə buldum. İmdi Taŋrı bilür ki, anı qapurğaŋdan çıxartdürərəm, ya sən özüŋi aŋa qurban eyləyəsən.

Bəs, buyurdı kim, qəmçi ilən üqabeyni gətürdilər və Hani ol vəqtdə səksən doquz yaşında idi və həzrət Mustəfanuŋ (ə) söhbətinə yetişmiş kişi idi və həzrət Murtəzanuŋ (ə) qulluğində çox müddət durmış idi.

[177a] Ziyadoğlı buyurdı kim, anı üqabeynə çəkdilər və dedi:

– Müslimi gətür, ta səni bağışlayım.

Hani dedi:

[576] Əlyazmada: *Əsmay*; farsca orijinalda: *Əsma.*

– Taŋrı həqqi içün ki, hər üqubət ilən ki, andan bətər olməyə, maŋa dəgdürəsən və Müslim Əqil mənüm əyağum altında ola, üstindən qədəm götürmənəm və anı saŋa görsətməyəm. Və sən bilməzsən ki, əzəl gündə ki, biz Mustəfa və Murtəza ilən müqərrər eyləmişüz ki, canlarımız anlaruŋ yolına fəda eyləyəüz.

Beyt:
Əzəl günində ki, biz bu yolə qədəm bastüg,
Olar məhəbbətidə başımız kəsüb astüg.

Ziyadoğlı buyurdı kim, Haniyə beş yüz qəmçi urdılar. Hani huşsız qaldı. Ağaları şəfaət qıldılar ki, bu əziz xacəni öldürürsən. Bu, həzrət Mustəfanuŋ (ə) səhabələrindəndür. Buyur kim, anı üqabeyndən endürsünlər. Ziyadoğlı anı endürtdi və həm ol saət Taŋrınuŋ rəhmətinə vasil oldı. Və bir rəvayətdə daxi gördüm ki, göndərdi bazar başına və boynın urdılar və gəvdəsi darə çəkdürdilər və başını Ziyadoğlına apardılar.

Əmma çün Müslim Əqil bu xəbəri eşitdi, həmiyyət damarı[577] hərəkətə gəldi və oğlanlarını Şüreyh Qazınuŋ evinə göndərdi və buyurdı ki, carlasunlar ki, Əhli-Beytüŋ dustları yanümdə yığuŋ. Yigirmi miŋ adəm qamu geyimlü-geçimlü, silahlu-mükəmməl cəm′ oldılar. Pəs, Müslim atlandı və bu ləşkəri götürüb darül-imarət tərəfinə rəvanə oldılar.

Ziyadoğlı bir neçə Kufinüŋ böyükləri ilən ki, məclisində hazir **[177b]** idilər, öz ləşkərləri bilə qapuyi bağladılar və Müslim öz ləşkəri ilən köşküŋ dört yanını çəvirdilər. İkindü çağı səvaş vaqe oldı və yaqın oldı ki, köşki alalar. Ziyadoğlı qorxdı və hökm etdi ki, Kufənüŋ böyükləri ki, anuŋ ilən bilə köşkdə idilər, misli: Kəsir bin Şihab və Muhəmməd Əş′əs və Şimri-Zilcövşən və Şis bin Rəbi′ köşküŋ üstinə çıxub dedilər:

– Ey Kufə eli, vay sizə.

Və anları qorxudub, Kəsir bin Şihab dedi:

[577] Əlyazmada: *damarını*.

– Ey kufilü, özüŋizə rəhm eyliŋiz ki, dəmbədəmdür ki, Şamuŋ ləşkəri gələcəkdürlər. Ziyadoğlı and içər ki, əgər uruşdə bəylə sabit-sabit durasıŋız, həman ki sizə ələm dəgə, suçsizi suçlu yerində dutayım və haziri qayibüŋ əvəzinə əzab eylim. Ey kufəlü, özüŋizə bağışlaŋız və əyal və uşağlarıŋıza rəhm eyləŋiz.

Kufilü həman ki bu sözləri eşitdülər, köŋüllərinə bir qorxu düşdi və vəfasizlik ki, anlaruŋ eski qaidəsi idi, zahir edüb, Taŋrıdan və Rəsulindən utanmayub, əhd və bey'ətlərini pozub, andlar içməyüb sandılar və hər kimsə öz evinə və yurtına qayıdub, Müslimi yalğuz qoydılar. Həzə gün batmamış idi ki, varı getdilər və Müslim ilən otuz, özgə rəvayətdə on yigit qaldı. Müslim çün bu halı gördi, qayıdub nəmaz içün məscidə vardı. Çün nəmazuŋ ədasindən fariğ oldı, ol doquz adəm[578] daxi qoyub getmiş idilər. Müslim heyran **[178a]** qalub dedi:

– Bu, nə işdür ki, mən görərəm.

Beyt:

Öz işümdən qalmışam heyran, İlahi, nedəyim,
Qürbət içrə zarü sərgərdan, nərəyə gedəyim?

Və bu, nə halətdür ki, vaqe oldı? Dustlarə nə oldı ki, vəfa yolından yüzlərini çəvirdilər və vəfasizlik qədəmi ilən ğədr və mürüvvətlər yolına düşdilər. Həy dəriğ ki, kufilülər doğrulığ yolından miŋ mənzil irağdurlar və münafiqi-el və oymağ.

Şe'r:

Görsədürlər vəfayi əvvəl çağ,
Soŋ vəfasizlik eylər ol oymağ.
Çün olar rəsmidür cəfavü sitəm,
Oluŋiz dustlar, olərdən irağ.

Pəs, Müslim atlandı ol niyyət ilən ki, Kufədən çıxa. Səid bin Əhnəf aŋa yoluxub dedi:

– Əyyuhas-seyyid, nərəyə gedərsən?

---

[578] Əlyazmada: *adəmi*.

Dedi:

– Kufədən çıxaram ki, bir mənzildə duram ki, vəqt ola ki, şiələrdən bir neçəsi maŋa gələlər.

Səid bin Əhnəf dedi:

– Zinhar, zinhar ki, çıxmaq xatirüŋdən gidər ki, dərvazələri bağlayubdurlar və yolsaxlayıcılar yolları dutub səni istərlər.

Müslim dedi:

– Pəs neylim?

Səid dedi:

– Mənüm ilən gəl ki, səni bir yerə aparayım ki, saŋa himayət edüb öz pənahində saxlasunlar.

Pəs, Müslim Səid ilə vardı Muhəmməd Kəsirüŋ evinədək və Səid Muhəmməd bin Kəsiri çağırdı ki, budur Müslim Əqili gətürübəm. Muhəmməd Kəsir həman munı eşidincə yalın əyağ ilən çıxdı və Müslimüŋ əli-əyağı öpüp dedi:

– Bu, nə dəvlətdür ki, maŋa əl verdi və nə səadətdür ki, mənüm mənzilümə yüz qoydı.

Beyt:

Yüz şükr ki, gördüm yüzüŋ, ey nuri-Xuda,
[178b] *Miŋ cani-giramidür əyağuŋa fəda.*
Saldı başümə kölgəsi sərvüŋ bu gecə,
Gəlgir evə, hiç çəkmagil ün birlə səda.

Pəs, Muhəmməd Kəsir Müslimi evinə girdürüb, yəxşi mənzil anuŋ içün tərtib etdi və gərcəgi budur ki, yer altında bir yurt düzətmiş idi, anı orada gizlətdi. Münafiqlər bu xəbəri Ziyadoğlına yetürdilər ki, Müslim Muhəmməd Kəsirüŋ evində gizlənmiş. İbn Ziyad öz oğlı Xalid göndərdi bir qələbəliğ ilən ki, Muhəmməd Kəsir oğlı ilən dutub gətürsün və Müslimi anuŋ evində buldursun və darül-imarətə hazir eyləsün. Xalid xəbərsiz gəldi və Muhəmməd Kəsirüŋ evini çevirüb, anı oğlı ilən ələ gətürüb, atası yanına göndərdi və hər neçə ki ol evi axtardılar, Müslimdən xəbər almadılar. Əmma çün Ziyadoğlı Muhəmməd Kəsiri gördi, sögmək bünyad etdi. Muhəmməd Kəsir anı hayxırdı ki, ey Ziyadoğlı, nə küklərsən, mən səni tanımanam? Sə-

nüŋ ataŋ həramzadə idi, güc ilən Əbu Süfyanə bağladılar. Sənüŋ nə həddüŋ var ki, məni sögəsən? Anlar bu sözdə idilər ki, Kufənüŋ qırağından səvaş kusinüŋ üni və surna avazı çıxdı. Və bəylə idi ki, Muhəmməd Kəsirüŋ qəvm və qərdaşı çox idi. Eşitdilər ki, Ziyadoğlı Muhəmməd Kəsir oğlı ilən dutupdur, varı geyindilər və on miŋ adəm idilər və darül-imarətə yüz qoydılar və əvam qovğası anlar ilə bilə. Ziyadoğlı çün munı gördi, qorxub buyurdı kim, Muhəmməd Kəsir[579] **[179a]** oğlı ilən dam üstinə çıxsunlar və özlərini ol ləşkərə görsətsünlər. Bəs, ol gələn ləşkər çün Muhəmməd Kəsiri oğlı ilən ki, gümanları bu idi ki, anları öldürübdürlər, gördilər sağ-əsən, səvaşdən əl çəküb durdılar. Və Muhəmməd Kəsirə icazət oldı ki, dışxarı çıxub qəvmlərinə təskin versün və oğlını darül-imarətdə qoysun. Muhəmməd Kəsir darül-imarətdən çıxub qəvmlərini qaytardı və öz evinə girüb Müslimdən xəbər aldı.

Pəs, gecə Süleyman bin Sürəd və Muxtar bin Übeydə və Vərqay bin Azib və neçə əkabir ilən Muhəmməd Kəsirüŋ yanına gəlüb dedilər ki, ey din əhli, daŋla oğluŋı köşkdən çıxarub Müslümi götürəlim və Kufədən çıxub ərəbiŋ oymağlarına varalım və qalın çəri cəm′ edüb, İmam Hüseynüŋ (ə) xidmətinə gedəlim və İmamuŋ ittifaqı ilən uruşmək kəməri cəhd belinə bağlayalım və anuŋ düşməni ilən səvaş edəlim. Varı bu sözə ittifaq eyləyüb müqərrər eylədilər. Taŋrınuŋ qəzasindən həman ki sübh oldı, Amir bin Tüfeyl on miŋ adəm ilən Şamdən gəlüb Ziyadoğlına yetişdilər və Ziyadoğlı ol ləşkər ilən qüvvətlənüb Muhəmməd Kəsirüŋ ardına adəm saldı və öz nökərlərinə dedi kim, qamu geyinsünlər. Muhəmməd Kəsir darül-imarətə yüz qoydı və anuŋ adəmləri amm qovğası ilən otuz-qırq [miŋ] yigit qəsri çəvirdilər. Həman ki Muhəmməd Kəsir Ziyadoğlınuŋ yanına gəldi, Ziyadoğlı dedi:

– Ey Kəsiroğlı, öz canüŋi artuq sevərsən, ya Müslim Əqilüŋ **[179b]** canını?

Cəvab verdi kim, ey Ziyadoğlı, gənə dünənki sözlər üstinə varduŋ. Müslimüŋ canını Taŋrı saxlasun və mənüm canümi budur otuz-

[579] Əlyazmada: *Məhəmməd Kəsiri*.

qırq miŋ yigit ki, köşküŋ çəvrəsində durub bir işarətə mövqufdurlar, saxlarlar. İbn Ziyadi-məl'un Yezidüŋ canına and içdi ki, əgər Müslim mənüm əlümə verməyəsən, buyurayım ki, başüŋi götürsünlər. Muhəmməd Kəsir dedi:

– Ya İbn Mərcanə, sənüŋ ol qədr zəhrüŋ yoxdur ki, mənüm başümdən bir tük əksük eyləyəsən.

İbn Ziyad münfəil olub yanında bir dəvat durmış idi, götürüb Muhəmməd Kəsirə atdı və anuŋ başını sındurdı. Muhəmməd Kəsir qılıc çəkdi və Ziyadoğlına həmlə eylədi. Kufənüŋ böyükləri ki, hazir idilər, aŋa yapışub qılıcı əlindən aldılar. Və Muhəmməd Kəsirüŋ alnından qan axar idi. Nagah baxdı ol casus Mü`qili gördi kim, məkr və hilə ilən Müslimüŋ əhvalını mə`lum edub bu qovğaları qopardı, orada durmış idi və bir qılıc qurşanmış. Əl urub anuŋ qılıcını çəküb ol nakəsüŋ belinə urdı və qavun kimi iki böldi. Ziyadoğlı qorxub təxtdən enüb, bir evə girüb qullarına dedi kim, Muhəmməd Kəsiri öldürüŋ. Qulları və çakərləri Muhəmməd Kəsirüŋ qəsdinə durdılar və ol qılıcı urar idi, ta on kişini bıraxdı və canları damuyə göndərdi. Axir əyağı gilimüŋ ucına dəgüb düşdi və qullar çəvrəsini alub anı şəhid etdilər.

Muhəmməd Kəsirüŋ oğlı çün gördi ki, atasını öldürdilər, qılıcın çəkdi və əslanlar **[180a]** kimi çığırub yüzini köşkə qoydı və hər kim öginə gəlür idi, dərhal anı cəhənnəmə göndərür idi. Əlqissə, ərlik əyağı ilən duruşub bəhadirlik əli çıxardı və bir pəhləvanlik etdi ki, dust və düşmən və yad ilə biliş – hər kim anı gördi, yüz miŋ afərin etdi.

Beyt:
Ta olubdur səvaş işi bünyad,
Kimsə anuŋ kimi çıxarmadı ad.

Və ta köşküŋ qapusinədək yigirmi böyük – xamu sərdar əyağdən saldı. Bir qul ardından xəbərsiz gəlüb bir cidə anuŋ arxasına urdı ki, cidənüŋ cəbri ucı köksindən çıxdı və ol pəhləvani-şirmərdi[580]-bə-

[580] Əlyazmada: *şiraərd*.

hadir əyağdən düşdi və canını Taŋrıyə vasil eylədi. Bəs, qəsrüŋ içindən xüruş çıxdı və ol çəri ki, içəridə idilər, çıxub Muhəmməd Kəsirüŋ ləşkəri ilən uğraşdılar və anlar bunlar ilən yüzbəyüz oldılar.

Beyt:

Uğraş dəŋizi çü cuşə gəldi,
Ərlər qamusı xüruşə gəldi.
Ərlər qanidən sipah gərdi,
Yer oldı qızıl, həva qarardi.

Kufə ləşkəri bəhadirlər kimi durub əylə səvaş etdilər ki, Şam çərisi anlarə heyran qaldılar. Ziyadoğlı dedi ki, anlaruŋ səvaşı Muhəmməd Kəsir və oğlı içündür: ikisinüŋ başların gəvdədən kəsüb, anlaruŋ ortasına salsunlar, ta könülləri səvaşdan savuyub, uğraşı tərk etsünlər. Pəs, ol iki başı kəsdilər və meydanə saldılar. Kufilər çün ol başları gördilər, səvaş tərkini qılub qayıtdılar.

Həman ki gecə oldı, anlardan dəyyar qalmamış idi. Muxtar çün gördi ki, iş **[180b]** işdən keçdi, yəraqladı və öz qəvmi və əmmüsi oğlanları ilən Bəni Sə'd oymağına vardı və Süleyman bin Sürəd Xüzai daxi Bəni Zeyd məhəlləsinə girdi ki, ol məhəllədə şiələr çox idilər.

Əmma çün Müslim Əqil Muhəmməd Kəsir ilən oğlınuŋ şəhidliq xəbəri eşitdi, çoq məlul və qayğulu olub gecə anlaruŋ evindən çıxdı və atlanub dərvazənüŋ yolını bulmağdə idi ki, ol dərvazədən çıxa. Nagah Ziyadoğlınuŋ qəravulları içinə düşdi və anlar iki miŋ adəm idi və ləşkərbaşı Möhkəmüt-Tüfeyl idi. Nagah Müslimi gördilər, birisi andan sordı:

– Sən kimsən?

Dedi:

– Bəni Fərarədən bir ərəbəm və istərəm ki, öz qəvmümə varəm.

Dedi:

– Qayıt ki, bu, sənüŋ yoluŋ dəgül.

Müslim qayıtdı. Həman ki Darül-Rəbiə yetdi, gördi ki, Ziyadoğlınuŋ oğlı iki [miŋ] namərdlər ilə durubdur. Andan daxi döndi. Çün Kənasəyə yetdi, Hazimi gördi iki miŋ namərd ilən. Bazarə yüz qoydı və bilməz idi kim, nərəyə getmək gərək. Bu halətdə daŋ yulduzi çıxdı.

Kənasə Harisi, Müslim Əqili gördi bir atə minib, əlində bir cidə və əgnində bir dürraə və belində bir Misri qılıc. Bəhadirlik əsəri andin zahir və səfşikənlik sifəti andan bahir.

Nəzm:
İldırımtək bir atı altində
Kim, yel andan qalur gerisində.
Heyf odindən qəzan kimi cuşdə,
Qəlzəmüŋ dəŋizitək uruşdə.

Harisüŋ köŋlinə gəldi ki, bəylə bəhadir atlu kimsə dəgül, illa Müslim Əqil. Filhal Ziyadoğlınuŋ qapusinə **[181a]** varub eşikağasına – Nüʾmanə dedi:

– Ey əmir, mən Müslimi gördüm dürudgərlər bazarında. Yüzini Bəsrə dərvazəsi saru qoyub gedər idi.

Nüʾman əlli atlu ilən anuŋ ardına vardı. Müslim geriyə baxdı, gördi kim, neçə atlu anuŋ ardınca gəlürlər. Dərhal atdan endi və atı yügürtdi bazar yolına və özi yəyağ bir məhəlləyə yüz qoyub bir kuçəyə vardı. Və gümanı bu idi ki, ol kuçədən çıxmaq olur. Həman ki bir parə yol getdi, gördi ki, kuçənüŋ yolı bağlıdur və çıxmaq olmaz. Bir məscidi gördi, anda vardı və bir bucağdə oturdı. Əmma çün eşikağası Nü`man anuŋ izini gördi, anı gözədüb ardından getdi, həllaclar bazarında atını gördi və atludən hiç xəbər bulmadı. Heyran qalub, atı dutub Ziyadoğlınuŋ yanına apardı və hekayət bəylə ki, mə`lum eyləmiş idi, dedi. Ziyadoğlı buyurdı kim, dərvazələri bağlayalar və məhəllələrdə carçılar saldı ki, hər kim Müslimi, ya anuŋ başını gətürə, ol qədr dünyalik aŋa verəyim ki, baylardan bay olsun. Xəlq həman munı eşidincə anı bulmağında düşdilər və gəzübəni hər tərəfi axtarur idilər. Və Müslim ol məsciddə ac-susiz qalub der idi: Həy dəriğ, düşmənlərüŋ içində qalubəm və hiç yerə yol aparmənəm və İmam Hüseynüŋ (ə) qulluğindən irağ düşübəm. Nə bir məhrəmüm var ki, anuŋ ilən bir neçə söz söyləyim və nə bir həmdəmüm ki, köŋlümüŋ razını bir şəmməcə aŋa bildürəyəm. Nə **[181b]** bir pəyküm var ki, İmam Hüseynə (ə) məndən bir bitik aparə. Və nə bir səyyah ki, köŋlümüŋ peyğamını ol vilayətpənahuŋ eşiginə yetürə.

Şe'r:

Nə bir qasid ki, peyğamum mənüm dildarə aparsun,
Nə bir məhrəm ki, aşiqnüŋ səlami yarə aparsun.
Nigarümdən cüda düşdüm qəribü binəva qaldum,
Qəmüm çox, kimsənəm yoxdur xəbər qəmxarə aparsun.

Müslim heyran və qayğulu ol kuçədə gəzər idi. Nagah bir qapuyə yetdi. Gördi ki, bir qarı dişi ol evüŋ içində oturub, əlində bir təsbih və çəvirür və Taŋrınuŋ zikrini eylər və anuŋ adı Təvʾə idi.

Müslim dedi:

– Ya əmətəüllah, hiç ələüŋdən gəlür ki, bir içim su maŋa yetürəsən. Taŋrı-təala səni Qiyamətüŋ susizliğindən saxlasun ki, bəqayət susizəm.

Təvʾə cavab verdi:

– Nişün vermim.

Dərhal varub bir kuzə savux su gətürdi və Müslimüŋ əlinə verdi. Müslim anı alub doyincə içdi və anda oturdı.

Təvʾə dedi:

– Bir qovğalu şəhrdür, qalx və bir mənzil ki, anda yurt dutubsən var ki, oturdügüŋ munda maŋa töhmət səbəbi olur.

Müslim dedi:

– Ey Təvʾə, mən bir kişiəm izzət və şərəf xanidanindən və qürbətə düşübüz, yarü diyarümdən irağ qalub, nə mənzilüm var və nə evüm.

Şe'r:

Bəla kuyində yapmışmən vətən mən,
Əlaxanü əlaman mən, gəzən mən.
Neçə kim baxərəm öz halətümğə,
Qalupmən düşmən içrə mümtəhən mən.

Əgər məni öz evüŋdə yer verəsən, ümmid oldur ki, Taŋrı-təala səni uçmağda yer verə.

Təvʾə sordı:

– Sənüŋ aduŋ nədür, hanğı qəbilədənsən?

Müslim dedi:

– Mihnətlülərdən **[182a]** və qayğulu qəriblərdən nə ad sorarsən?

Təvʾə çox mübaliğələr etdi, Müslim dedi ki, İmam Hüseynüŋ əmmüsi oğlı Əqil mənəm. Kufilər maŋa vəfasizlik etdilər və məni bəla dəŋizinə[581] salub özləri qırağə çıxdılar və hala bu məhəldə düşüb, öz ölümümə köŋül qoyubəm və köŋlüm İmam Hüseyn içün (ə) nigərandur və bilmənəm ki, anuŋ halı bu taifə ilən nərəyə yetəcəkdür?

Təvʾə həman ki bildi kim, ol Müslim Əqildür, əyağinə düşdi və filhal anı evinə apardı və bir təharətlü yer anuŋ içün düzətdi və yeməkdən-içməkdən ol nəstə ki hazir idi, mali-haziri çəkdi və xürrəmü xoşdil olub, Taŋrınuŋ şükrini yerinə yetürdi və dili bu məzmunə mütərənnim oldı.

Beyt:
Rəhmət firiştəsi bu gecə qondi evümə,
Uçmağ kib etdi evüm və qaçurdi divümə.

Müslim ol yeməkdən yedi və savux su içdi və qəza nəmazlarını əda eyləməgə durdı və nəmazdən soŋra başını yastuğə qoydı. Çün gecədən bir parə keçdi, Təvʾənüŋ oğlı evinə gəldi, gördi ki, anası bir evə peyvəstə girər və çıqar və gah ağlar və gah gülər. Anasına dedi ki, ey ana, sənüŋ bu gecə əcəb halətüŋ var, xeyrdür?

Təvʾə ddi:

– Ey oğul, sən öz haluŋa məşğul ol.

Oğlı mübaliğələr etdi, anası dedi:

– Ol vəqt saŋa deyəcəgəm ki, sən and içəsən ki, bu razı hiç kimsəyə deməyəsən.

Oğlan dedi:

– Sirrüŋi kimsəyə deməyəcəgəm.

Və andlar içdi və əhdlər etdi ki, ol razı gizləsün **[182b]** və kimsəyə deməsün.

Anası dedi:

---

581 Əlyazmada: *dəŋizə.*

– Ey oğul, Müslim Əqil bu gecə pənah bizim evimizə gətürübtür və anı bu hücrəyə girdürübəm və xidmət və ədəb şərti yerinə yetürübəm və bu xidmətdən Taŋrı-təaladan səvabi-cəzili gözədürəm.

Oğlan xamuş olub uyudı. Pəs, Müslim bir aşüftə vaqiə gördi. Uyxudan oyanub İmam Hüseyn (ə) fəraqindən və uşağ ilə əhlini aŋub ağlamağə düşdi və gözlərinüŋ yaşından mədəd və yariliğ istəyüb der idi.

Şe'r:

Ey gözüm, qan ağla kim, dildardən olduŋ irağ,
Ey köŋül, çıx odə düş kim, ayru düşdüŋ yardən.
Yoxdurur bir mehrəbanum kim, mənimçün ağlayə,
Bəylə kim, mən görərəm işüm düşüpdür kardən.

Həman ki hini-səbah oldı, Təvʾənüŋ oğlı evdən çıxdı və darülimarət qapusinə vardı. Gördi ki, Ziyadoğlı Həsin bin Təmirə der idi ki, Kufə məhəllələrində gez və carlə ki, hər kim Müslimüŋ xəbərini maŋa gətürə, aŋa miŋ dirəm verirəm və hər hacəti ki var ola, yanümdə begənilə və hər evdə ki, ol anda ola və ev yiyəsi anı gizlətmiş ola və maŋa xəbər verməyə, ol evi talasunlar və ev yiyəsi öldürsünlər. Təvʾənüŋ oğlı həman ki miŋ dirəmüŋ adını eşitdi, Muhəmməd Əşʾəs yanına vardı və Müslimüŋ keyfiyyəti aŋa bildürdi. Muhəmməd Əşʾəs İbn Ziyadə vardı və hekayət şərhini aŋa təqrir etdi. Ol həramzadə xürrəm olub Əmr bin Hərb Məxzumiyə dedi ki, üç yüz kişi Muhəmməd Əşʾəsə ver ki, evi bilür, varsun və Müslimi dutub gətürsün. **[183a]** Muhəmməd Əşʾəs ləşkər ilən atlandılar və xəbərsiz Təʾvənüŋ evini çəvirdilər.

Əmma Müslim daŋ nəmazı qılmış idi ki, atlar əyağınuŋ səsi qulağına dəgdi. Bildi kim, anı dutməginə gəlüpdürlər. Əyağə durdi və silahını özinə bağladı və qılıcın çəküb evdən çıxdı. Çün dışxarıkı adəm anı gördilər, qamu aŋa yugürdilər. Müslim qəzəblü əslan kimi anlarə yüz qoyub, neçə nakəsi bıraxub damuyə göndərdi. Muhəmməd Əşʾəs bu vaqiənüŋ xəbərini Ziyadoğlına göndərdi. Bəs Ziyadoğlı aŋa adəm saldı və dedi ki, səni üç yüz adəm ilən göndər-

düm ki, bir adəmi dutub gətürəsən, güciŋiz aŋa yetmədi, sizə nə oldı? Axir bir adəm artuq dəgüldür? Muhəmməd Əşˈəs cəvab geri göndərdi ki, sənüŋ gümanuŋ oldur ki, məni bir pənbuğçiyə, ya bir culfanuŋ səvaşına göndərübsən. Vallah ki, məni bir ğürran əslanə və pili-dəman uğraşinə rəvanə qılubsan. Bir dilavərdür ki, qılıc zərbi ilən bəhadirlərüŋ qanını yerə tökər və bir səfşikəndür ki, xəncər uci ilən əznavurlaruŋ beynini mə`rəkə toprağı ilə bərabər edər.

Beyt:
Xəşmdən cuş ursə, bir yağışdurur kim, qan yağər.
Dənizə ursə qılıc, dərhal anı iki bölər.

Ziyadoğlı peyğam göndərdi ki, aŋa əmaŋ verüb mənüm yanümə gətür ki, əmanuŋ hiləsi ilən Müslimi ələ gətürmək olur. Çün bu xəbər Muhəmməd Əşˈəsə yetdi, Müslimə dedi ki, Müslim özüŋi təhlikəyə **[183b]** salma və qılıcı əlüŋdən bırax ki, əmir saŋa əman verübdür. Müslim dedi:

– Maŋa sizüŋ əmaniŋizə hacətüm yox ki, sizə e`timad qılmaq olməz və kufilərdən vəfa rəsmi gəlməz.

Beyt:
Kufilərdən cüz cəfa qılməz zühur,
Gəlmədi hərgiz olərdən cüz qüsur.

Munı dedi və gənə anlarə urdı və neçə nakəsləri daxi cəhənnəmə göndərdi. Çərilər aciz qaldılar və neçəsi yəyağ olub damlar üstinə çıxdılar və daşlar atmağə məşğul oldılar və Müslimüŋ gəvdəsi daş zərbi ilən məcruh etdilər. Özinə dedi:

– Ey nəfəs, çalak ol ki, düşmənüŋ dəf'inə cəhd etmək və ölüm şərbətin içmək və şəhadət xəl'ətin geymək əbədi dəvlət və sərmədi səadətdür.

Beyt:
Həqqüŋ yolində şəhid olmağə, köŋül, cəhd et
Ki, hər kim oldi bu yoldə şəhid, Həqqə yetər.

Bu halətdə bir həramzadə bir daş atdı və Müslimuŋ alnına dəgdi və qan mübarək yüzində axar oldı. Hal dili[582] bu beyti [söylərdi:

Beyt:
Cigərdən qan rəvan oldi yüzümə,
Nedəyim imdi, bilmən öz-özümə.

Pəs, yüzini Məkkəyə saru qoyub dedi:

– Ya İbn Rəsulullah (s) xəbərüŋ varmı ki, əmmüŋ oğlına nələr keçər? Əmma mən Həqq yolında bunlardan dönmənəm.

Rübaiyyə:
Gər daş maŋa yağə çü yağış, ey dil,
Andən qılmən zərrəcə naliş, ey dil.
Meydani-həqiqətdə başum tob edübəm,
Gəl kim, edəlim sənüŋlə çaliş, ey dil.

Nagah bir daş daxi atdılar və dodağına və dişinə dəgüb, şərif səqqalına qan rəvan **[184a]** oldı və ətəgi qanlu olub bu mə`ni hal dilinə cari oldı.

Beyt:
Hər nişan kim, qan ilən bər-daməni-çakəmdürür,
Ol nişanələr dəlili-daməni-pakəmdürür.
Kufilərüŋ cövri daşindən cəsəddür yarəlü
Eşqnüŋ ölüsüəm, bu daşlar xakümdürür.

Bəs, Müslimə ol qədr daş urdılar ki, taqətsiz qaldı. Bəkir bin Həmranuŋ divarinə dayandı. Ol həramzadə evindən çıxdı və şum qılıcını çəküb Müslimüŋ başına endürdi və yuxarı dodağlarını kəsdi. Müslim bu halətdə bir qılıc Bəkirə urdı və anuŋ başını yedi arşun irağə bıraxdı və gənə divarə arxalanub der idi: "Ey Taŋrı, maŋa bir içim su yetürə gör".

Məl`un kufilər varı durub baxar idilər və bu sözi eşidüb hiç kimsə aŋa rəhm etməyüb su vermədi. Soŋra bir qarı əvrət öz evinə

[582] Əlyazmada: *dilini*.

girdi və bir çəŋağı sudan doldurub gətürdi və Müslimüŋ əlinə verdi. Müslim həman ki ol çəŋağı ağzına aldı, mübarək dişləri çəŋağ içinə töküldi. Müslim çəŋağı əldən qoyub dedi: "Mənüm içməgüm suyi Qiyamətə düşdi".

Bu halətdə bir məlʿun nagah Müslimüŋ ardından gəlüb bir cidə anuŋ arxasına urdı. Müslim yüzi quyi düşdi və xəlayiq dörd yanından gəlüb anı dutdılar və Ziyadoğlınuŋ yanına apardılar. Və ol məʿluni-namərd ol saətdə darül-imarətdə təxt üstində oturmış idi. Həman ki Müslimi gətürdilər, səlam ki, kafərə və müşrikə və Əhli-Beytüŋ xəsminə eyləmək vacib dəgül, vermədi.

Dedilər:

– Nişün səlam vermədüŋ?

[184b] Dedi:

– Anuŋ içün ki, bu səlamdə nə dünyanuŋ səlaməti gördüm və nə axirətüŋ səvabı.

Əmma çün Müslimi gətürdilər, Ziyadoğlı bir saət fikr eyləyüb və mütəhəyyir qalub gözini aşağə saldı. Pəs başını qaldurub dedi:

– Niçün imami-zəmanuŋ müxalifətinə çıxduŋ və bu fitnələri qopdurduŋ?

Müslim dedi:

– İmami-zəman İmam Hüseyn bin Əlidür. Taŋrı-təala qəvli və Mustəfanuŋ hədisi ilən və mən anuŋ əmri ilən bu şəhrə gəlübəm və hər nəstə ki eylədüm, Taŋrınuŋ rizasını istədüm. Əmma şəqilər qoymadılar ki, həqq öz yerində qərar duta. Ya İbnül-Mərcanə, yəqin bilürəm ki, məni öldürməgə hökm eyləyəcəksən. Andan ilərü bir kimsənə buyur ki, ol Qüreyş oymağından ola, ta mənüm yanümə gəlsün ki, bir neçə vəsiyyətüm var, aŋa deyim.

Pəs, yəxşicə baxdı, gördi kim, Ömər Səʿd durubdur. Dedi:

– Ey Səʿdoğlı, çün aramızda qəvmliğ var, üç vəsiyyət eylərəm: Əvvəl kim, bu şəhrdə yedi yüz dirəm borcum var və mənüm atum eşikağası Nüʿmanuŋ yanındadur, andan al və hər silah ki əgnümdədür, anları götür və varı bazarda sat və borclarümi ödəgör.

Ömər Səʿd qəbul etdi. Ziyadoğlı dedi:

– At və silah qamu sənüŋdür, hiç kimsə anı mən` eyləməz. Ömər Səʿd sənüŋ borcüŋi ödəyəcəkdür.

İkinci vəsiyyət oldur ki, çün məni şəhid eyləyələr, bilürəm ki, başümi Şamə göndərəcəkdürlər. Ləşümi Ziyadoğlından diləyəsən və bir yerdə kim, münasib ola, anda tapşurasən.

Ziyadoğlı dedi:

– Çün səni **[185a]** öldürmiş olam, ləşüŋə hər nə kim gərəki ola, eyləsünlər.

Üçünci vəsiyyət oldur kim, İmam Hüseynə (ə) bitik göndərəsən və ol bitikdə aŋa bildürəsən ki, kufilər vəfasizlik etdilər və əmmüŋ oğlı öldürtdilər. Zinhar ki, Kufəyə gəlməyəsən və anlaruŋ qəvli ilən aldanmayəsən.

Ziyadoğlı dedi:

– Əgər İmam Hüseyn (ə) bizim qəsdimiz eyləməyə, biz daxi anuŋ qəsdini eyləməyəcəgüz və əgər xilafət içün dolaşa, biz daxi əpsəm olmayacəgüz.

Bir rəvayətdə daxi derlər ki, dedi:

– Əgər İmam Hüseyn bizi bulmayacək ola, biz anı buldurəcəgüz.

Və özgə sözlər aralarında keçdi ki, anları nə demək olur və nə eşitmək ki, xatirə məlalət gətürür. Bəs, məlʿun Ziyadoğlı dedi:

– Məclisüŋ əhlindən kim ola ki, Müslimi dama çıxarsun və başını kəssün.

Bəkiroğlı dedi:

– Ya əmir, mənüm işümdür ki, bu gün mənüm atamı öldürübdür.

Pəs Müslimüŋ əlini dutub dam üstinə çıxartdı və Müslim damə çıxanda sələvat Peyğambərə (ə) və alinə göndərür idi və der idi: *"Əllahummə əhkəmu beynəna və beynə qovmina bil-həqq"*[583] – ey Pərvərdigar, hökm eylə bizim ilə qəvmümiz arasında ki, bizi çağırdılar. Çün gəldük, bizi qoydılar və sözlərinə durmadılar və biz doğruliğ ilən söz der idük və anlar bizi yalancı çıxardılar.

[583] *Allahım, bizimlə tayfamız arasında ədalətlə hökm et*. (Quran, 7: 89)

Pəs çün dam üsnə çıxdı, yüzini Məkkəyə saru qoydı və dedi: Əssəlamu əleykə, ya İbn Rəsulullah, Müslim Əqilüŋ halından hiç xəbərüŋ varmı?

Və neçə beyt ərəb dili ilən söylədi ki, mə᾽niləri **[185b]** budur.

Şe'r:

Ey daŋ yeli, qıl kərəmlə yari,
Məkkə sarusinə bir güzər qıl.
Anda çün İmam Hüseyni görsəŋ,
Ötür bu hədisi, müxtəsər qıl.
Hər nəstə ki qıldılar kufilər,
Varı yaninə degil, xəbər qıl.
Soŋ söylə ki, mən şəhid düşdüm,
Öz işüŋə fikri-mö'təbər qıl.
Kufilərinüŋ sözinə uymə,
Şam ləşkəridən bəsi həzər qıl.

Pəs dedi:

– Ya İbn Rəsulullah (s) mənüm diləcəgüm ol idi ki, bir qatla daxi bu firqətüŋ ağrığı çəkilmiş gözi mübarək didariŋizə aydın edim, ömr əman vermədi və didaruŋ və'dəsi Qiyamətə düşdi.

Beyt:

Can verdümü yüzüŋ həvəsi candədür hənuz,
Toprağ içinə girdümü dil andədür hənuz.

"Nurül-əimmə"yi-Xarəzmi öz məqtəlində söyləyüpdür ki, Müslim damdan aşağəyə baxdı, çoq qələbəliğ Kufə əhlindən gördi ki, durubdur, aŋa baxar idilər. Anlarə baxdı və neçə beyt ərəb dilincə söylədi ki, mə᾽niləri budur.

Beyt:

Ey kufilü, çü başümi ləşdən cüda düşə,
Barı ləşümni toprağ içində nihan qıluŋ.
Hər karvan ki, Məkkə saruyə rəvan ola,
Bu qanlu köŋləgümni olərlən rəvan qıluŋ.
Söyliŋ bu köŋləgi çü orayə aparəsiz,

Anı İmam həzrətinə ərməğan qılıŋ.
Rəhm eyləŋiz yetimlərümğə Xuday üçün,
Bu fitnələrdən anları əndər səman qılıŋ.
Məndən çü sorələr xəbər, anlarğə söyləŋiz,
Hər nə İmam desə, sizə xeyri-həman qılıŋ.

Çün Müslim bu sözləri təmam etdi, əl duayə götürdi və dedi:

– Ya Rəbb, dustlarə nüsrət ver və düşmənləri həlak **[186a]** eylə.

Pəs, tövhid kəlməsi ərz etdi və şəhadət intizarində durdı. Bəkir bin Həmranıŋ oğlı[584] qılıc çəkdi ki, Müslimə ura, həman ki əl yuqarı apardı, əlləri quruyub heyran qaldı. Ziyadoğlına xəbər apardılar, anı çağırdı və sordı ki, saŋa nə vaqe oldı?

Dedi:

– Bir kişi gördüm yan heybətlü ki, qarşümə gəlüb barmağlarını dişinə dutdı.

Və bir rəvayətdə daxi dedi ki, qarşümə gələn kişi dodağını dişləri ilən dutmış idi. Mən ol kişidən qorxdum ki, ömrümdə hərgiz bəylə heybətlü görməmiş idüm. Əmma Ziyadoğlı güldi və dedi:

– Bir xiyal nəzərüŋə gəlübdür və sən andan qorxubsən.

Özgə kimsəni göndərdi. Həman ki dam üstinə çıxdı, Mustəfa surəti (ə) qarşusinə gəldi, dərhal ödi yarayub öldi. Bir namərdi daxi göndərdilər və Müslimi şəhid eylədilər.

Və səhih qəvli budur ki, Bəkiroğlı anı şəhid etdi və başını Ziyadoğlına apardı və ləşi damdan aşağəyə saldı.

Nəzm:

Fəğan çıxdı yuxarı aləmindən.
Həzin oldı mələklər matəmindən.
Fələklər cümləsi əfğanə düşdi,
Yerü gög dərdi-bidərmanə düşdi.
Zi-insü cin fəğani-zar çıxdı
Ki, dinüŋ evi əz-bünyad yıxdı.

584 Əlyazmada: *Bəkir bin Həmran*. Farsca orijinalda: *Pesər-e Bəkir bin Həmran* (Bəkir bin Həmranın oğlu)

Muhəmməd alivü əvladi içün
Nəbilər ruhinüŋ qovğası əfzun.

Ziyadoğlı dedi kim, Müslimüŋ cəsədi və Haniniŋ təni bazar başında dar ağacından assunlar **[186b]**. Və başları Diməşqə göndərdi və hər əhval ki, Kufədə keçmiş idi, Yezidə elam etdi.

Yezid əleyhillə'nə çün anuŋ naməsi oxudı, buyurdı kim, ol başlar Diməşq dərvazəsindən asdılar. Və Ziyadoğlınuŋ cəvabında yazdı ki, bitigüŋ maŋa yetdi və etdügüŋ işləri mə`lum oldı. Sən mənüm yanümdə qərdaş yerindəsən. Və daxi bəylə qulağümə gəldi ki, İmam Hüseyn (ə) İraq əzimətin eyləyübdür. Gərək yolları yəxşicə zəbt eyləyəsən və ehtiyat ilən diriləsən və hər kimsədən ki, andan bir fəsad gümanuŋ var isə, anı öldürəsən.

Çün bu namə Ziyadoğlına yetdi, xürrəm olub çox sevindi.

Əmma ravi der ki, neçə əyğağlar Ziyadoğlına dedilər ki, Müslimüŋ iki oğlı bu şəhrdə gizlüdürlər yüz miŋ nigar kipi, nə kəvnüŋ şövqi anlaruŋ yüzi kimidür və nə nərgisi-şəhla anlaruŋ gözi kimi.

Beyt:
Yüzlər demə ki, hər birisidür günəş təki,
Adəm demiŋ ki, hər birisidür mələk bigi.

Ziyadoğlı dedi ki, carlasunlar ki, Müslim Əqilüŋ oğlanları hər kimüŋ evində isə, gəlüb maŋa deməyə, tapılandan soŋra buyurayım kim, evini talasunlar və ev issi yüz miŋ zarliğ ilən qisasə yetürəyim. Və ol iki igit Şüreyh Qazınuŋ evində idilər ki, Müslim səvaş günində anları oraya göndərmiş idi və anlaruŋ saxladuğına çox mübaliğələr etmiş idi. Bəs, çün Şüreyh bu carı eşitdi, anları **[187a]** öz yanında çağırdı. Həman ki gözləri anlarə dəgdi, ixtiyarsız bir nə'rə urdı və ağlamağə düşdi. Və ol iki oğlan atalarınuŋ şəhidliğindən xəbərsiz idilər. Çün Şüreyh Qazını bəylə gördilər, gümanlanub dedilər:

– Əyyuhal-qazi, saŋa nə olubdur ki, həman ki bizi gördüŋ, ahü naləyə düşüb fəryad çıxarduŋ və bəylə suz ilən ağlamağ bünyad qılduŋ.

Beyt:
Noldi ki həman ki bizni gördüŋ,
Fəryad ilə ahü nalə çəkdüŋ?

Bu küdurətdən bizim canlarımıza od düşdi. Qazı Şüreyh nə qədr kim istədi ki, ötmiş vaqiələri gizlədə, taqət və təhəmmüli yox idi.

Beyt:
Hər necə kim istədim kim, naləni gizlü çəkəm,
Yürəgümnüŋ taqəti yox, der ki, fəryad eyləgil.

Qazı fəryadü fəğan çəküb yeŋidən ağlamağ ağaz eylədi və dedi:
– Ey məxdumzadələr!

Beyt:
Dinüŋ imarətini qəmdən xərab oldi,
Dillər fəraq odindən imdi kəbab oldi.
Günəş bulut içində gizlətdi çərxi-bimehr,
Heyvan bulağı tozdan misli-sərab oldi.

Biliŋiz kim, dünya xəl`əti qayğu tərazı ilən bəylədür və e'tibarsız dadlu şərbəti ağu mihnəti ilən gələdür. Hər təhniyəti bir tə'ziyətə müqabil eyləyübdürlər və hər işrət gülistanı bir məşəqqət tikəni ilən azürdə qılubdurlar.

Beyt:
Kimsə bu aləmdə hərgiz sürmədi bir dəm sürur
Kim, anı dövri-fələk qılmadı axir bihüzur.

Mə`lum ediŋiz ki, ataŋız ki, dinüŋ **[187b]** bir dirəgi idi, sınub düşdi və şər`üŋ imarəti yıxıldı və ruhinüŋ şahbazı şəhadət qanatı ilən uçub uçmağ həvasinə pərvaz etdi.

[***Beyt***:]
Qoydi dünyanivü Taŋrı rəhmətilə oldı cüft,
İmdi cənnət içrə hurlar birlədür güftü şinüft.

Taŋrı-təala sizə bir səbri-həmil və cəzayi-cəzil versün.

Oğlanlar həman ki bu sözləri eşitdilər, əyağdən düşüb huşsiz yatdılar. Bir saətdən soŋra ki özinə gəldilər geyəsilərini özinə parə-parə eyləyüb, başlarından əmmamələri götürüb müşkbar saçlarını pərişan etdilər və fəryadü fəğan çəküb dedilər:

– Əyyuhal-qazi, bu nə xəbər idi dilsuz və nə qayğulu kəlamü söz.

Nəzm:

Nə halətdür köŋül, bilmən məgər düşümdə görərmən,
Ki, dinü dəvlətüŋ qəsri xərabü əbtər olmişdür.
Muhəmməd şər`inüŋ qədri bu viran məmləkətdə yox
Ki, zünnarü səlib imdi bə-cayi-minbər olmişdür.

"*Va əbətah*"[585] naləsi və "*va ğəribah*"[586] xüruşi və "*va yetimah*"[587] cuşi gögüŋ qulağına yetürdilər. Qazı Şüreyh dedi:

– Məxdumzadələr, hala yas dutmək çağı və şivən etmək məhəlli dəgül ki, Ziyadoğlı sizi istər və carçılar şəhrüŋ dört yanını gəzüb carlarlar ki, hər kim anları evində saxlamış ola və bizə xəbər verməsün, ol evi xərab edəyim və ev iyəsi siyasət eyləyim. Və mən bu şəhrdə Əhli-Beyt məhəbbəti ilən məşhur olmışam və düşmənlər ilən casuslar mənüm ardumdadurlar və mən siziŋ canıŋıza və özümə **[188a]** qorxaram. İmdi bir fikr etmişəm ki, sizi bir kimsəyə tapşurayım, ta ol sizi Mədinəyə yetürsün. Anlar ki, bu sözləri eşitdilər, ata yası unudub əpsəm oldılar. Qazı anlarə hər birinə əlli dirəm verdi və bellərinə bağlatdı və öz oğlına – Əsədə dedi ki, eşitdüm ki, İraqeyn dərvazəsinüŋ[588] dışxarısında bir karvan var imiş və Məkkəyə varurlar. Bunları apar və karvanlulardan bir kişi tap ki, səlah sirəti andan zahir ola, aŋa tapşur, ta biləsincə Mədinəyə apara.

Əsəd həm ol qəranğulu gecədə anları götürüb İraqeyn dərvazəsindən dışxarı apardı. Qəzadən həm ol səatdə karvan köçmiş idilər və karvanuŋ qaralığı irağdan gözükür idi.

---

[585] *Vay ata.*

[586] *Vay qərib.*

[587] *Vay yetim.*

[588] Əlyazmada: *dərvazənüŋ.*

Əsəd dedi:

– Ey yigitlər, budur qafilə ki, irağdan gözükür, yügüruŋ, ta anlarə yetəsiz.

Anlar karvan ardından rəvan oldılar və Əsəd qayıtdı. Əmma çün bir parə yol vardılar, karvanuŋ qaralığı gözlərindən qayib oldı. Ol yabanda mütəhəyyir və sərgərdan qalub, yolı itirdilər. Nagah neçə əsəslər ki, şəhrüŋ çəvrəsində gəzər idilər, anlarə yoluxdılar. Çün mə`lum etdilər ki Müslim Əqilüŋ oğlanlarıdurlar, dərhal dutub əllərini bağladılar. Və əsəslərüŋ böyügi xanidanuŋ düşməni idi, anları həm ol gecədə Ziyadoğlınuŋ yanına apardı. Ol məlʿun buyurdı ki, zindanə salsunlar və həm ol saətdə bir namə Yezidə yazdı ki, Müslim Əqilüŋ **[188b]** oğlanları ki, biri yedi yaşında və biri səkiz yaşındadurlar, ələ gətürüb zindanə salubəm. Əmrüŋ nədür, öldürəyim, ya azad edəyim, ya bəylə diri qulluğuŋa göndərəyim. Və bitigi bir pəykə verüb Diməşqə göndərdi.

Əmma ravi der ki, zindansaxlayıcı bir e'tiqadlu kişi idi və Əhli-Beytüŋ mühibbi və adı Məşkur idi. Çün ol iki dürdanələri zindanə gətürdilər və bildi ki, kimlərdürlər, əyağlarına düşdi və bir yəxşi mənzil anlar içün tərtib edüb bir yemək hazir etdi və həmə gün anlaruŋ qulluğində idi. Həman ki gecə yetdi və amm qovğası bərtərəf oldı, anları zindandən çıxarub, Qadisiyənüŋ yolı üstinə yetürüb, üzügini anlarə verüb dedi:

– Bu, mənüm evim yolıdur, doğru gedüŋ Qadisiyəyədək və anda mənüm qərdaşumı istəŋ və bu üzügi nişanə içün aŋa görsədüŋ, ta ol sizi Mədinəyə yetürsün.

Anlar Məşkurə duayi-xeyr eyləyüb yolə düşdilər. *"La radə liqəzaihi"*[589] hökminə təqdir dügüni tədbir barmağı ilən açılmaz. "*Vəla müəqqəb li-hikmə*"[590] – hər qəza ki əmr olupdur, fikr və əndişə ilən anı təğyir qılınmaz.

Beyt:

Çüçüklə aciyə keçmiş qəza əzəl gündə
Əgər turş otursən, oğul, qəzayə, nə qəm?!

[589] *Allah yazısı (təqdiri) geri qayıtmaz.*

[590] *Fikir və düşüncə ilə təqdiri dəyişmək olmaz.*

Allah-təala bəylə müqəddər və müqərrər eyləmiş idi ki, ol iki tifli-yetimi-məzlum nə qədr ki tezrak ola, atasına vasil olalar. Lacərəm daxi yolı itürüb ol gecə səbahədək gəzdilər və hiç yerə yol **[189a]** aparmadılar. Çün gün aydın oldı, baxdılar şəhrüŋ çəvrəsində idilər. Böyük qərdaş kiçiyə der:

– Ey qərdaş, biz hənuz şəhrüŋ qırağındəüz. Olmaya ki, bir daxi düşmən bizə yetə və yeŋidən giriftar oləüz.

Sol tərəfindən bir nəxlistan gözükdi, oraya yüz qoydılar. Bir bulağı gördilər qırağında bir eski ağac durubdur içi boş. İkisi daxi ol ağacuŋ içinə girdilər və qərar dutdılar. Günorta nəmazı bir qəravaş gəldi əlində bir aftabə su götürmək içün. Çün bulağuŋ qırağına yetdi, suyə baxdı, ol iki yigidüŋ əksi suyə düşüb gördi, heyran qaldı.

Beyt:

Dili-surətüni gördi axir sudə, dedi kim,
Züləmatdə dəgül, çeşmeyi-heyvan budur üştə.

Qəravaş yuxaru baxub nə gördi.

Nəzm:

İki gül Mustəfanuŋ gülşənindən,
İki ay Şahi-Mərdanuŋ kökindən.
Cəhan bağindən iki sərvi-azad
Ki, hər kim gördi anlar, çəkdi fəryad.
Yəŋağları güli-həmrayə bəŋzər,
İki göz nərgisi-şəhlayə bəŋzər.
Birisinüŋ dodağı quru qəmdən,
Birinüŋ bəŋzi yox cövrü sitəmdən.

Qəravaş ol iki hüsnü cəmalə mütəhəyyir olub və ol iki bədri-fərxündəfalə mütəfəkkir qalub, aftabə əldən qoyub sordı kim, siz kimlərsiŋiz və niçün bu ağacuŋ içinə giribsiŋiz. Anlar dedilər ki, biz yetimliğnüŋ mihnəti çəkilmiş iki uşağuz və qəribliğ zəhməti və məşəqqəti görmiş iki pürdərdü dağ. Atadan **[189b]** irağ düşüb, yolı itürmisüz və bu ağacə pənah gətürüb, kölgəsində oturmışuz. Qəravaş sordı ki, ataŋızuŋ adı nə idi? Anlar həman ki ata adını eşitdilər, gözlərdən çaylar axıtdurdılar.

Beyt:
Rəfiqa, aŋmagil yanümdə hala mənzili-canan
Ki, öz halümdə hicran vadisində qalmışam heyran.

Qəravaş dedi ki, mənüm gümanum budur ki, siz Müslim Əqilüŋ fərzəndlərisiŋiz. Anlar dedilər:

– Ey cariyə, aya sən yadmısan, yoxsa biliş? Vəfalu dustmisən, yoxsa cəfalu düşmən.

Qəravaş dedi ki, mən sizin Əhli-Beytiŋiz dustdariəm və bir xatunum var ki, gecə-gündüz siziŋ məhəbbətiŋizdən dəm urar və öz canını Əhli-Beytə nisar eylər. Mənüm ilən gəlüŋiz, ta sizi anuŋ yanına iltürəyim və qorxmaŋız və dəğdəğə eyləməŋiz ki, hiç qəm dəgül. Bəs, anları götürüb mənzilinə yüz qoydı. Həman ki evinə yaxın oldı, ilərü yügürüb xatunınə bəşarət verdi ki, budur Müslim Əqilüŋ oğlanlarını gətürübəm.

Beyt:
Daŋ yeli bağə xəbər verdi ki, novruz oldı,
Dustlər xürrəm olub, düşmənə firuz oldı.

Xatun həman ki munı eşitdi, başından mi`cəri götürüb muştuluq qəravaşinə verüb dedi:

– Səni öz malümdən azad etdüm.

Pəs, baş-əyağ yalın qarşuyə vardı və anlaruŋ əlinə-əyağına düşüb, Müslimüŋ şəhidliğinə və yetim uşağları içün çoq ağladı. Pəs, anları biri-biri qucağına aldı və yüzlərini öpüp, mehriban ana kimi ağlar idi və der idi ki, ey anənüŋ[591] qəribləri və anənüŋ **[190a]** yetimləri və qəvmsiz məzlumlar və çarəsiz məhrumlar vey anlarə ki, sizi ata fəraqində mübtəla eyləyübdürlər və Mustəfa və Murtəza (ə.m) Əhli-Beyti meydanində cövrü inad və zülmü fəsad ələmi durğuzubturlar. Pəs, anları evinə girdirüb, bir yemək ki, hazir idi, öglərinə çəkdi və qəravaşinə dedi:

[591] Əlyazmada: *ananənüŋ*.

– Olmaya ki, bu razı kimsəyə aşkar eyləyəsən və ərümi mundan xəbərdar eyləyəsən.

Misra:

Kim ol hərəmi-vəfadə yoxdur məhrəm.

Ravi der ki, çün zindansaxlacısı Məşkur Taŋrınuŋ rizası içün ol iki məzlumi zindandən qoyə verdi, sabah ərtə ol xəbər Ziyadoğlına yetdi, Məşkuri çağırdı və dedi:

– Müslimüŋ oğlanlarına netdüŋ?

Dedi:

– Anları Taŋrı rizası içün azad qıldum və öz dinüm evi ol əməl ilən abad etdüm.

Ziyadoğlı dedi:

– Məndən qorxmaduŋ?

Dedi:

– Hər kim Taŋrıdan qorxar, özgələrdən qorxmaz.

Dedi:

– Nə nəstə sənüŋ xiyaluŋa munı saldı?

Məşkur dedi:

– Ey sitəmedici nabəkar, anlaruŋ atasını zülm ilən öldürdüŋ. Nə hesab ilən ol iki yetişməmiş uşağı ki, yüräklərində yetimliğ düğüni var, bəndü zindan mihnəti ilən mübtəla eylədüŋ? Mən seyyidi-kövneyn Muhəmməd Mustəfanuŋ (s) hörməti içün anları zindandən qoyə verdüm və bu əməl ilən ol sərvəri-aləmüŋ şəfaətinə ümmidvarəm və sən ol dəvlətdən məhrumsən.

Ziyadoğlı əleyhillə`nə bu sözdən qəzəbə vardı və dedi:

– Həm imdi sənüŋ **[190b]** cəzaŋı verəyim.

Dedi:

– Yüz miŋ mənüm təki anlarə fəda olsun.

Nəzm:

Yolində anuŋ canümi qurban edərəm,
Xaki-rəhini gözümə dərman edərəm.
Bir can nə ola məndə, gər olsə yüz can,
Qamusı nisari-rahi-Canan edərəm.

Ziyadoğlı buyurdı kim, cəllad anı üqabeynə çəksün və beş yüz qəmçi aŋa ursun, andan başını kəssün. Cəllad buyurdüginə əməl etdi. Əvvəlki taziyanə ki urdı, Məşkur dedi:

– *"Bislmillahir-Rəhmanir-Rəhim"*.

İkincisinə dedi:

– Ey Taŋrı, səbr ver.

Üçünci uruncə dedi:

– Ya Rəbb, məni bağışla.

Dördüncidə dedi:

– Ey Taŋrı, məni Rəsuluŋ fərzəndlərinüŋ məhəbbəti içün öldürürlər.

Beşində dedi:

– İlahi, məni Rəsul və Əhli-Beytinə yetür.

Andan soŋra xamuş oldı və bir ah çəkmədi, ta beş yüz taziyanə urdılar. Pəs, gözin açdı və dedi:

– Bir içim su maŋa veriŋiz.

Ol əzəl və əbəd lə'ini, yə'ni Ziyadoğlı dedi:

– Muŋa su verməniz və boynını uruŋ.

Ömər bin əl-Haris əyağə durub və şəfaət qılub anı istədi və götürüb evinə apardı və istər idi ki, əlacinə məşğul ola. Nagah Məşkur gözini açdı və dedi:

– Kövsər həvzindən maŋa su verdilər.

Bunı dedi və canı Taŋrıyə tapşurdı.

Beyt:

Cənnət içrə hurilər cümlə qərin olsun aŋa,
Murtəzanuŋ şiələri həmnişin olsun aŋa.

Əmma rəvayətdür ki, ol xatunı-mö`minə ol iki bədri-müniri evinə gətürdi, bir hücrə anlar içün bəzətdi və yəxşi qalilər döşətdi. Həman ki gecə oldı, yorğan- **[191a]** döşəgi salub ikisini yatdurdı və çox qulluğlar eylədi, ta uyudılar. Andan soŋra çıxub öz yerində qərar dutdı. Bir zəman mundan keçincə əri gəldi yorulmış. Xatunı dedi:

– Ey kişi, nərədə idiŋ ki, bu gecə gecrak evə gəldüŋ?

Dedi:

– Səbah əmiri-Kufənüŋ eşiginə varmış idim. Eşitdim ki, carladılar ki, zindançı Məşkur Müslim Əqilüŋ oğlanları zindandən azad eyləyübdür. Hər kim anları, ya anlaruŋ xəbəri əmirə gətürsün, əmir aŋa xəl'ət və at bağışlayub, ol qədr dirlik versün ki, bay ola. Xəlayiq varı anları bulmağə gəzməgə düşdilər. Mən həm tələbində idim və şəhrüŋ çəvrəsində hiç yer qomadım ki, gəzməyüb, anları istəmədüm. Soŋra atum səqət oldı və mən yəyağ yerir idim və məqsuddən hiç əsər bulmadum.

Xatun dedi:

– Ey Taŋrıdan qorqmış, sənüŋ Rəsulullah (s) fərzəndləri ilən nə işüŋ var?

Dedi:

– Həy əvrət, tək dur. Ziyadoğlı xəlʾət ilə at və qalın aqça vəʾdə eyləyübdür hər kim Müslimüŋ oğlanları yanına aparə.

Xatunı dedi:

– Əcəb nacəvanmərdi-dunhimmət ola ki, ol günahsız yetimləri duta və düşmən əlinə verə və dünyadən ötrü dinini əldən bıraxa.

Ol məlʾun dedi:

– Həy, sən bir əvrətsən, bu hekayətlər ilən nə işüŋ var? Hiç bişmiş yeməgüŋ var, ortayə gətür.

[Xatun] hər nəstə ki mövcud idi, hazir etdi. Ol namərd zəhrimar eylədi və dərhal döşək **[191b]** üstində uzandı və uyudı.

Əmma çün gecədən yarısı keşdi, böyük qərdaş ki, adı Muhəmməd idi, uyxudan oyandı və kiçi qərdaşına kim, adı İbrahim idi, dedi ki, ey qərdaş, qalx ki, bizi daxi öldürəcəkdürlər ki, imdicə atamı düşdə gördüm: həzrət Mustəfa və həzrət Murtəza və həzrət Zəhra və İmam Həsəni-Muctəba ilən cənnət içrə seyrdə idilər. Nagah həzrət Peyğambərüŋ mübarək gözləri ikimizə yetdi və biz irağda durmişdük. Atamıza dedi ki, ya Müslim, könlüŋ necə riza verdi ki, ol iki məʿsum uşağları zalımlar içində qoyduŋ?

Atamız baxdı və bizi gördi, dedi:

– Ya Nəbiyullah, budur mənüm ardümdən gəlürlər və daŋla mənüm yanumdadurlar.

Kiçi qərdaş dedi ki, ey qərdaş, Taŋrı həqqi içün ki, mən daxi bu düşi gördüm.

Bəs qərdaşlar bir-birini qucağlayub ağlamağə düşdilər və yüzləri bir-birinə qoydılar və dedilər:

– "*Vaveylah va Muslimah va musibətah*"[592].

Anlaruŋ ağlamağ üni və xüruş və əfğanı Haris bin Ürvə ki, ol xatunuŋ əri idi, [qulağına] dəgdi. Əvrətindən sordı ki, bu əfğan ilə ağlamağ üni nə nəstədür və evimizdə kim var? Əvrət aciz qaldı. Haris dedi:

– Qalx və çırağı yandur.

Xatun əylə sərasimə olmışdı kim, əli-əyağı dutmaz oldı. Haris özi durdı və çırağı yandurub ol evə girdi, iki uşağı gördi, bir-birini qucağlayub der idilər:

– *"Vaveylah va Muslimah"*.

Haris sordı ki, siz kimlərsiŋiz? Anlar əylə sandılar ki, məgər əyü dustlardandur.

Dedilər:

[192a] – Biz Müslim Əqilüŋ fərzəndləriüz.

Haris dedi:

– "*Va əcəbah*"[593].

Beyt:

İstədügüŋ evdədür, mən gəzərəm yazidə,
Oldı yaxın kim, mənüm canümi pərvaz edə.

Mən bu gün siziŋ istəməgində idim və ol qədr gəzübəm ki, atum daxi səqət düşdi və siz xud mənüm evimdə köŋül hüzuri ilən oturmişsiz.

Anlar bu sözi eşidincə qorxub əpsəm oldılar və başları aşağə saldılar. Ol rəhmsiz zalım anlaruŋ yüzlərinə bir təpançə urub, saçlarını bir-birinə bağladı və dışxaru çıqub qapuyi qıfılladı. Xatunı anuŋ əlinə və əyağinə düşdi və əllərin öpər idi və zarilik ilən der idi.

---

[592] *Nə fəlakət, vay Müslim, nə müsibət.*

[593] *Nə qəribə?!*

Şe'r:
Qılmagil zülm bu yetimlərə,
Lütf xuyidürür kərimlərə,
Dürlü qayğular ilə mihnətü qəm
Bunlarə dəgdürübdürür aləm.
Taŋrı həqqiçün anlarə dəgmə,
Dünyadə bixi-zülmü kin əkmə.
Ki, bularğə qəribliğ ələmi
Zar qılmış cəhani-dun sitəmi.
Çəkər olsa yetim əgər nalə,
Taŋrı gög yürəginə od salə.

Haris əleyhillə'nə xatunə[594] hayxırdı ki, bu sözlərdən keç-var və öz yerüŋdə şis, yoxsa hər nəstə ki görəsən, özüŋdən görəsən. Xatun xamuş və çarəsiz oldı. Əmma çün

Beyt:
Daŋ çıxdivü rövşən oldı aləm,
Ol iki uşağı-köŋli pürğəm
Ol nakəsi-dun içəri girdi,
Ol iki yetimə qorxu verdi.

Qalxan ilən qılıcı götürdi və ol iki mə'sumi-məzlumi öginə salub Fərat çayınuŋ sarusinə rəvan oldı. Xatunı yalın əyağ ardından yügürüb və zarilik eylab **[192b]** dərxast eylər idi. Həman ki Harisə yaqın olur idi, ol cəhənnəmüŋ iti iti qılıcın çəküb aŋa həvalə eylər idi. Əvrət qorxub geri durər idi. Çün Haris bir parə yol dağı irağ olur idi, əvrəti yügürüb çığurur idi. Bu dəstur ilən Fərat suyinüŋ qırağına yetdilər. Harisüŋ bir xanəzad qulı var idi ki, oğlınuŋ əməkdaşı idi. Ardından gəldi. Haris yalın qılıc əlinə verdi ki, bu iki oğlanı öldür. Qul dedi:

– Mənüm təhəmmül və taqətüm yox ki, buları öldürəyim və həzrət Mustəfanuŋ ruhindən utanuram ki, bir kimsə kim nəsəbi anuŋ xanidaninə yetər ola, həlak eylim. Haris dedi:

[594] Əlyazmada: *xatunı*.

– Əgər sən anlaruŋ başlarını götürməyəsən, mən sənüŋ başüŋi götürəyim.

Qul dedi:

– Andan ilərü ki sən məni öldürəsən, mən səni bir qılıc ilən öldürürəm.

Haris güclü idi, əl uzatdı və quluŋ saçını dutdı. Qul daxi anuŋ səqqalına yapışub özinə çəkdi, əylə ki Haris yüzi quyi düşdi. Qul istər idi ki, Harisə zəxm ursun, Haris qüvvətlənüb durdı və qılıcı quluŋ əlindən aldı. Qul öz qılıcın qınından çəkdi və Harisə həmlə eylədi. Haris anuŋ həmləsini rədd eyləyüb qılıc urdı və quluŋ qolını saldı. Qul sol əli ilən Harisüŋ yəqəsini dutub, özini aŋa yaqın eyləyüb qoymadı ki, qılıc zəxmi aŋa dəgə. İkisi bir-birinə yapışdılar. **[193a]** Bu halətdə Harisüŋ xatunı oğlı ilən yetdilər. Oğlı quluŋ belini dutub geriyə çəkdi və dedi:

– Ey ata, utanmazsən, bu qul mənüm qərdaşum və əməkdaşumdur, andan nə istərsən?

Haris cəvab verməyüb, qılıcı qula urub bir zərb ilən anı həlak etdi. Oğlı dedi:

– Sübhanəllah, mən hərgiz səndən qatı köŋüllü görməmişəm.

Şe'r:

Cəfaedici çox vardur cəhandə,
Vəli səncə kimsənə görməyübdür.
Köŋül incitmək oldi karü pişəŋ,
Cəvabını görəcəksən, haliya dur.

Haris dedi:

– Ey oğul, sözüŋ kəs və bu qılıcı dut, var və bu iki uşağuŋ boynuni ur.

Oğlan dedi:

– La vallah, mən hərgiz bu yaman əməli etmənəm və səni daxi qoymayacəgəm ki, bu işi eyləyəsən.

Və xatunı daxi yalvarur idi ki, bu şum əməli etmə və bu iki suçsiz məzlumnuŋ qanını boynuŋa alma və bəylə diri Übeydullah Ziyaduŋ yanına apar ki, hər nə məqsuduŋ isə, andan hasil olur.

Haris dedi:

– Kufənüŋ xəlayiqi çoxı bunlarə həvadardurlar. Əgər mən bunları şəhrüŋ içinə aparam, əvamün-nas qovğa eyləyüb əlümdən alurlar və mənüm rəncüm[595] zaye olur.

Pəs, özi qılıc çəkdi və şahzadələrə vardı. Anlar ağlayə-ağlayə dedilər:

– Ey kişi, bizim yetimliğimizə və qəribliğimizə rəhm edüb bağışla.

Beyt:

Daşuŋ yürəgi çatlar əhvalümizi görsə,
Ey köŋlüŋi daşdən bərk, Taŋrıdan utan axir.

Haris anlaruŋ sözlərini qulağə **[193b]** almayub yügürdi ki, anlaruŋ birisini dutub öldürə. Xatunı aŋa yapışdı ki, ey Taŋrıdan qorxmaz, bu işi eyləmə və Qiyamət güninüŋ cəzasını ögünə gətür. Haris qəzəbə varub, qılıcı xatunına urub anı yarələdi və oğlı çün munı gördi ki, anası yarələndi və bir zəxm daxi yetürəcəkdür, sıçrayub atasınuŋ əlini dutub dedi:

– Ey ata, əqlüŋi dişür, bu, nə işlərdür?

Haris oğlına qılıc həvalə eylədi və bir zərb uruncə öz oğlını öldürdi. Xatun çün öz oğlını ölmiş gördi, canından fəğan qopdı və çün yarəlü idi, əyağə qalxamaz idi və həman çığurur idi və hiç faidə verməz idi.

Beyt:

Naləni hər necə kim çəkdi, anı eşitmədi,
İncə kim yalvardı əvrət, kişisi rəhm etmədi.

Bəs ol iki mə`sumlar yanına gəldi. Anlar dedilər:

– Ey kişi, bizi Übeydullah Ziyaduŋ yanına apar, ta ol bir məsləhət ki, bizim içün görə, əmələ gətürə.

Dedi:

[595] Əlyazmada: *rəncümi.*

– Siziŋ gümanıŋız budur ki, mən sizi şəhrə aparayım və əvamün-nas qələbəliğ eyləyüb sizi məndən alsunlar və ol dirlik ki, Ziyadoğlı maŋa və'də eyləyübdür, maŋa yetməyə.

Dedilər:

– Əgər sənüŋ məqsuduŋ mal ilə dünyalik isə, saçlarımızı qırxub bizi sat və dünyalik al.

Ol namərd cahiliyyət həkimiyyətinə düşüb dedi:

– Mən, əlbəttə, sizi öldürürəm.

Dedilər:

– Bizim yetimliğ ilən fəqirliğimizə rəhm et.

Dedi:

– Köŋlümdə hiç rəhm yoxdur.

Dedilər:

– Möhlət ver, ta dəstnəmaz **[194a]** alalım və iki rikʾət nəmaz qılalım.

Dedi:

– Vallah ki, qoymazam.

Dedilər:

– Taŋrınuŋ həqqi içün ki adını apardıŋ ki, qoy ki, Taŋrıyə bir səcdə eyləyəlim.

Dedi:

– Qoymanam.

Dedilər:

– Bu, nə düşmənlikdür ki, bizim ilən zahir eylərsən? Həy dəriğ ki, bu halətdə kimsə yoxdur ki, qəvrimizə yetə və bizə yardım olub mədəd eyləyə.

Beyt:

Yoxdurur bir həmnəfəs kim, bizim ilə yar ola,
Haliya qəm çoxdurur, yox kimsə kim qəmxar ola.

Pəs, Haris hərəsinə ki yapışur idi, ol biri daxi der idi:

– Əvvəl məni öldür, ta gözüm öz qərdaşımuŋ ölüsini görməsün.

Əlqissə, əvvəl Muhəmmədüŋ başını kəsdi ki, böyükrak idi və gəvdəsi Fərat suyinə saldı. Kiçi qərdaş sıçrayub qərdaşınuŋ başını

götürdi və yüzini anuŋ yüzinə qoyub dodağını dodağına sürtər idi və der idi:

– Mən daxi arduŋcə gələcəgəm.

Haris ol başı qəhr ilən qərdaşından aldı və anuŋ başını daxi kəsdi və cəsədini suyə saldı.

Ol məhəldə yer ilən gögdən fəğan qopdı kim, əfsus, bu iki iqbal gülşəninüŋ budağı ki, yigitlik novbəharində güz əcəli ilən soluxdı və yüz miŋ heyf ki, ol iki yəŋağ ki, naz bustanində iki qırmızı gül idi, xaricilər təpançəsi ilən azürdə oldı.

Şe'r:

Dəriğa, ol iki güli-novbəhari
Ki, saldı fələk anı şöylə bə-xari.
Dəriğa, ol iki nihali-cəvani
Ki, düşürdi anlarnı badi-xəzani.

Çün Haris əleyhillə'nə ol iki məʾsumnuŋ başlarını kəsdi, tobrəyə salub **[194b]** qancuğəyə asdı və İbn Ziyaduŋ evinə saru yüz qoydı.

Çaşt çağı ki, həzə məzalim divanı təfriqə olmamış idi, qəsrülimarətə yetdi. Dərhal ilərü varub ol tobrəni Ziyadoğlı yanına yerə qoydı. Sordı kim, bu, nə nəstədür ki, tobrəyə salub gətürübsən?

Dedi:

– Sənüŋ düşmənlərüŋüŋ başlarıdur ki, iti qılıc ilən gəvdədən kəsüb xəl'ət və at və dünyalik təmʾi içün yanuŋa gətürübəm.

Ziyadoğlı buyurdı kim, ol başları qandan yuyub, bir teştdə qoyub yanına gətürsünlər, ta görə kimlərüŋ başlarıdur. Həman ki yuyub yanına gətürdilər, baxincə yüzlər gördi Ay təki və saçlar müşki-Xitay təki.

Sordı:

– Bu başlar kimlərüŋdür?

Dedi:

– Müslim Əqilüŋ oğlanlarınuŋdur.

Ziyadoğlınuŋ gözindən ixtiyarsız yaş axdı və məclis əhli hər kim anı gördi, ağlamağə düşdi. Ziyadoğlı dedi:

– Bunları nərədə gördüŋ?

Haris dedi:

– Ey bəg, dünə gün səbah əqşamədək bunları istəyüb, təmami-şəhrüŋ çəvrəsini gəzüb, atumı öldürdüm və əlimə girmədilər. Gecə ki evə vardum, gördüm ki, bunlar xud mənüm evimdə idilər. Səbah ikisini dutdum və Fərat suyinüŋ qırağına apardum. Və nə qədr ki yalvarub zarilik etdilər, qəbul eyləməyüb rəhm etmədüm və başlarını kəsüb gəvdələrini suyə saldum.

Ziyadoğlı dedi:

– Ey məl`un, Taŋrıdan qorxmaduŋ və Anuŋ əzabından əndişə etmədüŋ və bu yüzlər **[195a]** ilən saçlarə rəhmüŋ gəlmədi. Mən Yezidə bitik yazubəm ki, buları dutub saxlayubəm. Əgər buyruğuŋ olsa, diri göndərəyim. Əgər anuŋ hökmi gəlsə və bunları istəsə, mən necə eyləyim? Nə içün bunları yanümə diri gətürmədüŋ?

Dedi:

– Qorxdum ki, şəhrüŋ əvamı qovğa eyləyüb əlümdən alalar və bir təmə' ki, bəgə bağlamışam, əlümə girməyə.

Dedi:

– Nişün anları bir yerdə tapşurmaduŋ və mənüm yanümə xəbər gətürmədüŋ ki, mən [adəm] göndərüb anları gizlü yanümə gətürə idüm?

Ol məl`un əpsəm oldı.

Ziyadoğlı nədimlərinə baxub anlaruŋ içində bir yigiti gördi, adı Müqatil ki, könül ilə candan xanidanuŋ dusti idi və Ziyadoğlı munı bilür idi və özini anda qoyməz idi, andan ötrü ki, bu Müqatil bir yəxşi qabil nədim idi. Yanına çağırub dedi:

– Bu məl`uni dut və Fərat çayınıŋ qırağına apar və həm orada ki, ol iki tifli şəhid eyləyübdür, hər zarilik ilən ki, xatirüŋ istər, cəzasinə yetür. Və bu başlar daxi həm bilə apar və həm anda ki, gəvdələri suyə salubdur, suyə sal.

Müqatil munı eşidincə çox xürrəm olub, Harisüŋ əlini dutub çıxardı və öz məhrəmlərinə der idi:

– Taŋrınuŋ həqqi içün ki əgər Übeydullah Ziyad öz bəgligini təmam maŋa bağışlayaydı, mənüm xatirüm bəylə təsəlli olmaz idi ki, bu məl`uni-mərduduŋ öldürməgi maŋa buyurdı.

Bəs əmr etdi ki, Harisüŋ əllərini ardına bağlayub, başı çıplaq Kufə **[195b]** bazarından keçürüb ol başlar xəlqə görsətdi. Kufə əhlindən qəriv çıxdı və ol məlʿunə nifrin və ləʿnət edər idilər və toprağ və daş və sümük və kəsək başına və yüzinə tökər idilər. Və bu dəstur ilən Müqatil anı aparur idi, ta ol yerə ki, ol iki məʿsumi məqtul eyləmiş idi. Baxdı bir əvrət gördi, yaralu düşübdür və bir yigit bir sərvi-azad kimi ölü yatur və bir qul gəvdəsi parə-parə olmış. Və ol əvrət Müslim Əqilüŋ uşağlarına və özinüŋ yigit oğlı içün zar-zar ağlar ve der:

Beyt:
Ey dəriğ, ol novcəvan kim, baği-can sərvi idi,
Dünyalikdən ötrü nakəs ata öldürdi anı.

Müqatil sordı:

– Sən kimsən?

Xatun dedi:

– Bu məlʿunuŋ əvrədi idim və nə qədr ki, bu işdən anı mənʿ eylədüm və oğlum və qulum mənüm ilən bu qəvl ilə ittifaq etdilər, qəbul etməyüb oğlumi öldürdi və qulumi parələyüb həlak etdi və məni yarələdi. Və şükr Taŋrıyə ki ol iki suçsiz tiflüŋ nifrini və qarqışı muŋa kar eylədi.

Pəs, yüzini ərinə qılub dedi:

– Ey məlʿuni-şəqiyi-dünya və axirət, dünyalik xatiri içün Müslimüŋ oğlanlarını öldürdüŋ və nahəqq qan ki, qəsd ilən eylədüŋ, dinüŋi satduŋ. İmdi nə dinüŋ var və nə dünyaŋ.

Haris Müqatilə dedi:

– Maŋa aman ver ki, bir yerə varub gislənəm və on iki miŋ dirəm nəqd saŋa verəm.

Müqatil dedi:

– Əgər təmami-aləmüŋ malı səninki ola və qamusı maŋa verəsən, **[196a]** səndən əl götürməyəm və bəylə ki anlarə rəhm etməyübsən, saŋa daxi rəhm eyləməyəm və səni buğun-buğun eyləyəcəgəm və Taŋrı-təaladən bu əməldən ötrü böyük səvablar gözədəcəgəm.

Bəs Müqatil atdan endi və həman ki gözi Müslim Əqilüŋ oğlanları qanına yetdi, əl duayə götürüb Taŋrıdan rəhmət və qüfran dilər idi və ol başları suyə saldı və Mustəfanuŋ Əhli-Beyti kəraməti ilən ol

gəvdələr sudan yuxaru gəlüb hər baş öz cəsədinə yapışub bir-birini qucağladılar və suyə batdılar.

Müqatil qullarına buyurdı ki, Harisüŋ əvvəl əllərini kəsdilər, andan əyağlarını budlarından ayırdılar, andan gözlərini çıxardılar, daxi qulağlarını kəsdilər və qarnın yırtdılar və bu kəsilmiş ə'zaları qarnını içində qoyub, bir böyük daş ayaxlarına bağlayub suyə atdılar. Bir zəman mundan keçincə Fərat suyi cuşə gəlüb ol məl`ununŋ gəvdəsi qırağə saldı. Üç kərrət bəylə eylədilər və gənə su qəbul etməyüb dışxarı saldı.

Dedilər:

– Su anı qəbul eyləməz.

Bir quyı qazdılar və anı ol quyıya bıraxub daş ilən toprağdan anı doldurdılar. Bir saətdən soŋra yer çatlayub anı dışxarıya saldı və üç qatla yerdə gömdilər və gənə yer anı dışxarıya bıraxdı və qəbul etmədi. Pəs həm ol yaxında bir xurma bustanı var idi. Andan quru odunlar yığub **[196b]** od urdılar və ol mərdudi od ilən yandurdılar və külini yelə verdilər. Pəs, iki nəʾşi buldurub Harisüŋ oğlı və qulı üstində yatdurdılar və şəhrə gətürüb oradakı Bəni Xüzeymə babı derlər, bəylə qanlu geyəsiləri ilən yerə tapşurdılar və Əhli-Beytüŋ şiələri gizlü ol iki şahzadənüŋ yasını dutdılar.

Şe'r:

Dəriğü dərd kim, ol iki rəşki-rizvani
Məlalətü qəmü qayğulə verdilər cani.
Gərək ki bülbüli-bidil tək edəli əfğan
Ki, qaldı gülsizü birəngü buy bustani.
Qəribliğ qəmi anlarğə bəs dəgülmi idi
Ki, çəkdilər bu qədr mihnətü pərişani.

Vəl-həmdulillahi Rəbbil-aləmin. Vəs-səlatu əla Muhəmmədin və alih[596].

[596] *Aləmlərin Rəbbinə həmd olsun. Məhəmməd (s) və Onun ailəsinə salam olsun.*

DOQUZUNCI BAB

İmam Hüseynüŋ Kərbəlayə[597] *yetdügi*[598] *və düşmənlər ilən səvaş etdügi*

Və ol həzrətüŋ şəhadət keyfiyyəti və qəvm ilə qərdaşınuŋ şəhid olduği (əleyhumussəlam vət-təhiyyə vəl-ikram). Və bu, bir dastandur ki, nə vəhm və əqlüŋ şərhini bəyan etməgə qüvvəti-təqriri var və nə qələmüŋ bir şəmməsi yazmağ taqəti-təhriri var.

Nəzm:

Qorxaram kim, buni təqrir etməgə,
Yanə dil odlu dəmümdən nagəhan.
Vər qələm istərsə kim, təhrir edə,
Yanə kağəzlə qələm həm dər-zəman.

Və nə eşidənüŋ eşitmək taqəti yerində durur və nə yazanuŋ təqrir etməgə lisanı qalur.

Beyt:

Fəryad ki, yoxdur yazanuŋ qüvvəti-təqrir,
Nə eşidənüŋ taqəti-səbr ilə təhəmmül.

Bəli, İmam Hüseynüŋ (ə) şəhadəti az nəstə dəgül və Əhli-Beytüŋ vaqiələri cüzvi hadisə dəgül. Həzrət Risalətpənah **[197a]** (s) bu vaqiədən xəbər vermiş idi və andan ilərü ki bu hadisə vaqe ola, həzrət əmirül-mö'minin Əliyə və həzrət Fatimeyi-Zəhrayə (ə.s) bu müsibətüŋ dağı köŋüllərinə qoymış idi. Və "Kənzül-ğəraib" kitabında yazıludur ki, beş kərrət həzrət Cəbraili-Əmin (sələvatullahi və səlamuhu əleyh) Taŋrı-təala həzrətindən İmam Hüseynüŋ şəhidliğ xəbəri həzrət Mustəfayə (ə) vermiş idi.

---

[597] Əlyazmada: *Kərbəla*.

[598] Əlyazmada: *yetdüginə.*

Əvvəl ol gün ki, anadan doğmış idi, Cəbrail həm viladət təhniyəti verdi və həm yas tə`ziyəti zahir etdi və bu şərh ilərüdə keçübdür.

İkinci dört aylığında. Və ol bəylə idi ki, Ümmü Əfzəl bint əl-Haris (r) rəvayət eylər ki, bir gecə düşdə gördüm ki, Rəsulullahuŋ (ə) mübarək cəsədindən bir üzvi kəsdilər və mənüm ətəgümə qoydılar. Uyxudən oyandum və qorxulu-qorxulu həzrət Mustəfanuŋ (ə) xidmətinə vardum və dedim:

– Ya Rəsulullah (ə), bir heybətlü düşi gördüm və ol qorxudən könlümdən qüvvət ilə aram gedübdür.

Və düşiŋ surəti təqrir eylədüm. Ol həzrət (əleyhittəhiyyə) gülə-gülə buyurdı:

– Ya Ümmü Əfzəl, mübarək düşdür ki, sən görübsən. Fatimə ikicanludur və bir oğlan doğacəkdür. Həman ki ol səadətlü oğlan dünyayə qədəm basə, anuŋ dayəligi saŋa rücu eyləyəcəgəm və sənüŋ ətəgüŋə qoyacəgəm.

Neçə gündən soŋra İmam Hüseyn **[197b]** (ə) mütəvəllid oldı və Ümmü Əfzəl anuŋ dayəliği ilən müşərrəf oldı və Ümmü Əfzəl dedi:

– Bir gün həzrət Mustəfa (ə) mənüm evimə gəldi.

Misra:

Anuŋ məqdəmindən evim cənnət oldi.

Dedi:

– Gətür mənüm fərzəndümi.

Bəs, İmam Hüseyni (ə) anuŋ ətəginə qoydum. Həzrət İmam Hüseyndən bir əraqə zahir oldı və andan bir qətrə ol həzrətüŋ geyəsilərinə dəgdi. Və ol həzrət mübarək yüzini anuŋ boğazına sürtüb yüzini öpər idi. Bu halətdə mən İmam Hüseyni (ə) Mustəfanuŋ ətəgindən ünf ilən aldum, əylə ki İmam Hüseyn (ə) ağladı. Mustəfa dedi ki, səhlən, ya Ümmü Əfzəl, yə'ni ahəstə ol, ya Ümmü Əfzəl, bu qətrə su ilən yuyulur və bu rənc ki, mənüm bağrumuŋ parəsinə dəgdi, hiç nəstə ilən yuyulmaz. Dərhal Cəbrail gəldi və dedi:

– Ya Muhəmməd, (ə) sənüŋ anuŋ yığlamağı taqətüŋ yoxdur. Ol saət ki, anuŋ susiz boğazı iti qılıc ilən kəsilmiş ola və mübarək cəsədi qan ilən bulaşmış, hal necə olacaq ola?

Həzrət Mustəfayə (ə) müvafiqət eyləmiş ola. Və mundən ötrüdür ki, ənbiya ərvahı (əla nəbiyyən və əleyhumussəlam) ol həzrətüŋ müvafiqətinə qamusı bu vaqiədə qayğulu və məhzundurlar.

Nəzm:

Adəm bu qüssədən özi salmışdurur odə,
Nuhuŋ gəmisi qərqə düşübdür bu qayğudə.
Nəmrud odinə gərçi ki girmişdürür Xəlil,
Görgil bu şö`ləni ki, Hüseyn eyləmiş dəlil.

[198a] *Musanuŋ ümməti doni nişün boyağludur,*
Nəsranilər geyəsi qəba nişə gözükür.
Sultani-din Hüseyni-Əli mataəmi içün,
Ərvahi-ənbiya varı bu qayğudə zəbun.
Peyğambər Əhli-Beyti içün cümləsi məlul,
Xatirləri bu qüssələr etmişdürür nüzul.
Gər Murtəza bu qüssədən ağlarsə yeridür,
Vər nalə çəksə Fatimə, həqqa, rəvamidür.
Yanmağ həman yer üsnə dəgül, bəlkə gögdə həm,
Hər kimsəyə ki baxər isən, vardurur bu qəm.

Və bu "Ümmül-Fəzl" hekayəti "Mətalibül-Bətul fi mənaqibi-ali-Rəsul" kitabından Kəmaləddin bin Təlhə nəql eylər və "Şəvahid" kitabında Ümmül-Harisdən rəvayət edər.

Üçünci, İmam Hüseynüŋ (ə) şəhidliğ xəbəri üç yaşarda vaqe olupdur və Təbəri "Siyəri-kəbir" kitabında nəql eyləmiş ki, Dihyətül-Kəlbi[599] ki, Peyğambərüŋ əshabindəndür və bir gögçək yigit yəxşi xuylu idi və övqatı bazərganlik ilən keçərdi və hər qaçan ki Peyğambərüŋ qulluğinə gəlür idi, Rəsulullah (ə) anı çox nəvazişlər eylər idi. Və Dihyət hərgiz əliboş Mustəfanuŋ (ə) xidmətinə gəlməz idi, bəlkə hər yeŋiyetişmiş yemişi ki, görər idi, anı alub İmam Həsən və İmam Hüseyn içün (ə) gətürür idi və şahzadələr anuŋlən ögrənmiş idilər. Həman ki Dihyət gəlür idi, qərdaşlar ikisi daxi məscidə, ya cəddinüŋ hücrəsinə təşrifi-şərif ərzani qılur idilər və anuŋ ətəginə oturur idilər

[599] Farsca orijinalda: *Dəhiyyə.*

və mübarək əllərini anuŋ qoyninə və yeŋlərinə **[198b]** girdürüb axtarur idilər. Əmma Cəbrail (ə) gah-gah vəhyə surətinə Peyğambərüŋ xidmətinə gəlür idi. Bir qatla məscid eşigində oturmış idi. Nagah İmameyni-girameyn: İmam Həsən və İmam Hüseyn (əleyhumət-təhiyyə vət-təslim) məscid qapusinə gəlüb anı gördilər. Gümanları bu ki, oturan Dihyət Kəlbidür, yügürüb anuŋ ətəgi üstində oturdılar və öz adəti ilən əllərini qoyninə və yeŋinə soxub axtarur idilər. Həzrət Mustəfa (əleyhissəlat vəs-səlam) munı görincə İmamlaruŋ güstaxlığı Cəbrail ilən, utanub istər idi ki, fərzəndlərini mən` eyləyə, həzrət Cəbrail (ə) dedi:

– Ya seyyid, bunlarə hiç dəgmə.

Peyğambər dedi:

– Ya Cəbrail, necə mən` etməyim ki, bular səni Dihyət sağınub bəylə güstaxlığ edərlər.

Cəbrail dedi:

– Ya Rəsulullah, neçə qatla Fatimə təhəccüd nəmazindən soŋra uyumış idi və İmam Həsən və İmam Hüseyn (ə.m) beşikdə oyanub ağlamağə düşmək istər idilər. Taŋrı-təaladən əmr oldı ki, ya Cəbrail, türkən yerüŋ üstinə var və ol iki uşağ ki, Peyğambərüŋ əziz fərzəndləridürlər, beşigini təprət ki, anası uyuyubdur, ta bir saət asayiş dutub bir yuxu alsun. Ya Rəsulullah, mən anlaruŋ beşikləri təprədənəm[600] və:

"İnnə fil-cənnətə nəhrən min-ləbən
Li-Əliyyun və Huseynun və Həsən"[601] –

sədası bunlaruŋ qulağlarına yetürübəm. Ya seyyid, mən əl dəgirməni Fatimə ilən **[199a]** çox çəvirüb aŋa mədəd verübəm və mən çün anuŋ beşigi təprədən və əl dəgirmənինə mədəd vericilərdən olam, əgər bular mənüm ətəgümə girələr, əcəb dəgül ola. Əmma bilmənəm ki, qoynümdən və yeŋümdən nə istərlər?

---

[600] Əlyazmada: *tərpədənəndənəm*.

[601] *Cənnətdə Əli, Hüseyn və Həsən üçün*
Süddən bir çay axır.

Həzrət Rəsulullah (ə) dedi:

– Çün səni Dihyət Kəlbi sağınurlar və hər xaçan ki Dihyət yanümə gəlür idi, bir təbərrük nəstə, ya bir yemiş bunlar içün gətürür idi, imdi səndən daxi həm anı istərlər.

Cəbrail əlin uzadub cənnətdən bir salxım üzüm və bir ənar uçmağ ağaclarından dərüb bunlar yanına qoydı. Çün yeməgə meyl etdilər, bir dilənci məscidüŋ qapusinə gəlüb dedi:

– Ey nübüvvət Əhli-Beyti, ol nəstədən ki yeyərsiz, mənüm ülüşümi veriŋiz və ol üzümdən mənüm qismətümi şəfəqqət eyləŋiz ki, çoxdandur ki, üzümüŋ həsrətindəəm.

Peyğambər istər idi ki, ol üzümdən neçəsi dilənciyə verə, Cəbrail ol həzrətüŋ (ə) əlini dutub dedi:

– Ya Rəsulullah, bu, İblisi-lə`indür və istər ki, uçmağuŋ yemişini yeyə və aŋa həramdur.

İblis həman ki bildi kim, anı tanıdılar, nomid olub qayıtdı. Pəs, şahzadələr ol yemişi yēr idilər və həzrət Peyğambər anlarə baxər idi.

Cəbrail dedi:

– Ey seyyid, bu sənüŋ bağuŋ iki yemişi və iki aləmüŋ çeşmü çırağı şəhadət şərbəti dadəcəkdürlər: birisi ağu ilən şəhid edəcəkdürlər və birisi qılıc zəxmi ilən gedəcəkdür **[199b]** və bu müsibət sənüŋ şəfaət etdüğinüŋ artuğliği səbəbi olur.

Beyt:

Hüseynüŋ qan bəhasi çün şəfaət gəncinüŋ fəthi
Qiyamət gündə Peyğambər əlinə Taŋrı vermişdür.

Və "Məsabihül-qülub" kitabında yazıludur ki, Cəbrail (ə) bir ənar və bir almə və bir həyva uçmağdən gətürüb anlaruŋ əlinə verdi. Şahzadələr çox xürrəm olub, Peyğambər (ə) dedi:

– Oğullar, bunları ataŋıza və anaŋıza iltüŋ və anlar ilən tənavül eyləŋiz və bu yemişüŋ hər birisindən bir parə saxlıŋ.

Bəylə eylədilər. Daŋlası çün üstinə vardılar, gördilər ol yemişlər varı bitün durubdur. Pəs, xaçan ki ol yemişlərdən yarısı yēr idilər, yarısı qoyar idilər, daŋlası gənə bitün olur idi. Pəs, həman ki Fatime-

yi-Zəhra (ə.s) dünyadən rihlət eylədi, ənarı bulunmaz oldı və çün həzrət əmirül-mö'minin Əli (ə) şəhid eylədilər, həyvayı daxi itdi. Əmma almə İmam Hüseyn əleyhissəlamuŋ yanında idi və biləsincə saxlar idi və Kərbəladə həman ki susiz olur idi, ol almədən qoxu alur idi və susizliği bərtərəf olur idi. Çün İmam Hüseyn şəhid düşdi, ol almə daxi gözükməz oldı. Əmma almənüŋ qoxusi[602] anuŋ mübarək türbətindən eşidür idilər. Və İmam Zeynəlabidindən (ə) rəvayətdür ki, hər mö`mini-müxlisi-sadiq ki, İmam Hüseynə (ə) ziyarət eyləyə, ol almənüŋ qoxusi anuŋ türbətindən eşidür və ol həzrətüŋ toprağınuŋ qoxusi yüz miŋ qatla müşki-əzfər və tibi-əbhərdən yəxşiraq **[200a]** və əzizraqdur.

Beyt:

Beheşti-Ədn kim, derlər iŋən pürzövqü zibadur,
Səfadə eşigi Taŋrı bilür kim, andan ə`ladur.
Gözi rövşən olur hər kimsə kanuŋ rövzəsin görsə,
Müəttərdür dimaği-can ki, xaki müşki-saradur.

Dördünci, ol həzrətüŋ şəhidliğ xəbəri dördinci yaşında vaqe olmış idi. Və əylə idi ki, İmam Hüseyn Mustəfa əleyhumussəlamuŋ yanında idi və anuŋ yüzi ilən boğazı öpər idi. Cəbrail (ə) anı gördi, dedi:

– Ya Rəsulullah, bu risalət ağacınuŋ yemişi sevərsəŋ?

Buyurdı:

– "*Nə`əm, ovladunə əkbadunə*".[603]

Ravi der: Bir tə`viz[604] bir bağə bağlayub İmam Hüseynüŋ (ə) boynına asılmış idi və ol tə`viz bağınuŋ ələmi və əsəri ol nazənin boynında zahir olub, Cəbrail ol zəhmətiŋ əsəri kim, anuŋ boynında idi, çox baxub başını təprədür idi. Peyğambər (ə) buyurdı:

– Ey qərdaş, sən bu bağə baxub, çox təhəmmül eylərsən.

Cəbrail dedi:

---

602 Əlyazmada: *qosı.*

603 *Bəli, övladlarımız ciyərimizin parçasıdır.*(hədis)

604 Əlyazmada: *tə`vid.*

– Ya Rəsulullah, bir gün olacaxdur ki, Kərbəladə bu bağuŋ yerində qan ilən bulaşmış ola və Əhli-Beyt (ə.m) bu müsibətdə qəmlü və qayğulu olalar.

Nəzm:

Fələknüŋ canı yanər bu əzadə,
Mələknüŋ köŋli pürxun Kərbəladə.
O gün bir od yanər olsun cəhandə
Ki, yansun hər nə var ərzü səmadə.

Beşinci, şəhidlərüŋ şahbazı və Murtəza Əlinüŋ (ə) həmrazı şəhidliğ xəbəri beşinci yaşında idi ki, bir bayram gəldi və şahzadələr cəddinüŋ qulluğinə gəldilər və dedilər:

– Bu gün bayram günidür və ərəb böyüklərinüŋ **[200b]** uşağları qamu yeŋi geyəsilər və boyağlu donlar geyübdürlər və bizim hiç nəstəmiz yoxdur. Sənüŋ xidmətüŋə ki *"liəmrukə"*[605] tacı başüŋdədür və *"ya əyuhəəl-muddəssir"*[606] xəl`əti əgnüŋdə, gəlübüz ki, bayramlığ aləüz və bayramlığ yeŋi xəl`ətdən özgə nəstə istəməzüz. Həzrət xaceyi-aləm (s) fikr eylədi ki, bir xəl`ət ki, şahzadələrüŋ layiqi ola, evdə yox idi və anları məhrum qoymaq məsləhət dəgül idi. Taŋrı-təalanuŋ bargahinə yüz urdı və sirri aşkar eyləyüb diləməgə düşdi. Dərhal həzrət Cəbrail (ə) ol həzrətə nüzul eylədi və əlində iki ağ cənnət hülləsi gətürdi anlaruŋ boyincə və dedi:

– Ya həzrət, məlul olma və bu iki hülləni anlarə geydür.

Şahzadələri çağırdı və buyurdı:

– Bu iki xəl'ət ki, qüdrət dərzisi siziŋ boyniŋizüŋ layiqi tikübdür, qeybdən gəldi.

Beyt:

Bu iki xəl`ət ki, yox munciləyin dər-cəhan,
Boynuŋizə layiqi qeybdən oldi əyan.

İmam Həsən və İmam Hüseyn çün ol iki ağ donları gördilər, dedilər:

---

[605] *Sənin əmrinə.*

[606] *Ey (libasına) bürünüb sarınan (Peyğəmbər).* (Quran, 74:1)

– Ya Rəsulullah, ərəb uşağlarınuŋ geyəsiləri qamu boyağludur və bizimki ağdur, mürüvvət sizündür.

Peyğambər (ə) daxi fikrlü oldı. Həzrət Cəbrail (ə) dedi:

– Ya Muhəmməd, (s) xatirüŋ cəmʾ dut ki, sibğətullahuŋ ustadı dərhal munı boyadur və sənüŋ bağırparələrinüŋ köŋülləri nəvaziş eylər. Buyur kim, teşt ilə aftabəni gətürsünlər və sən bu donları **[201a]** ələünə dut və ələüŋ aŋa sürtəgör ki, mən su tökərəm. Pəs, Peyğambər birisin götürdi və teştə qoyub, Cəbrail su tökər idi. İmam Həsənə dedi:

– Ey gözümüŋ nuri, nə rəng istərsən?

İmam Həsən (ə) dedi:

– Yaşıl.

Taŋrınuŋ qüdrəti ilən dərhal zümürrüdi yaşıl boyağ oldı, çıxardı və İmam Həsənə verdi. Birisin daxi teştə qoyub, İmam Hüseyndən sordı:

– Ey köŋlümüŋ süruri, sən nə rəng istərsən?

Dedi:

– Qırmızı.

Filhal Mustəfanuŋ mübarək əli əsəri ilən yaquti-rəmmani rəngi kimi boyandı və İmam Hüseynə verdi və ol həzrət anı geydi. İkisi daxi xürrəm və şadiman olub anası hücrəsinə yüz qoydılar və Cəbrail ağlamağə düşdi. Mustəfa dedi:

– Ya Cəbrail, bu halətdə ki mənüm uşağlarum şad oldılar, sən nişün məlul olduŋ?

Cəbrail dedi:

– Ya seyyid, məgər ol köşklər ki, cənnətdə İmam Həsən və İmam Hüseyn içün yaradupdurlar[607], unudubsən? İmam Həsənüŋ köşki yaşıl zümürrüddəndür, munda daxi yaşıl rəngi istədi və İmam Hüseynüŋ köşki qızıl zümürrüddən, munda daxi qızıl rəngi dilədi. Və axir İmam Həsəni ağu ilən şəhid eyləyələr və bənzi ağu əsərindən yaşıl olacaqdur və İmam Hüseyni qılıc zəxmi ilən şəhid eyləyələr və mübarək yüzinüŋ bəŋzi qızıl ola.

---

[607] Əlyazmada: *yaradupdur*.

Beyt:
Səbzə yüzin toprağə sürtər Həsən ağusidin,
Laləgun olur şəfəq xuni-Hüseyn qayğusidin.

Və "Şəvahid" kitabından nəqldür ki, bir gün Mustəfa Cəbrail ilən (ə.m) oturmış idilər, İmam Hüseyn içəri girdi, Cəbrail sordı:

– Bu, kimüŋ oğlıdur?

Mustəfa dedi:

[201b] – Mənüm oğlumdur.

Və anı qucağına aldı.

Cəbrail dedi:

– Yaqın ola kim, bunı şəhid eyləyələr.

Rəsul (ə) dedi:

– Kim şəhid eyləsün?

Cəbrail dedi:

– Sənüŋ neçə ümmətlərüŋ və əgər istərsən deyim ki, hanğı yerdə olacaqdur.

Bəs, Kərbəlayə işarət etdi və bir avuc Kərbəla toprağından götürdi və Mustəfayə verdi ki, bu toprağuŋ üstində şəhid olacaqdur və topraq anuŋ qanından boyacaqdur.

Şe'r:
Toprağ ol şəhzadənüŋ qanilə gər boyatdılar,
Gözlər içün hurlar etmişlər anı tutiya .
Dağlar başlarinə daş urdılar çün eşidüb,
Ol sitəmlər ketdilər[608] *ol qəvmi-şumi-bihəya.*
Ni üçün toprağ ilən qanları bulaşmış ola,
Əylə kimsələr kim, anlarçün durur ərzü səma.

***

[608] *Ki etdilər.*

Kərbəlanuŋ hekayətində şüru etmək

Cigərsüz ravilərüŋ xəbəri və qəmənduz naqillərüŋ hekayəti bəylə nəql eyləyübdürlər ki, ol gün ki, Müslim Əqil Kufəyə yetdi, Kufənüŋ əkabiri və böyükləri yanına gəlüb İmam Hüseyn içün bey'ət eylədilər. İgirmi miŋ adəmə yaqın və qamusı iradət üzərinə həvadarlığ yüzinə namələr yazub, Məkkəyə göndərüb şahzadənüŋ ərzinə yetürdilər və iltimas etdilər ki, qulluğuŋa çoq-çoq müştaqüz və çox mübaliğələr etdilər.

Şe'r:

Əgər bu yanə qədəm rəncə qılәsiz dübdüz,
Anuŋ əyağinə baş ilə can fəda qılәüz.

Gün bu bitiklər İmam Hüseynə (ə) yetdi, səfər yərağini eyləyüb İraq sarusinə **[202a]** yüz qoydı. Dustları və həvadarları bu məˀniyi bəgənmədilər və nə qədr ki anı getməkdən mənˀ etdilər və dəlillər gətürdilər, qəbul olmadı. Axir Əbbas oğlı Əbdullah qulluğinə gəldi və dedi:

– Ya əmmüm oğlı, eşitdüm ki, Kufəyə əzm eyləmişsən.

Dedi:

– Bəli.

Dedi:

– Ya İbn Rəsulullah, Məkkədən çıqma və hərəmdən irağ olma ki, əmirül-mö'minin Əli (ə) hərəmeynüŋ fəraqi ixtiyar eyləyüb İraqə təvəccöh eylədi və gördüŋ ki, ol həzrətə nələr dəgdi və Kufə əhli həm ol taifədürlər ki, qərdaşuŋa zəxm urub evini və barxını taladılar. Sən anlardan qafil olma və anlaruŋ sözlərinə e'timad etmə ki, qəvllərinə e`timad yoxdur və əhdlərinə durmayub cəfa eyləyəcəkdürlər.

Beyt:

İraquŋ əhlidən əsla vəfa gözətmiŋ siz
Ki, Kufi adəmidə yoxdurur vəfa hərgiz.

İmam Hüseyn (ə) dedi:

– Bu qəziyyə özgə hekayətlərə bənzəməz. Müslim maŋa namə yazubdur və igirmi miŋ bəhadir yigitlərüŋ bey′ətindən maŋa xəbər eyləyübdür və Kufə əhli çox bitiklər maŋa göndərübdürlər ki, mən orayə varam və bula kim, həqqüŋ işi qüvvətlənüb batil əməl ufanə və hala maŋa bir hüccət lazim olupdur. Əgər getməsəm, Allah-təalanuŋ yanında nə cəvab verəyim.

Əbdullah Əbbas dedi:

– Həzə Kufənüŋ bəgi andədür və ol məmləkətlər varı anuŋ təsərrüfindədür. Əgər kufilər öz bəgini məmləkətdən çıxarub şəhr və eli öz təsərrüfinə gətürələr, oraya getməgüŋ bir yüzi **[202b]** var. Və əgər bəylə eyləməyələr, sənüŋ Yezid ləşkəri ilən səvaşuŋ düşəcəkdür və olmaya ki, anlar qalib olub, anda siz qərib və bikəs qalasız.

İmam Hüseyn (ə) dedi:

– Bu işdə özüm ilən bir məsləhət görəyim, daŋla cəvab verəyim.

Əbdullah Əbbas getdi və İmam Hüseyn Kufəyə getmək içün kəlamullahdən fal açdı, bu gəldi: *"Kullu nəfsin zaiqatul-movti və innəma tuvəffəvnə ucurəkum"*[609]**.** İmam Hüseyn (ə) dedi:

– *"Sədəqəllahu və sədəqə Rəsulullah"*[610] – Cəddimüŋ qəvlinə ki, düşdə gördüm və Taŋrı-təalanuŋ kəlamindən ki, fal açdum, maŋa mə`lum oldı ki, şəhid olacaqam.

Misra:

Tədbir ilə təqdirüŋ dəf`in edəməz kimsə.

Əbdullah Əbbas daŋlası gəldi və dedi:

– Ya İbn Rəsulullah (s), iş nəyə düşdi və nəyə müqərrər eylədüŋ?

Buyurdı ki, İraquŋ əziməti özümə cəzm eyləmişəm və Taŋrınuŋ qəzasinə riza vermişəm ki

Misra[611]:

Hər nə kim, Taŋrı qəzasıdur, bizə oldurur riza.

---

[609] *Hər kəs (hər canlı) ölümü dadacaqdır. Mükafatlarınız [Qiyamət günü] sizə hökmən bütövlükdə veriləcəkdir.* (Quran, 3: 85)

[610] *Tanrı doğru buyurdu və Peyğəmbər doğru söylədi.*

[611] Əlyazmada: *Beyt*.

Əbdullah Əbbas dedi:

– Ya İmam Hüseyn, əgər, əlbəttə, mundan getmələ olduŋ, Yəmən sarusinə təvəccöh eylə ki, ol tərəf İraqdən yəxşiraqdur və bir uzun məmləkət və vəsi ölkədür və bərk qəlʾələri var və Əhli-Beytüŋ dustları və həvadarları ol tərəfdə çoxdurlar. Həman ki oraya məqam dutəsən, adəmlərüŋ ətraf məmalikə göndər və bey'ət işi aşkar eylə və bir ağır çərini cəmʾ et. Andan soŋra hər nə ki müddəaŋ ola, **[203a]** əmələ gətür.

İmam Hüseyn dedi:

– Ey əmmüm oğlı, sənüŋ şəfəqqətüŋ və birligüŋ mənüm ilən mə`lumdur, əmma əzimətüm Kufəyə saru cəzm olupdur və hiç bab ilən anı bərtərəf etmək olmaz. Və bu səfərdə bir gizlü məsləhət var və mən bilürəm ki, mənüm ögümdə nə vaqiə zahir olacaqdur və öz cəddüm ilə atamdan (ə.m) eşitmişəm və sən bilürsən ki, atam neçə qatla minbər üstində buyurubdur: "*Utitu ilmul-mənaya vəl-bəlaya*"[612]. Və imdi bu kitab bizim yanımızdadur və Əhli-Beytüŋ əməlləri və əcəlləri yəxşicə bilürüz. Daxi bu babda cəhd etməŋ və bu əzimətə mən` eyləməŋ və çox mübaliğələr qılməŋ ki, mən bu səfərüŋ getməgində ixtiyarsizəm və atum yügəni özgə kimsənüŋ əlindədür.

Nəzm:

Neçə qatla demişəm bu sözi, daxi derəm
Ki, cəhan bağidə mən incə ki yəxşi baxərəm,
Gər güləm, gər tikənəm, özüm ilən bitməmişəm,
Hər necə kim məni pərvərdə qılurlar, bitərəm.

İbn Əbbas dedi:

– Çün, əlbəttə, bu səfərə getmələ olduŋ və tərk etməyəcəksən, barı Əhli-Beytüŋ uşağları ilən dişilərini bilə aparma.

İmam Hüseyn (ə) buyurdı:

– Anları kimə tapşurayım və kimüŋ ümmidinə qoyayım. Əlbəttə, gərək ki, mənüm ilən bilə olalar.

Əbdullah Əbbas dedi:

---

612 *Ölüm və bəlaların elmi (açarı) sənə verildi.*

– Ya İbn Rəsulullah, mənüm xəyalümdə idi ki, sənüŋ ilən bilə gələm, əmma əzimətüm Mədinənüŋ tərəfinə müsəmməmdür. İnşaallah, çün Kufənüŋ fəth olduğı xəbəri gələ, baş ilən qulluğuŋa gələcəgəm. Əmma bilmənəm **[203b]** ki, sənüŋ fəraquŋ yükini nə taqət ilən çəkəcəgəm və məhəbbətüŋ camını hanğı qut ilən içəcəgəm.

Şe'r:

Sən gedərsən, mən qalürəm, bilmənəm kim, nedəyim,
Səndən ayrılmaq bəsi müşkildürür, necə edəyim?
Sən o yanə yel təki atuŋ sürərsən, leyk mən
Kölügüm axsar Mədinə saru, necə gedəyim?

Bəs, İmam Hüseyn qərdaşları ilən dostlarını öz yanında hazir eyləyüb dişilər ilən uşağları içün ükəklər düzətdürdi. Zilhəccə ayınuŋ üçüncisində kim, Taŋrı-təala təqdirindən həm ol gün Müslim Əqil Kufədə şəhid olmış idi, Məkkədən çıxub yolə düşdilər.

Rəvayətdür ki, İmam Hüseynüŋ (ə) bir doğru dusti dedi:

– Ya İbn Rəsulullah, Kufəyə getməgüŋ hiç məsləhət yoxdur ki, anlaruŋ vəfasızlığı mə`lum və cəfalar etdügi müqərrər və məşhurdur.

İmam Hüseyn (ə) dedi:

– Anlaruŋ hüccəti içün bəqayət fikrlüəm və düşmənlərüŋ qorxusindən əndişəlü və bu səbəbdən səfər yükini bağlaram.

Beyt:

Neylim mən, nedəyim, çünki giriftar olubəm,
Hər nə təqdir edər, baş ilə canlə durubəm.

Əmma çün Səfah mənzilinə yetdi, Fərəzdəq şairi gördi ki, Əraq tərəfindən gəlür idi. Həman ki Fərəzdəqüŋ gözi İmam Hüseynüŋ (ə) mübarək yüzini gördi, atdan endi və yügürüb İmam Hüseynüŋ budi və dizi öpdi. İmam Hüseyn (ə) dedi:

– Ey Fərəzdəq, gəlişüŋ Kufədən?

Dedi:

– Bəli.

Sordı:

[204a] – Kufənüŋ eli necə gördüŋ?

Dedi:

– Anlaruŋ köŋli sənüŋləndür ki, Həqq yolı səndən bulunur, əmma xatirləri Bəni Ümeyyə iləndür ki, anlaruŋ dünyaligi və malı çoxdur.

İmam Hüseyn (ə) dedi:

– Gərçək dersən.

Pəs Fərəzdəq İmamı vida eyləyüb hərəm tərəfinə rəvan oldı. Çün İmam Hüseyn Bətnürrəmmə yurtına yetdi, bir namə Qeys bin Məşhərə verüb Kufəyə göndərdi. Məzmuni bu ki, Müslim Əqilüŋ yazduği maŋa yetdi və bey'ətiŋiz[613] və müştaqlığıŋız mənüm didarümə mə`lum oldı. Taŋrı-təala sizə yəxşi cəzalar versün və məhəbbətüŋiz mənüm həqqümdə zaye etməsün və bu naməni Bətnürrəmmə mənzilindən göndərdüm və həm bu yaxında bitik ardından yetəcəgəm, vəssəlam.

Bəs, Qeys ol həzrətüŋ bitigini alub Kufə sarusinə rəvan oldı. Həman ki Qadisiyyəyə yetdi, Həsin bin Təmir[614] bir neçə Şamuŋ ləşkərindən orada durmış gördi, səbəbi ol kim, çün İmam Hüseyn Məkkədən Kufəyə əzm eyləyüb rəvan oldı, düşmənlər Ziyadoğlına bitiklər yazdurdılar və ol həzrətüŋ çıxduği aŋa e`lam etdilər. Və Ziyadoğlı ol yolları ayru-ayru ləşkərlər ilən durğuzub müntəzir etdi ki, hanğı yoldan baş çıxaralar. Həsini-məl`un Qeysi dutub Ziyadoğlına göndərdi. Ol həramzadə hökm eylədi və Qeysi damdan aşağəyə saldılar və şəhid oldı.

Və "Nurül-əimmə" rəvayət eylər ki, Kufəyə bitik göndərdügi **[204b]** Kərbəladən etdi və İmam Hüseyn (ə) çün Bəzzati-İrqə yetdi, Bəşir bin Qalibi gördi kim, gəlür idi. İmam dedi:

– Ey Bəşir, Kufədən nə xəbər?

Dedi:

– Ya İmam, eşitməyübsən ki, "*əl-Kufi la yufi*"[615].

Beyt:

Kufilər cümlə yufilərdürlər,
Yüzləri şum kufilərdürlər.

---

[613] Əlyazmada: *beyə'tiŋizi*.

[614] Farsca orijinalda: *Nəmir*.

[615] *Kufəlilərin vəfası yoxdur.*

İmam (ə) dedi:

– Gərçəkdür.

Andan ötüb Vərd mənzilinə yetdi. Yoluŋ bir yanından baxub bir təpənüŋ başında bir çadırı gördi tikilü.

Sordı:

– Bu, kimüŋ çadırıdur?

Dedilər:

– Züheyr bin əl-Qeysünüŋkidür[616] ki, ol vəqtdə Həcdən qayıdurdı və mənasiki yerinə yetürüb Kufəyə gedər idi. İmam Hüseyn anı çağırdı. Züheyr əvvəl getməkdə bir təəllül etdi, əmma axir İmam qulluğinə gəldi.

İmam Hüseyn (ə) aŋa dedi:

– Hiç xatirüŋ qəbul eylərmi ki, ğəza atını Taŋrınuŋ məhəbbət meydanində səgirtüb, qılıc suyi ilən fəsad otını bərtərəf eyləyəsən və pərvanə kimi şəhadət şəmʾinüŋ çevrəsini cövlan edüb Taŋrınıŋ xoşnudliğ qapusı köŋlün yüzinə açdurəsən.

Misra:

Keçəgör candən, ər Canan dilərsən.

Züheyr munı eşidincə bəŋzi qızarub dedi:

– Ya İbn Rəsulullah (ə)

Nəzm:

Asitanuŋ xidmətinə kim ki baş endürməyə,
Heyf kim gərdun başını daş ilə sındürməyə.
Kim ki Əhli-Beyt qəsdinə dilər kim, atlənə,
Həqq anı meydani-vəhdət atinə mindürməyə.

Çox müddətdür ki, mən bu dəvləti gözədür idim və bu səadətə ulaşmaq intizar çəkər idim. Lillahilhəmd ki, öz kamimə axır yetdim, hər nə köŋlümdə idi, qulluğuŋa ərz etdim[617].

---

[616] Farsca orijinalda: *əl-Qeys əl-Bəcəli;* "Hədiqətüs-süəda"da: *Qeys Nəhai.*

[617] Nəzm parçasından sonrakı iki cümlə də əlyazmada şeir formasında yazılmışdır.

Bəs İmam Hüseynüŋ xidmətindən dışxarı **[205a]** çiqub öz qəytulinə qayıtdı və buyurdı kim, çadırını qopardılar və İmamuŋ çadırına yaqın tikdilər. Pəs öz əshabinə dedi:

– Yaranlar, hər kim şəhadət olmaq dilər, mənüm ilən müvafiqət eyləsün ki, din ilə dünya dəvləti mundan hasil olur. Hər kim evi ilən barxı istər, məndən ayrılsun.

Züheyrüŋ adəmləri bu söz eşidincə çoxı ayrılub Kufəyə rəvan oldılar. Andan Züheyr öz xatunını çağırub dedi:

– Ey mənüm qəmgüsarum və hər yəxşi ilən yamanə sirdaşum və yarum, mə`lum et ki, mən İmam Hüseynüŋ (ə) ilən gedərəm, ta öz canümi anuŋ atınuŋ dırnağına fəda eyləyim. Sən öz həqqüŋi mənüm malümdən götür və məni həlal eylə.

Və bir qəvldə daxi derlər ki, xatunı dedi ki, ey vəfadar ər vey bəhadiri-səfdər, sən istərsən ki, həzrət Murtəza Əlinüŋ oğlı (ə) qulluğində oləsən. Mən daxi istərəm ki, Fatimeyi-Zəhranuŋ (ə.s) qızı pərəstarlik edüb xidmətində olam. Bəs, ikisi daxi ittifaq eyləyüb, Əhli-Beytüŋ xidmət kəmərini ciddü cəhd belinə bağlayub İmamuŋ mülazimətinə gəldilər.

Misra:

Bu dəvlət işidür, ta kimə layiq ola bu dəvlət.

Bəs andan köçlənüb Şüquqə yetdilər. Kufədən bir adəmi gəlür gördilər.

İmam Hüseyn (ə) yalğuz oturmış idi, anı çağırdı və Kufənüŋ xəbərini andan sordı. Ol kişi dedi:

– Vallah ki, mən Kufədən gəlürəm və anda idim ki, Müslim Əqili Hani bin Ürvə ilən şəhid etdilər və gəvdələri darə çəkdürüb başlarını Diməşqə göndərdilər.

[205b] İmam Hüseyn həman ki bu xəbəri eşitdi, dedi:

– *"İnna lilllahi və inna ileyhi raciun"*.[618]

Pəs ol kişi öz yolına vardı və özgə kimsə bu sözi eşitmədi. Və rəvayətdür ki, Müslim Əqilüŋ (ə) bir qızı var idi üç yaşında və İmam

[618] *Biz Allahın bəndələriyik və O-na tərəf qayıdacağıq*. (Quran, 2: 156)

Hüseyn (ə) daim anuŋ köŋliŋ alub təsəllisin edər idi və İmam Hüseynüŋ (ə) qızları ilən bilə idi. Bu mənzildə İmam Hüseynüŋ (ə) qulluğinə öz adəti ilən gəldi. Şahzadə aŋa ümmid və istimalət və şəfəqqət eylədi ki, andan ilərü bəylə mehrəbanlik hərgiz vaqe olmamış idi və anuŋ yüzinə çox baxər idi və mübarək əlini anuŋ yüzinə sürtər idi. Qızuŋ köŋlində bir nigəranlik peyda oldı və fərasət ilən bir nəstə mə`lum etdi, dedi:

– Ya İbn Rəsulullah, bu gecə çox şəfəqqətlər eylərsən və bu mərhəmət ki, bu gecə mən baxərəm, təmam aŋa bənzər ki, yetimlərüŋ köŋliŋ alurlar. Məgər mənüm atam şəhid düşübdür?

İmam Hüseynüŋ (ə) taqəti qalmayub ağlamağə düşdi və dedi:

– Ey qızum, köŋlüŋə təsəlli ver ki, mən sənüŋ ataŋ olacağəm və Zeynəb ki, mənüm qızqərdaşumdur, sənüŋ anaŋ və mənüm qızlarum sənüŋ qızqərdaşlaruŋ, oğlanlarum sənüŋ qərdaşlaruŋ.

Qız munı eşidincə fəryadü fəğan çəkdi, bu məzmun ərəb rəcəzi ilən ki, anlaruŋ adətidür, əda qıldı.

Rübai:

Ey kaş məni doğmamış olsaydı anam,
Çün doğdi məni, boğmış olaydı ol dəm.
Ey kaş ki, mən biləydüm atam sinini,
Ta üstə oturub dutaydum matəm,
Hiç kimsə mənüm təki cəhandə yoxdur,
[206a] *Pürqüssəvü ənduhlu qəmnakü dijəm*.

Çün ol qızuŋ əfğan üni çıxdı, Müslimüŋ oğlanları bu qissədən vaqif oldılar, əmmamələri başlarından götürüb yerə urdılar və ahü fəryadə düşüb, çox zarilik edüb nalələr çəkdilər və hər birisi öz halında köŋüllərinə söylər idilər.

Şe'r:

Mən xud öz halümə pərişanəm,
Atamuŋ odi ilə yanərəm.
Noldi halı[619] *anuŋ bu qovğadə,*
Gəvdədən başi ayru üftadə.

[619] Əlyazmada: *halın*.

İmam Hüseyn (ə) bu müsibətdən çox qəmnak və pərişan qalub, anuŋ müamiləsindən fikrlü olub, Müslimüŋ müfariqət xəncərinüŋ yarəsindən və kufilərüŋ vəfasızlik dağından şahzadənüŋ gözlərindən arxlar rəvan olub, hal dilin bu sözə mütərənnim oldı.

[Şe'r:]

Köŋlümdə var anuŋ qəmidin bir əcəb dügün,
Gər açsam anı, cümlə cəhan ola cümlə pür zi-xun.
Köksümüŋ ah tütüni gər dışxarı çıxa,
Hiç kimsə görməyə daxi bir qatla Ayü gün.
Ağladuğum mənüm bu yetimlər içündürür,
Taŋrı bilür ki, yığləməzəm mən özüm içün.

Neçə yoldaşlar İmam Hüseynə (ə) andlar verdilər ki, uşağlaruŋa rəhm et və Kufənüŋ başından keç və öz yurt və məqamuŋa qayıt ki, Kufənüŋ işi bəylə ki mə`lum oldı, sənüŋ Kufədə hiç mədədverici və yarilik qılıcın[620] yoxdur. Müslimüŋ fərzəndləri dedilər:

– Ya Bin Rəsulullah, Müslimdən soŋra bizim dünyadə nə diriligimiz qaldı? Biz qayıtməzüz, ta xəsmlərimizdən intiqam çəkməyəüz. Ya həm ol şəhadət şərbəti ki, Müslimə içürdilər, **[206b]** bizə daxi içürsünlər.

İmam Hüseyn buyurdı ki, *"La xeyrə fil-eyşi bə`dəhuha əvlahu"*[621] – anlardan soŋra diriliknüŋ hiç ləzzəti yoxdur.

Beyt:
Dirilik yar didari içündür,
Çü yar olmasa, dünyayi nedərəm.
Beyt:
Xoşdurur Canan ilən can, Yar vəslilən cəhan,
Çünki bunlar olmasa, canü cəhanı neylərəm.

Andan köçlənüb Zübaləyə yetdilər. Ömər Səʾdüŋ bitigi yetdi, içində yazılu kim, Kufə əhli ilə ki, anlaruŋ yaman qaidəsi vəfasizlik

---

620 Əlyazmada: *qılıcı*.

621 *Onlardan sonra artıq yaşamağın ləzzəti yoxdur.* (hədis)

şivəsi idi, qəddarlik və cəfakarlik edüb Müslimi yalğuz qoydılar, ta anuŋ halı ol qayətə düşdi və Hani bin Ürvə daxi sitəm qılıcı [ilən] şəhid düşdi. İmam Hüseyn (ə) Ömər Səʿdüŋ bitigindən məʿlum eylədi ki, Müslim şəhid düşübdür[622]. Çün bu xəbər şahzadənüŋ ordusində aşkar oldı və ordu eli munı məʿlum eylədilər, hər kimsə ki ətrafdən anda idi, öz yolını tutub pərakəndə oldılar. Çün ol[623] mənzildən[624] köçdilər, Bəniülmüqatil köşkinə yetdilər, bir sərapərdə gördilər tikilü və bir cidə qapusində sancılu və bir qılıc aŋa asılu və bir at axurdə bağlu. İmam Hüseyn sordı ki, bunlar kimüŋkidür? Dedilər: Əbdullah əl-Hürr əl-Xüzainüŋdür[625] ki, Kufənüŋ bəhadirlərindən və ol tərəfüŋ pəhləvanlarindən boyun uzadub, ad çıqarubdur.

Beyt:
Məsaf içində qürran miğə bəŋzər,
Səvaş içində bürran tiğə bəŋzər.

İmam Hüseyn (ə) Həccac bin Süradiq **[207a]** Cəʿfi ki, anuŋ qəbiləsindən idi, anı çağırmağə saldı və Həccac səlam və peyğami-həzrət İmam (ə) aŋa yetürdi. Əbdullah dedi:

– Ya Həccac, İmam Hüseyn (ə) məni nişün çağırur?

Dedi:

– Ta anuŋ ilən bilə olasan, əgər düşmənlərüŋ dəfʿinə səʿy eləyəsən, əzim səvabi bulasən. Əgər səni öldürələr, şəhadət dərəcəsi tapasən.

Əbdullah dedi:

– Mən Kufə əhlinüŋ içindən anuŋ içün çıxubəm ki, olmaya ki, İmam Hüseyn (ə) oraya gələ və nagah şəhid düşə və mən öldürənlərüŋ içində olam. Ey Həccac, bil kim, Kufə əhli dünyalik cifəsi xatiri içün nübüvvət və vilayət xanidanindən dönüb, Ziyadoğlına yapışubdurlar və faniyi-dünyalik baqiyi-cənnətə ixtiyar eyləyübdürlər və

[622] Əlyazmada: *düşübdürlər*.
[623] Əlyazmada: *öz*.
[624] Əlyazmada: *mənzilindən*.
[625] Farsca orijinalda: *əl-Cəfi*.

mənüm anlərüŋlən səvaşməq taqətüm yoxdur və anlarə daxi ittifaq eyləməzəm.

Həccac qayıtdı və hər nə eşitmiş idi, ərz etdi. İmam Hüseyn (ə) özi durub anuŋ mənzilinə qədəm basdı. İbnül-Hürr tə`zim və təkrim eyləməgə qayət ədəb yerinə yetürdi və İmamı yəxşi yerdə oturtdı və özi qulluğdə durdı. İmam Hüseyn (ə) dedi:

– Sənüŋ şəhrüŋ böyükləri maŋa bitiklər və namələr yazdılar ki, biz sənüŋ yekrəng həvadarlar və sadiq dostlarıŋuz. İltimasımız oldur ki, əlbəttə, əlbəttə, bu yanə əzimət eyləyüb bizim başımız iki aləmdə sərfəraz eyləyəsən ki, köŋül ilən həvadarlik eyləyüb canbazlik eyləyəüz. İmdi eşitdüm ki, doğru yoldan baş döndərüb **[207b]** gümrahlik yolına yüz qoyubdurlar. Ey Əbdullah, bilürsən ki, hər əməl ki xeyr və şərdən eylərsən, aqibət ol əməl saŋa tuş olur və cəza və səzası saŋa yetər. İmdi mən səni Həqqüŋ dini nüsrətinə mədəd verməgə[626] çağırurəm. Əgər qəbul eyləyəsən, Qiyamət günində sənüŋ yəxşilüğüŋ və azadiliğüŋ cəddüm yanında Mustəfayə[627] (ə) deyəcəgəm.

Əbdullah dedi:

– Mənüm yanümdə mə`lumdur ki, hər kim saŋa mütabiət eyləyə, dünyadə və axirətdə səvabdən məhrum qalməyəcəkdür. Əmma çün kufilər sənüŋlən yarilik etməyəcəkdür və sənüŋlən az ləşkər var, mənüm gümanum budur ki, əlbəttə, basılarsən[628], andan ötrü ki, Yezidüŋ ləşkəri çoxdur və mən bir yalğuz adəm. Mə`lumdur ki, məndən nə hünər gələ, məni mə`zur dutmək gərəksən. Və bu Məlhəqə adlu qısrağı saŋa pişkeş eylərəm və Taŋrınuŋ həqqi içün ki, bu, bir atdur ki, hər canəvər ki, ardınca səgritdübəm, aŋa yetübəm və hər kim mənüm ardümdən səgridübdür, maŋa yetməyübdür. Və bu qılıc həm sarum seyfdür və ərəb bəhadirlərüŋ içində hiç kimüŋ bəylə silahı yoxdur. İltimasum budur ki, bu mühəqqər töhfələri qəbul eyləyüb mənüm canümə minnət qoyəsən.

Həzrət İmam (ə) əyağə qalxub dedi:

---

[626] Əlyazmada: *vermək.*

[627] Əlyazmada: *Mustəfa.*

[628] Əlyazmada: *basarsən.*

– Mən at ilə qılıc təm`i içün yanuŋa gəlməmişəm, bəlkə umardum ki, mənümlən yarilik eyləyəsən, sən qəbul etmədüŋ. Maŋa bir kimsədən ki, canını məndən əsirgər ola, anuŋ malına hacət **[208a]** dəgül.

Əmma rəvayətdür ki, Kərbəla vaqiəsindən soŋra Əbdullah Cə'fi öz təqsirinə çox təəssüflər ilə həsrətlər yedi və neçə beytlər ərəb dilincə ki anlaruŋ türki dildə mə`niləri budur, dedi:

Nəzm:

Zehi həsrət ki çün şahi-şəhidan,
Maŋa dedi atuŋ sürgil bə-meydan.
Nə içün anuŋ ilə getmədüm mən,
Anuŋ ögütləri eşitmədüm mən.
Anuŋlən ki şəhid olmiş olaydum,
Bə-xakü xunə bulaşmiş olaydum.
Şəfaətcim olaydı ruzi-Məhşər,
Suçum bağışlar idi Həyyi-davər.
Bu təqsir ilə çoxdur infialum,
Biləməzmən necədür soŋra halum.
Əgərçi çox çəkərmən ahü vayı
Ki, anda qılmişəm yüz miŋ xətayı.
Məgər həm anlaruŋ məni bu qəmdən
Xilas eyləyələr lütfü kərəmdən.

Rəvayətdür ki, Kufənüŋ mənazilindən bir mənzildə ki, aŋa Sə`ləbiyyə derlər, İmam Hüseyn (ə) qondı və qızınuŋ Zeynəb adlu kənarinə baş qoyub uyudı. Nagah oyanub gözlərindən yaş axar idi. Qızqərdaşı Ümmü Külsüm dedi:

– Ey Mustəfanuŋ bağırparəsi vey Zəhranuŋ gözi nuri, vey Murtəzanuŋ köksi sərvəri, nişün yığlarsan, gözün hərgiz ağlamasun, inşaallah, xeyr ola.

İmam buyurdı ki, bu saət cəddüm Mustəfanı (s) düşdə gördüm ki, ağlar idi və dedi: "Ey Hüseyn, yetdügüŋ maŋa yaxın oldı".

Və bir atluyi gördüm ki, qarşusində durub, der idi ki, siz yügürüŋ ki, əcəl sizüŋ ardıŋizcə yügürür. Bu halətdə oyandum, cəddümüŋ ağlamağından yığlamağə düşdüm.

Ümmü Külsüm (ə) daxi ağlamağə düşdi və hərəm məsturələri varı qayğulu və qəmnak və ənduhlu və **[208b]** dərdnak oldılar. Ortalarından Əli Əkbər əyağə qalxub dedi:

– Ey ata, biz bər-həqqüz?

Dedi:

– Nə'əm, biz bər-həqqüz və Həqq bizim iləndür.

Dedi:

– Bəs, hiç bak yoxdur. Əgər əcəl bizə yetə, ya biz əcələ yetəüz, çe biz yəqin bilürüz ki, dirilik donı bir ariyətdür və ömrüŋ bünyadı bəqayət etibarsız və qamu peyğambərlərüŋ bəşəriyyət aləmində *"kulli şey`in halikun illa vəchəh"*[629] şərbəti müqərrərdür və dünyanuŋ müsafirləri *"Əynəma təkunu yudrikukkumul-movtu"*[630] badiyəsi rəhgüzar.

Nəzm:

Dünyanuŋ məzrəəsində kim əküpdür bir toxm
Kim, anuŋ xərmənində dəgmədi bərqüŋ odini?
Hanğı iqbal budağın gögə çıqdı başın
Kim, əcəli-sərsəri qoparmadı axir kökini?

Ey ata, biz fəna gülşəni bənəfəhati-dildari-*"Və lil-axirətu xeyrun ləkə min əl-ula"*[631] bəzənmiş görərüz və şəhadət gülzari "*yurzəqun, fərihinə*"[632] çiçəkləri ilən aydın baxərüz. Pəs, ölümdən nə qorxu və şəhid olməğdən nə qayğu.

Şe'r:

Mərg bir rahətdürür, ey dustlar,
Mərg edər məğzi cüda əz-pustlar.
Əsl saruyə aparur fər`dən,
Mustəfa bəylə buyurdi şər`dən.

---

[629] *Ondan [Allahdan] başqa hər şey məhv olacaqdır*. (Quran, 28: 88)

[630] *Harada olursunuz, olun, ölüm sizi haqlayacaq*. (Quran, 4: 78)

[631] *Şübhəsiz ki, axirət sənin üçün dünyadan daha xeyirlidir*. (Quran, 93:4)

[632] *Ruzi əta olunur, sevinirlər*. (Quran, 3:169-170)

Mərg canları çəkər Canan saru,
Bülbüli-ruhi çəkər bustan saru.

Pəs, ol mənzildən köç eyləyüb bir mənzilə yetdilər ki, aŋa Qətəta[633] der idilər. Şahzadə, ləşkərlərinə ol mənzildə dedi:

– Siz məndən bihilsiŋiz, dəsturiŋizi verdüm. Qayıdıŋız və hər yerə ki xatiriŋiz istər, gediŋiz ki, kufilər mənüm ilən vəfasizlik etdilər və Müslim Əqili şəhid qıldılar **[209a]** və bu iş maŋa düşübdür və bu müşkil maŋa vaqe olubdur. Sizə hiç dutmək yoxdur, qayıtdıŋız.

Bir neçələr ki vəfa yolında sabitqədəm dəgül idilər, ol həzrətüŋ xidmətini qoyub, öz yolını dutub qayıtdılar.

İmam Hüseyn (ə) fərzəndləri və qərdaşları ilən qaldılar və məvalilərdən az kimsə yerində durdı. Daxi İmam Hüseyn (ə) buyurdı:

– Ey dustlar, mən öz qəvmümdən və qəvmlərüm məndən ayrılmazlar, əmma sizə icazətdür: cələviŋizi döndərüŋ və hər yerdə ki xatiriŋiz çəkər, varuŋ ki, imdi fürsət və məcaldur.

Ol həqbilici vəfadarlar və Əhli-Beyt tanıyıcı həvaxahlar sabitqədəm olub ixlas dili ilən dedilər:

– Ya Bin Rəsulullah (s), yüz miŋ müqəddəs canlar əyağuŋ toprağına fəda olsun. Sən vilayət sipəhrinüŋ mahisən və əmanət təxtinüŋ şahi. Hər kim bu gün səndən yüzin çəvirsün, daŋla hanğı göz ilə yüzüŋə baxsun?

Şe'r:
Ey yüzüŋ müqbilləriŋnüŋ qibləsi,
Sənmisən Kövsər suyiniŋ iyəsi.
Hanğı gözlə daŋla görsün yüzüŋi
Hər ki bu gün saŋa versə arxasi.

Ya İbn Rəsulullah, biz nə dəlil ilən ətəgüŋdən ki, nicatuŋ səbəbidür, əlimizi kütah eyləyəüz və yüzimiz xidmətüŋizdən ki, mülkicavid və məhəlli-rica və ümmiddür, hanğı məmləkətüŋ yolına qədəm qoyəüz. Bəlkə biz mülk anı bilürüz ki, anuŋ sultanı sən olasən və canı anuŋçün sevərüz **[209b]** ki, sən təki cananı anda bulasən.

[633] Farsca orijinalda: *Qətqətanə.*

Beyt:
Yəxşi mülk oldur kim, anuŋ sən təki sultanı var,
Yəxşi can oldur kim, anuŋ sən təki cananı var.

Ey risalət rövzəsinüŋ reyhanı vey cəlalət gülşəninüŋ yasəməni, bizi öz vüsaluŋ bustanindən fəraq tikəninə mübtəla qılma ki, əgər aləmüŋ gülzari doptalu çiçək və gül isə, cəmaluŋ gülzarinüŋ eşqi nəzərimizdə anlar varı xardur.

Nəzm:
Ta canimizə batdı eşqüŋ tikəni, billah,
Meyl eyləməzüz hərgiz gülzarəvü bustanə.
Biz rənc əgər çəksək, səhl ola, çü səndəndür,
Hər kim hərəmi istər, varsun bu biyabanə.

Ya Bin Rəsulullah, həqiqət ilən səni tanımışuz və vəfasizlik rəsmi və əhdşikənlik qaidəsi ki, mürüvvət məzhəbində və fütüvvət ayinində rəva dəgül, bərtərəf eyləmişüz. Əgər sən məlal yeŋini bizə silkəsən, ya söhbət ətəgini bizdən çəkəsən, biz ətəgüŋdən əl götürməzüz və əgər bizi qapudən sürəsən, bacədən girərüz.

Beyt:
Öldürürsən və gər bağışlərsən,
Qoyməzüz hiç damənüŋ əldən.

Biz ki siziŋ xidmətiŋ ne`mətini bulmişüz, anuŋ şükrini yerinə yetürmək və canü baş ilən qulluğüŋdə durmək lazim və vacib olupdur və "*biş-şukri tədumun-niəm*"[634] hökmi ilən mütabiət xəttinə iradət başı qoymək gərəküz.

Beyt:
Dəvlətüŋ damənini birlə ümmidüŋ yəqəsi
Heyf ola kim, dutub anı daxi əldən qoyəsən.

Bəs məvalilər bu halətdə ağlamağə **[210a]** düşdilər və İmam Hüseyn daxi ağlayub anlarə duayi-xeyr eylədi.

[634] *Şükr etməklə nemətlər davamlı olar*. (hədis)

Əmma rəvayətdür ki, Ziyadoğlı əleyhillə`nə Məkkəyə bir casus göndərmiş idi ki, həman ki İmam Hüseyn (ə) Məkkədən Kufə sarusinə çıxa, maŋa xəbər göndərsünlər. Bu halətdə casus gəldi və peyğam gətürdi ki, şahzadə on altı gündür ki, Məkkədən çıxubdur və bu gün Bəni Sükun qəbiləsindədür. Ziyadoğlı çün bu söz eşitdi, Hürr bin Yezid Riyahi miŋ atlu ilən göndərdi ki, hər necə kim müyəssərdür, İmam Hüseyni Kufəyə gətürə və qoymasun kim, özgə yanə gedə. Hürr badiyə yolını dutub İmam Hüseyni bulmağində idi və ol yabanlərdə gəzər idi. İmam Hüseyn ol qəbilədən çıxub Kufə saruyə gedər idi. Bəni Əkrəmə qəbiləsindən bir yigit ötər ikən İmamə (ə) yoluxdı. İmam Hüseyn (ə) Kufə halını andan sordı. Ol kişi dedi:

– Ziyadoğlı ləşkərlər sənüŋ tələbiŋdə badiyələrdə sərgərdan edüpdür və Qadisiyyədən Qədibiyyəyədək[635] varı dağü səhra ləşkər durub səni istərlər. Məsləhət oldur ki, qayıdasən və Taŋrı həqqiçün ki sən getməzsən, illa qılıc və cidə tərəfinə. Və yəqin bil ki, kufilərüŋ qəvlinə və fe`linə e`timad yoxdur, bəlkə çoxı anlardurlar ki, Müslim Əqilüŋ əlində sənüŋçün bey'ət eyləyübdürlər və hala sənüŋlən Şam ləşkəri bilə səvaşə durubdurlar.

İmam Hüseyn dedi:

– Sən nəsihət şərti yerinə yetürdüŋ. Taŋrı-təala saŋa cəzayi- **[210b]** xeyr versün.

Pəs, İmam Hüseyn (ə) andan ötdi və gedər idi, ta Sirat mənzilinə yetdi.

Gecə anda qondılar, daŋlası andan rəvan oldı. Çün günəş gögüŋ ortasına yetdi, Hürrüŋ ləşkəri gördi ki, ol yabandə qonmış idilər və atlaruŋ kölgəsində qərar dutublar. Həman ki İmamuŋ ləşkərini irağdən gördilər, atlandılar və yoluŋ öginə gəlüb səf bağladılar. İmam Hüseyn (ə) anlarə [adəm] göndərdi ki, bu ləşkərüŋ bəgi kimdür?

Hürr bin Yezid ilərü gəldi və öz adın və oymağın dedi.

Əmirül-mö'minin Hüseyn (ə) buyurdı ki, ya Hürr, "*ələna əm əleyna*"[636], yə'ni bizim mədədimizə gəlübsən, ya səvaşimizə.

---

[635] Farsca orijinalda: *Qədib*.

[636] *Bizimləsən, ya üstümüzə [gəlmisən].*

Hürr dedi:

– Əleykum, sizüŋ uğraşməğə gəlübəm.

İmam Hüseyn (ə) dedi: "*La hovlə vəla quvvətə illa billahil-əliyyul-əzim*"[637]. Andan dedi:

– Ey Hürr, xiyaluŋ nədür?

Dedi:

– Ziyadoğlı məni göndərüpdür ki, səndən ayrılmayam və qoymayam ki, özgə yanə gedəsən, ya qayıdub Məkkə tərəfinə rəvan olasən, bəlkə sənüŋlə bilə olam Kufə dərvazəsinədək.

İmam gögə baxdı, gördi ki, günorta nəmazı çağıdur. Dedi:

– Ey Hürr, nəmaz vəqtidür, atdan en və ləşkərüŋ ilən nəmaz əda qıl, ta mən daxi öz qəvm və ləşkərüm ilən nəmazə məşğul olalım.

Hürr dedi:

– Ya Bin Rəsulullah, sən ilərü get və imamət eylə, ta iki ləşkər sənüŋ ardüŋdə nəmaz qılsunlar ki, sən imami-zəman və hadiyi-ünsü cansən və bu beytləri əda qıldı.

Nəzm:

[211a] *Nəmazlar içində mənüm müqtədamsan,*
Budur niyyətüm, ta cəhandə diriəm.
Sənüŋ düşmənüŋ filməsəl gögə çıqə,
Bilür Taŋrı kim, qiblə səndən bəriəm.

İmam Hüseyn (ə) aŋa dualar qılub, atdan enüb günorta nəmazı əda qıldı. Andan əyağə qalxub, qılıcinə dayanub bir xütbə əda qıldı və dedi:

– Ya əyyuhan-nas, mən öz ixtiyarum ilən bu tərəfə meyl etmədüm və bu yanə gəlmədüm, ta elçilər gəlmədilər və namələriŋizi peyapey maŋa gətürmədilər ki, türkən bu məmləkətə təvəccöh eylə ki, imamsız qalubuz və kimsəmiz yox ki, aŋa iqtida eyləyəüz. Əgər sən bizim içimizdə olәsən, iki dünyanuŋ işimizi müyəssər olacəqdür. Mən sizüŋ sözüŋizə e`timad eyləyüb burayə gəlübəm. Əgər əhdiŋizə durub, qəvlüŋiz həm ol qəvldür, ta mən sizünlən xürrəm və şadiman

[637] *Güc və qüvvət yalnız uca və böyük olan Allaha aiddir.*

Kufəyə girəyim və əgər sözüŋizdən dönüb, qəvliŋizdən pəşiman olub, əhdüŋizə e`timad yoxdur, cələvi döndərüb özgə tərəfə varam.

Hürr dedi:

– Ey İmam Hüseyn (ə), Taŋrı bilür ki, mən ol bitiklərdən xəbərsizəm.

İmam Hüseyn (ə) dedi:

– Çox kimsələr sənüŋ ləşkərüŋdə vardurlar kim, anlaruŋ bitigi mənüm ilən bilədür.

Bəs buyurdı kim, nameləri hazir etdilər və açub oxudılar. Anlardan neçəsi başını aşağə salub münfəil oldılar. Bəs, İmam Hüseyn (ə) ikindü nəmazə durub cəmaət ilən nəmazı əda qıldı. Nagah bir cəmmazəlü gəldi və Hürrüŋ yanında enüb Ziyadoğlınuŋ bitigi Hürrə verdi, **[211b]** yazılu bu kim, hər mənzildə ki, bu bitigi saŋa yetə, İmam Hüseyni bir yurtda ki, anda su və ot olmaya, qondur. Hürr ol naməni İmam Hüseynə (ə) verdi ki, munı oxuyub baxgilən ki, Ziyadoğlınuŋ nə ciddü cəhdi var səni dutməkdən və mən öz işimə heyran qalubəm. Əgər buyruğin dutmayam, qılıcindən qorxaram və əgər sənüŋlən dolaşam, nəuzübillah, Taŋrı və Rəsulindən utanuram. Bəs ləşkərindən gizlü dedi:

– Ya İbn Rəsulullah, Hürrüŋ əli kəsilmiş ola, əgər saŋa qılıc çəkə və gözləri qoparılmış ola, əgər xəyanət ilən saŋa baxa və mən bu yoldan ki gəlür idim, hiç daş ilə kəsəgə yetmədüm, illa ki anlardan bir ün eşitmədüm ki, maŋa bəşarət verür idilər uçmağə və mən özümə der idim: Vay maŋa, Rəsulullah oğlınuŋ səvaşinə gedərəm. Bu, nə bəşarət və muştuluqdur, imdi müxaliflər və düşmənlər mənüm ilən bilədürlər. Zərurətdən sənüŋ ilən bilə olmaq gərəkəm. Əgər məsləhət isə, bilə atlanalım və neçə ağac yol gedəlim və bir yerdə qonalım. Siz hərəmüŋ bəhanəsi ilən irağdə qonuŋız. Həman ki xəlq uyusunlar, siz duruŋız və yolı döndərüb hər tərəfə ki meyliŋiz çəkər, dəvlət və səadət ilən rəvan oluŋız. Çün səbah olub ləşkər oyana, mə`lum olsun ki, siz getmişsiŋiz. Bu yabanda bir parə yer gəzəlim və siziŋ getməŋizi bəhanə eyləyüb dönəlim.

İmam Hüseyn (ə) aŋa dua eyləyüb atlandılar və iki ləşkər bilə yeriyüb həman ki gecədən iki daŋ keçdi, qondılar. Çün Hürr və ləş-

kəri yatub uyudılar, İmam Hüseyn (ə) **[212a]** qalxub öz adəmi ilə badiyəyə yüz qoydılar. Və ol gecə bir qəraŋğulu gecə idi. Daŋadək at sürdilər. Həman ki sübh olub aydın oldı

Beyt:
Gəldi sübhü öz əlamatin hüveyda eylədi,
Hər nə kim gizlədi gecə, aşikara eylədi.

İmam Hüseynüŋ (ə) atı bir yerə yetüb durdı. Hər necə kim İmam aŋa qəmçi urdı, ol at əyağı əyağindən götürmədi. Şahzadə (ə) dedi:

– Hiç kimsə var ola ki, bu yerüŋ adını mə`lum eyləmiş ola?

Bir kişi dedi:

– Muŋa ərzi-badiyə derlər.

İmam Hüseyn (ə) dedi:

– Bulay kim, bir adı daxi var ola?

Həsin dedi ki, bu mənzilüŋ adı Kərbəladur. İmam Hüseyn dedi: *"Allahu əkbər ərzu kərəbin və bəla"*[638], yə'ni bu, Kərbəla yeridür və bizim qanımızuŋ tökmək mənzilidür.

Nəzm:
Bu yerüŋ adı gər bəyəqin Kərbəla ola,
Munda nəsibimiz həmə kərbü bəla ola.
Həm mundadur ki, bizğə cəfavü sitəm keçə,
Həm mundadur ki, matəmi-ali-əba ola.
Xatunlə qızlarum burada qalalar zəlil,
Səfdərlərümnüŋ arxasi munda du ta ola.
Töksünlər abi-çeşm mənümçün təmami-ömr,
Hər quşla balığı ki, suda, ya həva ola.

Əli Əkbər (ə) ilərü gəlüb dedi:

– Ey uluğ ata vey bərgüzideyi-ali-əba, bu, nə fallardur ki, özüŋizə və bizə urarsən.

İmam Hüseyn (ə) dedi:

[638] *Allah böyükdür, [bura] dərd və bəla torpağıdır.*

– Ey oğul, mən cəddüŋ ilən, yə'ni əmirül-mö'minin Əli (ə) Siffiŋ ğəzasindən ki dönərdük, burayə yetübəm və əmirül-mö'minin munda atından enüb, başını qərdaşum **[212b]** İmam Həsən (ə) ətəgiŋə qoydı və uyudı. Mən anuŋ yanında[639] oturmış idim. Nagah oyanub ağlar idi. Qərdaşum dedi:

– Ya əbətah, saŋa nə oldı?

Dedi:

– Düşdə gördüm ki, bu yaban doptalu qandan bir dəŋiz idi və mənüm Hüseynüm ol dəŋizə düşüb əl-əyağ urar idi və hiç kimsə anuŋ ğurinə və fəryadinə yetməz idi.

Andan mübarək yüzini maŋa eyləyüb dedi:

– Ya Əba Əbdullah, bu səhradə saŋa bir böyük vaqiə əl verəcəkdür.

Dedim:

– Neylim?

Dedi:

– Səbr eylə ki, təhəmmüldən özgə hiç çarə bulmanam.

Daxi dedi ki, səbr eyləyənlərüŋ səvabı hesabə gəlməz: "*İnnəma yuvəffas-sabirunə əcrəhum bi-ğeyri hisab*"[640].Taŋrıdur sabirlərüŋ yarı[641] və bizə əmr qılmış mihnətə səbr etməğə.

Pəs İmam Hüseyn (ə) buyurdı kim, devələri yatduruŋ və yükləri çizüŋ və çadırları tikiŋ kim

Şe'r:

Qanımız munda tökülür, siz duruŋ yüklər çizüŋ,
Kərbəla toprağıdur ərlər kibi daŋla gezüŋ.
Cə'fəri-Təyyar uşağları şəhid olasıdur,
Dünyadən Peyğambər alı naümmid olasıdur.
Tilkü kibi məkr edüb ol şum itlər dəmbədəm
Öldürürlər Şiri-Həqqüŋ oğlı cövr ilə sitəm.

---

[639] Əlyazmada: *yaşında*.

[640] *Yalnız səbr edənlərə saysız-hesabsız mükafat veriləcəkdir*. (Quran, 39: 10)

[641] Əlyazmada: *yar*.

Andan soŋra İmam Hüseyn (ə) əyağını atdan çəvirüb[642] həm anda endi. Əmma çün İmam Hüseynüŋ qədəmi Kərbəla toprağına dəgdi, toprağuŋ rəngi sarardı və bir toz andan çıxdı kim, İmam Hüseynüŋ müşkbuy saçı tozlu oldı. Ümmü Külsüm dedi:

– Ey qərdaş, əcəb haləti görərəm və bu yeldən ki əsər, böyük qorxu **[213a]** köŋlümə dəgər.

Beyt:

Bu yeldən yürəgümə heybət dəgər,
Anuŋ zərbəti çoq bağırlər dələr.

İmam Hüseyn (ə) qızqərdaşını təsəlli verüb Şəhrbanuyi çağırdı və vəsiyyət ilə dedi:

– Ey mənüm hər qayğudə qəmgüsarum və hər işdə yari-vəfadarum, həman ki məni bu yerdə görəsən atdan düşmiş və baş ilə yüz sınmış və gəvdə qılıc zəxmi və ox və cidə uci ilən parə-parə olmış, zinhar kim, baş ilən yüzüŋi açub yırtməyəsən ki, düşmənlərüŋ tə`nəsi müsibətdən bətərrakdur.

Çün Əhli-Beyt bu sözi eşitdilər, qamusı xüruş ilə cuşə gəlüb əfğanlar çəkdilər və dedilər:

– Ey seyyidü sərvər, bu, nə dilsuz xəbər və nə qəmənduz sözdür ki, verürsən və nə qayğulu dügündür ki, bu qərib yetimlərüŋ köksinə qoyarsən.

Beyt:

Bu, nə sözdür ki, köŋüllər qamusı xun qılduŋ,
Yaşdan gözlərimiz Dəcləvü Ceyhun qılduŋ.

Şahzadə (ə) dedi:

– Çün əzəldən bəylə müqərrər olubdur, çarə yoxdur, illa ki səbr eyləyüb Taŋrıyə yalvarəsiz.

Bəs, İmam Hüseyn orada buyurdı ki, çadırları tikdilər və Fərat çayınuŋ qırağında qondılar.

---

642 Əlyazmada: *çəvrilüb.*

"Nurül-əimmə" rəvayət eyləyübdür ki, İmam Hüseyn (ə) bir namə Kərbəladən Süleyman bin Sürəd Xüzaiyə yazdı ki, sən bitiklər yazub göndərdüŋ və mənüm gəlməgümə istida qılduŋ və budur ki, mən gəlübəm. Əgər mənüm ilən yarilik eyləyüb əhdlərüŋə vəfa eyləyəsən, mürüvvət **[213b]** qaidəsi yerinə gətürmiş oləsən. Və əgər vəfasizlik edüb illət təbiətə qoyəsən, bu surət Kufə əhlindən qərib dəgül ki, qərdaşum ilən əmmüm oğlına vafasizlik etdiŋiz, haliya düşmən çərisi yollarum dutubdurlar. Əgər yarilik eyləyəsiz, xub və illa mən Taŋrınuŋ qəzasinə riza verüb, "*ər-riza bil-qəza babullahul-ə`zəm*"[643] mərsədinə istitaət qədəmi ilən durubəm.

Beyt:
Taŋrınuŋ hökminə riza vermək
Cənnətə girdürür kişini bişəkk.

Bəs, naməni Qeys Ərabiyə verüb Kufəyə rəvan etdi. Yolda yolsaxlayıcılar anı dutub Ziyadoğlı yanına apardılar. Həman ki gözi Ziyadoğlına yetdi, qoynından naməni çıxarub yırtdı. Ziyadoğlı dedi:

– Bu, nə kağız idi ki, yırtduŋ?

Dedi:

– Bir namə idi ki, gətürici mən idim.

Dedi:

– Nişün yırtduŋ?

Dedi:

– Ta sən oxumayəsən ki, dustlar sirri düşmənlərə faş etmək ədəb şərti dəgül.

Ziyadoğlı dedi:

– Sən iki işdən birisin eyləmək gərəksən, ta mənüm əlümdən xilas oləsən. Ya ol kimsələr ki bitik anlaruŋ adlarına gətürmiş idüŋ, maŋa deyəsən, ya minbər üstinə varub İmam Hüseyn və qərdaşlarına nasəza edəsən və məni və Yezidə kim ikisinə üç miŋ lüğəti-sitayiş qılasən. Qeys dedi:

[643] *Qəzavü qədərlə razılaşmaq Allahın ən böyük qapılarındandır.*

– Bitik sirrini faş etmək mümkin dəgül, əmma minbər üsnə varayam. Sən öz qəvmlərüŋi **[214a]** cəm` eylə cümə məscidində və məni minbərə çıxart, ta bildügümi deyəm.

Bəs, Ziyadoğlı carladı kim, xəlayiq cümə məscidində hazir olsunlar və minbəri məscidüŋ ortasında qoydılar. Qeys minbər üstinə çıxub, Taŋrıyə çox həmd və sitayiş dedi və Mustəfa və alinə (ə) səlavatlar göndərdi və ənbiya və övliyanuŋ çəkdügi məşəqqətlərindən neçə hədis rəvayət etdi. Andan dedi:

– Ey qəvm, biliŋiz ki, mən İmam Hüseynüŋ (ə) elçisiəm və məni göndərübdür ki, bu məmləkətüŋ xəlayiqindən anuŋçün bey′ət alam ki, ol Yeziddən yəxşiraq və əhəqq və əvladur xilafətə və imamətə kim, Mustəfanuŋ fərzəndidür və hala düşmənüŋ ləşkəri çoxdur. Zehi səadət və dəvlət ol kimsəyə kim, bəladan qorqmayub Kərbəlayə yüz qoysun.

Beyt:
Eşqüŋ yabanı doptaludur qəmdən və ələm
Əslanyürəklü kimsə gərəkdür ki, qorxmaya.

Andan soŋra qalxub Yezid və alinə və ətbainə lə`nətlər rəvanə qıldı və təvəlla və təbərra şərti yerinə gətürdi. Kufənüŋ əhlindən qovğa çıxdı. Ziyadoğlına bu xəbəri yetürdilər, buyurdı kim, anı minbərdən endürüb darül-imarət köşki damına çıxarub şəhid etdilər.

Çün anuŋ şəhidliğ xəbəri İmam Hüseynə (ə) yetdi, anuŋçün çox ağladı və duayi-xeyr eylədi. Və çün Ziyadoğlı eşitdi ki, İmam Hüseyn (ə) Kərbəladə qonubdur, bir namə İmam Hüseynə (ə) yazdı, **[214b]** məzmuni bu ki, Yezid maŋa namə göndərübdür ki, əgər İmam Hüseyni buləsən, ya anuŋ xəbərini eşidəsən, gərək kim, döşəkdə yatmayub, doyincə əkmək yeməyüb su içməyəsən, ta anı mənüm bey′ətümə razi eyləyüb əldən qoyəsən və əgər qəbul etməyə, başını kəsüb mənüm yanümə göndərəsən. İmdi, ey İmam Hüseyn (ə), mən səni ögütlərəm: sözümi eşit və gəl və Yezidə bey′ət eylə və əgər bəylə eyləməzsən, səvaşə mühəyya ol.

Cün bu naməni İmam Hüseynə (ə) yetürdilər, oquyub yerə saldı və dedi:

– Yamandur ol taifənüŋ halı ki, bəndənüŋ rizası Taŋrınuŋ qəzəbinə ixtiyar eyləyə.

Beyt:

Dünyayə yüz qoyubən üqbayə arxə verələr,
Xəlqi xoşnud edələr, damuyə dübdüz girələr.

Pəs, Ziyadoğlınuŋ elçisi namənin cavabin istədi. İmam Hüseyn (ə) dedi:

"*Və ma-ləhu indi*[644] *cəvabin fəqəd həqqət əleyhi kəlimatul-əzab*"[645] – anuŋ naməsi məndən cəvabı yoxdur və səzası kəlmeyi-əzabdən özgə yox.

Elçi qayıdub, İbn Ziyad yanına gəlüb naməni yerə atdügi və cəvabini yazmadügi xəbər verdi. Ol əzəl və əbədüŋ məl`uni və şəqiyi-dədi-duni və mərdudi-Həqq və məl`uni qəzəbə varub məclis əhlinə dedi:

– Sizdən kim ola ki, İmam Hüseynüŋ səvasinə getmək qəbul eyləyə və Əraqdən hər məmləkət ki, istər ola, anuŋ bəgligini aŋa ərzani qılayım.

Hiç kimsə cəvabini vermədi. İki qatla və üç qatla mükərrər dedi, kimsə qəbul etmədi. Andan Ömər Səʿdi ki, filhəqiqət bir nəhs idi, **[215a]** çağırdı və dedi:

– Çox müddətdür ki, eşidürəm ki, Rəy məmləkətinüŋ bəgligini etməg[646] xatirüŋdə var və bitəkəllüf ol məmləkət bir böyük yerdür və malı və xəracı çox. İmdi istərəm ki, Rəy və Təbəristan bəgligini saŋa ərzani edüb nişani yazdurayım və sənüŋ müddəaŋ hasil edəyim.

Ömər Nəhs təkəllüf etdi. Ziyadoğlı buyurdı kim, Rəy və Təbəristan vilayətinüŋ hökümətini anuŋ adına yazdurub gətürdilər və aŋa xəl`ətlər geydürdi və bir at geyimlü-geçimlü aŋa çəkdilər. Pəs dedi:

– Ey Ömər, mən saŋa bəglərbəgilik verdüm və imdi Rəy bəgi olduŋ və əlli yük nəqd aqça saŋa bağışlaram. Bunlar qamu ol şərt

---

[644] Əlyazmada bu söz əvvəlkindən *(ləhu)* qabaq yazılmışdır.

[645] *Onun məktubuna cavabım yoxdur, çünki o, əzab qazandı.*

[646] Əlyazmada: *etməgə.*

ilən ki, Kərbəlayə varub İmam Hüseyndən Yezid içün bey'ət alasan, yox isə anuŋ başını qəvm və qərdaşları ilən kəsüb maŋa göndərəsən.

Öməri-məlˀun dedi:

– Ey bəg, bu, bir böyük işdür və tədbirsiz və canğısız bu işə girmək olmaz. Maŋa dəstur ver, ta varub öz adəmüm ilən məşvərət edəyim.

İbn Ziyad dedi:

– Var və xəbər tezrak maŋa yetür.

Ömər Nəhs İbn Ziyaduŋ xassə xəl`əti geyüb, kutəl atına minüb, Rəy məmləkətinüŋ mənşuri əlində evinə girdi. Fərzəndləri çün anı bu surət ilə gördilər, dedilər:

– Ey ata, bu at və bu xəl`ət xandandur və əlüŋdəki namə və bitik [nədür?]

Dedi:

– Ey oğullar, bir böyük dəvlət bizə yüz qoyubdur kim, anuŋ payani yoq və bir səadət yulduz taleimiz bürcinə girübdür kim, nəhayəti bəllü dəgül.

Beyt:

Bəxtüm bu gün müvafiq olub, dəvlətüm gəlür,
İqbal qoydi yüz və səadət bizimküdür.

[215b] *Bir gündürür bu gün ki, çoq illər dilər idüm,*
Bu fikrüŋ atinə neçə müddət minər idüm.

Mə`lum eyliŋiz ki, Übeydullah Ziyad ləşkərinüŋ sipəhsalarligini maŋa ərzani qılub, xass xəl`əti və yüyürən (?) kutəli maŋa şəfəqqət etdi və Rəy və Təbəristan məmləkətiniŋ bəgligin adümə yazdı ol şərt ilən ki, varub İmam Hüseyn ilən səvaşəm.

Kiçi oğlı həman ki munı eşitdi, dedi:

– Heyhat, heyhat, bu, nə mühal xiyaldur ki, köŋlüŋ aŋa bağləyübsən. Hiç bilürsən kimüŋ uğraşinə gedərsən? Ali-əbanuŋ düşmənliğ kəməri belüŋə bağlərsən və İmam Hüseyn ilən ki, Mustəfanuŋ bağırparəsi və Murtəzanuŋ gözi nuri və Fatimeyi-Zəhranuŋ köksi sərvəridür, xüsumətlik eylərsən. Sənüŋ ataŋ ki, Səˀd Vəqqas idi, öz canını bunlaruŋ cəddinə fəda eylər idi və sən bunlaruŋ qəsdinə gedərsən.

Taŋrıdan qorx və Qiyamət şərmsarliğindən utan və Mustəfa və Murtəza və Fatimeyi-Zəhranuŋ (ə.s) cəvabini amadə ol ki, çün səndən sorələr ki, nişün mənüm Əhli-Beytüm ilən xüsumət eyləyübsən, nə üzr gətürüb, nə bəhanə edəcəksən? Daxi ol kim, sən üç namə öz əlüŋ ilən yazub ol həzrətə göndərübsən və ol sənüŋ sözüŋə və bitigüŋə e`timad eyləyüb, bu tərəfə gəlübdür, imdi sən anuŋ canibinə qəsd eylərsən? El səni qəddar və nabəkar və qərayüzlü təbahkar və Xaliqüŋ mərdudi və Əhmədi-Muxtar və Heydəri-Kərrarуŋ (ə) mətrudi oxusunlar və Əhli-Beyt dustları Qiyamətədək **[216a]** saŋa lə`nət və nifrin və nasəza həvalə eyləyəcəkdürlər.

Misra:[647]
Eyləmə bu iş ki, hiç kimsə muni görməz rəva.

Ömər Nəhs yüzi andan döndərüb böyük oğlına dedi:

– Sən nə dersən?

Ol məl'ununuŋ xass fərzəndi dedi:

– Qərdaşum hər nə dedi, doğru der, əmma dedügi nisyədür. Ol nəstə ki Ziyadoğlı verür, nəqddür və hiç aqil nəqdi nisyəyə verməz və haziri qayibə ixtiyar eyləməz.

Beyt:
Rayigan nəqdi verməgil əldən,
Nisyədən fariğ ol, təmə' kəsdür.
Zira kim derlər, abkameyi-nəqd
Yegdür ol baldan ki nisyədürür.

Hala dünya malı ixtiyar eylədük, ta axirətüŋ işi nərəyə yetə?!

Bəs, daŋlası Ömər Nəhs darül-imarətə varub dedi:

– Razi oldum İmam Hüseynüŋ qətlinə və anuŋ ilən səvaşub Əhli-Beytini əsir eyləməginə.

Ziyadoğlı bu sözdən sevinüb, beş miŋ nakəs aŋa tabın eyləyüb Kərbəlayə göndərdi. Çün şəhrdən çıxdı, bir kimsə aŋa dedi:

---

[647] Əlyazmada: *Beyt*.

– Ya Bin Səʾd, Taŋrı Rəsuliniŋ oğlına səvaş niyyəti ilən gedərsən? Bil kim, Hüseynüŋ səvaşı dünyadə ar və infial mövcibidür və axirətdə damuyə getmək səbəbi və odə girmək cəhəti. Əmma Rəy hökuməti maddeyi-zövqü hüzur və vasiteyi-eyşü sürurdur.

Ömər Nəhs munda neçə beyt dedi kim, Əbül-Məfaxir anuŋ tərcüməsi bu vəch ilən eyləyübdür.

Şe'r:

Ərəb içində məni oxudi Übeydullah,
Oxudüğindən anuŋ maŋa düşdi naləvü ah.
Rəyüŋ hökuməti dedi, Hüseyn hərbi daxi
Qəbul qıl ki, saŋa verürəm çərilə sipah.
Rəyüŋ imarətini istərəm, vəli qorxərəm,
[216b] *Odur ki bigünəh öldürsəm, ol əmini-İlah.*
Necə qılıc çəkəm ol həzrətüŋ yüzinə ki, var
Şücaətü nəsəbü elm içində şahənşah.
Anı şəhid qılan mənzili cəhənnəmdür,
Kim etsə bəylə əməl, Həq yanındadur gümrah.

Rəvayətdür ki, Həmzə bin Müğeyrə ki, Ömər Nəhsüŋ qızqərdaşı oğlı idi, gördi ki, dayısı İmam Hüseynüŋ (ə) səvaşinə əzm cəzm eyləyübdür, yanına varub dedi:

– Ey dayı, İmam Hüseynüŋ (ə) uğraşinə ki, kəbirə günahi və müstəlzəmi-qətʿi-nəslü rəhim və qəddarlik və vəfasizlik səbəbidür, gedərsən. Nişün bu işi qəbul eylədüŋ?

Dedi:

– Əgər bu hərbi eyləməyəm, Rəy məmləkətinüŋ hökuməti maŋa yetməz.

Həmzə dedi:

– Taŋrınuŋ həqqiçün ki, saŋa Rəy bəgligini tərkin etmək və dünyadən getmək mundan yegdür ki, daŋla Taŋrıyə varub, İmam Hüseynüŋ qanı boynuŋda ola.

Ömər Nəhs uzun fikr və xiyalə düşüb istər idi kim, bu əzmi bərtərəf eyləsün, soŋra bəglik etmək və Rəy məmləkətinüŋ hökumətini eyləmək bəsirət gözini örtdi. Və beş miŋ atlu ilən yəyağ Kərbəla-

yə yüz qoyub rəvan oldı. Və İmam Hüseynüŋ qarşusində qonub, İmam Hüseynə (ə) adəm saldı ki, bu yerə gəldügüŋ səbəbi nə idi?

İmam Hüseyn (ə) dedi:

– Sən ilən qəvm və qərdaşuŋ və bitün Kufənüŋ elləri ilə oymağuŋ bitiklər və peyğamlar göndərdiŋiz və məni çağırub mübaliğələr qıldıŋız. Mən əvvəl sözləriŋizə e`timad etməyüb hiçə dutdum. **[217a]** Soŋra çün elçiləriŋiz peyapey gəldi, təvəccöh eylədüm və gəldüm və siz mənüm əmmüm oğlına – Müslimə yariliğ qılmadıŋız, ta zarilik ilən şəhid eylədilər. Hala mən çün bu nəqz əhdi gördüm, istərəm ki, qayıdam, əgər mən` etməyəsiz.

Ömər Nəhs bu sözdən sevinüb özinə dedi: Vəqt ola ki İmam Hüseyn ilən Ziyadoğlı aralarında sülh və barışməg düşə və səvaşə iş düşməyə.

Bəs, bitiklər Ziyadoğlına yazdı və İmam Hüseynüŋ (ə) dedügi və istədügi ərz etdi. Ziyadoğlı aŋa cəvab yazdı ki, Yezid bey'əti aŋa ərz et. Əgər qəbul eylədi, həqiqətin maŋa e`lam eylə, yox isə mənüm buyurduğümə əməl et. Ömər Nəhs bildi ki, İmam Hüseyn anuŋ dedüginə qəbul eyləməz və Ziyadoğlı İmamuŋ (ə) qayıtduğinə razi olmaz. Naməni İmam Hüseynüŋ (ə) qulluğinə göndərdi.

İmam Hüseyn (ə) dedi:

– Mən hərgiz Ziyadoğlınuŋ dedüginə əməl etmənəm və itaət qılmanəm.

Çün bu xəbər Ziyadoğlına yetdi, qəzəb eyləyüb Həsin bin Həmir və Şəbib bin Rəb`i və Şimri-Zilcövşən neçə atlu ilən yəyağ Ömər Nəhsüŋ mədədinə göndərdi və peyğam etdi ki, Fərat suyi İmam Hüseynə (ə) və ləşkərinə bağlasunlar, ta ol çağ ki Yezid içün bey'ət eyləyə. Pəs, Ömər Nəhs Əmr bin əl-Həccac beş yüz cəhənnəm itləri ilən göndərdi ki, suyi zəbt eyləyüb, İmam Hüseynüŋ adəmi sudan mən` eyləyələr.

Pəs, andan köçüb İmam Hüseyni (ə) **[217b]** sunuŋ qırağından irağ eylədilər və İmam Hüseyn (ə) öz çadırı badiyə tərəfinə tikdi və bu surət üç gün İmami-məzlumuŋ şəhadətindən ilərü vaqe oldı.

Əmma çün susizlik İmam Hüseynüŋ (ə) adəminə qalib oldı, öz qərdaşı Əbbas bin Əli (ə) otuz atlu ilən igirmi yəyağ su ardına göndərdi və Əbbas Əmr ilən səvaşub, anı irağ eyləyüb, tuluğları sudan

doldurub ləşkərinə gəldilər. Çün gecə oldı, İmam Hüseyn (ə) Ömər Nəhs yanına adəm saldı kim, istərəm ki, bu gecə sənüŋlən bir mülaqat eyləyəm. Ömər Nəhs anı qəbul eylədi, bir neçə naibləri ilən ləşkərindən çıxub ilərü gəldi və İmam Hüseyn (ə) qərdaşı ilən Əbbas və oğlı ilən Əli Əkbər atlanub gəldi və Ömər Nəhsüŋ qarşusinə durub dedi:

– Veyhək, ey Səʾdüŋ oğlı Ömər, Taŋrıdan qorxmazsən ki, mənüm uğraşümə gəlübsən və sən bilürsən, mən kimüŋ oğliəm. Bu işdən tövbə eylə və bu yaman xiyaldən pəşiman ol ki, qəddar dünyanuŋ cifasi hiç kimsəyə qalmayubdur. Sən dəxi anuŋ ilən məğrur olma.

Şeʾr:

Vəfa gənci yoxdur bu toprağdə
Mən incə ki baxdum solü sağdə.
Cəhan süfrəsindən təmə`ni götür,
Çənağinə əl sunma kim, boşdurur.

Bu bədnamliği özünə rəva görmə, cəhanuŋ işvəlü gəlininə köŋül vermə.

Misra*:*
Ki, bu gəlin neçə miŋ kurəkani görmişdür.

Ömər Nəhs dedi:

– Ya İbn Rəsulullah (s), hər nə kim dedüŋ, qamu sidq **[218a]** və həqq və doğrudur. Əmma qorxaram ki, əgər qulluğuŋa gələm, yurt və məqamum ki Kufədədür, xərab eyləyələr.

İmam (ə) dedi:

– Dünyanuŋ imarətləri əylə gökcək dəgül ki, kimsə aŋa köŋül bağləyə. Əgər sənüŋ ucə köşküŋ dünyadə viran eyləsüŋlər, cənnətdə rəfi köşklər sənüŋ içün bəna eyləyələr və əgər mənüm ilə bilə olasən, bir ev ki andan yeg olmaya, saŋa verəyim.

Ömər Nəhs dedi:

– Kufədə milk və əmlakum çoxdur və qorxaram ki, Ziyadoğlı anları təsərrüf eyləyə.

İmam (ə) buyurdı ki, əgər ol bəylə isə, mən Hicazdan bir məzrəə saŋa bağışlayım ki, yüz ancılayın dəgə. Ömər Nəhs başı aşağə salub daxi hiç cəvab vermədi.

İmam (ə) dedi:

– Var-get ki, mən Taŋrı-təalayə dayandum və ümmidim oldur ki, məndən soŋra muradə yetməyəsən.

Və əylə oldı ki, ol həzrətüŋ mübarək dilinə keçdi, ce az müddətdən soŋra Muxtar Əbu Übeydə Ömər Nəhsi nacəvanmərd oğlı ilən Həfzi ki, atası İmam Hüseynüŋ hərbinə Rəy məmləkətinüŋ xatiri içün cəhd etdi, it kibi öldürdi və "Muxtarnamə" kitabında şərhləri qamu yazıludur.

Əmma çün şahzadə qayıtdı, Bərir bin Həsin Həmədani ki, aləmüŋ zahidlərindən birisi idi, İmamuŋ qarşusinə gəlüb sordı kim, ya Rəsulullah fərzəndi, neylədüŋ?

Dedi:

– Ömər Nəhsi ögütlədüm, sözümi qəbul etmədi.

Bərir dedi:

– Mən daŋla yanına varub neçə nəsihətlər verəyim. Olay kim, qəflət panbuği qulağından çıxaram və sözlərümi qəbul eyləyə.

İmam Hüseyn (ə) dedi **[218b]** ki, məsləhət sənüŋdür. Bərir çün icazət aldı, hini-səbah Ömər Nəhsüŋ ləşkərinə vardı və ol həzə çadırında idi. Bərir icazətsiz içəri girdi və səlam verməyüb oturdı.

Ömər Nəhs qəzəbə varub dedi:

– Ya əxa Həmədani, saŋa nə oldı kim, maŋa səlam vermədüŋ? Məgər mən müsəlman dəgüləm.

Bərir dedi:

– Rəsulullah (s) buyurubdur: "*Əl-muslimu mən səlimə-muslimunə min yədihi və lisanihi*"[648], yə'ni müsəlman ol kimsənədür ki, müsəlmanlar anuŋ əlindən və dilindən imən olalar. Sən munda Peyğambərüŋ Əhli-Beytinə su bağlayubsən və anlaruŋ məzəmmətinə dil uza-

[648] *Müsəlman o kəsdir ki, [digər] müsəlmanlar onun dilindən və əlindən salamatdırlar.* (hədis)

dub səvaşlarinə gəlübsən və Peyğambərüŋ Əhli-Beyti və itrəti qarşusinə ləşkər çəkübsən, necə müsəlman olasən?

Misra:

Taŋrıdan xəlqi sənüŋ şərmü həyaŋ yoq.

Ömər Nəhs başını aşağə salub bir zəmandən soŋra dedi:

– Ey Bərir, bilürəm ki, hər kim anlar ilən səvaş edüb həqlərini təsərrüf eyləyə, bişəkk, anuŋ yeri cəhim və cəzası əzabi-əlim olacaqdur. Əmma Rəy mülki tərk edəməzəm və hökumətdən köŋül götürəməzəm.

Bərir dedi:

– Hər kim Rəy məmləkətinüŋ hökumətinə təmə` bağladı, Taŋrınuŋ rizasından irağ olur və səadət atını nikbət qılıcı ilən öldürmiş ola və dərgahdən şeytani-rəcim kimi sürülmiş ola.

Nəzm:

Dutdum ki, ruzigar səni miri - Rəy qıla,
Axir nə mərg nameyi-ömrüŋni təy qıla,
Qarun kipi, dutam, yığəsən gənc, çün vəfa
Qılmadı dəhr aŋa, saŋa daxi kəy qıla.

[219a] Pəs, Bərir anuŋ yanından naümmid qalxub dışxarı gəldi və şahzadəyə xəbər göndərdi kim, ol qəra gilimlü damu əzabı uçmağuŋ nəimi və səvabinə ixtiyar eyləyübdür.

[*Beyt*]:

Kimüŋ ki bəxti-gilimi əzəldən oldı qəra,
Xızr suyilə anı qılmağ ağ, müşkildur.

Əmma çün Şimri-Zilcövşən eşitdi ki, Ömər Nəhs iki gecə İmam Hüseynüŋ (ə) xidmətinə varub, aralarında sözlər keçübdür, filhal Kufəyə Ziyadoğlı yanına bitik yazdı ki, Ömər Səʿd ilən İmam Hüseynüŋ aralarında bitiklər gedər və gəlür və iki gecə özi varub İmam Hüseyn ilən (ə) mülaqat qıldı və tədbirlər eyləyübtürlər və daxi edərlər və həqiqəti mə`lum dəgül.

Ziyadoğlı Ömər Nəhsə bir namə yazdı ki, mən səni İmam Hüseynüŋ (ə) səvaşinə göndərübəm, nə söhbət eyləmək içün. Eşitdüm ki, ikiŋiz bilə oturub məsləhətlər görərsiz və arada bitiklər gəlür və gedər. Əgər buyurduğum iş əlüŋdən gəlməz, Rəy nişanı ki, sənüŋ adına yazmışam, maŋa göndər və bəglərbəgilik Şimri-Zilcövşənə tapşur. Həman ki bu namə Ömər Nəhsə yetdi, çox qayğulu olub, İmam Hüseynüŋ cənginə köŋül qoydı.

Rəvayətdür ki, ol mühərrəm ayınuŋ səkizinci gün idi və İmam Hüseynüŋ (ə) ordusində su qalmamış idi və qamu susiziliğə mübtəla qalmış idilər və uşağlar "*əl-ətəşu*"[649] fəryadı çıxarur idilər.

İmam Hüseyn (ə) qalxub bir mövzeə təşrif ərzani qılub dedi:

– Bu yeri qazuŋ.

Həman ki bir parə toprağ götürdilər, bir bulağ peyda oldı suyi şirin və xoşgüvar. Ləşkərlər qamu andan su **[219b]** içüb tuluğları doldurdılar və dəvarlarə su verdilər. Həm ol saətdə ol bulağ[650] napədid oldı. Nə qədr ki daxi istədilər, andan nişan bulmadılar. Bu nişanələr ol həzrətüŋ kəramatindən idi.

Çün bu xəbər Ziyadoğlına yetdi, Ömər Nəhsə yazdı kim, İmam Hüseynə möhlət verübsən, ta badiyədə quyılar qazdurur. İş aŋa bərk dut və məcal vermə ki, budur ləşkər saŋa peyapey göndərürəm. Andan soŋra Şimri-lə`ini dört miŋ adəm ilən Ömər Səʾdüŋ himayətinə göndərdi və andan soŋ Yezid Kəlbi iki miŋ nakəs ilən və Qeys bin Həntəl[651] iki miŋ məl'un ilən və Həsin bin Təmir Sükuni miŋ cəhənnəm itləri ilən və andan Əmr bin Qeys iki miŋ namərd ilən və anlardan soŋra Nəsr Şamı iki miŋ donğuz ilən və Həccac bin əl-Hürr iki miŋ bədbəxt ilən göndərdi, ta on yedi miŋ atlu ilən yəyağ Ömər Nəhsə cəm' oldılar və anuŋ beş miŋ nakəsi var idi. Pəs, igirmi iki [miŋ] məl`un yığıldılar. Və şahzadə ilən (ə) az ləşkəri var idi. Həbib bin Mütəhhər[652] Əsədi dedi:

---

649 *Susadım, susadım.*

650 Əlyazmada: *bulağı.*

651 Farsca orijinalda: *Hənzələ.*

652 Farsca orijinalda: *Müzahir*.

– Ya İbn Rəsulullah, bu yaxında Bəni Əsəd eli oturupdurlar. Dəstur ver, ta bu gecə mən varayım və anları sənüŋ mədədüŋə çağırım.

Bəs, icazət alub ol elüŋ içinə girdi və dedi:

– Ey dustlar, Rəsulullahuŋ oğlı və Zəhranuŋ bağırparəsi igirmi iki miŋ məl'uni-mərdud içinə giriftar olupdur və siz mənüm qəvmlərümsiŋiz. Gəlmişəm ki, sizi ögütləyüb, əgər Mustəfanuŋ şəfaətini dilərsiz, **[220a]** İmam Hüseyn əleyhissəlamı buluŋ.

Əbdullah əl-Bəşir ortadan qalxub dedi:

Misra:

Kimsə kim lafi-məhəbbətni urar, əvvəl mənəm.

– Ey cəmaət, daŋuğ oluŋ ki, əvvəl kimsə ki, İmam Hüseynüŋ məhəbbət lafını urdı və anuŋ çağırdüğinə bəli dedi, mənəm.

Həbib dedi:

– "*Bəşərəkallah, yəbnəl-bəşiri bil-cənnə*"[653], yə'ni ey Bəşir oğlı, Taŋrıdan saŋa bəşarət və muştuluq olsun uçmağə.

Əlqissə, doqsan adəm Bəni Əsəddən bey'ət eyləyüb yərağladılar və tazi atlarə minüb İmam Hüseynüŋ (ə) ləşkərinə yüz urdılar. Qəzadən bir bədbəxti-məlʿun həm bu qəbilədən Ömər Nəhsə bu xəbər apardı. Ol məl'un Əzrəq Şamiyi dörd miŋ donğuz ilən göndərdi ki, qoymaya ki, anlar İmam Hüseynüŋ ləşkərinə mülhəq olalar. Və ol xəbəraparıcı ol nakəslərüŋ ögünə düşüb, ol doqsan adəmüŋ üstinə gətürüb, Fərat çayınuŋ qırağına bir-birinə uğraşdılar və səvaşə durub, Bəni Əsəd ləşkəri basıldı və neçəsi şəhid olub, qalanı çün gördilər ki, anlar ilən duruşub səvaş eyləmək mümkin dəgül, öz elinə döndilər.

Həbib, şahzadəyə bu xəbər göndərdi və İmam (ə) bu vaqiədən qayğulu olub dedi:

Beyt:

Hər nəfəs bir qəm qəmüm üsnə gəlür,
Bilmənəm işüm soŋi necə olur.

---

653 *Allah sənə müjdə versin, ey cənnətlə müjdələnmişin oğlu.*

Çün Ziyadoğlı eşitdi kim, İmam Hüseyn adəm oymağlarə salur və mədədinə çağırur, qəzəb odı aŋa qalib olub, Ömər Nəhsə [peyğam] göndərdi ki, əgər həm bu gün İmam Hüseyn ilən səvaşməyəsən, səni və hər kim sənüŋlən bilədür, siyasət edəyəm. Çün bu peyğam Ömər **[220b]** Nəhsə yetdi, qorxdı və əgərçi gün ikindüyə yetmiş idi, filhal atləndi və ləşkəri ilən İmam Hüseynüŋ (ə) uğraşməğinə gəldi.

Və ol gün mühərrəm ayınuŋ doquzuncı gün idi və ol məhəldə İmam Hüseyn (ə) başı dizinə qoyub uyumış idi. Oturanlar çün düşmənüŋ ləşkərini gördilər və atlularuŋ nə'rəsi və silah üni eşitdilər, İmam Hüseyni (ə) oyatdılar. Həman ki İmam bu halətdən vaqif oldı, qərdaşı Əbbas bin Əli (ə) igirmi atlu ilən anlaruŋ qarşusinə göndərdi ki, bu gün ki gecəyə yaxındur, gəldükləri səbəb nədür? Əbbas varub keyfiyyətini mə`lum edüb qayıtdı və dedi ki, Ömər Nəhsdür, öz ləşkəri ilən ki səvaşə gəlübdürlər.

İmam Hüseyn (ə) dedi:

– Var və anlarə lütf ilən söyləşüb döndərgilən ki, gün bigah olubdur və bu günüŋ baqisi möhlət istə ki, bu gecə adinə gecəsidür və Aşura dünidür. Bulay kim, taətüm və əvradum ləvazimi bu gecədə öz qərarində qala.

Əbbas qayıdub dedi:

– Ey namərdlər, Mustəfanuŋ bağırparəsi bu gecə sizdən möhlət istər və bəylə mə`lum eyləyübdür ki, ömrindən axir gecəsidür və dilər kim, taət və ibadət ilən keçürə və zikr ilə əvradinə xələl və nöqsan yol tapmayə.

Ömər Nəhs bəgləri ilən məşvərət eylədi, dedilər:

– Biz təngə gəlübüz bu yazıda və Ziyadoğlınuŋ qəzəbindən qorxaruz.

Pəs, Şimri-məl'un dedi kim, sizə əman yoxdur və biz ehmal eyləməzüz. Ömər bin Həccac bu sözdən utanub ol cəmaəti hayxırdı və dedi:

[221a] – Ey qəvm, bu, nə qatıyürəklik və dəstpeymanlikdür ki, siz eylərsiŋiz. Əgər bu qəvm Çindən və Rumdən ola idi və möhlət dilər olsaydı, möhlət verürdük. Axir nə sizüŋ Peyğambərüŋiz Əhli-

Beytidürlər və siz anuŋ cəddinüŋ ümmətisiŋiz. Taŋrıdan qorxuŋız və Peyğambərüŋizdən utanuŋız.

Şe'r:

Lə'ini-iblistək ba-kibrü kinsiz,
Qatıdur yürəgüŋiz, süstdinsiz.
Utanuŋız xəlayiqdən daxı həm,
Çələbdən qorxuŋız, qılmaŋ bu istəm.
Nə axir Mustəfa fərzəndidürlər,
Əliyyi-Murtəza dilbəndidürlər.

Ol məl'unlar həman ki bu sözi eşitdilər, səvaşdən əl çəküb həm anda qondılar və qəravulları çıxardılar. İmam Hüseyn (ə) mundan ilərü buyurmış idi kim, ləşkərüŋ çəvrəsində bir xəndəq qazub oddan doldurmış idilər, ta düşmən nagah şəbixun gətürməyə və hərəm daxi yadlaruŋ təərrüzindən imən olalar. Bu halda buyurdı kim, ot ol odunlarə urdılar. Əmma çün od şö`lə urdı, Malik bin Ürvə bir tazi atə minüb ilərü gəldi və dedi:

– Ey Hüseyn, ol evüŋ odından ilərü bu evüŋ odı özinə urduŋ.

İmam Hüseyn (ə) buyurdı: "*Kəzəbtə, ya əduvvullah*"[654], yə'ni yalan dedüŋ, ey Taŋrı düşməni. Gümanuŋ budur ki, mən damüyə gedəcəgəm və sən uçmağə.

Müslim bin Əvsəcə dedi:

– Ya Bin Rəsulullah, icazət ver, ta mən anuŋ ağzına bir ox yeturəyim.

Dedi **[221b]** kim, istəmənəm kim, səvaşdə pişdəstlik eyləyəm.

Əmma sən Taŋrınuŋ qüdrətinə bax. Pəs yüzini qibləyə çevirüb, duayə əl götürüb dedi:

– "*Əllahummə currəhu ilən-nar*"[655], yə'ni ey Taŋrı, anı üqubət zənciri ilən odə çək və üqba odından ilərü dünyanuŋ odı aŋa datdur.

Filhal "*Də'vətəl-məzlumi mucabətun*"[656] hikməti-icabət[657] əsəri za-

[654] *Yalan dedin, ey Allahın düşməni.*

[655] *Allahım, onu oda yax.*

[656] *Məzlumun duası qəbul olunur.* (hədis)

hir olub atınuŋ əyağı bir siçan dəlüginə batdı. Malik istər idi ki, özini atdan yerə sala, əyağı üzəngidə bərk olub cələvi əldən qodı. At anı götürüb hər tərəfə səgridürdi, ta xəndəq qırağına yetürüb, anı arxasından ayırıdub oduŋ ortasına saldı və özi qayıtdı. Adəmlərdən xüruş və qovğa çıxdı və bu daxi bir kəramat idi İmam Hüseyndən (ə).

Bəs, İmam Hüseyn (ə) səcdeyi-şükr əda qılub baş götürdi və qatı avaz ilən əylə ki iki ləşkər eşitdilər, dedi:

– Ey Taŋrı, biz Əhli-Beyti-Nəbi və Rəsuluŋ zürrətiüz, zalimlərdən dadımız al.

İbn Əş`əs dedi kim, sən Peyğambər ilən (ə) nə işüŋ var və anuŋlən nə qəvmliğ və fərzəndliğüŋ var ki, hər saət anuŋ zürriyyətliğindən laf urərsən.

İmam Hüseyn (ə) taqətsiz qalub Allah-təala dərgahinə yalvarub dedi:

– Ya Rəbb, Əşʾəsüŋ oğlı nəsəbümi kəsər və məni fərzəndi-Peyğambər saymaz. *"Fəəreynəhu fil-yovmi zullən acilən"*[658] – həm bu gün aŋa bir zari və xarilik görsət və canı damarı kəs.

Hənuz **[222a]** duanuŋ oxi gög nişanəsinə yetməyüb, qəza şahbazı tədqiri-aləmüŋ fəzasindən yetüb, dərhal içindən bir təqaza zahir olub atdan endi və qəzayi-hacətə məşğul oldı. Bir qəra əqrəb Taŋrı buyruğindən ol məl'unuŋ ərkəklik alətini dişlədi və ol həramzadə taqətsiz olub, nəcasət içində ə'zaları açux gəzüb, pəlid canı[659] qalib qəfəsindən cüda düşdi və cəhənnəmə vardı.

Misra:

Əylə məl'uni-münafiq ölü yeg.

Və bu kəramat daxi həm ol həzrətdən zahir oldı. Pəs, Cəʾdə atını sürüb ilərü gəldi və dedi:

– Ey Hüseyn (ə), bu Fərat suyi ki görərsən, Taŋrıyə and içərəm ki, andan bir qətrə su içməyüb dadmayasən, ta susizlikdən həlak olasən.

---

[657] Əlyazmada: *icatə* (?).

[658] *Bu gün onun tez bir zamanda zillətə düşməsini mənə göstər*.

[659] Əlyazmada: *canını.*

İmam Hüseyn (ə) həman ki bu söz eşitdi, gözindən yaş axub dedi: "*Əllahummə əmithu ətşanən*"[660], yə'ni ey Taŋrı, anı susizlik ilən canın al.

Filhal ixtiyarsız atı ürküb sıçradı və anı yerə urub qaçdı. Ol əyağə qalxub, at ardısərə yəyağ yügürüb, susizlik aŋa qalib oldı və "*əl-ətəş, əl-ətəş*"[661] söyləyüb, nə qədr ki anuŋ dodağlarına su yetürürlər idi, ol içəməzdi, ta həm ol halətdə susiz öldi. Bu, daxi bir kəramat idi.

Ziyadoğlınuŋ ləşkəri bu qədr kəramatlar görər idilər və cəhl əldən qoymayub, öz işində müstəqim idilər.

Beyt:
Şəqinüŋ ki İmamə yox e`tiqadı,[662]
İnanmaz nəbivü vəli sözləri.
[222b] *Vəlilər qamu özitək sağınur,*
Çü yoxdur olarğə səfa gözləri.
Dəgüldürlər[663] *insan anuŋçündürür,*
Həman bəŋzər adəmlərə yüzləri.

Əlqissə, ol gün və ol gecə səvaşmadılar və İmamuŋ tabınları niyaz yüzini niyaz dərgahinə gətürüb, təmam gecə ac-susiz Taŋrınuŋ zikrinə və Mustəfanuŋ (ə) sələvatinə keçürdilər.

"Nurül-əimmə" rəvayət eylər ki, çün ayuŋ doquzıncı gün keçdi və onuncı gecəsi gəldi, günəş batdı və əqşam oldı, İmam Hüseyn (ə) ol gecədə buyurdı kim, ol kürsi ki, sacdan düzətmiş idilər və yabandə biləsincə idi, düz yerdə qoydılar və ləşkəri yığub, əvvəl özi minbər üstinə çıxdı və bir xütbə qayət fəsahət ilən əda qılub sələvat Peyğambərə (s) göndərdi:

"*Əlhəmdulillah əlas-sərrai vəz-zərrai*".[664] Əmma bə`d. Biliŋiz ki, mən hiç kimsəni öz əshabümdən vəfadarrak tapmadum və hiç məx-

[660] *Allahım, onu suya təşnə ikən öldür.*
[661] *Susadım, susadım!*
[662] Əlyazmada: *e`tiqad.*
[663] Əlyazmada: *dəgüldürürlər.*
[664] *Həmd olsun Allaha bolluqda da, qıtlıqda da.*

luq öz Əhli-Beytümdən rəhmlü və yəxşi əməllü görmədüm: "*Fəcəzəkumullahu xeyrən*"[665] – Taŋrı-təala mənüm içün sizə cəzayi-xeyr versün. Biliŋiz ki, mən bu gecə siziŋ bey′ətüŋizdən əl çəkdüm və sicil eylədüm və sizüŋ içün bu gecə möhlət istədüm və zənn ilə gümanum budur ki, bu məl′unlar həman ki məni gördilər, hiç kimsənüŋ adına cüstucuy etməyəcəkdürlər. Gərək kim, əshabümdən hər kimsə öz Əhli-Beytinüŋ əlini dutub, bu yabanda təfriqə olsun, ta bu mihnətdən xilas və bu qatılığdan fərəc bulsun.

Beyt:

Qayğu dəryasinə mən qərq olubəm, siz duruŋiz,
[223a] *Gəmiŋiz sahilə saru bəsəlamət yeturüŋ.*

Qərdaşları ilən uşağları və qəvm ilə məvaliləri cəvab verdilər ki, ya Bin Rəsulullah, sənüŋ fəraqüŋdə səbr eyləmək və hicranüŋdə dirilmək taqət ilə qüvvətimiz yoxdur və dirilik səndən soŋra bizə gərəkməz və ta gəvdəmizdə can və cəsədimizdə rəvan var, din düşmənləri ilən və xanidan xəsmləri bilə səvaş eyləyəcəgüz.

Şe′r:

Ol əhd ki, biz sənüŋ ilən etdürürüz,
Həşrədəkin anı yerinə yetürürüz.
Ta deməyəsən ki, yox imiş sizdə vəfa,
Əhdüŋni Qiyamətə bəylə aparürüz.

İmam Hüseyn (ə) anlarə dua eyləyüb, Müslim Əqilüŋ uşağlarına yüz urub dedi:

– Əmmüm oğlınuŋ fərzəndləri, biz kufilərüŋ batil və`dələr və yalan sözlərinə e`timad eyləyüb ataŋızı Kufəyə göndərdük və ol vəfasızlar köŋül yüzi mehrü vəfa tərəfindən döndərüb, müxalifət qədəmi fəsad yolına qoyub, zülm və bidad şö`ləsi hərəkətə gətürüb, Əhli-Beytüŋ duz-əkməgini bərtərəf edüb əllərindən nə ki gəldi, əmələ gətürdilər, ta şəhadət şərbəti aŋa içürüb, səadət xəl`əti geydi. Hala siz Müslim Əqilüŋ yadigarısıŋız və ataŋız daxi bir matəmgörici və qay-

[665] *Allah sizə xeyirli mükafat versin.*

ğu və sitəmçəkicidür. Duruŋ və anaŋızı götürüb Bəni Təyy qəbiləsinə varuŋ və özüŋizi Mədinəyə yetürüŋ və anda sakin olub, Taŋrınuŋ kərəminə köŋül bağlıŋ ki, həm bu yaxında bir kimsə **[223b]** bulunəcəkdür ki, bizim intiqamımızı Bəni Ümməyyədən çəkə və mən bu sözi atamdan eşidübəm və həqqa ki ol, Peyğambərdən eşidübdür. Və keyfiyyəti bu idi ki, əmirül-mö'minin Əli (ə) bir gün Siffin ğəzasində nida urdı ki, "*Va Əba Muslimah*"[666], yə'ni Əbu Müslim xandadur? Qərdaşum Muhəmməd Hənifə dedi:

– Ey büzürgvar ata, ol, səflərüŋ axırında durubdur.

Əmirül-mö'minin (ə) dedi ki, mən dedügüm bu Əbu Müslim Xulani dəgül, bəlkə məqsudum Əbu Müslim Mərvəzidür kim, Məşriqdən qəra ələmlər ilən zühur eyləyə və ol qədr səvaş qıla ki, Həqqtəala anuŋ qılıcı vasitəsi ilən həqqi öz yerində qərar dutdurə. Ey xoşa ol kimsə kim, anuŋ ilən müvafiqət eyləyüb, din rəvaci içün və zalimlərüŋ nigunsarliğinə ciddü cəhd eyləyə.

Və bu nəql sihhətə yetübdür və "Şəvahidün-nübüvvə" kitabında daxi yazıludur ki, bu rəvayətdən murad sahibüddə`və Əbu Müslim Mərvəzidür ki, qəra ələm ilən Mərvi-Şahcandan çıxa və Bəni Ümməyyə ilən səvaşlar eyləyüb, aləmi mərvanilərdən pak eyləyə.

Əlqissə, çün İmam Hüseyn (ə) bu sözlər Müslimüŋ əvladinə dedi və mübaliğə etdi kim, əlbəttə, gediŋ və ataŋız cərahəti üsnə duzi səpmiŋ kim, mənüm taqətüm yoxdur və sizə ataŋız ilən qərdaşlarıŋız müsibəti yetərdür.

Misra:[667]

Dügünlər üstə dügün qoyməğə dəgül yəxşi.

Anlar həman kim bu sözi eşitdilər, fəryad çəküb dedilər:

Beyt:

Ta canümizdür gəvdədə, ayrılməzüz səndən dəmi,

[224a] *Səndən əgər düşdük cüda, artar atamız matəmi.*

---

[666] *Əbu Müslim haradadur*?

[667] Əlyazmada: *beyt.*

Canuŋ nə qiyməti var kim, saŋa fəda eyləməyüz və başuŋ nə qədri var kim, əyağuŋ toprağına nisar etməyəüz. Əgər atamız qərdaşlarımız ilən sənüŋ yolüŋdə baş verdilər, biz həvadarliğ meydanində canbazlik edərüz. Atamız ibrət ilən düşmənlərə müti` olmadı. Biz məhəbbət ilən dustlar bilə canı tüfəyl eylərüz. Sən ol sərvər dəgülsən ki, kimsə baş ilən saŋa müzayiqə eyləyə və ol dilbər dəgülsən ki, könlünüŋ rizası tez-tez əldən verələr.

Beyt:

Məgər əcəl bizi səndən cüda sala, yoxsə
Qılıclə səndən irağ olməzüz, Xuda danuğ.

İmam Hüseyn (ə) gördi kim, anlar sidqü səfadən safidəm və mehrü vəfa yolında sabitqədəmdürlər, anlarə duayi-xeyr eyləyüb dedi:

– Çün mənüm əshabümniŋ işi bu vəch ilən qərar dutdı, lazimdir ki, varub gecənüŋ baqisi ibadətə məşğul olasınız və səbah ərtə hazir oluŋ ki, soŋ nəmazımız ki, cəmaət ilən qılınur, bu daŋ nəmazı olacaxdur.

Əlqissə, hər kimsə öz mənzilinə varub, əvrad ilən dualarə məşğul oldılar və ol gecə səbahədək nalәvü ah yerdən gögə yetər idi və ənа badiyəsində[668] qəriblərinüŋ yaşı tüğyan edüb dəŋizlərə axər idi.

Beyt:

Gözlər əşki ol qədr axıtdılar kim, oldi çay,
İncə ahlar gögə vardı kim, görünməz oldi Ay.

"Nurül-əimmə" rəvayət eylər kim, səhər çağı göglərüŋ içindən bir avaz gəldi kim:, "*Ya xeylullah*[669]*, irkəbi*"[670], yə'ni, ey Taŋrı **[224b]** ləşkəri, atlanuŋ ki, səvaş çağı gəldi və uçmağə rihlət eyləmək vəqti yetdi. Ümmü Külsüm bihuşlar kimi cuş il xüruş çəküb özini İmam Hüseyn (ə) çadırına saldı və dedi:

– Ey əziz qərdaş, bu avazı eşitdüŋ ki, gögdən gəldi.

---

668 Əlyazmada: *badiyədə.*

669 Farsca orijinalda: *ceysullah*. Ərəbmənşəli *xeyl* və *ceys* sözləri sinonimdir: *ordu*, *qoşun* deməkdir.

670 *Ey Tanrının qoşunu, atlanın!*

Dedi:

– Eşitdüm və mundan daxi əcəbrak gördüm. Mundan ilərü bir saət gözüm uyudı, gözüm uyxuda və könlüm oyağ neçə itlər gördüm kim, maŋa həmlə etdilər və anlaruŋ içində bir it var idi əbləqala mənüm ilən varı itlərdən tündrak baxər idi və mən özümə der idim ki, bu it məni hələk eyləyəcəkdür. Bu sözdə idim ki, nagah cəddüm (ə) qarşümə gəlüb dedi:

– Ya bunə, ey mənüm oğlum vey şəhidi-ali-Muhəmməd vey fərzəndlərümdən məzlumrak! Budur sənüŋ ruhuŋ qarşulaməğə gögüŋ sakinləri və Taŋrınuŋ müqərrəbləri gəlübdürlər və böyük mərtəbəyə saŋa bəşarət verürlər. Cəhd eylə kim, bu gecə mənüm yanümə oruc açəsən, təvəqqüf rəva görmə.

Və cəddüm ilən (s) bir firiştə gördüm.

Cəddüm dedi:

– Ya Hüseyn, munı tanıməzsən?

Dedim:

– Yox, ya Rəsulullah.

Dedi:

– Bu, bir mələkdür kim, gögdən enübdür, əlində bir yaşıl şişə var. Sənüŋ qanuŋ ol şişəyə töküb saxlayə.

Ümmü Külsüm ağlamağə düşdi.

İmam Hüseyn dedi:

– Ey qızqərdaş, Əhli-Beytümi mənüm içün çağır ki, vida çağıdur.

Şe'r:

Əlvida, ey dustlar, kimdi[671] *səfər edəcəgəm,*
[225a] *Mənzil ilə yurtumi cayi-digər edəcəgəm,*
Qalmişəm Yusif təki zindani-dünyadə əsir,
Misri-izzətdə əziz kibi məqər edəcəgəm.
Dünyadən xürrəmliğ ilən gedərəm, anuŋ içün
Məskənüm üqbadə mundan xubtər edəcəgəm.
Hər kim istər kim, təmaşa qıla cənnatün-nə'im
Söyləŋiz gəlsün mənümlən kim, səfər edəcəgəm.

[671] *Ki imdi (indi).*

Bəs, hərəmi-möhtərəmi və əvlad ilə əshabı yanında cəm′ oldılar və İmam Hüseyn (ə) öz fərzəndləri yanına çağırub yüzlərin öpər idi və yüzini anlaruŋ köksinə qoyar idi və qanlu yürəgindən zar-zar ağlayub der idi:

Beyt:

Qayğudən çək nalayi-dil, dünyadən tütün çıxar,
Təşnələr yad eylagil, ey didə, tökgil yaşlar.

– Ey bağırparələrüm, canum sizüŋ içün yanar ki, həzə sizüŋ yetimlig çağı dəgül idi, qürbətdə əsir və yetim qaldınız. Bilmənəm kim, nedəyim və qayğulərinizi kimə söyləyim.

Pəs Şəhrbanuyə dedi:

– Ey mənüm eski yarum və hər qayğudə ənisü qəmgüsarum! Bilmənəm kim, bu yetimlər ilən neyləyacəksən və məndən soŋra qayğulərini necə içacəksən?

Əhli-Beyti munı eşidincə qərivü xüruş yerdən gögə çiqardılar və səbrü sükun gəmiləri müsibət dəŋizində qərq eylədilər. Cəhanuŋ gözləri bunlaruŋ qayğusindən ağlamağə düşdi və dili bu beytlər ilən mütərənnim oldı.

Beyt:

Görərəm hər didədən mövcuruci tufani-qəm,
Eşidürmən dəhrdən matəm sədası dəmbədəm.
Aləm əhli bilmənəm hali necə düşmişdürür,
Bilürəm kim, aləm içrə çoxdurur cövrü sitəm.

Ümmü Külsümü taqətsiz olub dedi:

– Ey **[225b]** *"la fəta"*[672] bağınuŋ güldəstəsi vey *"həl əta"*nınŋ[673] laleyi-novrəstəsi. Bu qəmənduz sözlərüŋ eşitməgi kimüŋ taqəti var və bu cigərsuz kəlamuŋ fəhm etmək kimüŋ fürsəti var? Mustəfa (s) bu fani dünyadən rihlət eyləmək çağı bizi ataŋ Əliyyi-Murtəzayə (ə)

[672] *Cavan (igid) yoxdur*. İmam Əli haqqında olan hədisdəndir: *La fəta illa Əli, la seyfə illa Zulfiqar* (Əlidən başqa igid, Zülfiqardan başqa qılınc yoxdur).

[673] Quranın 76-cı surəsinin ilk ayəsinin başlanğıc sözləridir: *yaradılıb* deməkdir.

tapşurub məhrəm və həmdəm qoydı. Və çün ol həzrət şəhadət qanatı ilən səadət rövzəsinə uçdı, qərdaşuŋ İmam Həsən üstümizə qoydı. Qərdaşuŋdən soŋra bu məhrumlərüŋ məhrəmi və bu məzlumlərüŋ həmdəmi sən idiŋ. Ey nübüvvət xanədanınıŋ yadigarı vey vilayət dudmanınıŋ sərdarı, çün gedəsən bizim məhrəmimiz kim olacəqdür və qəmlü köŋlümizə və yarəlü yürəgümizə mərhəm kim qoyacəqdür və bu matəm çəkicilərinüŋ köŋli kim alacəqdür?

Beyt:

Ömrümiz həsrət ilən şövqi-rüxüŋdən keçsün,
Köŋlümiz qayğu ilən şərbəti-hicran içsün.

Bu sözdə idilər ki, daŋ yulduzi çıxdı və sübhi-sadiq ol qəriblərüŋ qayğusindən yəqəsi çak etdi.

Nəzm:

Hər sübh əgər şəhidlərüŋ matəmi dəgül,
Gög doni nişə qan ilə daim boyağludur?
Şər`üŋ günəşi girməz isə toprağə, degil
Gögüŋ boyinə köŋləgi nişün qəba olur?
Gər yanmədi Hüseyn fəraqində zar-zar,
Xurşidniŋ yüzi nişə çün kəhrəba olur?

Əmma çün sübhüŋ əsəri zahir oldı, İmam Hüseyn (ə) nəmaz bangı dedi və əshabı cəm` olub təyəmmüm eylədilər və sünnət nəmazı cəmaət ilən əda qıldılar. Həzə **[226a]** əvradı tükənməyüb və dua oxumayub səvaş kusinüŋ avazı və uğraş surnasınuŋ[674] naləsi müxalif ləşkərindən çıxdı və qoşun atlu ilən yəyağ – qamu mükəmməl silahlu meydanə yüz qoydılar və məl'un rayətləri və meyşum tuqları durğuzdılar və mübariz istədilər.

Rəvayətdür ki, çün məvalilər İraq ləşkəri ol yəraq ilə gördilər, aşiqlər kimi xidmət kəməri yəqin əli ilən ol zəminü zəmani-xosrovi içün can belinə bağladılar və atlu ilən yəyağ meydanə yüz qoydılar. Məl`un Ömər Nəhs öz ləşkərinüŋ səfini düzədüb, sağ qolı Əmr bin

[674] Əlyazmada: *surnanuŋ.*

əl-Həccac öhdəsində eylədi və sol qolı Şimri-Zilcövşənə verdi və tuqi öz qulınuŋ əlinə verdi. Şahzadeyi-aləmiyan bavücud ki yanında az kimsə var idi, qələbəliğindən düşmənüŋ əndişə qılmayıb, sağ qolını Züheyr bin Qeysə verdi və sol qolı Həbib bin Müzahirüŋ oğlına[675] tapşurdı və ələmi Əbbas bin Əliyə (ə) verdi və özi səadət ilən qol içində qərar dutdı. İmam ləşkəri bəhadirliğ meydaninə can nəqdi əl üsnə qoyub, qeybi-hatifi yuxarı aləmindən anlaruŋ qulağına dəgdürür idi.

Nəzm:

Səvaş günidür, cəng etmək gərək,
Müxalif yolin təng etmək gərək.
Kim istər kim, meydandə nam eyləyə,
Gərək kim, bu gün tərki-kam eyləyə.

Əmma çün iki səf ayin ilən düzətdilər, İmam Hüseyn (ə) öz çadırına girüb Rəsulullahuŋ əmmaməsi başına qoydı **[226b]** və ol həzrətüŋ dürraəsi geydi və bir qılıc ki, Mustəfa (s) qurşanur idi, qurşandı və bir atə ki, adı Mərtəcər idi, mindi və meydanə yüz qoydı və buyurdı:

– Ey İraq əhli, sizə and verürəm kim, bilürsiz kim, mən Mustəfanuŋ nəbirəsiəm və Rəsulullah sibti və Fatimeyi-Zəhranuŋ bağırpərəsi və Murtəzanuŋ (ə) gözi nuri və mənüm qərdaşum İmam Həsəni-Muctəbadur. Və əmmüm Cə'fəri-Təyyar kim, cənnətül-mava həvasində uçar və anlaruŋ əmmüsi Həmzə seyyidüş-şühədadur. Və görərsiz ki, bu əmmamə Rəsulullahuŋdur ki, mənüm başümdədür və ol həzrətüŋ mübarək dürraəsidür əgnümdə və bu qılıc sahibüt-tac vəs-seyfüŋdür ki, həmayil eyləyübəm və bu at anuŋ xassə atlarındandur ki, əyağum altındadur.

Ol ləşkərdən nə`rələr çıqdı ki, ey İmam Hüseyn, Taŋrı bilür ki, dedüklərüŋ qamu sidqi-məhzdür. İmam (ə) dedi:

[675] Farsca orijinalda: *Həbib bin Məthər*; Füzulinin "Hədiqətüs-süəda"sında: *Həbib bin Müzahir*.

– Bəs, nə vəch ilən mənüm qanum[676] yanuŋizdə hələldur və bir su ki, varı heyvanlərə: yeriyən ilən uçənə və yəhud ilə nəsarayə mübahdur, məndən dəriğ edərsiŋiz və hal oldur ki, atam xanidanuŋ düşmənləri süricidür Kövsərüŋ həvzindən, əylə ki, devələri sudan mən` eyləyələr.

Bu halətdə uşağlar üni və Əhli-Beyt avazi çadırlardan İmam Hüseynüŋ (ə) qulağına yetdi və bu eşitməkdən çox pərişan olub dedi: "*La hovlə vəla quvvətə illa billahil-əliyyul-əzim***.**"[677]

Bəs, Əbbas ilən Əli Əkbəri göndərdi ki, ağlayanlərə söyliŋ ki, daŋla siz çox ağlamalusıŋız, haliya yığlamağə **[227a]** uyumıŋ. Anlar varub ögütlədilər və anlar daxi əpsəm olub, şahzadə öz dedügi üsnə varub dedi:

– Əyyühan-nas, biliŋiz ki, Taŋrı-təala yalanı həram eyləyübdür və mən hərgiz yalan deməmişəm, və`dələri xilaf etməyüb, hiç müsəlmanı incitməmişəm və ta əqlə gəlüb təklif qələmi maŋa cari olupdur, Taŋrınuŋ fərizələri tərk etməyübəm. Və sizə mə`lumdur ki, bu ali nəsəb ki məndə var, bu gün yer üstində hiç kimsədə yoxdur və mən bir kişi idim bu aləmdən yüz çevirüb cəddüm rövzəsi üstində sələvatir-Rəhman mülazim idim. Məni orada qoymadılar, ta lazim olub, Mədinə tərkin qılub hərəmi-Məkkəyə vardum və anda oturub Pərvərdigar ibadətinə məşğul oldum, ta siziŋ bitiklériŋiz[678] peyapey gəldi və nameləriŋiz saətfəsaət yetdi ki, səni imamətə və xilafətə əvla və əhəqq görərüz. Gərək kim, bu yanə mütəvəccih olub nə qədr ki tezrak isə özüŋizi bizə yetürə gör, ta biz mübarək qədəmüŋdə canfəşanlik eyləyəüz. İmdi ki sözüŋizə e`timad eyləyüb gəlübəm, gizlü məkrlər və türlü-türlü qəsdlər eylərsiŋiz və qərib köŋlümizüŋ şişələri ğədr və cəfa daşı ilən sındurursıŋız. Məkrüŋiz şö`ləsi mənüm səbrüm ilə sükünum məta'i yandurdı. Əgər bir hərf bunlardən dağuŋ qulağına oxusam, filhal "*və bussətil-cibalu bəssa*"[679] sifəti andan zahir ola. Və əgər cövrüŋiz ildurumindən ki əshabumnuŋ səbr binasını pozdurub-

[676] Əlyazmada: *qanumı.*

[677] *Güc və qüvvət yalnız uca və ulu Allaha aiddir*.

[678] Əlyazmada: *bitiklériŋizi.*

[679] *Dağların parça-parça olub ovxalandığı.* (Quran, 56: 5)

dur, guşə rövşən egəyim, həm ol zəmandə **[227b]** *"zulumatun bə'zuha fovqə-bə'z`"*[680] əsəri andan zahir olacəqdür. Hala siziŋ səbəbi ilən rahəti-darül-mülki iztirab ləşkəri ilən xərab görərəm və amal və ümmid gəmisi inqilab dəŋizində qərqə düşübdür.

Beyt:

Qəmüŋ dəŋizi bu halətdə yoqdurur payan,
Zəmanənüŋ işi həm daxi yoqdurur saman.
Köŋül sadaqidə anca fərib oxlarıŋız
Nihandurur ki, bilinməzdürür səri-peykan.

Pəs, Kufənüŋ böyükləri ki ol ləşkərdə idilər, adlarını aparub dedi:

– Ey Ömər Nəhs vey Əmr bin əl-Həccac vey Şis Rəb'i vey filan və filan bin filan, namələr ki maŋa yazdurubsıŋız, mənüm ilən biladür. İmdi qarşümə gəlüb qanümə qəsd eylərsiŋiz.

Cəvab verdilər ki, bu bitiklərdən xəbərimiz yoq. İmam (ə) nameləri anlarə görsətdi. Olar inkar edüb dedilər:

– Bu namələr bizdən xəbərsiz yazubdurlar.

İmam anlaruŋ yalan ilə ğədrlərindən mütəhəyyir qalub buyurdı kim, ol bitikləri odə urdılar. Pəs dedi:

– Əlhəmdülillah ki, sizə hüccətümi təmam eyləyüb, sizdən maŋa hiç hacət lazim olmadı.

Ömər Nəhs ilərü gəlüb dedi:

– Ey İmam Hüseyn, bu sözlər maŋa hiç faidə verməz. Əgər Yezid içün bey'ət eylərsən, xub, yoxsa səni qılıc zərbi ilən həlak edəcəgüz.

Pəs şum yayına bir ox qoyub dedi:

– Ey Kufə əhli, daŋuğ oluŋ və Ziyadoğlı yanında danuğlığ verüŋ ki, əvvəl kimsə ki İmam Hüseynüŋ (ə) yüzinə ox atdı, mən idim.

Pəs ol oxı İmam Hüseyn (ə) tərəfinə atdı. **[228a]** Şahzadə (ə) mişkin saçları mübarək əli üstinə qoyub dedi:

– Taŋrı-təalanuŋ qəzəbi ol zəman yəhudilərə dəgdi ki, dedilər: Üzeyr Taŋrınuŋ oğlıdur[681]. Və Taŋrınuŋ xəşmi nəsaraya ol vəqt yetdi

[680] *Zülmət üstünə yığılan zülmət.* (Quran, 24: 40)

[681] Quranın 9-cu surəsinin 30-cu ayəsinə işarədir.

ki, töhmət bağladılar ki, İsa Taŋrınuŋ fərzəndidür[682]. Və Taŋrınuŋ nifrin ilə lə'nəti və qəzəb ilən səxəti imdi siziŋ üçün mühəyya və amadə oldı ki, Peyğambərüŋ fərzəndinə qəsd eylərsiŋiz. Və mən hala səbr və təhəmmül yolından ki saliklərüŋ təriqidür, dönmənəm və bəürvəyi-vüsqayi-məhəbbət bəhökmi – *"İnnəllahə yuhibbus-sabirin"*[683] köŋülünə tək (?) əlini bərkitmişəm ki, az müddətdə zülmüŋ nəticəsi sitəmkarlar ruzigarinə yetəcəkdür və bu yaxında cahü əzəmət övcindən məzəllət və xari çahinə giriftar olacaqdurlar.

Beyt:
Kim etdi zülm yayın kirişə cəhan içrə
Ki, lə`nət oxinə soŋində olmadı amac.

İntizardəəm ki, *"İnnəllahə yumhil vəla yuhmil"*[684] göftarüŋiz cəzası və kirdarüŋiz səzası sizə yetə.

[Nəzm]
Kim ki zülmüŋ yolinə qoydi əyağ,
Əllərinə, əyağinə qoydi dağ.
Neçə gün gər munda görsə möhləti,
Soŋucı görər səzavü mihnəti.

Bəs, İmam Hüseyn (ə) meydandən at cələvini çəküb, öz ləşkərinə gəlüb səvaşə köŋül bağladı. Və bu vaqiə Aşura güni idi mühərrəm ayından ki, altmış bir yıl Mustəfanuŋ hicrətindən (ə) ötmiş idi. Və müxalif ləşkəri bir qəvl ilən on yedi miŋ namərd idilər **[228b]** və bir qəvldə otuz iki miŋ və doğru qəvl igirmi iki miŋ atlu ilən yəyağ idilər kim, ol mə'rəkədə hazir idilər. Və İmam Hüseynüŋ adəmləri gərçək qəvl ilə səksən iki atlu idilər və qırq yəyağ. "*Vallahu ə'ləm*".[685]

Ravi der ki, çün səvaşuŋ səfləri düzətdilər, iki tərəfdən meydanə göz qoydılar, ta kim ola ki, əvvəl meydanə girə. İmam Hüseyn (ə) dedi:

---

[682] Quranın 9-cu surəsinin 30-cu ayəsinə işarədir.
[683] *Allah səbr edənləri sevər.* (Quran, 3: 146)
[684] *Allah-taala səbəbsiz möhlət verməz.*
[685] *Doğrusunu Allah bilir.*

– Atamdan (ə) eşitmişəm ki, ta müxalif və düşmən tərəfindən kimsə pişdəstlik eyləməsə, siz səvaşə girmiŋ.

Əmma Hürr bin Yezid Ömər Nəhs ləşkərinüŋ oginə durmış idi. Çün hal bu qayətdə gördi, atını Ömər Nəhs yanına sürüb dedi:

– Ey məl'un, İmam Hüseyn ilən səvaş eyləyəcəksən?

Dedi:

– Bəli.

Dedi:

– Mə'lum et ki, bu səvaşda çox gəvdələr başdən irağ düşəcəqdür. Daŋla Rəsulullahuŋ (ə) cəvabini necə verəcəksən?

Ömər Nəhs cəvab vermədi.

Hürr aŋdan dönüb gəvdəsinə bir titrətmə düşdi ki, hər kim yanında idi, yüräginüŋ avazı eşidür idi. Mühacir bin Əvs – Hürr qəbiləsindən aŋa dedi:

– Mən hiç məʾrəkədə səni bəylə qorxulu görmədüm və sən ərəb bəhadirlərinüŋ başı və mübarizlərüŋ sərvəri idiŋ və Kufə pəhləvanlarindən hər kim sorar idi, əvvəl sənüŋ adın aparur idilər. Bu gün bədənüŋdə bu titrəmək nə nəstədür və yürəgüŋ təprəndüği nədən?

Hürr dedi:

– Ey qərdaş, məndə hiç qorxu yoxdur, əmma nəfsümi uçmağ ilən damunuŋ ortasında müxəyyər edübəm **[229a]** və öz-özüm ilən fikrdəəm ki, işüm[686] nəyə yetə?

Nagah bir nə`rə urub dedi:

– Bəşarət olsun maŋa ki, nəfsüm[687] cənnət ixtiyar eylədi.

Pəs atına bir qəmçi urub İmam Hüseynüŋ (ə) qarşüsinə gəldi və atdan enüb şahzadənüŋ üzəngüsi öpdi və yüzi mərkəbiniŋ dırnağına qoyub dedi:

– Ya Bin Rəsulullah, mənüm gümanum bu dəgül idi ki, bu cəmaət saŋa qəsd eyləyələr. Xiyalümdə bu idi ki, iş barışmağə dönə. İmdi ki ol məl'unlərüŋ təmərrüd və üsyanı və təğəllüb ilən tüğyanı

[686] Əlyazmada: *işümi.*

[687] Əlyazmada: *nəfsümi*.

maŋa zahir oldı, xidmətüŋə gəldüm. Aya, mənüm tövbəm[688] qəbul ola və suçlarum üzri icabətə yetəcəkdür, ya yoq?

Beyt:

Çox xəcalətlər bilə bu doğru rahə gəlmişəm,
Can əl üsnə qoyub ümmid ilə şahə gəlmişəm.
Bu fəqirə rəhm qıl, rədd eyləmə hacatümi,
Ki, səfavü sidq ilən bu bargahə gəlmişəm.

İmam (ə) at üstindən mübarək əli Hürrüŋ başı ilə yüzinə sürtüb dedi:

– Ey Hürr, nə qədr ki bəndə günahkar ola, çün yüzi Taŋrı dərgahinə qoyub "*əstəğfirullah*"[689] desə və günahdən tovbə eyləyə və üzrini diləyə, qəbul olacaqdur: "*Və huvəl-ləzi yəqbəlut-tovbə ən ibadihi*"[690]. Əgər bir cürm və xəta mənüm ilən eyləmişsən, mən andan keçdüm və etməyüb sağınurəm. Və hər təqsir ki mundan ilərü səndən vaqe olubdur, unutdum. Mərdanə ol, məğfirət ümmidi ilən səvaşə köŋül qoy ki, bu gün səadət bazarınıŋ məcalıdur və bu meydan şəhadət əhlinüŋ **[229b]** cilvəgahı.

Hürr munı eşidincə meydanə yüz urub, cövlanlar qılub, hər kimsə yetər idi, qavun kimi qılıc zərbi ilən iki bölər idi. Əmma çün Hürrüŋ qərdaşı Müsʾəb gördi ki, Hürr axirət aləmi fani dünyayə ixtiyar eylədi və məhəbbət əli ali-əba ətəginə sundı, atını sıçradub, İmam Hüseynüŋ məvəddət qancuğəsinə ol daxi əlini bərk etdi. Ömər Nəhs güman etdi ki, Müsʾəb qərdaşınuŋ səvaşinə gedər, əmma həman ki Müsʾəb meydan ortasına girdi, qərdaşına dedi:

– Sən mənüm Xızri-rahum olduŋ və məni küfr züləmatindən mə'rifət[691] həyatı sərşeşməsinə yetürdüŋ. Mən sənüŋlən müvafiqət eyləyüb müxalifətdən bizar oldum. Daŋla ikimiz işlərimizdən danuğ olalı və İmam Hüseyn (ə) şəfaətindən faidələr görəli.

---

[688] Əlyazmada: *tövbəmi.*

[689] *Allah, məni bağışla.*

[690] *Qulların tövbəsini qəbul edən Odur.* (Quran, 42: 25)

[691] Əlyazmada: *məfriqə;* farsca orijinalda: *mə'rifət.*

Bəs, Hürr qərdaşını İmam Hüseyn əleyhissəlamuŋ yanına gətürüb ötmiş hekayətləri ərz etdi. İmam Hüseyn (ə) anı qucağladı.

Və İmam İsmailüŋ məqtəlində rəvayətdür ki, ol saət ki Hürr İmam Hüseyni (ə) gördi, dedi:

– Ya İmam, atamı düşümdə gördüm. Məndən sordı: "Ey oğul, bu neçə günlər qanda idiŋ?" Dedim: "Getmiş idim ki, İmam Hüseynüŋ (ə) yolını bağlım".

Fəryad çəkdi ki, ey oğul, sən Rəsulullahuŋ (ə) fərzəndi ilən nə işüŋ var?! Əgər damunuŋ odında yanmək taqətüŋ var, anuŋlən səvaş et və əgər Peygambərüŋ şəfaəti **[230a]** və Taŋrınuŋ rizası və cavidan uçmağı dilərsən, var və anuŋ düşmənləri ilən uğraş. İmdi istərəm ki, maŋa icazət verəsən, ta meydanə girəm.

İmam Hüseyn (ə) dedi:

– Sən bizim qonağimizsən, səbr et, ta özgə kimsə meydanə varsun.

Hürr dedi:

– Ya Bin Rəsulullah, ol kimsə ki düşmənlərüŋ ilən səvaşə, həm mən olam.

İmam Hüseyn (ə) aŋa dəstur verdi və Hürr bir mərdanə pəhləvan yigit idi və bir dilavər fərzanə kişi və ərəb anı meydandə miŋ adəm ilən bərabər dutar idilər və Übeydullah Ziyaduŋ ləşkərbaşısı idi. Bir tazi atə minüb meydanə girdi və bir rəcəz söylədi ki, mə'nisi bu idi.

Şe'r:

Mənəm əslanyürəklü Hürri-Yezid
Kim, cəhan içrə yoxdurur həmtam.
Mustəfa aliçün səvaş edərəm,
Meşə əslanı tiğümədür ram.
Məndən olsun bə-hər nəfəs miŋ kəz,
Mustəfa alinə dürudü səlam.

Çün Ömər Nəhs Hürri meydandə gördi, titrəməgə düşüb, Səfvan bin Hənzələ ki, ərəb içində məşhur idi, çağırdı dedi:

– Var və Hürri ögütlə və İmam Hüseyndən döndər və anı yanümizə gətür və əgər qəbul etməsə, qılıc ilən başını gəvdəsindən ayır.

Səvfan iŋən zinətlü həm özi və həm atı bilə səllanə-səllanə Hürrüŋ qarşusinə gəlüb dedi:

– Ey Hürr, sən bir aqil kişi və pürdil bəhadirsən. Rəva ola ki, Yeziddən dönüb İmam Hüseyn **[230b]** yanına varəsən?

Hürr dedi:

– Ey Səfvan, sənüŋ əqlüŋdən bu söz əcəbdür. Sən Yezidi bilməzsən. Ol bir zalimi-fasiqi-napakdur və İmam Hüseyn təharətlü, ibadətlü. Anuŋ anasınuŋ nikahı cənnətdə Allah-təala eyləmiş və Cəbrail anuŋ beşiginüŋ təprədicisi imiş və Peyğambər anı öz bustanınıŋ reyhani demiş.

Beyt:
Vəsfi şərhin kimsə edəməz bəyan,
Hər nə desəm, andan ol artuqdurur.

Dedi:

– Mən bunları bilürəm və mundan daxi artuq tanurəm, əmma dəvlət ilə malü cah Yezid əlindədür və biz nökərüz və bizə at ilə yəraq və muçə ilən mənsəb gərəkdür və təqva ilə təharət və fəzl ilə elmü dua yanımızda nəyə yarar?

Hürr dedi:

– Ey bədbəxt, həqqi görərsən və cəhalət ilə örtərsən və dünyaligüŋ qürur camını içərsən, əmma

Misra:
Sərxoşi-meysən bu gecə, daŋla xumar görgil.

Səfvan qəzəbə varub cidəsi Hürrüŋ köksinə həvalə eylədi. Hürr öz cidəsi anuŋ cidəsinə urub, ərlik qüvvəti ilən anuŋ cidəsini sındurdı və bu halətdə Səfvanuŋ köksinə cidə durğuzub əylə urdı kim, arxasından cidə bir arşun çıxdı. Və əl uzadub, anı iyərdən götürüb, əl üsnə gətürüb əylə yerə urdı kim, sümükləri varı ufanub canı cəhənnəmə göndərdi. İki ləşkərdən xüruş və qərivü cuş çıxdı.

Əmma Səfvanuŋ üç qərdaşı var idi, üçi daxi qərdaşlik qeyrətindən meydanə girüb, Hürr ilən **[231a]** səvaşə durdılar. Hürr bağırından bir nə`rə çəküb, Taŋrı-taəlanı əzəmət və qüdrət ilən anub anlarə

həmlə etdi və birisinüŋ kəmərinə yapışub iyərdən əylə qopardı ki, bir qarçağay bir zəif canəvər qapa. Andan yerə urub boynını sındurdı və birisinə daxi varub, başına bir qılıc əylə zərbət ilən urdı ki, başı köksinədək iki böldi və üçünciyə yüz qoyub, ol qaçmağə durdı. Qaçar ilən aŋa yoluxub bir cidə əŋsəsinə əylə yetürdi ki, cidənüŋ cəbri anuŋ köksindən çıqdı.

Bu hünərlər eyləyüb İmam Hüseynüŋ (ə) qarşüsinə gəldi və dedi:

– Ya Bin Rəsulullah, məndən razi və xoşnud olduŋ?

Şahzadə (ə) dedi:

– *"Nəˀəm, əntə Hurrun kəma səmmətəkə ummukə"*[692], yə'ni mən səndən razi oldum və sən azadsən, yə'ni daŋla Qiyamət odından azad olacəqsən.

Hürr bu muştuluqi eşidüb yüz miŋ nişat ilən meydanə yüz qoydı və hər yanə ki, atı sürər idi düşməndən püstə-təpə düzədür idi. Bu halətdə bir yəyağ yügürüb Hürrüŋ atını siŋirlədi. Hürr yəyağ qalub, cəhanyandurucı xəşmi zəbanə urub, qeyrət şö`ləsi ilə

Beyt:
Cidə ilə daşları surax edərdi,
Ox ilən qılını yüz miŋ şax edərdi.

Ol qələbə ləşkər ilə yəyağ əylə təprənür idi ki, atlular andan yəyağ kib ürkər idilər. Əmma çün İmam Hüseyn (ə) baxdı kim, Hürr əslan kimi yəyağ səvaş edər idi, **[231b]** bir tazi at, yəraqi ilən yanına göndərdi. Çün ol mərkəbi Hürrüŋ yanına gətürdilər, üzəngisin öpüp atlandı və meydan içində cövlanlar qılur idi.

Beyt:
Verürdi düşmənınə piç ilə tab,
Müxalif qani ilən qılıcı ab.

Və neçə bəhadirlər kim, ol Aynuŋ çəp-çevrəsində Ürkər kimi yığılub dutmış idilər, qılıc zərbi ilən və ox səhmi və cidə bimi bilə ye-

[692] *Bəli, anan sənə Hürr adını verdiyi kimi hürrsən* (Ərəb mənşəli *hürr* sözü *azad, müstəqil* deməkdir).

di qərdaşlar kibi[693] mütəfərriq və pərakəndə oldılar. İstər idi ki, İmam Hüseyn (ə) yanına qayıda, bir hatif avaz verdi ki, ey Hürr, qayıtma ki, hurlar qədəmüŋə müntəzirdürlər. Bəs, İmam Hüseynüŋ tərəfinə baxdı və dedi:

– Ya İmam, sənüŋ cəddüŋ (s) yanına gedərəm, hiç xəbər ilə peyğamuŋ var ki, yetürəm.

Şahzadə ağlayub dedi:

– Ey Hürr, biz daxi sənüŋ ardüŋcə gəlürüz.

İmamuŋ ləşkərindən xüruş çıxdı və Hürr özini düşmən ləşkərinə urub ol qədr səvaşdı ki, cidəsi parə-parə oldı. Andan qılıcın çəkdi və hər bədbəxtə kim, başına urər idi, köksinədək iki bölərdi və hər kim belinə yetürür idi, qavun kimi iki kəsərdi. Gah sağ qola varub anlardan şurü qovğa çıxartdurur idi və gah sol qola dönüb cəm`iyyətləri pərişan edər idi və bu dəstur ilən səvaş edüb bəhadirlik zahir qılur idi, ta özüni Ömər Nəhsüŋ tuqcisi yanına yetürüb istər idi ki, anı tuqi ilən iki bölə, Şimri-lə`in ləşkərinə bang verdi ki, munuŋ çevrəsi dutuŋ **[232a]** və qoymıŋ ki, ortadan çıqsun. Bir uğurda çəri qələbəliğ edüb hər tərəfdən aŋa zəxmlər urdılar. Hürr ol ləşkərüŋ içində cuşü xüruş edər idi. Nagah Qisvər[694] bin Kinanə bir cidə Hürrüŋ köksinə urdı. Hürr hərbə məşğul idi, həman ki bu zəxmi yedi, baxub Qisvəri[695] gördi ki, zəxm urmış idi. Tavülğə başından cüda düşmiş, bir qılıc atdı və anuŋ başına dəgdi kim, köksinədək keçdi və Qisvər atdan düşdi. Və Hürr daxi mərkəbdən düşüb, bir nə`rə urub dedi:

– *"Yəbnə Rəsulullah, ədrikni"*[696] – məni dutə gör.

İmam Hüseyn (ə) mərkəbi meydanə salub, Hürri götürüb, müxalif ləşkəri içindən çıxarub, öz ləşkəri öginə gətürüb yerə qoydı və özi atdan enüb oturdı və Hürrüŋ başını dizi üsnə qoyub, yeŋi ilən tozı anuŋ yüzindən arıdurdı. Hürrüŋ canından bir rəməq qalmış idi. Gözin açdı, başını gördi kim, İmam Hüseynüŋ dizi üstindədür. Gülüb dedi:

---

693 *Böyük Ayı bürcündəki yeddi ulduza işarədir. Onlar dağınıq şəkildə olurlar.*

694 Əlyazmada: *Qisvərə*; farsca orijinalda: *Qisvər.*

695 Əlyazmada: *Qisvəräni.*

696 *Ey Allahın Rəsulunun oğlu, köməyimə yetiş.*

– Ya Bin Rəsulullah, məndən razi olduŋ?

İmam Hüseyn (ə) dedi:

– Mən səndən xoşnud oldum ki, Taŋrı səndən razi olsun.

Hürr bu muştuluqdən şadiman olub, can nəqdini İmamuŋ əyağinə nisar eyləyüb dedi:

Beyt:

Bu müjdə ilən gəvdəmi can versə, rəvadur
Kim, başum İmam əyaği altında fədadur.

İmam Hüseyn (ə) Hürr içün ağladı və əshab daxi anuŋ içün ağlamağə **[232b]** düşdilər. Və Hakim Xəs'əmi rəvayət eylər ki, şahzadə neçə beyt Hürrüŋ mərsiyəsinə dedi və anlaruŋ mə'niləri budur.

Nəzm:

Xoşa Hürri-fərzaneyi-namdar,
Ki, öz canı qıldı mənümçün nisar.
Təkəbbür atindən enüb şadiman,
Şəhadət Büraqinə oldı səvar.
Rəsuluŋ bağırparəsi eşqinə
Qılurdi Yezidlərlə çox karzar.

Əmma Hürrüŋ qərdaşı Müsˈəb çün gördi kim, qərdaşı şəhadət qanatı ilən cənnati-Ədnə uçdı, İmamuŋ rüxsəti ilən meydanə girdi və düşmənlər ilən səvaşə durub çox Yezidi-məl`uni cəhənnəmə göndərdi. Soŋra ol daxi şəhid düşdi və qərdaşı vüsalinə yetüb uçmağə vardı.

Rəvayətdür ki, Hürrüŋ bir oğlı var idi adı Əli və Kufə ləşkəri içində idi. Çün atası və əmmüsi şəhidliğini gördi, taqətsiz olub qulına dedi:

– Gəl kim, atlarə su verəlim.

Bəs, ikisi atların sıçradub, Kufə ləşkərindən ayrılub İmam Hüseynüŋ ləşkərinə gəldilər. Həman ki Əli bin əl-Hürr şahzadə yanına gəldi, atdan enüb xidmət yeri öpdi və ədəb ilən atası yanına gəldi və yüzini anuŋ yüzinə sürtər idi.

İmam Hüseyn dedi:

– Ey yigit, sən kimsən?

Dedi:

– Mən Hürrüŋ oğliəm. Çün atam öz canını sizə fəda eylədi, mən daxi anuŋçün gəlmişəm ki, başümi əyağuŋ toprağında nisar edəyim və nükteyi-"*əl-vələdul-hurr yəqtədi bi-abaihil-ğurr*"[697] **[233a]** aşkar edəyim.

Şe'r:

Çü oğlandan olmasa ata nişanı,
Oğul deməgil aŋa, biganə sanı.

İmam Hüseyn (ə) aŋa dua eyləyüb dəsturin verdi. Əli əslan kimi meydanə yüz urub, nəʾrələr çəküb, ərəb dilincə rəcəzlər söyləyüb cövlan edərdi və mübariz dilər idi. Düşmənlərdən bir kişi silahlu çıxdu. Əli anuŋ qarşusinə varub sözə qoymadı və cidə ilən anı iyərdən götürüb yerə urdı və dedi:

Nəzm:

Mənəm Hürrün oğlı Riyahinijad
Verürmən müxaliflərüŋ sər bə-bad.
Atamdən bu halətdə şərməndəəm,
Şəhid oldi ol, nişə mən zindəəm.
Atam qanını sizdən alacağəm,
Sağınmıŋ ki, mən sizi qoyacağəm.
Gəlüŋ imdi uğraşmağə ögümə,
Təfərrüc qılıŋ qılıc urdugümə.

Hər nə qədr ki bəhadirlər anuŋ öginə gəlür idilər, atası və əmmüsi əvəzinə və kininə anları öldürüb, məl'un canları damuyə göndərür idi. İmam Hüseyn (ə) qatı avaz ilən aŋa afərin oxuyub, əlüŋ var söylər idi.

Beyt:

Taŋrınuŋ afərini ol atayə
Ki, səni bəylə tərbiyət qılmış.

[697] *Azad övlad öz ata-babalarının yolu ilə gedər.*

Axir, kufilər anı ortaya dutub şəhid qıldılar və atasına və əmmüsinə yetürdilər. Əmma Hürrüŋ qulı ki, adı Qürrə idi, xacəsi ilən oğlınuŋ fəraqində ağlayub, köŋli anlaruŋ hicran odında biryan olub, ixtiyar cələvi **[233b]** əldən bıraxub məʾrəkəyə vardı və neçə kimsələr ilən səvaşə durdı və xəsmlərə möhlət qapusın bağlayub, çox namərdlər ədəm dərvazəsinə rəvan etdi. Andan İmam Hüseyn (ə) yanına gəlüb dedi:

– Ya Bin Rəsulullah, güstaxliğ edübəm, öz kərəmüŋdən məni məʾzur dut ki, həzə səvaş rəsmi və uğraş təriqi ögrənməyübəm və xacəmüŋ oğlı ilən fəraqində yanubəm. Bu gün istərəm ki, qədəmüŋdə can nəqdi nisar edəyim və daŋla Məhşərdə xacələr üsnə sərfərazlik qılayım.

Beyt:
Əgər məni buradə qulluğə qəbul edəsən,
Oradə Məhşər içində çoq iftixar edərəm.

İmam Hüseyn (ə) aŋa afərin etdi və ol işrət və naz ilən xürrəm və xoşdil meydanə vardı və səvaş eyləyə-eyləyə xacəsinə yetdi və şəhadət nəqdi ilən cavidan səadət məta'i satun aldı.

Misra:
Cəhandan gözlərin yumdi, səadət yüzini gördi.

Rəvayətdür ki, İmam Hüseyn (ə) bu dörd şəhidlərdən soŋra bir qatla daxi iki səfüŋ ortasına girüb durdı və buyurdı:

– Ey Şam ilə Kufə əhli, mən səvaşə müqəddəm olmadum, siz əvvəl mənüm yüzümə ox atdıŋız və mən həzə sizüŋ səvaşüŋizə yekdil dəgüləm və hala mənüm ləşkərümdən hiç kimsə ölməyübdür və Hürr ilən qərdaşı və oğlı ilə qulı siziŋ adəmləriŋizdən idilər ki, nüsrət ələmini durğuzub özini vəfadarlığ yolında fəda eylədilər. Mən **[234a]** bir qatla daxi sizə hüccət ilə dəlil gətürürəm, ta Qiyamət günində sizdən maŋa hiç hüccət lazim olmasun. Ey Taŋrı bəndələri, gəlüŋiz mənüm ilən üç işdən birisini yerinə[698] yetürüŋiz: Əvvəl ol kim,

[698] Əlyazmada: *yerə.*

maŋa yol veriŋiz, ta Yezid yanına gedəyim və əgər bəhsdən soŋra həqq anuŋ tərəfində isə və maŋa mə`lum olsun ki, bəylədür, anuŋlə bey′ət edəyim, yoxsa ol bilə mənüm ilən.

Düşmənlərdən birisi avaz verdi ki, səni qoyməzüz ki, Yezid yanına gedəsən, zira kim sən bir şirindillü və çabuksözlüsən. Olmaya ki, anı hikmət ilə aldayub əlindən xilas olasən və andan fitnəəngizlik eyləyüb məmləkətlərdə şurü qovğa düşürəsən.

İmam Hüseyn (ə) dedi:

– Çün bəylə eyləməzsiz, qoyuŋız ki, cəddüm mübarək rövzəsi üstinə varub mücavir olayım və ibadətə qiyam edüb zühadət ilən övqatümi keçürəyim.

Dedilər kim, munuŋ ilən daxi razi dəgülüz, çe mümkindür ki, Qüreyş və ərəb cahilləri yanüŋdə yığılub, daxi xilafət və imamət tələbində baş qaldurəsən.

Daxi buyurdı ki, çün bu ikiyə razi dəgülsiŋiz, mənüm adəmlərümə su verüŋ ki, aləmüŋ yaradılmışları aləmüŋ suyindən həqqüşşürbi var.

Dedilər:

– Sunuŋ hədisin söyləmə ki, əgər sənüŋ adəmlərüŋ varı susizlikdən həlak olacaq ola, suyi tapmazlar, məgər Yezid bey′ətindən soŋra. Və bizim sənünlən **[234b]** səvaşdən özgə hiç çarə qalməyübdür.

Şahzadə (ə) dedi:

– Pəs, səvaşdə biri-biri ləşkərdən meydanə giriŋiz, ta əri müxənnəsdən bəllü ola və hünərlü hünərsizdən zahir ola.

Dedilər:

– Ya Bin Fatimə, bəylə osun.

Və muŋa anuŋ içün razi oldılar ki, bəhadirlərüŋ rəsmi budur ki, mə`rəkələrdə öz qəbilə ilə oymağlarına mübahat və sərfərazlik edüb çox laf ilə gəzafuŋ qapusini açalar və hər hünər ki səvaş babında ögrənübdürlər, görsətsünlər. Çün bu sözi qəbul etdilər, İmam Hüseyn (ə) öz ləşkərinə qayıtdı.

Ömər Nəhs bir adlu bəhadir ki, adını Samir Azadi[699] oxur idilər, meydanə göndərdi. Samir bir bedəv atə minüb, bəglər təki silahlar qurşanub, atını cövlanə gətürüb, öz adını mə`rəkədə aşkar edüb "*həl min mubariz*"[700] avazı çıxardı. Bu məhəldə Züheyr bin Hüsam[701] Əsədi İmam Hüseynüŋ (ə) qarşusinə durmış idi, dedi:

– Ya Bin Rəsulullah, bu kişi ki, meydanə girübdür, bir bəllü pəhləvandur, maŋa icazət ver, ta varub anuŋlən həmnəbərdlik edəyim.

İmam (ə) aŋa rüxsət verdi. Və bu Züheyr Bəni Əsəd qəbiləsindən idi və bu yaxında öz vətənindən çıxub, İmam Hüseynüŋ qulluği özünə fərz eyləyüb, xidmətinə gəlmiş idi və bir mərdanə mübariz və fərzanə bəhadir idi. Çox **[235a]** mə'rəkələrdə zəfər şərbətin tə'n və zərb camından içmiş kişi idi.

Beyt:
Atın sürdi meydanə mərdan kimi,
Xüruş ilə cuş etdi əslan kimi.

Samirüŋ yolını dutdı. Samir həman ki Züheyri gördi, özinə titrəyüb ögütləməgə durdı və dedi:

– Ey hərb mə'rəkənüŋ şəhsüvarı vey səvaş meydanınuŋ namdarı, utanməzsən ki, mal ilə mənal və əhl ilə əyaluŋ tərk edüb, İmam Hüseynüŋ (ə) mədədinə varub, anuŋ işlərini düzətməgə yüz qoyubsən?

Züheyr dedi:

– Ey duni-nakəs, sən utanməzsən ki, Əhli-Beyti-Peyğəmbərüŋ yüzinə qılıc çəkərsən və dünyanuŋ fani ne`məti içün Qiyamətdə daimi üqubət və ələmi ixtiyar eyləyübsən?

Samir istərdi ki, daxi söz söyləyə, Züheyr filhal bir cidə anuŋ ağzına əylə çaldı kim, əŋsəsindən çıqub, canı damu maliklərinə tapşurdı. Züheyr Ömər Nəhsüŋ tipi qarşusində durub, bir nə'rə urub dedi:

---

[699] Farsca orijinalda: *Samir Əzdi*.

[700] [*Qarşıma çıxacaq*] *mübariz* (*pəhləvan*) *varmı*?

[701] Farsca orijinalda: *Həssan*; Əlyazmada da sonrakı vərəqdə: *Həssan.*

– Ya əhlül-İraq, hər kim məni xud bilür, tanur və hər kim tanımaz, bilsün ki, Züheyr bin Həssan Əsədi mənəm. Sizdən kimdür ki, mənüm ilən meydandə gəzə, ta bir zəman bir-biri ilə çalışub görəlim kim, kimə bəxt yarilik edər və kimi nikbət və məzəllət toprağında qanı tökdürür.

Beyt:
Eşqnüŋ meydanidür bu, munda çoxdur zəxmlər,
Qanı bu meydanə girən, başı tərk edən bir ər.

İraq və Şam əhli ki, ol aləmüŋ yeganəsinüŋ adını eşitdilər və mundan ilərü anuŋ şücaət avazəsi qulağlarına dəgmiş idi, varı başların **[235b]** öginə salub, anuŋ hərbindən qorxub kimsə cəvab vermədi. Ömər Nəhs anlarə bang verüb dedi:

– Bu, nə həmiyyətsizlikdür ki, siziŋ ögüŋizə gəlübdür. Axir biriŋiz meydanə giriŋiz və aduŋüzi pəhləvanlar dəftərində səbt eyləŋiz.

Nəsr bin Kəʿb küfilərdən bir səvar idi və ərəbdən bir sərdar və anı yüz yigitə bərabər dutar idilər. Mərkəbi sıçratdı və Züheyrüŋ qarşusinə gəlüb dedi:

– Ey ərəb bəhadirlərindən sərəfraz, neʿmətüŋdən əl götürdüŋ və qəvm ilə qərdaşuŋı tərk etdüŋ. Gəl, ta mən səni Übeydullah Ziyad yanına aparım, ta əna xaristanindən[702] rahət gülzarinə yetəsən.

Züheyr dedi:

– Ey ləʿin, Ziyadoğlınıŋ xidmətində bidʿət tikəni ətəgə yapışur və İmam Hüseynüŋ (ə) qulluğində hər saət məhəbbət rövzəsindən murad güli dərərəm və düşmənlərüŋ tikənindən hiç fikrüm yoxdur.

Şeʾr:
Dustlar yüzində çünkim açılur hər dəm gülüm,
Düşmənüŋ caninə Həqdən istərəm yüz miŋ ölüm.

Nəsr xiyal eyləmiş idi ki, Züheyri sözə məşğul eyləyüb, cidənüŋ ucı aŋa yetürə. Züheyr bu məʾniyi fəhm edüb, anı sözə məcal verməyüb, cidənüŋ bir zərbətilən anı ədəm yabaninə göndərdi.

---

[702] Əlyazmada: *xaristanində*.

Anuŋ qərdaşı Saleh bin Kə'b meydanə girdi. Züheyr cidəsi aŋa həvalə eyləyüb, Saleh atınuŋ bir yanına meyl eylədi cidəni rədd eyləməgə. Atı ürküb anı özündən düşürdi. Salehüŋ əyağı üzəngüdə qaldı, məcal olmadı ki, yəyağ ola. At sıçrayə-sıçrayə yügürür idi, **[236a]** ta anı parə-parə eylədi.

Andan soŋra Nəsrüŋ oğlı kim, atasından bəhadirrak idi, atası və əmmüsi qanın almağə meydanə girüb, atına bang verüb Züheyrüŋ qarşusinə gəldi. Həzə nəfəsi rast çəkmədin Züheyr anuŋ göbəginə bir cidə urdı ki, arxasından çıxdı.

Züheyr hiç kimsənüŋ atına və silahına iltifat etməyüb, özini piyadələrə ki, xəsmüŋ səfi ogində durmış idilər, urdı və çox namərdi həlak etdi. Daxi qayıdub meydanə gəldi və mübariz istədi. Nə qədr ki yigitlər anuŋ oginə gəlür idilər, cidə zərbi ilən anlaruŋ qanı tobrağ ilən bulaşdurur idi.

Beyt:
Bə-hər yan ki cövlan qılur idi at,
Qılürdi hərifi həm oradə mat.

Bir saətdə yigirmi yigiti əyağdən saldı. Ömər Nəhs Həcərül-Əhcarə yüz qoyub dedi ki, mənüm ləşkərümnüŋ arxası sənsən. Meydanə gir və Züheyrüŋ başını kəsüb maŋa gətür, ta hər hacətüŋ ki var isə, mövcud edəyim.

Həcər dedi:

– Heyhat, heyhat, tilkünüŋ nə həddi var əslanuŋ öginə varməg. Bu, Bəni Əsədüŋ bəhadiridür ki, yalğuz miŋ atlu ilən bərabərdür. Mən öz canümdən bizar olmayubəm ki, anuŋ qarşusinə varam.

Beyt:
Qaçan buğa əslanə qarşu durər?
Durərsə həm, ol dəm cəzasi görər.

Dəvası budur kim, üç yüz atlu üç yerdən aŋa busudə duralar və mən meydanə girüb, bir saət anuŋlən hərbü zərb edüb anı məşğul edəyim. Həman ki maŋa həmlə eyləyə, qaçub bir yanə ki busudur, **[236b]** varam və ol bir onakulu (?) bəhadirdür, əlbəttə, mənüm

ardümdən gələcəkdür. Ol yüz atlu[703] busudən çıxalar. Əgər anları pərişan qılsa, ikinci busuyə varam. Və əgər anları dağı dağıdub dönməyə, üçünci busuyə varam, ta ol üç yüz atlu anuŋ çəvrəsini dutub, hər birisi bir zəxm aŋa yetürələr. Olamı ki, anı tədbir ilən əyağdən sala biləüz.

Pəs, üç yüz atlu mükəmməl üç yerdə kəmin dutdılar. Züheyr bin Həssan bu mə'nidən qafil meydandə durub, mübarizüŋ intizarı çəkər idi. Dodağı susizliğdən quru və ağzı meydan toprağından tozlu ki, nagah Həcər gəldi və qarşusinə durdı.

Züheyr dedi:

– Ya İbnül-Həcər, yaqın gəl və mənüm ilən ərlər kimi meydandə gəz.

Həcər dedi:

– Mən səvaşuŋa gəlmədüm, bəlkə nəsihət eyləməyə gəlübəm. Ey Züheyr, sən bu qədər şücaət və pəhləvanlığ ilən nişün Ziyadoğlınıŋ yanına gəlməzsən, ta səni dünyalikdən əylə bay eyləsün ki, xəlqialəmə ümmidvarlik səbəbi ola. Axir bilməzsən ki, İmam Hüseynüŋ (ə) mal ilə mənal və dünyalik hiç yoxdur. Və ixtiyarü qüvvət və qüdrət daxi andan irağdur. Sənüŋ ucə himmətüŋ aŋa layiqdür ki, dəvlət əhli ilən peyvənd eyləyəsən.

Züheyr dedi:

– Bu dəvlət İmam Hüseyndən (ə) istəmək gərək ki, vilayət övciniŋ hümayidür və mənüm ali himmətüm anuŋ mülazimətinə rücu eylər ki, bilürəm Ziyadoğlı nabəkardur və hər kim ixtiyar cələvi anuŋ əlinə verübdür, **[237a]** qamu dunhimmət və bisəadətdürlər.

[***Beyt***]:

Dəvlət istərsən hümayun quşidən himmət dilə
Kim, qara zağ ilə qarğadə bu dəvlət yoxdurur.

Həcər xamuş olub qorxudan əyağı ilərü qoymaz idi. Züheyr atınuŋ cələvini salub aŋa həmlə qıldı. Həcər qaçmağə yüz urub kəmin-

[703] Əlyazmada: *atluyı.*

gah tərəfinə çıxdı. Züheyr anı bəylə görincə heyfi gəlür idi kim, ol qəddar, qılıcından xilas ola. Atına bang verüb ardından rəvan oldı. Çün Həcər busunuŋ meydaninə yetdi, Züheyr Əsədi özini aŋa yetürdi. Həcər çığırdı kim, ğurümə yetüŋ. Və özini atından aşağəyə salub yügürdi. Züheyr cidəni çəküb ardından atını sürdi. Bir uğurdan busudən ol yüz atlu[704] çıxub, sağına və solına dutub səvaşə durdılar. Züheyr zərrəcə əndişə qılmayub cidəni çəkdi və anlarə yüz urub, ol yüz atluyi dağıdub öldürürdi və kəsərdi və biçərdi. Anlar ikinci busuyə vardılar. Züheyr anlaruŋ ardından gedər idi, ikinci bu suyi daxi dağıtdı. Əlqissə, üç yüz atlu çəvrəsini dutdilar və Şis bin Rəb'i ol məhəldə bir cidə anuŋ çigninə əylə urdı ki, zirehi yırtub cidənüŋ cibri dalusinə yetdi. Züheyr döndi ki, Şisi həlak eyləyə, ol bədbəxti-şəqi qorxudan qaçub özini ləşkər içinə saldı. Züheyr cidəsi əldən buraxdı və qılıcın çəküb ol ləşkərüŋ içində gah sağə və gah solə taxt eylər idi və düşmənlərüŋ başlarını gəvdədən ayırur idi.

Beyt:

[237b] *Afərin ol qılıcə kim, bir zəman yüz xəsmini*
Dünya yüzindən cəhənnəmğə qılur idi rəvan.

Rəvayətdür ki, ol səvaşdə əlli atluyi öldürdi və mübarək cəsədinə doqsan yarə var idi. Çün İmam Hüseyn (ə) ol halı müşahidə qıldı, nökərlərinə dedi ki, Züheyrüŋ mədədinə varuŋ. Sə'd ki, İmam Hüseynüŋ (ə) qulı idi, on yigit ilən İmamuŋ mülazimlərindən varub, özlərini ol ləşkərə urub anlardan neçəsi öldürdilər və Züheyri çıxardılar. İki yüz ox, bəlkə artux anuŋ səlahinə qonmış idi və yarələrindən yağış qətrələr kimi qan axar idi. Anı ol hal ilən şahzadənüŋ xidmətinə apardılar. Ol həzrət atdan enüb başı üstində bir zəman durdı. Züheyr gözini açdı, İmam Hüseyni (ə) başı üstinə gördi. Ol qədr həzə qüvvəti var idi ki, yüzini İmam Hüseynüŋ əyağinə sürtüb hal dili ilən dedi:

Beyt:

Toprağ oldum Dilbərüŋ əyağı altında bu gün
Bəylə işrət kim, maŋa əl verdi, yoxdur kimsədə.

[704] Əlyazmada: *atluyi.*

İmam (ə) buyurdı:

– Ey Züheyr, mənüm ilən söyləş və köŋlüŋdə nə kim var, zahir et, ta aŋa durub həqgüzarlig eylim ki, sən təqsir etmədüŋ və cəvanmərdlik şərti yerinə yetürdüŋ.

Züheyr dedi:

– Ey Mustəfanuŋ oğlı, mənüm için bir içim savux su gətürübdürlər, səbr eylə, ta anı içim, andan sənüŋlən söyləşəyim.

İmam dedi:

– Ey dustlar, Züheyrüŋ yerini aŋa görsədübtürlər və **[238a]** ol uçmağ şərbətidür kim, aŋa dadubturlar və peyvəstə aŋa yetürürlər.

Şe'r:

Taŋrı içün hər ki başiŋdən keçər,
Həvzi-Kövsərdən dəmadəm su içər.

Bəs, Züheyr ağzını təprədür idi, əylə ki, bir kimsə bir nəstə çəynər ola. Andan soŋra bir nəfəs çəküb ruhiniŋ tutisi "*yurzəqun, fərihinə*`"[705] şəkəristanə uçdı.

İmam Hüseyn (ə) ağlayub dedi:

– Züheyr ol aləmdə mənüm qonşum olacəqdür və Taŋrı və Rəsuli andan razidürlər.

Rəvayətdür ki, çün Züheyr şəhid düşdi, iki ləşkər baxər idilər ki, daxi hanğı mərdi-mərdanə meydanə qədəm basəcəqdür və hanğı bəhadiri-fərzanə ərlik dadını verəcəqdür. Hər tərəfdən şum şamilər və kuf kufilərüŋ ləşkəri cəhalət tuqi və şərarət rayəti durğuzub səvaşə müntəzir idilər.

Nəzm:

Cəhənnəmlülər qamu ahəngüsil,
Yürəkləri pürxəşmü pürkinə dil.
Qamu od kibi yanduricivü gərm,
Nə mehrü vəfa və nə azərmü şərm.

[705] *Ruzi əta olunur, sevinirlər*. (Quran, 3: 169-170)

Və hər tərəfdən şahzadənüŋ ləşkəri varı səadətə yoldaş. E'tisam əli *"həsbunallahu və ni`iməl-vəkil"*[706] ürvətül-vüsqayə urmış, səbat əyaği *"fəqatilul-ləti təbği"*[707] mərkəbinə qoymış. Nə qədr ki az idilər, əmma həmiyyət üzərinə əylə idilər kim, əgər meşəniŋ əslanı ögünlərinə gələ, ərlik sərpəncəsi ilən bağrını yırtəyələr və əgər uca bulut ilən səvaşmalu olsa, əman verməyüb anı yerə endürələr.

Beyt:

Əllərinə hər birinüŋ bir cidə atəş kimi,

[238b] *Tərkeşində hər birinüŋ ildurum tək oxları.*

Bu halətdə Ömər Nəhsüŋ ləşkərindən iki atlu meydanə gəldilər: hər birisinüŋ altında dağ kibi bir at və əgnində bir silah zinətlü, əylə ki Lat və Mənat atları cövlanə gətürüb. Birisi dedi:

– Mənəm Yəsar – Übeydullah Ziyaduŋ qulı.

Və birisi dedi:

– Mənəm Salim – Ziyaduŋ oğlına xas müqərrəbi. Qanı bir kimsə kim, ömrindən tox olmış ola, bizim qarşumizə çıqsuŋ, ta cidənüŋ tə'ni ilən və qılıcuŋ zərbi ilən ruzigarindən damar çıxaralı.

Bərir bin Həsin və Həbib bin Müzahir istədilər ki, meydanə varalar, İmamuŋ yanına gəldilər icazət almağa. Şahzadə (ə) buyurdı kim, siz təvəqqüf eyləŋ. Pəs, bu halətdə Əbdullah bin Ömər Kəlbi İmam Hüseynüŋ xidmətinə gəldi və dedi:

– Ya Bin Rəsulullah, maŋa rüxsət ver.

İmam yəxşicə baxdı bir kişi gördi buğdabəŋizlü, uzunboylu, yoğunqollu, enlüköküslü. Bəhadirlik əsəri alnından zahir.

İmam Hüseyn (ə) dedi:

– Bu iki quli öldürən bu Əbdullah olacaqdur.

Əbdullahə dəstur verdi. Ol yəyağ, yalın qılıc ilən meydanə vardı. Ol iki nabəkar qullar sordılar:

– Sən kimsən?

Dedi:

---

[706] *Allah bizə bəs edər. O nə gözəl vəkildir*. (Quran, 3: 173)

[707] *Hücum edən tərəflə vuruşun*. (Quran, 49: 9)

– Mən bir yigitəm Bəni Kəlbdən və Əbdullah adluəm.

Yəsar və Salim dedilər:

– Biz səni tanımazuz, qayıt, ta Bərir Həmədani, ya Züheyr bin Qeys yanımıza gəlsünlər.

Əbdullah dedi:

– Ey namərd qullar, siziŋ işiŋiz oraya yetübdür **[239a]** ki, ləşkərüŋ bəhadirlərüŋ və mübarizlərüŋ, dilavərləriŋ dilərsiz. Əmma iki qul gərək idi ki, siziŋlən səvaşə idi. Əgər susizlik zərurəti olmasa idi, bizim təki azadlar sizüŋlən səvaşmək çoq arsizlik və namussizlikdür.

Bu sözdən ötrü Yəsar çox qəzəbə varub bir cidə Əbdullahə həvalə eylədi. Əbdullah anuŋ zərbətini rədd eyləyüb, bir qılıc anuŋ əyağinə əylə urdı ki, Yəsar atdan düşdi. Əbdullah qılıc ilən anuŋ başı üstinə gəldi kim, işini təmam eyləyə, Salim anuŋ əŋsəsindən gəldi bir iti qılıc ilən Əbdullahuŋ qəsdinə. İmam Hüseynüŋ (ə) ləşkərindən avaz çıxdı ki, ey Əbdullah, Salimüŋ qəsdindən həzər qıl. Əbdullah ol sözə mültəfit olmayub, qılıcınuŋ ucı Yəsaruŋ köksinə qoyub əylə baturdı kim, qılıcuŋ ucı arxasından çıxdı. Bu məhəldə Salimüŋ tiği aŋa yetmiş idi. Əbdullah əlin qaldurdı, Salim qılıcını aŋa yetürüb, barmağların qələm etdi. Əbdullah mütləqa mundan qayırmayub, qılıcın Yəsaruŋ köksindən çəküb, özini Salimə yetürüb bir zərb ilən anı cəhənnəmə göndərdi. Ziyadoğlınuŋ qulları munı görüb ittifaq ilən meydanə gəldilər və Əbdullahə dolaşdılar. Ol mərdi-mərdanə və bəhadiri-yeganə anlardan çoxını öldürdi və neçəsi yarələdi. Soŋucı şəhadət şərbətin içdi.

Nəzm:

Qoydi bəqa yolinə yüzin, girdi cənnətə,
Kimdür ki, bu yolə qədəmin qoymadı, degil.
[239b] *Şahü dilənci, qarı-yigit, türkmanlə tat,*
Hər kim cəhanə gəldi, gedər soŋra bəllü bil.

"Nurül-əimmə" rəvayət eylər ki, andan soŋra Bərir bin Həsin Həmədani ki, bir zahid idi məvali və bir abid idi taətə məşğul gündüz və liyali, İmam Hüseynüŋ (ə) icazəti ilən meydanə vardı və fəsih

dili ilən bəliğ avazı öz adını və nəsəbini deyüb rəcəzlər söylər idi kim, anlaruŋ mə'nisi budur.

Şe'r:

Mənəm pürhünəri-Məkki, adum Bərir,
Qılupmən bə-mərdi cəhan içrə seyr.
Quləm Əhli-Beytə bə-canü dil,
Müxaliflərə şərbəti-cangüsil.
Ətəklərinə urmişəm əllərüm,
Şəfaətcidürlər mənüm suçlərüm.

Bir səvaş oldı ki, fələki-səyyar andan heyran və xəncəruruci Mərrix yulduzi təəccüb barmağı dişinə dutub sərgərdan idi.

Beyt:

Rüstəm gər ol səvaş düşində görə idi,
Xacan əyağı bir-biridən götürə idi.

Bu hərbü zərb içində dedi:

– Ey müsəlmanları öldürənlər vey yüz miŋ vay ol bədbəxtlərüŋ halına kim, axirzəmanuŋ Peyğambəri (ə) əvladinə qəsd eyləyələr və qanlarını yerə tökələr. İmdi ilərü gəlüŋ, ta sizüŋ yaman kirdarıŋız cəzası ətəgiŋizə qoyayım.

Hər kim meydanə qədəm ilərü qoyar idi, başı gedər idi. Ol qədr anlardan öldürdi ki, müxaliflər təngə gəldilər və Yezid bin Məʾqəli anuŋ yamacına göndərdilər. Yezid geyimlü-geçimlü meydanə girdi. Həman ki Bərirə yaqın oldı, dedi:

– Ey Bərir[708], mənüm gümanum oldur ki, sən **[240a]** gümrahlərdənsən.

Bərir dedi:

– Mənüm yəqinüm oldur ki, biz doğrulərdənüz. Gəl kim, mübahələ eyləyəlim, yə'ni Taŋrıdan istəyəlim ki, hər kim batil yolə gedər ola, doğru yolə varanuŋ əlindən həlak ola.

[708] Əlyazmada: *Bürir.*

İbn Məʾqəl bu sözə razi olub, ikisi daxi əlləri götürüb Taŋrıyə yalvardılar ki, hər kim bərhəqq ola, gümrahə müzəffər olub nüsrət bula. Pəs ikisi bir-birinə dolaşdılar. İbn Məʾqəl bir qılıc Bərirə həvalə eyləyüb kargər olmadı. Bərir bir qılıc anuŋ başına əylə zərb ilən urdı kim, köksinədək yarıldı. Pəs, məʿlum oldı ki, hər kəs nə karədür və kim bərhəqq və kim bərbatildür.

Beyt:
Gər məhək təcrübəsi ortayə gəlsə, xoş ola,
Ta yüzi ola qəra kim ki, içində ğəşş ola.

Bərir andan soŋra İmam Hüseynüŋ (ə) qulluğinə gəldi. Şahzadə (ə) aŋa cənnət bəşarətin verdi. Ol pake'tiqad xacə bu muştuluqə xürrəm olub meydanə yüz qoydı və səvaş eyləyə-eyləyə nagah Bəhir Əvs Zəbi anı şəhid etdi. İmam Hüseyn (ə) buyurdı: *"İnnə Bərirən min ibadullahil-muxlisin"*[709], yə'ni yəqin ilən Bərir Taŋrınuŋ gərəklüsidür. Əmma Bəriri öldürən kişinüŋ bir əmmüsi oğlı var idi kim, adı Əbd bin Cabir idi, ilərü gəlüb dedi:

– Ya Bəhir, Bəriri öldürdüŋ. Taŋrı həqqiçün ki, ol Taŋrınuŋ dərgahində bir xassi-müqərrəb idi və əhli-Allahuŋ xassəsi idi.

Bəhir pəşiman olub, ləşkərdən çıxub, qorxu aŋa qalib olub, fəryad **[240b]** çəkə-çəkə yabanlarda gəzər idi, ta yüz məşəqqət ilən öldi və bu nahəqq qanı özi ilən Qiyamətə apardı.

Beyt:
Şəhidlər kini köŋlüŋdə olaruŋ qanı boynüŋdə,
Özüŋə fikr qıl, axir nolur işüŋi soŋüŋdə.

Əmma Bərirüŋ şəhadətindən soŋra Vəhb bin Əbdullahuŋ – Kəlbi oymağından vaqiəsidür. Və ol bir yigit idi sahibcəmal və bir novcəvan idi başdan əyağadək hüsn ilə xülq və kəmali-rüxsari dolu Ay kimi və saçı sünbüli zilli-hümay kimi. Qüdrət nəqqaşınıŋ qələmi ilən yüzinüŋ nəqşi çəkilmiş və əhsənüt-təqvim lövhinə çehrəgüşaylik eyləmiş.

[709] *Bərir Allahın sadiq bəndələrindəndir.*

Beyt:
Hər nə kəndişə[710] *bəyazinə çəkə kilki-xiyal*
Şəklüŋ, ey Şəmsü Qəməryüzlü du andan yegrak.

Və yeŋi evlənmiş idi, on yedi gün kürakan olduğündən keçmiş idi və həzə toy büsatını bir yan olmamış idi və anuŋ bir anası var idi Qəmər adlu. Durub oğlı yanına gəlüb dedi:

– Ey dilbənd fərzənd vey yigiti-ərcümənd, ey gözüm nüri vey köksümnüŋ eyşi və sərvəri, ey can çırağınuŋ pərtövi vey ruh bağınuŋ yeŋiyetişmiş yemişi və sərvi. Sənünlən bir məhəbbətüm var ki, istəmənəm ki, bir nəfəs səndən ayrılam və söhbətünlə ol qədr ülfətüm var ki, taqətüm yox ki, bir saət səni görməsəm.

Beyt:
Gər uyxudə olsəm, xiyalümdə sənsən,
Zəmirümdə sənsən, çü olsəm oyağ.

Mə`lum eylə ki, Mustəfanuŋ bağırparəsi **[241a]** və Murtəzanuŋ gözi və köksi nuri və sərvəri bu Kərbəladə qayğulu yabandə və pürbəla səhradə bivəfalar cəfasi ilə dərmandə qalupdur. İstərəm ki, öz qanuŋdan maŋa bir şərbət içürəsən, ta əmdügün süt əmcəgümdən saŋa həlal edəyim və təmənna və məqsudum oldur ki, can nəqdi ixlas təbəqinə qoyub, İmam Hüseynə (ə) pişkeş eyləyəsən, ta Qiyamət günində səndən razi olam. Ey ananuŋ canı, var və başünji ol sərvərüŋ öginə fəda qıl və Taŋrınuŋ ərləri kimi həva və həvəsi tərk et.

Nəzm:
Həvadar olduŋ ol kuyə, həvayə püşti-pa urgil,
Bu fikr içində yekru ol, du aləmğə qəfa urgil.
Gedərsən eşq yolinə, xirədğə əlvida eylə,
Büsati-qürb istərsən, bəlayə mərhəba urgil.

Vəhb dedi:

– Ey ana, bu yarım can ki məndədür, şahzadə ilən müzayiqə eyləmənəm. Əmma köŋlüm ol yeŋi gəlinə nigərandur ki, bu qürbətdə

[710] *Ki əndişə.*

bizim ilən müvafiqət eyləyüb. Həzə vüsal budağından yemiş dərməyübdür. Əgər icazət verürsən, varub andan hələallığ istəyim.

Anası dedi:

– Var, əmma, ey oğul, mə`lum et ki, əvrətlər əqldən naqisdürlər. Olməyə kim, əfsun və əfsanə ilən səni aldaya və sən anuŋ sözi ilən əməl eyləyüb, əbədi dəvlət və sərmədi səadətdən məhrum qaləsən.

Vəhb dedi:

– Ey ana, xatirüŋ cəm′ dut ki, biz İmam Hüseynüŋ məhəbbət kəməri can ortasında əylə bərk bağlamışuz ki, aldanmağ barmağı anı açа bilməz və anuŋ surətiniŋ nəqşi **[241b]** köŋül lövhinə əylə rəqəm etmişüz ki, məkr və qürur suyi anı yuyamaz.

Beyt:

Köŋülnüŋ səfhəsi üstində ol şahzadənüŋ mehri
Münəqqəş qılmışuz əylə ki, kimsə qazəməz ani.

Andan yeŋi gəlinüŋ yanına vardı və dedi:

– Ey dilnəvaz ənisüm vey vəfadar xatunum, mə`lum et ki, bu gün Rəsulullahuŋ oğlı bu Kərbəladə bəlayə mübtəladur və yalğuz və qərib qalupdur və şiələri ilən məvalilərdən irağ düşübdür. İstərəm ki, can nəqdi əyağinə nisar edəyim və səadət ayəti şəhadət müshəfindən oxuyayım, ta Qiyamət günində Taŋrınuŋ rizası və Rəsulullahuŋ xoşnudliği və şəfaəti və həzrət Fatimeyi-Zəhranuŋ mərhəməti və Əliyyi-Murtəzanuŋ inayəti (əleyhimussələvat vəs-səlam) halümə vasil və rüzigarümə rəfiq olsun.

Gəlin yürəgindən bir ah çəküb dedi:

– Ey qəmgüsar yarum və rüzigarum munisi, yüz miŋ həzar müqəddəs canlar İmam Hüseynüŋ rizasınə fəda. Nola idi ki, şəriətdə dişilərə rüxsət ola idi səvaş etməgə, ta mən daxi canümi aŋa fəda eyləyə idüm. Əmma yəqin bilürəm ki, hər kim bu gün İmam Hüseyn içün canını fəda eyləsə, Qiyamət güni kəramət Büraqinə minüb cənnətə girəcəkdür və uçmağdə hürüleyn ilə övqatını keçürəcəkdür. Gəl kim, bilə şəhzadənüŋ hüzurinə varub bir şərt eyləyəlim ki, daŋla mənsiz cənnətə əyağ basmayasən və bu məhəbbət ilə birlik anda bər-

qərar qalsun və sənüŋ rəfiqi **[242a]** və ənis və qəmgüsarı darül-qərardə mən olam.

Vəhb dedi:

– Yaxşı ola.

Bəs, ikisi İmam Hüseynüŋ (ə) qulluğinə gəlüb, gəlin dedi:

– Ya Bin Rəsulullah (ə), eşitmişəm ki, hər şəhid ki, atdan yerə düşər, firdövs huriləri anı öz kənarində yer verürlər və Qiyamətdə daxi cüfti və rəfiq və həmnişini ol olacaqdur. Və bu yigitüŋ daiəsi budur ki, şəhadət şərbətin içə və mən andan təmə` ilə təvəqqöm yoxdur və mən bir qəribi-biçarəəm və ata və ana və qərdaş və qızqərdaş və qəvm ilə qəmgüsarum yox. Hacətüm oldur ki, Qiyamət ərsəgahində məni istəyüb bulsun və mənsiz cənnətə əyağ basmasun və məni sizə tapşursun, ta siz məni Əhli-Beytiŋizə tapşurəsiz, ta Əhli-Beytüŋ hərəmində bir qəravaş olayım və qulluğ və xidmətkarlik can ilən yerinə yetürəyüm, çe yəqin bilürəm ki, çün ismət sərapərdəsində olam, ta məhrəm əli mənüm ətəgümə yetməz.

İmam Hüseyn (ə) ağladı və əshab daxi ağlaşdılar. Vəhb dedi:

– Ya Bin Rəsulullah (ə), qəbul qıldım ki, Qiyamət günində anı istəyim və çün cəddi-büzürgvaruŋ şəfaəti ilən cənnətə girmək rüxsət tapım, ansız ol mənzilə əyağ basmayım və anı sizə tapşurdum və siz hərəmi-möhtərəmiŋizə tapşuruŋ.

Munı deyüb meydanə vardı ömri-girami kibi bir mərkəbə minmiş və Davudi zireh geymiş və bir xiftan anuŋ çəkmiş. Bir cidə əlində və Məkki qalxan çignində **[242b]** bir rəcəz bünyad etdi kim, mə`nisi budur:

Beyt:
Bağışlədi zövq ilə Vəhb can
Şəhzadə Hüseyn itləriçün.
Ursun qılıc ol qədr ki, axsun
Düşmən qanı misali-Ceyhun.

Bəylə atın sürər idi, ta meydanuŋ ortasına girdi. Atuŋ cələvini geriyə çəküb, bir qəsidə İmam Hüseyn (ə) mədhinə əda qıldı. Andan atını düşmənlər yüzinə cövlanə gətürüb, neçə hünərlər izhar etdi ki,

qamu tanış ilən biliş, dust ilə düşmən aŋa afərinlər etdilər. Andan mübariz istədi. Hər kim anuŋ yamacına gəlür idi, gahi cidə ilən anı iyərdən götürüb yerə urar idi və gahi qılıc yeli ilən anı yer üstindən xaşak kimi süpürür idi. Bəylə kəsərdi və biçərdi və götürürdi və süpürür idi, ta çox bəhadirləri toprağə saldurdi və küştədən təpələr və püştələr düzədür idi. Andan anası yanına gəlüb dedi:

– Ya ümmah, məndən razi olduŋ?

Anası dedi:

– Bəli, çox ərlik göstərdüŋ və nüsrət ələmini durğuzduŋ və mənüm yürəgüm düşmənlər qətlinə tazə qılduŋ. İmdi munı istərəm ki, ta gəvdəndə can var, səvaş rəsmi əldən qoymayub çəkişəsən.

Vəhb dedi:

– Ey ana, dedügüŋ can-baş ilən yerinə yetürəyim, əmma köŋlüm ol gəlin içün nigərandur. Əgər buyruğuŋ olsa, varayım və anı vida eyləyüb bir daxi yüzini görəyim ki, bu, soŋ **[243a]** didar oləcəkdür.

Nəzm:

Taŋrıçün, ey bağban, mənᵓ etməyüb qoygil məni,
Ta görəm bir qatla daxi ol güli-novrəstəni.
Uyxudən bir qatla, ey bəxtüm, oyan, ta kim baxə
Ol məhüŋ fərrux cəmalin aşiqi-dilxəstəni.

Anası icazət verüb, Vəhb gəlinüŋ çadırinə yüz qoydı. Həman ki çadırə yaxın oldı, bir nalə üni eşitdi ki, fəraq odından əfğan çəkər idi və iştiyaq hərarətindən odlu ah gögə yetürüb der idi:

Beyt:[711]

Mənüm yürəgümə qoydi zəmanə dağı-fərağ
Ki, gecə kibi qəra oldı dəştü dağı-fərağ.

Vəhbüŋ taqəti qalmayub, özi atdan düşüb, çadırə girdi, öz xatunı gördi, başı həsrət dizi üsnə qoyub, gözindən bulağlar axdurub zarzar ağlar idi. Dedi:

[711] Əlyazmada: *Misra.*

– Ey xatunum, nə işdəsən və haluŋ nədür və bu zariliğ ilən nalələr çəküb nə umarsən?

Xatunı dedi:

– Ey canumuŋ aramı və könlümüŋ ənisi və kamı.

Şe'r:

Qəmlü könlüm var, necə çəkmim hər dəm yüz ah,
Yürəgüm yanər, necə ağlamasun[712] *göz zar-zar*.

Vəhb oturdı və anuŋ başını dizi üstinə qoyub, bir-biri ilən söyləşür idilər ki, nagah meydandən bir avaz çıxdı ki, "*həl min mubariz*", yə'ni kimsə varmı kim, meydanə girə. Vəhb munı eşidincə dərhal sıçrayub dedi:

[***Beyt***]:

Getdük, ey mahi-pəriru, gəl vida'üŋ edəyim,
Yüziŋi bir dax görüb andan səvaşə gedəyim.

Andan ata minüb meydanə əzm eylədi.

[243b] Gəlin çadırdən dışxarı gəlüb, Vəhbüŋ ardına baxub zar-zar ağlar idi və hal dili ilən bu mə`niyi söylər idi:

Beyt:

Türkən ol dilbər yanümdən getdi, ansız nedəyim,
Qalmışam məhzunü heyran evə necə gedəyim?

Əmma çün ol şiri-jiyan mə`rəkəyə vardı, bir bəhadir ki, meydandə idi və anuŋ adı Möhkəm bin Tüfeyl və güclü mübariz idi, atı üstindən götürüb əylə yerə urdı ki, sümükləri xaşxaşca oldı. İki ləşkərdən qəriv qopdı və anuŋ öginə hiç səvaşcı daxi gəlmədi. Vəhb atına nəhib urub, düşmənüŋ tipinə urub, sağə və solə taxt eyləyüb, at ilə atluyi cidə ucı ilən mə'rəkə toprağına salur idi, ta cidəsi parə-parə olub əl urdı və canalıcı qılıcın qınından çəküb əli və qolı uzatdı.

Beyt:

Qanda kim bulurdi qalqan ilə tiğ,
Parə qılurdi tiği- bidəriğ.

[712] Əlyazmada: *ağlama.*

Fələk yüz miŋ göz ilən anuŋ meydanində xirə qalmış idi və mələk yüz tümən dil ilən anuŋ xəncər urduğinə afərin oxur idi. Əlqissə, müxalif ləşkəri anuŋ cəngindən təngə gəldilər. Ömər Nəhs ləşkərinə bang urub, anuŋ çəp-çəvrəsini dutdılar və hər növ ilə tə`nü zərb aŋa həvalə edüb, atına bir ox urdılar. At əyağdən düşüb, Vəhb yəyağ qalub, əli-əyağı əz bəs ki ox dəgdürmiş idilər, işdən qalub yerə düşdi və kafərlər anuŋ mübarək başını **[244a]** kəsüb, İmam Hüseynüŋ ləşkəri oginə atdılar. Anası qopdı və oğlınuŋ başını götürüb, yüzini yüzinə sürtüb, zarilik edüb der idi:

– Ey ananuŋ canı və ananuŋ hələlzadəsi, imdi mənüm rizami təmam hasil etdüŋ və Taŋrınuŋ şəhidlərinə vasil olduŋ.

Pəs ol başı gətürdi və gəlinüŋ ətəginə qoydı. Gəlin bir milcə götürüb, ərinüŋ qanına bulaşdurub gözinə çəkdi və canuŋ ortasından bir ah çəküb, əcəl başına taxt gətürüb, canın alub ərinə yetürdi. Və bir rəvayət daxi derlər ki, ol zəifə meydanə girdi və özini Vəhbüŋ qanına bulaşdurub, anuŋ toprağı ilən qanı yüzinə sürtər idi. Nagah Şimrüŋ məlʿun gözi aŋa dəgdi, iki qulı göndərdi, ta bir gürz ol xatunuŋ başına urub hələk etdilər. Və bir nəql daxi rəvayət edərlər ki, anası oğlınuŋ başını götürüb mə`rəkəyə gəldi və oğlını öldürənüŋ köksinə urub anı hələk etdi və qayıdub çadıruŋ ağacı götürüb, düşmənlərə həmlə qilub üç kişiyi öldürdi. Andan İmam Hüseyn (ə) anı çağırub qayıtdurdı. Ol üzrlər diləyüb dedi:

– Ey Mustəfanuŋ fərzəndi, məʿzur dut. Nola idi ki, yigitligüm çağı olaydı kim, oğlumuŋ qanını bu şum taifələrdən görə idilər ki, necə alur idüm.

Rəvayətdür ki, Vəhb Kəlbinüŋ şəhadətindən soŋra **[244b]** Ömər bin Xalid Azadi[713] çıxdı və ol bir kişi idi uzunboylu, gögçəkyüzlü. Bir tazi ata minüb, atına münəqqəş cövşən geydürmiş. Və bir dəst silahipadşahanə geymiş, atəşbar qılıcından ərlərüŋ yüzi suyini aparur idi və gövhərlü xəncərindən ərlik gövhəri zahir edər idi və bu rəcəzlər söylər idi.

[713] Farsca orijinalda: *Əzdi.*

Şe'r:
Ey nəfsi-əziz, tərki-can et,
Uçmağ saruyə ani rəvan et.
Əhməd yolinə şəhid olmağ,
Cənnətdə qüsurü huri bulmağ.
Sə`y eylə bu gün səvaş içində,
Qərq ol qanuŋ ilə yaş içində.
Meydandə Hüseyn xatiriçün,
Vergil duagil necə çevü çün.

Çoq kafərləri öldürdi və qalın münafiqi damuyə göndərdi. Andan *"cənnati-təcri min təhtihal-ənhar"*[714] riyazətinə mütəvəccih oldı.

Bəs anuŋ oğlı Xalid bin Ömər meydanə varub ərlik həmiyyət və bəhadirlik qeyrəti zahir edüb, səvaş qapusı ol məl'unlərüŋ yüzinə açub, meydanuŋ toprağı ol namərdlərüŋ qanından lə`li-Bədəxşan edər idi və mə'rəkənüŋ səfhəsi odlu qılıcından münafiqlərüŋ bağırından əfşan qılur idi. İldırım kibi xəncərgüzarlik görsədür idi və şəhabi-saqib yulduzi kimi cidəsi canfəşanlik edər idi. Soŋra atası kimi cənnətə vasil oldı.

Nəzm:
Gün vəslinə zərrə vasil oldı,
Həqq yolinə vardı qabil oldı.
Canan ilə can aralarında
Can idi, çü verdi, kamil oldı.

Andan soŋra Səʾd bin Hənzələ Təmi ki, hərgiz **[245a]** hiç səvaşdən yüz döndərməmiş idi, meydanə girüb, qılıc şö`ləsi ilən ol bədbəxtlərüŋ həyati xərməni badi-fənayə verür idi və navəki-cansuz heybəti ilən xəsmüŋ bağrını dələr idi.

Beyt:
Hərarət dimağində cuş eylədi,
Səf içində bangü xüruş eylədi.

[714] *Altından çaylar axan cənnətlər.* (Quran, 2: 25)

Və çoq mübarizlər əyağdən salub canları damuyə göndərdi və çox hərbü zərbdən soŋra bir namərd aŋa həmlə gətürüb anı şəhid eylədi.

Andan soŋra Əmr bin Əbdullah Nədhəci səvaş dəŋizində qutələr urub, nəhəngüŋ dişi kibi bir tığ əlində badrəftar bir atə minüb karzarə girdi.

Beyt:
Dağə gər anuŋ qılıci qılsə idi bir güzar,
Qorxudən simabtək olaydi daşlar biqərar.

Səvaş bünyad eylədi və geŋ yeri düşmənlərə dar qılub, Yəməni tiğüŋ səfhəsi bəhadirlərüŋ qanı ilən boyatdı və aqibət, düşmənlərüŋ zərbindən ruhinüŋ quşi toprağ zindanindən əflak aşiyaninə pərvaz eylədi.

Andan soŋra Cəmad[715] bin Ənəs meydanə girüb, atı səgridür idi və nüsrət ələmi durğuzub, bəhadirlik tiği ilən xəsmüŋ başı cəsədindən ayırub[716], nüsrət çovganı ilən top oynar idi və səbr ilə qərar binası əşrar könüllərindən irağ edər idi. Aqibət, əcəl xədəngi aŋa dəgüb, şadiman könli ilən şəhidlərə vasil oldı.

Beyt:
Hər nəfəs yel aparur bustan içindən bir güli,
Bülbüli-miskinüŋ aşüftə qılur canü dili.

[245b] Andan soŋra Vəqqas bin Malik mə`rəkəyə girdi.

Beyt:
Atinə qəmçi urdi ərlərüŋ,
Girdi meydan içində sərvərtək.

On iki adəmi öldürəndən soŋra bir namərd aŋa taxt gətürüb cidə ucı ilən anı toprağə saldı.

Nəzm:
Şəhadət camidən bir cür`ə içdi,
Səadət doni öz boyinə biçdi.

---

715 Farsca orijinalda: *Həmad.*

716 Əlyazmada: *ayrılıb.*

Andan Şərih bin Əbdullah məsafə varub, sağə və solə taxt aparub, ərləri iyər döşəgindən cidə uci ilən götürüb yerə urər idi.

Şe'r:

Bə-hər yan ki cövlan edərdi, anı
Qılıcla tökərdi mübariz qanı.
Cidanuŋ çü boyun uzadur idi,
Müxaliflərüŋ alur idi canı.

Bu halətdə atından xəta olub, ol səvabişlü yerə düşdi. Bir qoşun çəvrəsini dutub peyapey zəxmlər urdılar və anı şəhid qıldılar.

Andan Müslim bin Əvsəcə Əsədi[717] meydanə girdi və ol bir mərdanə ər idi və bir fərzanə sərvər idi. Tədbiri qayim və əndişəsi sabit. Adərbaycan ğəzasində əzim hünərlər zahir etmiş idi və müşrikləri canə yetürmiş idi və neçə qatla əmirül-mö'mininüŋ (ə) yanında kəlamullahı keçürmiş idi və özini ol mərtəbəyə yetürmiş idi ki, həzrət əmirül-mö'minin aŋa qərdaş oxur imiş. Xətərlərdən qılıcı kimi qəndil bəŋizlü çıxmış idi və mə'rəkələrdə cidəsi təki sərfərazlik edər idi.

Beyt:

Gürzi aznavurlərüŋ başları ufatmış idi,
Tiği cövşənlər sökərdi gəvdələrğə ərlərüŋ.

Əmirül-mö'minin Hüseyn (ə) icazəti **[246a]** ilən meydanə vardı və cövlanlar urub, bir qəsidə İmam Hüseynüŋ (ə) mədhində oxuyub, öz adı və nəsəbi və oymağı andan soŋra zahir edüb dilinə keçürür idi. Bu halətdə bir bəhadir xəsmlərdən çıxub, yamacına gəldi və dəŋiz təki cuşü xüruş eyləyüb, həman ki yaxın oldı, Müslimə həmlə etdi. Müslim anuŋ həmləsini rədd eyləyüb bir cidə sağ qaburğasına yetürdi kim, cidənüŋ cəbri sol tərəfindən çıxdı. İmam Hüseynüŋ (ə) ləşkəri xüruş ilən təkbir avazı çıxardılar və sələvat nəʾrəsi gögə yetürdilər. Ömər Nəhsüŋ ləşkəri xirəvü tirə olub, xəcalət başı öginə saldılar. Bir mübariz daxi çıxdı, anı daxi cəhənnəmə göndərdi. Birisi daxi meydanə gəldi, ol daxi damu itlərinə vasil eylədi. Əlqissə, peyapey mübariz

[717] "Hədiqətüs-süəda"da: *Müslim Azərbaycani.*

gəlür idilər və canı malikə tapşurur idilər, ta əlli adəm cidə ilən öldürdi və qılıcı qınından çəküb, ol nabəkarlərdən damar çıxardı və altı kişi inkar əhlindən haviyəyə rəvan etdi. Aqibət, bir əzim yarədən ki, gəvdəsində idi, əyağdən düşdi. İmam Hüseyn (ə) və Həbib bin Müzahir üstinə yetdilər, gördilər ki, həzə gəvdəsində bir rəməq baqi qalubdur. İmam Hüseyn dedi:

– Ey Müslim, taifələrimizdən neçəsi əcəl ilən vardılar və neçəsi ki diridürlər, ölümüŋ intizarini çəkərlər. Qayğulənmə ki, biz daxi dəmbədəmdür ki, saŋa yetəcəgüz **[246b]** və varımız Mustəfa və Murtəza (ə) yanına varuruz.

Müslim həman ki bu sözi eşitdi, gözini açdı və şahzadəyə baxub güldi. Ariflərüŋ huş qulağı ol saətdə anuŋ güldügindən bu nüktəni eşitdilər.

Misra:[718]

Ey xoş ol yol kim, sənüŋtək anda bir yoldaş ola.

Andan Həbib bin Müzahir dedi:

– Ey Müslim, "*əbşir bil-cənnə*"[719], yə'ni saŋa [cənnət] bəşarət olsun.

Müslim zəif avaz ilən dedi: "*Bəşşir bi-xeyr min Əllah, ya Həbib*".[720]

Bəs Həbib dedi:

– Ey Müslim, əgər bilür ola idim ki, səndən soŋra dünyadə diri qalacağəm, səndən bir vəsiyyət iltimas eylər idim, əmma yəqin ilən bilürəm ki, həm bu ləhzədə saŋa yetəcəgəm və dirilik yüki bu fani dünyadən götürüb köçəcəgəm. Andan ötrü vəsiyyət diləməzəm.

Müslim dedi:

– Mənüm vəsiyyətüm saŋa oldur ki, bu kafərlərüŋ səvaşında müdara və mühaba eyləməyəsən və zarilik qaidəsində zərrəcə təqsir etməyəsən və şahzadə nəzərində ol qədr səvaş etmək gərəksən ki, canüŋi təslim edəsən.

---

[718] Əlyazmada: *Beyt*.

[719] *Cənnətlə müjdələnmiş*.

[720] *Ey Həbib, Allahdan sənə xeyirli müjdələr olsun*.

Həbib dedi:

– Bə-Rəbbül-Kə`bə ki bəylə eyləyəcəgəm və bu vəsiyyəti yerinə yetürəcəgəm.

Nəzm:

Hüseyn qulluğinə iftixar edəcəgəm,
Qılıclə gürzü sinan karzar edəcəgəm.
Məsaf içində hərəsi müxalif əslancə,
Cidəm ucilə oları şikar edəcəgəm.

Müslim aŋa dua qılub, şahzadəyə yüz qoyub dedi:

– Ya Bin Rəsulülah, getdüm **[247a]** ki, cəddüŋ qulluğində sənüŋ gəldügüŋ muştuluqini aparam və ataŋa (ə) qədəmüŋdən xəbər verəyəm.

Andan gözini yumub can nəqdini ərvah qabizinə tapşurdı.

Rəvayətdür ki, ol saətdə ki Müslim düşmiş idi, Ömər Nəhsüŋ ləşkərindən neçəsi şadilik etdilər ki, Müslim Əvsəcə öldürdük. Şis bin Rəb`i anlarə sögmək dilin açub dedi:

– Bir kimsənüŋ öldürməginə şadilik eylərsiz ki, Adərbaycan ğəzasində andan ilərü ki mö`min ilə kafərüŋ səfləri düzələ, müşrikləri həlak eyləmiş idi.

Bu, əcəb halətdür ki Şis bin Rəbi ol qəvmi ki, Müslim Əvsəcənüŋ qətlindən xürrəmliğ edər idilər, mən′ qılur idi və özi İmam Hüseynüŋ qətlinə ki, Rəsulullahuŋ (ə) sibti və əziz fərzəndi idi, şadilik edər idi.

Misra:

Əfsus ki, yox idi olardə insaf.

Rəvayətdür ki, Müslimüŋ oğlı atasınuŋ şəhadətindən soŋra ağlayə-ağlayə meydanə yüz qoydı. İmam Hüseyn (ə) dedi:

– Ey yigit, qayıt ki, ataŋ şəhid düşdi və əgər sən daxi şəhid düşəsən, anaŋ zaye qala.

Oğlan istər idi ki, qayıda, anası çığırub dedi:

– Ey oğul, əgər bu işdən dönəsən, hərgiz səndən razi olmayam.

Oğlan mə`rəkəyə yüz qoydı. Anası ardından rəvan olub, anı səvaş etməgə dəlalət edərdi və der idi:

– Ey oğul, susizlikdən qorxma **[247b]** ki, həm bu saət Kövsər saqisünüŋ əlindən Kövsər şərabı içəcəksən.

Yigit səvaşə gəlüb, igirmi münafiqi öldürüb cəhənnəmə vasil eylədi. Andan əyağdən düşdi. Müşriklər başını kəsdilər və anası öginə atdılar. Ol yanmışyürəklü, oğlınuŋ başını götürdi və afərinlər edüb yüzinə baxər idi və hər kim o halı görər idi, zar-zar ağlar idi.

Andan soŋra Hilal bin Rafe` Bəhəli meydanə yüz qoydı və həm ol yaxında kürəkanlik xəl'əti geymiş idi və izdivac çənağından ibtihac şərbəti içmiş idi. Ol saət ki səvaşə əzm eylədi, gəlini ətəginə əl urdı kim, meydanə girmə, olmaya kim, hələk olasən.

Hilal dedi:

– Ey əbləh, məndən irağ ol. Nişün mən özgələrdən əksük olam. Məgər İmam Hüseynüŋ (ə) xidmət kəməri gəzaf ilən belümə bağlamışam və də'vi üzərinə mə'nisiz qulluğinə varmışam. İmdi aləmdən köŋül götürüb, həvadarlik ələmi ixlas ilən durğuzmışam.

Beyt:
Yolində anuŋ can fəda eylaram,
Məhəbbətlarinə vəfa eylaram.

Bu söz İmam Hüseynüŋ (ə) qulağına yetdi, dedi:

– Ey qərdaş, sənüŋ əyaluŋ köŋli[721] saŋa nigərandur. İstəmənəm ki, yigitlikdə fəraqdə giriftar olasız.

Hilal dedi:

– Ya Bin Rəsulullah, əgər sənüŋ məhəbbətüŋi qoyub və özgənüŋ işrətinə məşğul olam, Qiyamət günində cəddüŋə nə cəvab verəyəm **[248a]** və bu haluŋ üzrini necə diləyəm?

Bəs İmamdan himmət diləyüb məsafə əzm etdi. Dəmürlü tavülğə başində və dolu ay kibi qalqan çignində bir qəndil oxdan doptalu, belində cövhərlü qılıc həmayilində. Və bu Hilal bir oxatıcı idi ki, üqab kib xədəngi düşmənüŋ bağırından təmə' alur idi və laçıntək oxı xəsmüŋ yürəgi seyd eylər idi.

[721] Əlyazmada: *köŋliŋi.*

Beyt:
Yayindən çün oxi pərvaz edərdi,
Müxalif bağridən təmə` yeyərdi.

Həman ki meydan ortasına yetdi, fəsihanə bir rəcəz bünyad eyləyüb mübariz istədi. Şamludən bir Qeys adlu öginə gəldi. Həzə iki yüz qədəm irağ idi kim, Hilal yayına bir ox qoyub anuŋ köksinə həvalə eylədi. Qeys qalqanı öginə dutub istər idi kim, rədd eyləyə, ox əylə səhm ilən gəldi ki, qalxanı söküb, köksinə batub arxasından çıxdı və sufarinədəkin yerdə qərq oldı. Ömər Nəhsüŋ ləşkəri bu zərbətdən qorxdılar və hiç kimsə qədəm ilərü qoymaz idi. Və Hilal müxalif qolınuŋ qarşusinə gəlüb hər ox ki atar idi, bir bəhadir əyağdən salur idi və hər xədəngi kim, yay dəŋizindən çıxar idi, bir nəhəngi bican eylər idi.

Şe'r:
Ədu saru çün oxi oldi rəvan,
Müxalif tənindən rəvan oldi can.
Yayın qəbzəsinə çəkərdi cü əl,
Ədуyə yetürürdi filhal əcəl.

[248b] Rəvayətdür ki, yetmiş ox sənduqində idi və hər bir ox ilən bir düşməni həlak eylər idi. Və çün oxları tükəndi, qılıcı qınından çəkdi və bəhadirlik eyləyüb, düşmənlərüŋ canı təndən və xəsmlərüŋ başı boynından qoparur idi, ta pak ruhi qeyb carçısından "*Ərcii ila Rəbbikə*"[722] avazı eşidüb, "*fədxuli fi ibadi*"[723] aşiyaninə təvəccöh eylədi.

Andan soŋra Əbdürrəhman bin Übeydullah Yəzəni[724] meydanə gəlüb igirmi səkiz lə`ini öldürdi və şəhadət vəsiləsi ilən qeyb aləminə yetdi.

Andan soŋra Yəhya bin Səlim Əlmazəni qılıc alub mə'rəkəyə girdi və ol bir səvaşlar görici və hərbü zərblər edici kişi idi. "*Məhyayə*

[722] *Ağanın yanına qayıt*. (Quran, 12: 50)
[723] *[Saleh] bəndələrimin zümrəsinə daxil ol*. (Quran, 89: 29)
[724] Farsca orijinalda: *Abdullah Yəzəni*.

və məmati lillahi Rəbbil-aləmin"[725], – deyüb xəsmüŋ sağ qolını sındurub, sol qolına varub hər kimə yetər idi, qavun kimi qılıc ilən iki biçər id. Axirüləmr, Yəhya bin Səlim təslim məqamində səlim qəlbi ilən darüs-səlamə yetdi.

Andan soŋra Əbdürrəhman bin Ürvə Qəffari mə`rəkəyə vardı və üç beyt oxuyub

Şe'r:
Mən təki yox ərəbdə hiç yigit,
Nə ərəb, bəlkə cümlə aləmdə.
İncə kim qıldı dövr çərxi-fələk,
Görmədi məncə nəsli-adəmdə.
Murtəza oğlinə fəda edərəm
Sidq ilən canü başı bu dəmdə.

Həman meydanə girincə bir saətdə otuz münafiqi yerə saldı. Qəzadən bir **[249a]** ox alnına dəgdi və filhal anı çəküb bıraxdı və solə və sağə gəzüb bavücud ki ol zəxm aŋa yetmiş idi, on iki faciri öldürüb özi şəhid düşdi.

Andan soŋra Malik bin Ənəs Maliki İmamuŋ (ə) rüxsəti ilən [ilərü] çıxdı və Ömər Nəhsüŋ yamacına durub aŋa dedi:

– Ey Ömər, əgər ataŋ Sə`d Vəqqas diri ola idi və bilsəydi ki, səndən bu əməl zahir olacəqdür, öz əli ilən başuŋ kəsər idi və aləmi sənüŋ napak vücudüŋdən pak edər idi.

Ömər Nəhs bu sözdən münfəil olub ləşkərinə bang urdı ki, bir mübariz meydanə göndərüŋ, ta anı dindürsün və səvaş fikrindən həsəbü nəsəb zikrini aŋa unutdursun. Bir namərd çıxdı və Malik ilən çox karzarlar etdilər. Aqibət, Malik şəhadət dəvləti bulub cənnati-Ədnə vardı.

Andan soŋra Ömər bin Müta' əl-Cə'fi meydanə vardı və bir rəcəz söyləyüb hərbə məşğul oldı və düşmənlər ilən çox çəkişdi. Hər tərəfə ki qılıc sürər idi, müxaliflərdən əsər qoyməz idi. Ol qədr kuşiş etdi ki, şəhadət izzətinə fayiz olub darün-nəimə vardı.

[725] *Həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha aiddir*. (Quran, 6: 162)

Nəzm:
Hər nəfəs bir bəxtlü uçmağə əzm eylər, gedər.
Anları görənlərüŋ can quşi ardindən uçər.

Andan soŋra Qeys bin Mənbe avçı əslan kimi və dağlu qəplan təki meydanə qədəm basub, bir rəcəz bünyad eylədi kim, məʾnisi budur.

Beyt:
Mənəm Qeys kim, ögümə durməz əslan,
[249b] *Qatümdə zəbundur həzaran çu dəstan.*
Əgər Rüstəmi-Zal diri olaydı
Ögümdən qaçardı hərasanü tərsan.
Hüseyni-Əliçün girüpmən məsafə,
Nə bakum var, ər gəvdədən getsə bu can.
Şəhadət buləm eşqinə gər bu gün mən,
Şəhidlər, daŋla olam şadü xəndan.

Yayını qolına saldı və girü dar kəməndi qancuğəsinə bağladı, güclü qolı ilən meydan toprağı düşmənlər qanı ilən bulaşdurdı. Salari-Kufi Ömər Nəhsüŋ sol qolından çıxub anuŋ qarşusinə gəldi. Gördi kim, anuŋ hərifi dəgül, qaçmağə yüz qoyub yaban tərəfinə vardı. Qeys atına nəhib urub, ardından taxt eyləyüb səhradə aŋa yetdi. Ömər Nəhs bir qoşun atlu anuŋ mədədinə göndərdi. Həman ki Qeys Salarə yetdi, bir cidə aŋa yetürmək istədi. Atlular yetdilər və peyapey yarələr kim, aŋa yetürdilər, bihuş etdilər. Salar diri öz yerinə qayıtdı. Nagah İmam Hüseynüŋ sağ tərəfindən bir atlu gözükdi. Bir boz atə minüb, qızıllu cəlacəl atınuŋ boynına taxmış və geyimlü-geçimlü bir at kim, məʾrəkənüŋ enişində yağmur kimi enər idi və yoquşə tütün təki az zəmandə gögə yetər idi.

Beyt:
Yerişi çün bərq idi, girişi çün əbri-xoş,
Sübh Yəməndə idi, gecə idi dər-Həbəş.

Atını cövlanə gətürüb atlusi əgnində bir lə`li xiftan Mərrix yulduzi kimi dirəxşan və başında bir adi külahi-Keyvan tacı təki, əlində bir cidə yılan kimi, qolında bir yay **[250a]** və belində bir münəqqəş sadaq doptalu ox yeləkləri qamu pürhümay, həmayilində ağu suyi verilmiş bir qılıc yanından asılmış, bir qalxan əslan kimi cuşan və bir rəcəz söylədi. Həman ki fariğ oldı, müxalifüŋ ləşkərinə yüz qoyub bir nəʾrə urub dedi:

– Ey kufəlü, vey şamlu, vay sizə, hər kim məni bilür, xud bilür və hər kim bilməz, biləcəkdür. Mənəm Haşim bin Ütbə bin Əbi Vəqqas. Səʾd Vəqqasuŋ qərdaşı oğlıəm.

Bəs, İmam Hüseynüŋ ləşkərinə yüz urub dedi:

– Əssəlamu əleyk, ya Bin Rəsulullah, əgər əmmüm oğlı Ömər Nəhs düşmənlərə yardur, mənüm köŋlüm sənüŋ dustlaruŋa bəqayət həvadardur və siziŋ məhəbbətində hədsiz vəfadar.

Və bu Haşim Siffində hərb eyləmiş kişi idi və Əcəm səvaşında əmmüsi ilən çox bəhadirlik zahir etmiş idi. Bəs həzrət şahzadədən himmət diləyüb məʼrəkəyə girdi və dedi:

– İstəmənəm bu ləşkərdən əmmüm oğlından özgə.

Ömər Nəhs həman ki bu söz eşitdi və Haşimüŋ təntənəsi gördi, titrəməgə düşdi və çün anuŋ bəhadirliğini görmiş idi və ərligi mə`lum etmiş idi, ləşkərinə dedi:

– Ey yigitlər, bu, mənüm əmmüm oğlıdur və mən anuŋ qarşusinə varmağum məsləhət yoxdur. Kim ola kim, anuŋ yamacına varub mənüm yürəgümi andan fariğ eyləyə.

Səmʼan bin Müqatil ki, Hələbüŋ bəgi idi, meydanə girdi. Və ol həman yaxında miŋ yəyağ ilən atlu Diməşqdən **[250b]** gəlmiş idi. Bir hərblərgörici kişi idi və ruzigaruŋ savuxi və issisi çəkilmiş. Həman ki meydan ortasına gəldi, Haşimə bir nə`rə urub dedi:

– Ey ərəbüŋ böyük kişisi oğlı, əmmüŋ oğlı Ziyadoğlından nə yamanlığ gördi? Hala Rəy ilə Təbəristan məmləkətlərinüŋ bəgidür və Şam və Kufə ləşkərinüŋ sipahsaları. İmdi sən anı qoyub, İmam Hüseynə (ə) yapışubsən kim, anuŋ nə məmləkəti var və nə ləşkəri və nə xəzinəsi və nə həşəri. Gəl və bu işdən pəşiman ol və dəvlətüŋdən yüz döndərmə və bəxtüŋ ilə sitizə eyləmə.

Haşim dedi:

– Ey nakəs, bu iki günlük dünyayı sevüb, adını dəvlət qoymışsız nisyə.

[*Beyt*]:

Kimsədən sordum ki, dəvlət xud nədür?
Dedi: Üç gün dövdürür, baqisi lət.

Nə cəhanuŋ dəvləti e`tibarı var və nə iqbalınuŋ səbatı və qərarı.

Nəzm:

Verürsə dünya saŋa cami-Cəm, anı alma
Yarım çöpə ki, vəfasızdurur, bəqalu dəgül,
Hərimi-gülşənidən çək əyağ və hiç varma
Ki, arifüŋ yaninə tikəninə dəgməz gül.

Ey Səmʾan, gəl və insaf gözin aç və cənnətüŋ nəimi-müqiminə bax və bu dünyanuŋ cifəsi ki, çox itlərdən geri qalubdur, başından keç və Mustəfa fərzəndinüŋ xidmət kəməri canuŋ belinə bağla və Taŋrınuŋ rizası dəvləti və hədsiz ətayi səadəti ələ gətür.

Beyt:

Əlüŋdən çün gəlür kim, derəsən gül baği-cənnətdən,
Dəgüldür heyf kim, qalasən damudə yüz məzəllətğə.

Səmʾanuŋ qulağı bu sözlərdən **[251a]** tirə[726] idi və bəsirət bəsəri bu kələmatuŋ nurindən xirə.

Dedi:

– Ey Haşim, nə əmmüŋ oğlından utanursən və nə Ziyadoğlından bir hesab götürürsən. Bir xiyal ilə məğrur olub əqli-məaş rəvişindən irağ düşübsən.

Haşim dedi:

– Yüz miŋ tümən lə'nət ilə nifrin Ziyadoğlına gəlsün ki, mənüm əmmüm oğlı aldayubdur, ta dini dünyayə satubdur. Mənüm himmə-

[726] Əlyazmada bu söz səhvən həm 250b vərəqinin sonunda, həm də sonrakı vərəqin əvvəlində yazılmışdır.

tüm alidür, dünyanı axirətə bədəl etmənəm. Eyblü faniyi bəqalu cənnətə müqabil eyləmənəm. Bu fani dəvlətə ki, siz aŋa güvənürsiz, tez keçəcəkdür və əzabi-əlimə və iqabəti-əzimə giriftar olacaqsınız.

Səm'an istərdi ki, daxi söz söyləyə, Haşim qəzəbə vardı və atına məhmiz urub dedi:

– Ey nabəkar, səvaşə gəlübsən, ya qissəxanlığa.

Və Səmʾanə həmlə eylədi. Pəs, cidələri bir-birinə dəgdürdilər. Axir Haşim cidəni əldən bıraxub qılıc çəkdi və Səm'anə həvalə eylədi. Səm'an cidəni Haşimüŋ köksinə durğuzmış idi. Haşim qılıcın anuŋ cidəsinə əylə urdı ki, cidəsi əlindən düşdi. Səm'an qılıcə yapışdı. Haşim aŋa əman verməyüb, ildırum kibi qılıcın anuŋ başına əylə urdı ki, iyərinədək iki böldi. Təkbir avazı İmam Hüseyn ləşkərindən fələki-ətləsə yetdi. Pəs Haşim Ömər Nəhsüŋ səfi öginə varub durdı və dedi:

– Ey əmmüm oğlı, ataŋ Səʾd Vəqqas Ühüd ğəzasində Rəsulullah ögində canını fəda eyləyüb, düşmənlərüŋ yüzinə ox atar idi **[251b]** və düşmənləri ol həzrətdən dəf' eylər idi və Peyğambər aŋa dua eylər idi və mənüm atam Ütbə bin Əbi Vəqqas ol həzrətüŋ dişinə və dodağına daş urər idi və müxaliflərə mədəd eylər idi. Bu gün əcəb halət görərəm: sən ol atanuŋ oğlı olasan, imdi düşmənlər ilən yar olub, Mustəfa fərzəndinüŋ yüzinə qılıc çəkəsən və mən ol atanuŋ oğlı olam və Əhli-Beytüŋ himayətin eyləyəm və istərəm ki, əhli-xilaf və şirküŋ bünyadını zirü zəbər edəyəm. "*Yəxrucul-həyyə min əl-məyyiti və yəxrucul-məyyitə min əl-Həyy*"[727] zühur eyləyübdür və ol gün Peyğambərüŋ mübarək dili ataŋa afərin oxur idi, bu gün saŋa nifrin eylər və mənüm atamə nifrin edərdi. Bilürəm ki, bu gün maŋa afərin edər.

Ömər Nəhs həman ki bu söz eşitdi, köŋüldən bir savux ah çəküb başını öginə saldı və pəşimanlığ yaşı həyasız gözindən axıtdı.

Əmma çün Səm'an ol xarliğ ilə öldi, anuŋ qərdaşı Nü'man bin Müqatil miŋ adəm ilən ki, Səmanuŋ tabınları idilər, bir uğurda Haşimə həmlə etdilər. Haşim qorxmayub anlaruŋ qarşusinə vardı və əli

[727] *[Allah] ölüdən diri, diridən də ölü çıxardır*. (Quran, 30: 19)

və qolı uzadub bir bəhadirlik etdi kim, Rüstəmi-dəstan əgər insaf gözi ilən müşahidə eyləyə idi, anuŋ atınuŋ dırnağı tozı gözinə tutiya qıla idi və əgər Sami-Nəriman ol səvaşı görəydi, anuŋ qulluğınuŋ riştəsi mürəssə **[252a]** tuqi yerinə can boynına taxə idi.

[*Beyt*]:

Gögdən ər Mərrixi-xəncərdar görsəydi anı,
Zərbü hərb içində qılsaydı həzaran afərin.

Əmma çün şahzadə gördi ki, Haşim miŋ adəm ilən səvaşur, ləşkərinə dedi kim, ol yürəklü yigidüŋ mədədinə varuŋ. Fəzl bin Əli (ə) ki, İmam Hüseynüŋ qərdaşı idi, doquz yigit ilən İmam Hüseynüŋ şiələrindən Haşimüŋ mədədinə vardılar. Ömər Nəhs çün munı gördi, iki miŋ namərdi göndərdi kim, qoymıŋ ki, ol bəhadirlər Haşimə himayət edələr. Ol məl'unlar ol on iki yigitlərə uğraşub səvaşə durdılar və girü dar avazı dəvvari-fələgə yetürdilər. Səlamət yay kirişi kimi guşə dutdı və fitnəvü qovğa qılıc kimi qınından aşikar olub ortayə girdi.

Şe'r:

Yürəklər qanı qaynadub urdi cuş,
Gögə yetdi yerdən ğərivü xüruş.
Qılıc əksi ilə cidə bərqidin
Yigitlərdə qoymadı baş içrə huş.

Çün düşmən ləşkəri qələbə idilər, ol doquz yigiti şəhid eylədilər. Fəzl bin Əli (ə) atasıtək Zülfiqar qılıcı kimi və ərqəm yılan kimi canşikar cidəsi ilən hərb eylər idi və düşmənləri öldürüb, gahi od təki sinan şö`ləsi ilən xəsmüŋ köksindən cəhansuz tütün çıxarur idi və gahi qılıc zəxmi ilən mübarizlərüŋ **[252b]** heyfini dilər idi. Və ol miŋ mübariz bir bəhadir əlindən aciz qalub oxa əl uzatdılar.

Beyt:

Gögüŋ yüzinə ərlər canı getdi,
Yerüŋ üstində qandan lalə bitdi.

Bu halətdə şahzadənüŋ atı ox zəxmindən səqət düşüb, ol qəvmüŋ içində yəyağ qaldı. Aqibət, etibarsız dünyadən darül-qərar

mənzilinə qədəm basdı. Və əvvəl kimsə İmam Hüseynüŋ qərdaşlarından ki, şəhadət şərbətin içdi, ol idi və susiz saqiyi-Kövsərə yetdi. "*Rizvanullahi əleyhim əcmain*"[728].

Çün Ömər Nəhs ləşkəri bu on yigiti şəhid eylədilər, Nü'man bin Müqatilüŋ himayətinə vardılar və ol miŋ atlu ilən Haşimi çevirmiş idi və Haşim yalğuz ol müşriklər ilən karzar edüb, dünyanuŋ geŋ yüzi anlarə dar edər idi.

Şe'r:
İyər üsnə minmiş çü bir əjdəha,
Anuŋ yügəni qılmış əldən rəha.
Demə at, kol[729] *idi pərrani-üqab,*
Nəhəngi idi, tiği bazurü tab.

Hər tərəfə ki mərkəbi sürər idi, ölümüŋ qoxusi düşmənlərüŋ dimağinə yetürür idi və hər saruyə ki həmlə eylər idi, müxaliflərüŋ başına fitnəvü aşub gətürür idi. Nü'man bin Müqatil dəmbədəm ləşkərinə bang urar idi kim, ərlik qılub qərdaşımuŋ qanını bu yigitdən istəŋiz. Bu halətdə Haşim atını səgridüb, Nü'manuŋ kəmərinə yapışub, iyərdən götürüb **[253a]** əylə yerə urdı kim, sümükləri bitün ufandı. Filhal bayquş kimi canı şum qalibi qəfəsindən qaçub cəhənnəmə vardı. Bəs, anuŋ tuqçisi daxi bir zərb ilən aŋa yetürüb tuqi nigunsar qıldı. Nüˀmanuŋ ləşkəri çün anı ölmiş və tuqinüŋ başı quyi gördilər, qaçmağə yüz urdılar və əlhəzər, əlhəzər nəˋrələr çəkdilər. Bu halətdə Ömər Nəhsüŋ ləşkəri yetdilər və anları döndərüb, üç miŋ namərdlər Haşimüŋ çəvrəsini dutdılar. Ol bəhadir yalğuz anlaruŋ içində dərmandə qalub, susizlik anı aciz qıldı. Nə meydandən çıxmaq məcalı bulur idi, nə durmaq məqamı görur idi. Bavücud bu hallar, meydan içində əslan kimi qürriş eyləyüb ərligiŋ dadı verür idi, ta şəhadət şərbəti içüb əbədi xəzanədən sərmədi xəl'ət geydi.

Beyt:
Bu aləmdən bəqa gülzarə vardı,
Şəhidü aşiq ol Dildarə[730] *vardı.*

[728] *Allah onların hamısından razı olsun.*
[729] *Ki ol.*

Andan soŋra Həbib bin Müzahir rüxsət dilədi və bu, bir kişi idi bacəmalü kəmal və aləmi görmiş bir qocə idi, qamu mə'rifət və hüsni-xisal. Qur`ani-məcidi təmam hifz eyləmiş idi və hər gecə bir xətm eylər idi və yatsı nəmazdən sübhədək kəlamullahı təmam oxur idi və Mustəfa əleyhissələvat vəs-səlamuŋ qulluğinə müşərrəf olmış idi. Və çoq hədislər eşitmiş, Murtəzanuŋ (ə) xidmətində əziz və müqərrəb idi. İmam Hüseyn (ə) dedi:

[253b] – Sən cəddümdən bir yadigarsən, məni yalğuz qoyma, daxi ol kim, qocələyübsən və qocələr cihad məşəqqəti çəkəməzlər.

Həbib dedi:

– Ey seyyid vey sərvər vey mehtərü behtər, qocələr daxi səvaş rəsmi bilürlər və anlaruŋ təcrübələri karzardə artuqdur. Mən daxi istərəm ki, şəhidlər hesabində olam.

Şe'r:

Daŋla Məhşərdə şəhidlər – Taŋrınuŋ naibləri,
Çünki baş götürələr toprağdan xurşidtək.
İstərəm anlar bilə cəddüŋ yaninə gedəyim,
Zira kim, Taŋrı yanində zaye olmaz hiç əmək.

İmam Hüseyn (ə) ağlayə-ağlayə aŋa rüxsət verdi. Həbib meydanə yüz qoyub bir rəcəz bünyad qıldı kim, mə`nisi budur:

Şe'r:

Həbibi-Müzahir mənəm bir yigit,
Mənüm adümi, ey müxalif, eşit.
Başum dustlar mehridin doptalu.
Yürəgüm ədu qəhridindür dolu.

Qatı səvaşlar qılub ədu ləşkərindən fəğan çıxardı. Nagah Bəni Təmimdən bir qonğay bir qılıc anuŋ əyağinə dəgdürüb əyağdən saldurdı. Həman ki qalxməğə sə'y etdi, Həsin bin Hümeyr [bir] qılıc aŋa yetürüb anı yatdurdı. Andan bir ün çıxdı ki, ya Bin Rəsulullah, məni dutəgör. Bu ün İmam Hüseynüŋ qulağına yetdi, mərkəbi sıçratdı və özini aŋa yetürdi.

---

730 Təsəvvüfdə: *Allah*.

Həbib gözin açub dedi:

– Ey şahzadə, bir xəbər ki büzürgvar cəddüŋə aparmalı ola, söylə.

Və Həbibüŋ hal dili ol halətdə bu iki beytüŋ **[254a]** məzmuni söylər idi:

Beyt:

Piranəsər başümni itlərüŋə çəkübmən,
Qapüŋdə ağ səqqalum süpürgə eyləyübmən.
Candur ol iki lə'lüŋ, var məndə daxi bir can,
Söyləş mənümlə kim, can saŋa fəda qılubmən.

İmam Hüseyn (ə) anı cənnətə girmək bəşarət vedi və ol e`tiqadlu qocə ol muştulıq ilən təsəlli olub axirət səfərinə yüz qoydı.

Və təvarixdə bəylə yazılur kim, Büdil bin Sərim Həbibi şəhid eylədi və başını bir yerdə gizlətdi və səvaşdan soŋra ol başı atınuŋ boynından asub Məkkəyə vardı[731] ki, anda Büdilüŋ bir dusti var idi və ol Həbibüŋ düşməni idi, ta ol başı aŋa görsədə. Qəzadən Həbibüŋ oğlı Məkkənüŋ dərvazəsində durmış idi ki, Büdil yetdi. Həbibüŋ oğlı bir baş gördi Büdilüŋ atınuŋ boynından asılu. Sordı:

– Bu, kimüŋ başıdur?

Büdil bilməz idi ki, bu soran kimdür. Cəvab verdi ki, Həbib bin Nüzahirüŋ başıdur ki, Kərbəladə mən anı öldürmişəm və filan dustum içün ki, anuŋ düşməni idi, töhfə gətürmişəm. Həbib oğlı həman ki bu sözi eşitdi, yürəgindən bir ah çıxdı və bavücud ki həzə büluğ mərtəbəsinə yetməmiş idi, bir daş götürüb Büdilüŋ alnına əylə urdı kim, başı-bəyni pərişan olub atdan düşdi. Həbib oğlı atasınuŋ başı anuŋ boynundan açub, Müəlli guristaninə aparub yerə tapşurdı və ol məzar imdi bə-Rə`sül-Həbib məşhur olupdur. *Vallahu ə'ləm*[732].

Andan soŋra Hərrə, ya Hərir ki, Əbuzər Qəffarinüŋ azadkərdəsi idi, meydanə girdi və cövlanlar qılub, rəcəzlər söylər idi və mübariz diləyüb hünərlər göstərür idi. Əgərçi yüzi qəra idi, əmma köŋli Günəşdən aydınrak idi və beytlər kim, tərcüməsi budur, söylər idi:

---

[731] Əlyazmada: *varı*.

[732] *Doğrusunu Allah bilir.*

Rübaiyyə:
Meydani-şücaətdə çü mən qoysam əyağ,
Bəs xəsm ki bilməyə başi birlə əyağ.
Hər necə ki yüzüm qəradur, Taŋrı bilür
Kim, həzrəti-Mustəfadədür yüzüm ağ.

Ərlər təki həmlələr gətürür idi və bəhadirlər kimi səvaşlar qılur idi, ta şəhid düşüb yüz ağlığ ilən şəhidlərə ulaşdı.

Misra:
Hər ki bu yoldə şəhid oldı, diridür daim.

Andan soŋra Yezid bin Mühaciri-Cə`fi mübarizət meydaninə qədəm basub, aqibətüləmr, çox səvaşlar etdügindən soŋra dirilik libasindən çıplaq olub əfvü səvab xəl'əti geydi.

Andan soŋra Ənis bin Mə'qili-Əsbəhi kəffarə yüz qoyub səvaşlarına durdı. Anlaruŋ qanından arxlar axıtdurardı və susiz meydandə ərlər kimi abdar qılıcın urar idi və İmam Hüseynüŋ mədhində və öz tə'rifində rəcəzlər oxur idi. Soŋra müqəddəs ruhi cism heykəlindən qüds riyazinə pərvaz eylədi.

Andan soŋra Abid Abəs bin Şis əş-Şagirdi qital mə'rəkəsinə əzm eyləyüb, öz qulından Şuzəb adlı **[255a]** sordı ki, bu gün mənüm ilən nə məqamdəsən? Şuzəb cəvabında dedi:

– Sənüŋ ögüŋdə qılıc uracagəm, ta şəhid olam.

Abəs dedi:

– Mənüm zənnüm səndə bu idi. İmdi qədəm ilərü qoy ki, bu gün bir gündür ki, Taŋrıdan bir əzim səvab bizə yetəcəkdür və bu gündən soŋra hiç əməl bizdən zühurə gəlməyəcəkdür.

Şuzəb dedi:

– Ey ucə himmətlü, əylə ki buyurduŋ, fürsət qənimətdür və axirət səfərinüŋ çağı oldı.

Bəs, ikisi səvaş əzimətinə ittifaq[733] eyləyüb, nifaquŋ əhli ilən müsəmməm etdilər. Abəs İmam Hüseyn yanına (ə) gəldi və dedi:

[733] Əlyazmada: *tifaq*. (?)

– Ya Əbu Əbdullah, Taŋrınuŋ həqqi içün ki, mənüm yanümdə səndən əzizrak və dustrak yoxdur və ömrümdə hərgiz saŋa bir layiq xidmət etməyübəm və xəcalətdən bir cərahətlü köŋül və şərmsar baş gətürübəm.

Beyt:

Necə başum xəcalətdən yanüŋdən götürəm, çünkim
Maŋa bir xidməti-layiq əlümdən gəlmədi hərgiz.

Əgər candan bir əzizrak nəstə məndə var olaydı, anı müqəddəs zatuŋa fəda eylər idim. Əgər rüxsət verürsən, ərlik meydanində mübarizət ələmi durğuzayım və əgər qəbul eylərsən, canümi əyağuŋ toprağında tapşurayım.

İmam Hüseyn (ə) aŋa afərin edüb dəstur verdi. Abəs qulı ilən ittifaq eyləyüb mə`rəkəyə vardılar. Və Dinuri məqtəlində Rəbi′ bin Təmimdən nəql eylər ki, mən Abəsi mə`rəkədə görmiş idüm və hünərləri müşahidə eyləmiş idüm. Həman ki mənüm gözüm[734] aŋa yetdi ki, məsafə gəlür, ləşkərə **[255b]** dedim ki, bir kimsə məsafə gəlür ki, səvaş çağında jiyan əslanə və pili-dəmandan artux gəlür. Gərək ki, hiç kimsə anuŋ yamacına varmasun. Bu halətdə Abəs yaqın oldı və çığırub fəryad çəkdi ki, "*rəculin bi rəculin*"[735]. Çərilər mənüm sözümdən anuŋ səvasından qorxmış idilər. Hiç kimsə anuŋ yamacına varmadı.

Ömər Nəhs dedi:

– Çün bir-bir anuŋ səvaşına varəməzsiz, bir uğurda aŋa həmlə qılıŋız.

Bəs, ləşkər aŋa yüz urub səvaş bünyadın etdilər. Abəs ki bu hal müşahidə qıldı, başından tavülğə götürüb ləşkərgahə yüz qoydı və qulı ardından arxasını saxlar idi. İki yüz adəm öginə salub urər idi və öldürür idi və kəsərdi.

Rəbi′ dedi:

– Mən anuŋlən tanışlığum var idi, aŋa varub dedim:

---

[734] Əlyazmada: *gözümi.*

[735] *İki kişidən birisi.*

– Ey Abəs, baş yalın və gəvdə çıplağ özüŋi qərqab təhlikəsinə nişün salursən?

Abəs bir cəvab verdi ki, məzmuni bu idi:

Beyt:

Çü hicran bəhridən qərq olmişəm, imdi nədür qorxum,
Su içrə kim ki qərq oldi, anı qorxutmə yağışdən.

Axir hər tərəfdən peyapey aŋa zəxmlər yetürdilər, ta ol saət ki, xacə ilən qulı darüs-səlamə yüz urdılar.

Misra:

Rəfiqlər vardılar darüs-səlamə.

Andan soŋra Həccac bin Məşruq Cə'fi müəzzin ki, İmam Hüseynüŋ bangçısı. Və rəvayətdür ki, ol həzrətüŋ rikabdarı idi, rüxsət aldı və meydanə yüz urdı. Qövsü quzeh kimi bir yay əlinə aldı və məzlumlər ahı kimi kim, səhər **[256a]** çağı yanmış yürəklərdən çıxa, ağulu oxlar ol yayə qoyub, rəcəzlər söyləyüb, atını cövlanə gətürüb meydan toprağı Keyvan övcinə yetürdi və düşmənlərüŋ başından nifaq və qürur abdar qılıc ilən çıxartdı. Müxalif sipahi andan təngə gəlüb, tirbaran edüb cənnətə göndərdilər.

Andan Seyf bin Haris əmmüsi oğlı ilən ağlayə-ağlayə gəldilər. İmam sordı ki, ağladüŋiz səbəbi nədür? Cəvab verdilər ki, biz sənüŋ içün yığlaruz ki, görərüz ki, düşmənlər səni çevirübdürlər və dostlarda anlaruŋ dəf`in etməgə qüdrət qalmayubdur. İmam Hüseyn anlaruŋ həqqində duayi-xeyr eylədi. Bəs, ol iki yigit meydanə girdilər və ərligüŋ dadı verüb, qalın atlu ilən yəyağ həyat ərsəsindən fəna məmləkətinə göndərdilər. Şahzadə (ə) ol iki yigit içün ki, yüz miŋ həsrət ilən bu cəhandən getdilər, ağladı və anlar içün xeyr dualar qıldı və dedi kim, Taŋrınuŋ təqdirinə təslim olmağdan özgə hiç çarə və tədbir yoxdur: *"Fəl-hukmu lillahil-əliyyul-kəbir və ileyhil-mərcə`ə vəl-məsir"*[736].

[*Beyt*]:

Hər kim cəhanə gəldi, qurtulmadı əcəldən,
Razi dəgülsə kimsə, söylə nə gəlür əldən?

[736] *Hökm ancaq ucaların ucası olan böyük Allaha aiddir.* (Quran, 40:12)

Andan soŋra bir türk qul[737] ki, Qur`anuŋ hafizi və Fürqan səhifənüŋ qarisi idi, yüzi günəş kimi ba-hüsnü cəmal və çehrəsi Ay təki qamu xisalü kəmal. İmam Hüseyn (ə) yanına gəlüb **[256b]** yerə düşdi və dedi: "*Nəfsi li nəfsukəl-fəda*"[738] – mənüm canum canuŋa fəda olsun, ya Bin Rəsulullah, bəylə görərəm ki, bizim ləşkərimizdən kimsə diri qalmayacaqdur. Dəstur ver, ta ögüŋdə canümi fəda eyləyim və özümi "*min məq`ədi sidqin*[739] müqərrəblərinə vasil eyləyim. İmam Hüseyn (ə) cəvab verdi kim, səni İmam Zeynəlabidin (ə) içün satun alub aŋa bağışlamışam, aŋa var və andan rüxsət istə. Rəvayətdür ki, İmam Zeynəlabidin xəstə düşmiş idi və çadırdə təkyə eyləmiş idi. Qul gəldi və dedi:

– Ey məxdumzadə, ataŋ həzrətindən səvaş rüxsəti istədüm. Buyurdı kim, sən İmam Zeynəlabidinüŋ qulısan və ixtiyaruŋ anuŋ əlindədür. İmdi qapuŋa gəlmişəm, istərəm ki, məni məhrum etməyüb rüxsət ərzani qıləsən.

İmam Zeynəlabidin (ə) dedi:

– Mən səni azad eylədüm, daxi sən bilürsən.

Ol sahibcəmal qul sadiq niyyəti ilən çadırlaruŋ qapusinə girüb məvali və əhalilərdən həlallığ istəyüb dedi:

– Mənüm muradum oldur ki, Qiyamət güni məndən qafil olmayub, məni istəyəsiz.

Əhli-Beytdən qəriv qopdı və yeŋidən İmamuŋ qulluğinə gəldi və ötmiş halları ərzə qıldı və şahzadədən rüxsət diləyüb məsafə yüz qoydı. İmam Zeynalibidin əleyhissəlamə xəbər apardılar ki, quluŋ meydanə varur. Buyurdı kim, çadıruŋ təciri götürüŋ, ta mən bu türküŋ səvaş etdügini görəyim. Təciri götürdilər **[257a]** və şahzadə baxər idi ol quluŋ üzari açılmış gül kibi və rüxsari iki həftəlik qəmər kimi iki səfüŋ arasında durub, bərqi-dirəxşan qılıcı ol zalimlərüŋ yüzinə çəküb mübariz dilədi. Gahi ərəb lisanı ilən bir rəcəz söylər idi və gahi türk dili ilən bu şe`ri oxur idi:

---

[737] Farsca orijinalda və "Şühədanamə"də türk qulunun adı göstərilmir. "Hədiqətüssüəda"da isə qulun adı Farisdir.

[738] *Canım canına qurban olsun.*

[739] *Doğruluq məqamından.*

Şe'r:
Ey İmami-cəhan Hüseyni-Əli,
Canü ruhum saŋa fəda olsun.
Quluŋəm mən, vəleyk sultanəm,
Lütfüŋ ər maŋa rəsma olsun.
Xidmətüŋdən əgər cüda düşdüm,
Tünü gün yar içün Xuda olsun.
Bu ğəzadə çü mən şəhid düşəm,
Gəvdədən canümi cüda olsun.
Umərəm kim, şəfaətüŋ gərmi
Həşrdə maŋa müqtəda olsun.

Mübarizlər peyapey gəlür idilər və anuŋ qılıcından zəxmləri yeyüb canları tapşurur idilər, ta çox müxalifi cəhənnəmə göndərdi. Susizlik aŋa qalib olub qayıtdı və İmam Zeynəlabidinüŋ (ə) çadırı qapusinə gəldi. İmamzadə (ə) aŋa çox afərinlər edüb bəhadirliginə təhsinlər etdi və şəhadət bəşarətinə və Kövsər muştuliqinə verüb xürrəmü şadiman qıldı. Ol türki-sadiq İmam Zeynəlabidinüŋ (ə) əli və əyağı öpdi və Əhli-Beyt müxəddəratindən həlallığ istəyüb, anlaruŋ fəraqindən zar-zar ağlaşdı. Andan meydanə girüb qələbə mübarizi daxi öldürdi. Aqibət, qeyb aləmüŋ süruşi nidayi-"*ircii*"[740] ruhinüŋ qulağına yetürüb, xitabi-müstətabi – "*udxuli cənnəti Rəbbil-ibadi*"[741] – Rəbbil-ibad fəzası **[257b]** ol pake'tiqaduŋ qulağına yetdi.

[*Beyt*]:
Canuŋ hədiqəsinə könül yüzini qodi,
Uçmağə vardı, Kövsər ilə yüzini yudi.

Və təvarix kitablarda məsturdur ki, ol türk çox yarələr görüb əyağdən düşdi və İmam Hüseyn (ə) anuŋ üstinə yetdi və anı İmam Zeynəlabidin əleyhissəlamuŋ çadırına yetürüb atdan endürdi və başı üstinə oturub, başını götürüb dizi üstinə qoydı və mübarək yüzi

[740] *Qayıt*.
[741] *Cənnətimə daxil ol*. (Quran, 89: 30)

anuŋ yüzinə qoydı. Qul gözin açub, başını İmam Hüseynüŋ ətəgində və İmam Zeynəlabidin başı üstində durub gördi, gülüb İmamlarə səlam verüb darüs-səlamuŋ hədiqəsinə vardı.

Andan soŋra Hənzələ bin Səʿd iki səfüŋ arasına gəlüb, Ömər Nəhsüŋ ləşkərinə dedi ki, mən qorxaram ki, sizə Nuh qəvminüŋ əzabı kimi Ad və Səmud eli iqabı təki Taŋrıdan nazil ola. Əgər istərsiz ki, üqubət müstəhəqqi olmayasız, İmam Hüseynüŋ qətlindən əl çəküŋiz və öz yurt ilə məqamiŋizə qayıtınız.

Şahzadə buyurdı:

– Ya İbn Səʿd, bu sözdən keçəgör ki, bu cəmaət içün Taŋrınuŋ əzabı və üqubəti hasil olupdur, sənüŋ sözüŋi qəbul etməyəcəkdürlər. Bunlardan nə xeyr və səlah umarsan? Mənüm qərdaşümi şəhid eylədilər və hala mənüm canümə qəsd eylərlər.

Hənzələ dedi:

– Səddəqtə, ya Bin Rəsulullah, imdi **[258a]** istərəm ki, qərdaşlarümə yetəm.

İmam Hüseyn (ə) dedi:

– Var bir mənzilə ki dünyadən və hər nəstə ki anda var, yəxşiraqdur.

Hənzələ dedi:

– Səlam saŋa və Əhli-Beytüŋə olsun. Taŋrıdan umərəm ki, cənnətdə məni sizə yetürsün.

İmam dedi:

– İnşaallah.

Pəs, Hənzələ meydanə vardı və müxaliflərə həmlə edüb yəxşi səvaşlar eylədi, ta şəhadət dərəcəsinə yetdi.

Andan soŋra Yezid bin Səid[742] əş-Şəba səkiz ox ğədr və nifaq əhli sarusinə atub anlardan beşini yerə saldı və hər ox ki atar idi, şahzadə der idi: "*Əllahummə sədəd rəmeytəhu və əcʿəl səvabəhul-cənnə*"[743], yə'ni ey Taŋrı, munuŋ oxı səvab nişanəsinə yetür və əli muzdi uçmağ ruzi qıl. Axir müxaliflər qələbəliğ qılub anı şəhid etdilər və pak ruhi uçub, rizvan bağinə varub, Rəbbül-aləmin civarinə yetdi.

---

[742] Farsca orijinalda və "Hədiqətüs-süəda"da: *Ziyad*

[743] *Allahım, onun ox atmasına qüvvət ver və mükafat olaraq onu behiştlik et.*

Andan soŋra Səʿd bin Əbdullah əl-Hənəfi ki, İmam Muhəmməd Hənifənüŋ anası qəvmi idi, icazət istəyüb meydanə vardı. Bir dağgəvdəlü, yelyerişlü ata minüb, su kimi bir qılıc belində, xətti cidə əlində iki səfüŋ arasında cövlanlar qıldı və mübariz istədi. Öginə gələnlərə cidə zərbi və qılıc zəxmi ilən həyat mətai gəvdəsindən gidərür idi. Aqibət, "*likulli-əcəlin kitabu*"[744] həyat ruznaməsi tükənüb "*kullu mən əleyha fanin*"[745] rəqəmi dirilik səfhəsinə çəkdilər.

[258b] Andan soŋra Cadə[746] bin Haris Ənsari silahlu mükəmməl meydanə girdi, çox səvaşdan soŋra şəhid düşdi. Anuŋ oğlı Əmr bin Cadə məsafə varub ədulərdən neçəsi qırub, ol daxi atasına vasil oldı.

Misra:[747]

Əcəldür dusti dustə yetürən.

Andan soŋra Mərə bin Əbi Mərə Qəffari avçı hüjəbr kimi meydanə vardı və ərlik zərbi ilən Şam və Kufə ləşkərindən püştələr düzədüb, gövhərlü tiği ilən hər bədgöhərə ki yetər idi, filhal qılıc heybəti ilən canını avlayub, ol qəraruzigaruŋ köŋlindən tütün çıxartdurur idi. Aqibətüləmr, darül-bəvar məclisindən darül-qərar məhfəlinə nəql eylədi.

Rəvayətdür ki, Muhəmməd bin Miqdad və Əbdullah Əbu[748] Dücanə ikisi daxi İmamdən dəstur alub məʼrəkəyə vardılar və mərdanə səvaşlar etdilər və müxaliflərdən çox namərdi öldürüb cəhənnəmə göndərdilər. Soŋra İmamuŋ qulluğinə qayıtmək istədilər. Ədu qəvmindən bir qələbə anlaruŋ yolını dutdılar. Səʿd ki, əmirül-mö'minin Əlinüŋ (ə) qulı idi, beş yigit ilən İmam Hüseynüŋ (ə) məvalilərindən Qeys bin Rəbiʿ və Əşʼəs bin Səʿd və Ömər bin Qərtə və Ətəmə bin Vəhad mədədlərinə vardılar. Çün müxalif qələbə idi və çox zəxmlər peyapey yetürür idilər, bu altısı şəhid olub, bu faniyi-şeşdər-

[744] *Hər dövrün bir kitabı var*. (Quran, 13: 38)

[745] *Yer üzündəki hər kəs fanidir*. (Quran, 55: 26)

[746] Farsca orijinalda: *Xəbadə*; "Hədiqətüs-süəda"da: *Cibavə.*

[747] Əlyazmada: *Beyt*.

[748] Farsca orijinalda: *İbn.*

dən həşt beheştə meyl edüb vardılar. "*Rizvanullahi* **[259a]** *təala əleyhim əcməin*"[749].

Bu məhəldə İmam Hüseynüŋ (ə) məvalilər ilən çakərlərindən əlli üç yigit şəhadət şərbətini içüb fani cəhandən rihlət qıldılar. Və İmam Hüseyn və İmam Zeynəlabidindən özgə (ə) on doquz adəm qalmış idi. On altı qəvm ilə qərdaş və uşağları idilər və iki adəm əshabdən və bir qul ilə ki, zikrin edəcəgüz.

Şe'r:
Peyəmbər alinə çün yetdi növbət,
Cəhan oldi dolu qovğavü mihnət.
Yer üstə fitnədən doldi təmami,
Həzinü qəmlü oldı xassü ami.

Ruzigar dili zariliğ ilən der idi.

Beyt:
Ya Rəb, nə od idi bu ki, aləmğə urdılar,
Qətli-Hüseynü alinə kufilü durdılar.

Dəvvar gögi iztirab lisanı ilən ruzigar əhlinüŋ qulağına bu sözi yetürür idi:

Beyt:
Qiyamət olmadın həzə cəhanuŋ əhlinə noldi
Ki, qovğa qopdi aləmdən, zəmanə sərnigun oldi.

İmam Hüseyn (ə) çün gördi ki, məvali ilə şiələrindən kimsə qalmadı, heyrət odı ol həzrətüŋ köŋlinə müstövli olub dərdlü yürəgindən bir şi'bnak ah çıxdı. Əhli-Beyt bildilər ki, bu məlamət anlar içündür. Cümlə ittifaq eyləyüb dedilər:

– Ey Risalətpənahuŋ gözləri nuri və şahi-vilayət dəstgahuŋ köksi sərvəri, xatirüŋə hiç yaman fikr gətürmə və məlal dügüni kinəsiz köksüŋə qoyma ki, səndən soŋra bizə dirilik gərəkməz. Diləgümiz **[259b]** oldur ki, əyağuŋ toprağında başümiz oynadəüz, ta daŋla Məhşərdə sərfərazlik edəüz. Biz məhəbbətüŋ dügünindən yanmışuz

[749] *Uca Allah onların hamısından razı olsun.*

və bəla şö`ləsindən qorxumız yoxdur və dustliğüŋ dəŋizində qərq olmışuz. Həlak seylindən nə pərvamız var? Əgər gəvdə evi mihnət tufanı ilən pozula, çün köŋül mənzili sənüŋ me`marlığı ilən imarət bulmış ola, cənnətdə qəsrlər bizim içün düzələ.

Beyt:

Biz çü verdük göz ilə köŋlümizi tufanə,
Seyli-qəm söylə ki, gəlsün, evi viran qılsun.

İmam Hüseyn (ə) ağladı və duayi-xeyr anlaruŋ həqqinə eylədi. Pəs, əvvəl kimsə şahzadənüŋ qəvmindən ki, meydanə varməğ istədi, Əbdullah bin Müslim Əqil idi. İlərü gəlüb dedi:

– Ya Bin Rəsulullah, maŋa rüxsət ver, ta himmət atını axirət ərsəsinə sürəm və səlamıŋızı Müslim Əqilə yetürəm.

İmam Hüseyn (ə) ağladı və dedi:

– Ey oğul, həzə Müslimüŋ hicran dügünindən asudə olməyübəm və gecə-gündüz uşağ qərdaşlaruŋuŋ qayğusindəəm. İmdi fəraq odı yürəgümə urma və hicranuŋ acı şərbəti atanuŋ ağulu müsibət camı üstə qoyma. Müslim bin Əqilüŋ yadigarı sənsən. Ataŋ fəraqi dərdi saŋa yetərdür. Anaŋı götür və çün həzə bir məcal var, başüŋizi alub hər yerə ki, xatiriŋiz meyl eylər, təvəccöh eyləŋiz ki, bu vəfasız qəvmüŋ gözləri məndədir və ta məni görərlər, özgə kimsəyə mültəfit olmayub dolaşmazlar.

Əbdullah dedi:

– Ya Bin Rəsulullah, ol Taŋrınuŋ **[260a]** həqqiçün ki, cəddüŋi doğruliğ ilən xəlqə göndərübdür ki, məni mən` eyləmə və müxaliflər səvaşindən qorxutma, ta mən daxi xidmətüŋdə atam kimi bir dərəcə tapam və çün əvvəl kimsə ki, qəvmüŋdən sənüŋ yolüŋdə canını fəda eylədi, mənüm atam idi. İstərəm ki, əvvəl kimsə kim, qullərüŋdən başuŋ ögüŋdə oynada, mən olam.

İmam Hüseyn anı qucağlayub dedi:

– Ey qəmgüsar munisüm və atam və əmmüm oğlından əzizüm və yadigarum, gözüm yüzüŋdən rövşən idi və köŋlüm söhbətüŋdən xürrəm idi. İmdi anı daxi maŋa həram oldı və dünyadə müsahibətlik sənüŋlən təmam oldı.

Pəs anı vida eyləyüb dəstur verdi.

Əbdullah bir rəcəz bunyad eyləyüb, atını cövlanə gətürüb meydanə girdi və mübariz istədi. Gahi Mərrix yulduzi kimi abdar qılıcı ilən işlər idi və gahi şəhabi-saqib təki atəşbar cidəsi ilən həmlə eylər idi. Atası kini içün müxaliflərüŋ gəvdə binaları zirü zəbər edər idi. Ömər Nəhs Qüdamə bin Əsədə dedi:

– Ey Qüdamə, səvaşları çox görübsən, meydanə var və bu Haşiminijaduŋ bəlası bu ləşkərdən dəf` eylə və şamlu və kufəlü mübarizləri içində bir ad çıxar. Qüdamə Ömər Nəhsüŋ sözi ilə aldanub Əbdullah Müslim Əqilüŋ yamacına gəldi. Əbdullah cidə ilən aŋa həmlə eylədi və Qüdamə atını yerdən sıçratdı və irağə vardı. Hər qaçan ki Əbdullah aŋa həmlə aparur idi, ol qaçmağə yüz urar idi və necə kim Əbdullah ardından taxt eylər idi, aŋa **[260b]** yetməz idi, zira ki Əbdullahuŋ atı bu neçə gündə yem yeməyüb, su içməmiş idi. Əbdullah səgirtməkdən aciz qalub cidəni əldən bıraxdı və qılıcın çəkdi və meydanuŋ qırağında durdı. Qüdamə çün gördi kim, Əbdullahuŋ əlində cidə yoxdur, xürrəm olub atını yürkürtdi və cidəsi Əbdullahuŋ başına həvalə eylədi. Əbdullah özini saxlayub iyərdən bir yanə əgildi və anuŋ cidəsi rədd eyləyüb, gənə dönüb iyərüŋ ortasına gəldi. Qüdamə atını qaytatdurub istərdi bir həmlə daxi gətürə, Əbdullah bir qılıc ağzına əylə urdı ki, başınuŋ yarısı irağə düşdi. Bəs əl urub kəmərini dutub at arxasından düşürdi və filhal anuŋ atına minüb öz atını qolına verdi və cidəsi yerdən götürüb mübariz istədi və bir rəcəz ki, tərcüməsi budur, söylədi:

Nəzm:

Dünya çü fənadur, bu yarım canı nedərəm,
Məzlum şəhüŋ pişkeşi ruhum edərəm.
Şəhzadənüŋ ögində bu gün oynadurəm can,
Peyğəmbər ilə daŋləsi firdövsə gedərəm.

Rəvayətdür ki, çün Səllaqə bin Qüdamə Əbdullahuŋ bəhadirlüğini gördi, Ömər Nəhsə dedi:

– Ey sipəhsalar, mən səvaşları çox görübəm və bəhadirlər ilən səvaşlar eyləyübəm. Bu Haşimi yigitüŋ şücaəti kibi hərgiz nəzərümə gəlməyübdür.

Beyt:

Çox zəmanlar dəvr edə bu eski çovgantək fələk,
Ta ki meydanə gətürə bir mununtək şəhsüvar.

Əmma çün müxalif sipahi bu hərb ilə zərbi gördilər, qamu andan qorxub kimsənüŋ **[261a]** zəhrəsi yoq idi ki, meydanə qədəm basa. Əbdullah bir saət durdı, hiç kimsə öginə gəlmədi, susizlikdən taqətsiz olub, müxalifüŋ sağ qolına urub anları varı pərakəndə qıldı və çox atluyi atı ilən həlak toprağına saldı. Anlardan Həmir Həmiri ki, Nəhrəvan xəvaricləridən baqi qalmış idi, oğlı ilən Kamil bin Həmiri ölüm qərqabinə saldı. Bəs [Əbdullah] sağ qoldan qayıdub qətrə-qətrə qan qılıcından axar idi. Rüstəm təki özini sağ qola urdı, igirmi nakəsi həlak eylədi və Saleh bin Nəsiri həm anda öldürdi. Və andan sol qola yüz qoyub, bəhadirlik dadını verüb Qüdamə Həbəşi ilən ki, Ömər Səʾdüŋ ləşkərinüŋ pəhləvanı idi, yüz-yüzə düşdi, anuŋ şərri daxi kifayət eylədi. Andan istər idi ki, öz ləşkərinə qayıda, piyadələr yolını bağlayub, Xüda` Diməşqi ardından gəlüb, qılıc ilən anuŋ atınuŋ iki əyağını siŋirlədi. Əbdullah atdan enüb bir bərk yerdə özini qayim eylədi. Novfəl bin Fərahim[750] Həmiri ol Əqil xanidanınuŋ xülasəsi şəhid eylədi.

Şe'r:

Kəmal bürcinüŋ Ayı, dəriğ ki, batdı,
Susiz dodağı ilə qan içində xoş yatdı.
İmam xidmətinə özini şəhid etdi,
Beheşti aldı qılıcla, cəhani-dun satdı.

Çün anuŋ əmmüsi Cə'fər bin Əqil qərdaşı oğlı şəhid gördi və qanə bulaşmış, zar-zar ağladı və İmam Hüseyndən **[261b]** dəstur alub meydanə vardı və bir rəcəz söylədi kim, tərcüməsi budur:

[750] Farsca orijinalda: *Məzahim*; "Hədiqətüs-süəda"da: *Mərahim.*

Şe'r:
Əqil oğliyəm, əmma Hüseyn mövlası,
Ki, adəm oğlidin oldur əzizü ə`lası.
Bətul həzrətinüŋ nuri-çeşmü fərzəndi,
Bəni Haşimüŋ xassi-xass fərzəndi.

Hər mübariz ki, ol sərvərüŋ meydaninə gəlür idi, filhal cəhandən bizar olub canı tapşurur idi və hər tərəfə ki, at cələvini salur idi, küştələrdən püştələr düzədür idi. Çün ol dəmyeyici itlər anuŋ karzarından zarinci qaldılar, bir uğurda ortaya dutub, zərb və tə`nüŋ əli açub zəxmlər urdılar. Aqibət, vüqar gəmisi iztirar qərqabində düşüb, şəhadət dəŋizində qutələr urub şərəf gövhərini ələ gətürdi.

Şe'r:
Firqətindən ol nigaruŋ qalmişüz zarü qəmin,
Canımız məcruh olupdur, köŋlümiz oldi həzin.

Andan Cə'fər Əqilüŋ qərdaşı Əbdürrəhman bin Əqil meydanə vardı. Ərlik kəməri belinə bağlamış bir tazinijad atə minmiş, bir qətrə su təki qılıc belinə qurşanmış ot şö`ləsi kimi bir hərbə əlində.

Nəzm:
Dəmbədəm ol hərbə ilən öldürürdi adəmi,
Fariğ olmazdı əli adəmi qırməkdən dəmi.

Aqibət, Əbdullah bin Ürvə Həşəmi oxından saədət camından şəhadət şərbətin içüb, Əbdürrəhman "*min məqədi sidqin*[751]"ə yetdi.

Çün Əqilüŋ əvladı şəhid düşdilər, Cə'fəri-Təyyaruŋ fərzəndlərinə növbət düşdi. Xamusindən ilərü Muhəmməd bin Əbdullah bin Cə'fəri-Təyyar İmam Hüseyn (ə) qulluğinə gəldi və dedi:

– Ey vilayət ərsəsinüŋ şahbazı və **[262a]** qənaət və hidayət Qafınuŋ ənqası, maŋa rüxsət ver kim, dilərəm kim, andan ilərü kim cənnət fəzasində seyr edəyim və şəhadət qanatı ilə səadət yuvasına teyran qılayım, əylə ki quş danəyi götürür, bu bayquş sifətlərüŋ idbar viranəsindən karzar dırnağı ilən birisi qoymayım.

---

751 *Doğruluq məqamından*.

İmam aŋa rüxsət verdi. Muhəmməd meydanə vardı və bir rəcəz ağaz eylədi ki, mə`nisi budur:

Beyt:

Kufilər Taŋrıdan utanmazlər,
Canlarında həyavü şərm nedər?
Yoxdur anlardə qeyri-kəzbü nifaq,
Salmadılar Həqqüŋ sözinə qulaq.
Bir-birilə nifaq eylədilər,
Oldılar xəsmi-ali-Peyğambər.
Sidq ilən girmişəm bu meydanə,
Gəlsün ögümə mərdi-mərdanə.
Şahzadə Hüseyn içün gəlürəm,
Canümi yolində fəda qılürəm.
Mustəfa yaninə şikayətüŋiz,
Qılurəm cövri-binəhayətüŋiz.

Bunları deyüb səvaş edər idi və meydan yüzi mübarizlər qanından suvadır idi. Aqibət, qüds aşiyanəsinə pərvaz eyləyüb uçmağə vardı. İmam Hüseynüŋ qızqərdaşı Zeynəb (ə.s) fərzəndinüŋ fəraqində çoq nalələr etdi.

Əmma Muhəmmədüŋ qərdaşı Əvn bin Əbdullah çün öz qərdaşını şəhid gördi, özini ol ləşkərüŋ içinə saldı və qərdaşını öldürən gördi kim, anuŋ başı üstində durubdur. Bir zərb aŋa yetürüb, işini təmam eyləyüb dedi:

– Ey büzürgvar dayı, **[262b]** qərdaşum fəraqindən ussum getmiş idi, andan ötrü meydanə vardum və qərdaşumuŋ qanlusi öldürdüm. İmdi kərəm eyləyüb maŋa rüxsət ver.

İmam Hüseyn anı ilərü çağırub vida eylədi və icazət ərzani qıldı. Əvn mə`rəkəyə varub bir rəcəz oxudı ki, mə'nisi budur:

Şe'r:

Əyan gözilə Həqq görmişlərüz biz,
Riza yolində oturmişlərüz biz,
Şəhadət mərəzində himmət ilən,
Əl üsnə qoymişüz can rəğbət ilən.

Qərdaşınuŋ kininə mübariz istədi və dəmür tiği ilən düşmənüŋ dirilik ağacı dibindən kəsər idi. Aqibət, ariyət diriliği başından durub, *"bəl əhyaun ində Rəbbihim"*[752] mənzilinə qədəm basub can tapşurdı.

İmam Hüseynüŋ qızqərdaşınuŋ oğlanları şəhadətindən soŋra qərdaşlarınuŋ oğlanlarına növbət düşdi. Əvvəl Əbdullah bin İmam Həsən kim, bir yigit idi bəhadir. Susızlığdan dodağları[753] quru. Əmmüsi yanına gəldi və dedi:

– Ey risalət xanidanınuŋ xülasəsi və kəramətü vilayət dudmanınuŋ nəqavəsi. Maŋa dəstur ver ki, qəvm və qərdaşlarınuŋ fəraqı taqətüm yoxdur.

İmam Hüseyn dedi:

– Ah, yüz miŋ ah, saŋa necə icazət verəyəm. Sən mənüm qərdaşımuŋ yadigarisən və şirin canum ilən bərabəri.

Əbdullah dedi:

– Ey əmm, diləgüm oldur ki, qədəmüŋdə başümi fəda eyləyim və ələmdən gəldügi düşmənlərüŋ dəf'inə durub [səvaş] **[263a]** edəyim.

Pəs əmmüsindən rüxsət alub, meydanə yüz qoyub bu beytləri söylər idi:

Şe'r:
Mənüm cəddüm Muhəmməd Mustəfadur,
Hüseyn əmmüm Şəhidi-Kərbəladur.
Atamnuŋ əmmüsi Təyyari-Cə'fər
Qanatlər birlə cənnətdə uçadur.
Xəvaric biləməzəm, siz nə quşsiz
Ki, taətlərüŋiz cümlə həbadur.
Siz ol bidin güruhi-bihəyasiz
Ki, sizüŋçün mühəyya yüz bəladur.

Rəvayətdür ki, Əbdullah meydanə vardı, fələgüŋ Ayı kimi cövlan edüb mübariz istərdi. Çün kimsə anuŋ öginə gəlmədi, Ömər Nəhsüŋ ləşkərinə yüz urdı, ta Ömərə yaxın olub igirmi nakəsi öldür-

[752] *Onlara Rəbbi yanında [ruzi] əta olunur*. (Quran, 3: 169)
[753] Əlyazmada: *dodağlarını*.

di. Ömər Nəhs anı ol zərbü heybət ilən gördi kim, gəlür, qorxusindən qarşusində dura bilmədi. Filhal cələvi döndərüb ləşkərinüŋ içinə qaçdı. Əbdullah meydanə dönüb mübariz istədi. Ömər Nəhs gördi kim, Əbdullah qayıdub meydanə vardı, öz yerinə döndi və çərisinə təklif eylər idi kim, meydanə varuŋ və xəl'ət və qul və at və aqça anlarə və`də eylər idi. Bəxtər[754] bin Ömər Şami ilərü gəlüb dedi:

– Ey Səˀdüŋ oğlı, imarət dəˀvisin eylərsən və bəglərbəgilik mərtəbəsinə qürrə olubsən, əmma ol bir yigidüŋ qorxusından yəxşicə qaçarsən.

Ömər Nəhs münfəil olub dedi:

– Ey Bəxtər, can əzizdür və Ömərüŋ əvəzi yox. **[263b]** Əgər qaçmayaydum, can aparmazdum. Əgər istərsən ki, dedügümi mə`lum eyləyəsən, budur meydandə gəzər və mübarizlərüŋ intizarı çəkər. Var, ta bu Haşiminüŋ bəhadirliğini mə`lum eyləyəsən və karzar ağacından kamsizlik yemişi derəsən.

Şe'r:

Dəˀvidən başuŋ uzatduŋ, türkən ol meydanə var,
Ta görəsən bu yigitnüŋ hərbü zərbü girü dar.
Dedügüm inanməz olsən, üştə meydandə durur,
Çünkim aŋa yetəsən, hərbinə dur, mərdanəvar.
Əylə görsətsün saŋa özini ol Haşimnəsəb
Kim, verəsən canüŋi, ya dutəsən rahi-fərar.

Bəxtəri Ömər Nəhsüŋ sözindən münfəil olub, qəzəbi odı şö`lə urub beş yüz atlu ilən ki, anuŋ xassəsi idilər, Əbdullahə yüz urdılar və İmam Hüseyn səfindən Muhəmməd bin Ənəs və Əsəd bin Əbi Dücanə və Firuzan ki, İmam Hüseynüŋ qulı idi, şahzadənüŋ himayətinə gəldilər. Firuzan özini ilərü salub Bəxtərinüŋ yamacına gəldi. Bəxtəri mundan qəzəbə varub Firuzanə həmlə apardı. Firuzan cidə səvaşı ilən anuŋlən durdı. Əbdullah bin İmam Həsən (ə) quluŋ himayətinə gəlüb cidəni götürdi və ol ləşkərə yüz qoyub həmlə apardı. Və Əsəd və Muhəmməd daxi anuŋ ardından gəlüb mədədinə durdılar.

[754] Farsca orijinalda: *Bəxtəri.*"Şühədanamə"də də sonrakı vərəqdə: *Bəxtəri.*

Firuzan həman ki gördi ki, şahzadə həmləyə durdı, cidəni çəküb, anlar ilən ittifaq eyləyüb, bir həmlə ilən ol beş yüz yigiti yerindən götürüb-qaçurub, ləşkərinüŋ qolına yetürdilər. Şis bin Rəb`i beş yüz yigit ilən **[264a]** səfüŋ ögini yırtub, Bəxtəriyə heybət ilən bang urdı kim, utanməzsən ki, bu qədər yigit ilən dört adəmüŋ qarşusindən qaçmağə yüz urərsən. Bəs, anı ləşkəri ilən döndərüb, özi beş yüz yigiti ilən ol dört mübarizüŋ çəvrəsini dutdılar.

Bəs Əbdullah Şisə mütəvəccih oldı və Muhəmməd və Əsəd anuŋlən bilə idilər. Əmma Firuzan dəxi Bəxtəriyə həmlə apardı və anuŋ ləşkərini zirü zəbər eylədi.

Sə`düŋ oğlından rəvayətdür ki, der idi ki, mən Firuzanuŋ hərbini təfərrüc eylər idüm. Taŋrı həqqi içün ki, əgər bir içim su bulə idi, bizim ləşkərimizi zirü zəbər eylər idi və mən sanadum yüz otuz yigiti cidə ilən öldürdi və yigirmisi qılıc ilən həlak eylədi.

Rəvayətdür ki, Firuzan bəs kim karzar eyləmiş idi, yorulmış idi, İmam Hüseyn (ə) xidmətinə yüz qoydı. Osman bin Bəxtər əŋsəsindən bixəbər gəlüb, belinə bir cidə urdı ki, atından düşüb, atı ürküb yabanə yüz qoydı. Çün Firuzan yəyağ qaldı, cidəni biraxub qalxanı başına çəkdi və qılıcı qınından çəküb ol müşriklər ilən səvaşur idi. Əmma Əsəd bin Dücanə çün Firuzanı yəyağ gördi, atına məhmiz urub həmlə qıldı və ol münafiqlərdən ki, Firuzanı çəvirmiş idilər, dört mübarizi öldürüb qalanı qaçurdı və Firuzanuŋ yanına gəldi və dedi:

– Ey qərdaş, cəhd eylə və atə min.

[264b] Firuzan[755] minməgə durdı, nagah dört yandan ləşkər gəlüb səvaşməgə durdılar. Əsəd Firuzanı qoyub, anlaruŋ qarşusinə varub səvaşə əl uzatdı. Nagah bu halətdə Bəxtəri Əsədüŋ sağ qolından gəlüb, sağ qapurğasinə bir cidə urdı ki, cibəri sol qaburğasından çıxdı. Əsədüŋ əlindən cidə düşdi, qılıcı çəkmək istədi, əlində qüvvət qalmamış idi. Əzrəq bin Haşim ilərü gəlüb bir zərb urdı və Əsədüŋ işini təmam eylədi.

[755] Əlyazmada bu söz səhvən iki dəfə yazılmışdır.

Əmma Əbdullah bin İmam Həsən (ə) Şis bin Rəb`i ilən meydandə hərb eylər idi, bavücud ki, on yedi yarə gəvdəsində var idi. Ol qədr kuşiş eylədi ki, ol qəvmi qaçurdı. Çün baxdı ki, ləşkər daxi Əsəd ilə Firuzanı çəvirübtürlər, anlaruŋ tərəfinə yuz qoydı. Həman ki yetdi, gördi ki, Əsəd şəhid düşübdür. Bəxtəriyə bir zərb urub, Firuzanı düşmiş gördi. İlərü gəlüb əl uzatdı və anı yerdən götürüb, iyərüŋ öginə dutub rəvan oldı. Əbdullahuŋ atı xoş yorulmış idi, zira kim yüz ox, bəlkə artux aŋa urmış idilər və ac-susiz qalmış, hər yanə səgirtmiş idi. Hala çün iki adəm aŋa mindilər, neçə qədəm ki getdi, yeriməkdən taqətsiz qalub durdı. Əbdullah atdan endi və Firuzanı daxi endürdi.

Əbdullahuŋ əmmüsi Əvn bin Əli (ə) çün qərdaşı **[265a]** oğlı yəyağ gördi, bir kutəli götürüb səgirtdi və Əbdullahı atlandurdı və Firuzanuŋ əlini dutub getməgə əzm eylədilər. Bu halətdə Firuzan düşdi və canını Taŋrıyə təslim eylədi. Əbdullah və Əvn ikisi daxi ağlamağə durub yüz miŋ heyf anuŋ getdüginə yedilər.

Şe'r:

Dəriğü dərd ki, əhbab fani dünyani
Vida eyləyübən vardılar Həqqüŋ yaninə.
Dodağları susizü qanə qərqü köŋli həzin
Ki, Taŋrıdin ola yüz afərin caninə.

Daxi şahzadeyi-müˀtəmən Əbdullah bin əl-Həsən (ə) təvəkkül əli "*həsbiyəllah*"[756] Həblül-Mətinə bərkidüb, yəqin əyağı "*və ma tovfiqi illa billah*"[757] üzəngüsinə gətürüb dünya və dünyadakidən köŋül götürüb ixtiyar cələvi iradəti-Allah əlinə qoyub

[Beyt]:

İnani-tabi-rəxşin rəvan eylədi,
O meydandə ərlik əyan eylədi.

[756] *Allah mənə bəs edər.* (Quran, 9: 88)
[757] *Mənim uğurum ancaq Allahın köməyinə bağlıdır*. (Quran, 11: 88)

Müxalifüŋ ləşkərinə yüz qoyub mübariz dilədi. Hiç kimsə anuŋ öginə gəlmədi. Nə qədr ki Ömər Nəhs mübaliğə eylər idi, anuŋ sözinə kimsə qulağ asmaz idi. Ömər Nəhsüŋ oğlı qəzəbə varub, öz ləşkərini sögməgə durdı. Yusif bin əl-Əhcar ilərü varub dedi:

– Ey Ömər Səʿd, Rəy mülkinüŋ mənşuri sən alubsən və bəglərbəgilik ələmi sən durğuzubsən. Nişün özüŋ ilərü getməyüb bizi sögərsən?

Ömər Nəhs cəvab verdi ki, Übeydullah Ziyad maŋa buyurubdur **[265b]** ki, mən öz nəfsüm ilən kimsə bilə səvaşəm, bəlkə bu ləşkəri mənüm hökmümdə eyləyübdür ki, anları səvaşə göndərəyim. Mənüm buyruğumi eşitmək gərəksən. Var və Haşimi yigit ilən səvaş, yoxsa Ziyaduŋ oğlı yanında səndən şikayət edəcəgəm. Yusif qorxub, atını sıçradub Əbdullahuŋ məsafinə gəldi və həman ki yoldan şahzadəyə yetdi, bir cidə Əbdullahə həvalə eylədi. Şahzadə anı rədd eyləyüb öz cidəsi anuŋ boğazına əylə urdı ki, cibəri əŋsəsindən çıxdı. Ol məlʿun atından başı quyi düşdi, canın cəhənnəmüŋ malikinə tapşurdı. Yusifüŋ oğlı Tariq çün atasınuŋ halı bəylə gördi, Əbdullahuŋ öginə gəlüb, namə`qul sözlərə dilin açub, ədəb ilə həya rəsmini bir yanə qoyub nasəzalar söylər idi. Şahzadə Əbdullah taqətsiz qalub, bir cidə Tariqə həvalə eylədi. Tariq qılıc zərbi ilən şahzadənüŋ cidəsi iki parə eylədi. Bu halətdə istər idi ki, şahzadəyə[758] qılıc endürsün, Əbdullah əl uzadub, anuŋ əli qılıcı ilən yuxarıda dutub ol qədr güc eylədi ki, biləginüŋ sümüklərini ufadub qılıc əlindən düşdi. Əbdullah sol əli ilən anuŋ kəmərini dutub, iki əli ilən iyərdən götürüb əylə yerə urdı ki, sümükləri varı xəşxaşcə oldı.

Və bu Tariqüŋ bir əmmüsi oğlı var idi, adı Mədrək bin Səhl. Tariqüŋ öldügindən köŋli qandan dolub meydanə girdi və nasəzalar **[266a]** der idi. Əbdullahuŋ təhəmmüli qalmadı, atına məhmiz urub bir qılıc həmayil kimi başına əylə endürdi ki, başı ilən əli və gəvdəsinüŋ yarısı kəsdürüb yerə düşdi. Şahzadə ilərü durub və anuŋ əyağını dutub atından bıraxdı və anuŋ bedəv atına minüb mübariz istədi. Müxalif ləşkəri anuŋ qılıcı zərbindən qorxub başları oğünlərinə saldılar və bir həvl və nəhib andan düşmənlərüŋ köŋlinə düşdi.

[758] Əlyazmada: *şahzadə.*

Əbdullah çün gördi ki, xəsm meydanə gəlməz, qayğulu olub özini istər idi ki, düşmənüŋ ləşkərinə ura, yazıda bir yoğun cidəni gördi düşmiş. Anı götürüb, başın çəvrəsində oynadub, düşmən ləşkərinüŋ sağ qolına yüz qoydı. Anlaruŋ səfini yerdən qopdurub, on iki nakəsi cidə zərbi ilən yerə salub, qayıdub İmam Hüseyn (ə) yanına gəldi və dedi:

– Ya ulu əmm, *"əl-ətəş, əl-ətəş"*.

İmam Hüseyn dedi:

– Ey əmmünüŋ gözi aydınlığı, imdicə cəddüŋ ilə ataŋ saŋa su verəcəkdürlər və rahət mərhəmi yarələrüŋə qoyacəkdürlər.

Bəs, Əbdullah bu muştuluqə xürrəm olub gənə meydanə yüz qoydı. Müxalif ləşkərindən beş miŋ namərd bir uğurda aŋa zəxmlər urdılar, ta işdən aciz olub dilədi kim, ortadan bir yanə varə, yollarını dutub qoymadılar. Əbbas Əli (ə) ləşkərüŋ ələmdarı idi. Ələmi Əli Əkbərüŋ əlinə verüb qərdaşı ilən **[266b]** Əvn bin Əli (ə) Əbdullahuŋ himayətinə gəldilər və anı ləşkər içindən çıxardılar. Əbdullahdə çox yarələr var idi, gedər ikən Fəyhan bin Zəhir ardından gəlüb bir zəxm iki dalusınıŋ ortasına urdı. Çün ol zəxm yedi, atdan düşdi və qüds aləminə qədəm basdı. Əbbas gerüyə baxdı və ol halı gördi, atını yügürtdi və Fəyhanuŋ boynına bir zərb yetürdi ki, başı on arşun irağə saldı. Fəyhanuŋ oğlı Həmzə istərdi kim, bir cidə şahzadə Əbbasə yetürə, Əvn Əli pişdəstlik eyləyüb qılıc ilən həmlə qılub, Həmzənüŋ əli [və] cidəsi kəsüb yerə bıraxdı. Əbbas bir zərb daxi aŋa yetürüb anı həlak etdı və Əbdullahı götürüb İmam Hüseynüŋ (ə) çadırı yanında yatdurdılar. Əhli-Beyt çün Əbdullahı bəylə gördilər, köŋülləri anuŋ yigitligi içün yandı və anası cigərsuz ahı ilən aləmi yandurdı.

Beyt:

Getdi ol sərvi-səhi bağı-cəhandən, yüz heyf,
Girdi yer altına, ol tazəcəvandən yüz heyf.

Dəriğ ol kamranlığ gülşəninüŋ tazənihalindən ki, yigitlik novbəharı əcəl xəzanı ilən soldı və əfsus ol dirilik bulağından kim, zəmhərir qəhri ilən tirə oldı.

Şe'r:

Matəmindən yürəgə miŋ çak düşdi, yüz dəriğ,
Gözdə əşküŋ seylidin xaşak düşdi, yüz dəriğ.
Dirilik novbavəsi ömrüŋ budağından hənuz
Bişməmişkən nagəhan bər-xak düşdi, yüz dəriğ.

Rəvayətdür ki, Qasim bin Həsən (ə) **[267a]** çün qərdaşı ki, naz gülistanınuŋ güli idi, cangüdaz hadisə tikəni ilən cərahətlü gördi, canından fəryadü fəğan çıxub büzürgvar əmmüsi yanına gəldi ağlayə-ağlayə və dedi:

– Ey iki cəhanuŋ şahzadəsi, qəvmlərüŋ fəraqini mundan artuq çəkəməzəm. Və çün bu qəddar zəmanə bizi hüzur və cəmiyyət təxtindən məzəllət tofrağına saldı, maŋa rüxsət ver, ta gedəyim və qərdaşumuŋ qanın istəyim.

İmam Hüseyn (ə) dedi:

– Ey əmmünüŋ canı və dərdimüŋ dərmanı, sən mənüm qərdaşımuŋ yadigarisən və bu yazıda bu əfgar yürəgümnüŋ qəmgüsari. Saŋa necə icazət və rüxsət verəyim və fəraq dügüni köksümə necə qoyayım?

Qasimüŋ anası daxi çadırdan dışxaru çıxub oğlınuŋ ətəgi iki əli ilən bərk dutub ahü fəryadə düşdi və dedi:

Şe'r:

Nəzərdən getməgil, cana, ki, yandürdi məni hicran,
Gözümnüŋ nurisən, köksüm sərvəri, dərdümə dərman.

Əlqissə, Qasim səvaşə getmək rüxsət bulmadı və İmam Hüseynüŋ qərdaşları (ə) yəraqdə idilər. Qasim öz çadırına girdi və başı dizi üsnə qoyub oturdı. Nagah xatirinə gəldi ki, atası anuŋ qolına bir tə`viz bağlamış idi və sifariş eyləmiş ki, hər qaçan ki xatirüŋə çox məlal və qayğu gələ, bu tə`vizi açub oquy və yazduğinə əməl eylə.

Qasim dedi:

– Ömrümdə hərgiz bəylə qayğulu olmamış idüm.

Pəs, qolından ol tə'vizi çıxarub açdı, yazılu gördi ki, İmam Həsən öz xətti ilən yazmış idi ki, ey Qasim, saŋa vəsiyyət eylərəm ki,

hər qaçan ki mənüm **[267b]** qərdaşum və sənüŋ əmmüŋ İmam Hüseyn (ə) Kərbəla dəştində vəfasız kufilər və şum şamilərüŋ əlində giriftar ola, zinhar ki, başüŋi anuŋ əyağinə salub, canüŋi aŋa fəda eyləyəsən və nə qədr ki səni səvaşdən mənʾ eyləyələr və mübaliğə qılalar, sən yalvarmağə düş ki, İmam Hüseyn içün baş oynayan iki aləmdə səadətlü olur.

Beyt:
Hanğı aşiqdür kanuŋçün[759] *başü canın oynadı*
Kim, qəriqi-bəhri-rəhmət axirüləmr olmadı.

Qasim həman ki bu vəsiyyəti oxudı, yerdən sıçrayub şahzadənüŋ yanına gəldi və tə`vizi əlinə verdi. Çün şəhidlər şahı ol yazuyi mütaliə eylədi, bağırından bir ah çəküb zar-zar ağladı və dedi:

– Ey əmmünüŋ canı, bu, bir vəsiyyətdür ataŋdan saŋa. Diləgüŋ oldur ki, bu vəsiyyətə əməl eyləyəsən. Maŋa daxi sənüŋ içün bir vəsiyyət eyləyübdür və istərəm ki, anı yerinə yetürəm. Gəl ki, bir saət bu çadıra girəlim və ol vəsiyyət ilən əməl eyləyəlim.

Pəs Qasimüŋ əlini dutub çadıra girdi və qərdaşları Əvn və Əbbası[760] gətürdi və Qasimüŋ anası daxi çağırdı və dedi:

– Qasimə yeŋi don geydir.

Və qız qərdaşını Zeynəbə dedi ki, İmam Həsənüŋ boxçəsi gətür. Filhal hazir etdi və boxçənüŋ başını açub, İmam Həsənüŋ (ə) dürrəəsi və bir qiymətlü don özindən aŋa geydürdi və öz mübarək əli ilən bir əmmamə sarub başına qoydı və qızı ki, anuŋ həqlüsi idi, əlin dutub, **[268a]** Qasimüŋ əlinə tapşurub dedi:

– Ey Qasim, bu, sənüŋ ataŋuŋ əmanətidür ki, saŋa vəsiyyət eyləmiş idi. Bu günədəkin mənüm yanümdə idi, imdi al.

Bəs, qızınuŋ əqdi anuŋ ilən bağladı və qızuŋ əli anuŋ əlinə verüb çadırdan çıxdı. Qasim bir tərəfdən gəlinüŋ yüzinə baxub başını yerə saldı. Nagah bu halətdə Ömər Nəhsüŋ ləşkərindən avaz çıxdı ki, hiç mübariziŋiz daxi qalupdur kim, meydanə girə. Qasim munı

[759] *Ki anunçün.*
[760] Əlyazmada: *Əbbas.*

eşidincə gəlininüŋ əlini qoyub, çadırdan dışxaru çıxmağə meyl eylədi. Gəlin anuŋ ətəgini iki əli ilən dutub dedi:

– Ey Qasim, xəyaluŋ nədür və əzimətüŋ nərəyə və məni kimə tapşurursən?

Beyt:

Qoyarsən məni, ayıt nərəyə gedərsən?
Canum yüz bəlayə giriftar edərsən.

Qasim (ə) dedi:

– Ey gözüm nuri, meydanə varurəm və düşmənlərüŋ dəfʾin etməgə səvaşurəm. Bilürəm ki, məni nə içün dutubsən. Məʿlum et ki, bizim toyümiz Qiyamətə düşdi.

Şe'r:

Qubari nagəhan əz-rahi-bidad
Şəbixun qıldı bər-nəsrinü şümşad.
Bulutlar qopdi anda dəŋizdən,
Yağışlar yağdı anuŋ ağızından.
Yabandən qopdi bir yel tündü əbtər,
Həvani qıldi toprağ ilə yeksər.
Səda gəldi nihani aləmindən
Ki, tanışlığ gidərdi adəmindən.
Ki, ey fani cəhani-duni-pürdil,
Gəlinlər kürəkanə bəylə vergil.

Qız dedi bu ki, sən dersən ki, toyimiz Qiyamətə düşdi. Məhşər günində səni nərədə tapım və hanğı nişanə ilə səni tanıyım?

Dedi:

– Məni **[268b]** cəddüŋ ilən ataŋ yanında istəgil və bu yırtmış yeŋ ilən məni tanıgil.

Pəs yeŋini yırtdı. Çün bu sözlər deyildi, Əhli-Beytdən fəğan qopdı və xamusi bir uğurda dedilər.

Beyt:

Nə bidadü zülm oldi bu, Qasima,
Ki, sən zahir etdüŋ bu gün canuŋa.

Əmma çün İmam Hüseyn (ə) gördü ki, Qasim meydanə varur, dedi:

– Ey əmmüŋ canı, öz əyağuŋ ilən guristanə varursən. Bu halət ilən məsafə getmək olmaz.

Əl urub yaqəsini çak etdi və dulbəndinüŋ iki başı ögindən asıldı və geyəsiləri kəfən şəkli ilən geydürdi və öz qılıcı anuŋ əlinə verüb meydanə göndərdi. Qasim mə`rəkəyə yüz urub bir rəcəz bünyad etdi kim, mə`nisi budur:

Məsnəvi:

Taŋrınuŋ hökminə riza verürəm,
Canümi şahümə fəda qılürəm.
Hindi tiğivü tazi atları
Danuğ etdüm şəhadətümğə varı.
Taŋrını özümə kəfil edərəm,
Qanum istəməgə vəkil edərəm.
Bülbülüŋ güz çağı fəğani kimi,
Çəkərəm növhənüŋ zəmani kimi.
Kürəkanlig əsas ilə geyəsi
Gedərəm cəddümə liva iyəsi.
Atınuŋ dırnağilə nizə başı,
Xəsmdən aluram can ilə başı.
Qəvm düşmənliği Nəbi yaninə
Qılürəm şikvə həm vəli yaninə.

Bu rəcəzlər söylər idi və mübariz dilər idi, ta çoq müşriklərüŋ başlarını **[269a]** kəsdi və ol qədr düşmənlərdən həlak etdi ki, kimsə daxi meydanə gələ bilmədi. Axir Qasim Ömər Nəhsüŋ qarşusinə gəlüb dedi:

– Ey cəfalu Ömər Səʾd, qəddarlığ qılıcı ilən İmam Hüseyn həvadarlarından çox kimsəni şəhid eylədiŋ. İmdi qəvmlərimizdən az kimsə pərişanhal qalubdurlar. Həzə çağı dəgül ki, bizdən əl çəkəsən və bu müdbirlər ilə Kufə saruyə gedəsən və bizi bu susizlig və natəvanlığ ilən qoyəsən və hər nəstədən ki, eyləmişsən, pəşiman oləsən.

Beyt:
Hərəm seydinə, müşrik, daxi çəkmə qılıcuŋ, zinhar,
Bizim könlümizə hər nəstəyə qıldıŋ, pəşiman ol.

Ömər Nəhs əleyhillə'nə dedi ki, sizə vəqt olmadı ki, aqibətiŋizə yəxşicə baxub caniŋizə bağışləyəsiz və səlamət qapusı yüzüŋizə açub, Yezid ilə bey'ət eyləyüb Ziyadoğlınuŋ mütabiətinə baş endürəsiz. Qasim munı eşidincə aŋa və bəglərinə nifrin qılub dedi:

– Ey bədbəxti-nabəkar, ə`la dini dəni dünyayə satduŋ və əmanət məta'i xəyanət odı ilə yandurduŋ və bu qəddar qarıyə aldanduŋ və anuŋ qəbalənaməsi qürur əli ilən yazub bilməyübsən ki, bu, bir gəlindür ki, hər beş gün bir ərə varur və hiç kimsə ilən baş aparmadı.

Beyt:
Cəhan ərusi iŋən xoş cəmaldur, əmma
Fəğan ki, hiç ərə zərrəcə vəfa qılmaz.

Ey Ömər, bu gün atuŋa su verübsən?

Dedi:

– Bəli, əvvəl su verdüm, andan atlandum.

Qasim dedi:

– "*Vəyləkə, vəyləkə*"[761], ya Bin Səˈd, **[269b]** vay saŋa, vay saŋa, ey Səˈdüŋ oğlı, atüŋi sirab edərsən və əmanət meydanıŋun şəhsüvarı susiz qoyarsən və Əhli-Beytüŋ dişiləri və uşağları susizliğdən canları dodağlarına yetübdür, sən anlardan su dəriğ eylərsən. "*Vəzkurullahi fi Əhli-Beyti*"[762] təzəkkürindən pənd al və Qiyamətüŋ susizliğindən qorx və saqiyi-Kövsərüŋ yüzindən utan.

Ömər Nəhsüŋ yüräginə od düşdi və gözlərindən arxlar axdı və çün ol xaksar din nəqdi yelə vermiş idi, hiç cəvab vermədi.

Əmma ravi rəvayət eylər ki, ləşkərinə yüz qoydı və dedi ki, bu atluyi tanursız, İmam Həsənüŋ oğlı Qasimdür. Əgər rəzm günində almas kib qılıc görə, məhbublərüŋ dodağlarını xiyal eyləyüb anı öp-

[761] *Sənə ar olsun, sənə ar olsun.*

[762] *Əhli-Beytim haqqında Allahı sizə xatırladıram.* (hədis)

məgə meyl qılur və əgər kəməndüŋ həlqəsi nəzərinə gələ, Çinü Xita mahruxlarınuŋ saçları kəman edüb anuŋlən oynamağə durur.

Beyt:
Çəridən əgər dolu olsə cəhan,
Yanində siŋək kibidür bigüman.

Anuŋ ögində bir-bir getməŋiz, sə'y eyləŋiz kim, anı ortayə dutub dörd yanından səvaşəsiz. Müxalifüŋ ləşkəri qorxu-qorxulu qəsd eylədilər kim, Qasimüŋ öginə varalar. Qasim ol haldan xəbərsiz idi, gördi kim, hiç mübariz öginə gəlməz. Gəlinüŋ çadırına yüz qoydı. Çün çadıruŋ qapusinə yetdi, İmam Hüseynüŋ (ə) qızınuŋ ünin eşitdi ki, anuŋ fəraqindən ağlar idi. Qasim daxi gəlinüŋ didarinə çoq müştaq idi. **[270a]** Bir neçə söz ki, ağzına gəldi, mə`nisi budur.

Şe'r:
Dilbəra, gəl dışxarı kim, arzuməndəm saŋa,
Yüzüŋi bir kəz daxi görməgə xürsəndəm saŋa.

Gəlin Qasimüŋ ünini eşidüb çadırdan yalın əyağ ilən çıxdı və dedi:

Şe'r:
Xoş gəldüŋ, əya, can diləgi, bəndə muradi
Kim, qıldı mübarək qədəmiŋ qayğüni şadi.

Qasim atından enüb yanına vardı və dedi:

– Ey əmmüm qızı, sözlər söyləməgə məcal dəgül ki, xəsmüŋ ləşkəri xirəsərlik eylərlər. İstərəm ki, abdar qılıcı ilən anlaruŋ səvaş odı bərtərəf edəyim və həqqa ki, ixtiyar ilən səndən müfariqət eləmənəm.

Beyt:
Nigara, ayruliğ səndən zərurətdür maŋa, yoxsə
Diləməz kimsə kim, hərgiz cəsəddən can cüda düşsə.

Bəs, Qasim gəlini vida eyləyüb mə`rəkəyə dönməgə əzm eylədi və gəlinüŋ hal dilindən kürəkənüŋ qulağına yetər idi.

[*Şeir*]:
Gözümdən, ey güli-xəndan, gedərsən daxi nərəyə,
Məni zarü zəbun qıldı tümən miŋ rəncü sevdayə.

Əmma çün Qasim gənə meydanə gəldi və mübariz istədi, hiç kimsə qəbul etmədi. Qəhr odınuŋ şö'ləsi zəbanə urub, dörd qatla özini sağə və solə və tipə urub çox mübarizi toprağ ilə yeksan eyləyüb, hər qaçan ki taxtdən fariğ olur idi, meydanuŋ ortasına gəlüb hərif istər idi. Dördünci qatla Ömər Nəhs Əzrəq bin Sə'di çağırdı və ol Şam ləşkərinüŋ təvağcisi idi və dedi:

– Ey Əzrəq, yılda on miŋ altun Yeziddən alursən və şücaət ilə **[270b]** bəhadirliğüŋ avazəsi Şami-İraq mübarizlərinüŋ qulağlarına yetürürsən. Nişün meydanə girüb bu yigidüŋ işini bir yanə eyləməzsən.

Dedi:

– Ey Ömər Nəhs, bu söz səndən əcibü qəribdür. Şamdə məni miŋ yigit ilən bərabər dutubdurlar. Sən bir oğlanuŋ səvaşinə göndərürsən və həmaŋa xiyaluŋ budur ki, nam ilə namusümi zaye eyləyüb itürəsən. Mən arlanuram munuŋlən səvaş eyləməgə.

Ömər Nəhs anı hayxırub dedi:

– Ey müdbir, dilüŋ lal olsun. Bu, İmam Həsəni-Muctəbanuŋ oğlı və həzrət Mustəfanuŋ nəbirəsi və Taŋrı əslanınuŋ fərzəndidür. Taŋrınuŋ həqqi içün kim, əgər aŋa susizlig zərurəti olmasa idi, namuslanur idi kim, bizim ilə söyləşəydi. Yanına var və anuŋ işini bir yan eylə. Bəhanə gətürmə ki, Ziyadoğlınuŋ yanında hörmətlü və Yezidüŋ hüzurində möhtəşəm oləsən.

Əzrəq dedi ki, əgər mənüm gəvdəmi qəyçi ilən zərrə-zərrə eyləyələr, mən anuŋ səvaşinə varməzəm. Əmma çün mübaliğə eylərsən, dörd oğlum var, varı şüca və bəhadir. Anlaruŋ birisinə deyəm, ta meydanə varub anuŋ başını gətürsün və sənüŋ köŋlüŋ bu fikrdən fariğ etsün.

Bəs böyük oğlını çağırdı və atdan enüb anı atlandurdı və öz qılıcını anuŋ belinə qurşadı və Davudi zirehi geydürdi və dəmürlü tavülğə anuŋ başına qoyub meydanə göndərdi. Qızıldan bir kəmər belində və on səkiz **[271a]** arşunlu cidə əlində. Bəylə yəraqlu meydanə

girdi və Qasimə həmlə qıldı. Qasim anuŋ yasaq ilə yəraqinə zərrəcə əndişə etməyüb, atına bang urub anuŋ həmləsinün öginə vardı və bir cidə anuŋ köksinə həvalə qıldı. Yezidüŋ qalxanı dəmürdən idi və öginə dutmış idi. Cidə qalxanına dəgüb ufandı. Qasim qəzəblü olub, cidəni bıraxub, qılıcın çəküb anuŋ qarşüsinə vardı. Ol daxi cidəsini bıraxdı və qılıca yapışub Qasimüŋ başına həvalə qıldı. Qasim qalxanı başına çəkdi. Əzrəqoğlınuŋ tiği Qasimüŋ qalxanı iki bölüb əlinə dəgdi və yaralandı. Əmma Muhəmməd Ənəs İmam Hüseynüŋ (ə) ləşkərindən çün gördi kim, Qasimüŋ qalxanı yoxdur, bir gəŋətəklü qalxan aŋa yetürüb gördi kim, əli yaraludur. Əmmaməsindən bir parə kəsüb anuŋ əlinüŋ yarasını bağladı və Muhəmməd Ənəs məlul və qayğulu olub öz ləşkərinə qayıtdı. Qasim qalxanı götürüb xəsmüŋ qarşusinə vardı. Əzrəqoğlı gənə qılıcın çəküb Qasimə həvalə etmək istər idi, atı yüzi quyi düşüb, at arxasından yerə düşdi, başı çıplağ oldı, saçlu idi. Qasim əl uzadub, saçını əlinə dutub, atını sıçradub meydandə çəkə-çəkə gəzdürür idi, ta yüz miŋ xariliğ ilən həlak oldı. Pəs saçını əldən qoyub üstində **[271b]** at basdurdı, ta gəvdəsi təmam xürd oldı və anuŋ qılıcı ki, qiymətlü və giranmayə idi, cidəsi ilən götürdi və meydandə durub mübariz istədi.

Əzrəq çün oğlını gördi ki, ol məzəllət ilə öldü, ağladı. Və oğlanlarından birisi daxi çün qərdaşı ölü və atası qəmlü gördi, atasından dəstur almayub meydanə vardı və Qasimüŋ çəvrəsində gəzüb dedi:

– Ey rəhmsiz, mənüm qərdaşümi öldürdüŋ ki, bitün Şam məmləkətində anuŋ kimi bəhadir yoq idi. Qasim dedi:

– Ya ədüvvüllah, imdicə səni daxi qərdaşuŋa yetürəyim.

Filhal anuŋ qaburğasına bir cidə əylə yetürdi kim, ol qaburğasından çıxdı. Bəs daxi mübariz istədi.

Üçünci qərdaş çün anları gördi, xüruşə gəlüb, başına toprağ töküb atası yanına getdi və dəstur dilədi. Atası anı çox sevər idi və rüxsəti verməz idi. Bəs atasınuŋ sözinə qulağ asmayub, atına məhmiz urdı və nifrinlər öz canına söyləyə-söyləyə gəlüb Qasimüŋ yamacına durdı. Qasim anuŋ bihudə çürük sözləri eşidüb bir cidə anuŋ qarnına əylə urdı kim, cibəri arxasından çıxdı.

Əzrəq həman ki munı daxi gördi, atından enüb başına topraq tökdi və yəraq eyləyüb Qasimüŋ hərbinə gəlməgə cəhd edər idi. Dördünci oğlı baxdı və qərdaşlarınuŋ halı gördi, atası ilən danışmayub, atına bang urub, **[272a]** Qasimüŋ qarşusinə gəlüb sögməgə durdı. Qasim anuŋ cəvabinə iltifat etməyüb səvaşə yüz urdı. Əzrəqüŋ oğlı Qasimə bir cidə həvalə eylədi. Şahzadə ol qılıc ki, əlində idi, aŋa yetürüb sağ əli cidəsi ilən bıraxdı. Ol bədbəxt qaçməğə yüz qoydı və yarəsindən qan axar idi. Həman ki ləşkəri yanına yetdi, atdan düşüb damunuŋ malikinə canın tapşurdı.

Əmma çün Əzrəq dörd oğlını həlak olmış gördi, aydın cəhan[763] gözinə qəra oldı və qayğudən səlah üzərinə bağladı və bir bedəv atə minüb meydanə əzm eylədi və Qasimüŋ qarşusinə durub dedi:

– Ey daşyürəklü, mənüm dört oğlumı ki, bitün Şam məmləkətində anlaruŋ tayı yox idi, öldürdüŋ.

Qasim dedi:

– Anlaruŋ qayğusini yemə ki, şimdicə səni daxi anlarə yetürəcəgəm.

Əmma çün İmam Hüseyn (ə) gördi ki, Əzrəq Qasimüŋ qarşusinə gəldi, fikrlü oldı, andan ötrü kim, ol məlʿun şücaətdə məşhur idi. Bəs əlin duayə gətürüb Qasimüŋ nüsrətini Taŋrıdan istədi.

İki ləşkər irağdan ol iki mübarizüŋ səvaşinə göz tikmiş idilər. Əzrəq Qasimə həvalə eylədi, Qasim anuŋ həmləsini rədd eyləyüb ərlər kimi durmış idi. Gah bu aŋa cidə yetürür idi və gah ol muŋa həmlə qılur idi. Hər nəstə ki ol bağlar idi, bu açar idi və hər nə bu açar idi, ol bağlar idi. Bəylə hərbü zərbdə **[272b]** idilər, ta on iki həmlələr aralarında keçdi. Əzrəq qəzəbə varub, Qasimüŋ atına bir cidə yetürüb mərkəbi əyağdən saldı. Qasim yəyağ qaldı. İmam Hüseyn (ə) Muhəmməd Ənəsə dedi:

– Mənüm qərdaşumuŋ oğlına mədəd eylə və bu kutəli aŋa yetürəgör kim, yəyağ qalubdur.

Muhəmməd Ənəs dərhal ol kutəli dutub Qasimə yetürüb, Qasimi mindürdi. Bəs, Qasim Əzrəqə həmlə qıldı. Əzrəq bir dağ kibi bir

763 Əlyazmada: *cəhanı.*

gülgün atə minmiş idi və məğribi cövşən aŋa geydürmiş idi, ətəkləri qamu qızıllu. Qasimüŋ həmləsinə qarşu gəldi. Üç tən daxi aralarında keçüb rədd eylədi. Andan Əzrəq qılıc çəküb Qasimüŋ yanına gəldi.

Qasim daxi ildurum kibi qılıcın qınından çəkdi və yürəgindən bir xüruş çəküb dedi:

– Ey Əzrəq, gəl, ta görəyim nə işdəsən və ərlərüŋ hünərindən nəŋ var?

Şe'r:

Bəri gəl ki, bir-birimiz görəlim,
Bu meydandə əslan kimi duralım.
Görəlim kimüŋ yolini düz olur,
Kimüŋ işini soŋra firuz olur.

Çün Əzrəq, oğlınuŋ qılıcı Qasimüŋ əlində gördi, dedi:

– Ey Qasim, bu qılıcı miŋ aqçayə satun almışam və miŋ altun verübəm, ta ağu suyi muŋa verübdürlər. Sənüŋ əlüŋə necə düşübdür?

Qasim dedi:

– Oğlunuŋ yadigarıdur və istərəm ki, saŋa bu tiğüŋ şərbətini içürüb səni oğlanlaruŋa yetürəm. Ey Əzrəq, rəva ola ki, sən bir ispahi kişi olasan, atlananda anuŋ **[273a]** qulanı yəxşicə baxmayub bərkitməyəsən. İmdi yaxın dur ki, anuŋ arxasından iyər əgilə.

Əzrəq əgildi kim, iyərüŋ qulanına baxa, Qasim aŋa yaxın olub bir zərb belinə urdı kim, qavun təki iki böldi. Şam ləşkərindən qəriv qopdı. Filhal Qasim mərkəbdən sıçrayub Əzrəqüŋ atına mindi və İmam Hüseyn əleyhissəlamuŋ kutəlinüŋ üzəngisini öpüb İmamuŋ qulluğinə yetürdi və dedi:

– "*Ya əmmah, əl-ətəş, əl-ətəş*"[764]. Həqqa ki, əgər bir içim su bula idüm bu xaksarlərdən tütün çıxara idim.

İmam Hüseyn (ə) dedi:

– Yaxın oldı kim, cəddüŋ əlindən Kövsər suyi nuş edəsən və bu qayğuları varı fəramuş edəsən. Var anaŋ yanına ki, fəraqüŋdən ağlar və zarilik eylər və hicranuŋ odı ənа dügüni ol namuraduŋ köksinə qoyubdur.

[764] *Ey əmi, susadım, susadım.*

Beyt:
Fəraquŋ odini yandurdı anuŋ xərməni-səbrin,
Var anuŋ yaninə kim, çak oldi daməni-səbrin.

Qasim bir çadıra ki, anası ilən gəlini anda idilər, gəldi və dışxarıdən anasınuŋ üni eşidür idi kim, der idi:

– Ey fərzəndi-girami vey dərdmənd köŋlümnüŋ arami, söylə kim, nərədəsən və nişün əziz didarüŋi anaŋa görsətməzsən?

[Beyt]:
Didədən getdüŋ və mən bisərü payəm sənsiz,
Bilməm sən nərədə, mən nərədəyəm sənsiz.

Gəlin daxi ağlayə-ağlayə der idi:

Şe'r:
Getdi ol dilbər yanümdən, dildə qaldı yüz həvəs,
Hicrinüŋ qayğusi oldi canum ilə həmnəfəs.

Qasim həman ki bu avazlar eşitdi, nalələr çəküb xüruşə durdı. Anası gəlini ilən xəbərdar **[273b]** çadırdən dışxaru çıxdılar və Qasimüŋ əyağinə düşdilər. Qasim anlaruŋ köŋlinə təşkin verüb səbr və təhəmmülə irşad edər idi və söylər idi:

– Ey əzizlərüm, bu gün bir gündür ki, hüzur və şadiliğ irağ olub, dimağlarə xürrəmliğ nəsimi yetməz və bəylə kim sizüŋ dirilik çəməniŋizdə nəzarət qalmayubdur, mənüm murad ilə kamranlığ gülşənimüŋ təravəti daxi yox. Əylə ki sizüŋ taqətiŋiz yoxdur fəraq yükin çəkməgə, məndən daxi səbrü sükun kənarə dutub bitaqət eləyübdür. Əmma bu duri zəruridür, toprağ ilən sunuŋ yüzi meydandədür və köŋül ilən canuŋ yüzi cananə.

Şe'r:
Kuyüŋizdən getdük, əmma qaldı köŋül yadigar,
Canü dil hicrüŋ odindən yandı, tən qaldı figar.

Əmma çün Qasim getməgə əzm eylədi, bu kəlami-cigərsuzuŋ məzmuni və bu mihnətənduz kəlaminüŋ söhbətindən qalanlaruŋ dilinə rəvan oldı.

Beyt:
Oldi qanlar didələrdən cari, ey göz mərdümi,
Mərdümi qıl, dideyi-xunbardən olma cüda.

Əmma çün Qasim meydanə gəldi, gözləri Ziyadoğlınuŋ tuqinə dəgdi ki, Ömərüŋ başı üsnə durğuzmış idilər, cələvi ol yanə saldı kim, anuŋ tuqi əyağdən sala. Piyadələr yol üsti aŋa bağlayub qoymadılar. Qasim anlaruŋ hərbinə məşğul oldı, atlular çəvrəsini dutub ox ilən cidə və gürz ilən qılıclar aŋa həvalə qılub səvaşə durdılar. Qasim hərbüŋ dəŋizinə qutə urub, otuz atlu əlli yəyağ ilən saldı **[274a]** və atlularuŋ cərgəsini kəsüb çıxmağ istərdi, atına tirbaran etdilər. At əyağdən düşdi və Şis bin Səʾd Qasimüŋ köksinə bir cidə urdı ki, mübarək arxasından çıxdı. Və Qasim bu hərbdə igirmi yedi yara görmiş idi və çoq qan andan axmış idi. Çün atdan düşdi, dedi:

– "*Ya əmmah, ədrikni*".[765]

Avazı İmam Hüseynüŋ (ə) qulağına yetdi, atını sıçradub, atlu və yəyağlərüŋ səfini bir-birinə urub, Qasimi gördi toprağ ilən qanə bulaşmış və Şis anuŋ başı üsnə durubdur. Aŋa bir qılıc əylə yetürdi ki, başını iki yardı. Andan Qasimi götürüb, çadıruŋ qapusindən gətürdi və həzə gəvdəsində bir rəməq baqi qalmış idi. İmam Hüseyn anı qucağlayub yüzini öpər idi. Anası gəlini ilən anda durub ağlar idilər. Qasim gözin açub anlarə baxdı, bir təbəssüm eyləyüb canın Canafərinə təslim etdi.

İmam Hüseynüŋ (ə) bargahindən qərivü xüruş çıxdı və Əhli-Beyt salihələri nalələr çəkdilər. Qasimüŋ anası der idi:

– Ey ananuŋ məzlumi, dəriğ ol yüzüŋ Ayıdan ki, yigitlik fələgüŋ aləmtab xurşidi idi. Andan ilərü ki, cəhanuŋ ərsəsini nuri ilən aydın qıla, fəraq mühaqinə giriftar oldı və heyf ol həyat bulağından kim, andan ilərü ki şövqi-badiyənüŋ susizləri sirab etsün, həlak cuyindən mükəddər oldı.

Beyt:
Dəriğa ki, soldurdi qəm mihnəti,
[274b] *Yigitlik çağində güli-dəvləti.*

[765] *Ey əmi, köməyimə yetiş.*

Ey Qasim, gözüŋ aç və əmmüŋ qızına bax. Ey Qasim, kürəkanlik həsrəti köŋüldə qaldı.

Beyt:

Getdüŋ bu cəhani-fanidən həsrət ilən,
Qoyduŋ anaŋı burada yüz mihnət ilən.

İmam Hüseynüŋ qızı anuŋ qanına əl urub, öz yüzinə və başına sürtdüb hal dili ilən söylər idi.

Nəzm:

Köŋül, sizğə kim, anuŋ dilbərin öldürsələr nagəh,
Gərəkdür kim, qızartsun yüzi anuŋ qanilə dər-dəm.
Gəlinlər kim, şəhid oldisə şüyi, söylə kim məntək
Nigar etsün əli qanilə, dutsun soŋrası matəm.

Qasimdən soŋra Əbu Bəkr bin Əli (ə) İmam Hüseynüŋ (ə) yanına gəldi və dedi:

– Ey qərdaş, maŋa rüxsət ver, ta qəvmlərümnüŋ qanın bu nakəslərdən istəyim.

İmam Hüseyn (ə) dedi:

– Ah, siz bir-bir gedərsiŋiz, pəs məni kimə qoyarsıŋız?

Dedi:

– Ey ulu qərdaş, çoq zəman idi ki, istərdüm ki, bir töhfə həzrətüŋə iltürəyim. Bilməzdüm ki, saŋa layiq ola. İmdi görərəm candan əzizrak yoxdur, anı əyağuŋa nisar edərəm.

Şe`r:

Bu gün çün dilbərümdür mihmanum,
Çəkərmən itləri yanində canum.
Köŋül durma, həzər, canümdədür söz,
Saçarmən əyağinə bu rəvanum.

Bəs şahzadə aŋa rüxsət verüb, Əbu Bəkr meydanə gəldi və cövlanlar edüb, ərlik çovganı ilən düşmənlərüŋ başlarını tup eyləyüb məsaf içində gəzər idi və rəcəzlər söylər idi kim, **[275a]** mə`niləri budur.

Nəzm:
Hüseyni-Əli qərdaşum – şahi-din,
Müşərrəf əlüŋlə zəmanü zəmin.
Səfa rövzəsinüŋ güli-istifa,
Nəbireyi-nəbi seyyidül-mürsəlin.
Gögüŋ nuri, kani-kərəm, mehri-şərʾ
Kim, indi anuŋ şəʾninə yarusin.
Dəgülmən anuŋ qərdaşi, quliəm,
Qirarmən xəvaricləri cümləsin.
Gətürdüm eşiginə canü köŋül,
Əlümdə budur töhfə-hədiyyə həmin.

İmam Hüseyn (ə) aŋa dua və afərinlər etdi və ol bir tazinijad bedəvə ki, səgirtməkdə yeldən keçər idi və tezlikdə səbükpay vəhmdən ötər idi, minmiş idi.

Beyt:
Hərarətdə odtək, su kib nərmü xoş,
Keyikdən aparmış girov əbrvəş.

Hər tərəfə ki taxt eylər idi, xəvariclərüŋ neçəsi basar idi və hər yanə ki atını səgridürdi, müxalifləri toprağ ilən bərabər qılur idi, ta ol çağ ki həyat nəqdini şəhadət bazarində oynatdı. Rəvayətdür ki, igirmi bir zəxm mübarək cəsədinə dəgmiş idi, aqibət, Qüdamə Mosuli anı şəhid etdi.

Beyt:
Götürdi rəxti bu fani cəhandən,
Bəqa yurtinə vardı bu məkandən.

Andan soŋra Ömər bin Əli (ə) dəstur diləyüb səvaşə gəldi və mübarizət qüvvəti ilən bahadirlərdən boynın uzatmış idi. Əhli-Beytüŋ həqqinə bir mənqəbət oxuyub rəcəzlər söylədi kim, mə`niləri budur.

Nəzm:
Qayğu yolində aqibəti qılmışuz nisar,
[275b]*Yoxlığ təriqində qıluruz imdicə güzar.*

Bu bəhrdən çü kimsə bir içim su içmədi,
Qəm susizliğin qılubuz xoşdil ixtiyar.

Çox hərbü zərbdən soŋra çün kəffari-əşrar qələbə idilər, qəddar aləmdən köŋül götürüb, rövzeyi-cinanə varub, hurlaruŋ söhbətini ixtiyar eyləyüb, Rəbbül-aləmin civarində qərar dutdı. Və bə'zi rəvayət edərlər ki, Ömər Əli (ə) ol səvaşdə qərdaşı bilə dəgül idi və bu qəvl nəsəb üləmaları yanında səhihdür. Əmma məşhurdur ki, ol gün şəhadət səadətinə fayiz olub İmam Hüseynüŋ (ə) qulluğində idi.

Andan soŋra Osman bin Əli (ə) İmam Hüseyn (ə) rüxsəti ilən

Nəzm:
Atın sıçratdı meydanuŋ içində,
Yox idi tayini ruyi-zəmində.

Mərdanə bir səvaş bünyad eylədi ki, əgər Sami-Nəriman görə idi, yüz afərin aŋa eyləyəydi. Bir rəcəz başladı ki, mə`niləri budur:

Şe`r:
Əlində tiği-kin Osman məsafə gəldi, kafərlər,
Gəlüŋiz oginə, görüŋ necə urmək gərək xəncər.
Hüseynüŋ oginə Şami çəkər şəmşiri-bədnami,
Olarni qırdürəm xamı bəhəqqi-şahi-dinpərvər.
Şəhadət sübhi çün çıxdı, münafiqnüŋ evi yıxdı,
Vəfasız küfilər imdi gəlüŋiz ögimə yeksər.

Münafiqlər nə qədr ki ilərü gəlür idilər, qırar idi və cəhənnəmə rəvanə edər idi, incə müşrikləri öldürürdi ki, küştələrdən püştələr düzətdi. Aqibət, zəxm gördi və Yezid Əbtəhi ol dudmanuŋ çırağı, əcəl yeli ilən müntəfi qıldı.

Beyt:
[276a] *Getdi ol göz rövşəni, köŋlümdə qaldı həsrəti,*
Şadimanlığ qalmadı, aləmdə qaldı mihnəti.

Andan soŋra Əvn bin Əli kim, bir yigit idi xubsurət, safiniyyət, İmam Hüseyn yanına gəldi və dedi:

– Ey ulu qərdaş, mənüm taqətüm yoxdur ki, meydandə durub mübarizi bir-bir istəyəm, zira ki andan bir təvəqqüf olur və mən düşmənlərüŋ qətlində tə`cilim var. İcazət verüb himmətüŋ mənüm yoldaşum eylə.

İmam Hüseyn (ə) dedi:

– Ey qardaş, düşmən ləşkəri qələbədür.

Əvn cəvab verdi ki, ya İbn Rəsulullah, tilkülərüŋ qələbəliğindən əslanuŋ zəmirində hiç əndişə keçməz və kəklik çoğluğindən qarçağaynuŋ qayğusi yox.

Nəzm:

Məsaf içində mərdanə gedərmən,
Ədu gər çox isə, nə fikr edərmən.
Səvaşdə əzmi-girü dar edərəm,
Ədularğə cəhani dar edərəm.

Munı deyüb, atın sıçradub xəsmüŋ qol ləşkərinə urdı və hica dəŋizində güclü qolınuŋ qutində qutələr urdi. İbnül-Əhcar iki miŋ piyadə ilən atlu anuŋ çəvrəsini dutub, Əvn Əli qılıc qüvvəti ilən ol qəvmüŋ səfini yırtıb, ləşkəri pərişan etdi və İmam Hüseyn (ə) qulluğinə gəldi. İmam Hüseyn aŋa afərinlər qılub dedi:

– Baxərəm ki, yarəlü olubsən, var çaduruŋa, zəxmlərüŋi bağla və bir saət asayiş eylə.

Əvn dedi:

– Ey qərdaş, Əhmədi-Muxtar ruhi içün (sələvatüllahir-Rəhman) kim, məni səvaşdən mən` eyləmə **[276b]** ki, hələkə yaxınəm və görərəm ki, saqiyi-Kövsər cənnət şərabindən əlində bir camı var və maŋa işarət eylər və mən istərəm ki, özümi susizliğdən xilas edəyim və şəhadət rəfiqinüŋ mədədi ilən susiz bağrümi firdövs zülalinə yetürəyim.

Pəs, İmam Hüseyn dedi ki, ol at ki, həzrət əmirül-mö'minin Əli həyati-zəmanində saŋa vermiş idi, buyur kim, iyərləsünlər və aŋa atlan. Əvn buyurdı kim, ol atı mükəmməl eyləyüb gətürdilər. Dərhal aŋa minüb, Davudi zireh geyüb, ağ köŋlək ol zirehüŋ üstinə çəküb,

Yəməni qılıc həmayil eyləyüb, Rumi cidə əlinə dutub meydanə vardı. Zəmanuŋ dilindən bu səda səvaş meydaninüŋ ərsəsinə düşdi.

Beyt:

Nə afətdür ki, zahir oldi bu atlu ilən, ya Rəb,
İyərdən görmədi hiç kimsə kim sərvi-səhi yetdi.

Səlah[766] bin Yəsar həman kim gözi anı gördi, titrəməgə düşüb eski kinəsi yeŋi oldı. Və anuŋ ədavət səbəbi ol idi ki, həzrət əmirülmö'minin Əli (ə) xilafət zəmanində anı sərxoş ikən dutub məhkəməyə gətürdilər. Həzrət əmirül-mö'minin Əvnə buyurdı kim, aŋa yetmiş taziyanə ursun. Ol kinə anuŋ köksinə gizlü idi, ta bu saət ki, meydanə gəldi, Salehi-taleh ol kinənüŋ intiqaminə qılıcı qınından çəküb, nasəza dili uzadub Əvnə həmlə eylədi. Əvn anuŋ kəlpətrə sözlərindən qəzəbə varub, cidənüŋ bir zərbi ilən anı atından döndərdi. Anuŋ **[277a]** qərdaşı Bədr bin Yəsar çün qərdaşını ol halət ilən gördi, Əvnə (ə) həmlə qılub qarşusinə gəldi və sögməgə dilini açdı. Əvn aŋa söz deməgə məcal vermədi, ağzına bir cidə yetürdi ki, cibəri arxasından çıxdı. Aqibət, miŋ atlu sağ qoldan və miŋ atlu sol qoldan çıxdılar. Tə`nlər və zərblər aŋa rəvan etdilər. Ol namdar yigit, Zülfiqar iyəsinüŋ nəqdi anlarə yüz qoyub, hər tərəfə ki həmlə qılur idi, atlu ilən yəyağdən qovğa qopar idi. Soŋra çox yarəlü olub, Xalid bin Təlhənüŋ cidəsi zərbindən atdan düşdi və dedi:

– *"Bismillahi və billahi və əla milləti Rəsulullah*[767], ya Bin Rəsulullah, sənüŋ eşqüŋlə din mə`rəkəsinə gəldük və həm ol şərt ilən axirət meydaninə vardük.

Beyt:

Başüm yolüŋdə gər toprağ oldi,
Sənüŋ başüŋ sağ olsun, imdi noldi.

Andan soŋra Əvnüŋ qərdaşı Cə'fər bin Əli (ə) qərdaşlarınuŋ qayğusindən pərişan olub, İmam Hüseynüŋ (ə) dəsturi ilən meydanə

---

[766] Farsca orijinalda: *Saleh.* "Şühədanamə"nin də sonrakı cümlələrinin birində: *Saleh.*

[767] *Allahın adı ilə və Allah ilə Onun Rəsulunun üzərinə.*

varub, ərlik dadını verüb, az zəmandə çox münafiqi öldürüb, həm ol şərbətdən ki, əziz qərdaşları içdilər, bir cür`ə dadub, bir göz yummağdə "*məq`ədi-sidqin*"də anlarə ulaşdı.

Əbdullah bin Əli (ə) ağlayə-ağlayə iki cəhanuŋ şahzadəsi (ə) yanına gəldi **[277b]** və hal dili ilən söylədi.

Şe`r:
Ey qəmüŋ maŋa şadliğ əsli,
Kamranliğ cəmalüŋiz vəsli.
Gedərəm qayğu dağı köŋlümdə,
Mihnətü dərdü dağı köŋlümdə.

Ey qərdaş, taqətsiz oldum qərdaşlaruŋ fəraqindən, cəsədüm hicran meydanində paymal oldı. İltimasum oldur ki, icazət ərzani eyləyəsən.

Şahzadə Hüseyn (ə) aŋa rüxsət verüb atlandurdı. Əbdullah məsafə yüz qoydı və yüz yetmiş nakəsi həlak eylədi. Hani bin Ürvə bin Şüveyb[768] anı mərkəbdən salub şəhid eylədi.

Beyt:
Xilas oldi bu viranədən bə-əvni-Xuda,
Nüzul qıldi bə-gülzari-cənnətül-mava.

Andan soŋra Əbbas bin Əli (ə) ki, İmam Hüseynüŋ (ə) ələmdarı idi, çün qərdaşları ol hal ilən müşahidə eylədi, mihnət gözlərindən qanlar axdurub söylər idi.

Beyt:
Qəvm ilə qərdaşlarum varı qəminü dilfigar,
Getdilər bu dünyadən, mən qalmışam heyranü zar.

Bəs, ələmi götürüb, İmam Hüseynüŋ (ə) yanına gəlüb, mübarək başınuŋ üstində durğuzdı və dedi:

– Ey qərdaş, bizim ələmdarlığımız[769] Qiyamətə düşdi. İnayət eyləyüb maŋa icazət ver.

[768] Farsca orijinalda: *Süveyb Həzrəmi.*

İmam Hüseyn (ə) ağlayub dedi:

– Ey qərdaş, mənüm ləşkərimnüŋ nişanəsi sən idüŋ. İmdi ki sən daxi gedərsən, varı cəmiyyətliğüm pərişanlığa mübəddəl olur.

[278a] Əbbas dedi:

– Ey Rəsulullahuŋ oğlı, canum saŋa fəda olsun. Dünyadən köŋlüm dutulubdur və köksümnüŋ güzgüsi əğyardən paslu olupdur. İstərəm ki, bu sitəmlülərdən dadümi alım və intiqam qılıcı ilən kufəlüdən və şamludən neçəsi bican qılayım.

İmam Hüseyn (ə) buyurdı kim, çün sənüŋ muraduŋ budur, gərək kim meydanə girəndə əvvəl bu qəvmlə söyləşüb hüccət gətürəsən və hər nəstə ki saŋa derəm, anlarə söyləyəsən. Sözüni eşitməslər, andan səvaşə məşğul ol. Pəs neçə kəlmə aŋa söylədi və icazət ərzani qıldı.

Əbbas bir mübariz idi namdar və bir bəhadir idi alimiqdar və şücaət Heydəri-Kərrardən (ə) aŋa miras qalmış idi və qamu mə`rəkələrdə çoq bəhadirlik eyləmiş idi. Bu məhəldə bir tazi bedəvə mindi və Misri qılıc və Məkki qalxan və Rumi zireh özinə bağladı və meydanə yüz qoydı. Həman ki meydanuŋ ortasına yetdi, dedi:

– Ey qəvm, bu seyyid və sərvər və ögünülmiş öz dili ilən Peyğambər [əvladı] der ki, qərdaşlarum və qəvmlər ilən həvadarlarum öldürdüŋiz və neçə səhabələrinüŋ qanını toprağə tökdüŋiz. İmdi maŋa ol qədr su verüŋ ki, əyal ilən uşağlarum[770] içsünlər, ta anlaruŋ susizligi bərtərəf olsun və məni qoyuŋ kim, anları götürüb Rum məmləkətinə gedəyim, ya Hindustan sarusinə varayım və Ərəb cəzirəsi və Hicaz vilayəti sizə qoyayım **[278b]** və şərt eylərəm ki, Qiyamət günində sizüŋ ilən müxasimət etməyim[771] və sizüŋ fe`lüŋizi Taŋrıyə qoyayım, ta hər nəstə ki istər isə, sizə eyləsüŋ.

Çün Əbbas bu dilsuz peyğamı əda qıldı, Ziyadoğlınuŋ ləşkərindən qülqülə qopdı və neçəsi əpsəm oldılar və neçəsi sögməgə durdılar

---

[769] Əlyazmada: *ələmdarlığımızı.*

[770] Əlyazmada: *uşağlarumı.*

[771] Əlyazmada: *etməyəyim*.

və neçəsi pəşimanlığ yedilər və neçəsi zar-zar ağladılar. Əmma Şimri-Zilcövşən və Şis Rəb'i və Həcərül-Əhcar – üçi irəlü gəlüb dedilər:

– Ey Əbu Turab oğlı, qərdaşuŋa söylə ki, əgər yerüŋ üsti bitün su dutsun və ol bizim təsərrüfimizdə ola, bir qətrə andan saŋa verməyəlim, məgər ol saət ki, Yezid ilən bey'ət eyləyəsiz və Ziyadoğlınuŋ əmrinə müti' və münqad olasız.

Əbbas anlarə nifrinlər həvalə qılub qayıtdı və İmam Hüseyn (ə) yanına gəlüb, mübarək başını öginə salub gözlərinə su keçdi. Nagah çadırlardan fəryadü fəğan qopdı və "*əl-ətəş, əl-ətəş*" avazı gögə yetdi. Əbbas Əhli-Beytüŋ cuşi və xüruşi eşitdi, bitaqət olub, bir tuluğ iki mətarə ilən götürüb Fərat çayınuŋ qırağına yüz qoydı və dedi kim, gedərəm su gətürməgə, ta bu uşağları susiz zəhmətindən xilas edəyim.

Şe'r:

Mihnətüŋ bəhrində qutə urərəm qəvvastək,
Qərq olam ol bəhrdə, yoxsa çıxarəm gövhəri.
Bəs xətərlüdür yolum, Həqqə sığındum özümi
Ki, susizdürlər cəhanuŋ sərvərivü behtəri.

Rəvayətdür kim, dörd miŋ nakəs Fərat suyinə müvəkkil idilər: iki miŋ atlu və iki miŋ yəyağ. Çün Əbbas **[279a]** Fərat suyiniŋ qırağına yetdi, ol dörd miŋ nakəs[772] aŋa yüz qoydılar və yol aŋa bağladılar. Əbbas dedi:

– Siz müsəlmansız, ya kafər.

Dedilər:

– Biz müsəlmanuz.

Əbbas dedi:

– Müsəlmanlıqda rəva ola ki, it və donğuz və cəmiyi-heyvanat: uçən və yeriyən – varı bu sudən içələr və siz Mustəfa və Murtəzanuŋ (ə) bağırparələri və Bətuli-Əzra və Xədiceyi-Kübranuŋ fərzəndi andan məhrum edəsiz və su verməyüb mən` eyləyəsiz. Qiyamət güninüŋ susizligindən fikr eyləməzsiz və ol günüŋ xəcalətindən və Ərə-

[772] Əlyazmada: *nakəsi.*

sat nədamətindən aŋmaz oldıŋız. Haliya siz övqatüŋiz su qırağında keçər və Kərbəla susizlərinüŋ halından xəbərsizsiz.

Beyt:
Fərat suyinüŋ üstində qonubsiŋiz, nə bilürsiz,
Susizlərüŋ bu yabandə necə cigərləri yanər.

Çün Fərat suyiniŋ saxlayıcıları bu sözi eşitdilər, beş yüz piyadə ilərü gəlüb Əbbasə tirbaran etdilər. Əbbas qalxanı yüzinə çəküb, atuŋ qulağı üstində cidəni durğuzdı, anlarə həmlə qıldı, səksən nakəsi əyağdən saldı, qalanı mütəfərriq oldılar, ta anlar cəm` oluncə atını suyə saldı. Bu məhəldə müşriklər daxi yetdilər və səvaş bünyad eyləyüb, Əbbas atına məhmiz urub sudan çıxartdı və rəcəzlər oxuyub anlarə həmlə qıldı və rəcəzlərindən bir neçə beytüŋ məˀnisi budur.

Şe`r:
Əlinüŋ oğlı Əbbasdur bu,
Cəhanuŋ içrə xeyrün-nasdur bu.
Budi altındadur yeltək bir atı,
[279b] *Əlində tiğ çün abi-həyati.*
Başüm oynadürəm, bulay ki, tapəm,
Şəhadət bəs xəlas ola tən əz-qəm.
Əlinüŋ alinə qəsd eyləməğə,
Cəhənnəmdə qalur dərd ilə dağə.

Cidə xövfi ilən qılıc bimi andan ürkdilər, Əbbas daxi atını suyə bıraxdı. Miŋ atlu daxi aŋa həmlə qıldılar və Əbbas öz cidəsi suyə buraxub, qılıc çəküb sudan çıxdı və anlarə həmlə qılub hər yanə ki, yüz qoyar idi, andan ürkər idilər. Ol qədr sə`y eylədi ki, su qırağı anlardan aldı. Bəs atdan enüb, tuluği sudan doldurub istər idi ki, su içə, axir İmam Hüseyn və Əhli-Beytini aŋub və anlaruŋ susizligini öginə gətürüb su içmədi. Tuluği çigninə çəküb istər idi ki, rəvanə ola, piyadələr ittifaq eyləyüb yoluŋ başı aŋa bağladılar. Əbbas anlar ilən səvaşə durub, nagah Novfəl bin Əzrəq xəbərsiz özini Əbbasə yetürdi. Əbbas özgə kimsəyə məşğul idi. Ol müdbiri-nakəs bir hərbə Əbbasə

həvalə eyləyüb, Əbbasuŋ sağ qolını bıraxdı. Əbbas bir rəcəz oxudı kim, iki beytinüŋ məʾnisi budur.

Şe'r:

Əgər sağ əlüm saldı düşmən, nolur,
Sağınmıŋ ki, köŋlümni qəmgin olur.
Sol əl ilə anca qılıc urayım
Ki, düşmənlərümni zəbun görəyim.

Pəs Əbbas ərlik qüvvəti ilən tuluği sol çigninə çəkdi, ol əlini daxi biraxdılar. Tuluğiŋ iplərini dişləri ilən dutub tuluği arxasına **[280a]** saldı və əyağ ilən düşmənləri irağ eylər idi. Bu halətdə bir ox tuluğə dəgdürdilər və suları varı töküldi. Əbbasuŋ hal dili söylər idi: Bilmənəm ki, hikmət nədür ki, dünyadə bizim susiz dodağlarımıza bir qətrə su yetməz. Və qeybdən avaz gəlür ki, uçmağ şərbətləri sizüŋ içün amadə eyləyübtürlər. Heyf ola kim, dodağıŋızı dünya şərbəti ilən yaş eyləyəsiz.

Şe'r:

Dünyanuŋ duzlu su ilə yaşlamıŋ himmət ləbi
Kim, sizüŋçündür mühəyya şərbəti-mai-təhur.
Bu cəhanuŋ darliginə qoyma dil kim, qeybdən
İşrətüŋçün ucalanmışdur behişt ilə qüsur.

Pəs Əbbasuŋ yarələrindən əz-bəs ki qan axdı, əyağdən düşüb dedi:

– "*Ya əxahu, ədrik əxakə*"[773] – ey qərdaş ğurumə yet.

Çün anuŋ üni İmam Hüseynüŋ (ə) qulağına yetdi, bildi kim, atası və əmmüsi yanına gedüpdür. İmam Hüseyndən (ə) bir ah çıxdı ki, Kərbəla dəşti andan titrəməgə düşdi və hal dili ilən dedi:

Beyt:

Köŋləgin çak etdi gögüŋ xacəsi bu yasdən,
Toprağə urdi başindən börkini şahi-fələk.
İki büküldi fələk boyni, qəra oldi Ayuŋ
Köŋləgi, yandı bu qayğudən dilü canı mələk.

[773] *Ey qardaşum, qardaşının köməyinə yetiş.*

Təvarixdə məzkurdur ki, İmam Hüseyn (ə) Əbbasuŋ şəhadətliğindən soŋra buyurdı:

– İmdi mənüm arxam ufandı və çarəsiz qaldum.

Beyt:

Çarəsiz qaldum çü qaldum yarsız,
Oldum avarə nigarum kuyidin.

Ravi der ki, Muhəmməd bin Ənəs şahzadə yanında **[280b]** durmış idi. Çün İmam Hüseynüŋ avazın eşitdi və ağlamağ ünin qulağına yetdi, ol məqamə ki, Əbbas düşmiş idi, yəyağ vardı. Orayə yetincə gördi kim, qan ilə toprağə bulaşub canın təslim eyləyübdür və fəna zindanindən bəqa gülistaninə yüz qoyubdur. Özini anuŋ üstinə bıraxdı və ağlamağ bünyad etdi. Neçə atlu ilən yəyağ ki anda idilər, aŋa həmlə gətürüb anı şəhid eylədilər və ətini cidə cəbrilən zərrə-zərrə qapdılar.

Andan soŋra İmam Hüseyn üç oğlı ilən (ə.m) qaldı: Əli Əkbər və İmam Zeynəlabidin və Əli Əsğər və derlər ki, adı Əbdullah idi. Çün İmam Hüseyn (ə) gördi ki, qərdaşları və uşağları və şiələri varı getdilər, səlahını geyüb meydanə varməğ istədi. Əli Əkbər çün atası gördi ki, xəvariclərüŋ canına qəsd etməgə meydanə varur, atdan endi və atasınuŋ əlinə və əyağına düşüb dedi:

– Ey ata, hərgiz olmasun ki, sənsizin bu dünyada qalam. Rəva görmə ki, məni zalimlərüŋ ortasında qoyəsən. Ol qədr ivmə ki, mən öz canümi əyağüŋdə oynadayım.

İmam Hüseynüŋ hərəmi və qızqardaşı və qızları çadırlardan dışxaru çıxub, Əli Əkbərüŋ əyağinə düşdilər və anı mə`rəkəyə getməgə mən` etdilər. İmam Hüseyn daxi (ə) rüxsətin verməz idi. Əli Əkbər zarilik edər idi və əzim andlar içər idi və atasına yalvarur idi və gözlərindən yaşlar **[281a]** axıdurdı. İmam Hüseyn anuŋ çox yalvardügindən öz əli ilən səlah aŋa geydürdi və bir kəmər göndən ki, əmirül-mö'minin Əli əleyhissəlamdən qalmış idi, belinə bağladı və dəmürlü tavülğə mübarək başına qoydı və bir atə ki, adı Üqab idi, mindürdi. Anası ilən qızqərdaşı rikabını dutub, yaş yerindən gözlər-

dən qan axıtdurdılar. İmam Hüseyn (ə) dedi ki, anı qoyuŋız ki, axirət səfərinə varur.

Beyt:
Səfər əzimətin etmiş, anı qoyuŋ getsün,
Bu mihnətü qəmü ənduhi-vadidə netsün?

Pəs, Əli Əkbər anları vida eyləyüb məsafə vardı. Və ol bir yigit idi on səkiz yaşında və xəlq və xülq yüzində təmam Mustəfayə (əleyhissələvat vəs-səlam) bənzər idi. Çün meydanuŋ ortasına yetdi, mə`rəkənüŋ fəzası nurani rüxsarindən aydın olub, Ömər Sə`düŋ ləşkəri anuŋ cəmalınə mütəhəyyir olub, dedilər kim, bu, kimdür ki, bizi anuŋ hərbinə gətürübsən?

Şe'r:
Kimdir ol kim, atı üsnədür bəlayi-dinü dil,
Çox evi viran qılur, hiç olmaz andan münfəil.
Ay kimi rəxşəndədür çün atuŋ üstündədür,
Çün yerir yer üsnədür sərvi-səhi andan xəcil.

Ömər Nəhs həman kim anı Üqab atı üstində minmiş gördi, dedi:

– Bu, İmam Hüseynüŋ (ə) böyük oğlıdur ki, şəkli və surəti təmam həzrət Rəsulullahə bənzər.

Və rəvayətdür ki, hər qaçan ki Mustəfanuŋ (ə) liqasi şövqi Mədinə əhlinə qalib olur idi, Əli Əkbərüŋ cəmalınə baxar idilər və hər qaçan ki **[281b]** seyyidi-ənamuŋ kəlamı şövqi istima eyləmək istər idilər, bu şahzadənüŋ kəlamını qulağ asar idilər. Ol yigit boyı bir sərv kimi və təl`əti bir Ay təki meydan ərsəsinə atını cövlanə gətürüb gəzər idi. Və Əbül-Müəyyəd nəql eyləyübdür ki, Əli Əkbər meydanə gəlüb, mübariz istəyüb cövlanlar qılur idi. Həlqəlü mişkin saçları yüzinə pərişan eyləmiş. Və ol şahzadənüŋ dört saçı var idi ənbər qoxulu: iki öginə salur idi və iki ardına. Rüzigar dili ol şahzadənüŋ vəsfində bu növ təprənür idi.

Beyt:
Müştəri bəndəŋ olsun, ey xosrov,
Fələgüŋ tövsəni ola saŋa ram.

Şahzadə bir rəcəz öz mənaqibində söylədi və Əhli-Beyti anda ögdi və beytlərinüŋ mə`nisi budur.

Nəzm:

Mənəm Əliyyi-Hüseyni-Əli ki, gög şahi
Qulumdurur fələk üstində sidq ilə ixlas.
Nə qəm ki, müşriki-məl`ün bizi bəgənməz hiç,
Çü Həq yanimdədürür Əhli-Beyti-xassül-xass.

Rəvayətdür ki, Əli Əkbər mübariz dilədi, kimsə anuŋ öğinə gəlmədi. Şahzadə özini xəsmüŋ ləşkərinə urub, sağ qolı və sol qolı zirü zəbər eyləyüb, qolə və tipə yüz qoydı və ol qədr hərb etdi ki, ol taifeyi-məl`un təngə gəldilər. Pəs, qayıdub atası yanına gəlüb dedi:

– Ey ata, susizlik məni həlak eylər və dəmürlü silah məni ağrıdur və zəhmətə salur. Hiç bir icim suyə yol aparmağ olur? Taŋrı həqqiçün ki, əgər bir cür`ə **[282a]** su boğazümə girə idi, bu nakəslərdən tütün çıxara idim.

İmam Hüseyn (ə.) anı çağırdı və ağzından və dodağlarından toprağ arıtdı və həzrət Rəsulullahuŋ üzügi anuŋ ağzına qoydı, ta əmdi və susizligi təskin tapdı. Daxi meydanə vardı və bir rəcəz söylədi, mə`nisi bu:

Şe'r:

Görüŋiz, ey müsəlmanlar, su istər saqiyi-Kövsər,
Fərati mən` edər kafər zi-Əhli-Beyti-Peyğambər.
Nəbi fərzəndi qoyarlar, Yezidə bey`ət edərlər.
Bətuluŋ köŋlin istərlər qılalar qayğudən əbtər.
Hüseynüŋ saçın istərlər qızıl qanlə boyadələr,
Pəyəmbərdən utanmazlar, Qiyaməti unudurlar.
İmamuŋ Əhli-Beytini beheştə girdilər cümlə,
Şəhidlər qamusı xürrəm, münafiq damuyə girər.

Bu qatla çün şahzadə mübariz istədi, Ömər Nəhs Tariq bin Şisi çağırdı və dedi:

– Var və İmam Hüseynüŋ oğlunuŋ işini qayır, ta Ziyadoğlından Mosul və Riqə hökuməti sənüŋ üçün alım.

Tariq dedi kim, qorxaram ki, Rəsulullahuŋ[774] oğlını öldürəm və sən bu və`dəyə vəfa etməyəsən. Ömər-Nəhsi-məl`un and içdi ki, bu sözdən dönmənəm və bu üzügümi nişanə üçün al və yanüŋdə saxla. Tariq Ömər Nəhsüŋ üzügini alub barmağına soxdı və Mosulüŋ hökuməti xatiri içün Əli Əkbərüŋ hərbinə vardı bir təmam silah ilən və Əli Əkbərə bir cidə həvalə eylədi. Əli Əkbər anuŋ cidəsi rədd eyləyub, Tariqüŋ köksinə bir cidə əylə yetürdi kim, cibri əŋsəsindən çıxdı. Tariq atdan düşdi. Əli Əkbər atı anuŋ üstinə sürüb, varı gəvdəşinüŋ sümükləri **[282b]** at dırnağı ilə ufatdurdı.

Anuŋ oğlı Ömər bin Tariq meydanə vardı, ol daxi atasına vasil oldu. Qərdaşı Təlhə bin Tariq ata və qərdaşınıŋ qanıŋ istəməgə mərkəbi sıçradub od şö`ləsi kimi özini şahzadəyə yetürdi. Əli Əkbər filhal anuŋ yəqəsini dutub, özinə çəkub atından düşürdi və əl uzadub, anuŋ boynını dutub, ol qədr güc eylədi ki, xürdü mürd olub ömrindən tox oldı.

Ömər Nəhsüŋ ləşkərindən qəriv qopdı və yaxın idi ki, şahzadənüŋ həvl və heybətindən və güc ilə şövkətindən pərişan olalar. Ömər Nəhsi-məl`un qorxub Misra` bin Qalibə dedi:

– Meydanə var və bu Haşımi yigiti dəfʾ eylə.

Misra` şahzadənüŋ qarşusinə gəlub həman yetincə cidə ilən həmlə qıldı. Əli Əkbər çün şücaət ilə bəhadirlik cəddi ilən atasından miras tapmış idi, bir nəʾrə çəkdi əylə kim, ləşkər anuŋ nəʾrəsindən titrəməgə düşdilər. Bəs, Misraʾ yanına gəlub qılıc ilən cidəsi iki böldi. Misraʾ qılıcə yapışub çəkmək istərdi. Əli Əkbər Taŋrını anub, Rəsulullahə sələvat göndərüb başına bir tiğ yetürdi kim, iyərinədək iki böldi: yarısı anuŋ sağ tərəfinə və yarısı sol tərəfinə düşdi. Ləşkər varı xürusə gəldilər. Ömər Nəhs Möhkəm bin Tüfeyli Novfəlüŋ oğlı ilə çağırdı və hərəsinə miŋ atlu verüb, Əli Əkbərüŋ səvasinə göndərdi. Anlar həman yoldan meydanə yetincə Əli Əkbərə həmlə qıldılar. Şahzadə bir həmlə ilən ol ləşkəri qaçurub, bir ac əslan kimi ki, qulan **[283a]** ilxısinə uğrayə, urar idi və öldürür idi, ta ləşkərüŋ içində qovğa çıxdı və bir-birinüŋ üstinə düşdilər.

---

[774] Farsca orijinala əsasən İbn Rəsulullahuŋ olmalıdır.

Pəs, Əli Əkbər qayıdub atası yanına gəldi və "*əl-ətəş, əl-ətəş*" fəryadı gögə yetürdi. İmam Hüseyn (ə) dedi:

– Ey atanuŋ canı, qayğulanmə ki, dəmbədəmdür ki, Kövsər həvzindən sirab oləsən.

Əli Əkbər bu müjdədən dilşad olub, meydanə qayıdub, həmlə və girü dar edər idi. Pəs hər tərəfdən müxalif ləşkəri aŋa [həmlə] qıldılar və çox zəxmlər urdılar. Axir, cidə tə`ni ilən İbn Təmir, ya Marə bin Əbdinüŋ zərbindən atdan düşüb bir nə`rə urdı və dedi:

– Ey ata, ələümi dut.

Şe`r:

Yol üsnə düşmişəm toprağ kib, lütf eyləgil, ey bəxt,
Basümğə yetgürəgör bu nəfəs səvgü nigarümni.
Bu qatla can aparməzmən, sevərsən şahi, dur tez ol.
Xəbərdar eyləgil qəmdən mənüm ol qəmgüsarümni.

Anuŋ üni İmam Hüseynüŋ (ə) qulağına yetdi. Dərhal atını səgirdüb, oğlını meydan içindən götürüb, çadırı qapusinə yetürdi və mərkəbindən endirüb, başını dizi üsnə qoyub dedi:

– Ey ərcümənd fərzəndi-girami vey dərdmənd könlümnüŋ arami, ataŋ və anaŋ ilən bir söyləş.

Əli Əkbər gözini açub, öz başını atasınuŋ ətəgində gördi və anası ilən qərdaşlarınuŋ xüruşin eşitdi, dedi:

– Ya əbətah, görərəm ki, gögüŋ qapıları açılıbdur və hurlar cənnətüŋ Kövsərindən doptalu camlar əllərində maŋa işarət eylərlər ki, gəlməgə tezrak ol.

Bunı deyincə ruh əmanəti geri verdi. İmam Hüseyn **[283b]** əleyhissəlamuŋ hərəmindən qovğa və xüruş çıxdı və İmam Hüseyn daxi ağlayub der idi:

– Ey oğul, öz yurt ilə məqamuŋ ol aləmdə gördüŋ və cəddüŋ yanına varduŋ və Kövsərdən şərbət içdüŋ və bizi düşmənlər içində qoyduŋ və özüŋ "*cənnati Ədnin mufəttəhətən ləhumul-əbvab*"[775] yolına düşdüŋ.

[775] *Qapıları onlar üçün (taybatay) açılmış Ədn cənnətləri*. (Quran, 38: 50)

[***Nəzm***:]
Ey oğul, söyləgil, niya getdüŋ,
Qoyuban ataŋı kima getdüŋ?
Ömrüŋ ağacidən səmər yemədin
Bu cəhandən pür əz-əna getdüŋ.
Çünki qoyduŋ bu fani aləmni,
Bə-sərapərdeyi-bəqa getdüŋ.
Cədlərüŋ yaninə şəhadət ilən
Mustəfa birlə Murtəza getdüŋ.

Şəhrbanu xatun der idi:

– Dəriğ, ol şadimanlığ çəmənüŋ nihalindən kim, yigitlignüŋ bəharı təravəti əcəl guzinüŋ yeli ilən soldı və əfsus, ol görklü cəmaldən ki, həzə həyat xəlvətindən zövq çaşnisi dadmayub qönçə kibi fəna və fəvat tikənindən pərdəyə girdi.

Beyt:
Yeŋi Ayuŋ nə hali var, söylə
Kim, mühaqə düşübdürür böylə.

Bir rəvayət də daxi edərlər ki, ol saət ki Əli Əkbər Ömər Nəhsüŋ ləşkərinə həmlə qıldı, anı ortayə dutdılar və şahzadə İmam Hüseynüŋ (ə) nəzərindən qayib oldı. İmam Hüseyn (ə) anuŋ tələbinə vardı kim, əhvalini təfəhhüs eyləyə, qatı avaz ilən der idi:

– Ya Əli, ya Əli.

Nagah Əli Əkbərüŋ üni gəldi ki, "*ya əbətah,* **[284a]** *ədrikni*"[776] – ey ata, məni bul. İmam Hüseyn ol avazənüŋ ardına düşüb atını sürdi və daxi dedi:

– Ya Əli.

Özgə tərəfdən nə`rə gəldi ki, "*ədrikni, ya əbətah*".

İmam Hüseyn ol ünüŋ əqəbinə varub oğlını bulmadı. Daxi Əliyi çağırdı. Cəvab gəlmədi və səbəbi ol idi kim, Mənqəd bin Nü`manilə`in bir zəxm anuŋ başına urmiş idi, yaxın idi kim, atdan düşə. Ərlik

[776] *Ey ata, köməyimə yetiş.*

qeyrəti ilən özini saxladı, atun yalına yapışub cələvi əldən qoydı. At anı İmam Hüseynüŋ (ə) sarusindən özgə tərəfə çıxarmış idi və çün bir parə yol ləşkərdən irağ olmış atından düşmiş. At gənə meydan tərəfinə yüz qoydı. Əmma çün İmam Hüseyn (ə) nə`rələr urub hiç cəvab eşitmədi, taqətsiz olub, ləşkərüŋ səfini yırtıb Əli Əkbəri görmədi. Meydanuŋ ortasına baxub, anı şəhadət bulmış hiç yerdə düşmiş tapmadı. Qəzadən İmam Hüseynüŋ (ə) atı Ömər Nəhsüŋ ləşkəri tərəfindən badiyəyə yüz qoydı. Nə qədr ki cələvini gəriyə çəkərdi, qayıtmaz idi, ta bir meydan mə`rəkədən irağ olub: "Ya Əli, ya Əli", – çağırur idi və fərzəndi-pəsəndidənüŋ mihnətindən gözdən yaşlar axıdur idi və bu beytüŋ məzmuni söylər idi.

Beyt:
Firqətüŋdən bir köŋül var məndə yüz miŋ dərd ilən,
Yürəgümdür hicrdən miŋ dürlü ahi-sərd ilən.

Ey oğul, sən qandasan, nişün görklü **[284b]** cəmalüŋi ataŋa görsətməzsən? Ey oğul, düşmənüŋ cövrlərindən yarəlü köŋlüm dərdlüdür və yarənüŋ mərhəmi sənüŋ vüsaluŋdur.

Beyt:
Zar idi köŋlüm bu daşyürəklülər azaridən,
Firqətüŋdən, ey oğul, imdi düşübmən zarrak.

Bu halətdə İmam Hüseynüŋ (ə) gözi nagah Əli Əkbərüŋ atına düşdi və üstində Əlini görmədi. Atı dutmağ istər idi, at badiyəyə yüz qoydı. İmam Hüseyn (ə) anuŋ izini götürüb gedər idi, ta bir mövze`ə yetdi, gördi kim, at durdı. Yəxşicə baxdı, Əli Əkbəri gördi düşmiş qan ilə toprağ içində ağnar. Filhal atdan enüb, yanına oturub, əlini Əlinüŋ alnına sürtdi. Əli Əkbər gözin açub atasınuŋ cəmalı gördi, dedi:

– Ya əbətah, görərsən?

İmam Hüseyn dedi:

– Ey oğul, nə nəstə?

Əli dedi:

– Ey ata, cəddüm Mustəfa əleyhissələvat vəs-səlamuŋ əlində iki cam uçmağuŋ şərbətindən var: birisi maŋa verür ki, iç. Mən istərəm ki, ikisi daxi maŋa versün ki, bəqayət susizəm. Ol həzrət buyurdı ki, ey Əli, sən bu, bir camı nuş eylə kim, ol biri qərdaşuŋ içün amadə eyləyübəm kim, ol daxi susiz dodağlu və bağrı yarəlü yanümə gələcəkdür.

Munı dedi və can nəqdi Həqqə təslim eylədi.

İmam Hüseyn (ə) anı Üqab atına bağlayub, çadıruŋ qapusinə gətürüb, aŋası qızqərdaşları bilə xüruş və zariyə düşdilər və anuŋ içün mərsiyələr oxur idilər.

[***Beyt***:]

[285a] *Ol tazə gülüŋ daməni ta çıxdı əlümdən,*
Qönçə təki qat-qat yürəgüm qanə bulaşdı.

Bu dərdüŋ yanmağı ol qəmzədə bilür ki, öz fərzəndinüŋ qəmənduz vaqiəsi ilən yanmış ola və bu zəxmüŋ ağrığı ol müsibətə giriftar olmış kişi tanur ki, cigərsüz dilbəndinüŋ fəraqinə mübtəla olmış ola.

Beyt:
Mənüm canum qəmin ol qocə bilür
Ki, bir gün yigitindən ayru düşmiş.

Əlqissə, çün İmam Hüseyn (ə) gördi kim, hiç tərəfdən bir mədədverici gəlməz və hiç canibdən aŋa bir qəmgüsar və həvadar gözükməz, hərəmüŋ müxəddəratı xüruşə gəlüb fəğan və fəryadə düşdilər. Dedi:

– Ey nübüvvət hərəminüŋ pərdəgilər vey ismət və fütüvvət pərvərdələri, xamuş oluŋuz, ta düşmənlər tə`nə urmayalar və özüŋizə səbr şüar eyləŋiz ki, bəladə cəz`ə və fəryad eyləmək səvabdən məhrum olduği səbəbidür və sabirüŋ Həqq-təala yanında səvabı dışxarıdur.

Fəraq görmüşlərüŋ niyaz dili bu beytüŋ məzmuni əda qılur idi.

Beyt:
Köŋlümüŋ yox taqəti-dərdi-fəraq,
Bu, köŋüldür, ey pəri, yoq qara daş.

Və şahzadənüŋ natiqəsi anlaruŋ cəvabında hal dili ilən der idi kim, doğru derlər.

Beyt:
Firqətümdə səbr qılmaq bir nəfəs
Kimsənüŋ yoq həddi, əmma çarə yoq.

Bəs, qızını Səkinəyə istimalət verüb nəvaziş eylədi və dedi:

– Bu gün mənüm Səkinəmni yetim olacaqdur. Zinhar ki, məndən soŋra anı incitməyəsiz **[285b]** və anuŋlən iltifatsizlik eyləməyəzsiz ki, yetimlərüŋ yürəgi nazik olur və mənüm vaqiəmdən soŋra başüŋizi çıplaq etməŋiz və yüzüŋizə təpançə və çəpalaq urməŋiz və yüzüŋizi köksüŋiz ilən yırtməŋiz və könləgiŋizi çak eyləməŋiz kim, bular cəhl əhlinüŋ adətidür. Əmma yığlamağdən mən` eyləmənəm ki, siz qəriblər və bikəslər və məzlumlar ilə biçarələr və məhrum və avarələrsiŋiz və bavücud bu mihnətlər müsibətə giriftar olacaqsıŋız.

Bu halətdə Zeynəb və Ümmü Külsüm və Şəhrbanu və Səkinə taqətsiz olub ağlamağ bünyad etdilər əylə zariliğ ilən ki, gögüŋ sövməədarları anlaruŋ ahü fəğanindən naləyə gəldilər. İmam Hüseyn (ə) Əhli-Beytinüŋ vida`in eyləyüb, tazi atə mindi və meydanə varmağ istər idi. Nagah çadırdan xüruş və qovğa çıxdı. Səbəbindən sordı, dedilər:

– Ey seyyidü sərvər, sitəmgər zəmanə bizə xariliğ eylər və Əli Əsğər susizliğdən zarilik qılub ağlar və anasınuŋ əmcəgində süt qalmayıbdur və ol süt əməni həlakə yaxın olupdur.

İmam Hüseyn dedi kim, anı yanümə gətürüŋ. Zeynəb anı götürüb məzlum qərdaşı yanına gətürdi. İmami-məʾsum anı götürüb, iyərüŋ üstinə mindirüb müxaliflərüŋ səfi öginə apardı və ol şahzadəni əl üsnə dutub çağırdı ki, ey qəvm, əgər sizüŋ gümanüŋiz ilən mən suçluyəm, axir bu tiflüŋ hiç günahı yoxdur. Aŋa bir cür`ə su veriŋiz ki, susizligdən anasınuŋ **[286a]** əmcəgində süt qalmayıbdur. Ol daşyürəklü rəhmsizlər dedilər kim, mühal xiyaldur kim, biz saŋa Yezid-dən buyruğ olmadın bir qətrə su verəüz. Bir namərd məl`uni-şəqiyi-əzəl və əbəd ki, Əzd qəbiləsindən ki, şum adı Hərmələt bin Kaheli idi, bir ox yayına qoyub İmam Hüseynüŋ sarusinə atdı. Taŋrınıŋ qə-

zasindən ol ox Əli Əsğərüŋ boğazına dəgüb və andan ötüb İmam Hüseynüŋ qolına batdı. İmam (ə) ol qanı ətəgi ilən arıdub qoymaz idi ki, yerə tökə. Bəs çadıra yüz qoyub anasını çağırdı və dedi:

– Dut bu tifli-şəhidi ki, Kövsər suyindən sirab oldı.

Şəhrbanu xüruşə düşdi və Əhli-Beytüŋ məhrəmələri fəğan çəkdilər və İmam Hüseyn (ə) daxi ol məzlum uşağ içün ağlar idi və dilinə bu məˀnilər keçər idi.

Beyt:

Ta anadən Əliyyi düşdi cüda,
Ansızın oldıi ruzigari qəra.
Ataŋuŋ qəmgüsari idiŋ sən,
Düşdüŋ irağ imdi ataŋdən.
Getdüŋ, əmma qalubdurur səndən,
Yürəgində atanuŋ bəlavü mihən.

Və Şəhrbanu öz gözinüŋ nuri fəraqində bu kələmatuŋ məzmuni dilinə cari oldı.

[*Rübai*:]

Doymadın didə yüzüŋdən yanümizdən getdüŋ,
Çıxmadın söz dodağüŋdən ögümizdən getdüŋ.
Dərdi, ey qönçeyi-novrəstə, əcəl əli səni,
[286b] *Dərmədin şaxi-əməl mivəsi Həqqə yetdüŋ.*

Rəvayətdür ki, Əli Əsğər ilən yetmiş iki tən idilər ki, şəhadət şərbətini içüb dirilik rəxti bəqa darül-mülkinə çəkdilər.

Əmma İmam Hüseyn ilən kimsə qalmadı İmam Zeynalabidindən özgə (əleyhumussələvat vəs-sələm). Və Əhli-Beyt çün şahzadəni yalğuz gördilər, dərdlü könüllərdən ahlar çəküb, uşağlaruŋ yetimliğini aŋub, qəribliğ ilən bikəsligindən əndişəlü olub ağlamağdan özini saxlaya bilməz idilər.

Şe'r:

Gər cəhanuŋ gözi insaf ilə görəydi, Hüseyn,
Nişə yalğuz qalə idi Kərbəla toprağində?
Çünki Əhli-Beytə rəhm etmədilər məl`unlar,
Anlaruŋ başlarinə dəvri-fələk toprağ edə.

Rəvayətdir ki, İmam Hüseyn ilən (ə) ərkəkdən həman İmam Zeynalabidin (ə) qalmış idi və ol daxi sayru idi. Çün atası yalğuz gördi, çadırdan dışxarı çıxub cidəni götürdi, əmma zə`fdən cidənüŋ bir ucı toprağə çəkər idi və xəstəliğdən mübarək gəvdəsi titrər idi. Bu hal ilən meydanə yüz qoydı. Çün İmam Hüseynüŋ gözi İmam Zeynalabidinə yetdi ki, məsafə varur, ardından rəvan olub dedi:

– Allah, Allah, qayıt ki, mənüm nəslüm səndən baqi qalur və Əhli-Beyt İmamları atası sən olacaqsən və sənüŋ nəslüŋ Qiyamətədək baqi qalub kəsilməyəcəkdür. Və mən səni özümə vəsiyy eylərəm **[287a]** və Əhli-Beytüŋ dişiləri saŋa qoyaram və hər əmanət ki, cəddüm ilən atamdan var, varı saŋa tapşururam. Əvvəl, Taŋrınuŋ kəlamı – Qur`ani-qədimdür, daxi Fatimənüŋ müshəfi və cəfri-əbyəz və cameʾ və cəfri-əhmər və elmi-qiyafət və məzbur və özgə elmlər ki, Əhli-Beytüŋ İmamlərindən özgə kimsə bilməz.

Bəs İmam Zeynalabidini (ə) çadırına gətirüb oturtdı və əmanətləri qamusı aŋa tapşırdı və təqvayə və mövla tələbinə vəsiyyət qıldı. Andan Şəhrbanuyə dedi:

– Mənüm səlahimüŋ əybəsi gətür kim, özgələrnüŋ dəvri getdi, imdi növbətdür mənüm.

Nəzm:

İmdi növbət düşdi maŋa[777]*, əlvida,*
Əlvida, ey itrətuma, əlvida.
Tez ola kim, hicrdən olsun dolu,
Köŋlüŋüzə şurü qovğa, əlvida.
Novbəharuŋ əbritək hər dəmbədəm,
Oturəsiz ağlamağa, əlvida.

Pəs xəzzi-Misrinüŋ donı geydi və Rəsulullahuŋ əmmaməsi başına bağladı və seyyidüş-şühəda Həmzənüŋ qalxanı arxasına bıraxdı və şahi-vilayətüŋ Zülfiqarı həmayıl eylədi və Zülcinah atına mindi və meydanə varmağ əzm eylədi. İsmət pərdənişinlərüŋ möhtərəmələri ardından rəvan olub dedilər:

[777] Əlyazmada: *"maŋa düşdi"*.

– Ey şahzadə, vaveylah, bizi kimə qoyarsən və bu bikəs qəriblə-ri kimə tapşurursən?

İmam Hüseyn (ə) dedi kim, qayıtınız ki, sizi Taŋrıyə tapşır-dum və Ol mənüm vəkilümdür sizüŋ **[287b]** işlərinizə *"və kəfa bil-lahi şahidən"*[778].

Əmma çün İmam Hüseyn meydanuŋ ortasına yetdi, cidənüŋ bir ucını yerdə bərkitdi və bir rəcəz bünyad etdi kim, anlardan neçə beytinüŋ məˋnisi budur:

Qəsidə:[779]

Mənüm cəddüm Muhəmməd Mustəfadur
Ki, şəmˈi-cəmˋi-cümlə ənbiyadur.
Atamnuŋ mənqəbətlərini oxursəm,
Yəqin bil bədri-burci-"la fəta"dur.
Anam xeyrün-nisa binti-Pəyəmbər,
Kəlami - "bizˋətun minni"[780] güvadur.
Həsəndür qərdaşum şahi-du aləm
Ki, sibti-Mustəfavü Murtəzadur.
Mənüm əmmümdürür Təyyari-Cə'fər
Ki, yeri aşiyani-Kibriyadur.
Atam əmmüsi Həmzə–şahi-kövneyn
İki aləmdə yüzi Tanrıyadur.
Sitəmgər kufilər əxlaqüŋizni
Nifaqü hiləvü cövrü cəfadur.
Mənüm qəvmümlə qərdaşum varısı
Şəhid eylədüŋiz, danuğ Xudadur.
Mənüm qətlümğə bellər bağlayübsiz,
Nə məzhəbdə mənüm qətlüm rəvadur?
Əzizlərüm varı susiz dodağlu
Cəhandən getdilər, növbət maŋadur.

---

[778] *Allahın şahidliyi mənə yetər*. (Quran, 13: 43)

[779] Əlyazmada: *məsnəvi.*

[780] *Ətimizin bir parçası[dır]*. (hədis)

Andan soŋra dedi:

– Qorxuŋız ol Tanrıdan ki gecə aparur və gündüz gətürür və öldürür və dirildir və rizq verur və can alur. Əgər bu Taŋrıyə e`tiqadüŋiz və Rəsulinə Mustəfa (s) ki, mənüm cəddümdür, iman gətürmişsiŋiz, mundan artuğ maŋa cövr ilə [cəfa] eyləməŋiz və bidadlığ maŋa rəva görməŋiz və andan qorxuŋız ki, Qiyamət **[288a]** Ərəsatində daŋla cəddüm ilən atam sizüŋlən xəsmliğ eyləsünlər və Kövsər suyi sizə verməsünlər. Budur yetmiş iki adəm mənüm qəvmüm və qərdaşlarım və qərdaş oğlanlarum və dustlərlə məvalilərüm varı öldürmişsiŋiz və imdi mənüm qətlümə qəsd eylərsiŋiz. Əgər məmləkət içündür, yolümi verüŋ, ta Həbəşə, ya Türkistanə varayım. Və əyallərimüŋ susizlikdən bağırları kəbab olupdur, su verüŋ, ta mən daŋla sizüŋ ilən düşmənlik etməyəm və əgər bəylə eyləməyəsiz, "*əl-hukmu lillahi və rəzeyna bi-qəzaullah*"[781].

Ömər Nəhs ləşkəri çün bu sözlər eşitdilər, mə`rəkədən ürkdilər və kufilər ağladılar və nalələr çəkdilər. Bəxtəri bin Rəbiə və Şis bin Rəb`i və Şimri-Zilcövşən gördilər ki[782], iş əldən gedəcəkdür və yaxın oldı ki, ləşkər bəgləri ilən səvaşə duralar, İmam Hüseyn (ə) qarşusinə gəldilər və dedilər:

– Ya Bin Əbi Turab, özüŋə iş uzatma və bu təkəbbür başüŋdən gidər və gəl, ta səni Ziyadoğlınuŋ yanına aparalım, ta Yezid ilən bey`ət eyləyəsən və bu mühlik qəziyyədən xilas olasən, yoxsə səni həm bu haldə saxlaruz, ta susizlikdən həlak olasən.

Bəs əmirül-mö'minin Hüseyn (ə) başını öginə saldı. Ömər Nəhs çün ləşkərüŋ naləvü əfğanı və ağlamağı gördi, qorxdı və ləşkərüŋ qolından çıxub piyadələrinə bang verüb dedi:

– Qoymaŋız **[288b]** ki, Əbu Turab oğlı daxi söz söyləyə, anı tirbaran eyləŋiz.

---

781 *Hökm Allahındır və biz Allahın yazısına (qəzavü qədərinə) razıyıq.*

782 Əlyazmada cümlənin bu hissəsi təkrar verilmişdir: *Və kufilər ağladılar və nalələr çəkdilər. Bəxtəri bin Rəbiə və Şis bin Rəbi` və Şimr Zilcövşən gördilər ki.*

On beş miŋ yəyağ bir uğurda ox atdılar. Qəzadən bir ox ol həzrətə və atına dəgmədi. Ol oxatıcılar işlərindən münfəil olub qayıtdılar və İmam Hüseyn Kərbəladə yalğuz qalmış idi.

Beyt:

Əhli-Beytüŋ dişilərdən özgə kimsə qalmadı,
Şahzadə yanində, illa İmamül-abidin.
Əhli-Beyt içün İmam ağlardı anda zar-zar
Qanını tökmək içün şamivü kufi dər-kəmin.

Şahzadə istər idi ki, anlarə həmlə eyləyə, qəzadən bir toz yel qopdı kim, hiç kimsə kimsəni görməz idi. Bu halətdə bir şəxs gözükdi şəkli yan heybətlü, bir atə minmiş: başı ilən əli atuŋ başına və əlinə bənzər idi. İmam Hüseyn (ə) yanına gəlüb bu ibarət ilən səlam verdi: *"Əssəlamu əleykə və əla cəddikə və əla əbikə"*[783]. İmam Hüseyn (ə) cəvabını verüb sordı:

– Sən kimsəŋ ki, bu halətdə məzlumlərə və biçarələrə və avarə ilən qəriblərə səlam verürsəŋ?

Dedi:

– Ya Rəsulullah, mən pərilərin bəgiəm və axirüzzəman Peyğambərinüŋ mövlası və quliəm və Şahi-mərdanun çakəri. Mənim adum Əz`əfər[784] Zahiddür. Ləşkərüm bu yabandədürlər. Ataŋ (ə) ol gün ki, Buyirül-ə`ləm quyisinə gəlmiş idi və qılıc zərbi ilən divləri müsəlman edər idi, mənüm atamı anlarə bəg tikdi. Atamdan soŋra varı mənüm fərmanümdədürlər. Rüxsət **[289a]** ver, ta ləşkərümi gətürüb, bu həyasız qəvmdən tütün çıxardurub varısı həlak edəlim.

Beyt:

Taŋrınuŋ fərmanidən şad edəlim əhbablar,
Qılalum xəsmüŋ həlakü verəlim çox tablar.

İmam Hüseyn (ə) dedi:

---

[783] *Sənə, babana və atana salam olsun.*

[784] Farsca orijinalda və "Hədiqətüs-süəda"da: *Zə`fər*.

– Ey Əz`əfər, Taŋrı-təala yaxşılığ ilən cəzaŋ versün. Adəmləruŋ qətlini eyləmək sizə rüxsət yoxdur, anuŋ içün ki, siz lətif cismlüsiŋiz və anlar sizi görməzlər və siz anları görərsiŋiz. Çün öldürəsiz, zülm ola. Əmma ol ki, Hüneyn ğəzasində məlaikə cəddüm yanına gəldilər və kafərlər ilən səvaşdılar, Taŋrınuŋ buyruği ilən idi. Sən qayıt və öz mənzilinə dön.

Əz`əfər dedi:

– Ey seyyid, anlaruŋ surəti ilən özümizi anlarə görsədəlim. Əgər bizim qəvmümizdən daxi öldürsünlər, yoluŋizüŋ şəhidi öləüz.

İmam Hüseyn (ə) dedi:

– *"Cəzakəllahu xeyrən"*[785], ya Əz`əfər, dirilikdən könlüm dutulupdur və düşlərdə görmişəm ki, mən bu gün Həqqüŋ didarinə vasil olacaqəm. Sən mənüm xatirüm içün qayıt və bu qəvmə dəgmə.

Filhal Əz`əfər qayıtdı və ol tozlu yel bərtərəf oldı.

Əmma çün İmam Hüseyn (ə) gördi ki, düşmənlər inkarə durub səvaşməgə yekdildürlər və tənəzzül etməzlər, mə`rəkəyə yüz qoyub mübariz istədi. Təmim bin Məxbətə[786] ki, Şam ləşkərindən bir mübariz idi namdar və bir həyasız namərdi-qəddar və öz qəvmi içində əziz və alimiqdar, İmam Hüseynüŋ yamacına gəlüb dedi:

– Ey Əliniŋ oğlı, xaçanadək xüsumət eyləyəsən? Oğlanlaruŋ varısı ölüm ağusi içdilər və qəvm ilə qərdaşuŋ qamu fəna libasi geydilər. Sən həzə səvaş eylərsən və yalğuz bir tən igirmi **[289b]** miŋ adəmüŋ yamacına durub qılıc urarsən?

İmam Hüseyn (ə) dedi:

– Ey şum yüzlü, mən siziŋ səvaşüŋizə gəlmişəm, ya siz mənüm hərbümə gəlübsiŋiz?! Mən sizüŋ yolüŋizi bağlamışam, ya siz mənüm yolümi dutubsıŋız?! İmdi kim qərdaşlarum oğlanlarum ilən şəhid eyləyübsiŋiz, aramızda qılıcdan özgə nə qalubdur?! Çox söyləmə və hünərüŋ gətür, ta görəyim.

Və ərlik həmiyyətindən bir nə`rə bağrından çəkdi kim, ləşkərüŋ neçəsinüŋ bağırları yarıldı. Təmim dəstpaçə olub qurulmuş əlləri iş-

[785] *Allah sənə xeyirli mükafat versin.*

[786] Farsca orijinalda: *Qəhtəbə.*

dən düşdi. Şahzadə anuŋ boynına bir qılıc urdı kim, başı on arşun irağ düşdi. Pəs həmlə eyləyüb, düşmən ləşkəri anuŋ qılıcı zərbindən qorxub varı ürkdilər. Yezid Əbtəhi atına və ləşkərinə bang urub dedi:

– Ey həmiyyətsizlər, bir adəmüŋ səvasindən dərmandə qalubsıŋız. Görüŋiz kim, anuŋ ilən neyləyəcəgəm və işini necə qayırurəm.

Pəs öz səlahını düzədüb, İmam Hüseyn əleyhissəlamuŋ yanına gəldi. Və ol bitün Şam və İraq məmləkətlərində bəhadirliğ ilən məşhur idi. Ömər Nəhs ləşkəri çün anı İmam Hüseyn yamacına gördilər, şadiliğdən nəʾrələr çəkdilər. Əhli-Beytüŋ müxəddərələri çün bu haldan vaqif oldılar, qorxdılar. İmam Hüseyn (ə) Əbtəhiyə bang urdı kim, məgər məni tanımazsın ki, bəylə güstaxlığ eyləyüb yanümə gəlürsən? Əbtəhi cavab verməyüb, İmam Hüseynə qılıcın həvalə eylədi. İmam (ə) pişdəstlik eyləyüb belinə bir tığ əylə yetürdi kim, qavun təki iki böldi. Bəs su qırağına meyl eylədi ki, çox susiz idi. Şimri-Zilcövşən – **[290a]** ol məlʾun ləşkərinə bang urub dedi:

– Zinhar, qoymıŋ ki, İmam Hüseyn (ə) su içsün ki, əgər bir içim su əlinə girər, bizdən birisi baş çıxarmaz.

Bəs ləşkər qələbəliğ edüb İmam Hüseyn ilən Fərat çayınuŋ aralarında hayil oldılar. İmam Hüseyn yalın qılıc ilən Zülcinah mərkəbi sıçratdı və düşmənlərüŋ başların tiği ilən xəzan yaprağı kimi yerə tökdürüb yol boşadur idi, ta üç səf ləşkərdən pərişan edüb özini Fərat suyiniŋ qırağına yetürdi. Bir avuc su götürdi ki, içə, bir avaz qulağına gəldi kim, dedi:

– Ey İmam Hüseyn (ə), su içərsən və düşmənlər dişilərüŋ çadırına girdilər evi talatməgə.

İmam Hüseyn (ə) qeyrətə gəlüb, suyi içməyüb tökdi. Yel kimi qayıdub çadıruŋ qapusinə gəldi, kimsəni görmədi. Bildi kim, ol söz məkr və ğədr ilə dedilər. Əmma Taŋrınuŋ hökmi bəylə idi ki, İmam Hüseyn (ə) ol günüŋ oruci cənnətdə aça.

Rəvayətdür ki, İmam su qırağından çadırınadək yüz nakəsi salub toprağə bərabər eylədi. Çün çadıruŋ qapusinə yetdi, atdan enüb içəri girdi. Əhli-Beyt mütəhhərələri xidmətinə hazir oldılar. İmam Hüseyn buyurdı ki, ey pərdəkilər, çadərləriŋiz başıŋıza örtüŋ və belləriŋiz bağlıŋ və mənüm müsibətümə müntəzir oluŋ. Əmma könləgi-

ŋizi yırtmıŋ və fəzə` etmiŋ və yetimlərümi yəxşicə becərüŋ. Pəs İmam Zeynalabidini (ə) qucağlayub yüzini öpdi və dedi:

Beyt:

Oğul, gəlgil, vidaüm qıl ki, qaldum halümə heyran,
[290b] *Sümükdən ötti tigi-kin, başümdən su, gözümdən qan.*
Gəl andan ilərü, cana ki, axsun qan boğazümdən
Bu kərbi-pürbəla otdən ola köŋlüm quşi biryan.
Məni qucağla kim, bir dəm həzin canum ola xürrəm,
Degil söz kim, cücük sözüŋ qəmin köŋlüm qılur şadan.

Ey oğul, çün Mədinəyə varəsən, səlamümi dustlarə yetür və söylə kim, atam bəylə buyurmış kim, hər qaçan ki qürbət rəncinə giriftar olasız, mənüm qəribliğümdən yad eyliŋ və bir ölüyi ki görəsiz, bu nahəqq ilən kəsilmiş boğazümdən fəramuş eyləməŋiz və çün savux su içəsiz, susiz dodağum ilən yanmış boğazümdən əndişə qılıŋ.

Şe`r:

Ey mənüm müşfiqlərüm, həmdəmlərümlən dustlar,
Vaqiəmdən yad ediŋ, söyliŋ mənimçün dastan.
Gözüŋizdən qan rəvan qıluŋ, anuŋ hər dünü gün
Dodağum susizliğin dər-aşikarü nihan.
Yerə urdi gög günəş tacı, bıraxdı yulduzin,
Ta ki gördi qərqə olmış qanum ilən teyləsan.
Soldı qayğudən günəşnüŋ ol güli-sədbərgini,
Qan ilən ta kim bulaşmış gördi yüzüm dər-zəman.
Başini daşə urər, üzinə piçü tab urər,
Ta məni gördi susiz Fərat edər fəğan.
Yığlaŋız yasümdə, ey əhbab, bir dəm durməŋiz
Kim, dəgər canuŋizə yüz feyz hər dəm zi-asiman.

Şəhrbanu ilərü gəlüb dedi:

– Ey seyyidi-sərvər, mən bu məmləkətdə qəribəm və bir qəmxar və qəmgüsarum yox və sənüŋ qızqərdaşlaruŋ ilən qızlaruŋ Peyğambərüŋ (s) əvladıdırlar. Hiç kimsənüŋ əli anlarə dəgməz və anlaruŋ hörmətini saxlarlar. Əmma mən Yəzdcird şəhriyaruŋ qıziəm və

səndən özgə kimsənəm **[291a]** yoxdur. Olmaya kim, düşmənlər səndən soŋra maŋa əl uzadalar və sənüŋ hərəmüŋ hörmətini saxlamayalar.

İmam Hüseyn (ə) buyurdı:

– Ey Şəhrabanu, qayğulənmə kim, iki cəhandə əziz və hörmətli olacaqsən və kimsənüŋ xəyanət əli ətəgüŋə yetməz.

Və bir rəvayətdə bəylə derlər ki, İmam Hüseyn (ə) dedi kim, ol saət ki məni atdan düşürələr, mənüm atum mənsiz yanüŋizə gələcəkdür. Ol atə atlan və cələvini aŋa tapşur ki, səni bu qəvm içindən çıxarub bir yerə ki, Taŋrı-təala istər ola, yetürəcəkdür. Əmma qəvli-səhih budur ki, Şəhrbanu Əhli-Beyt ilən Şamə varubdur.

Əlqissə, İmam Hüseyn (ə) əvladını bir-bir vida eyləyüb atlandı və bu son vida və didar idi və hal dili ilən söylər idi.

Nəzm:

Laübalilər təki tərk eylərəm bu aləmi,
Ətəgüm hər nə dutar, anı kəsərmən dər-dəmi.
Dəgməz olur aləmüŋ cami-Cəmin bu qüssəyə,
Həvzi-Kövsər xud mənümdür, neylərəm cami-Cəmi.
Sübhdək sidqü səfadən urarəm dəm dəmbədəm,
Ey səlah əhli, sizə, zinhar, saxlaŋ bu dəmi.
Urərəm kövnü məkanuŋ başinə əyağümi,
İki aləm ölü sandum, dutdum anuŋ mataəmi.

Rəvayətdür ki, şahzadə meydanə yüz qoyub mübariz dilədi. Ömər Nəhsi-məl`un dedi:

– Ey qəvm, biliŋiz ki, bir-bir munuŋ hərifi dəgulsiŋiz və ol imdi susızdur və hələkə yaxın olupdur və bir uğurda aŋa həmlə qıluŋ.

Ləşkər munı eşidincə neçə yerindən təprəndilər və İmam Hüseyni (ə) ortayə dutub, ol şəhidlərüŋ sərvəri əslan kimi qürriş eyləyib, iti qılıc **[291b]** ilən anlaruŋ içinə girüb, yerüŋ ərkanı "*Əna ibni Rəsulullah*"[787] sədası ilən təprətməgə salub, tiğinüŋ şüası xəsmüŋ əhl gözini xirə və ümmid rüxsarı tirə eylər idi. Bir toz ki, gög ilən yerüŋ ortasına qopmış idi, qorxmək yağışı ilən oturuştdı və bir niza ki, müxa-

[787] *Mən Allahın Elçisinin oğluyam.*

liflərüŋ can ilə gəvdələr arasında idi, kəsici qılıc hökmi ilən feysəl etdi və hal dilindən Əhli-Beytüŋ huş qulağı ki, anuŋ səvaşını qılur idilər, bu qissənüŋ məzmuni eşidür idilər.

Beyt:
Əlvida, axir ki, can tapşurürəm,
Bu cəhanuŋ üç tələqin verürəm.

Və bəzi rəvayətlərdə vardur ki, şahzadə özini bir kəz daxi Fərat suyinüŋ qırağına yetürdi, bir avuc su götirdi kim, içə, ətfal ilə əyaluŋ susizliğini aŋub içmədin tökdi və bir qəvl daxi var ki, bir avuc su ağzınuŋ yanına gətürüb, həzə boğazına yetmədin Həsin bin Təmir bir ox mübarək ağzına urub, ol su ol həzrətüŋ nəsibi olmadın ağzını dəmbədəm qandan dolərdi və yerə tökərdi. Və düşmənlər həmlə gətürdilər və şahzadənüŋ mübarək gəvdəsi məcruh qıldılar. Əz-bəs ki yaralar ol həzrətə yetmiş idi, səvaşdən əlin çəkdi və atı daxi işdən durdı. Həm ol yerə ki yetmiş idi, atınuŋ cələvi gəriyə çəkdi. Ömər Nəhs bu halda şahzadəni zəif gördi, qəsdini etdi. İmam Hüseyn (ə) dedi:

– Sən özüŋ gəlürsən məni şəhid etməgə.

Ömər utanub, cələvini döndərüb **[292a]** andan qayıtdı. Əmma Şimri-Zilcövşən piyadələrə dedi ki, İmamuŋ çəvrəsini dutuŋ. Həman ki piyadələr İmamuŋ dörd yanını çəvirdilər, İmam anlarə bir qılıc həvalə eylədi. Piyadələr varı mütəfərriq oldılar. Şimri-məlʿun xəcil olub, neçə daşyürəklü məlʿunlar ilən qəsd edüb İmam Hüseynə (ə) vardılar və neçə münafiqlər istədilər ki, çadırlarə girələr talatmağə, İmam Hüseyn (ə) anları hayxırub dedi:

– Ey Əbu Süfyanlu, əgər siziŋ diniŋiz yoxdur, namusuŋiz daxi yox, mənüm hərəmümə güstaxlığ eylərsiŋiz.

Şimr dedi:

– Ya İmam Hüseyn (ə), sənüŋ məqsuduŋ nədür?

İmam buyurdı kim, əgər siziŋ qərəziŋiz mənüm qətlümdür, burada durmışam və siziŋ ilən səvaşuram. Məqsudum oldur ki, ta mən diri olam, hərəmümə qəsd eyləməyəsiz.

Şimr dedi:

– Ey Fatimənüŋ oğlı, iltimasuŋ qəbuldur.

Və ol cəmaətə ki İmamuŋ hərəminə qəsd etmiş idilər, mən` edüb, qayıtdurub dedi kim, çadıruŋ içindəkilərə dolaşmıŋ ki, bizim məqsudimiz İmam Hüseynüŋ (ə) qətlidür. Əgər bir qeyrətiŋiz var, burada sə`y eyləŋ. Yeŋidən səvaşə durdılar və İmam Hüseyn anda durub, anlarə baxub der idi kim, əcəb halı görərəm. Neçə kim baxərəm bir həvadar yar görmənəm və neçə kim gözədürəm, bir mehrəban qəmgüsar bulmənəm.

Şe'r:

Hər kimə kim baxərəm, yüzini məndən döndərür,
Bu qədr yadlar içində bir tanışum yoxdurur.
Neylim, çarəm nədür hanğı yerə yüzüm qoyam,
[292b] *Bu yaban içində kim, xəsm ilə düşmən çoxdurur.*

Rəvayətdür ki, neçə miŋ atlu ilə yəyağ kim, şahzadəyə həmlə qılub ol həzrətə yaxın gəldilər, əmma birisinüŋ zəhrəsi yox idi kim, bir qədəm ilərü basalar. İmamuŋ heybətindən kimsə gözin açа bilməz idi. Əzm etdilər kim, tirbaran qılalar. İmam Hüseyn (ə) atdan endi kim, olmaya kim, bir yara Zülcinahə dəgə, zira kim cəddi ilə atasınuŋ yadigari idi. Müxaliflər çün ol həzrəti yəyağ gördilər, qəsdin etməgə durdılar. Bir namərd bir ox İmamuŋ nurani alnına urdi. İmam Hüseyn (ə) ol oxı çəküb, yarasından arx kimi qan rəvan oldı. Ol sərvəri-mübarək əlini ol yarayə qoyar idi. Həman ki əli bulaşur idi, başına və yüzinə sürtər idi və der idi ki, bu şəklü heybət ilən cəddüm yanına – Muhəmməd Mustəfayə (əleyhissələvat vəs-səlam) gedərəm və şəhidlərimüŋ halını bir-bir ol həzrətüŋ ərzinə yetürürəm.

Rəvayətdür ki, yetmiş iki yara qılıcdan və cidədən və oxdan aŋa dəgmiş idi. Bu halətdə şahzadə yüzini qiblə sarusinə gətürüb, başı Kibriya həzrətinə yetürüb, bir-bir və iki-iki anuŋ qəsdinə ilərü gəlür idilər. Həman ki gözləri ol həzrətüŋ mübarək zatinə düşər idi, utanub, geriyə dönüb der idilər: Biz istəməzüz ki, Qiyamət güni bu qan bizim boynümizdə ola və bu işdən ötrü bizə əzab eyləyələr.

Beyt:

Əhməd alinüŋ qanın tökmək demə ki, səhldür.
Hər ki bu işə girərsə, bil kim, ol naəhldür.

[293a] Əmma çün Şimri-məlʿun gördi kim, ləşkəri İmam Hüseynüŋ qətlindən təəllül edərlər, anları hayxırdı ki, bu qədr təvəqqöf və təəllül etməgə səbəb nədür? Zərʿə bin Şərik gəldi və bir zəxm ol həzrətüŋ əlinə urdı və on namərd İmamuŋ qəsdinə bel bağladılar. Yanına yavux olub, hiç hanğısınuŋ həddi yox idi ki, əl uzada. Sinan bin Ənəsi-məlʿun bir cidə ol həzrətüŋ arxasına urdı, əylə ki düşdi. Xəvli bin Yezid Əsbəhi atdan endi ki, İmamuŋ başını kəsə, əli[788] titrəməgə düşdi. Qərdaşı Şəbid[789] bin Yezid Əsbəhi atdən enüb istərdi ki, ol yaman işə məşğul olsun.

Əmma İsmail Buxari rəvayət edübdür ki, ol vəqtdə ki, şahzadə düşmiş idi, bir kişi gəldi ki, işini qayıra, İmam Hüseyn (ə) aŋa baxub dedi:

– Məni öldürən sən dəgülsən və mənüm heyfüm gəlür ki, sən damu odına giriftar olasən.

Ol kişi ağlamağə düşüb dedi:

– Ya Bin Rəsulullah (s), sənüŋ haluŋ bu qayətə yetübdür, həzə bizi qayırub istəməzsən ki, damu odi ilən yanəüz.

Pəs ol qılıcı ki, İmamuŋ öldürməgi içün çəkmiş idi, əlində yügürü-yügürü Ömər Nəhsüŋ yanına gəldi. Ömər Nəhs sordi kim, netdüŋ, İmam Hüseynüŋ (ə) işini bir yan etdüŋ?

Dedi:

– Yox, gəlmişəm ki, sənüŋ işüŋi təmam edəyim.

Və Ömərə qılıcın həvalə qıldı. Ömərüŋ nökərləri anuŋ yolunı dutub səvaşə durdılar. Əmma ol kişi yüzini İmam Hüseyn (ə) tərəfinə qoyub dedi:

– Ya Bin Rəsulullah, **[293b]** danuğ ol ki, sənüŋ məhəbbətüŋ kuyi başında məni şəhid edərlər. Daŋla məni istəyüb ləşkərüŋ şəhidləri ilən cənnətə apar.

İmam Hüseyn çağırdı kim, köŋlüŋ xoş dut ki, bəylə eyləyəcəgəm.

Beyt:

Çün mənüm kuyüm başində özüni qılduŋ şəhid,
Qan bəhaŋ mən olurəm bu işdən ötrü sən səid.

---

[788] Əlyazmada: *əlini.*

[789] Farsca orijinalda və "Hədiqətüs-süəda"da: *Şibl.*

Və bir rəvayətdə daxi derlər ki, çün İmam Hüseyn (ə) Kərbəlada düşmiş idi, yer təprəndi və gögdən qəriv qopdı. On nakəs müxalif ləşkərindən yəyağ olub, qılıcları çəküb gəldilər və anlaruŋ hər birisinüŋ müddəası bu idi ki, şahzadənüŋ başını ol kəsə və Ziyadoğlından xəl`ət və ənam ala. Hər hanğısı ilərü gəlür idilər, İmam Hüseyn gözin açub aŋa baxar idi, ol utanub qayıdur idi, ta iki namərd uruspi qaldılar: birisi Sinan bin Ənəs və biri Şimri-Zilcövşən (əleyhumallə'nə əla yovmul-Qiyamə). Sinan ilərü gəlməgə qəsd eylədi. Şimri-Zilcövşən pisdəstlik eyləyüb İmam Hüseynüŋ köksi üstinə oturdı. İmam gözin açub sordı kim, sən kimsən?

Dedi:

– Mənəm, Şimri-Zilcövşən.

İmam Hüseyn dedi kim, doŋunuŋ ətəgini yüzüŋdən gidər. Həman ki yüzini açdı, İmam Hüseyn (ə) gördi kim, dişləri donğuzə bənzər. Dedi:

– Bu, bir nişanə.

Daxi dedi kim, köksüŋ aç. Həman ki könləgini bir yan eylədi, gördi kim, köksi ələdür. Buyurdı kim, bu daxi bir nişanə: *"Sədəqə cəddi Rəsulullah"*[790] (s). Dedi:

– Bu gecə **[294a]** Taŋrınuŋ Rəsuli düşdə gördüm ki, dedi: Daŋla günorta nəmazı çağı yanümə gələcəksən və səni öldürən kişinüŋ şəkli bəylə olacəkdür və ol nişanələr ki maŋa görsədübdürlər, varı səndə mövcuddur, işüŋi qayır. Ey Şimr, bilürsən ki, bu gün nə gündür?

Dedi:

– Bilürəm, cümə günidür, Aşura günidür.

Buyurdı kim, tanursən ki, bu saət nə saətdür?

Dedi:

– Bəli, xütbə çağı və cümə nəmazı vəqtidür?

İmam Hüseyn (ə) dedi:

– Bu saət cəddüm ümmətinüŋ xətibləri minbərlər üstinə xütbə oxurlar və cəddimüŋ nə`tini əda qılurlar. Sən mənim ilən bəylə işlər eylərsən. Ey Şimr, Rəsulullah səl`əm mənüm köksümə mübarək yü-

[790] *Babam Rəsulullah doğru söyləmişdir.*

zini qoyubdur, sən anuŋ üstinə oturubsən və ol həzrət boğazümi öpüpdür və sən aŋa qılıc sürtərsən və mən görərəm ki, Zəkəriyya peyğambərüŋ ruhi sağ tərəfümdədür və Yəhyayi-məzlumuŋ ruhi (ə) sol yanümdə. Ey Şimr, köksümdən qalx ki, nəmaz çağıdur, ta mən yüzümi qiblə saruyə gətürəm və otururkən nəmazümi əda qılam. Çün mənüm atamdan mirasdur ki, nəmazdə ikən şəhadəti bulauz. Ol saət ki nəmazdə oləm, hər nə kim xatirüŋ dilər, əmələ gətür.

Şimr İmamuŋ köksindən durdı. Şahzadənüŋ həzə ol qədr qüvvəti var idi ki, yüzini qibləyə gətürüb, nəmazə məşğul oldı. Çün səcdəyə baş qoydı, Şimri-məl`un səbr qılmadı kim, İmamı-məzlum nəmazını təmam əda qıla. Həm əvvəlki səcdədə ol həzrətə şəhadət şərbətin **[294b]** içurdi. *"İnna lillahi və inna ileyhi raciun"*[791].

Beyt:
Ey fələk, rəhm etmədüŋ bir qatla bər-cani-Hüseyn,
Ağu qoyduŋ şəhdnüŋ yerində bər-xani-Hüseyn.
Başuŋa toprağ, ey çərxi-bədəxtər, sən nişə
Toprağə qılduŋ nihan ol mahi-tabani-Hüseyn.

Bu işdən mələkut səvameəsində qülqülə düşdi və cəbərut həzayirüŋ əhlindən vəlvələ çıqdı. Aləməfruz Günəş aydınlığından qaldı və cəhanpeymay Ayi-mühaq quyiyə düşdi. Zəhranuŋ xatiri içün Zöhrə yulduzi işrətdən əlin götürdi. Zühəl yedi gögüŋ üstində müsibətgörmişlər ilən ələmi götürdi. Firiştələr göglərdə vahəsrəta nalələr çəkdilər. Cinnilər Kərbəla yanlarından fəğanə gəldilər. Qorxudan gög ətəklərini qan ilən bulaşdırdı. Yer Taŋrınuŋ qəzəbindən özinə titrədi. Quşlar öz aşiyanələrindən mütəfərriq oldılar. Balığlar dəŋiz suyindən dışxarı çıxub məzəllət toprağı başlarına tökdilər. Dəŋizlər həsrət mövci fələk övcinə yetürdilər. Dağlar dərdlü sədalar ilən mihnətlü nəvalar çəkdilər. Ağlamağ üni hər tərəfdən çıxdı və kimsə bilməzdi kim, fəğan kimüŋdür və kimüŋ yası içündür.

Beyt:
Bu əzadən yoq həman ərzü səma ağladılar,
Bəlkə aləm cümləsi gündüz-geca ağladılar.

---

[791] *Biz Allahın bəndələriyik və O-na tərəf qayıdacağıq.* (Quran, 2: 156)

Ol susiz dodağlar içün qətrəcə su içmədin
Bəhrlərdə balığü mürgi-həva ağladılar.
Günəş ilə Ayü ərşü kürsivü lövhü qələm
[295a] *Cümləsi bəhri-Şəhidi-Kərbəla ağladılar.*
Murtəza əfğanlərindən övliya varı həzin
Mustəfanuŋ xatiriçün ənbiya ağladılar.

Əhmədi-Muxtaruŋ (s) ümmətlərin bu vaqiədən cəbərut dairəsində sərgərdan və Əhli-Beyti-tahirənüŋ şiələri bu hadisədən qayğulu və pərişan. Hər xaçan ki bu hekayətüŋ odı köküsdə şö`lə urar, məhzun köŋül kəbab edər və qanlu bağır yandurur.

Nəzm:
Yandı yulduznuŋ yürəgi dün mənüm əfğanidən
Küydi ahum şö`ləsi pərvanənüŋ balü pərin.
Zahidüŋ dodağı quru, sufinüŋ gözlari yaş
Ah bu oddan ki yandurdi cəhani-xüşkü tərin.

Əhməd Ə`səmi-Kufinüŋ (r) tarixində rəvayətdür ki, ol saət ki İmam Hüseyni (ə) şəhid etdilər, aləmdə bir qızıl toz qopdı ki, xəlayiq sandılar ki, Taŋrınuŋ əzabı müqəddəməsidür. Əmma bir saətdən soŋra bərtərəf oldı. Və aləm aydın oldı və İmam Hüseynüŋ (ə) atı İmamuŋ şəhadətindən soŋra ürküb hər tərəfə səgridür idi. Bir zəmandən soŋra qayıdub saçını İmamuŋ qanına bulaşdurub, gözlərindən qan axıtdurub, çadırlara yüz qoydı. Əmma çün hərəm müxəddərələri Zülcinahi gördilər ki, qan ilən bulaşmış gəlür və atlusi yoq, canlarından fəğanlar qopdı və Zülcinahə der idilər:

– Ey Zülcinah, şahzadəni[792] neylədüŋ və əylə ki apardıŋ, nişün geri gətürmədüŋ və [anca] köŋlündən gəldi ki, ol həzrəti düşmən içində qoyduŋ **[295b]** və ansız burayə gəldüŋ:

Beyt:
Neylədüŋ söylagil islam şəhi,
Netdüŋ axir degil əyyam məhi?

[792] Əlyazmada: *atı.*

Bu nə toprağdurur yüzüŋdə?
Yaşmıdur, yox isə qan gözüŋdə?

Anlar bəylə sözlər der idilər və Zülcinah başını öginə salub gözlərindən yaşlar axıdur idi və yüzini İmam Zeynəlabidin əleyhissələmun əyağinə sürtər idi.

Əbül-Müəyyəd nəql eyləyibdür ki, Zülcinah ol qədr başını yerə urdı ki, nəfəsi kəsildi.

Və Əbül-Məfaxir rəvayət qılıbdur ki, Zülcinah badiyəyə rəvan oldı və daxi kimsə andan namü nişan bulmadı.

Əmma İmam Hüseynüŋ (ə) şəhadətindən soŋra Şimr neçə məl`unlar ilən Əhli-Beytüŋ çadırlarına girüb hər nəstə ki buldılar, talayub dişilərə dəgmədilər. Şimri-məl`un çün İmam Zeynəlabidinüŋ (ə) çadırına girdi, qılıcın çəküb İmam Zeynəlabidini şəhid eyləməğə, Həmid bin Müslim dedi:

– Sübhənəllah, bu biçarə uşağuŋ qanından keç.

Və bə`zi deyübdürlər ki, Ömər Nəhs Şimrüŋ iki əlin dutub dedi:

– Taŋrıdan utanmazsən ki, bu suçsiz yigidüŋ ki, mərəzə mübtəladur və atası və qərdaşları yasında giriftar, qanına girərsən.

Şimr çün bu söz Ömər Nəhsüŋ dilindən eşitdi, qayıdub şəhidlərüŋ başlarını götürüb Əhli-Beytüŋ müxəddəratı bilə Kufə sarusinə yüz qoyub vardılar. Bu sözüŋ qalanı mundan soŋra onuncı babda deyilür.

[296a] ONUNCI BAB

Vaqiələrdə ki Kərbəla səvaşından soŋra vaqe olubdur

Bilmək gərək ki, hiç zəmandə çətinrak və qatırak Kərbəla vaqiəsi kimi ruzigaruŋ gözi görməyübdür. Və andan ötrüdür ki, ol gündən bərlü ki İmam Hüseyni (ə) şəhid eyləyübdürlər, imdiyədək ki doquz yüz qırq beş yıl hicrətdən keçübdür, hər qaçan ki mühərrəm ayı gəlür, yeŋidən ol şəhidlərüŋ yasını və əzası dutarlar və qeyb hatifindən müsibətdutıcılara bu səda eşidilür.

Şe'r:

Ey əzizlər, Mustəfa sibti içün əfğan qıluŋ,
Kərbəlanuŋ şahi içün köksüŋiz biryan qıluŋ.
Ol susiz dodağlar içün gözüŋiz yaşı doluŋ,
Ağlamağ içində yadi-ol güli-xəndan qıluŋ.
Qan ilən tofrağını çün aŋasız, ey dustlar,
Didədən yağış təki qanlarnı xuni-baran qıluŋ.

Ey əziz, mühərrəm ayıdur və İmam Hüseyn (ə) bir möhtəşəm şah. Ol cahil düşmənlər və ol daşyürəklü xəsmlər nə ayuŋ hörmətini yerə yetürdilər və nə ol şahuŋ həşəmiyyətini saxladılar. Və mühərrəm ayı ehram aylardandur və Aşura içində ol şahuŋ qəsdin etdilər və Aşura günində Əhli-Beytdən şurü qovğa çıxardılar və ol saətdə ol səadətməndüŋ ömri bənası dibindən **[296b]** qopardılar. Bir əcəb gün idi ənbiyanuŋ ərvahı və müqərrəb firiştələr Mustəfanuŋ müvafiqəti ilən ağlar idilər və cənnətüŋ hurları və cinnilərüŋ pakizələri[793] bu müsibətdə Fatimeyi-Zəhra ilən (ə.m) ittifaq eylədilər və ol gündə işrət ələmi nigünsar idi, yer zarilik ilən ağlar idi ki, Aşura günidür və zəmanə fəryad çəkər idi ki, fitnəvü qovğa çağıdur.

---

[793] Əlyazmada: *pakizələr*.

Şe'r:
Köŋül, ağla ki, Aşura günidür,
Müsibət çağivü qovğa günidür.
Hüseyn – ol Mustəfanuŋ gözi nuri,
Əliyyi-Murtəza köksi sərvəri,
Şəhid olmiş müxaliflər əlindən,
Fələk yandı anuŋ sözlü qəmindən.

Ol gündə Şimri-lə`in kin qılıcın ol nazəninüŋ boğazına qoyubdur və müənbər saçları ki, həzrət Risalətpənah (s) mübarək əli ilən dutmış idi, toprağ ilə qan içində bulaşdurubdur. Ol gündə zəlalət məhəlləsinüŋ itləri və cəhalət badiyəsinüŋ donğuzları sudan sirab idilər. İmamət meşənüŋ əslanları susizliğdən iztirab edər idilər və mühərrəmüŋ onuncı gündə ol möhtərəmüŋ çəvrəsini dutub, səadətlü gəvdəsi cidə ilə qılıc zərbinə məcruh etdilər və mübarək başını kəsüb, cəsədini Kərbəla toprağında bıraxdılar.

Beyt:
Əşuruŋ günidür başdən gidərgil kibr tacını,
Çəmurlə kül başuŋa tök, qəra şal boynuŋa taxgil.
[297a] *Şəhidlər şahiçün çak eyləgil can köŋləgin hər dəm,*
Köŋül dəryasidin qanlar yerə göz yolidən axgil.

Əhli-Beyt həvadarları bu günlərdə işrət ilə şadiliğdən qırağ dutarlar və mihnət ilə qayğu qapuları köŋül yüzinə açarlar və hər saət köŋüldən sözlü ahlar çəkərlər.

"Üyunür-Riza" kitabından rəvayətdür ki, bü gün öz müsibətiŋiz güni sağınıŋız və işləriŋizi tərk edüb müsibətə məşğul oluŋız ki, hər kim Aşura güni dünyalik işini tərk edüb, müsibətüŋ yasına məşğul ola, həzrət Taŋrı-təala anuŋ iki dünyalik işi sərəncam eyləyə. Və hər kim bu gün özinüŋ mihnət və qayğusi gün sağına, Qiyamət günində fərəh və işrət aŋa yüz ura və cənnət içində Əhli-Beytüŋ cəmalına gözin aydın edə. Və həm "Üyunür-Riza" kitabında Rəyan bin Şisüŋ[794] hədisində gəlüpdür ki, ya Şisoğlı, əgər istərsən ki, ə'la cənna-

[794] Farsca orijinalda: *Şəbib.*

tində bizim ilən ucə mərtəbədə olasan, qayğumiz ilən qayğulu ol və qəmümiz ilən qəmlü ol. Və müqərrərdür ki, hər kim kimsəni sevər, anı anuŋ ilən həşr eyləyəcəkdürlər. Ey Şisoğlı, əgər İmam Hüseyn içün ol qədr ağlayasən ki, yaş qətrələri yüzüŋa axsun, Həqq-təala bağışlaya kəbirə ilə səğirə suçlarüŋi əgər az, əgər çox isə. Ya Şisüŋ oğlı, əgər istərsən ki, Taŋrıyə yetəsən və Qiyamət günində hiç günahuŋ qalmaya, İmam Hüseyni (ə) ziyarət eylə və əgər uçmağuŋ Ərəfatində olmağ istərsən, İmam Hüseynüŋ (ə) öldürənlərə **[297b]** lə`nət ilən nifrin qıl. Və əgər istərsən ki, səni şadiman eyləyə və ol kimsələrüŋ səvabı ki, İmam Hüseynüŋ (ə) xidmətində Kərbəladə şəhid oldılar, bulasan, hər qaçan ki anları aŋasan, xatirüŋdə keçür kim, nolaydı ki, mən Kərbəladə İmam Hüseyn ilən bilə olaydum, ta ol məzlum şahə canümi nisar edəydüm.

Beyt:
Taŋrı həqqiçün ki, canümni qılur idüm fəda,
Kərbəladə gər İmam ilən bilə ola idüm.

Hekayət. Mə`ruf və məşhurdur ki, Əmrül-Leysi-Səffar ki, Xorasanuŋ padşahı idi, qaidəsi bu imiş ki, hər bəg ki, miŋ atlu aŋa ərz edər idi, bir qızıllu gürz aŋa verür idi. Bir gün ləşkərinüŋ sanın alurdı. Yüz igirmi gürzlü bəg sana gəldilər ki, hər birinüŋ miŋ mükəmməl atlusi var idi. Çün bu xəbər padşahuŋ ərzinə yetdi, ağlamağə düşüb, özini atından saldurub, yüzini toprağə qoyub çox zarilik etdi. Bir saətdən soŋra kim özinə gəldi, neçə xassə bəglər ki, yanında müqərrəb və güstax idilər, sual qıldılar ki, ey məlik, imdi naləvü fəryaduŋ çağı dəgul, bəlkə şadilik və mübarəkbad dəmidür. Bir böyük mülküŋ var və ulu bəglər ilən vəzirlər. İşlər xamı xatirüŋ dilədügincə, yüz igirmi miŋ geyimli-geçimlü bəhadirlər. Hiç düşmən ilən müxalifüŋ yoxdur. Ağlamağuŋ səbəbi nədür? Əmr dedi kim, çün ləşkərümi bəylə yəraqlu mükəmməl gördüm və nökər və çakərümi varı səvasedici bəhadirlər, Kərbəla vaqiəsi **[298a]** ögümə gəldi, dedim: "Gərək idi kim, bu ləşkər ilən ol gün İmam Hüseyn ilən (ə) bilə ola idim, ta düşmənlərindən birisini qoymayub varısını qıra idim, ya canümi aŋa fəda eyləyə idüm, ya fəth və nüsrət qapusini Əhli-Beytüŋ yüzinə aça idüm".

Əlqissə, anı vəfatindən soŋra düşdə gördilər ki, mürəssə tac başında idi və mürəssə hüllə əgnində və cəvahirlü kəmər belində və uçmağuŋ mərkəblərindən birisinə minmiş, tazə qullar ogüsərə dəvan və siminbədənlər vildan sağında və solında rəvan. Dedilər:

– Ey əmir, sənüŋ haluŋ ölməgindən soŋra necə keçdi?

Dedi:

– Taŋrı-təala məni bağışladı və düşmənlərümi məndən xoşnud etdi ol səbəbdən ki, Xorasanda ol gün ki ləşkərüŋ sanın alurdum, xatirümdə keçdi kim, Kərbəla güni bu ləşkər ilən İmam Hüseynüŋ (ə) qulluğində olmaq gərək idim və ağlamağə düşdüm. Ol nəstə ki Kərbəlanuŋ məzlumları içün xatirümdə keçdi, bu mərtəbə tapdum, bu izzəti qazandum.

Bu sözdən mə`lum olur ki, bir niyyətdən ötrü ki, İmam Hüseyn (ə) içün köŋüldə keçürdi, nicat səbəbi oldı. Pəs, şəksiz, görüŋiz ki, ol şəhidlərüŋ rif'əti və dərəcatı nə qədər olacaqdur.

Şe`r:

Şəhidlərni həqarət gözi ilən baxmə ki, hər zəxm
Ki, munda gördilər, ol yerdə buldılar bəsi mərhəm.
Bu aləmdən əgər dərdi-ələmlən getdilər, qəm yoq
Ki, cənnət içrə xoşdil otururlar hurlar məhrəm.

"Üyunür-Riza" kitabında rəvayətdür **[298b]** ki, İmam buyurdı ki, hər kim bizüm müsibətimiz, yə'ni Kərbəla qissəsi aŋub ağlasə və yanındakı adəmi ağlatsə, ol gün ki gözlər varı ağlaşur olsə, anuŋ gözi ağlamasun və hər kim bir məclis düzətsə və zikrümizi anda söyləsə, anuŋ köŋli ol vəqtdə ki köŋül xamı Qiyamət hövlindən ölür ola, anuŋ köŋli ölməsə. Pəs, ey əziz, sə`y eylə kim, bu müsibət günləri gözlərüŋdən yüzüŋə yaşlar rəvan eyləyəsən.

Beyt:

Hüseyn içün ol şahi-hər du səra
Çəkər olsə kimsə fəğan ilə ah.
Verür cənnəti-Ədn ilə hurlar,
Qiyamət günində cəzası ala.

Və bir qətrə yaş ki İmam Hüseyn içün axıtdurasən, anı səhl görmə ki, "*yovmə la yənfə'u malun və la bənun*"[795]. Sənüŋ töhfəŋ göz yaşı və köküs yanmağıdur.

Beyt:
Bir qətrəcə yaş tökgil və algil bir gənc,
Bir ah çək və uçmağə vargil birənc.

"Nurül-əimmə" rəvayət eylər ki, ey Əhli-Beytüŋ müştaqları, ağlaŋ və ey xanədanuŋ mühibləri, nalәvü zari eyləŋ ki, İmam Hüseynüŋ ruhi (ə) yuxarudən yaşünizə baxər[796] və yasını dutanlaruŋ şəfəqqət üzərinə nəzər eylər. Ol gün ki İmam Hüseyn (ə) şəfaət kəməri belinə bağlamış ola, hər kim bu gün anuŋ içün ağlamış ola, daŋla ümmid dodağınuŋ şadiliğindən güləcəkdür.

Beyt:
Hər ağlamağuŋ axiri bir gülmək var,
[299a] *Hər kim görər işüŋ soŋini, olmaz xar.*

İsmail Buxari "Siyəri-kəbir" kitabında rəvayət eylər Zahid Müqtədadan ki, Aşura məclisində der idi: "Ey müsəlmanlar, bu müsibəti səhl görməŋiz və bu yası asan sanmaŋız".

Şe'r:
Gər bə-qanun ağlar olsaydı bu matəmdən sipehr,
Qan rəvan olurdi hər gecə zi-çeşmi-mahü mehr.
Gəvdəmüŋ varı buluttək kaş ki, olaydı göz,
Ta ki ağlaydum o gözlərdən zi-ruyi-sidqü mehr.

Mundan ilərü deyildi ki, Aşura güni Beytül-Müqəddəs ətrafində hər daş və kəsək ki, yerdən götürür idilər, altında tazə qan bulur idilər. "Şəvahid" kitabında gətürübdür ki, [Zəməxşəri][797] "Rəbiül-əbrar" risaləsində rəvayət eylər ki, Ümmü Mə'bədüŋ qızqərdaşı Hind

[795] *O gün nə mal, nə də oğullar fayda verər*. (Quran, 28:88)
[796] Əlyazmada: *axar.*
[797] Farsca orijinaldan götürülmüşdür.

adlu dedi: "Rəsullülah (s) mənüm çadırümdə uyudı. Həman ki oyandı, su istədi və iki əlini yudı və ağzına su qoyub qərqər eylədi və suyi bir tikənüŋ dibinə ki, çadıruŋ yanında idi, tökdi. Daŋlası gördük kim, ol yerdən bir böyük ağac bitüb, çox yemişlər bar gətürübdür.

Misra:
Qoxusi ənbər kib idi, dadı idi şəhdtək.

Ac yeyər olsaydı, tox olurdı, susiz içsəydi, sirab olur idi, sayru yeyəydi, səhih olur idi. Hər dəvar ki, andan yeydi, süti artdı və biz ol ağacuŋ adını "Mübarək ağacı" qoydük. Varı qəbilələrdən və oymağlardən sayrular içün yanümizə gəlüb yemişindən götürür idilər. Bir gün gəldük **[299b]** yemişləri varı tökülmüş və yaprağları qurumış gördük. Həm ol yaxında Mustəfanuŋ (s) mövt xəbərini gətürdilər. Andan soŋra yemiş verür idi, əmma az. Və bu vaqiədən otuz yıl keçdi, gördük ki, ağacuŋ dibindən budağınadək varı tikənlü olmış və yemişləri varı tökülmiş. Nagah həzrət əmirül-mö'minin Əliyyi-Murtəza (ə) şəhadət xəbərin gətürdilər. Andan soŋra ol ağac yemiş vermədi, əmma yaprağından mənfəət gördük və sayrular andan şəfa görər idilər, ta bir gün səbah çağı gördük ki, ol ağacuŋ kökindən xalis qan rəvan olur, yaprağları varı solmış. Dedük: Bu qatla yaman hadisə vaqe olupdur. Həman ki gecə yetdi, ağacuŋ dibindən nalələr eşitdük və kimsəni görməzdük bu qayğularuŋ içində. Nagah İmam Hüseynüŋ (ə) şəhadət xəbərini yetürdilər, çox-çox ağlaşdük və yas təriqini yerinə yetürdük.

Beyt:
Ey könül, mihnət çağıdur, olmagil xürrəm bu dəm,
Ağlagil qan matəmindən, bir ağacdən olma kəm.

Əmma bu dilsuz xəbərinüŋ raviləri və bu qəmənduz naqillərüŋ əsəri bəylə derlər ki, çü şəhidlərüŋ şahı vaqiəsi vaqe oldı və vəfasız zəmanə qayğu və qəm qapuları Kərbəla susizlərinüŋ, yə'ni ali-əbanuŋ müxəddərati cövrü cəfa əli ilən yüzinə açdurdı və hadisat ləşkəri ğədr və hilənüŋ bususindən **[300a]** çıxub inad yayı quşladılar və canalıcı ox ilən cidələr əbrar sərxeyli və seyyidi-əxyaruŋ Əhli-Beyti yüzinə yüz gətürdilər.

Şe`r:
Fitnə bəhri mövc urdi, xəsmlər manəndi-seyl,
Özlərini ol İmami-bavəfayə tökdilər.
Sözdeyici bülbülüŋ qaŋatların yandurdılar,
Tütinüŋ qanatlarını ziri-payə tökdilər.
Murtəzanuŋ bustani çiçəgilə yemişi
Ol münafiqlər təmami Kərbəlayə tökdilər.
Düşdi əyağdən risalət bustanuŋ sərvini,
Hurlar yaş gözlərindən çay çayə tökdilər.

Aləmüŋ yüzi ənduh tozı ilən tirə və mələküŋ gözi qəmgöricilərüŋ ah tütünindən xirə. "Nurül-əimmə"dən rəvayətdür ki, ol saətdə ərş titrədi və kürsi üzərindən təprəndi və gög şəfəq qanını ətəginə tökdi və yer heyrət toprağı ruzigaruŋ başına ələdi. Balığlar dəŋizdə xürüşə gəldilər və quşlar fəryadü fəğanə düşdilər. Filhal həvadən bir ağ gögərçin yerə enüb, özini İmam Hüseynüŋ qanına bulaşdurdı və qanatların qandin qızıl eyləyüb uçdı və Mədinəyə varub Mustəfanuŋ (s) rövzəsi çəvrələrində gəzüb qətrə-qətrə qan qanatlarından axar idi. Mədinə eli ol surətdən heyran idilər. Hər kimsə öz əqlində bir nəstəyə gümanlar idi, ta neçə gündən soŋra İmam Hüseynüŋ (ə) vaqiəsi xəbəri gəldi. Bildilər ki, ol quş Kərbəla şəhidlərinüŋ naməsi **[300b]** qanatına bağlayub, Peyğəmbərüŋ (s) rövzəsi üstində xəbər verməк içün gəlmiş idi.

Beyt:
Ol quş ki, mənüm naməmi yarə aparur,
Sözümdən anuŋ qanatların yandurur[798].

"Kənzül-ğəraib" kitabında rəvayət eylər ki, bir yəhuduŋ bir qızı var idi iŋən sahibcəmal. Nagah bir mərəzə yoluxub gözləri görməz oldı və əlləri ilən əyağları quruyub işdən düşdi. Atasınuŋ şəhrdən dişxarı bir bustanı var idi. Yer ilən həvayı təğyir etmək içün ol bağə apardı ol ümmid ilən kim, bağ həvası sayrulığını gidərə. Qız ol bustandə sakin oldı və atası yanında daim hazir idi və qızını yəxşı sözlər

[798] Əlyazmada: *yanə durur*.

ilən təsəllisi verür idi. Bir gün atası bir zərurət içün şəhrə vardı və qızını yalğuz bağə qoydı. Qəzadən yəhuduŋ işi ol gün düzəlmədi və gecə şəhrdə qaldı. Qız bir ağacuŋ dibində [gecəni] yalğuz keçürdi və daŋlası özgə ağacdən bir quşuŋ ünin eşitdi kim, zar-zar ağlar idi. Qız daxi sayruliğdən pərişan idi. Çün quş avazın eşitdi, anuŋ tərəfinə meyl eyləyüb, köŋlində bir əcəb ağrığ peyda oldı və özini ol ağacuŋ dibinə yetürdi ki, üstinə quş qonmış idi. Başını yuxaru eyləyüb ol ağacə təvəccöh eylədi. Qəzadən bir qətrə issi qan anuŋ bir gözinə damdı, dərhal gözi rövşən olub görər oldı. Yuxarı baxdı, bir quş gördi kim, qanatından qan damar idi. Nagah **[301a]** əlinə daxi bir qətrə dəgdi, dərhal əli sağaldı. Əlini ilərü apardı, ta bir qətrə əlinə damdı. Anı ol bir gözinə sürtdi, ol göz daxi aydın oldı. Bir qətrə dutub ol bir əlinə sürtdi, əli hərəkətə gəldi, əyağinə bir qətrə sürtdi, dürüst oldı. Qızuŋ varı ə'zaları bitün olub, qalxub bustanuŋ gəştinə vardı və hər tərəfə gəzər idi. Atası qayıtdı, bir əvrət gördi kim, bağda gəzər. Xiyalinə gəlmədi kim, anuŋ qızıdur. Sordı kim, ey əvrət, sən kimsən və bu ağacuŋ dibində bir kor qız ağsaq, əli dutmaz yatmış idi, nərəyə getdi?

Qız atası yanına gəlüb əlin öpdi və dedi:

– Ey ata, sənüŋ qızuŋ mənəm ki, munda sayru və ağsaq və əli dutmaz yatmış idim.

Atası xürrəm olub sadiliğdən ussız oldı. Həman ki özinə gəldi, ol haluŋ keyfiyyətini sordı. Qız atasınuŋ əlini dutub, ol ağacuŋ dibinə gətürüb ötmiş vaqiələri hekayətlədi. Yəhud yuxaru baxdı, qanlu qanatlar ilən bir quş gördi, dedi: *"Əyyuhəˀt-teyrul-mubarək, ma halək"*[799] – ey humayun qaŋatlu quş, qanatuŋ bəylə qanlu nədən və gəlişüŋ xandən? Ol quş Taŋrınuŋ ilhamı ilən yəhudi doğru yolə gəlmək içün dilə gəlüb dedi:

– Biz bir neçə quşlar idük hər biri bir yuvadan. Dünə gün töˀmə içün uçub hər birimiz bir yanə vardük. Günorta nəmazı çağı gün iŋən issi idi. Quşlardən neçəsi bir ağacə ki, filan **[301b]** yerdə bitüpdür, üstinə qondılar. Hər biri bir nəstədən ki yemiş idilər, xəbər ve-

[799] *Ey mübarək quş, halın niyə belədir?*

rür idilər, nagah bir avaz eşitdük ki, ey quşlar, İmam Hüseyn (ə) Kərbəlanuŋ issiliğində biryan olubdur və siz kölgəyə pənah gətirübsiŋiz. Yer ilən gögüŋ əhli[800] anuŋ yasına məşğuldurlar və siz yemək ilə içmək fikrindəsiŋiz. Taŋrınuŋ ilhamı ilən Kərbəla sarusinə rəvan oldük. Biz yetincə şahzadəni şəhid eyləmiş idilər, mübarək cəsədindən qan axar idi. Varımız anuŋ içün ağlaşdük və mən özimi ol həzrətüŋ üstinə saldum və qanatlarümi qan ilən bulaşdurdum. Bu ol qandur ki, qanatumdan damar və hər yerə ki, düşər, andan xeyr və bərəkət yetər.

Yəhudi həman munı eşidincə dedi:

– Əgər İmam Hüseynüŋ cəddi bər-Həqq olmayaydı, uşağlarından bu bərəkət zahir olmaz idi və mənüm qızum anlaruŋ bərəkətindən sağlığ bulmaz idi.

Bəs, qəvm ilən qərdaşı, içi adəmi ilən daşı iman gətürdilər. Çün anuŋ müsəlmanlığıŋ səbəbi sorar idilər, bu hekayəti təmam əda qılur idi.

Misra:

Taŋrınuŋ qüdrətlərindən bəylə işlər yoq əcəb.

Rəvayətdür ki, İmami-məzlumuŋ şəhadətindən soŋra Şimrimə l ̓un İmam Hüseynüŋ ev imarətini talatmağə əl uzatdı və istərdi kim, İmam Zeynəlabidini (ə) daxi şəhid eyləyə. Həmid bin Müslim qoymadı və İmam Zeynəlabidin (ə) dedi: "*Cəziyət, ya Həmid, xeyrən*"[801]. **[302a]** Və mə l ̓un Şimr nə ̓rə urdı kim, "*əqtulu əla firaşihi*"[802] – öldürüŋ bu oğlanı döşək üstində. Əlqissə, Ömər Nəhs buyurdı kim, carçı çağırsunlar ki, kimsə müxəddərat çadırlarına girməsün və bu oğlanə kimsə dəgməsün və hər nəstə kim, talayubdurlar, geri versünlər. Hiç kimsə eşitmədi və hiç nəstə geri vermədi, əmma daxi talamadılar.

Və Dinurinüŋ tarixində yazupdur ki, Ömər Nəhs İmam Hüseynüŋ (ə) mübarək başı Xəvli bin Zeyd Əsbəhiyə verüb, Ziyaduŋ oğlına göndərdi və özi bir gün Kərbəladə durub öz ləşkərinüŋ ölüləri

[800] Əlyazmada: *əhlini*.

[801] *Mükafatın xeyirli olsun, ya Həmid*.

[802] *Onu yataqda öldürün*.

cəmʾ edüb anlarə nəmaz qıldı və yerdə gömdürdi. Və şahzadənüŋ müqəddəs gəvdəsi şəhidlər ilən toprağ ilə qanuŋ içində qoyub üçünci günüŋ səbahı Əhlül-Beyt xatunlarına dedilər, ta donları geyüb, yüzlərini bağlayub devələrə mindürdilər və ol halətdə yolları səvaşimə`rəkənüŋ üstinə düşdi və şəhidlərüŋ gəvdələrini qan ilən toprağə bulaşmış gördilər və başları bulunməz. Ol vəqtdə Zeynəb qərdaşınuŋ İmam Hüseyn (ə) gəvdəsi gördi, fəryadə düşüb və fəğanlar çəküb dedi: "*Ya cəddah va Muhəmmədah*"[803]. Bu, sənüŋ Hüseynüŋdür ki, yüzini öpər idüŋ və köksinə mübarək yüzüŋi qoyar idüŋ. Və bu, sənüŋ Əhli-Beytüŋdürlər bu xariliğ ilən düşmənlər əlində qürbətdə giriftar və bu, sənüŋ bağıruŋ parəsidür kim, bu Kərbəladə qan ilən toprağ içində yatubdur. Və çoq ağlayə-ağlayə zariliklər edüb **[302b]** gözlərindən çaylar oldı rəvan. Zeynəbüŋ sözlərindən dust ilə düşmənlər ağladılar.

Ömər Nəhs şəhidlərüŋ başını götürməgə oymağlarə üləşdürdi: iki baş Həvazən qəbiləsinə və dörd baş Bəni Təmimə və on üç baş Kəndə taifəsinə və üç baş Əzdu oymağinə və on iki baş Bəni Səqifə verüb Kufəyə rəvan oldılar və İmam Hüseynüŋ (ə) başını Xəvli ilən göndərdi. Ravi der ki, Xəvli İmamuŋ başını götürüb Kufəyə rəvan oldı və anuŋ bir ağac yol Kufədən dışxarı bir mənzili var idi, evində qondı və xatunı ənsarlu idi və Əhli-Beytüŋ can ilən həvadarı. Xəvli andan qorxub İmamuŋ başını bir təndürdə gizlətdi və öz yerinə gəlüb oturdı. Əvrəti dedi:

– Bu neçə gün xanda idüŋ?

Dedi:

– Bir kimsə Yezidə yağı olmış idi, anuŋ səvaşına varmışdum.

Əvrət daxi söz söyləmədi, bir yemək gətürüb ol həramzadəyə yedürtdi, andan yatdurtdı. Və ol xatunuŋ adəti idi ki, hər gecə təhəccüd nəmazı içün qalxub, təhəccüd nəmazını əda qılub, təndürlü evə girüb, evi bəqayət aydın və nurani gördi. Sağınurduŋ ki, yüz miŋ şəm' ilə çırağlar yandurubdurlar. Çün yəxşicə baxdı, gördi ki, təndürdən ol aydınlığ zahir olur. Əcəbdə qalub dedi:

---

[803] *Ah babam, vay Məhəmmədim.*

– Sübhanallah, mən bu təndürdə od yandurməyübəm və hiç kimsəyə daxi deməyübəm. Bu aydınlığ xandandur?

Ol heyrətdə **[303a]** ikən gördi kim, ol nur gögə varur, heyrəti artdı. Nagah gördi kim, dörd xatun gögdən endilər və təndürüŋ başına gəlüb, bir xatun ol dörddən təndürdən bir baş çıxarub öpüb iyilərdi və köksinə qoyub der idi:

– Ey ananuŋ şəhidi vey ananuŋ məzlumi, Taŋrı-təala mənüm dadümi verməsə, ərşüŋ dirəgindən əl götürməyəm.

Və ol üç xatun daxi ağlaşdılar və axir ol başı təndürə qoyub gözdən qayib oldılar. Bu ənsarlu xatun qalxub, ol mübarək başı təndürdən çıxarub, çün şahzadəni çox görmiş idi, tanıdı. Bir nəʾrə urub ussı getdi. Ol ussizlikdə gördi kim, bir hatif avaz verdi ki, qalx ki, səni bu namurdaruŋ suçlarına dutmayaçakdurlar. Hatifdən sordı ki, bu dörd xatun ki, bu təndürüŋ başına gəlüb ağladılar, kimlər idilər? Qeybdən bir avaz gəldi ki, ol xatun ki, baş çıxardı və köksinə və yüzinə sürtdi və ol üç xatundən artuğ ağlar idi, Fatimeyi-Zəhra (ə.s) idi. Və birisi Xədiceyi-Kübra və üçünci Məryəm – İsanuŋ anası və dördünci Asiyə – Fir`onuŋ xatunı (ə.m).

Pəs, ol ənsariyyə xatun özinə gəlüb kimsəni görmədi. Ol əziz başı götürüb ədəb ilən öpdi və mişk ilə zə`fəran və gülab ilən pak yudı və qaliyə ilə kafur aŋa sürtüb şahzadənüŋ mübarək saçlarını daradı və bir arı yerdə qoyub gəldi və ol **[303b]** itdən əksük Xəvliyi oyatdurdı, dedi:

– Ey məlʾun, bu kimüŋ başıdur kim, gətürüb təndürdə qoyubsən? Axir bu Taŋrınuŋ Rəsulinüŋ oğlı İmam Hüseynüŋ (ə) başıdur. Qalx ki, gögdən və yerdən fəğan qopdı və qoşun-qoşun firiştələr gəlürlər və bu başuŋ ziyarətin eyləyüb ağlamağ və zarilik şərtini yerinə yetürürlər və gənə gögə varurlar. Mən səndən bizar oldum iki cəhandə.

Bəs çadırın başına örtüb evdən çıxdı. Xəvli dedi:

– Ey əvrət, nərəyə gedərsən və bu uşağlaruŋı nişə yetim qoyarsən?

Dedi:

– Ey məlʾun, sən Mustəfanuŋ fərzəndləri yetim etdüŋ və hiç fikr etmədüŋ? Sənüŋ uşağlaruŋ daxi yetim olsunlar.

Pəs, ol nikzən getdi və daxi kimsə andan xəbər vermədi.

Əmma çün daŋlası oldı, Xəvli İmam Hüseynüŋ əziz başı bir təpşiyə[804] qoyub götürdi və İbn Ziyad yanına apardı. Ol münafiqi-müşriki-həyasızuŋ əlində bir qamışcuk var idi, şahzadənüŋ mübarək dodağına və dişlərinə dəgdürür idi. Zeyd bin Ərqəm böyük əshabdən idi və ol məclisdə hazir idi. Xüruş çıxardı ki, ya İbn Mərcanə, ağac İmam Hüseynüŋ (ə) dişinə urma və bu ədəbsizligi tərk et ki, Kə'bənüŋ Taŋrısı həqqiçün ki, sanamağə gətürəmənəm ki, neçə qatla görmişəm ki, Rəsulullah (s) bu dişi və dodağı öpər idi. Andan qatı avaz ilən ökür-ökür ağladı və məclis əhli daxi ağladılar. Ziyadoğlı dedi:

– Ey Zeyd, **[304a]** əgər ol dəgül olaydı ki, qarıyub xərif olubsən, der idum kim, boynuŋ urar idilər.

Zeyd ol məclisdən qalxub dedi:

– Ey ərəb qəvmi, Taŋrı-təala sizdən razi olmasun ki, Fatimənüŋ oğlını (ə) öldürdüŋiz və öziŋizə İbn Mərcanə əmir ettiŋiz.

Bunı deyüb darül-imarətdən çıxdı. Ziyadoğlı dedi kim, bu başı ləşkərüŋ qarşusinə aparuŋ və nizə başına bərkidüb başlar ilən şəhrə gətürüŋ.

Nəzm:
Mustəfanuŋ əziz fərzəndi
Başini kəsdilər münafiqlar.
Başi bərkitdilər cidə başinə,
Mustəfa yüzidin utanmadılar.

Rəvayətdür ki, iki gündən soŋra Ömər Nəhsüŋ ləşkəri şəhidlərüŋ başlarını götürüb, gəvdələri qoydılar. Ariziyə[805] əhlinə bu xəbər apardılar, gəldilər və gəvdələri başsız gördilər və zarilik ilən fəğan üni eşitdilər və hiç kimsəni görməz idilər. Və ol cinnilər imişlər ki, şəhidlər içün ağlaşur idilər və qəsidələr anlaruŋ mərsiyədə oxur idilər. Bir beytinüŋ məʾnisi bu kim, pəri dişilər növhə və zarilik qılurlar

[804] Əlyazmada: *təpsi.*

[805] Farsca orijinalda və "Hədiqətüs-süəda"da: *Arizə.*

Bəni Haşimüŋ xatunları müvafiqəti ilən, yə'ni Əhmədi-Muxtaruŋ seçilmiş qızı ki, Peyğambər yaradılmışlarüŋ imamı və seçilmişlərüŋ müqtədası idi.

"Şəvahid" kitabından rəvayətdür ki, bir səhih qəvllü demiş ki, Bəni Təyy qəbiləsindən bir kimsəyə dedim ki, bizə xəbər yetüpdür ki, siz pərilərüŋ növhələri **[304b]** İmam Hüseyn içün (ə) eşidürsiŋiz. Dedi:

– Bəli, hiç azad və bəndə bu qəbilədən yoxdur ki, bu məʿnidən xəbərsiz ola.

Dedim:

– Mən səni sevərəm və istərəm ki, səndən eşidəyim ol nəstə ki anlardan eşidübsən.

Dedi:

– Mən cinnilərdən eşitdüm ki, der idilər:

Ərəbiyyə:

Məsəhər-rəsulu cəbinəhu
Fələhu bəriqun fil xudud[806].

Məʿnisi budur ki, həzrət Rəsulullah (s) anuŋ alnına mübarək əlini sürtdi və nuruŋ şövqi cəmalında ol sürtməkdən ötrüdür.

Beyt:

Əbəvahu min-ulya Qureyşə
Və cəddəhu xeyrul-cudud[807].

Yə'ni anuŋ atası ilə aŋası: Əli və Fatimə Qüreyşüŋ böyükləri idilər və cəddi həzrət Mustəfa (ə) varı əcdadlardən yegrəkdür, bəlkə bitün əcdad ilə atalaruŋ əşrəfidür. Əlqissə, Ariziyənüŋ eli şəhidləri kəfənə dutub, anlarə nəmaz qılub, həm ol Kərbəla dəştində dəfn etdilər.

Əmma Ömər Nəhs çün Kufənüŋ bir ağac yol qalmış ikən yetdi, İmam Hüseynüŋ başını yanına gətürdilər. Ol mübarək başı cidənüŋ

[806] *Peyğəmbər onun nur saçan alnını sığallayır və öpürdü.*
[807] *Onun ata və anası Qüreyşin ən seçilmişlərindən idi.*
Onun babası babaların ən xeyirlilərindən idi.

başına bərkidüb Kufəyə yüz qoydı. Və Əhli-Beytüŋ dişi eliləri ükəklərdə oturtdurub devələrə mindürmiş aparur idilər. Və neçə kitablarda gördüm ki, anları baş ilə əyağları yalın cəhazsız devələrə mindürüb aparur idilər, Əmma bu zəif qəvl və inanmamalu[808] sözdür və sihhətə yetməyübdür. Bəli, bu surət ilən ol müxəddəratı aparməg anlarə ihanət səbəbi idi, zira kim **[305a]** ol iffət və təharət məsturələrinüŋ başlarına günəş hərgiz qonmamış idi.

Şe'r:

Müxəddərati-əfayif kim, anlərüŋ eşiginə
Beheştlər varı saçlarını süpürgə qılürlər.
Nə yel olar hərəminüŋ təvafin etməgə bilür,
Nə kölgə başlarinə gün salur, nə mahi-münəvvər.

Çün Kufəyə xəbər yetdi ki, Ömər Səʾd ləşkəri ilən gəlürlər, Ziyadoğlı buyurdı kim, car çağırdılar kim, Kufədən hiç səlahlu qarşuyə varmasun və iki miŋ adəm göndərdi, ta küçələrüŋ başlarını dutub qoymayalar ki, kimsə bir fitnə qopdursun və amm qovğası oturuşsun.

Bəs, xəlayiq şəhrdən çıxdılar. Hər kimüŋ gözi ol mütəhhər başlarə və ol kəcavələrə yetər idi, fəğanlar çəküb hay-hay ilən ağlar idi və müxaliflər daxi neçəsi işlədügindən pəşiman olub, növhə ilə zariliğə düşdilər. İmam Zeynəlabidin (ə) der idi: "Çün bu çəri atam ilən qərdaşlarumnuŋ qətli içün ağlarlar, pəs, hanğı düşmən anları şəhid eyləmiş?"

Əbül-Müəyyəd rəvayət eylər ki, kufəlü anlaruŋ çəvrələrində ağalaşur idilər. Zeynəb kəcavədən dedi:

– Ey Kufənüŋ əhli və ğədr və nifaq və yalan eli, Taŋrı həqqiçün ki, siz yalan vəʿdələr qıldıŋız və münafiqlik yüzi ilən peyğamlar göndərdüŋiz və hiyləliğ bitiklər yazdıŋız və Əhli-Beytüŋ şəhadətinə səbəb olduŋız və xəlayiqüŋ yamanrakı insanuŋ **[305b]** yegraginə ixtiyar qıldıŋız və irağdən durub Taŋrınuŋ nüsrətinə mədəd vermədiŋiz. İmdi təzvir yüzi ilən yanümizdə yaşlar tökərsiŋiz və cəddüm Mustəfadən utanmazsıŋız.

---

[808] Əlyazmada: *inanmalı*.

Kufəlülərüŋ içində bir xacə kişi var idi və əylə ağlar idi ki, səqqalindən yaşlar axar idi və der idi:

– Ey Qiyamət xatunınıŋ qızı, gərçək dersən, siziŋ xacələriŋiz[809] qamu xacələrüŋ yegragidürlər və yigitləriŋiz bitün yigitlərüŋ[810] yegidürlər və xatunlarıŋız xamı xatunlərdən arırakdurlar və bu surət ki vaqe olupdur, Qiyamətədək bədnamlik səbəbi olacağdur.

Nəzm:

Bu, nə gizlü cövrdürür, ey vəfasız kufilü,
Bu, nə zahir zülmdür, ey şumyüzlü şamilər.
Hərb günində bizə gülərdiŋiz qah-qah ilən,
İmdi ağlarsız bizə, ey qəvmi-şumi-bədgöhər.

Rəvayətdür ki, hər kim İmam Hüseynüŋ başına (ə) gözin dəgər idi, anuŋ heybətindən ussı gedər idi və ol baş başlar içində Ay kimi yulduzlar içində dirəxşan idi. Və Zeyd ibn Ərqəmdən rəvayətdür ki, çün İmamuŋ başını Kufənüŋ küçələrində gəzdürür idilər, mən öz bacəmdən baxər idüm. Həman ki qarşümə gəldi, ol mübarək başdan eşitdüm ki, oxur idi: "*Əm həsibtə ənnə əshabəl-kəhfi vər-rəqimi kanu min ayatina əcəba*"[811]. Bu heybətdən mənüm gəvdəmdən tüklər qalxdı, dedim: Vallah ki, bu sənüŋ sirrüŋdür, ya Bin Rəsulullah, sənüŋ işüŋ varı işlərdən **[306a]** əcəbrakdur.

Və bir əziz daxi demiş ki, çün başlar Ziyadoğlınuŋ köşki qarşusinə gətürüb cidələrdən endürdilər, mən İmam Hüseynüŋ (ə) başı yanında idim. Gördüm ki, mübarək dodağları təprənür idi. Qulağ asdum, bu ayəti eşütdüm ki, tilavət eylər idi ki: "*Və la təhsəbənnallahə ğafilən əmma yə`məluz-zalimun*"[812].

Əmma çün başlar gətürdilər, Ziyadoğlı İmam Hüseynüŋ (ə) başını götürdi və mübarək yüzinə və saçlarına baxdı, şum əlləri titrə-

[809] Əlyazmada: *xacələriŋizi.*

[810] Əlyazmada: *yigitlərinüŋ.*

[811] *Yoxsa sən Əshabi-Kəhf və Rəqimi Bizim heyrət doğuracaq ayələrimizdən sandın?* (Quran, 18:9)

[812] *Zənn etmə ki, Allah zalımların etdiklərindən xəbərsizdir.* (Quran, 14:42)

məgə düşdi, əylə ki ol əziz başı saxlayamaz idi, budi üstinə qoydı və ol başdan nur dirəxşan idi on dörd gecəlik Ay kimi və saçlarından ipar qoqusi dimağlarə dəgər idi.

Beyt:

Gəlür badi-səbadən yəxşi qoxu, bu nə qoxudur?
Dəgüldür müşkdən bu qoxu, yaruŋ buyi-gisudur.

Əbül-Məfaxir rəvayət eylər ki, çün Ziyadoğlı ol mükərrəm başı budi üstinə qoydı, bir qətrə qan anuŋ donına damdı, dərhal donı ilən nimtənəsi və köŋləgi ilən dizdonı və budini dəlüb, yerə axub gözdən napədid oldı və ol dəlük anuŋ budində qaldı. Nə qədr ki cərrahlar əlac etdilər, sağalmadı və yarəsindən yaman iyi gəlür idi, ol qayətdə ki, hiç burnuŋ taqəti yox idi anı eşitməgə və həmişə ipər nafəsi ol dəlügə bağlamış idi və bavücud ipər qoxusi, yarənüŋ iyisi andan artuq idi **[306b]** və həm bu bəlayə mübtəla idi, ta anı öldürdilər. Və İbrahim bin Malik Əştər ölülər içində anuŋ gəvdəsi bu nişanə ilən tanıdı ol şərh ilən ki, "Muxtarnamə"də yazıludur.

Əmma rəvayətdür ki, çün Əhli-Beytüŋ müxəddərələri İbn Ziyaduŋ hüzurinə gətürdilər, Zeynəb anlaruŋ ögüsərə idi. Həman ki içərü girdi, səlam verməyüb, kimsəyə mültəfit olmayub oturdı. Ziyadoğlı əleyhillə`nə sordı:

– Bu kimdür?

Dedilər:

– Zeynəb – əmirül-mö`minin Əlinüŋ (ə) qızı və İmam Hüseynüŋ (ə) qızqərdaşıdur.

Ziyadoğlı dedi kim, şükrü sipas Taŋrıyə kim, sizi rüsva qıldı və sözüŋiz yalan çıxdı. Zeynəb cəvab verdi ki, səna və sitayiş Taŋrıyə ki, bizi peyğambərliğinə əziz və girami qıldı və bəhökmi - "*və yutəhhirikum təthira*"[813] bizi pəlidliğindən arı və arıcə yaradubdur və Taŋrı-təala fasiqləri rüsva eyləyəcəkdür və yaman işlüləri yalancı çıxaracaqdur.

Ziyadoğlı dedi:

[813] *Sizi pak və tərtəmiz etmək istəyir.* (Quran,33:33)

– Necə gördüŋ Həqq-təalanuŋ sün`i qərdaşuŋ ilən Əhli-Beyti həqqinə?

Zeynəb buyurdı kim, yəxşiliğdən özgə nəstəni görmədük və bizim Əhli-Beytimiz bir taifə idilər ki, əzəldə Taŋrınuŋ iradəti anlaruŋ şəhadətinə qələm keçmiş idi və büzürgvar cəddüm və namdar atam bu haldan xəbər vermiş idilər və anlar Taŋrınuŋ təqdirinüŋ intizarını çəkər idilər və anuŋlən razi olub öz mənzilinə rücu **[307a]** eylədilər. Ey Ziyadoğlı, həm bu yaxında Taŋrı-təala səni anlar ilə özgə yerdə hazir eyləyəcəkdür və anlar sənüŋ ilən müxasimə eyləyüb, yaman fe`lüŋ cəzası saŋa yetəcəkdür. İmdi fikr et, ey İbn Mərcanə ki, ol gün fəth və nüsrət anlaruŋ oləcəkdür, ya sənüŋ?

Ziyadoğlı bu sözlərdən qəzəbə varub anuŋ qətlinə qəsd eylədi. Ömər bin Haris Məxzumi dedi:

– Ey İbn Mərcanə, dişilərüŋ sözlərinə xitab və əzab eyləməzlər, bətəxsis bir matəmlü zəifəyə və müsibət görmiş acizəyə.

Bəs, Ziyadoğlı ol xiyaldən keçüb dedi:

– Ey İmam Hüseynüŋ qızqərdaşı, Taŋrı-təala məni qərdaşuŋ fikrindən asayiş verdi və anlaruŋ öldürdigindən qəvmləri ilən xatirümdən fikr ilən qayğu getdi.

Zeynəb dedi:

– Yəxşi iş eyləmişsən ki, andan ötrü rahət və hüzurə göz tutarsən. Ey özündən bixəbər və qürur çağırından sərxoş və əbtər və napaydar, dəvlətə izzət olubsən. Sən hiç bilürsən ki, nə iş eyləyübsən: nübüvvət xanədanınuŋ mehtəri və behtəri öldürübsən və risalət bustanınıŋ ağacınıŋ budağı kəsdürübsən. Əgər bu iş ki eyləyübsən, köŋlüŋə şəfa verür, bu yaxında əvəzin görəcəksən və yaman əməlüŋ cəzası saŋa yetəcəkdür.

Beyt:

Sitəmgər əylə sandı kim, bizə qıldı sitəm, keçdi,
Bizə asan keçürdi, Taŋrı anuŋ boyninə qaldı.

Ziyadoğlı andan yüzini döndərüb İmam Zeynəlabidin ilən (ə) **[307b]** söyləşməgə məşğul oldı.

Sordı:

– Bu, kimdür?

Dedilər:

– Əli ibnül-Hüseyn.

Ziyadoğlı dedi:

– Əylə dedilər kim, Əli bin əl-Hüseyni öldürdük.

İmam Zeynəlabidin (ə) dedi:

"*Vallahu innə ləhu mutalibən yovməl-qiyaməti*"[814]. Bəli, mənüm böyük qərdaşum idi kim, şəhid etdilər. Taŋrı həqqinə ki, kimsə gələcəkdür kim, anuŋ qanını istəyə.

Ziyadoğlı qəzəbə varub dedi:

– Munı köşküŋ qapusinə aparub boynın uruŋ və başını yanümə gətürüŋ.

Nökərlər anuŋ qəsdinə durdılar. Zeynəb qalxub aŋa yapışub dedi:

– Ey Ziyadoğlı, həzə Peyğambərüŋ Əhli-Beyti ödürməkdən tox olmayubsən və yetər dəgül bu qanlar ki, nahəqq ilən yerə tökdüŋ. Əgər, əlbəttə, anı öldürəcəksən, əvvəl məni öldür.

İmam Zeynəlabidin (ə) dedi:

– Ey bibi, sən bir saət qatlan və söz demək maŋa qoy, ta anuŋ cəvabını mən verəyim.

Bəs yüziŋi Ziyadoğlına qoyub dedi:

– Ya Ziyadoğlı, sən məni öldürməkdən qorxudursən və qətlümə hədhədə verürsən. Bilməzsən ki, öldürmək və şəhid olmək bizim işimüzdür. Mə`lum et ki, bizim gəvdəmiz məhəbbət suyi ilən yoğurtmuşlar və məhəbbət toxmi qüdrət əli ilən toprağımızda əkdürmişlər və düşmənlərüŋ ölümi və şəhadət bulduğimi səadətümdür.

Şe'r:

Düşməni öldürməgə kiş ilə adətdür maŋa,
Əhli-bəğy ilən cihad etmək səadətdür maŋa.
Ey Ziyadoğlı, şəhadətdən məni qorxutma kim,
[308a] *Gecə-gündüz diləgi Həqdən şəhadətdür maŋa.*

[814] *Allaha and içirəm ki, Qiyamət günündə sizdən haqqımızı tələb edəcəyik.*

Ziyadoğlı bir ləhzə fikrdə qalub nökərlərinə dedi:

– Məni bu cəməatüŋ qeylü qalindən xilas eyləŋiz və bu köşkdən çıxarub məscidi-camenüŋ yanında bir ev var, anda qonduruŋ.

Dedüginə əməl etdilər və ol evdə ki, müqərrər olmış idi, oturtdılar. Və Kufə elidən kimsə Ziyadoğlınuŋ qorxusından anları sormayub yas vermədilər. Neçə gündən soŋra Ziyadoğlı anlaruŋ səfər yərağını görüb və Hürr[815] bin Qeys və Muhsin bin Sə`ləbə və Şimri-Zilcövşən ilən miŋ[816] atlu müqərrər eylədi, ta Əhlül-Beyt ol başlar ilən Şamə yetürsün.

Gecə-gündüz mənzilləri qət` eyləyüb, hər mənzildə bir kəramət yüz urar idi və hər yurtda bir vilayət gözükürdi və anlardan neçə hekayət ki, səhih idi, deyəcəgüz.

Rəvayətdür ki, ol nəstələrdən ki, yolda vaqe oldı, birisi oldur ki, çün Hərranə yetdilər, bir təpənüŋ üstində bir yəhudinüŋ evi var idi kim, anuŋ adı Yəhya Hərrani idi, ol taifənüŋ qarşusinə varub ol başlarə nəzzarə qılur idi. Nagah gözi İmam Hüseynüŋ mübarək başına düşdi. Gördi kim, dodağları təprənir idi, ilərü varub qulağ asdı, bu kəlam eşitdi ki: *"Və səyə`ləmulləzinə zələmu əyyə munqəlibin yənqəlibun*[817]. Yəhya bu haldan mütəəccib olub sordı kim, bu, kimüŋ başıdur?

Dedilər:

– İmam Hüseynüŋ (ə) başıdur.

Dedi:

– Kimüŋ oğlıdur?

Dedilər:

– Əmirül-mö'minin Əli ibn Əbu Talib.

Dedi:

[308b] – Atası mə`lum oldı, anası kimdür?

Dedilər:

– Fatimə bint Muhəmməd (s).

Dedi:

---

[815] Farsca orijinalda və "Hədiqətüs-süəda"da: *Zübeyr.*

[816] Farsca orijinalda və "Hədiqətüs-süəda"da: *beş min*.

[817] *O zalımlar necə alt-üst ediləcəklərini lap yaxında biləcəklər.* (Quran, 26:227)

– Əgər munuŋ cəddinüŋ dini bərhəqq olmasaydı, bu kəramətlər mundan zahir olmazdı.

Pəs, şəhadət kəlməsi dilinə cari oldı və dəqi-Misri əmmaməsi kim, başında idi, götürüb vəslə-vəslə qılub xatunlarə verdi və bir Hərri don İmam Zeynəlabidinə (ə) göndərdi miŋ dirəm ilən ki, munı özünə xərcliğ eylə. Bir cəmaət ki ol başları saxlar idilər, anı hayxırdılar ki, bu, nə işdür ki, dutubsən və Yezidüŋ düşmənləri himayət edərsən? Bu dutsağlaruŋ çevrəsindən irağ ol, yoxsə başüŋi kəsərüz. Yəhya məhəbbət dadı bulmış idi, nökərindən qılıc alub və təkbir avazın gögə yetürüb anlarə həmlə etdi və beş kişi anlardan cəhənnəmə göndərdi və soŋra şəhadət dəracatinə yetdi və anı Hərran dərvazəsində yerə tapşurdılar və türbəti Yəhyayi-şəhidə məşhurdur və hər dua ki, anda eylərlər, müstəcab olur.

Beyt:
Gər iki cəhandə yüz suyi istərsən,
Aşiqlərinüŋ kuyi başinə keçəgör.

Nəql eyləyübdürlər ki, bu ləşkər çün Mosulə yaqın oldılar, Mosul bəginə adəm saldılar ki, şəhri bezət və qarşuyə çıq və qızıldan və gümişdən təbəqlərdən doldurub başımıza nisar eylə və gəldügümiz eviŋə özüŋə bir şərəf bil ki, İmam Hüseynüŋ (ə) qəvm ilə qərdaşları başları biləmizcədür və Əhlül-Beyti daxi bilə gətürübüz. Əmir İmadəddövlə ki, Mosul şəhrinüŋ **[309a]** bəgi idi, şəhrüŋ adəmlərini cəm' edüb, bu surət anlarə deyüb qədəğən eylədi kim, ey qəvm, zinhar kim, bu sözi qəbul etməyüb, bu fəzihətə həmdastan olmaŋız. Mosullu qamu anuŋlən birikdilər və ələfə və ülufə dışxarı göndərüb dedilər:

– Sizi bu şəhrə girdürmək hiç məsləhət yoxdur.

Pəs, şəhrdən dışxarı bir ağac yol irağ bir mənzil var idi, anları anda qondurdılar. Və ol mənzildə İmam Hüseynüŋ başı bir daş üstinə qoymış idilər. Bir qətrə qan ol mübarək başdan damdı. Bəs hər yıl mühərrəm ayınuŋ Aşura güni ol qan tazə olub, ol tərəfüŋ xəlqi anda yığılub yas dutar idilər. Həm bilə var idi, ta Əbülməlik Mərvanuŋ oğlı hökuməti çağı və ol buyurdı kim, ol daşı andan götürdilər və daxi kimsə andan xəbər vermədi. Əmma ol məqamdə bir günbəd yap-

dılar və adını "Nöqtə günbədi" qoydılar və hər yıl çün mühərrəm ayı gəlür, ol yerüŋ adəmi anda yas şərtini yerinə yetürür idilər.

Şe'r:

Hər yıl mühərrəm ayı olur tazə bu əza,
Bir dərd imiş kim, iki cəhandə dəvası yox.

Daxi rəvayət edərlər kim, Rum məmləkətlərində bir alçax yerdə bir əslan surəti daşdan yonulmuş var və hər yıl Aşura günində ol əslanuŋ iki gözindən iki bulağ axar gecəyədəkin və ol məmləkətüŋ xəlayiqi ol gün anda yığılurlar və Əhli-Beytüŋ yasını dutarlar və ol bulağuŋ suyindən içərlər və təbərrük içün evlərinə **[309b]** aparurlar.

Rübaiyyə:

Ol təşnələrüŋ həsrətidin dağ ağlar,
Əhbab yürəklarini hicran dağlar.
Uçmağ tutilər varısı əpsəm oldi,
Çığırmağə gəldi qarğə ilən zağlar.

Əmma rəvayətdür ki, çün mosellü Şimr ləşkərini şəhrə qoymadılar və anları şəhrdən irağ mənzil verdilər, anlar daŋlası andan qalxub Nüsəybin şəhrinə yüz qoydılar və Mənsur bin İlyas ki, ol şəhrüŋ bəgi idi, adəm saldılar, ta şəhri bezətdürdi. Həman ki ol ləşkər şəhrə girdilər, Taŋrınuŋ qüdrəti ilən qəzəb və qəhr bulutindən bir ildurum çaqub şəhrüŋ yarısını yandurdı. Xəlayiq utanub andan özgə şəhrə girdilər ki, ol şəhrüŋ böyügi Süleyman bin Yusif idi və ol Süleymanuŋ iki qərdaşı var idi, birisi Siffin səvaşında əmirül-mö'minin Əlinüŋ (ə) əlinə həlak oldı və birisi Süleyman ilən bu məmləkətüŋ hökumətində şərik idilər və bir dərvazə bu qərdaşə mütəəlliq idi və bir dərvazə ol qərdaşə. Hər birinüŋ daiəsi bu idi ki, başlar anuŋ dərvazəsindən şəhrə girdürələr. Bu cəhətdən qərdaşlar arasında səvaş oldı və Süleymanı öldirdilər. Mundan ötrü fitnəvü qovğa qopdı. Şimrüŋ ləşkəri anda sərasimə qalub, Hələbə yüz qoydılar və həm ol yaxında bir dağ var idi, anuŋ üstində bir abadan kənt bərk həsarlu, adı Mə`murə məşhur idi və həzə imdiyədək mə`murdur. Kutvalınuŋ adı Əziz **[310a]** bin Harun idi və həsaruŋ eli ilən bəgi yəhud idilər və hə-

rir köŋləklər toxudurlar və anlaruŋ hünəri İraq və Hicaz və Şamdə məşhurdur. Həman ki orayə yetdilər, ol dağuŋ dibində ki, otlu və sulu idi, qondılar. Çün gecə oldı, bir qəravaş Şəhrbanu xatunuŋ qulluğində var idi adı Şirin və bəqayət gögcək, lətafətdə şirinzəban və zərafətdə Leyliyi-zəman.

Beyt:
İki dodağı əqiqi-Yəmən təki sirab,
Günbəd kip iki saçı mücəədü pürtab.

Şəhrbanuyə gəldi və ağlamağə düşdi. Və anuŋ ağlamağ səbəbi ol idi ki, ol zəman ki, Şəhrbanuyi Mədinəyə gətürdilər, yüz qəravaş anuŋ ilən bilə idilər. Ol gecə ki, İmam Hüseynüŋ (ə) gərdəginə müşərrəf oldı, əlli qəravaş azad etdi və çün İmam Zeynəlabidin (ə) doğdı, qırq qəravaşuŋ azadlığ bitigi verdi. Pəs, on qəravaş qaldı, anlaruŋ içində bu Şirin hüsnü cəmaldən görkrak idi. Bir gün Şirin evə girdi, Şəhrbanu İmam Hüseyn (ə) ilən oturmış idilər. İmam Hüseyn (ə) Şirinə baxdı, pəs Şəhrbanu ilən hənəkə dedi ki, Şirinüŋ yüzi bəŋizi əcəb qızarmış. Şəhrbanu gümanladı kim, məgər şahzadənüŋ köŋli anı istəyübdür, dedi:

– Ya Bin Rəsulullah, anı saŋa bağışladum.

İmam Hüseyn anuŋ zənn və gümanı mə`lum qılub buyurdı kim, mən həm anı azad etdüm. Şəhrbanu durub boxçədən mürəssə xəl`əti çıxarub Şirinə geydürdi. İmam Hüseyn (ə) dedi:

[310b] – Sən neçə qəravaşlar azad qılduŋ hiç hanğısinə bəylə xəl`ət bağışlamaduŋ.

Şəhrbanu dedi:

– Ey şahzadə, anları mən azad eyləmiş idum və Şirini sən azad eyləmişsən. Pəs, anlaruŋ aralarında bir fərq və təməyyüz gərək.

Həzrət İmam Şəhrbanuyə dualar etdi. Əmma Şirin həm ol dəstur ilən Şəhrbanu qulluğində olur idi, ta bu gecə ki, bu dağ dibində mənzil dutdılar. Şirin Şəhrbanuyə baxub gördi ki, bir don geyübdür ki, anuŋ layiqi dəgül. Ol mürəssə don ki, İmam Hüseyn (ə) qarşusində aŋa geydürmiş idi, yadına gəlüb ağlamağə düşdi və Şəhrbanudən rüxsət dilədi kim, ol kəndə vara və anuŋ məqsudi ol idi ki, qaşlar ilə qızıl-

dan ki, dişilərüŋ imarətidür, hər nəstə kim qalupdur, sata və əvəzindən bir hərir donı ki, ol kəntdə toxunur, satun alub Şəhrbanu içün gətürə. Əmma çün Şirin rüxsət aldı ol kəntə varmək, Şəhrbanu dedi:

– Sən azadsən və kimsə səni saxləməyübdür və kimsənüŋ əsiri dəgülsən, hər yerə ki xatirüŋ istər, var.

Şirin qalxub dağə yuxaru vardı ta həsaruŋ qapusinədək. Qapuyi bağlu gördi və gecədən iki daŋ keçmiş idi, qapuyi qaxdı. Əziz ki, həsaruŋ bəgi idi, bir düş görmiş idi və həsaruŋ üstində durub intizardə idi. Çün gördi kim, bir kimsə qapuyi qaxdı, cəvab verüb dedi:

– Ey qapuyi qaxan, Şirin adlu sənsən?

[311a] Dedi:

– Bəli.

Dərhal damdan enüb, qapuyi açub səlam verdi və anı öz evinə aparub tə`zimlər etdi. Şirin Əzizdən sordı kim, məni necə tanıduŋ?

Dedi:

– Bu gecə düşdə Musa və Harunı gördüm ki, ikisinüŋ daxi başları ilən əyağları yalın idi və ahlar çəkər idilər və gözlərdən yaşlar axar idilər. Mə`lum idi ki, bir kimsənüŋ yasını dutar idilər.

Dedim:

– Ey Bəni İsrailüŋ seyyidləri vey Taŋrı-təalanuŋ seçilmişləri, sizə nə vaqe olupdur və başüŋiz ilən əyağüŋiz nədən ötrü yalındur və bu ah ilə nalənjiz kimüŋ içündür?

Dedilər:

– Sən bilməyibsən ki, axirrüzzəmanuŋ Peyğambəri (s) fərzəndi zülm ilən şəhid eyləyübdürlər və mübarək başını Əhli-Beyti ilən imdi Şamə aparurlar və bu dağuŋ əyağində qonubdurlar.

Mən dedim:

– Siz Muhəmmədi (s) tanursıŋız və aŋa e`tiqad gətürübsiŋiz?

Musa (ə) dedi:

– Ey Əziz, necə anı tanımayalım ki, ol Peyğambəri-bəhəqdür Taŋrınuŋ və Allah-təala anuŋ içün bizdən peyman alubdur və biz aŋa iman gətürübüz və hər kim aŋa iman gətürməsə, Taŋrı anı doğrusözlü saymaz və yeri cəhənnəmdür və biz ikimiz və bitün peyğambərlər andan bizarüz.

Mən dedim:

– Bir nişanə veriŋiz ki, mənüm yəqinüm arta və bu işdən bir fəth və nüsrət maŋa gözükə.

Dedilər:

– Əyağə qalx və həsaruŋ qapusinə var, həman ki orayə yetərsən, bir qəravaş Şirin adlu ki, İmam Hüseyn (ə) **[311b]** anı azad eyləyübdür, yetəcəkdür və qapuyi qaxar. Yüzinə qapu aç və mütabiətin eylə ki, sənüŋ xatunuŋ olacaxdur və islamuŋ dininə gir və İmam Hüseynüŋ (ə) başı yanına var və ol sərvərüŋ başına bizdən səlam yetür ki, cəvabuŋ verəcəkdür.

Bu halda ikən uyxudən oyandum və filhal qalxub qəl`ənüŋ qapusinə gəldüm, sən qapuyi qaxduŋ. Mundan ötrü bildüm ki, sən Şirin adlusən və çün maŋa dedilər ki, sənüŋ xatunuŋ olacaxdur, riza ver ki, mənüm həlalum olasən. Dedi:

– Əgər müsəlman olursən və Şəhrbanu maŋa rüxsət verə, rəva ola.

Pəs, Şirin qayıdub Şəhrbanu yanına gəlüb, ötmiş qissələr varı ərzinə yetürdi. Şəhrbanu xatun ol vaqiədən mütəhəyyir olub İmamun qızqərdaşları ilən fərzəndləri canğıtdı. Anlar varı əcəbdə qaldılar. Əmma daŋlası Əziz gəldi və miŋ dirəm keşikçilərə verüb dəstur aldı və Əhli-Beytüŋ xatunları içün hər birisinə bir qiymətlü don gətürdi və iki miŋ dirəm İmam Zeynalabidin (ə) qulluğinə gətürüb, anuŋ mübarək əlini öpüb müsəlman oldı və şahzadənüŋ başı yanına gəlüb dedi:

– Ey ulu seyyid, Musa və Harunuŋ səlamı saŋa gətürübəm.

İmam Hüseynüŋ başından cəvab gəldi ki, Taŋrınuŋ səlamı anlarə olsun.

Dedi:

– Ey seyyid, bir qulluğ buyur ki, Taŋrınuŋ rizası andan hasil ola.

Şahzadə (ə) **[312a]** dedi kim, ol nəstə ki, layiq idi, yerinə yetürdüŋ və çün müsəlman olduŋ, Taŋrı ilən Rəsuli səndən xoşnud oldılar və çün mənüm Əhli-Beytüm həqqi içün ehsan eylədüŋ, mən daxi

səndən razi oldum. Pəs, İmam Zeynəlabidin Şirini anuŋ əqdinə gətürüb nikah bağladı və əhli-qəl`ə bu səbəbdən ötrü müsəlman oldılar.

Beyt:

Başlarinə düşdi çün kim Əhli-Beytüŋ kölgəsi,
Oldi pürxurşid aləmtab hər bir zərrəcük.

Əmma İsmail rəvayət eylər Əbül-Hünuqdən ki, hər gecə ol başlarə əlli kişi keşikçi idilər. Bir gecə anlaruŋ içində idim, keşikçilər varı uyudılar. Mənüm uyxum gəlməz idi. Nagah gögdən bir heybətlü ün eşitdüm kim, yaxın idi kim, cəhanı zirü zəbər eyləyə. Bir ağ donlu, buğdabəŋizlü kişi gördüm iŋən nurani kim, gögdən endi və başını çıplaq qılub, İmam Hüseynüŋ başı sənduqdən çıxarub, yüzini öpüp ağlar idi. Mən qalxdum mütəhəyyir. İstər idüm ki, andan ol başı alım və sənduqə qoyayım, andan ilərü ki keşikçilər oyanalar. Çün yaxınına getdüm, məni hayxırdılar ki, güstaxlığ eyləmə və ilərü getmə ki, Adəmi-Səfi əleyhissəlamdur ki, İmam Hüseynüŋ (ə) yasına gəlübdür. Nagah bir nəʾrə daxi eşitdüm ki, Nuh (ə) endi və andan daxi İbrahim Xəlil və İsmail və İshaq (ə.m) endilər. Soŋra Heydəri-Kərrar və Əmir Həmzə və İmam **[312b]** Həsən və Cə'fəri-Təyyar qamu saçları açux nüzul etdilər və bir-bir ol mübarək başı izzət ilən götürüb təʾzim qıldılar. Pəs nurdən bir kürsi gətürdilər və ərşi-əzimüŋ müsafiri, yə'ni seyyidi-rəufi-Rəhim

Şe'r:

Mustəfa kim ənbiyadur rizəxar xaninə,
Miŋ həzaran afərin anuŋ təninə, caninə.

Ol kürsinüŋ üstində oturdı və peyğəmbərlər ol kürsinüŋ çəvrəsində oturdılar. Andan bir mələk gəldi bir əlində qılıc və bir əlində oddan bir gürz. Ol mələk mənüm əlüm dutdı. Fəryad çıxardum ki, mən xanidanuŋ dustdarı idim. Bu qəvm məni gərək-gərəkməz ilən gətürübdürlər. Ol mələk bir təpançə yüzümə urdı kim, təpançə yeri qəraldı və həzrət Rəsulullah (s) buyurdı kim, aŋa dəgmə. Məni qoydı, ussum getdi, ta sübh çıqdı. Çün oyandum, anlardan hiç əsər görmədüm. İmam Hüseynüŋ başını gördüm həm ol sənduqdə durur və

sənduquŋ çəvrələrində doptolu küldür. Çün daŋlası oldı, Şimr Əbül-Hünuqi yanına çağırdı, gördi kim, yüzinüŋ yarısı qəradur, əhval sordı. Əbül-Hünuq hər nəstə ki görmiş idi, dedi, pəs bir ah çəküb düşdi və canını tapşurdı. Ölməginüŋ səbəbinə durdılar, mə`lum oldı kim, ödi yarılupdur. Ol ləşkər qamusı qorxdılar və neçəsi ol işdən pəşiman olub getməgə əzm etdilər.

Əbu Səid Diməşqi der ki, mən ol cəmaət ilən yoldaş idim. Çün Diməşqə yaqın oldük, qəvmüŋ içində **[313a]** xəbər düşdi ki, Müseyyib bin Qəʾqa Xüzai ləşkərin cəmʾ edüb, istər ki, şəbixun gətürüb bunlardan şəhidlərüŋ başlarını ala. Ləşkərüŋ ululları ehtiyat ilən gedər idilər. Gecə bir mənzildə qondılar və orada bir bərk kəlisiya var idi. Canğıtdılar ki, gecə ol kəlisiyayə girüb özlərini bərkidələr, ta əgər müxalif şəbixun gətürə, bir iş edə bilməyə. Şimr kəlisiyanuŋ qapusinə gəlüb qapuyi qaxdı. Bir qocə kişi ki, ol dəyrüŋ sərhəlqəsi idi, dam üsnə çıxub bir ləşkər gördi kim, kəlisiyanuŋ çəvrəsində durubturlar və Şimr anlaruŋ ögüsərə çığırur. Xacə sordı kim, bu, nə ləşkərdür və siz kimlərsiŋiz?

Şimr dedi:

– Biz Ziyadoğlınuŋ nökərləriüz və Kufədən Diməşqə gedərüz.

Xacə dedi:

– Nə iş içün Şamə gedərsiz?

Şimr dedi:

– İraqdə bir kişi Yezid ilən yağı olmış idi və biz anuŋ səvaşına varmış idük və bu, anlaruŋ başlarıdur ki, kəsüb Əhli-Beyti ilən Şamə aparuruz.

Qocə baxdı, başlar gördi cidələr başında. Sordı kim, böyüklərinüŋ başı hanğıdur? Şahzadənüŋ başına işarət eylədilər. Qocə həman ki ol başı yəxşicə baxdı, bir heybət ol başdan anuŋ köŋlinə düşdi, dedi:

– Bu kəlisiyanuŋ çəvrəsində nəyə gəzərsiz?

Cəvab verdi kim, eşitdük kim, neçə müxaliflər ittifaq eyləyübdürlər ki, üstümizə şəbuxun gətürüb bu başlar ulcələr ilən əlümizdən alalar. Dilədügümiz oldur ki, bu gecə bu kəlisiyayə girüb pənah edəlim.

Qocə dedi:

– Siz qələbə adamsınız və bu kəlisiyadə **[313b]** sığmazsınız, əmma başlar xatunlar ilən dəyr içinə göndərün və öziniz dəyrün çəvrəsində qonub odlar yanduruŋ və oyağ oluŋ, ta şəbixundən imən olasıŋız və oğrılar əgər gələlər, məqsudə yetməyüb naümmid olalar ki, hiç kimsənüŋ əli bu dəyrə yetməz.

Muŋa qərar oldı. Pəs, İmam Hüseynüŋ (ə) başı bir sənduqə qoyub, sənduquŋ başı bərkidüb qüflladılar[818] dilədilər və hər kimə dedilər kim, sənduq ilən kəlisiyayə girsün. Hiç kimsə qəbul etmədi ki, Əbül-Hünuq vaqiəsindən qorqmış idilər. Pəs, sənduqi götürüb, dəyrüŋ içinə girdürüb, bir evə qoyub, evüŋ qapusini bağlayub qüflladılar və çıxdılar. Andan soŋra İmam Zeynəlabidin Əhli-Beyt ilən kəlisiyayə girdi və dəyrüŋ qocəsi anları yəxşi mənzildə qondurdı və qocə istər idi ki, İmam Hüseynüŋ (ə) başını görə. Ol evə ki, İmam Hüseynün başı (ə) anda qoymışdılar, çəvrələrində gəzər idi. Nagah gördi ki, ol eviŋ içində şəm`siz və çıraqsız aydındur. Qocə mütəəccib qaldı və dedi: "Bu aydınlik xandandur?" Bir bacədən baxdı, gördi kim, hər saət ol aydınlığ artar, ta ol həddə yetdi ki, hiç kimsə anı görməz oldı.

Nəzm:

Dərdavü həsrəta ki, bu fani cəhandə yoq,
Hiç didənüŋ mühali ki, baxsun cəmalinə.
Ol yerdə kim, zühur qılur yüzi yüzini,
Di əqlə urmə dəm ki, sözüm yoq mühalinə.

Əlqissə, evüŋ yuqarısı söküb **[314a]** bir ükək endi və ükəkdən görkyüzlü xatunlar çıxdılar və çoq qəravaşlar ki, hər birisi bir huriyə bəŋzər idilər bilələrincə və der idilər: "*Tərrəqu, tərrəqü*"[819] – yol verüŋ, yol verüŋ ki, insanuŋ anası, yə'ni Həvva Səfiyyətullah keçər. Və həm bu dəstur ilən Xəlilullahuŋ hərəmi Sarə – İshaq nəbinüŋ anası və İsmaili-zəbihüŋ anası Hacər endilər. Andan Yusifün anası Rahil və Şüeybüŋ qızı Səfura və Kəlimi-Musanuŋ qızqərdaşı və Fir`onuŋ xatunı

[818] Əlyazmada: *qüfllar diladilər.*

[819] *Yol verin, yol verin.*

Asiyə və İsanuŋ anası Məryəm endilər. Nagah daxi xüruş çıxdı və bir ükək yetdi içində Xədiceyi-Kübra və həzrət Peyğambərüŋ mütəhhərat xatunları biləsincə. Və sənduqdən bir baş çıxardılar və bir-bir ziyarət etdilər. Nagah bir zarilik nalə üni gəldi və bir nurani ükək peyda oldı. Bir kimsə bu baxən qocəni hayxırdı ki, bu bacədən baxmə ki, Qiyamətüŋ xatunı gəlür. Heyrətdən qocənüŋ ussı uçdı. Çün özinə gəldi, gözinüŋ ortasında bir hicab peyda oldı ki, ol xatunları hiç görməz idi, əmma anlaruŋ xüruş ilə fəryadü fəğanı eşidür idi və birisinüŋ avazı gəlür idi kim, dedi: "Əssəlamu əleyk, ey ananuŋ məzlumi vey ananuŋ şəhidi və mə`sumi vey ananuŋ qəribi və məğmumi vey gözümnüŋ nuri vey köksümnüŋ sərvəri. Ey bəgənilmiş oğul, qayğulənmə ki, mən sənüŋ dadüŋi düşmənlərüŋdən alacağəm və otunuŋ qüssəsi intiqam **[314b]** suyi ilən oturuşdurarəm." Bəylə xəbər verdilər ki, həzrət Fatimeyi-Zəhra (ə.s) ol gecə neçə beyt İmami-məzlumuŋ mərsiyəsində oxudı ki, ol Qiyamət xatunlardan fəğan qopdurdı və ol beytlərüŋ məˀnisi budur.

Şe`r:

Gözlərüm gər əylə kim yanər, köŋül ağlə idi,
Quşlə balığ yürəgin könlüm odi dağlə idi.
Olsa idi gözlərümnüŋ mərdümin nuri-didəsi,
Ta ki yüz göz ilə ol şahzadəyə ağlə idi.
Misri-came Yusifinüŋ qanlusi köŋləg qanı,
Ta ki Kən`an xacəsi gözlərinə bağlə idi.
Kərbəladə hazir olsəydi Əliyyi-Murtəza,
Kimsənüŋ həddimiydi kim, səni bıçağlə idi.

Tərsa qocə çün bu sözləri eşitdi, ussız oldı. Çün əqli gəldi, ol ükəklər ilən xatunlardan nişan görmədi, qalxub ol evdən çıxdı və ol qüfl k, ol məlˀunlar ol qapuyə urmış idilər, ufadub içəri girdi. Sənduquŋ qüflini daxi ufatdı və həm anda toprağə düşdi və çox ağladı. Bəs, qalxub ol mübarək başı çıxarub müşk və gülab ilən yudı və səccadənüŋ üstinə qoyub, on şəmˀ yandurdı və dizi üstinə oturub ol mübarək başə nəzər eylər idi və zarilik edər idi.

Şe`r:
Ey cəhanuŋ sərvərinün sərvəri,
Xəlqi-aləm qamu səndən behtəri.

Gümanum oldur ki, sən ol kimsəsən ki, Tövrit ilə İncildə vəsfüŋi oqımışam. Ol Taŋrınuŋ həqqi içün ki, saŋa ol mənzilət verüpdür ki, izzət süradiqatuŋ məhrəmləri ziyarətüŋə gəlürlər və **[315a]** nübüvvət sərapərdənüŋ xatunları sənüŋ içün zarilik edərlər. Maŋa xəbər eylə ki, sən kimsən?

Filhal Taŋrınuŋ buyruğindən İmam Hüseynüŋ (ə) başı sözə gəlüb dedi: "*Əna məzlumun*" [820] – mənəm sitəmgörici, "*əna məğmumun*"[821] – mənəm qayğu və mihnət çəkici, "*əna məqtulun*"[822] – mənəm düşmənlər qılıci ilən şəhid olmış, "*əna məhmumun*"[823] – mənəm öz xanü manümdən avarə olmış.

Şe`r:
Mənəm pürhəzin ki, yoq oldi nişanum,
Nə yarum, nə karum, nə xanum, nə manum.
Əsirəm, qəribəm, şəhidəm, həzinəm,
Bu mihnətdə yoxdur kimsənə zimanum.

Tərsa qocə dedi kim, daxi söylə. İmam Hüseynüŋ başı dedi:

– Ey qocə, həsəb ilə nəsəbümdən xəbər sorərsən, yoxsə məşəqqətlər ilə susizliğimdən sual eylərsən? Əgər nəsəbdən sorərsən, "*əna ibnəl-Mustəfa*"[824] – mən seçilmiş Peyğambərüŋ oğliəm, "*əna ibnəl-Murtəza*"[825] – mən bəgənilmiş vəlinüŋ oğliəm.

Şe`r:
Mustəfanuŋ iki gözi nuriəm,
Murtəzanuŋ köŋlinə mənzuriyəm.

---

[820] *Mən məzlumam.*
[821] *Mən qəmliyəm.*
[822] *Mən qətl olunmuşam (şəhidəm).*
[823] *Mən qəribəm.*
[824] *Mən Mustəfanın oğluyam.*
[825] *Mən Murtəzanın oğluyam.*

Xanidanuŋ behtərivü mehtəri,
Xəlqi-aləmnüŋ varı sərdəftəri.
Yoq nə derəm qəvmü qərdaşdən bə`id.
Kərbəla toprağidə düşmiş şəhid.

Dəyr piri çün bu sözlər eşitdi, filhal öz müridlərini çağırdı və anlar yetmiş kişi idilər və ötmiş vaqiələr varı anlarə bildürdi. Fəryad çəkdilər və donları yırtub, ittifaq ilən İmami-hümam Zeynəlabidinüŋ (ə) qulluğinə gəlüb zünnarları kəsdilər və şəhadət **[315b]** kəlməsi deyüb İmam Zeynalabidinüŋ (ə) əyağinə düşdilər və dedilər:

– Ya Bin Rəsulullah, rüxsət ver, ta bu dəyrdən çıxub, ol məlʾunlərə şəbixun aparalım və köŋlümiz bu dun nakəslərdən boşadalım.

İmam Zeynəlabidiŋ dedi:

– "*Cəzakumallahu xeyrən*"[826] – Taŋrı-təala sizə cəzayi-bəxeyr versün. Anlar həm bu yaxında əməllərinüŋ cəzası görəcəkdürlər.

Beyt:
Zalimüŋ işi Taŋrıyə tapşur,
Kim, anuŋ feʾlinüŋ cəzası verür.

Əmma çün gecə keçdi, başlar Əhli-Beyt ilən dəyrdən çıxardub yolə düşdilər. Mənzilləri qət' edüb Əsqəlan şəhrinə yetdilər. Əsqəlanlu Yəʾqub Şam bəgləri ilən Kərbəladə hazir idi. Və hala bu ləşkər ilən bilə idi və bu şəhrüŋ hökumətin aŋa mütəəlliq idi. Buyurdı kim, şəhri bezətdilər və qəvvallar yollar üstində bacələrdə oturub yırlar idilər və çaxır məclisi arastə eyləyüb nişatə məşğul oldılar və ol başlar Əhli-Beyt ilən şəhrdə gəzdürür idilər. Bir bazərgan yigit kim, adı Zərir Xüzai idi, ol gün Əsqəlan bazarında durmış idi və Əsqəlanlunuŋ sürür və hüzurinə baxər idi və hər tərəfdən "Qutlu olsun" üni eşidür idi. Bir kimsədən sordı ki, bu bezənməgüŋ səbəbi nə nəstədür və bu qədr nişat və yemiş nədən ötrüdür?

Dedilər:

– Məgər sən qəribsən?

[826] *Allah sizə xeyirli mükafat versin.*

Dedi:

– Bəli dünə gün bu şəhrə gəlübəm və bu gün bu halətləri görərəm **[316a]** və munuŋ səbəbin bilməzəm.

Ol kişi cəvab verdi ki, neçə müxaliflər Yezidə yağı olmış idilər və mütabiət eyləməz idilər. Şam ləşkəri ilən həşəri ittifaq eyləyüb anları öldürüb. Bu başlar anlaruŋdur ki, cidə başındadur və bu əvrətlər ki, ükəklərdə görərsiz, anlaruŋ xatunları və Əhli-Beytidürlər. Zərir dedi:

– Bu cəmaət müsəlman idilər, yoxsə müşrik?

Dedi:

– Bəli, müsəlman idilər, əmma Yezidə müxalifət etdilər.

Dedi:

– Müxalifət səbəbi nə idi?

Dedi:

– Anlaruŋ bəgi der idi ki, imamətə və xilafətə mən layiqəm və mənüm həqqümdür ki, mənüm atam və qərdaşum İmam idilər.

Zərir dedi kim, anlaruŋ atası kim idi?

Dedi:

– Əbu Turab kim, adı Əli bin Əbi Talibdür və qərdaşı İmam Həsən ki, Yezid ilən barışdı.

Dedi:

– Bu kim, başını cidə başına qılubdurlar, adı nə idi?

Dedi:

– Hüseyn.

Dedi:

– Bu iki qərdaşuŋnuŋ anası kim idi?

Dedi:

– Bizim Peyğambərimizüŋ qızı kim, adı Fatimeyi-Zəhra idi.

Zərir həman ki bu söz eşitdi, başından tütün çıxub ükəklülərə mütəvəccih oldı. Həman ki yaxın oldı, gözi İmam Zeynəlabidinə yetüb ağlamağə düşdi.

Şahzadə sordı:

– Ey yigit, sən kimsən?

Dedi:

– Bir qərib kişiəm.

Dedi:

– Şəhrlü qamu gülərlər, nişün sən ağlarsən?

Dedi:

– Anuŋ içün ki, sizi tanurəm. Nolaydı ki, hərgiz bu şəhrə gəlməmiş olaydum və bu halı görməmiş olaydum. Ey dəriğ ki, öz qəbiləmdən irağəm **[316b]** və qürbətdə biçarə və pürdağəm və sizüŋ qayğuŋizdən sayru və bədhaləm, yoxsə bunlarə bir iş edər idim kim, anuŋ nişanəsi ruzigar səfhəsində yıllar qalur idi.

Nəzm:

Qəribü yalğuzəm mundə, sizüŋçün dərdmənd oldum,
Nərəyə gedim mundən, çü qəmdən müstəmənd oldum,
Dilərmən ağlım gur-gur, gözümdən yaş axam çay-çay,
Nedəyim, neylim, dustlar, zəlilü paybənd oldum.

İmam Zeynəlabidin (ə) ağlayu dedi:

– Ey yigit, səndən tanışlıq iyisi eşidürəm. Taŋrı-təala sizi cəzayi-xeyr versün.

Zərir dedi:

– Ey imami-bəhəqq vey məxdumzadeyi-mütləq, maŋa bir qulluğ buyur və hər nəstə ki mübarək xatiriŋiz istər, işarət qıl, ta əlümdən gəldügi xidmət yerinə yetürəyim.

Beyt:

Hər nə kim köŋlüŋ dilər, anı buyur, ey şahi-din,
Kim, sənüŋdür canü dil, ey şah Zeynəlabidin.

Şahzadə dedi kim, ol kişiyə kim, atamuŋ başı anuŋ əlindədur, söylə kim, devələrüŋ içindən çıqsun, ta xəlayiq aŋa [nəzzarəyə] məşğul olalar və Əhli-Beytimiz hicabdə qalalar. Zərir varub əlli dirəm qızıl ol kişiyə verdi, ta ilərü varub, el və ulus İmam Hüseynüŋ (ə) başını nəzzarə qılmağə məşğul oldılar və ükəklərdən irağə vardılar. Zərir qayıdub dedi:

– Ya Bin Rəsulullah, daxi bir xidmət buyur.

Dedi:

– Əgər artuğ geyəsiŋ var isə, müxəddəratımız içün gətür.

Dərhal vardı və Əhli-Beyt müxəddəratı içün hər birinə iki don gətürdi və İmam Zeynəlabidin **[317a]** içün bir cübbə və bir fərəci və bir əmmamə tərtib etdi. Bu halətdə bazardən bir qovğa qopdı. Zərir baxdı, Şimri-Zilcövşəni gördi kim, neçə sərxoşlar ilən şadiliğ eyləyüb yetdilər. Din qeyrəti və islam həmiyyəti Zərirüŋ köŋlündə cuşə gəlüb, yügürüb, Şimrüŋ atınuŋ cələvini dutub dedi:

– Ey kinlü lə'in vey müdbir bidin, bu kimüŋ başıdur ki, cidə başına qoyubsən və bu fərzənd kimüŋ fərzəndidür ki, devələrə mindirübsən? Əliŋiz kəsilsüŋ və başüŋiz gəvdədən ayrılsun və üqubətüŋiz əsbabı cəm′ olsun və cəm′ köŋlüŋiz pərişan olsun.

Şe'r:

Gözüŋiz daima binur olsun,
Həqqüŋ didarinə məhcur olsun.
Yeriŋiz olmasun damudən özgə,
Xoşi görməyəsiz qayğudən özgə.

Şimr nökərlərinə dedi kim, bu ədəbsizi ədəbliŋ. Pəs, bir uğurdə qılıc ilə xəncər aŋa həmlə qıldılar və şəhrüŋ eli daxi kirpüc və daş və kəsək və hər nəstə ki əllərinə girərdi, aŋa həvalə etdilər, ta ol qədr daş aŋa urdılar kim, əyağdən düşüb ussı getdi və xəlayiq gümanladılar ki, ol öldi. Pəs, anı qoyub vardılar. Yarım gecə Zərir gözin açdı, hiç kimsəni görmədi, qalxub rəvan oldı, bir məşhəd var idi Əsqələndə ki, həzrət Süleyman (ə) yapmış idi və çox peyğambərlər və peyğambərlərüŋ uşağları ol məşhəddə yatubdurlar. Zərir yarəlü və xəstə düşmənlərüŋ qorxusindən ol məşhədə **[317b]** vardı. Çün orayə yetdi, bir cəmaəti gördi qamunuŋ başı-əyağı yalın və donları çak edüb gözlərindən yaşlar rəvan. Zərir dedi:

– Siziŋ halıŋız nədür ki, bu şəhrüŋ adəmləri varı tərəbdədürlər və siz təəbdə, qamu işrətdədürlər və siz üsrətdə, bitün təhniyətdədürlər, siz tə`ziyətdə.

Anlar cəvab verdilər ki, ey yigit, xaricilərüŋ şadiliğ çağıdur və Əhli-Beyt mühiblərinüŋ yas və müsibət vəqti. Əgər sən düşmənlərdənsən, var-get və əgər dustlardənsən, otur və bizim ilən bu qayğu-

də müvafiqət et. Əgər dərdlüsən, gəl dərdlülər ilən otur və əgər köŋlüŋ yanər, bir zəman yanmışlar ilən gün keçür.

Beyt:

Gəl ağlayalım zar sənüŋlən bu dün, ey şəm`,
Kim, suxtənüŋ köŋli qəmi suxtə bilür.

Zərir dedi:

– Haşa ki, mən düşmənlərdən olayım ki, imdi İmam Hüseynüŋ müxaliflərinüŋ əlindən yüz miŋ hiylət ilən can aparmışam və anlaruŋ qorxusından bu məşhədə pənah gətürübəm.

Və ötmiş vaqiələri təmamət anlarə nəql eylədi. Və yarələrin daxi görsətdi. Bəs, müşfiq olub, anlar ilən müsibətə oturdılar və təəssüflər yedilər kim, nolaydı ki, Kərbəladə İmam ilən bilə ola idük, ta canümiz şahzadəyə nisar eyləyüb düşmənlərindən intiqamın ala idük.

Zərir dedi:

– İmdi daxi əvəzin etmək olur.

Əlqissə, Zərir hər nəstəsi ki var idi, satub bəhasindən at və silah satun aldı. **[318a]** Və yüz on adəm anuŋlən bey'ət eyləyüb, cümə güni xüruc edüb məscidüŋ xətibi ki, Bəni Süfyanuŋ naibi idi, öldürdilər və şəhrüŋ daruğası ələ gətürdilər. Və anlaruŋ qissəsi özgə kitablarda yazıludur.

Əmma çün ol ləşkərüŋ xəbəri[827] və başlar Əhli-Beyt ilən Diməşqə yetdi, hökm oldı kim, şəhri bezətsünlər və şəhrüŋ xəlayiqi təfərrücə çıqsunlar. "Kənzül-ğəraib" kitabında Əbül-Əbbas, Səhl Saididən[828] nəql eylər ki, mən bazərganlıq içün Şam məmləkətinə varmış idim. Diməşqə yaxın bir kəntdə vardum. Ol kəntüŋ adəmləri varı şadiliğdə idilər və kus ilən nəqqarələr çalar idilər. Gümanlədüm ki, məgər bu, bir bayramdur ki, bunlaruŋ qaidəsi və rəsmi ola. Bir kimsədən keyfiyyətini sordum, dedi:

Ya Şeyx, sən məgər qəribsən?

Dedim:

---

[827] Əlyazmada: *xəbərin.*

[828] Əlyazmada: *Səhl Saidi.*

– Mən Səhl Saidiəm – Rəsulullahuŋ (ə) müsahibi.

Ol kişi yürəgindən bir ah çəküb ağlamağə düşdi və dedi:

– Əcəbdür ki, bu yasdə gögdən qan yağmaz və bu müsibətdə yer xəlayiqi yutmaz.

Dedim:

– Kimüŋ yasıdur?

Dedi:

– Xəbərüŋ yoq?

Nəzm:

Cibhəsindən gög yerə urdi mürəssə tacını,
Asiman tərki bu matəmdə başindən saldı börk.
Zöhrə öz saçını açdı çəngnüŋ tari kimi.
Dırnağ ilən yüzini qopardı Ay ol hüsni görk.

Dedim:

– Sözüŋ mundan aydınrak söylə.

Dedi:

– Bu, İmam Hüseyn bin Əlinüŋ (ə) başıdur ki, İraq ləşkəri kəsdürub Yezid ücün hədiyyə göndərübdürlər və Şam adəmi munuŋ içün şadilik edərlər.

Dedim:

– Hanğı dərvazədən **[318b]** ol başı şəhrə girdürürlər.

Dedi:

– Saat dərvazəsindən.

Pəs, yügürdüm və çox zəhmətlər çəkdüm, ta özümi Əhli-Beytüŋ devələri içinə yetirdüm. Bir cidənüŋ başında bir baş gördüm ki, təmam həzrət Risalətpənahə oxşar idi. Ağlamağ maŋa düşdi. Əhli-Beytüŋ müxəddəratindən bir xatun mənümlən hədisə gəldi və dedi:

– Ey qocə, nisün ağlarsən?

Dedim:

– Sən kimsən?

Dedi:

– Mən İmam Hüseynüŋ (ə) qıziəm Səkinə adlu.

Ağlamağum artdı, dedim:

– Ey Qiyamət xatununuŋ qızı, mən Səhl Saidiəm, büzürgvar cəddüŋ (s) səhabəsindən. Sənüŋ hiç hacətüŋ var ki, mən ol qulluğə durayım.

Dedi:

– Bu başları götürənlərə söylə kim, atamuŋ başı özgə başlar ilən ilərü aparsunlar, ta şamilər anlarə qələbə eyləyüb baxmağə duralar və biz yadlar nəzərindən irağ oləüz.

Pəs mən ilərü vardum və İmamuŋ (ə) başını götürənə dedim:

– Ey yigit, sənüŋlən bir hacətüm var. Əgər qəbul eylərsən, dörd yüz altunum var, saŋa verürəm.

Dedi:

– Nə istərsən?

Dedim:

– Bu devələrüŋ içindən ilərü get.

Ol kişi qəbul edüb ilərü vardi. Mən aqcanı aŋa verdüm və istərdim ki, Əhli-Beytüŋ yanına varayım, əz bəs ki qələbəliğ idi, vara bilmədüm.

Daxi rəvayətdür ki, çün ol şərif başlar şəhrə gətürdilər, yolları məscidi-camənüŋ küçəsinə düşdi. Orayə yetincə bir ağ səqqalu **[319a]** qocə orada durmış idi. Həman ki gözləri İmam Zeynəlabidinə və ükəklərə düşdi, dedi:

– Şükr Taŋrıyə ki, ol siziŋ əkabirləriŋizi həlak eylədi və sizüŋ fitnəŋizdən aləmə asayiş verdi və Yezidi siziŋ üstüŋizə güclü qıldı.

İmam Zeynəlabidin (ə) dedi:

– Ey şeyx, sən Qur`an oxuyubsən?

Dedi:

– Bəli.

İmam dedi:

– Qur`anda bu ayətə yetübsən: "*Qul la əs'əlukum əleyhi əcrən illəl-məvəddətə fil-qurba*."[829]

Dedi:

– Yetübəm.

---

[829] *De: Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-Beytə sevgidən) başqa bir şey istəmirəm.* (Quran, 42: 23)

Dedi: "*Fə nəhnu zul-qurba*"[830], yə'ni bizüz Rəsulullahuŋ qəvmi ki, müvəddətimiz lazımdır. Andan dedi:

– Bu ayəti oxuyubsən ki, "*İnnəma yuridullahu li-yuzhibə ənkumurricsə Əhlə-Beyti və yutəhhirəkum təthira*".[831]

Qocə dedi:

– Oxumuşəm.

Şahzadə dedi:

– Bizüz ol Əhli-Beyt ki, təharət ayətinə məxsus olmışuz.

Qocə bu sözi eşitdi, bir zəman başını öginə salub ağlamağə düşdi və dedi:

– Ya Bin Rəsulullah, məni mə`zur dut ki, bilməz idim ki, siz kimlərsiŋiz.

Pəs, yüzini qibləyə çevirüb dedi:

– İlahi, bu qəvmüŋ düşmənliğindən tövbə eylədüm və müxaliflərindən bizar oldum və təbərra etdüm düşmənləründən və təvəlla qıldum dustlarinə.

Andan özini İmam Zeynəlabidinüŋ (ə) devəsi əyağinə salub dedi:

– Ya Rəbbül-aləmin, əgər tövbəmi qəbul eyləyüb, məndən xoşnud olubsən, canümi al.

Ol qocənüŋ duası müstəcab olub, bir nə'rə urub canını tapşurdı. Əhli-Beytdən xüruş çıxdı və İmam Zeynəlabidin Əhli-Beyt ilən ağladılar.

Şe`r:

[319b] *Məhəbbət kuyidə can verdi qocə,*
Görüŋ canın nə asan verdi qocə,
Münafiqliğidən çün oldi biqəm,
Gidərdi küfri, iman buldi dər-dəm.

Əmma çün başlar ilən xatunlar ol əzəl və əbədüŋ məlˀuni, yə'ni Yezidi-pəlidüŋ (əleyhillə`nə) eşiginə gətürdilər, ol həramzadə buyur-

[830] *Biz (Peyğəmbərin) yaxınlarıyıq.*

[831] *Ey Əhli-Beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər.* (Quran,33:33).

mış idi kim, evini və divanxanəsini bezədüb, özi bir təxt üstinə oturub, kürsilər üstinə Şam bəgləri oturdılar. Gün Şimri-məl'un ol mərdudlar ilən yetdilər, hökm oldı kim, girsünlər və əziz başlar müxəddərati-Əhli-Beyt ilən gətürsünlər. Çün Əhli-Beyt içərü girdülər, köşkdən bir səffədə anları oturtdılar və səffənüŋ ögünə bir pərdə asdılar və başları götürüb təxti ögünə dutdılar. Yezidi-pəlid başlar bir-bir görüb, adını və əhvalını sorar idi, ta varı başları gördi. Andan dedi kim, İmam Hüseynüŋ başını (ə) gətürüŋ. Şimr bir namərdi-qəddar və bir hiləgəri-məkkar idi. İmam Hüseynüŋ başı Bəşir bin Malikə[832] verdi, ta ilərü apardı və aŋa dedi kim, bir rəcəz oquy və İmam Hüseynüŋ qətli üçün sərfərazlıq et və Yeziddən xəl'ət al. Şimrüŋ məqsudi ol idi ki, Yezidüŋ məzacı İmam Hüseyni (ə) öldürənlərinüŋ həqqinə mə`lum eyləyə. Bəşir ol mübarək baş Yezid yanına apardı və bir rəcəz bünyad etdi.

Nəzm:

"Əmlau rikabi fizzətən və zəhəba"[833],

Yə'ni doldur dəvarları qızıldan və gümişdən.

"*İnni qətəltul-məlikəl - muhəccəba*"[834], **[320a]**

Yə'ni anuŋ içün ki, öldürdüm bir ulu padşah.

Ərəbiyyə:

"*Qətəltu xeyrən-nasi ummən və əba*"[835].

Öldürdüm bir kimsə kim, mərdümlərdən yegrak həm anasından və həm atasından.

Və neçə beyt qamu İmam Hüseynüŋ (ə) şərəf və nəsəbü həsəbindən oqudı.

Yezid bu sözdən qəzəbə varub dedi:

---

[832] Əlyazmada: *Məlik.*

[833] *Üzəngimi qızıl və gümüşlə doldurun.*

[834] *Çünki mən gözə görünməsi qadağan edilənlərin şahını öldürdüm.*

[835] *Özü, anası və atası insanların ən xeyirlisi olan kəsi öldürdüm.*

– Çün bilürdüŋ ki, İmam Hüseyn bu sifətdə mövsüf idi, nişün anı öldürdüŋ ki, məndən hiç xəbər saŋa yetməmiş idi. İmdi lazim oldı kim, səni aŋa yetirəyüm.

Andan buyurdı kim, aŋı dışxaru aparub boynın urdılar. Və bu Bəşir ol on adəmlərdən idi ki, İmam Hüseynüŋ qətlinə bey'ət etmiş idilər.

Pəs Yezidi-pəlid Küfə bəglərinə yüz qoyub sordı kim, İmam Hüseyni (ə) necə öldürdiŋiz?

Şimri-Zilcövşən dedi:

– Bu şəxs neçə yigid ilən qəvm və qərdaşdən Kərbəladə qonmış idi. Biz bir ağır ləşkər ilən üstinə varub nə qədr ki mübaliğə etdük sənüŋ bey'ətinə və Übeydullah Ziyaduŋ mütabiətinə, ol qəbul etmədi. Anuŋlən səvaşdük və az fürsət ilən andan və tabınlarından dimar çıxardük və başlarını kəsüb gəvdələri toprağə saldük. Və ümdiyədəkin gəvdələri ol yazıda düşübdür qamusı qan ilə toprağda bulaşuğ.

Yezid bir yəxşı zəman başını oğinə salub hiç demədi. Andan soŋra bir qızıllu teşt diləyüb dedi kim, İmam Hüseynüŋ (ə) başını anda qoydılar və yanına apardılar. Əlində bir ağac **[320b]** var idi. Ol ağacı İmam Hüseyniŋ dişlərinə yetirüb dedi:

– Hüseynüŋ nə yəxşi dodağı və dişi var imiş.

Məclis hazirlərindən birisi[836] Yezidə bang urub dedi:

– Gidər ağacı bu dişlərdən ki, neçə qatla görmüşəm ki, Rəsulullah (s) bu dişləri öpər idi.

Nəzm:

Ol dodağ kim, neçə qatla öpdi Peyğəmbər anı,
Aŋa ağaclə işarət eyləmək olmaz rəva.
Ol əziz baş kim, qoyubdur Mustəfa ətəginə,
İmdi anı teşti-zər içində qoymək yoq səza.

Rəvayətdür ki, ol saət Yezidi-pəlid ol dodağ ilən dişlərə ağac ilən işarət eylər idi, Səmrə bin Cündəb ki, əshabi-kübradən idi, ol məclisdə hazir imiş, avaz şıxarub dedi ki, "*qət'əallahu yədəkə, ya Ye-*

[836] Əlyazmada: *birisin.*

zid"[837], yə'ni Taŋrı əlüŋ kəssün[838], ey Yezid. İstərsən ki, ağac bir yerə dəgdürəsən ki, neçə qatla mən görmişəm ki, həzrət Risalətpənah (s) anı öpər idi. Yezid acığa gedüb dedi:

– Ey Səmrə, sən Rəsulullahuŋ (ə) söhbətinə yetübsən, andan ötrü izzətüŋ saxlaram. Və əgər sənüŋ bu şərəfüŋ olmasaydı, boynuŋ urar idüm.

Səmrə dedi:

– Əcəb halətdür, mənüm söhbətümi ol həzrət ilən mülahizə eylərsən və anuŋ əziz fərzəndi ilən bu növə əməl edərsən?

Hazirlər bu sözdən ağlamağə düşdilər və yaqın idi kim, bir fitnə qopa. Axirüləmr, Səmrəni məclisdən dışxarı çıxarub, Yezid özini özgə sözə məşğul eylədi.

Əbül-Məfaxir Razi **[321a]** rəvayət eylər ki, bir yəhud bazərgan ol gün ol məclisdə hazir idi, sordı:

– Bu, kimüŋ başıdur ki, ögündə qoyubsən?

Dedi:

– Bu, bir kişinüŋ başıdur ki, İraqdə xüruc eyləmiş idi və xiyalı bu idi kim, özinüŋ adını əmirül-mö'minin qoya. Mənüm bəglərüm anuŋ ilən uğraşub, başını tabınları ilən kəsdürüb yanümə göndərdilər.

Yəhudi dedi:

– Məgər bu əziz başuŋ[839] iyəsi şərif imiş ki, imamət eyləmək istər imiş?

Yezid dedi:

– Bəli şərif idi, Bəni Haşimüŋ əşrəfinüŋ oğlı idi.

Yəhudi dedi:

– Adı nə idi?

Dedi:

– Hüseyn.

Dedi:

---

[837] *Ey Yezid, Allah əlini kəssin*.

[838] Əlyazmada: *kəsilsün*.

[839] Əlyazmada: *başınuŋ.*

– Atasınıŋ adı nə imiş?

Dedi:

– Əli.

Dedi:

– Anası adı nə idi?

Dedi:

– Fatimə.

Dedi:

– Fatimə kimüŋ qızı idi?

Dedi:

– Peyğambərimizüŋ Muhəmməd (s) qızı idi.

Yəhudi dedi:

– Bəs, bu başuŋ iyəsi Peyğambəriŋizüŋ nəvəsi ola.

Yezid dedi:

– Bəli.

Yəhudi öz başını təprədüb fəryad çəkdi və dedi:

– Vay siziŋ, əgər Peyğambərüŋiz bər-həqq ola, ey Yezid, mənüm ilən Davuduŋ arasında yetmiş arxa vasitədür və yəhudlar anuŋ içün mənüm izzətümi saxlarlar və Muhəmmədi-ərəbi dünə gün içiŋizdən çıxıbdur və bu gün anuŋ uşağlarına bəylə əməl eylərsiŋiz.

Nəzm:

Cəvabüŋiz nədürür daŋla çün sual qıla,
Muhəmmədi -ərəbi həşrdə bə-ruzi-cəza
Ki, Əhli-Beytüm ilən bu yaman əməl nə idi
Kim, ettiŋiz deŋiz, ey qəvmi-bihəyayi-dəğa.

[321b] Yezid bu sözdən qəzəbə varub dedi:

– Ey yəhudi, tək dur ki, əgər ol olmasa idi ki, Peyğambərümiz (s) buyurubdur ki, incitməŋiz zimmə əhli ki, hər kim anları incidür, anuŋ xəsmi mən olacağam Qiyamətdə, imdi buyururdum ki, başüŋi kəsər idilər.

Yəhudi dedi:

– Ey bəsirətsiz əbləh, bir kimsə ki, bir yəhudi içün sizüŋlən düşmənlik eylər, öz cigərguşəsi içün nələr eyləyəcəkdür? Vay sizə ol zə-

mandə ki, munuŋ cəddi sənüŋləŋ düşmənlik eyləyə və anası Fatimeyi-Zəhra Məhşərdə ətəgüŋə yapışa.

Yezidüŋ qəhri odı şö`lə urub cəlladı dilədi. Yəhudi qalxub İmam Hüseynüŋ başın götürüb dedi:

– Ya Əba Əbdullah, sənüŋ quluŋəm, varı köŋüldən müsəlman oldum: "*Əşhədu ən lailahəillah və əşhədu ənnə Muhəmmədən Rəsulullah və əşhədu ənnə Əliyyən vəliyullah*"[840]. Ey seyyid, daŋla cəddüŋ yanında mənim imanümə danuğ ol.

Yezid dedi:

– İmdi ki, səni öldürəcəgəm, müsəlman olursan.

Dedi:

– Ey Yezid, mən İmam Hüseyndən (ə) fazilrak dəgüləm kim, buyurduŋ kim, anı şəhid etdilər. Buyur kim, məni həm öldürsünlər kim, ümmidüm oldur kim, bəhökmi – "*əl-mər'u mə'ə mən əhəbbə*"[841] məni Kərbəla şəhidləri ilən həşr eyləsünlər.

Yezid buyurdı kim, ol yeŋi müsəlmanı şəhid qıldılar və bir kitabda dəxi gördüm ki, bu yəhudi Rumdən elçiliğə Qeysər yanından gəlmiş idi və Yezid içün çoq pişkeşlər gətürmiş idi və ol məclisdə **[322a]** hazir imiş ki, İmam Hüseynüŋ başını gətürdilər. Yürəgindən bir ah çəküb dedi:

– Ey Yezid, mən Peyğambər çağında bazərganlik içün Mədinəyə varmış idüm. İstərdüm ki, anuŋ içün bir pişkeş aparam. Bir səhabədən sordum ki, həzrət nə nəstə çox sevər. Dedilər: yəxşi iyiləri bəqayət sevər. Mən iki ipər nafəsi və bir parə ənbəri-əşhəb götürüb ol həzrətüŋ (ə) qulluğinə vardum. Və Peyğambər (ə) Ümmü Sələmənüŋ evində idi. Xidmətinə müşərrəf oldum və mübarək cəmalını müşahidə qıldum. Rüxsari nurindən bir aydınlığ maŋa gözükdi. Köŋlüm anuŋ məhəbbətinə giriftar oldı. Ol ətirləri öginə qoydum. Sordı:

– Bu, nə nəstədür?

Dedim:

---

[840] *Şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur, Məhəmməd O-nun elçisidir və Əli O-nun vəlisidir*. (Axırıncı üç söz farsca orijinalda yoxdur).

[841] *Hər kəs sevdiyi kəslə birlikdə olacaq*. (hədis)

– Bir əksük töhfədür ki, xidmətüŋə gətürmişəm.

Beyt:

Çəkürgə budi Süleymanə gər apardı qarınca,
Bə-hədiyyə eybdür, əmma qarıncanuŋ hünəridür.

Həzrət Peyğambər (ə) sordı kim, aduŋ nədür?

Dedim:

– Əbdüşşəms.

Dedi:

– Sənüŋ aduŋ Əbdülvəhhab olsun. Əgər müsəlman olursan, pişkeşüŋ qəbul eylərəm.

Mən yəxşicə aŋa baxdum. Gördüm ki, bu, ol peyğambərdür ki, həzrət İsa andan bizə xəbər verübdür.

Beyt:

İsa anuŋ içün ki, bizə verdi müjdəŋiz,
Ölüyi diri qıla bilürdi, gətürmə şəkk.

Filhal ol həzrətüŋ əlinə iman gətürdüm və Rumə qayıtdum və dinümi gizlərdüm. Və imdi neçə yıldur ki, beş oğlan ilən dörd qız rumlu içində oluram və Rum padşahınuŋ vəziriəm **[322b]** və kimsə mənüm halümdən vaqif dəgül. Və ol gün ki, Ümmü Sələmənüŋ evində həzrət Peyğambərüŋ (s) mülazimətində idim, bu əziz ki, başı imdi yüz xariliğ ilən yanüŋizdə görərəm, hücrənüŋ qapusından içəri girdi. Həzrət Rəsulullah (ə) qucağın açub aŋı qucağladı və dişini və dodağını öpüb dedi:

– Taŋrınuŋ rəhmətindən irağ olsun ol kimsə ki, səni nahəqq ilən öldürsün.

Bir gün daxi məsciddə Peyğambərüŋ qulluğində idim. Bu yigid böyük qərdaşı ilən gəldilər və dedilər:

– Ya cəddah, biz ikimiz bir-biri ilə gürəşdük[842], hic hanğımız düşmədük. İstərüz ki, biləüz ki, kimüŋ güci artuğdir.

[842] Əlyazmada: *gürüşdük.*

Buyurdı ki, ey cəddüŋ cananı, gürəşmək sizlərə hiç nisbəti yoxdur. Varuŋ hər biriŋiz bir sətr xətt yazıŋız. Hər hanğınuŋ ki, xətti yəxşiraq ola, ol güclüdür.

Anlar vardılar və hər birisi bir sətr xətt yazdılar və Peyğambərüŋ əlinə verdilər. Ol həzrət təəmmül eyləyüb dedi:

– Ey cəddüŋ gözləri nuri, ataŋız yanına varuŋ ki, ol xətti yəxşi tanur, ta söyləsün kimiŋ xətti yəxşiraqdur.

Anlar getdilər və mən həzrət Peyğambərüŋ qulluğindən çıxdum. Və mənüm ilən Səlmani-Farisi aramızda dustiliğ var idi. Andan sordum ki, nişün həzrət Risalətpənah (s) nəbirələrüŋ arasında hökm etmədi və demədi kimüŋ xətti yegrakdür. Səlman dedi:

Ol **[323a]** həzrət hər ikisini sevər və der:

– Əgər anuŋki derəm yəxşidür, bunuŋ xatiri qalur və əgər bunuŋki derəm, anuŋ köŋli pərişan olur. Andan ötrü atalarına rücu etdi.

Dedim:

– Ey Səlman, yarilik və qərdaşlığ həqqi içün ki, təhqiq et kim, ata anlaruŋ aralarında necə hökm etdi.

Səlman qəbul qıldı. Andan ötdüm, daŋlası ki, mülaqatımız vaqe oldı, dedim:

– Ey Səlman, dünə gün saŋa bir nəstə sifariş eyləmiş idim. Ol necə oldı?

Dedi:

– Ey qərdaş, anlar ikisi atası yanına varmış idilər. Əmirülmö'minin Əli (ə) daxi həm ol növ ki, həzrət Peyğambərüŋ xatirinə keçmiş idi, xatirinə keçdi, analarına göndərdi və dedi:

– Bətuli-Əzranuŋ yanına varuŋ və hər nəştə ki ol müqərrər eyləyə, qail oluŋ.

Həman ki Fatimə (ə.s) yanına vardılar və ərzinə yetürdilər ki, cəddimiz bizi atamıza həvalə eylədi və atamız sizə rucü eyləyübdür. İmdi kərəm eylə və xəttimizə yəxşicə bax və hökm eylə. Həzrət Fatimə öz-özinə fikr qıldı kim, büzürgvar cədd və ulu ata istəmədilər ki, hiç hanğısınuŋ xatiri qala. Mən necə edəyim? Pəs dedi:

– Mən xətt tanımanam, əmma gəlüŋ oturuŋ ki, məndə yedi incü var. İkiŋizüŋ başına saçaram. Hər kim artuğ götürsün, anuŋ xətti yəxşiraq və qüvvətdən artux ola.

Pəs inciləri başlarına saçdı. İmam Həsən üç incü buldı və İmam Hüseyn üç incü. Filhal **[323b]** həzrət Taŋrıdan Cəbraili-Əminə xitab gəldi ki, türkən yeriŋ üsnə var və qanatuŋ ilən ol bir incüyi iki böl, ta hər birisi yarısı götürsün və hic hanğısınuŋ köŋli qayğulu olmasun. Cəbrail Taŋrınuŋ buyruği ilən yerə endi və ol bir incüyi iki böldi, ta şahzadələr hər birisi üç gövhər və yarım buldılar. Ey Yezid, bu sözlərdən bəylə mə`lum olur ki, Mustəfa və Murtəza və Fatimeyi-Zəhra anlaruŋ köŋüllərinə qayğu rəva görməz idilər və Taŋrı daxi rəva görməz idi ki, birisi məlul olsun. Mən Rumda eşitmişəm ki, sənüŋ adəmlərüŋ bir qərdaşa ağu yedürtdürüb və əlmas şərbəti içürtdürübtürlər və yetmiş iki bağır vəsləsi andan ayrılmış. Və bir qərdaşınuŋ başı o teştə görərəm yetmiş iki baş ilən ki, nəzərüŋdədür. Vay saŋa və tabelərüŋə.

Nəzm:

Bəni Üməyyə, Rəsul Əhli-Beyti həzrətinə
Rəva dəğul ki, qılasız inadü cövrü cəfa.
Susiz boğazlarına tigi-zülmü kin çəkəsiz,
Qılıcla başlarını qılasız bə-zülm cüda.

Gün söz burayə yetdi, əhli-məclisdən qəriv qopdı. Yezid qorxub dedi:

– Ey Əbdüşşəms, mənüm dəvlətümi xərab eylərsən və rəiyyət üzümə çəkərsən. Əgər ol olmasaydı ki, Qeysərüŋ elçisisən, dərhal səni siyasət eylər idüm.

Əbdüşşəms dedi:

– Ey nainsaf həyasız, Qeysər elçisinüŋ hörmətiŋ saxlarsan və Taŋrı Rəsuliniŋ izzətini saxlamazsan.

Yezid yəsavullarına dedi ki, bu kişiyi məclisdən çıxaruŋ. **[324a]** Yəsavullar anı dışxaruyə apardılar.

Gün axirə yetmiş idi. Yezid dedi ki, ol xatunları gətürüŋ, ta anlar ilən söyləşim. Ümmü Külsüm və Zeynəb və İmam Zeynəlabidin

(ə) ilərü gəldilər. Zeynəbüŋ gözi İmam Hüseynüŋ (ə) başına yetdi. Fəryad çıxardı ki, "*va cəddah va Muhəmmədah*"[843]. Pəs Yezidə yüz urub dedi:

– Hiç bilürsən ki, neylərsən? Öz əvrətlərüŋ pərdələr ardında saxlayub, Muhəmmədüŋ qızlarını xəlayiq qarşusində pərdəsiz qoyarsən. Bilməzəm ki, daŋla bu əməlüŋ öhdəsindən necə çıxa bilürsən?

Yezid özinə titrəyüb dedi:

– Bu, kimdür?

Dedilər:

– İmam Hüseynüŋ qızqərdaşıdır – Fatimeyi-Zəhranuŋ qızı.

Nagah Ümmü Külsüm əyağə qalxub, İmam Hüseynüŋ başını götürüb, gözünə sürtüb, dodağı anuŋ dodağına qoyub ol qədr sordı kim, ussı getdi. Pəs baş çıxarub dedi:

– Ey Yezid, Taŋrıdan umərəm ki, bu dünyadə rahət görməyəsən, əylə ki bizi incitdüŋ.

Yezid dedi:

– Bu, uzundilli daxi həm İmam Hüseynüŋ qızqərdaşı ola?

Dedilər:

– Bəli, Ümmü Külsümdür.

Dedi:

– Ey Ümmü Külsüm, gördüŋ ki, Taŋrı siziŋ gümanıŋızı varı yalan eylədi və ol nəstə ki biz fikr eyləmiş idük, varı doğru oldı.

Ümmü Külsüm dedi:

– Taŋrı-təala münafiqlərə yalancı oxuyubdur ki, "*İnnəʾl-munafiqinə ləkazibun*"[844] və anlarə lə`nət eyləyüb əzabə və'də eyləmiş ki, "*Və yuəzzibəl munafiqinə vəl munafiqat*"[845]. Vəlhəmdulillah ki, Peyğambərüŋ Əhli-Beyti yalandan arıdurlar.

Yezid[846] **[324b]** aŋlardan yüzini döndərüb İmam Zeynəlabidinə yüz qoydı və sordı kim, bu oğlan nə oğlandur?

---

[843] *Vay cəddim, vay Məhəmməd!*

[844] *Sözsüz ki, münafiqlər yalançıdırlar.* (Quran, 63:1)

[845] *Münafiq kişilərlə münafiq qadınları əzaba uğratmaq üçün.* (Quran, 48:6)

[846] Əlyazmada bu söz səhvən iki dəfə yazılmışdır.

Dedilər:

– Əli ibnül-Hüseyn (ə).

Dedi:

– Mən eşitdüm kim, Əli ibnül-Hüseyni (ə) öldürdilər.

Dedilər:

– Anuŋ üç oğlı var idi: Əli Əkbər və Əli Əsgər şəhid düşdilər və bu, Əli Əvsətdür kim, Kərbələdə sayru idi. Anı dutub gətürdük.

Yezid dedi:

– Ya oğlan, sənüŋ ataŋ istər idi kim, minbərlər üstində anuŋ adı ilən xütbə oxusunlar və xilafət məsnədi anuŋ yeri ola. Taŋrıyə şükr ki, məqsudə yetmədi.

İmam Zeynəlabidin dedi:

– Ey Yezid, bu minbərlər sənüŋ ataŋ qoyupdur, ya bizim atalarımız? Xilafət bizim atalarımız yəxşi qıldılar ki, din yolında cihad eylədilər, ya sənüŋ atalaruŋ ki, Taŋrı dərgahində müşrik idilər. Əmma ikimizüŋ işi Qiyamətdə sorulur. "*Və səyə'ləmulləzinə zələmu əyyə munqəlibin yənqəlibun*".[847]

[*Nəzm*:]

Ol gün ki, həvldən cigəri-xəlq qan olur,
Sorğuci Taŋrı Xaliqi-hər insü can olur.
Dinüŋi çünki dünyayə satduŋ, əya Yezid,
Fikr eyləgil ki, halüŋi anda nə san olur?!

Yezid bu sözdən inciyüb, qəzəbi odı şö`lə urub bir sərhəngə dedi kim, munı mundan çıxarub dışxarudə boynın ur. Ol sərhəng kəsilmiş əli uzadub İmam Zeynəlabidinə yapışdı. Ümmü Külsüm qalxub, iki əlin aŋa urub dedi:

– Ey hind oğlınuŋ oğlı, bu tifldən əlüŋi qısat. Vallah qəsəm ki, hec kimsə qalmayubdur ki, Muhəmmədüŋ (s) **[325a]** qızınuŋ məhrəmi ola bu uşağdən özgə. Pəs bu beyti inşa qıldı.

[847] *O zalımlar necə alt-üst ediləcəklərini yaxın zamanda biləcəklər.* (Quran 26:227)

Beyt:
Ənadik ya cəddahu, ya xeyrun mursəl,
Huseynuk məqtulun və nəslikə zaye'.[848]

Gün Yezid bu beyti eşitdi, gəvdəsi titrəməgə düşdi və buyurdı kim, andan əl çəkdilər və çağırub öz oğlınuŋ yanına oturtdı və dedi:

– Ey Əli, mənüm oğlum yaş ilə saŋa yaxındur, anuŋlən güləşə bilürsən?

İmam Zeynəlabidin buyurdı kim, güləşməgüŋ işi səhldür. Hər birimizə bir bıçağ ver, ta qarşüŋdə səvaş edəlim. Hər kim qalib oldı, məğlubi öldirə və sən təfərrüc et.

Ravi der ki, bu halətdə əqşam nəqqarəsi çaldılar. Yezid oğlı dedi:

– Ey Hüseynüŋ oğlı, bu, mənüm atamuŋ növbətidür və nəqqarəyə növbət derlər. Sənüŋ ataŋ növbəti qanı?

İmam Zeynəlabidin dedi:

– Bir saət qatlan, ta sənüŋ cəvabını verəyim.

Bu halətdə nəqqarənüŋ üni tükəndi və bangçı əqşam bangı bünyad qıldı.

İmam Zeynəlabidin (ə) dedi:

– Bu, mənüm cəddüm ilən atamuŋ növbətidür ki, çalarlar. Sən bu beş günlik ataŋ növbətinə qürrə olma ki, bu fani dünyadə.

Misra:
Hər kimə beş gündür anuŋ növbəti.

Əmma dəvlət və kəramət növbəti və xütbənüŋ fəziləti bizim adımız ilən olacaqdur.

Beyt:
Adımız baqi durur, ta ruzigaruŋ dəvri var,
Hökmumiz cari durur, ta kainatuŋ dəvri var.

---

[848] *Ey babam, ey göndərilən peyğəmbərlərin ən xeyirlisi, sənə səslənirəm, Hüseynin öldürülmüş və nəslin tükənmişdir.*

Pəs, Yezid xamuş olub, məclis əhli şahzadənüŋ fəsahətindən heyran qaldılar. **[325b]** Və Yezid ilən Zeynəlabidinüŋ aralarında çox mübahisələr vaqe oldı. Əgər aŋları zikr eyləyəüz, kitab uzun olur. Əlqissə, söz bir yerə yetdi kim, İmam Zeynəlabidin dedi:

– Ey Yezid, Cəbrail bizim evimizdə nüzul etdi, ya sizüŋ eviŋizdə? Və təthir ayəti bizim şəʾnimizdə nazil oldı, yoxsə sizüŋ şə'niŋüzdə? Müvəddət zülqərbi bizim həqqimizdədür, ya siziŋ həqqiŋizdə?

Bəylə hüccətlər və kəramətlər söylər idi və dəlillər gətürür idi, ta Yezidüŋ gəvdəsinə titrətmə düşdi. Bu sözlərdən bir heybət və qorxu anuŋ canına düşüb dedi:

– Ya Əli bin Hüseyn, məndən bir dilək eylə kim, hacətüŋ qəbul edəyim.

Dedi:

– Atamı öldürən kişi mənüm əlümə ver, ta anu öldürəyim.

Yezid Kufə bəğləri çağırdı, anlardan sordı kim, İmam Hüseyni kim öldürdi?

Dedilər:

– Xəvli bin Yezid.

Buyurdı kim, anı hazir etdilər. Dedi kim, Hüseyni sən öldürdüŋ? Xəvli Bəşir bin Maliküŋ siyasət başına gələn görmiş idi.

Dedi:

– Haşa, mənüm Hüseyni öldürməgində nə işüm var?

Dedi:

– Pəs kim anı öldürdi?

Dedi:

– Sinan bin Ənəs.

Anı gətirdilər. Dedi:

– Sən Hüseyni öldürdüŋ?

Dedi:

– Yoq, İmam Hüseyni öldürənə ləʿnət gəlsün.

Yezid qəzəbə varub dedi:

– Bəs anı kim öldürdi?

Dedilər:

– Şimri-Zilcövşən.

[Adəm] göndərdi və Şimri gətürdülər.

Sordı:

– Hüseyni sən öldürdüŋ?

Dedi:

– Məazullah.

Dedi:

– Bu bəglər varı müttəfiq olub derlər sən öldürmişsən.

[326a] Dedi:

– Yalan söyləyübdürlər.

Yezidə qəhr və qəzəb müstövli olub dedi:

– Əlbəttə, demək gərəksən kim, anı kim öldürdi?

Şimr dedi:

– Gərcək deyim ki, Hüseyni kim öldürdi? Ol kimsə ki, ərəbüŋ oymağları cəm′ edüb, xəzanə qapusın açub, ləşkərə at və silah və aq-ca və yəraq verüb dedi: "Varuŋ və Hüseyn ilən səvaş eyliŋ".

Yezid bu sözdən münfəil olub dedi:

– Qalxuŋ ki, lə`nət sizə gəlsün.

Andan İmam Zeynəlabidinə dedi ki, bir hacət daxi dilə. İmam (ə) dedi:

– Atamuŋ mübarək başı şəhidlərüŋ başları ilən maŋa ver, ta aparayım və gəvdələrinə mülhəq edüb torpağə tapşurayım.

Dedi:

– Qəbuldur.

Dedi:

– Bir hacət daxi dilə.

Dedi:

– Məni Əhlül-Beytüm ilən icazət ver, ta Mədinəyə varalım və cəddi-büzürgvarum rövzəsi üstində oturub taət və ibadətə məşğul olalım.

Dedi:

– Bu murad daxi həm hasildür. Bir dilək daxi dilə.

Dedi:

– Daŋla cümə günidür, icazət ver, ta minbər üstünə varayım.

Yezid dedi:

– Bu dilək daxi həm qəbuldur. Daŋla qəvmüŋ xətibliğini saŋa verürəm.

Daŋlası Yezid ol və`dədən ki, İmam Zeynəlabidin ilən eyləmiş idi, xitabət eyləmək içün pəşiman oldı. Samludən bir xətib müqərrər eylədi ki, xütbə oxusun. Bəs car çağırdılar ki, qamu kimsə adinə məsciddə cəm′ olsunlar. Çün xəlayiq yığıldılar, Yezidüŋ hökmi ilən şamlu xətib minbər üstinə varub, dilini Əbu Süfyan alinüŋ ögməginə açdı və **[326b]** Əbu Talibüŋ alinə məzəmmət oxudı və çoq mübaliğələr edüb, İmam Hüseynüŋ (ə) də′visi batil olduği və yalan çıxduği nəuzübillah bəyan etdi və Yezidüŋ (əleyhillə`nə) də′visi həqq oldüği əyan qıldı. İmam Zeynəlabidin taqətsiz olub özini saxlaya bilməz idi. Avazə gəlüb dedi: "*Bi′səl xətibəl-qovm əntə*"[849], yə′ni yaman xətibsən bu qəvmə, zira ki Taŋrınuŋ rizası qoyub, xəlqüŋ rizası ixtiyar eləyübsən və dini fani dünyayə bədəl qılubsən.

Şe′r:

Çünki düşübsən peyyi-nəfsü həva,
Doğru dəgül yolüŋi qılduŋ xəta.
Yəxşilərüŋ həqqinə söz demədüŋ,
Qamu yamanlarğə qılursən dua.
Cümlədən artuqdurur ali-əba,
Bunlarə qıl mədhü səna, et səna.

Pəs Yezidə dedi:

– Bir və`də ki, eyləmiş idüŋ, vəfa qıl və ol əhd ki, eyləyübsən, əda qıl və rüxsət ver, ta mən minbərə varayım və bir xütbə əylə ki Taŋrınuŋ rizası və Peyğambərüŋ buyruği ola, oxuyayım. Bir kəlam ki, eşidənlər anuŋ mə`nisindən sərxoş olalar və axirət səvabınıŋ səbəbi ola.

Yezid dedi:

– Minbər üstinə varmağ hacət dəgül. Həm munda ki, durubsən, bir sözüŋ ki var, əda qıl.

---

[849] *Sən bu qövm üçün pis xətibsən.*

Diməşqüŋ eli fəğanə gəlüb, Şamuŋ böyükləri əyağə qalxub dərxast etdilər kim, istərüz ki, Hicaz əhlinüŋ ibarəti və fəsahəti eşidəlim və görəlim kim, anlaruŋ fəsahət **[327a]** və bəlağəti nə qayətdədür. Yezid dedi:

– Ey Şam əhli, bu oğlan Bəni Haşimdəndür və aŋlar qamu ərəblərdəndürlər. Olmaya kim, həman ki minbər üstinə çıxa, Əbu Süfyan alinə məlamət və fəzihət eyləyə və Bəni Ümeyyəyə lə`nət və nasəza oquya.

Şamuŋ əkabiri dedilər:

– Bu, yaş ilən kiçi bir oğlandur, nə nəstə deyəcək ola? Dilədügümiz oldur ki, öz cəddindən bizə bir söz söyləsün ki, andan bizə bir ögüt ola.

Yezid ol böyüklərüŋ iltimasını rədd eyləyə bilməz idi, icazət verdi. Bəs, şahzadə minbərə çıxub, bir xütbə Taŋrınuŋ həmdinə və Rəsullahıŋ nə'tinə əda qıldı əylə fəsihanə ki, ərəb fəsihlərinüŋ datlu dilləri anuŋ tə`rifin eyləməz idi. Və Taŋrınuŋ həmdindən soŋra bir moizə buyurdı ki, varı köŋüllər aŋuŋ tə`sirindən xoşhal oldılar. Andan dedi:

– Hər kim məni bilür, bilür və hər kim bilməz, gərək kim bilə: "*Əna ibnur-Rəsul əl-muxtar və əna ibnəl-Mustəfa seyyid əl-əxyar*"[850]– mənəm Me'rac iyəsinüŋ oğlu, mənəm Büraqə minənüŋ oğlı, mənəm peyğambərlər əfzəlinüŋ fərzəndi. Mənəm "*subhanəlləzi əsra*"[851] müsafirinüŋ oğlı, mənəm *"kanə qabə qovseyni əv ədna"* nuŋ[852] məhrəminüŋ oğlı. Mənəm xətibi-minbəri – *"fəəvha*"[853] və əndəlibi-gülşəni-"*əlləməhu-şədidul-quva*"[854]nuŋ oğlı, mənəm Yəsrib və Bətha xacəsinüŋ oğlı, mənəm sahibi-məsnədi-ictiba və istifanuŋ oğlı, mənəm həbibi-həzrət Allahuŋ oğlı, yə'ni Muhəmməd Mustəfa **[327b]** (əleyhissəlavat vəssəlam). Mənəm şəhsüvari – "*mizmari-"hələta*"[855] və şəhriyari-təxtgahi – "*la fəta*"[856]nuŋ oğlı. Mənəm vəliyyi vəsi babuhanuŋ [oğlı], mənəm

---

[850] *Mən Allahın elçisinin oğluyam, mən seçilmişlərin ağası Mustəfanın oğluyam.*

[851] *Pak və müqəddəs olan [Allah] apardı.* (Quran,17:1)

[852] *Iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu*. (Quran, 53: 9)

[853] *Vəhy etdi.* (Quran, 53:10)

[854] *Ona bu vəhyi son dərəcə qüvvətli mələk* [Cəbrayıl] öyrətdi (Quran,53:5)

[855] *"Hələta" meydanı*

[856] *Onun kimi igid yoxdur.*

miftahi-xəzaneyi – "*Əna mədinətul-elmu və Əliyyun babuha*"[857]nuŋ oğlı, mənəm sahibi-mənasibi – "*məzhərul-əcayib və məzhərul-ğəraib*"[858], yə'ni Əli bin Əbi Talib oğlı.

Hər qaçan ki "*ənə İbn Rəsulullah*"[859] der idi, xəlqdən qəriv və qovğa qopar idi. Daxi dedi:

– Mənəm "*seyyidətin-nisai fil-aləmin*"ün[860] qızınuŋ oğlı, mənəm dürci –" *Fatiməti buz`ətu min*"[861]iŋ gövhəri və bürci – "*mən əzaha fəqəd əzani*"[862]niŋ əxtəri, mənəm sadatuŋ böyügi və Ərəsatuŋ şəfii, yə'ni Bətuli-Əzranuŋ oğlı, mənəm sibti-Rəsuli-Xuda və qürrətül-eyni – Bətuli-Zəhra imami-mümtəhən, yə'ni əmirül-mö'minin Həsənüŋ qərdaşınuŋ oğlı. Mənəm şəhidi-məzlum və qəribi-məğmum Mustəfanuŋ gözi nuri və Murtəzanuŋ köksi sərvəri və Fatimeyi-Zəhranuŋ gəvdəsi parəsi və Kərbəla meydanınıŋ mübtəlası əmirül-mö'minin Hüseyni-Şəhidi-Kərbəlanuŋ oğlı.

Bu məcaldə fəğan və xüruş qopdı və qəvmüŋ ağladüğindən Diməşq şəhrinə qülqülə düşdi. Yezid qorxdı və amm qovğasından özinə titrədi. Bangçıyə işarət eylədi kim, nəmaz bangı versün. Məqsudi ol kim, İmam Zeynəlabidinə söz qapusı bağlasun. Bangçı əyağə qalxub dedi:

– "*Allahu əkbər, Allahu əkbər*"[863].

İmam dedi:

– "*Nə'əm, la-şey'un əkbəru minhi*"[864].

Bangçı dedi:

– "*Əşhədu ən lailahəilləllah*"[865].

İmam dedi:

---

[857] *Mən elmin şəhəriyəm və Əli qapısıdır.* (hədis)

[858] *Möcüzəli sifətli məqam sahibi [həzrət Əli].*

[859] *Mən Allahın elçisinin oğluyam.*

[860] *Hər iki dünya xanımlarının ağası [həzrət Fatimə].*

[861] *Fatimə mənim bir parçamdır.* (hədis)

[862] *Hər kəs onu incitsə, məni incitmişdir.* (hədis)

[863] *Allah böyükdür.*

[864] Bəli, *heç nə O-ndan böyük deyil.*

[865] *Şəhadət edirəm ki, Allahdan başqa məbud (ibadət edilən) yoxdur.*

– *"Nə'əm əşhədu biha ləhmi və sə'ri və dəmmi. Əşhədu ənnə Muhəmmədən Rəsulullah"*[866].

İmam Zeynəlabidin başından əmmameyi **[328a]** götürüb bangçı yanına saldı və mişkin saçlarını pərişan edüb dedi:

– Ey bangçı, bu Muhəmmədüŋ həqqi üçün ki, bir saət qatlan.

Müəzzin xamuş oldı. Şahzadə yüzini Yezidə qoyub dedi:

– Ey Müaviyənüŋ oğlı, bu Rəsulullah ki, derlər, sənüŋ cəddüŋ idi, ya mənüm cəddüm. Əgər dersəŋ, mənüm cəddüm idi, yalan dersən və qamu bilürlər ki, yalan dediŋ və əgər desəŋ mənüm cəddümdür ki, Əli bin əl-Hüseynəm. Bəs, nə nəstə səni aldadı ki, mənüm atam ki, itrəti-tahirənüŋ behtəri və yegi idi, buyurduŋ kim, şəhid eylədilər və Əhli-Beytüŋ müxəddəratı ulcalar kimi şəhrə-şəhrə gəzdürdilər və məni əsir etdüŋ və cəddüm dinini dəldüŋ və bavücud bu dəlil "*Muhəmmədən Rəsulullah*" kəlməsi dersən və qibləyə yüz qoyarsən.

Pəs əl urub yəqəsin çak edüb dedi:

– Ey hazirlər, hiç kimsə sizdən var ola ki, anuŋ cəddi peyğambər ola?

Özgə adəmlərdən fəryad qopub, Diməşqiŋ əhli ağlamağə düşdilər və neçələrinüŋ ussı getdi və məsciddə bir qiyamət qopdı ki, şərhin etmək olmaz.

Yezid əyağə qalxub bangçıya bang urdı kim, qamət söylə. Bəs, qaməti deyüb nəmaz qıldılar və xəlayiq qülqüləyə gəlüb, əvam içində bir fitnə və dəmdəmə düşdi. Yezid bir tədbir etdi ki, xəlayiqi islahə gətürdi və ağır divan eyləyüb, Şamuŋ əkabiri çağırub dedi kim, Şimri Kufə bəgləri ilən hazir etsünlər. Varı gəldilər, qatı sözlər deyüb anlarə çox nifrinlər etdi və dedi:

– Mən razi idim ki, Hüseyn maŋa **[328b]** itaət eyləsün. Əgər anı diri gətürmiş olaydıŋız, mən aŋuŋ xidmətini can ilən eylər idüm. Mərcanənüŋ oğlına lə`nət gəlsün bu işə ki, eylədi və məni İraq ilən Şamdə bədnam qıldı.

---

[866] *Bəli, ətimlə və qanımla O-na şəhadət edirəm. Şəhadət edirəm ki, Muhəmməd Allahın elçisidir.*

Və təvarixlərdə var ki, Yezid bu sözləri anuŋ içün söylərdi kim, xəlayiq aŋa nifrin qılur idilər və lə`nət həvalə eylər idilər. Əlhəqq, yeri ol idi kim, ol müdbir bədbəxtlərə yüz miŋ nasəza və nifrin oxuyalar ki, bu iş yaman iş və bu əməl bitəqərrüb kirdar idi.

Şe`r:

Əbəs dəgül ki, kəsələr başini ol kimsə
Ki, təprədürdi anuŋ beşigini Ruhi-Əmin.
Hüseyn ibn Əli şahbazi-hər du cəhan
Kanuŋ[867] *kibi yox idi dər-təmami-ruyi-zəmin.*
Şəhid oldüği çağ zərrələrdən ün gəldi
Ki, Taŋrı lənəti bər Şimrü tabein, amin.

"Kənzül-ğəraib" kitabında yazıludur ki, Yezid öz xass köşkiniŋ içində Əhlül-Beyti oturtdı və İmam Hüseynüŋ bir qızı var idi dörd yaşlu və İmam Hüseyn (ə) anı çox sevər idi və ta atası şəhid olmış idi, daim sorar idi ki, mənüm atam xandadur? Der idilər ki, bir yerə gedübdür. Və anı bu söz ilən təsəlli edər idilər. Bu çağ ki Yezidüŋ köşkində idilər, bir gecə bu qız düşdə gördi ki, atası anı qucağlayubdur. Şadiliğdən oyanub atası görmədi. Şövqi və görəsi artub fəğan çıxardı. Vaqiənüŋ halından sordılar, dedi: "İmdicə düşdə atamı gördüm ki, məni dizi üstinə oturtmış idi. Həman ki gözüm açdum, anı görməzəm. Maŋa deŋiz kim, atam handadur **[329a]** ki, mənüm taqətüm mundan artuq qalmayubdur".

Hər nə qədr kim aŋa təskin və təsəlli verür idilər, cəvab verür idi.

Beyt:

Zərrəcə qalmadı taqət atamnuŋ hicranidən
Aciz oldum, Həqq bilür bu dərdnüŋ dərmanidən.

Ya atamı mənüm yanümə gətürüŋ, ya məni aŋa yetürdüŋ.

Çün müxəddərati-Əhli-Beyt bu sözi eşitdilər, bir uğurda canlarından fəryad çıxub xüruşə gəldilər. Yezid aŋlaruŋ qovğasından uyxudan oyanub adəm göndərdi, ta xəbər ala ki, Əhli-Beytə nə vaqe

[867] Ki anuŋ.

olupdur. Aŋlar vaqiə surəti şərh etdilər. Yezidə xəbər yetdi kim, İmam Hüseynüŋ (ə) qızı düşdə öz atasını görübdür. Anuŋ icün taqətsiz olub ağlar. Yezid dedi ki, İmam Hüseynüŋ başı (ə) aparuŋ və aŋa görsədüŋ, ola kim təsəlli bula. Və Yezid ol əziz başı öz xass evinə saxlamış idi. Yezidüŋ xassələri ol başı gümiş təbəqinə qoyub sərpuşlu Əhli-Beyt yanına apardılar və dedilər ki, Yezid der ki, atasınıŋ başını aŋa görsədüŋ ki, təsəlli hasil olur. Əmma çün ol təbəqi qızuŋ öginə qoydılar, sordı kim, bu, nə nəstədür?

Dedilər:

– Ol nəstə ki, sən istərsən.

Həman ki təbəqdən sərpuşi götürdilər, bir baş gördi ol təbəqdədür. Və yəxşicə baxdı, atasınuŋ başını gördi, izzət ilən götürdi, köksindən bir ah çəküb, yüzini aŋuŋ yüzinə və dodağı anuŋ dodağına qoyub filhal can tapşurdı. Əhli-Beyt **[329b]** çün munı gördilər, yeŋidən İmam Hüseynüŋ yası tazə olub şəhidlərüŋ əzası yeŋi oldı.

Nəzm:

Bu, nə qovğadur ki, salduŋ bu cəhanə, ey əcəl,
Xanidanə yeŋidən bir yas salduŋ, ey dəğəl.
Qayğunuŋ dəryasidən bir əbr qopdurduŋ nişə?
Həsrətüŋ bərqi cəhan yandurdi daxi bu məhəl.
İnsü cinnüŋ ruzigarını qəra qılduŋ nişə.
Bizdən apardıŋ əzizi kim, anuŋ yoxdur bədəl.

Yezid çün bu xəbəri eşitdi, anlarə yas verdi. Andan Ümmü Külsüm rüxsət dilədi ki, köşkdən dışxarı varub bir yurtda qona və Əhli-Beyt şəhidlərinüŋ yasını şərtincə duta. İcazət alub bir mənzilə ki, Əhli-Beyt tə`ziyəti içün müqərrər olmışdı, təşrif ərzani qıldı.

Şamuŋ əkabirünüŋ xatınları yasə hazir oldılar və ol bir mərsiyə ki Əhli-Beytüŋ şəhidləri içün demiş idi, oquyub ərəb xatunları gözlərdən arxlar axıtdılar[868] və Əhli-Beytüŋ zariliğinə zariliğ edər idilər və bu beyt Ümmü Külsümüŋ qəsidəsindəndür :

[868] Əlyazmada: *axdılar.*

Matət ricali vafniyad-dəhru sadati,
Və zadəni həsrətən min bə'd ləv'ati[869].

Beyt:
Fəryad ki qalmişüz cəhandə əfgar,
Əhbab varı getdivü biz qaldük zar.
Yürəkləri qəmlü vardılar, canını zar,
Biz nalə çəküb cəhandə qaldük biyar.

Əhli-Beyt rəvayət eyləyübdürlər ki, Yezid bizim içün səfər yəraqin eyləyüb, donlar gətürüb varımıza geydürdi və yol azuqin şərtincə mühəyya eyləyüb, Nü`man Bəşiri otuz yigit ilən **[330a]** Əhli-Beytüŋ qulluğinə müqərrər eyləyüb Mədinəyə rəvan eylədi. Çox mübaliğələr qıldı ki, yolda xidmətdə hiç təqsirlik etməsünlər. Və İmam Zeynəlabidin atasınıŋ başı şəhidlər başı ilən Kərbəlayə yetürüb, səfər ayınuŋ igirmisində gəvdələrinə ulaşdurub Həqqə vasil oldılar. Və Mədinə yolında Nü'man bin Bəşir Əhli-Beytüŋ qulluğində hiç təqsirlik etmədi və can ilən xidmətində durub bir dəqiqə tə`zimdən təğafül qılmadı. Və qonmək və köçmək özlərinüŋ ixtiyari ilən idi. Hər yerdə ki xatirləri nüzul etmək keçər idi, qonər idilər və hər qaçan ki köçmək istər idilər, ixtiyar əllərində idi. Və köçəndə və qonanda Nü`man bin Bəşir adəmləri ilən irağə varur idilər, ta anlarə hicab olmasun və bir təriq anlar ilən ədəb saxladı ki, çün Əhli-Beyt Mədinəyə yetdilər, Ümmü Külsüm qızqərdaşına – Zeynəb dedi:

– Nü'man bu yolda çoq əmək bizə eylədi və bizdə hiç nəstə yoxdur ki, aŋa verəüz.

Zeynəb dedi:

– Doğru dediŋ, bizdə nəstə yoxdur.

Və dişilərüŋ yəraqindən özgə hülyələr çıxarub aŋa göndərdilər və üzrxahlıq eyləyüb dedilər:

---

[869] *Kişilərimiz öldürüldü və fələk böyüklərimizi kamına aldı,*
Həsrət və qəm-qüssə davamlı olaraq bizim üçün çoxaldı.

– Bu, sənün xidmətün əvəzi olmaz dünyadə, əmma inşaallah axirətdə qulluğuŋ cəzası edəcəgüz.

Nü′man mütləqa hiç nəstə qəbul etmədi və qamusı geri göndərdi və peyğam verdi ki, əgərçi yoldaşlik Yezid hökmi ilən idi, əmma sizün riayətiŋiz dünyalik xatiri içün dəgül idi, bəlkə aŋuŋ içün idi ki, büzürgvar cəddüŋ[870] bizdən **[330b]** xoşnud olsun. Əlhəmdüllah ki, mənüm xidmətüm nəbiniŋ Əhli-Beyti yanında qəbul oldı və mən bu ne`mətüŋ şükrini yerinə yetürəyim və bu ən`am ki mənüm adümə namzəd oldı, üzrini necə əda qılayım.

Beyt:
Lilləhilhəmd ki, bəxtüŋ mədədilən in dəm
Bəylə şayistə məçələrlə olupmən xürrəm.

Əhli-Beyt aŋa dualar qıldılar, bəs, Nü′man qayıtdı.

Əmma ravi der ki, çün mədinəlü eşitdilər ki, Əhli-Beyt gəlürlər, fəğan ilə vaveylah anlardan çıxub, mühacir və ənsaruŋ əvladı böyük ilən kiçi, hətta dişilər uşağları ilən nalə və zarilik düşüb, iztirab və sugvarilik ilən qarşuyə çıxdılar və çün İmam Zeynəlabidini (ə) və İmam Hüseynüŋ (ə) qızqərdaşları gördilər, toprağə düşüb öz başlarına küllər ilə saman tökdilər və ağlar ikən bu kəlamı Əhli-Beyti-giraminüŋ qulağlarına yetürür idilər.

Şe`r:
Aləmüŋ könli bu matəmdə pərişandur bəsi,
Xatirüŋ evi bu ənduh ilə virandur bəsi.
Anda yüz mihnətlə toprağ içrə nihandur bəsi.
Gözlərimiz yüzitək qan içrə qərq çün olub,
Canümiz saçları kib zarü pərişandur bəsi.

"Ruhül-riyahi"də[871] gətürübdürlər ki, beş qatla Mədinədə qovğa ilə fitnə qopdı kim, mədinəlü gümanladılar ki, məgər Qiyamət qopdı. Əvvəlki ol gün ki, həzrət Muhəmməd (ə) Ühüd səvaşında idi

[870] Əlyazmada: *cəddüŋi.*

[871] Farsca orijinalda: "*Zümrətül-riyaz*"; "Hədiqətüs-süəda"da: *"Nüzhətül-ərvah"*.

və şeytan ün çıxarur idi ki, "*Əla innə Muhəmmədən qəd qutilə*"[872]. Ər və əvrətdən xüruş ilə əfğan **[331a]** çıxdı, əylə ki müxəddərati-Əhli-Beyt və Bəni Haşimün qızları Bətuli-Əzra ilən ixtiyarsız Ühüd tərəfinə rəvan oldılar və mundan bir şəmməcük kitabuŋ əvvəlində deyilmiş. İkincisi ol gün ki, həzrət Peyğambər (ə) bu fani dünyadən riyazi-baqiyə rəvan oldı, mədinəlülərdən bir kimsə qalmadı, illa ki qəm ilə qayğudə idilər. Üçünci ol gün ki, həzrət əmirül-mö'minin Əliyyi-Murtəzanuŋ şəhadət xəbərini Kufədən yetürdilər, fəğanə düşdilər, sanayduŋ kim, Mustəfanuŋ matəmi tazə oldı. Dördünci ol gün ki, İmam Hüseyn Məkkədən Mədinəyə çıxub Kufəyə varur idi və qızqərdaşları ilən qərdaşları biləsincə aparur idi və mədinəlüləri vida eylər idi. Beşinci bu vəqt idi ki, Əhli-Beyt Şamdən Mədinəyə yetdilər və Mədinənüŋ əhli qarşuyə varub yas verdilər.

Əmma Əhli-Beyt Mədinəyə yetincə yoldan Muhəmməd Mustəfanuŋ (s) rövzəsi üstinə vardılar və dəlük-dəlük bağırlarından suzlu ahlar çəkdilər ki, "*Va cəddah, va Muhəmmədah va seyyidah va sənədah*"[873] sənüŋ xanidanuŋ yetimləri və qəriblәriüz və uşağlaruŋ suz ilə ağlamağuŋ qayğusindəüz və hicran badiyəsinüŋ mihnətçəkicilәriüz və vəfasız kufilərüŋ əyağı altında qalmışlariüz. Şamilərüŋ həyasizlik sitəm xəncərinüŋ incinmişiüz və Fərat suyinüŋ təşnə dodağlariüz. Fərzəndi-dilbəndiŋnüŋ səlamını sizə gətürübüz və bədnəfəslərüŋ şərrindən ərşi-müəlla kibi rövzəŋa pənah gətürübüz.

Şe`r:

[331b] *Rövzədən başuŋ götürgil, ya Rəsulullah, bu gün ,*
Əhli-Beytüŋa baxəgör zarü giryanü qəmin.
Dini-həqq düşmənlər əlində giriftarü nəzar,
Olmasun kimsə cəhandə bəylə qəmginü həzin.

Əhli-Beyt munda nalan və qərivan, nagah Ümmü Sələmə hücreyi-tahirəsindən çıxub ağlamağə düşdi və zarilik eylər idi. Ol şişə ki, Kərbəlanuŋ toprağı anuŋ içində idi, biləsincə idi. Əhli-Beyt anı gö-

[872] *Bilin ki, Muhəmməd ölmüşdür.*

[873] *Vay babam, vay Muhəmməd, vay ağam, vay hüccət.*

rüb, dərdləri artub, qayğular yedilər. İmam Hüseynüŋ qızlarını çox-çox sorub, qızqərdaşlarını qucağlayub çox ağlaşdılar və bu qatlakı yas ki ol mübarək rövzənüŋ üstində vaqe oldı, təqrir ilə təhrirdən artuğdur. Mədinənüŋ böyügi ilən kiçisi bu matəmdə şərik idilər və xass ilə amm bu müsibətdə qayğulu və qəmgin.

Beyt:

Adəmdən bərlü kimsə bəylə matəm
Nə görmişdür, nə eşitmiş bə-aləm.

Ümmü Sələmə Əhli-Beytə təsəlli verür idi və hər kimsə ki, İmam Hüseynüŋ qayğusindən ağlar idi, axirətüŋ səvabinə və'də edər idi. Əylə ki mundan ilərü deyildi ki, hər kim İmam Hüseyn içün ağlar, ya kimsəni ağladur, əlbəttə, cənnətə girər.

"Üyunür-Riza" kitabında yazıludur ki, Di'bil[874] Xüzainüŋ oğlı rəvayət eylər ki, atamuŋ ölən çağı dili bağlandı və yüzi qəra oldı. Mən bu vaqiədən qorxdum və bu surəti xəlqdən gizlər idim və dedim ki, anı gizlü yuyub toprağə tapşurdılar. Andan ötrü çox qayğulu idim. Gecə anı düşümdə gördüm, appağ yüzi, ağ don geymiş.

Dedim:

– Ey ata, Allah sübhanə və təala saŋa netdi?

Dedi:

– Məni bağışladı.

[332a] Dedim:

– Ölən çağı əcəb əlamətlər səndə gördüm.

Dedi:

– Bəli, yüzümnüŋ qəralığı və dilimnüŋ dutuldüği andan idi ki, gah-gah çağır içürdüm. Həman ki öldüm və məni qəbrə tapşurdılar, yüzüm həman bəylə qəra idi və dilüm lal. Həzrət Rəsulullah (ə) gəldi və dedi:

– Di'bil, sənsən.

Dedim:

– Bəli, ya Rəsulullah.

[874] Farsca orijinalda: *Di`bil*. Əslində də bu cür olmalıdır.Əlyazmada: *Də'il*.

Dedi:

– Oxuy bir qəsidə ki, Kərbəla şəhidlərinüŋ həqqinə demişdüŋ.

Dedim.

Ərəbiyyə:

La əzhəkəllahu sinnəd-dəhri in zəhikət,
Və ali Muhəmmədin məzlumunə qəd quhiru[875].

Mən beytlər oxudum və həzrət Peyğambər (ə) ağlar idi. Çün qəsideyi təmam oxudum, buyurdı kim, yəxşi demişsən. Pəs, mənüm içün şəfaət eyləyüb, suçlarümi bağışladılar və bu don həzrət Mustəfanuŋ xəl`ətidür ki, əgnimdədür. Və bu xəbərdən mə`lum olur ki, İmami-məzlum içün ağlamağ əcri-cəzilüŋ səbəbi və cəzayi-cəmilüŋ cəhətidür.

Nəzm:

Hər kim bu gün Hüseyn içün ağlatsə gözləri,
Məhşər günində gözləri aydın olur anuŋ.
Yad eyləŋiz şəhidlərüŋ təşnə ləbləri,
Yaş gövhərini dideyi-xunbardən töküŋ.

***

Fəsl: İmam Hüseynüŋ (ə) öldürənlərinüŋ üqubatində

Mundan ilərü bir hədis şahzadəni öldürənlərinüŋ üqubatı və əzabı həqqində nəql eyləmiş idük. Həzrət İmam Əliyyi Musa Rizanuŋ (ə) "Səhifə"sində rəvayətdür ki, İmam Hüseynüŋ (ə) qatili bir tabutdadur oddan, əli-əyağı odlu zəncir ilən bağlu və üqubətlər **[332b]** ilən əzabı həddən artuğ. Və "Səhifeyi-şərif"də İmam Rizanuŋ (ə) qəvlindən yazıludur ki, həzrət Risalət (ə) buyurdı ki, Musa bin İmran qərdaşı Harun (ə) öləndən soŋra duayə əl götürüb dedi:

[875] *Allah eləməsin ki, dünyanın dodağında gülüş görünsün,*
Çünki Muhəmmədin övladları məzlum olmuş və didərgin düşmüşlər.

– Ya Rəbb, qərdaşum Harun ki, mövt şərbətin içdi və fəna zindanindən həyat rəxtini bəqa bustaninə çəkdi, anı bağışla. Həqq sübhanə və təala aŋa vəhy göndərdi ki, əgər məndən əvvəlin və axirin xəlqinüŋ suçlarını istərsən, bağışlaram, illa İmam Hüseynüŋ (ə) öldürənlərini ki, mən özüm anlardan intiqam çəkəçəgəm.

Beyt:
Hər kim ol həzrətüŋ qanın tökdi,
Əylə düşdi ki, qamətin bükdi.

"Kənzül-ğəraib" kitabında yazıludur kim, yılanlaruŋ böyügi və yoğuni bir yılandur damudə ki, anuŋ adı Şədiddür. Hər gün yetmiş qatla özinə titrər və andan ağular tökülür. Həqq sübhanə və təala buyurur kim, ey Şədid, nə istərsən? Der: İmam əleyhissəlamuŋ öldürənlərin maŋa həvalə eylə, ta üqubətin eylim və bu ağuları qamu aŋa tökim. Taŋrı-təala buyurur kim, qatlan ki, aŋlaruŋ üqubati saŋa həvalə olacaqdur və qamusı dişləyəcəksən və axirətdə yaman mihnətlər və üqubətlər çəkəcəkdürlər. Bu xud axirətüŋ üqubatidür və daimül-əbəd baqi qalacaqdur və dünyadə varı kufilu və şamilər ol mə`rəkədə hazir imişlər səvaş **[333a]** edicilərdən və irağda durub təfərrüc edənlər və hər kim İmam Hüseynüŋ şəhadəti içün sadiliğ eyləmiş ola və hər biri bir böyük bəlayə mübtəla olubdurlar.

Hekayət. "Kənzül-ğəraib"də Əsədidən (r) nəqldür kim, dedi: Xəvariclərdən bir kişi yanımızda idi və biz İmam Hüseynüŋ (ə) şəhadətindən söz deyərdük. Məclis əhlindən birisi dedi:

– Hiç kimsə İmam Hüseynüŋ (ə) qətlindən xürrəm qalmadı, illa kim aŋa yaman zəhmət və məşəqqət dəgmədi və ol mərəz ilən öldi.

Ol xarici dedi:

– Bu, yalandur, zira kim mən anuŋ şəhidliğinə xürrəm oldum və maŋa hiç zəhmət dəgmədi.

Həzə məclisdə hazir idi ki, çırağdan bir şö`lə anuŋ səqqalına düşüb, yanmağ bünyad etdi və ol məl'un qalxub, suyə yügürüb özini bir arxa saldı. Hiç bab ilən od andan bərtərəf olmadı və su içində et

ilən sümügi yanar idi və su içində yandı və *"uğriqu fəadxilu narən"*[876] sirri burada ulul-əbsar gözində zühurə gəldi.

Beyt:

Ey xəvaric, çünki şad olduŋ Hüseynüŋ qətlinə,
Od ilən sunuŋ içində, bigüman, yanmək gərək.

Əmma Həsən Bəsri nəql eylər ki, bir kişi yanımıza gəlür idi ki, maŋa şər'i məsələləri ögrət və anuŋ söhbətindən bizə çox nifrət və əzim zicrət var idi, andan ötrü ki, söz deyəndə ağzından yaman iyi gəlür idi, ol qədr ki, hiç burnuŋ taqəti yox idi anı eşitməgə və biz utanurdük kim, ol yaman iyiniŋ səbəbi andan sorəüz. **[333b]** Axir bir gün andan sual eylədük. İŋən münfəil olub dedi:

– Mən öz halümdən sizə xəbər verəyim, əmma məni rüsva eyləməyəsiz. Mə`lum ediŋiz ki, mən ol ləşkər ilə bilə idim ki, Fərat suyiniŋ qırağında idilər ki, qoymaz idilər ki, İmam Hüseynüŋ ləşkəri su andan götürələr və hər kim gəlür idi, anı mən` eylər idük. Kərbəla vaqiəsindən soŋra bir gecə uyxuda gördüm ki, Qiyamət qopupdur və maŋa qatı susizlik vaqe olubdur. Nagah gördüm ki, Mustəfa və Murtəza və Fatimeyi-Zəhra və İmam Həsən və İmam Hüseyn (əleyhumussələvat vəs-səlam) və neçə səhabələr ilən həvzi-Kövsər qırağında oturubdurlar və bir neçə əshab əyağə durubdurlar və qalın səqqalar xəlqə su verür idilər. Mən həzrət Mustəfa səlləllahu əleyhi və səlləmnüŋ yanına varub, su istədüm. Həzrət buyurdı kim, muŋa su verüŋ. Hiç kimsə maŋa mültəfit olmayıb su vermədi, ta üç qatla mən şəfaət ilən su dilədüm, kimsə fəryadümə yetmədi və susizligümnüŋ odına bir su səpmədi. Dördünci kəz fəryad çıxardum, həzrət Risalətpənah buyurdı:

– Nişün muŋa su verməzsiz.

Dedilər:

– Ya Rəsulullah, bu kişi ol taifədəndür ki, İmam Hüseyni Əhli-Beyti ilən Fərat suyi içməgindən mən` eyləyübdür.

Həzrət Peyğambər (ə) buyurdı:

"İsqu qitranən"[877], yə'ni muŋa qətrandan içürüŋ.

---

[876] *Tufanda boğuldular, oda atdırıldılar.* (Quran,71:25)

Çün ol camlardən qətrandən içdüm, utandum və oyandum. Andan bərlü ağzum qoxar oldı və hər nəstə ki yeyərəm, qətran olur.

Həsən Bəsri **[334a]** çün bu söz eşitdi, dedi:

– Sən daxi bizim yanımıza gəlmə və xatirimizə dəgmə.

Və ol kişi az zəmandən soŋra yüz miŋ xariliğ ilən öldi.

Beyt:

Sənüŋ düşmənlərüŋə Taŋrı versün
Bir ağır ağrı kim, olmaya dərman.

Əbül-Məfaxir der: Kəbənüŋ təvafində bir kişi gördüm ki, yüzinə bir niqab asılmış idi və der idi:

– Ya Rəbb, məni bağışla və bilürəm ki, bağışlamazsən.

Hərəmüŋ sadatı və əşrafı dedilər:

– Ey kişi, Taŋrınuŋ rəhmətindən ümmidsiz olmaq küfrdür və nə qədr kim günahuŋ çox isə və xəyanətüŋ ağır olsa, çün Allah sübhanə və təala dərgahinə rücu eylədüŋ və zarilik ilən nüsuh tövbəsinüŋ qapusı açduŋ, bağışlamaq ümmidi var.

Beyt:

Əgərçi həddən ötdisə günahum,
Saŋa ümmidvarəm padişahum.

– Sən nişün naümmidlik izhar edərsən?

Ol kişi dedi:

– Gəlüŋiz və mənüm xəbərümi soruŋız, ta biləsiz ki, mənüm naümmidligüm nədəndür.

Dedilər:

– Söylə.

Dedi:

– Mən ol ləşkər ilən bilə idüm ki, İmam Hüseyn ilən (ə) səvaşdılar. Anuŋ şəhadətindən soŋra ol kişilər ilə ki, İmam Hüseynüŋ başını Şamə aparur idilər, yoldaş idüm. Və biz əlli yigit idük ki, ol başları saxlar idük. Ol qərayürəklülər hər yerdə kim, qonar idilər, İmam Hü-

---

[877] *Buna qətran içirin.*

seynüŋ başını ortaya qoyub, çevrəsində həlqə urub çağır içərdilər və mən irağdan anlarə baxər idim. Bir gecə həm ol adət ilən **[334b]** çağırdan sərxoş olub yatdılar. Və gah-gah anlaruŋ aqibətlərinə fikr eyləyüb ağlar idim. Bu halətdə bir ah ilən nalə və zarilik eşitdim və kimsəni görməz idim. Nagah nəzərümə bəylə gəldi ki, gögüŋ qapuları açdılar və bəaynül-yəqin gördüm ki, nurdan bir çadır gögdən endi və İmam Hüseynüŋ başı qarşusində həvadə durdı və üç tən ruhani yüzlülər və nurani qanatlar ilən endilər və İmam Hüseynüŋ (ə) başını ziyarət etdilər. Bir kişi gördüm yaşıl donlu, ağ əmmaməlü mənüm başum üstinə durdı. Sordum:

– Bunlar kimlərdürlər?

Dedi:

– Taŋrı-təalanuŋ müqərrəb mələkləri: biri Cəbrail, daxi Mikail, üçünci İsrafil. Nagah Cəbrail çadıruŋ altına girüb dedi:

"*Ənzəl, ya Səfiyullah*"[878], yə'ni en, ya Adəmi-Səfi. Gördüm ki, Adəm və Şis və İdris endilər və şahzadənüŋ mübarək başını ziyarət eyləyüb çadır altına girdilər. Daxi Cəbrail dedi: "*Ənzil, ya Nəciyullah*"[879]. Gördüm ki, Nuh ilən Sam endilər.

Daxi dedi: "*Ənzil, ya Xəlilullah*"[880].

Gördüm İbrahim Xəlil enüb ziyarətə vardı.

Daxi dedi: "*Ənzil, ya Kəlimullah*"[881]. Baxdum Musa ilən Harun endilər.

Daxi dedi: "*Ənzil, ya Ruhullah*"[882]. İsa endi və hər peyğambər ki enər idi, İmam Hüseynüŋ (ə) başını ziyarət eyləyüb çadıruŋ içinə girər idi.

Daxi Cəbrail dedi: "*Ənzil , ya Həbibullah*"[883].

Həzrət Mustəfa (s) **[335a]** endi əşrafi-Əhli-Beyt ilən çün əmirülmö'münin Əli və əmirül-mö'minin Həsən və Əmir Həmzə və Cə'fəri-Təyyar. Əmma çün həzrət Mustəfa başə yaqın oldı, gördüm ki, İmam

[878] *En, ya Səfiyullah (Allahın seçilmişi – Adəm).*

[879] *En, ya Nəciyullah (Allahın nicat verəni – Nuh).*

[880] *En, ya Xəlilullah (Allahın sevimlisi – İbrahim).*

[881] *En, ya Kəlimullah (Allahı ilə danışan – Musa).*

[882] *En, ya Ruhullah (Allahın ruhu - İsa).*

[883] *En, ya Həbibullah (Allahın dostu – Muhəmməd).*

Hüseynüŋ başı yerindən sıçrayub, on arşun qarşuyə varub, alnını Peyğambərüŋ əyağı üstinə qoyub yumşağ avaz iləŋ dedi:

– Ya əbətah, gör kim, sitəmedicilərdən və və`dələri xilaf eylə-yənlərüŋ cövrü cəfasindən nələr maŋa yetdi.

Seyyidi-aləm (s) ol başı götürüb, mübarək yüzini anuŋ yüzinə qoyub ağladı və ənbiya müvafiqət eyləyüb ağlamağə düşdilər.

Rübaiyyə:

Adəm bu əzadə mübtəladur, ey dil,
Nuh kəştisi qərqə bəladur, ey dil.
Dəm urma, Xəlil, Nəmruduŋ odindən,
Çün mataəmi-Şahi-Kərbəladur, ey dil.

Cəbrail ilərü gəlüb dedi:

– Ya Rəsulullah, əgər buyurasan kufəlü və şamluyə ol əməl ki, qəvmi-Lut ilən eylədüm, eyləyəm.

Həzrət Peyğambər buyurdı kim, istərəm ki, Qiyamət günində anlar ilən xəsmilik eyləyəm.

Cəbrail dedi:

– Ya seyyidüs-səqəleyn, qalın məlaikə enübdürlər ki, bizə buyurubdurlar ki, bu əlli kişi ki, buradadurlar, həlak edəlim.

Rəsulullah buyurdı ki, hər nəstə ki anlarə buyurubdurlar, eylə-sünlər. Ol mələklərüŋ əllərində odlu hərbələr var idi və hər kimə urar idilər, aŋa od düşüb saətdə yanar idi, ta qırq doquz adəm[884] yandı. Növbət maŋa düşdi, dedim:

– Əl-əman, **[335b]** ya Rəsulullah.

Buyurdı:

– "*La ğəfərəllahu ləkə*"[885] – Taŋrı səni yarlığamasun.

Mən bu sözə şəkk ilə gümanum yoxdur ki, Peyğambərüŋ hədisi xilaf olmaz.

Hərəm əhli dedilər:

– Yüzüŋə nişün niqab asubsən?

---

[884] Əlyazmada: *adəmi*.

[885] *Allah səni bağışlamasın.*

Dedi:

– Ol vaqiənüŋ heybətindən şəklüm mütəğəyyir olub məsx oldı.

Pəs çox mübaliğələr etdilər, ta yüzindən niqab götürdi. Yüzi və dişi donğuzə dönmiş idi. Hərəm seyyidləri və Kəʾbə məşayixləri dedilər:

– Yanımızdan irağ ol ki, sənüŋ şumligüŋ bizə əsər eyləməyə.

Dərhal ol kişi niqabı asub hərəmdən çıqdı. Həzə hərəmüŋ qapusindən qədəm dışxaru qoymayub, həvadən bir ildurum çaqub, ol napakə düşüb, təmam yandı.

Şe'r:

Sitəm bərqilə hər kim urdisə ot ol şəhidlarğə,
Yanar ol nakəsüŋ budü vücudi Taŋrınuŋ qəhri.
Şəhi-məzlum hər kimdən sitəm gördisə dünyadə,
Qiyamətdə içər peyvəstə ol yılanlaruŋ zəhri.

E`tibarlu ravilər rəvayət eylərlər ki, İmam Hüseynüŋ şəhadətindən soŋra Şam bəgləri və Kufə sərxeylləri və Ziyadoğlınuŋ ləşkəri və nökərləri atlu ilən yəyağ, ağa ilə nökər – varı xoşluğ ilən bir içim su içmədilər və az müddətdə hər birisi bir üqubət ilən ki, aləmlərüŋ ibrəti ola, həlak oldılar.

Və "Şəvahid"də gətürübtürlər ki, İmam Hüseyn (ə) və əshabınuŋ qatillərindən hiç kimsə qalmadı ki, ölümdən ilərü fəzihət olmayub, bir bəlayə mübtəla olmadı.

Və "Kənzül-ğəraib"dən rəvayətdür ki, çün İmam Hüseyni (ə) Kərbəladə şəhid **[336a]** etdilər, Cabir bin Yezid Əzdi ol həzrətüŋ əmmaməsini götürüb başına qoydı, dərhal dəlü oldı və dimağı ilə müxəbbət oldı kim, zəncirlədilər və ol zəncirdə həlak oldı. Və Cə`unə Həzrəmi şahzadənüŋ mütəhhər nimtənəsi gəvdəsindən çəküb geydi, dəlü və ala oldı və ol nimtənədə sanadılar yüz yetmiş dəlük var idi ki, hərbələr və oxlar anı dəlmiş idi. Və deyübtürlər ki, İmamuŋ nimtənəsi Əbdürrəhman bin Həsin geydi, ala zəhmətinə uğrayub, başı tüki və səqqalı varı töküldi və aləmə ibrət oldı. Və Əsvəd bin Hənzələ ol həzrətüŋ bir qılıcını götürmiş idi, cüzam illətinə giriftar olub, gəvdəsinə qurt düşüb səqət oldı. Və İbn Yəsar şahzadənüŋ cövşənini

götürdi, əqli-ussı gedüb dəlü oldı və xəlayiq anuŋ ilən məsxərəlik eyləyüb, daşlar urar[886] idilər. Soŋra bir daş zərbi ilən öldi. Və Şimri-Zilcövşən bir parə qızıl İmamuŋ yükləri içində bulub evinə apardı. Andan bir parə öz qızına bağışlayub, qızı anı zərgərə verdi kim, anuŋ içün zivərlər düzədə. Zərgər çün anı odə qoydı, varı ərildi. Şimr çün anı eşitdi, inanmadı, zərgəri çağırdı və dedi:

– Mənüm hüzurimdə munı odə qoy.

Zərgər anı anuŋ hüzurində butəyə qoydı, dərhal ərilüb, zərrəcə andan qalmadı.

Və neçə devə ki, şahzadədən qalmış idi, ol müşriklər anı **[336b]** boğazlayub etini bişürdilər, əylə acı idi ki, hiç kim andan bir löqmə yeyəmədi. Və İmam Hüseynüŋ müxaliflərinüŋ üqubatları dünyadə çoxdur və yüz miŋ zariliğ ilən İbrahim bin Malik Əştər və Muxtar və qeyrihum əllərindən həlak olduği[887] "Muxtarnamə"də yazıludur.

Əmma "Miratül-cinan" kitabında gətürübdürlər ki, İmam Hüseynüŋ şəhadətindən soŋra az fürsətdə Übeydullah bin Ziyaduŋ başını Kufəyə gətürdilər və ol məl'un baş həm orada ki, imami-mükərrəmi-məzlum İmam Hüseynüŋ başı qoymış idilər, qoydılar. Əmma Tirmizi Əmmarə bin Əmirdən nəql eylər ki, çün Ziyadoğlınuŋ başı və əshabınuŋ başları Kufəyə gətürdilər, bir yerə tökdilər. Mən oraya yetdüm və xəlqüŋ ünlərin eşitdüm. Nagah bir yılan gördüm ki, gəldi və başlar içində girdi və Ziyadoğlınuŋ başını bulub burnınuŋ dəlüginə girdi və bir zəman qatlanub çıxdı və öz yolına vardı, ta xəlqüŋ nəzərindən qayib oldı. Daxi fəryad və fəğan üni gəldi ki, der idilər: "Gəldi, gəldi". Gördüm ki, həm ol yılan gəlüb gənə burnına girdi və neçə qatla bəylə idi və bu, ol fe'lüŋ mükafatı idi ki, İmam başı ilən andan sadir olmış idi və bunlar zahir əlamatlərindəndür və "Şəvahid" kitabında daxi yazıludur.

Rəvayətdür ki, bir namərdi-məl'un Mədinədə bir xütbə oxudı və İmam Hüseyni şəhid oldüginə **[337a]** xürrəmliğ edər idi. Ol gecə Mədinədə bir ün eşitdilər və deyəni görünməz idi və üç beyt istima`etdilər kim, oxur idi və ol beytlərdən birisi budur:

---

[886] Əlyazmada: *eylər*

[887] Əlyazmada "*həlak olduği*" sözü iki dəfə yazılmışdır.

Əyyuhəl qatilunə cəhlən Huseyna,
Əbşiru bil-əzabi vət-tənkil.[888]

Yə'ni, ey İmam Hüseyni (ə) öldürənlər, cəhl ilə dəlülikdən muştuluq olsun sizə damunuŋ əzabı və siccində bənd və zəncir ilə mübtəla olduği. İkincisi, beytüŋ mə'nisi bu ki, hər kim gögdədür, sizə nifrin eylər ənbiya ərvahindən və müqərrəb mələikələr. Üçünci, beytüŋ mə'nisi bu kim, sizə lə'nət eyləyübdürlər Süleyman bin Davud (ə) və İsa peyğambər əleyhissələvat vəssəlam kim, İncil iyəsidür.

Və "Şəvahid" kitabında nəql eyləyübdürlər ki, bir kimsə ğazilərdən eşitdüm ki, Rumuŋ ğəzasin eylər idi ki, anlaruŋ kitablarından bir kitabda gördüm yazmış idilər.

Beyt:
Ətərcu ummətun qətələt Hüseyna,
Şəfaətə cəddihi yovm əl-hisab[889].

Sordum kim, munı kim yazubdur?

Dedilər:

– Bilməzüz.

Və Əbül-Məfaxir demiş ki, bu dört beytdür və beytlər yazılanda tarixi aşağasında yazılmış idi. Hesab eylədilər: üç yüz yıl Mustəfanuŋ be`sətindən ilərü imiş və beytüŋ tərcüməsi budur ki, nədən ümmid bağlarlar ol taifə ki, İmam Hüseyni şəhid eylədilər. Anuŋ cəddinüŋ şəfaətinə Məhşər günində və çox əcəb **[337b]** görünür ki, kimsə kimsənüŋ oğlını zülm ilən öldürə və istər ola ki, ol məzlumi-məqtuluŋ atası aŋa şəfaət eyləyə.

Nəzm:
Qaldum əcəb məl'unlaruŋ cəhlü təkəbbürliğinə
Kim, Mustəfa əvladınuŋ saxlamadılar hörmətin.
Şəhzadənüŋ qanın töküb, həzə umarlar Taŋrıdan
Kim, saxlasun şəhzadənüŋ cəddini anlar izzətin.

---

[888] *Ey Hüseyni qətlə yetirən nadan və cahillər,*
Sizə alçaldıcı cəhənnəm əzabını müjdə verirəm.

[889] *Ey Hüseyni qətlə yetirənlər,*
Qiyamət günü onun babasının şəfaətinə ümidiniz varmı?

Taŋrınıŋ inayətinə ümmid və həzrət Muhəmmədüŋ (əleyhissələvat vəs-səlam vət-təhiyyət vəl-ikram) himayətinə rəca ki fəzli-əhədiniŋ bəxşişinə cəllü cəlaluhu və əm nəvalə və əzmi-şanə və cənab Əhmədinüŋ sələvatullahur-Rəhman şəfaəti miyamininə bir xətti-təmam və bəhri-malakəlam axirüzzəman mihnət görmişlərinüŋ ruzigarinə ki, şəhidlər şahi içün gözləri giryan və köküsləri biryan olubdur vasil və mütəvasil olsun. Və bu kitabı buyuranə və təsnif edənə və yazanə və eşidənə ol şəhadət şərbəti içənlərinüŋ səvabinə və səadət xəl`əti geyənlərinüŋ kəramətinə məhrum qoymasun.

Bi-həqqi-xeyrul-ənbiya vəl-mursəlin və alihi və itrətət-tahirin və əimmətil-məʾsumin vəl-həmdulillahi Rəbbul-aləmin. Təmmət.[890]

***Rübaiyyə**:*

Nişati, Həqdən istərdüŋ ki, bu nüsxə təmam olsun,
Qəbuli-həzrəti-xanü cəmii-xassü amm olsun.
Behəmdillah [muradə] yetdüŋ imdi, söyləgil hər dəm
Hüseynü alinə məndən tümən yüz miŋ səlam olsun.

Təmmətul-nusxətuş-şərif əl-musəmma bə – "Şuhədanamə" bə-xəttul-musənnif bəunillah əl-Məlikul-Mənnan. Vəs-səlatu vəs-səlamu əla seyyidul-ənbiya və vəsiyyəti iləllah və itrətihi əcməin. Fi şəhri – zihəccə, sənə və iləllah və itrəti əcməin fi şəhri-hiccə[891].

[890] *Peyğəmbərlərin xeyirlisi və pak ailənin və məsum imamların hörməti xatirinə aləmlərin Rəbbinə həmd olsun.Tamam oldu.*

[891] *"Şühədanamə" adlanan bu şərif nüsxə tərtib edənin xətti və Allahın yardımı ilə tamamlandı. Peyğəmbərlərin ağasına və Allahın vəsisinə, onun bütün nəslinə salat və salam olsun! Zilhəccə ayı, 945-ci il (May, 1539).*

İZAHLAR

Adəmi-Səfi – Bəşərin atası (Əbülbəşər) Adəm peyğəmbər. Ləqəbi Səfiyullahdır (*Allahın seçilmişi, Allahın səmimi dostu*).

Asiyə – Fironun arvadı. Musa peyğəmbəri körpəlikdən gizlicə böyüdüb saxlamışdır. Əvvəllər bütpərəst olan Asiyə sonradan Musanın təkallahlıq dininə iman gətirmiş və buna görə də Fironun əmri ilə öldürülmüşdür. Klassik ədəbiyyatda Asiyə mömin və təmiz qadın rəmzi kimi işlənir.

Beytül-Müqəddəs/Beytül-Məqdəs (**Müqəddəs ev**) – Qüds, Yerusəlim. Qədim adı Yenusdur. Fələstinin inzibati və dini mərkəzi olmuş, elə buna görə də əsrlər boyu yadellilərin hücumlarına məruz qalmışdır. Məhəmməd peyğəmbər (s) Meraca buradan qalxdığına görə müsəlmanlar üçün müqəddəs yer sayılır. Peyğəmbərin (s) Mədinədə yaşadığı ilk il yarım-iki il ərzində müsəlmanlar namaz qılarkən üzlərini Beytül-Müqəddəsə çevirirmiş. Şəhər həm də yəhudilər və xristianlar üçün müqəddəs yer sayılır: Musa peyğəmbərin qəbri buradadır, İsa peyğəmbər bu şəhərdə çarmıxa çəkilmişdir. Uzun müddət müsəlmanların əlində olmuş Beytül-Müqəddəs hazırda İsrail dövləti ərazisindədir.

Bədr döyüşü/Məsafi-Bədr/Qəzvi-Bədr/Bədr məʾrəkəsi – Məhəmməd peyğəmbərin (s) tərəfdaşları ilə bütpərəst məkkəlilər arasında olan ilk böyük döyüş. Hicrətin ikinci ili, ramazan ayında (624-cü ilin martında) Mədinədən 150 km cənub-qərb tərəfdə yerləşən Bədr quyularının yaxınlığında baş vermişdir. 76 nəfər mühacir və 240-a yaxın ənsardan ibarət olan müsəlmanlar 950 (başqa bir məlumatda 750) məkkəlilərə hücum edirlər. Məkkəlilərin dəstəsində 200 atlı olmasına baxmayaraq, bu döyüşdə müsəlmanlar ilk qələbə qazanırlar. Döyüşdə Məhəmməd peyğəmbərin (s) əmisi Həmzə və əmisi oğlu Əli böyük şücaət göstərirlər. Bədr döyüşündəki qələbədən sonra Məhəmməd peyğəmbərin (s) tərəfdaşlarının sayı çoxalır.

Bəni Haşim (Haşim övladları) – Qüreyş qəbiləsinin başqa bir soyu – Haşimilər. Nəslin başçılarından olmuş Haşim bin Əbd Mənafın adı ilə belə adlanır. İslamdan öncə ərəblərin ziyarətgah yeri

olmuş Kəbənin qorunması kimi şərəfli bir xidmət bu nəslə – haşimilərə etibar edilmişdi. Məhəmməd peyğəmbər (s) və İmam Əli bu soydandır.

Bəni İsrail – İsrail övladları, israillilər, yəhudi tayfaları. Yəqub peyğəmbərin 12 oğlu və nəsli də bu adla məşhurdur.

Bəni Ümeyyə (Ümeyyə övladları) – Məkkədəki Qüreyş qəbiləsinin ən böyük soylarından olan əməvilər. Məkkənin ən varlı və nüfuzlu şəxsləri bu soydan idilər. Məhəmmədin (s) peyğəmbərliyinin zühurundan sonra o həzrətə qarşı çıxmış tayfanın başçısı Əbu Süfyan olmuşdur. Onun oğlu Müaviyə İmam Əli ilə düşmənçilik etmiş, Müaviyənin oğlı Yezid isə İmam Əlinin oğlu İmam Hüseynin qətlinə əmr vermişdir. 661-750-ci illərdə Ərəbistanda xəlifəlik etmiş əməvilər bu soydan idilər. Məhəmməd peyğəmbərdən (s) sonrakı ilk dörd xəlifədən (Raşidi xəlifələri – Pak xəlifələr) üçüncüsü Osman (644-656) da bu nəsildəndir.

Bətha – Mədinə şəhərinin qədim adı. Məkkə vadisi də bu adla məşhur imiş.

Bilal Həbəşi – İslamı ilk qəbul edənlərdən biridir. İslamda ilk müəzzin (azanverən) olmuşdur. Peyğəmbərin (s) sağlığında hər yerdə o həzrətə müəzzinlik etmişdir. Bir müddət Suriyada yaşadıqdan sonra Mədinəyə ziyarətə gəlmiş və İmam Hüseynin xahişilə orada sübh azanı vermişdir.

Buxari – b a x **İsmayıl Buxari.**

Büxtün-Nəssər/Büxtü Nəssər – Babilin iki böyük padşahının daşıdığı ən yüksək titul. I Büxtü Nəssər e.ə.1146-1123-cü illərdə, II Büxtü Nəssər isə e.ə. 605-562-ci illərdə hakimiyyət başında olmuşdur. II Büxtü Nəssər e.ə. 597-ci və e.ə. 586-cı illərdə iki dəfə yəhudilərin üstünə qoşun çəkmişdir. Sonuncu yürüşündə Beytül-Müqəddəsi viran qoyaraq yerli əhalini qılıncdan keçirmişdir.

Büraq – Məhəmməd peyğəmbəri (s) Merac gecəsi göylərə aparan varlıq. İnsan başlı, qanadlı Büraq orta əsrlərin rəssamları tərəfindən çəkilmiş çoxsaylı miniatürlərdə təsvir olunmuşdur. Büraq "parıldayan", "ildırımsürətli" deməkdir.

Cabir Ənsari – Məhəmməd peyğəmbərin (s) səhabələrindən biri.

Cami-cəm – Cəmşidin camı. Rəvayətə görə "Avesta" qəhrəmanlarından Cəmşidin dünyanı özündə əks etdirən camı olmuşdur. Görkəmli Azərbaycan şairi Marağalı Övhədinin (1274-1338) fars dilində yazdığı "Cami-cəm" adlı poeması vardır. Nişati "Şühədanamə"nin IX babında İmam Hüseynin dilindən verdiyi bir şeir parçasında bu ifadəni işlədərək dünyanın vəfasızlığına və faniliyinə işarə edir.

Carullah/Şeyx Carullahi-əllamə – Mahmud bin Ömər Əbül-Qasim Zəməxşəri (1075-1144) – məşhur ruhani alimi, dilçi və ədəbiyyatşünas. Əsərlərini ərəbcə yazmışdır. "Kəşşaf" adlanan məşhur Quran təfsirinin və dilçiliyə aid əsərlərin müəllifidir. "Carullah" (Allah tərəfindən himayə olunan) və "Fəxri-Xarəzm" (Xarəzmin fəxri) ləqəblərini qazanmışdır. Orta Asiya türklərindəndir.

Cəbrail/Cibril – Peyğəmbərə (s) ən yaxın dörd mələkdən biri. İlahi vəhyinin daşıyıcısı. Ruhül-qüdüs, Ruhül-əmin də adlanır.

Cəməl döyüşü, Vaqieyi-Cəməl, Hərbi-Cəməl (Dəvə döyüşü) – 656-cı ilin dekabrında Bəsrə ətrafında IV xəlifə Əli ibn Əbu Talibin qoşunu ilə ona qarşı çıxan Ayişə (Peyğəmbərin (s) dul zövcəsi) və onun tərəfdarları Təlhə və Zübeyrin kiçik dəstəsi arasında olmuş vuruş. İmam Əlinin tam qələbəsi ilə başa çatmış bu döyüşdə Təlhə və Zübeyr öldürülmüş, Zübeyrin oğlu Abdullah yaralanmış, Ayişə isə əsir alınmışdı. İmam Əli Ayişəni İmam Həsən və İmam Hüseynin müşayiəti ilə hörmətlə Məkkəyə yola salmışdı.

Cəmşid – Qədim İran şahlarından Pişdadiyan sülaləsinin 4-cü qüdrətli şahı sayılır. Əfsanəvi şəxsiyyətdir. Guya 700 il padşahlıq edib. Rəvayətə görə şərabı o icad etmişdir.

Ciddə – Səudiyyə Ərəbistanında şəhər.

Davud – Yəhudi peyğəmbərlərindəndir. Allah-taala ona həm də padşahlıq nəsib etmiş və Zəbur kitabını göndərmişdir. Davudun gözəl səsi varmış. Rəvayətə görə, Davud Zəburu oxuyarkən heyvanlar və quşlar hərəkətsiz qalır, ona qulaq asarmışlar. Klassik poeziyada "Davud səsi" mələhətli səsi bildirir. Tanrı Davuda həm də sonsuz güc bəxş etmişdi: dəmiri əlində asanlıqla yumşaldar, ondan zireh toxuyarmış.

Dibil Xüzai –Abbasilər zamanında yaşamış Əhli-Beyt şairi (765-859).

Düldül – İmam Əlinin atının adıdır.

"Dürərüs-sibteyn" ("Nəzmi-dürərüs-sibteyn fi fəzayilil-Mustəfa vəl-Murtəza vəl-Bətul vəs-sibteyn") – Məhəmməd bin Yusif əz-Zərəndi (vəfatı:1349) tərəfindən qələmə alınmış əsərdə Əhli-Beytin (ə) fəzilətlərindən bəhs olunur.

"Elamül-vəra" – Fəzl bin Həsən Təbərsinin (1075-1153) əsəridir.

Əba Abdullah – İmam Hüseynin künyəsi (ərəb adətinə görə ehtiram əlaməti olaraq şəxsə verilən ikinci ad). Abdullahın atası deməkdir.

Əbu Bəkr/Əbu Bəkri-Siddiq (572-634) – Məhəmməd peyğəmbərdən (s) sonra müsəlman icmasının ilk xəlifəsi. Məkkənin varlı taciri olmuşdur. Məhəmməd peyğəmbərə (s) son dərəcə sadiq olduğu üçün fəxri "əs-Siddiq" (Doğru danışan) ləqəbini daşımışdır. Peyğəmbərin (s) zövcəsi Ayişənin atasıdır. Məhəmməd peyğəmbərin (s) hicrəti zamanı o həzrətlə birlikdə mağarada olmuş və bir sıra döyüşlərdə iştirak etmişdir.

Əbu Cəhl – Məhəmməd peyğəmbərin (s) ilkin düşmənlərindən olan Əmr bin Hişam Məxzumun künyəsi. "Nadanlıq atası", "Nadanlıq sahibi" deməkdir. İslamdan qabaq ləqəbi Əbül-Həkəm olmuşdur. Əbu Cəhl ləqəbini ona Peyğəmbər (s) vermişdir.

Əbu Ləhəb ("Alov atası") – Məhəmməd peyğəmbərin (s) əmisi Əbdülüzza bin Müttəllibin ləqəbidir. Əvəllər Məhəmməd peyğəmbərlə (s) münasibətləri yaxşı olmuş, lakin sonradan Əbu Süfyanın təsiri ilə Peyğəmbərə (s) qarşı çıxmışdır. Peyğəmbəri (s) ələ salmış və öz arvadı ilə birlikdə o həzrətə əzablar vermişdir. Qurani-Kərimin 11-ci surəsinin 1-ci ayəsində onun haqqında deyilir: "Əlləri qurusun Əbu Ləhəbin".

Əbu Müslim Mərvəzi Xorasani (755-ci ildə öldürülmüşdür) – Xorasanda Abbasilər hərəkatının başçısı. İsfahanda doğulmuş, sonradan Mərvə gələrək oradakı Əməvi hökmdarına qarşı qiyam qaldırmışdır. 748-ci ildən Mərvdə hakimiyyəti ələ almış, eyni zamanda dini

rəhbər olmuşdur. Haqqında çoxlu rəvayətlər və "Qisseyi-Əbu Müslim" adlı farsca və türkcə dastan vardır.

Əbu Süfyan – Məhəmməd peyğəmbərin (s) zamanında əməvilərin (b a x Bəni-Ümeyyə) başçısı olmuşdur. İmam Əlinin atası Əbu Talibin əvəzinə Məkkə rəisi olmaq istəmiş, sonra Peyğəmbərə (s) qarşı çıxmış, Ühüd və Xəndək döyüşlərində Məkkə qoşununun başında durmuşdur. Müsəlmanlarla vuruşda hər iki gözünü itirmiş Əbu Süfyan ömrünün sonuna yaxın islamı qəbul etmişdir.

Əbuzər Qəffari – Məhəmməd peyğəmbərin (s) səhabələrindən biri.

Əbül-Müəyyəd Xarəzmi – X əsrdə yaşamış məşhur şair və yazıçı. "Yusif və Züleyxa" dastanını ilk dəfə nəzmə çəkmişdir. "Gərşasb" və "Əcaibül-büldan" ("Ölkələrin qəribəlikləri") adlı nəsr əsərləri də vardır.

Əbüləla Həmədani/Əbül-Əlayi Həmədani – Həsən ibn Əttar Həmədani (1095-1174) məşhur hədis və fiqh alimi.

Əbül-Hünuq – İmam Hüseynin alnına ox vuranlardan biri.

Əbül-Məfaxir Razi – Səlcuqilər dövrünün məşhur şairlərindən biri.

Əcəm – Orta əsrlərdə Şərqdə ərəb olmayan xalqlara, xüsusilə də farslara, bəzən də türklərə verilən ümumi ad. Bu xalqların yaşadığı torpaqlar da Əcəm adlanırmış.

Əhli-Beyt ("Ev adamları") – Məhəmməd peyğəmbərin (s) ailə üzvləri: İmam Əli, Fatimeyi-Zəhra, İmam Həsən, İmam Hüseyn.

Əhməd/Əhmədi-Muxtar – Məhəmməd peyğəmbərin (s) adlarından biridir.

Əmmar Yasir/Əmmar bin Yasir – Məhəmməd peyğəmbərin (s) səhabələrindən biri. Peyğəmbərin (s) vəfatından sonra İmam Əlinin yaxın tərəfdaşlarından olmuş. Siffin döyüşündə öldürülmüşdür.

Əmirün – nəhl (Bal arılarının əmiri) – İmam Əlinin ləqəblərindən biridir.

Əmr Leys / Əmr ibn Leys / Əmrül-Leysi-Səffar – İranın Şərqində hökmranlıq etmiş Səffarilər sülaləsinin ikinci padşahı (878-900). 900-cü ildə Samani hökmdarı Əmir İsmayılla döyüşdə əsir götürülərək Bağdada aparılmış və orada öldürülmüşdür. Ağıllı, siyasətcil və ədalətli hökmdar kimi ad çıxarmışdlr.

Ənsari Cabir – b a x **Cabir Ənsari.**

Ənsar, əl-Ənsar ("Köməkçilər" – cəmdə işlənir, təki "nasir"dir)- Məhəmməd peyğəmbərin (s) silahdaşlarından bir qrupu. Mədinədə yaşayan aus və həzrəc qəbilələrindən olmuşlar. 622-ci ildə Məhəmməd peyğəmbərlə (s) sülh bağlayaraq o həzrəti ali rəhbər kimi tanımışlar. Bədr döyüşündən başlayaraq Peyğəmbərin (s) bütün müharibələrində iştirak etmişlər. Peyğəmbər (s) haqqındakı hədisləri əsas yayanlardan olmuşlar.

Ərəsat – Qiyamət gününə və Məhşər səhrasına işarədir.

Ərdəşir – Sasanilər sülaləsinin banisidir. 266-cı ildə taxta sahib olmuş, 12 il hökmranlıq etmişdir.

Əsədullah – (Allahın şiri) – Peyğəmbərin (s) əmisi Həmzənin və İmam Əlinin ləqəbidir.

Əshab/əl-Əshab/Səhabə (Silahdaşlar – cəmdə işlənir, təki "sahib"dir – "tərəfdar") - Məhəməd peyğəmbərin (s) yaxın tərəfdaşları və o həzrətin yürüşlərinin iştirakçıları. Sonralar Peyğəmbəri (s) hətta bir dəfə görənlər də əshab adlanırdılar. Səhabələrin yuxarı təbəqələrini ənsar və mühacirlər təşkil edirdilər. İslamın yayılmasında və müsəlman dini sisteminin təkmilləşməsində onların mühüm xidmətləri olmuşdur.

Əsqəlan – Dəclə kənarında şəhər olmuşdur. II xəlifə Ömərin (585-644) dövründə Müaviyə bin Əbu Süfyan tərəfindən tutulmuşdur.

Əyyub/Əyyubi-Səbur (Dözümlü Əyyub) – İbrahim peyğəmbərdən təxminən 4 əsr qabaq yaşamış və Quranda adı çəkilmiş məşhur peyğəmbərlərdəndir. Klassik ədəbiyyatda Əyyub səbir və dözüm rəmzi kimi işlənir. Kitabda onun nə dərəcədə dözümlü bir peyğəmbər olması haqqında yarımbaşlıq vardır.

Əzrail – Peyğəmbərə ən yaxın dörd mələkdən biridir. Mələkülmövt (Ölüm mələyi) də adlanır.

Fəğfur – lüğəvi mənası "Allahın oğlu" deməkdir. Çin padşahlarının tituludur.

"Fəslül-xitab" – Şeyx Şərəfəddin Əhməd ibn Yusifin ərəbcə yazdığı 24 cildlik əsərdir. Kitab 1253-cü ildə tamamlanmışdır.

Fətrəteyn – Mələk adıdır.

"Firdovsül-əxbar" – tarixçi, mühəddis Şəhrdar bin Şiruyə Deyləminin (vəfatı:1053) qələmə aldığı hədis kitabıdır.

Fəridun/Firidun – İranın qədim əfsanəvi padşahlarındandır. Cəmşidin nəvəsidir. Pişdadiyan sülaləsinin 6-cı hökmdarı sayılır. Dəmirçi Gavənin köməyi ilə zülmkar Zöhhakı öldürmüşdür. Fərrux ləqəbi ilə tanınır.

Ğəzban – Cəhənnəmdə yanar dağ.

Ğəzvə/Ğəza – Din uğrunda kafirlərlə aparılan müharibə, Peyğəmbərin (s) bilavasitə iştirak etdiyi döyüş. Adətən, cəmdə "qəzəvat" şəklində işlənir. Bu müharibələrin sayı 19-dur. Peyğəmbərin (s) iştirak etdiyi döyüşlərə "səryə" də deyilir. Onların sayı isə 45-dir. "Səryə" adlanan döyüşdə sayı 500 nəfərdən çox olmayan atlı döyüşçülər iştirak edirmişlər.

Hacər – İbrahim peyğəmbərin zövcəsi Sarənin kənizi. Sarənin övladı olmadığından öz təklifi ilə İbrahim onunla evlənmiş və bu izdivacdan İsmayıl peyğəmbər dünyaya gəlmişdir. Hacər oğlu İsmayılla su axtararkən Səfa və Mərvə dağlarını yeddi dəfə dolaşmışdır. Həmin hadisə ilə bağlı Həccə gedənlər Məkkədə bu dağları yeddi dəfə dolaşırlar.

Harun – Musa peyğəmbərin qardaşı və ən yaxın arxadaşı.

Harunərrəşid – Abbasilər xilafətindən olan xəlifə (785-809). Ədalətli və bacarıqlı hökmdar olmuşdur.

Hatəmi-Teyy/Hatəmi-Tai – VI-VII əsrlərdə ərəb qəbilə başçılarından və şairlərindən olmuşdur. Dövrünün ən səxavətli adamı kimi ad çıxarmışdır.

Heydəri-Kərrar –Əli ibn Əbu Talibin ləqəblərindən biridir.

Həbəş/Həbəşə – Həbəşistan, indiki Efiopiya.

Hələb – Suriyada şəhər.

Hərran – Ərəbistan yarımadasında ən qədim və məşhur şəhər. Xarabalıqları indi də durur.

Hicaz – Ərəbistan yarımadasının qərb hissəsinin qədim adı. Məkkə və Mədinə şəhərləri burada yerləşir. İndiki Səudiyyə Ərəbistanı.

Hind – Əbu Süfyanın arvadı, Müaviyənin anası. Atası Ütbə Bədr döyüşündə öldürüldükdən sonra onun intiqamını almaq arzu-

su ilə yaşamış, bu məqsədlə Ühüd döyüşündə iştirak etmişdir. Peyğəmbərin (s) əmisi Həmzə bu döyüşdə şəhid olduqdan sonra onun ciyərini yemiş, "Hindi-cigərxar" (Ciyəryeyən qadın) ləqəbini qazanmışdır.

Hüneyn döyüşü/Hüneyn mərəkəsi – 630-cu ildə Məkkənin fəthindən sonra müsəlmanlarla bütpərəst ərəb qəbilələri arasındakı döyüş. Məkkə ilə Taif arasında yerləşən Hüneyn vadisindəki bu döyüşdə Malik bin Əvfin başçılıq etdiyi bütpərəstlərin sayı 30 minə çatırdı. Peyğəmbərin (s) başçılıq etdiyi islam döyüşçüləri isə cəmi 2 min nəfər idi. Müsəlmanların qələbəsi ilə başa çatan bu döyüşdə Peyğəmbərin əshabələrindən bir neçə nəfər şəhid oldu.

Hüseyn Vaiz/Mövlana Hüseyn Vaiz – Kəmaləddin Hüseyn bin Əli Vaiz Kaşifi (vəfatı:1504) – dövrünün məşhur ilahiyyatçı alimi və yazıçısı olmuşdur. Ömrünün çoxunu Heratda keçirmiş, orada vaizlik etmişdir. Ən məşhur əsərləri bunlardır: "Quran təfsiri", "Əxlaqi-Muhsini", "Ənvari-Süheyli" ("Kəlilə və Dimnə" kimi tanınır) və "Rövzətüş-şühəda". Müəllifin sonuncu əsəri Füzulinin "Hədiqətüs-süəda"sı üçün əsas qaynaq olmuş və Nişati tərəfindən "Şühədanamə" adı ilə dilimizə tərcümə edilmişdir.

Xeybər – Mədinə – Suriya yolu üzərində, Mədinədən təqribən 150 km. şimalda yerləşən məntəqə - qala. Yəhudilər yaşayan bu qalanı 628-ci ildə İmam Əli fəth etmişdir.

Xəndək (Xəndəq) döyüşü – 627-ci ilin martında müsəlmanlarla məkkəlilər arasında baş vermişdir. Müsəlmanlar müdafiə məqsədilə Mədinə şəhərinin ətrafında xəndəklər qazmışlar. Müsəlmanların qələbəsi ilə bitən döyüşün adı bu sözdən götürülmüşdür.

Xəvaric (Qiyamçılar, Çıxanlar – cəmdədir, təki "xaric" sözüdür)– İmam Əlinin tərəfdarları ilə Müaviyənin tərəfdarları arasında gedən mübarizənin gedişində islamda yaranmış ilk dini-siyasi qruplaşma. 657-ci ildə Siffin döyüşündə İmam Əli Müaviyə ilə barışığa girərkən 12 min döyüşçü Əli ibn Əbu Talibin bu qərarından inciyib getmişdi. İmam Əlinin keçmiş tərəfdarları bu hadisədən sonra "Xəvaric" adlandırıldı. 661-ci il yanvarın 19-da xəvariclərin nümayəndəsi

İbn Mülcəm İmam Əlini ölümcül yaraladı və İmam iki gündən sonra dünyasını dəyişdi.

Xızr – Musa peyğəmbərin dövründə yaşamış peyğəmbər - övliya. Onun dirilik suyu içdiyi və əbədi həyat qazandığı göstərilir.

İblis – Oddan yaradılmış mələk – şeytan. Allahın gildən yaratdığı Adəmə sitayiş etməmiş yeganə mələkdir. Bu dikbaşlığına görə göylərdən – İlahi dərgahından qovulmuşdur. Bu zaman o, Allahın bəndələrini tovlayıb yoldan çıxaracağına and içmişdir. İblisin toruna düşən ilk bəşər övladı cənnətdən qovulmuş Adəm peyğəmbər olmuşdur. Müsəlman duaları, adətən, İblisin (Şeytanın) lənətlənməsi ilə başlanır: "Əʾuzzu billahi min əş-şəytanir-rəcim" (Kömək üçün Allaha üz tuturam daşlarla vurulmuş şeytana qarşı).

İbn Abbas – Abdullah bin Əbdülmüttəlib (vəfatı: 688) hədis və Qur'anın təfsiri üzrə ilk alimlərdən sayılır. Məhəmməd Peyğəmbərin (s) əmisi oğludur. Abbasilər sülaləsi onun nəslindəndir.

İbrahim Xəlil – "Ulül-əzm" peyğəmbərlərdən ikincisidir. Təkallahlığı ilkin yayan olmuş, bütləri sındırdığına görə oda atılmış, lakin İlahi hökmü ilə toxunulmaz qalmışdır. Haqq və iman yolunda bir çox sınaqlardan üzüağ çıxdığı üçün Xəlilullah (Allahın sevimlisi) ləqəbini qazanmışdır. Oğlu İsmayılla birlikdə Məkkədə Kəbəni (Tanrı evini) yenidən tikmiş, Qara daşı (Həcərül-əsvəd) onun bir küncündə yerləşdirmişdir. Həmin vaxtdan Həcc ziyarətinin əsası qoyulmuşdur. 180 il ömür sürmüş İbrahim peyğəmbərin qəbri Fələstindəki Həbrun (indiki Xəlil) şəhərindədir. İbrahim peyğəmbər ərəblərin və yəhudilərin ulu babası sayılır.

İmam – İbadət zamanı öndə duran ruhani başçısı və müsəlman icmasının rəhbəri (ərəbcə "əmmə" sözündəndir, cəmi "əimmə"dir – öndə durmaq, başçılıq etmək" deməkdir). Məsciddə ümumi namaza başçılıq edəni də imam adlandırırlar. Şiələr dördüncü Raşidi xəlifəsi Əli ibn Əbu Talibin (vəfatı: 661-ci il, 21 yanvar) nəslindən olan 12 imamı müqəddəs sayırlar. "İmam" istilahı istər şiələrdə, istərsə də sünnilərdə, həm də ən böyük dini cərəyanların, məzhəb başçılarının, alimlərin fəxri təxəllüsü kimi də işlənir.

İmam Rza – şiələrin səkkizinci imamı.

İncil – İsa peyğəmbər üçün nazil olmuş İlahi kitabı. "Müjdə" mənasını verir.

İsa/İsayi-Məryəm/İsayi-Ruhullah – Məhəmməd peyğəmbərdən (s) qabaq zühur etmiş peyğəmbər. Qurani-Kərimdə "əl-Məsih" ("Xilaskar"), "İbn Məryəm" (Məryəmin oğlu) adlandırılmışdır. Ləqəbi Ruhullahdır. Peyğəmbərliyi erkən zühur olan İsa xəstələri sağaltmış, palçıqdan quşşəkilli fiqurlar düzəltmiş, İlahinin köməyilə onlara öz nəfəsi ilə can bəxş etmişdir. Buna görə də klassik ədəbiyyatda "Dəmi-İsa" (İsa nəfəsi) ifadəsi çox işlənir.

İshaq – İbrahim peyğəmbərin Sarədən olan oğlu, peyğəmbər. Qurani-Kərimdə buyurulduğu kimi, Allah-taala İbrahim peyğəmbərə ömrünün qoca vaxtında bir övlad bəxş edir. Bu, sonralar peyğəmbərliyə çatmış İshaq idi. Yəhudilərin fikrincə İbrahim peyğəmbərin qurbanlıq gətirilmiş oğlu İshaqdır, müsəlmanlar isə çoxdan sübuta yetirmişlər ki qurbanlıq İshaq yox, İsmayıldır.

İsmail Xarəzmi – b a x **İsmail Buxari.**

İsmail Buxari – Məhəmməd bin İsmail Əbu Abdulla əl Cufi – (810-870) – görkəmli ilahiyyatçı alim və hədis toplayan. 10 yaşından hədis toplamaqla məşğul olmuş, bu məqsədlə bir neçə il Hicazı, Misri, İraqı və Xorasanı gəzib dolaşmış, mindən çox şeyxlə görüşüb söhbət etmişdir. Eşitdiyi çoxsaylı hədislər içərisindən 7400 ən mötəbərini seçmiş və onları "Came əs-səhih" ("Doğru toplu") adı altında birləşdirmişdir. Altı mötəbər hədis toplusundan (bunlara "Sünən" deyilir) birincisi olan bu kitabda hədislər ilk dəfə mövzular üzrə bölünmüşdür. Toplu 97 babdan, 3450 fəsildən ibarətdir. Hədislərin sayı 7397-dir. Buxari fiqhə aid əsərlərin və Quran təfsirinin də müəllifidir.

İsmail/İsmaili-Zəbih (Qurbanlıq İsmayıl) – İbrahim peyğəmbərin Sarənin kənizi Hacərdən olan oğlu, peyğəmbər. Doğulduqdan sonra Sarənin qısqanclığı üzündən İbrahim onu anası ilə birgə kimsəsiz səhraya aparır. İsmayıl böyüyüb-başa çatarkən İbrahim yuxuda görür ki, oğlunu qurban verməlidir. Qoca ata belə də edir, lakin İsmayılı qurban kəsmək istərkən Allah-taala İbrahimə qurbanlıq qoç göndərir və həmin vaxtdan qurbanlıq mərasimi başlayır. 135 il ömür sürmüş İsmayıl Məhəmməd peyğəmbərin (s) ulu babası sayılır.

İsrafil – Allaha ən yaxın dörd mələkdən biri. İnsanlar və dünya haqqında İlahi hökmlərini yazır və icra üçün başqa mələklərə verir. Başlıca əlaməti şeypur (sur), əsas vəzifəsi isə Qiyamət günü şeypur çalmaqla ölülərin dirilməsini xəbər verməkdir. Klassik ədəbiyyatda "Suri-İsrafil" (İsrafil şeypuru) ifadəsi çox işlənir.

Keyxosrov – Qədim İranın əfsanəvi şahlarından, Keylər sülaləsindəndir. Firdovsinin məşhur "Şahnamə" əsərində Səyavuşun oğludur.

Keyvan – Saturn (Zühəl) planeti. Günəş ətrafında dövr edir və uzaqlığına görə ondan altıncı yerdə durur.

Kəʾbə (ərəbcədir, "kub" deməkdir) – İslamın əsas ziyarətgahıdır. Məkkədə Məscidül-həramın həyətinin ortasında yerləşir. Tanrı qüdrətinin rəmzi olan Qara daş da Kəʾbənin ayrılmaz tərkib hissəsidir. Kəbə öncə Adəm peyğəmbər tərəfindən tikilmiş, sonradan İbrahim peyğəmbər onu yenidən qurmuşdur. İslamdan öncə də Kəbə məkkəlilərin əsas ziyarətgahı olmuş və burada bütlər yerləşirmiş. Məhəmməd peyğəmbərin (s) Mədinədə hicrətin ikinci ilində buyuruğu ilə müsəlmanlar namaz qılarkən üzlərini Kəbəyə tərəf çevirmişlər. Həmin vaxtdan Kəbə müsəlmanlar üçün müqəddəs sayılır. Məkkə 630-cu ildə müsəlmanlar tərəfindən fəth edildikdən sonra buradakı bütlər götürülmüş və Kəbədə təmir işləri aparılmışdır. Peyğəmbərin (s) özü də şəxsən bu işdə iştirak etmişdir. Hər il zilhəccə ayının birinci on günündə bütün dünya müsəlmanlarının nümayəndələri Kəbəni ziyarət edirlər.

Kəlim/Kəlimi-Musa/Kəlimullah – Musa peyğəmbərin ləqəbidir. "Allahı ilə danışan" deməkdir.

Kənan – Fələstinin qədim adıdır. Yəqub peyğəmbərin vətənidir.

"Kənzül-ğəraib" – ("Qəribəliklər xəzinəsi") – Nəcməddin Qasim ibn Məhəmmədin (vəfatı: 1478) əsəridir.

Kərbəla – İraqda şəhər, Bağdaddan 102 km. cənub-qərb tərəfdə, Fərat çayından azca aralıda yerləşir. Şiələrin ziyarət yeridir. "Şühədanamə"də də göstərildiyi kimi, hicri 61-ci ilin məhərrəm ayının 10-da aşura günü (680-cı ilin oktyabr ayının 10-da) burada İmam Hüseyn tərəfdarları ilə əməvilər arasında baş verən döyüş zamanı Kərbəla bomboş səhra imiş. İmam Hüseynin əzəmətli məqbərəsi burada-

dır. Kərbəla hazırda təkcə ziyarət yeri kimi yox, həm də ilahiyyat tədrisinin mərkəzi kimi də məşhurdur. Hər il məhərrəm ayında bura müxtəlif islam ölkələrindən çoxlu zəvvar ziyarətə gəlir.

Kərrar – İmam Əlinin ləqəblərindən biridir. "Döyüşdə bərk hücum edən" , "Təkrar hücum edən" deməkdir.

Kibriya – Əzəmətli – Allah.

Kirdigar – Yaradıcı, Xaliq, Allah.

Kövsər – Behiştdəki bulaq adıdır.

Kufə – İraqda şəhər. Fərat çayının sahilində yerləşir. İmam Əli bu şəhəri paytaxt etmiş və həmin yerdə də şəhid olmuşdur.

Külsüm – Musa peyğəmbərin dayəsi, müqəddəs qadınlardan biridir.

Qabi-qövseyn/Qabü qövseyn – Qədim silah növü olan yayın ortası ilə uclarının birinin arasındakı məsafə. İki qövs (ox) arasındakı məsafə mənasını da bildirir. İfadə Qurani-Kərimin 9-cu surəsindən götürülmüşdür. Surənin 53-cü ayəsində deyilir ki, Merac gecəsi Məhəmməd peyğəmbərlə (s) Allah-taala arasındakı məsafə iki qövs arasındakı məsafədən də az imiş. Göyün üst qatındakı iki yarımdairə nurun kəsişdiyi yer – İlahi məkanının astanası da Qabü qövseyn adlanır.

Qadisiyyə – Kufədən 120 km aralıda yerləşən bir şəhər imiş. Orada 635 -ci ildə ərəblərlə iranlıların döyüşü olmuş, iranlılar məğlubiyyətə uğramışlar.

Qaf – Nağıllarımızda və klassik Şərq ədəbiyyatında əfsanəvi simurq (ona ənqa da deyilir) quşunun məskəni kimi işlənir. Ucalıq rəmzidir. Qafın Qafqaz sıra dağlarında olması güman edilir.

Qarun – Qurani-Kərimdə adı çəkilən şəxslərdən biridir (28-ci surə, 76-82-ci ayələr). Musa peyğəmbərin zamanında yaşamış, saysız var-dövlət sahibi olmuşdur. Deyilənə görə, xəzinələrinin açarını bir neçə adam güclə götürürmüş. Bu qədər var-dövlətinə baxmayaraq, Qarun xəsislikdə ad çıxarıbmış. Musa peyğəmbərə şər atdığı üçün Qarun Allahın qəzəbinə düçar olmuş və var-dövləti ilə birlikdə yerin təkinə keçmişdir. Klassik ədəbiyyatda Qarun xəsislik rəmzi kimi işlənir.

Qeysər - Rum imperatorlarına Şərqdə verilən ad.

Qədiri-Xum – Məkkə ilə Mədinə arasında yerləşir. Şiələrin fikrincə, hicri tarixi ilə 10-cu ildə zilhəccə ayının 18-də (632-ci il martın 17-sində) Peyğəmbər (s) vida həccindən (son ziyarətdən) qayıdarkən burada İlahi əmrinə əsasən Əli ibn Əbu Talibi möminlərə xəlifə və vali təyin etmişdir. Şiələr həmin günü Qədiri-Xum bayramı kimi qeyd edirlər.

Qəhhar – qüdrətli Tanrı.

Qəffar (Qafur) – mərhəmətli, bağışlayan Allah.

Qətqətanə (Qətəta) – Kufə şəhərinin yaxınlığındakı bir yerin adıdır.

Qubad – Sasani padşahı (487-531).

Qüreyş – Məkkədə yaşayan ən böyük ərəb qəbiləsi. Məhəmmədin (s.) peyğəmbərliyi zühura çıxdıqdan sonra qüreyşilər o həzrətə olmazın əzabını vermişlər. Qəbilənin başçıları islamın ən qəddar düşmənləri olmuşlar.

Lat – İslamdan öncə qədim Ərəbistanda, xüsusilə də Hicazda sitayiş edilən qadın ilahəsinin və onun rəmzi olan bütün adıdır. Ağ daşdan düzəldilmiş dördkünc bu büt Taif şəhərində imiş və əsasən, səqif tayfası ona ibadət edirmiş. Qüreyşilər də Kəbədə qoyduqları bu bütə sitayiş edirmişlər. Məkkə fəth edildikdən sonra Peyğəmbərin (s) əmri ilə Lat bütü dağıdılmışdır.

"Məalimüt-tənzil" – b a x **Mühyissünnə**.

Mədain – Bağdadın 26 kilometr cənub-şərqində, Dəclə çayının hər iki sahilində yerləşən bu şəhər Əşkanilər və Sasanilər zamanında İran dövlətinin qışlaq paytaxtı idi. Hər padşah bu şəhərdə bir məhəllə tikdirib əlavə etdiyi üçün Mədain ("mədinə" – şəhər sözünün cəmi) adlandırılmışdır.

Məhəmməd bin Sirin – (653-729) islam alimi, mühəddis, müfəssir, yuxu yozan.

Mələkül-mövt – b a x **Əzrail**.

Mənat – Büt adı.

Məryəm, Məryəm binti İmran - İsa peyğəmbərin anası. Ən pak və müqəddəs qadınlardan biridir ("Məryəm" sözü "ibadət edən qadın" deməkdir). Qurani-Kərimin 19-cu surəsi onun adı ilə adlandırılmışdır.

"Məsabihül-qülub" – məşhur fəqih, mütəkəllim Hüseyn əs-Səbzəvari Beyhəqinin (vəfatı:1356) əsəridir.

Mikail – Allaha ən yaxın 4 mələkdən biri. Qurani-Kərimdə adı yalnız bir yerdə Cəbraillə qoşa çəkilmişdir. Ona ruzi mələyi də deyilir.

"Miratül-cinan" – b a x: Yafei.

Mosel/Mosul – İraqın şimalında şəhər. Dəclə çayı sahilindədir.

"Muxtarnamə" – Kərbəla vaqiəsindən sonra bu qanlı faciə ilə bağlı baş verən hadisələrdən bəhs edən kitab.

Muxtar bin Əbu Übeydeyi Səqəfi – Kərbəla faciəsindən sonra İmam Hüseynin qisasını alan sərkərdə. Haqqında "Muxtarnamə" adlı kitab vardır.

Musa/Musayi-Kəlim – Qurani-Kərimdə ən çox adı çəkilən, haqqında ən çox danışılan peyğəmbərlərdən biridir. Yusif peyğəmbərin nəslindən olan İmranın oğludur. Gələcək düşməni - Misir fironunun evində böyüyüb-başa çatmışdır. Ilahi kitablarından olan Tövrat ona nazil olmuşdur. Tur dağında Allaha münacatına və bu münacata aldığı cavaba görə Kəlimullah (Allahı ilə danışan) ləqəbini almışdır. İlahi ona bir çox möcüzə bəxş etmişdir ki, bunların içində ilana dönən əsası və od saçan əli ("yədi-bəyza" - "ağ əl") daha çox məşhurdur. Allahlıq iddiasında olan zülmkar fironun zülmünə dözməyən Musa öz tayfası ilə (Bəni İsrail) birgə Misirdən qaçır. Musa həyatda bir çox çətinliklərlə üzləşir və qardaşı Harun həmişə onun ən yaxın köməkçisi olur.

Müaviyə (605-680) – Əbu Süfyanın oğlu. Şamda vali olmuş, İmam Əlini xəlifə kimi tanımamış və Siffin döyüşündə ona qarşı vuruşmuşdur. İmam Əlinin vəfatından sonra xəlifəliyi ələ keçirmiş , ilk Əməvi xəlifəsi (661-680) olmuşdur.

Müfid, Şeyx Müfid – Əbu Abdullah Məhəmməd əl-Harisi (948-1022) – görkəmli şiə ilahiyyatçı alimi, fəqih və nəzəriyyəçisi. İmamiliyin (İmam Əli başda olmaqla 12 imamı müqəddəs sayan və şiəliyi təbliğ edən təlim - "əl-isna əşəriyyə" adlanır) fəal təbliğatçılarından olmuşdur. Atası müəllim olduğu üçün İbnül-müəllim (Müəllim oğlu) ləqəbini daşımışdır. Quranın təfsirinə, hədislərə, şiələrin tarixinə və imamların həyatına həsr olunmuş 200-dən çox əsərin mü-

əllifidir. Ömrünü Bağdadda keçirmiş, orada da dəfn edilmiş, sonradan Məşhədə gətirilərək bu şəhərdə torpağa tapşırılmışdır.

Mühyissünnə – Əbu Məhəmməd Hüseyn bin Məsud əl-Bəğəvi (1044-1122) – şafii məzhəbinin məşhur fəqihlərindən olmuşdur. Əsərləri: "Şərhüs-sünnə", "Misbahüs-sünnə", "Məalimüt-tənzil" – digər adı "Təfsir əl-Bəğəvi" (Qurani-Kərimə yazılmış məşhur təfsir kitabı). Bu təfsir Əbu İshaq Əhməd Sələbinin Qurani-Kərimə yazdığı 10 cilddən ibarət məşhur "Təfsir əl-kəşf vəl-bəyan ən təfsir əl-Qur`an" əsərinin xülasəsidir.

Müştəri – Yupiter planetinin ərəbcə adıdır.

Nəbiyullah – Yəqub peyğəmbərin ləqəbidir, Allahın peyğəmbəri deməkdir.

Nəcaşi – Həbəşistan padşahının daşıdığı titul.

Nəciyyullah – Nuh peyğəmbərin ləqəbidir.

Nəcməddin Nəsəfi – (1069-1142) tarixçi, fəqih, mühəddis, müfəssir, dilçi alim.

Nəhrəvan müharibəsi – 660-cı ildə İmam Əli ilə xəvaric arasındakı döyüş. Bağdadla Vasit şəhəri arasında yerləşən Nəhrəvan şəhərində baş vermişdir. .

Nəmrud – İbrahim peyğəmbərin dövründə Babil ölkəsində hökmdar olmuşdur. Rəvayətə görə, Babil şəhərinin əsasını qoymuşdur. İbrahim peyğəmbəri bütləri sındırdığı üçün oda atdırmışdır. Allahlıq iddiasına düşdüyü üçün burnuna bir milçək girərək onu öldürmüşdür.

Nəsai – Əbi Əbdürrəhman Əhməd ibn Əli bin Şüeyb (840-916)– dövrünün məşhur şeyxülislamı olmuşdur. Xorasan yaxınlığındakı Nəsa qəsəbəsində doğulmuşdur. Fiqh və hədisə dair əsərləri vardır. Ən tanınmış əsəri "Xəsayisi-əmirül-möminin" kitabıdır.

Nuh – "Ulül-əzm" peyğəmbərlərdən birincisidir. Adəmin oğlu Şis peyğəmbərin nəslindəndir. Nəccarlıqla məşğul olmuşdur. Nuhun tayfası çox düşkün və səfil həyat keçirərək Allah əvəzinə bütlərə tapınırmış. Nuh Tanrı çağırışı ilə onları düzgün yola – Allaha ibadətə çağırır. Camaat isə onu ələ salır və əzab-əziyət verir. Əlacsız qalan Nuh üzünü Tanrıya tutaraq tayfasına cəza göndərməsini xahiş edir.

Nuh Allahın buyruğu ilə düzəltdiyi gəmi ilə ona inananlara ölümdən nicat verdiyi üçün Nəciyyullah ("Allahın nicat verəni") ləqəbini almışdır. Klassik ədəbiyyatda "Nuhun gəmisi" ifadəsi çox işlənilir.

"Nüzhətül-ərvah" ("Ruhların paklığı") – Əmir Hüseyni Herəvinin (vəfatı: 718) əsəridir. Onun "Siratül-müstəqim" ("Düzgün yol") adlı başqa bir əsəri də məlumdur. Hər iki əsər sufiliyə aiddir.

Ömər bin Səd – Ömər bin Səd bin Əbi Vəqqas (660-686) – Übeydullah Ziyadın qoşun başçısı. Kərbəlada İmam Hüseynə qarşı vuruşmuşdur. Kufədə Muxtar Səqəfinin göndərdiyi bir şəxs tərəfindən İmam Hüseynin qatili kimi öldürülmüşdür.

Rahil – Yusif peyğəmbərin anası. Bu adda bir mələk də vardır.

Rey/Rəy – Dərbənddə Xəzər dənizi və Mad ölkəsi arasında yerləşmiş qədim vilayətin adıdır. Bisütun kitabələrində onun adı çəkilmişdir. Rey həm də Tehranın cənubunda olmuş qədim bir şəhərin adıdır.

"Rəbiül-əbrar" – Carullah Mahmud Zəməxşərinin (1075-1144) kitabıdır.

Rəzi Buxari – b a x **İsmail Buxari**.

Rizvan – Behişt qapıçısı, mələk.

Rubil – Yusif peyğəmbərin böyük qardaşı.

Ruhül-əmin – b a x **Cəbrail.**

Rüstəm // Rüstəmi–dəstan – Zabilistan hakimi Zalın oğludur. İranın məşhur əfsanəvi pəhləvanıdır. Firdovsinin "Şahnamə" əsərinin baş qəhrəmanıdır. Bədii ədəbiyyatda qüvvət, cəsarət, igidlik rəmzi kimi işlənir.

Saleh – Qurani-Kərimdə adı çəkilmiş peyğəmbərlərdən biridir. İlahi tərəfindən bütpərəst səmud tayfasını təkallahlığa dəvət üçün göndərilir. Camaat ondan peyğəmbərliyinə sübut üçün möcüzə istəyir. Saleh onlara iki gündə cəmi bir dəfə su içən dəvəsini göstərib xəbərdar edir ki, ona toxunmasınlar. Tayfanın varlıları isə dəvəni öldürürlər və üç gündən sonra qopan şiddətli tufan bütün tayfanı öldürür.

Sam – Sami-Nəriman – Firdovsinin "Şahnamə" əsərinin qəhrəmanlarından biri. Epopeyanın baş qəhrəmanlarından olan Rüstəmin

babasıdır. Nizami Gəncəvinin "Yeddi gözəl" əsərində Simnarın atasının adı da Samdır.

Sarə – İbrahim peyğəmbərin zövcəsi.

"Səhifeyi-Rizəviyyə" – İmam Rzadan rəvayət olunan namaz, dua və ziyarətnamələrdən ibarət topludur.

Sələbi – Əbu İshaq Əhməd bin Məhəmməd Sələbi Nişaburi (vəfatı:1035) müfəssir, mühəddis, dilçi, şair, tarixçi. "Təfsiri-Sələbi" və ya "əl-Kəşf vəl-bəyan fi təfsir əl-Quran" adlı əsərləri vardır.

Salman əl-Farisi – Məhəmməd peyğəmbərin səhabələrindən biri. Milliyyətcə farsdır. Onun xahişi ilə Peyğəmbər (s) farslara Quranın "Fatihə" surəsini öz dillərində oxumağa izin vermişdir.

Sərandib/Sərəndib – b a x **Vadiyi-Sərandib**.

Siffin döyüşü/Hərbi-Siffin – 657-ci ilin iyul ayında Fərat çayının sağ sahilində Siffin adlanan yerdə dördüncü xəlifə həzrət Əlinin (656-661) qoşunları ilə Suriya valisi Müaviyə arasında baş vermiş müharibə. 110 gün davam etmiş bu müharibədə həzrət Əlinin qələbə çalacağını görən Müaviyə hiyləyə əl atmışdır. O, vuruşmanın qızğın çağında döyüşçülərin nizələrinə Quranın vərəqlərini taxmış bununla da müharibəni öz xeyrinə dayandırmağa nail olmuşdu.

"Siyəri-kəbir" – Məşhur tarixçi, fəqih və hədis Əbu Cəfər ibn Cərir Təbərinin (855-942) əsəridir. Onun "Tarixi-kəbir" adlı əsəri daha məşhurdur.

"Sünəni-Tirmizi" – Əhli-sünnənin qəbul etdiyi 6 əsas kitabdan biridir. Müəllifi Tirmizi (824-892) məşhur fəqih və hədis alimi olub

Şahi-Mərdan – İmam Əlinin ləqəblərindən biri.

Şam – indiki Suriya və Fələstin ərazisi. Dəməşq şəhəri də qədimdə belə adlanırdı.

Şəhrbanu – İmam Hüseynin zövcəsi, İmam Zeynalabidinin anası.

"**Şəvahidün-nübüvvə**" ("Peyğəmbərliyin şahidləri") – Fars-tacik ədəbiyyatının görkəmli nümayəndəsi, Nizami Gəncəvi ədəbi məktəbinin davamçısı Əbdürrəhman Caminin (1414-1492) əsəri. Adından göründüyü kimi, peyğəmbərlərə həsr olunmuşdur. Caminin ən məşhur əsəri isə "Yusif və Züleyxa" poeması sayılır.

Şiri-Həqq – Allahın aslanı. İmam Əlinin ləqəblərindən biridir. Şiri-Xuda, Əsədullah da eyni anlamda işlənir.

Şis – Adəm peyğəmbərin Habilin ölümündən sonra doğulmuş oğlu. Peyğəmbərlik məqamına yüksəlmiş və Adəm peyğəmbərlə birlikdə Məkkə yaxınlığındakı Əbu Qübeys dağındakı mağarada dəfn olunmuşdur.

Taif – Məkkədən 100 km aralıda yerləşən şəhər. Səqif tayfası burada yaşayırdı.

Təbəristan – İranın şimalında, Xəzər dənizi sahillərində olmuş qədim vilayət, indiki Mazandaran.

"Təfsiri-Kəbir" ("Böyük təfsir") – Tanınmış ilahiyyatçı alim Fəxrəddin Razinin (1149-1210) "Məfatihül-qeyb" ("Qeybin açarları") adlı Quran təfsiri bu adla məşhurdur.

Tirmizi, İmam Tirmizi – Məhəmməd ət-Tirmizi (824-892) – sufizmin görkəmli nümayəndəsi. Uşaqlıqdan ilahiyyat elmlərini öyrənmişdir. 28 yaşında Məkkəyə getmiş, oradan qayıtdıqdan sonra tərki-dünya həyatı keçirmişdir. Sufiliyi təbliğ etdiyi üçün bir müdət təqiblərə məruz qalmış və Trmizdən Bəlxə getmişdir. Ömrünün axırlarında öz yurduna qayıtmış, burada vəfat etmişdir. Dərin biliyinə görə müasirləri ona Əl-hakim (Müdrik) ləqəbini vermişlər. Ən məşhur əsərləri "İləl-əşşəriə" və "Xətmül-övliya"dır. O həm də altı məşhur hədis kitabından birinin müəllifidir.

Tövrat/Təvrit – Musa peyğəmbərə nazil olmuş İlahi kitabı. Lövhələr şəklində Tur dağına göndərilmişdir.

Tuba – Cənnətdə bitən ağac.

Tüstəri Səhl bin Abdullah – Əbu Məhəmməd Səhl bin Abdullah Tüstəri (818-896) – dövrünün görkəmli ruhani alimi və sufi təriqət başçısı olmuşdur.

Ühüd döyüşü – Ühüd Mədinədən 5 km. şimalda olan dağın adıdır. 625-ci ilin 23 martında bu dağın yamaclarında müsəlmanlarla məkkəlilərin döyüşü olmuşdur. Məkkəlilər Bədr döyüşündəki məğlubiyyətin qisasını almaq istəyirdilər. Onların sayı iki mindən çox idi, müsəlmanların sayı isə 700-ə çatırdı. Bu döyüşdə müsəlman-

lardan 70 nəfər, o sıradan Peyğəmbərin (s) əmisi Həmzə şəhid oldu. Peyğəmbərin (s) özü də bu döyüşdə yaralandı.

Ümmü Cəmil – Əbu Süfyanın bacısı, Əbu Ləhəbin arvadı. Peyğəmbərə qarşı düşmənçilik etmiş, gecələr onun keçdiyi yollara tikan tökmüşdür.

Ümmü Sələmə – Məhəmməd Peyğəmbərin (s) xanımlarından biri.

Üzeyr – Qurani-Kərimdə cəmi bir yerdə adı çəkilmiş peyğəmbər: "Və qaləti əl-yəhudu; Üzeyir ibnullah" (Və yəhudilər dedilər: Üzeyr Allahın oğludur. 9-cu surə, 30-cu ayə). Qurani-Kərimin 2-ci surəsinin 259-cu ayəsinin isə məzmunu onun haqqındadır. Ayədə buyurulur ki, 100 ildən sonra Üzeyri görənlərdən bəzisi onun ölüb-dirilməsinə inanmayaraq yuxarıdakı küfr sözləri dillərinə gətirir və əvəzində Allah-taala onlara bəla göndərir.

Üzza (Qüdrətli) – VI-VII əsrlərdə Ərəbistanda sitayiş edilən qadın ilahəsi. Qüreyşilər də ona inanırdılar. Əbu Ləhəb onun şərəfinə özünü Əbdül-Üzza (Üzzanın qulu) adlandırmışdı. Məkkədə böyük bütü var imiş. Məkkənin fəthindən sonra Peyğəmbərin (s) buyruğu ilə Xalid bin əl-Bəlid tərəfindən dağıdılmışdır.

Vadiyi-Sərandib – Hindistanın cənubunda ada – Seylon (indiki Şri-Lanka). Adəm peyğəmbər behiştdən qovulduqdan sonra burada yaşamışdır. Deyilənə görə Sərandibdə onun ayağının izi durur.

Yafei, İmam Yafei – Abdullah bin Əsəd Yafei (vəfatı: 768) – dövrünün görkəmli alim və şeyxlərindən biri olmuş, "İmam" ləqəbini daşımışdır. Məkkədə doğulmuş, ömrünü orada keçirmişdir. Yaşadığı dövrdə də ondan qabaq baş vermiş hadisələrdən danışan "Miratül- cinan" ("Cənnətlərin güzgüsü") və Quranın təfsirinə aid kitabların müəllifidir. "Şühədənamə"də bir neçə yerdə onun "Miratül-cinan" kitabına istinad edilmişdir.

Yəhya – Zəkəriyya peyğəmbərin oğludur. Uşaqlıqdan ibadətlə məşğul olmuş, dini qaydaları dərindən bilmişdir. Peyğəmbərlik məqamına çatarkən hələ 30 yaşı tamam deyilmiş (adətən peyğəmbərlər 40 yaşından sonra bu məqama yüksəlirlər). Bütün dini hökmlər onun icazəsi ilə icra olunurmuş. Quran təfsirçiləri Yəhyanın Fələstin hökmdarı Heredos tərəfindən öldürüldüyünü qeyd edərək bunun

səbəbini belə göstərirlər: Heredos öz qardaşı qızına evlənmək istəyir. Yəhya isə buna qarşı çıxır. Hökmdar istədiyi qızın tələbi ilə Yəhyanın qətlinə hökm verir.

Yəqub – İshaq peyğəmbərin oğlu. İbrahim peyğəmbərin nəslindəndir. Qurani-Kərimdə onun ikinci adı - İsrail də (Bəni İsrail tərkibində) qeyd olunmuşdur. Ləqəbi Nəbiyulladır (Allahın peyğəmbəri). Təfsirlərdə onun dörd qadından on iki oğlu olduğu, istəkli oğlu Yusifin həsrətilə gözlərinin tutulduğu, sonradan isə Yusifin köynəyinin qoxusu ilə gözlərinə işıq gəldiyi ətraflı təsvir olunur. Ömrünün çoxunu vətəni Kənanda yaşayan Yaqub həyatının son 17 ilini Yusifin yanında - Misirdə yaşamış və 147 yaşında orada vəfat etmişdir. Yusif atasının vəsiyyətinə əməl edərək onu mumlamış və gətirib ata-baba ocağında torpağa tapşırmışdır. Klassik ədəbiyyatda "piri-Kənan" (Kənan qocası) kimi də anılan Yəqub peyğəmbərin adı həsrət, intizar rəmzi mənasında işlənir.

Yəzdcird, Yəzdgird – İrandakı Sasani padşahlarından 3 nəfərin adıdır: I Yəzdigird – 399-cu ildə padşah olmuş, xristianlara hamilik etmişdir; II Yəzdgird – 439-cu ildə padşah olmuş, zərdüştlüyü geniş yaymışdır, III Yəzdgird – 634-cü ildə padşah olmuşdur. Onun vaxtında İran ərəblər tərəfindən tutulmuş, özü isə 652-ci ildə öldürülmüşdür. İmam Hüseynin zövcəsi Şəhrbanu III Yəzdgirdin qızıdır.

Yusif – Yəqub peyğəmbərin oğlu. Qurani-Kərimin 12-ci surəsi onun adı ilə adlanmış, Yaxın Şərq ədəbiyyatında haqqında çoxlu poemalar yazılmışdır ki, onlardan bir neçəsi də ana dilimizdədir: Əlinin "Qisseyi-Yusif"i (XIII əsrin əvvəli), Suli Fəqihin (XIV əsr), Şəyyad Mirzənin (XIV əsr), Şəmsin və Xətai Təbrizinin (XV əsr) eyniadlı "Yusif və Züleyxa" poemaları. Klassik ədəbiyyatda Yusif gözəllik və nəciblik rəmzi kimi işlənir.

Zeyd bin Ərqəm – 685-ci ildə əməvilərə qarşı olmuş qiyamın başçısı. Kərbəla şəhidlərinin qanını almaq üçün baş vermiş bu qiyamda iranlılar da iştirak etmişlər.

Zəhra – Məhəmməd Peyğəmbərin qızı həzrət Fatimə.

Zəkəriyya – Qurani-Kərimdə adı çəkilmiş ul"ul-əzm peyğəmbərlərdən biridir. Məryəmin tərbiyəçisi olmuşdur. Qoca vaxtında

Tanrıdan ona övlad bəxş etməsini diləmiş və onun bu istəyi baş tutmuş, 90 yaşlı sonsuz qadınından övladı (Yəhya) olmuşdur. Quran təfsirlərində Zəkəriyyanın öz oğlu Yəhyanın qətlindən sonra öldürüldüyü qeyd olunur.

Zəməxşəri – b a x **Carullah.**

Zöhrə – Venera planeti. Klassik ədəbiyyatda göylərin çalğıçısı kimi təqdim olunur. Bu mövzuda qədim miniatürlər də vardır.

Zülcinah – Məhəmməd Peyğəmbərin (s) atının adıdır. Kitabda İmam Hüseynin bu at üstündə vuruşduğu göstərilir.

Zülfiqar – Məhəmməd Peyğəmbərin (s) Bədr döyüşündə düşməndən qənimət aldığı ikibaşlı qılınc. O həzrət Ühüd döyüşündə həmin qılıncı İmam Əliyə bağışlamışdır. İmam Əli bütün döyüşlərdə bu qılıncla vuruşmuşdur. Qılınc sonralar Abbasi xəlifələrinin əlinə keçmişdir.

Zühəl – Saturn planeti.

Ərəb və fars sözləri lüğəti*

A

abdal – dərviş, sufi
abdar – 1) iti, kəsici; 2) sulu; axıcı; 3) parlaq
abi-heyvan – dirilik suyu
abiruy – abır, həya; hörmət, şərəf
abkamə – ağız suyu
abru – b a x **abiruy**
adab – qayda-qanun; adət, ənənə; qaydalar
afiyət – 1) sağlamlıq, sağlıq, səhhət; 2) rahatlıq; əmin-amanlıq
ahəngüsil – dəmiri əridən, dəmiri parça-parça edən
al – nəsil, sülalə; **ali** - **əba** – Məhəmməd peyğəmbər (s) və o həzrətin nəslinə mənsub dörd nəfər: Fatimə, Əli, Həsən, Hüseyn
am (m) – 1) ümumi, hamılıqla; 2) avam, adi insanlar, qara camaat
amadə – hazır
arastə – bəzənmiş, bəzəkli
ariyə – 1) əmanət; 2) suni; 3) vəkalətnamə; **ariyeyi-həyat** – həyat əmanəti
ariyət – b a x **ariyə**
asi – 1) günahkar, təqsirkar; 2) tabe olmayan, itaət etməyən, üsyankar
asib – bəla, müsibət, fəlakət
aşina – tanış; dost
aşiyan – yuva; məskən; ev
aşüftə – bikef, kefsiz, qanıqara; pərişan; qəzəbli, əsəbi
aşüftədimağ b a x **aşüftə**
azürdə – incik, incimiş, əziyyət görmüş

B

bab – 1) qapı; 2) fəsil, bölüm; 3) məsələ, barə, barədə
bahir - açıq, aşkar, aydın
bak – qorxu; tələş, həyəcan
baliğ – 1) yetkinlik yaşında olan, yeniyetmə, həddi-büluğa çatmış; ağlı və şüuru olan; 2) üstün gəlmə
balin – balış; yastıq
bang – uca səs, avaz; 2) ad-san, şöhrət
bargah –1) padşah dərgahı, saray; 2) müqəddəslərin məqbərəsi
basit – yayan, genişləndirən; Allahın adlarından və sifətlərindən biri
bavücud – baxmayaraq
bazərgan – tacir, ticarətçi
be'sət – Allah tərəfindən peyğəmbərlərin göndərilməsi; peyğəmbərliyin başlanması
bedəv – bərkqaçan at
behəmdillah – Allaha şükür, şükür Allaha
behtər – daha yaxşı
bey'ət – hakimiyyəti qəbul etmə; tabe olma, itaət etmə

* Lüğətdə tərcümənin mətnində daha çox işlənən ərəb və fars sözləri verilmişdir.

beyt – ev; bina; **beytül-vəbal** – əzab evi; **beytül-əhzan** – qəm evi, hüzn evi (Yaqub peyğəmbərin Yusifsiz yaşadığı ev); **beytül-mə'mur** – tikili ev; ziyarət evi, ziyarətgah, ibadət evi, ibadətgah; Kəbə
beyza – ağ
bez`e – əziz övlad, ciyərparə
bəcidd – ciddiyyətlə, qətiyyətlə
bədəxtər – uğursuz, talesiz, bədbəxt, bəxtiqara
bədr – on dörd gecəlik ay; **bədridüca** – qaranlıq gecədə doğan ay (14 gecəlik ay)
bədrəqə – 1) müşayiət, yola salma; 2) müşayiət edən, yol göstərən, bələdçi; 3) qoruyucu, qoruyan
bədürud – salam, salam olsun
bədürüsti – doğrudan, həqiqətən
bəğy – zülm, zülmkarlıq; ədalətsizlik, insafsızlıq
bəxş – hissə, qisim, parça
bəqa – 1) axirət, o biri dünya; 2) daimilik, əbədilik
bəqayət – çox, olduqca, lap
bəqiyyə – ard, davam
bəliyyət – bəla, müsibət, əziyyət
bər – bar, meyvə
bərat – pul qəbzi, kağız, sənəd
bərg – 1) yarpaq; 2) nəğmə, mahnı
bərgüzidə – seçilmiş, seçkin, fərqli
bərtərəf – yox etmə, aradan qaldırma, dəf etmə
bəsər – 1) göz; 2) görmə; 3) ağıllılıq
bətəhqiq – həqiqətən, doğrudan
bətər – daha pis, lap pis
bəzaət – 1) qiymət, dəyər, əhəmiyyət; 2) var, dövlət, sərvət, sərmayə
bid`ət – küfr, kafirlik, dinsizlik; hamının qəbul etmədiyi dini qaydalar
bidad – zülm, zülmkarlıq, insafsızlıq, ədalətsizlik
bihil – bağışlanmış, əfv edilmiş
bim – qorxu; dəhşət, vahimə
bimar – xəstə, naxoş
biniyaz – ehtiyacı olmayan, ehtiyacsız; Allah
biryan – yanan, yanar, yanmış
bisər – başsız, başı kəsilmiş
bişə – meşə
bişümar – çox, saysız, saysız-hesabsız
bitəəllül – dayanmadan, durmadan; dərhal, o saat
bitəqərrübə – hörmətsizlik etmə
butə – qızıl və ya gümüş əridilən zərgər qabı; yanar, qızmar
buy – iy, qoxu
büğz – kin, küdurət, qəzəb, hirs
büq`ə – məqbərə, qəbiristanlıq
bürd – kətan parça
bürran – iti, kəsici
büzürgvar – böyük, ulu; yüksək mövqeli, şərif, dəyərli

C

cah – əzəmət, böyüklük, ululuq
canafərin – can yaradan; Allah
cangüsil – canalan, canı parça-parça edən
cay – yer, məkan
cayğır – yerləşən, qərar tutan
ceyb – yaxa, boğaz

cəbərut – əzəmət, cah-calal, böyüklük
cəbr – cidanın ucu
cəddah – baba; cədd, nəsil
cəhaz – 1) cehiz, cehizlik; 2) gəmi; 3) vasitələr; heyvanlar (dəvələr) üçün lazımi vasitələr
cəhim – cəhənnəm
cəlacəl – zınqırov
cəlal – 1)böyüklük, əzəmət; 2)Allah
cəlis – həmdəm, həmsöhbət
cəmil – gözəl, qəşəng, göyçək
cəmmazə – bərkqaçan dəvə, sürətli dəvə
cərahət – yara, zərbə yarası
cəz`ə – qışqırıq, bağırtı, fəryad
cəza – mükafat
cəzil – 1) möhkəm, bərk; 2) bol, çox, çoxlu
cəzirə – ada
cibhə – alın
cinan – behişt, cənnət
cövr – cəfa, əzab, əziyyət, incitmə, zülm, zülmkarlıq, sitəm, cəfa
cövşən – zireh, zirehli döyüş geyimi
cüda – ayrı, kənar
cümhur – kütlə, camaat, hamı, xalq
cür'ə – damcı, damla, qurtum
cürm – 1) günah, suç, təqsir, xəta; 2) cərimə
cüz – başqa, ayrı, savayı

Ç

çah – quyu
çakər – nökər, xidmətçi
çaşt – günorta yeməyi
çəngal – 1) dırnaq; 2) pəncə; barmaqlar

D

dad – intiqam, qisas; ədalət, insaf
dal – 1) ərəb əlifbasında hərf adı ("dal"); 2) "dal" hərfi əyri olduğu üçün əyilmiş, bükülmüş hər hansı bir varlıq və ya əşya
damən – ətək
dana – bilən, bilici, bilgin; alim
dar – 1)böyük ev; 2)yer, məkan
darül-bəqa – 1) axirət evi; 2) behişt və ya onun üçüncü qatı
darül-bəvar – cəhənnəm, ölüm yeri
darül-qərar – 1) istirahət evi; 2) b a x **darül-bəqa**
darül-vüsal – vüsal evi; cənnət, behişt
darüs-səlam – 1) vaxtilə Bağdada və Nəcəfə verilən ad; 2) cənnət
dayəzə – xala
dehqan – kəndli, əkinci
dəbir – katib, mirzə
dəğa – məkr, hiylə, aldatma; məkrli, hiyləgər
dəlal – naz, qəmzə, işvə
dəm – an, azacıq zaman; **dəmi** – bir an
dəmadəm – hər an, anbaan
dəman – qəzəbli, hirsli, acıqlı
dəmbədəm b a x **dəmadəm**
dəni – alçaq, rəzil, yaramaz
dərəkat– cəhənnəmin alt qatları
dərxast – xahiş, istək
dəriğ – heyif, əfsus
dəstbürd – 1) cəldlik, çeviklik; 2) hücum; təcavüz
dəstpaçə – pərişan, həyəcanlı, iztirablı

dəstur – göstəriş, əmr
dəşt – çöl, səhra, düz, düzənlik
dəvat – mürəkkəbqabı
dəvvar – dolanan, fırlanan; minik heyvanı: at, dəvə, eşşək
dəyr – monastır, ibadət yeri
dəyyar – canlı, şəxs, kəs; sakin
didar – görüş, görüşmə
didə – göz
dijəm – 1) qəmli, qəmgin; 2) qəzəbli, hirsli, acıqlı
dilazar – ürəkincidən, qəlbqıran
dilbənd – əziz, sevimli *(uşaq)*
dilcu – dilbər, sevgili, ürəkovlayan
dilfigar – qəmli, qəmgin, kədərli, ürəyiyaralı
dirəxşan – parlaq, parıldayan, işıqlı
döv – qaçış
dudman – nəsil, soy, kök, tayfa
dunhimmət – pisniyyətli, alçaqtəbiətli, yaramaz
dur – uzaq; kənar, iraq
duri – uzaqlıq; ayrılıq
düca – bərk qaranlıq, zil qaranlıq, zülmət
dürraə – qabağıaçıq üst geyimi, əba
dürri-yetim – sədəf içində tək mirvari; Peyğəmbər (s) uşaq ikən ata-anasını itirdiyi üçün o həzrət üçün işlədilən epitet
dürud – salam
dürudgər - nəccar

E

e`tisam – özünü qoruma, günahdan qorunma
e`raz – çəkinmə, imtina
e`zaz – əzizləmə
ehmal – səhlənkarlıq; saymazlıq
ehram – 1) Həcc mərasimi üçün qadağalar; 2) Həcc mərasimi paltarı
ehtimam – çalışma, səy, səy göstərmə
ehtiraz – çəkinmə, qorunma, özünü qoruma
eymən – əmin, arxayın, xatircəm

Ə

ə`qəl – ən ağıllı, çox ağıllı
ə`rabi – səhrada yaşayan ərəb
əazim – böyüklər, ən böyüklər, əzəmətlilər
əbətah – ata
əbhər – 1) gözəl göz; 2) nəgizgülü
əbləq – ala-bula, ala, ayağı ala *(at)*
əbr – bulud; **əbri-neysan** – yağmurlu bulud; yaz buludu
əbrar – 1) yaxşılar; xeyirxahlar; 2) Allahın pak və seçilmiş bəndələri; müqəddəs şəxslər
əbtər – 1) naqis, nöqsanlı, 2) yararsız; faydasız
əcr – mükafat; savab; qarşılıq, əvəz
əcza – hissələr, parçalar, tikəparçalar
əcz – acizlik, zəiflik
ədəm – yoxluq, ölüm
ədu – düşmən
ədüv(v) – b a x **ədu**
əfgar – yaralı
əflak – göylər, fələklər
əfraz – qaldıran, ucaldan, yüksəldən
əfzar – vasitə, alət

əfzəl – daha fəzilətli, başqalarından daha üstün, daha ləyaqətli
əfzihtah – biabırçılıq, rüsvayçılıq
əhbab – dostlar
əhəd – tək, vahid, bir
əhəqq – haqlı, çox haqlı
əhzan – hüzn, kədər, qəm, qüssə
əxtah – qardaş
əxtər – ulduz
əxyar – xeyirxahlar; yaxşılar; seçilmişlər, imtiyazlılar
əqd – nikah, kəbin; **əqdi-nikah** – nikah kəsmə, nikahlama
əqəb – arxa, ard, dal, geri
əqiqə – qurbanlıq heyvan *(qoyun və ya mal)*
əleyhillaˀnə – Allah ona lənət etsin
əleyhirrəhmə – Allah ona rəhmət etsin
əleyhirrizvan – yeri behişt olsun
əleyhissəlam – ona salam olsun
ələm – bayraq
ələm – qəm, qüssə, kədər
əlqab – ləqəblər
əmirül-mö'minin – möminlərin başçısı; Rasidiyyə xəlifələrinə verilən ad; şiələrdə yalnız İmam Əli üçün işlədilən ləqəb; "Şühədanamə" də həm də digər imamlar üçün işlədilir.
əmn – əmniyyət, təhlükəsizlik, əmin-amanlıq
əna – əzab-əziyyət; qəm, kədər; sıxıntı.
ənam – yaradılmışlar, varlıqlar
ənbərəfşan – ənbər qoxulu, ənbər saçan, ətirli
ənbiya – peyğəmbərlər, Allahın elçiləri
ənduh – qəm, qüssə, kədər
ənis – dost, yaxın insan, munis
ənqa – əfsanəvi quş, simürğ
əraqə – axıtma, tökmə, ağız suyu *(uşaqda)*; sidiyə getmə *(uşaqda)*
ərcümənd – əziz, istəkli; şərəfli, hörmətli, möhtərəm
ərəq – tər, üz suyu
ərğəvani – qırmızı, al
ərqəm – zəhərli ilan
ərsə – meydan
ərvah – ruhlar
ərzdaşt – ərizə
əsabə – sarıq, baş, sarığı
əsbab – səbəblər, vasitələr, alətlər
əsbat – nəvələr
əsəs – casus
əsfiya – seçilmişlər, fərqlənənlər, imtiyaz sahibləri
əshab – sahiblər; dostlar, həmsöhbətlər
əsir – şərif, mübarək
əsrar – sirlər
əşcar – ağaclar
əşhəb – ağ və qara; ala-bula *(at)*; ağımtıl, ağımsov
əta – bağışlama, hədiyyə, ərməğan, bəxşiş
ətayif – ətirli, xoş qoxulu
ətvar – rəftarlar; hallar, vəziyyətlər
əvamün-nas – qara camaat, adi insanlar
əvla – üstün, yuxarı; ali
əvrad – dualar

əvrət – 1) insanın eyib yerləri; 2) arvad
əyyam – günlər
əyyühan-nas – ay camaat
əza – yas, təziyə, matəm
əzfər – xoş qoxulu, ətirli müşk

F
fazil – fəzilət sahibi, yüksək əxlaq sahibi, mərifətli, bilikli
fəda – qurbanlıq, qurban
fəxam – böyük, ulu
fəqir – kasıb, yoxsul
fəqr – yoxsulluq, kasıblıq
fərʾ – 1) qol, qol-budaq; 2) hissə, bölmə
fəraq – ayrılıq, hicran
fəramuş – unutma, unutqanlıq, yaddan çıxarma
fərəc – sevinc, təsəlli, təskinlik
fərəci – kişilər üçün üst geyimi
fərxündə – uğurlu, xoşbəxt, mübarək
fərq – baş, təpə, kəllə
fərmandara – şah, padşah, sultan
fərr – 1) cah-calal, təntənə, əzəmət; 2) mübarək
fərrüx – mübarək, uğurlu, xoşbəxt
fərzənd – övlad, oğul; uşaq *(oğlan və ya qız)*
fəsih – fəsahətli, bəlağətli
fəta – igid; cavan
fəvat – ölüm, yoxluq
fəzayil – fəzilətlər, ləyaqətlər, yüksək keyfiyyətlər, məziyyətlər;
fəzayilməab – alicənab; ləyaqətli
fəzə' – 1) b a x **cəzə'**; 2) qorxu
fəzihət – biabırçılıq, rüsvayçılıq
fəzilət – 1) ləyaqət, şərəf, məziyyət, yüksək keyfiyyət; 2) dəyər, qiymət, əhəmiyyət
figar – yaralı
fihrist – mündəricat, kitabın içindəkilər
fixam – böyüklər, ululer; yüksək vəzifəlilər, vəzifə sahibləri
filhal – dərhal, dayanmadan, həmin saat
firdövs – cənnət, behişt; bağ, bağça
Fürqan – 1) Quran-Kərimin başqa bir adı; 2) Quranın 25-ci surəsi
fürqət – ayrılıq, fəraq
fütuh – fəthlər, qələbələr, uğurlar
fütüvvət – 1) gənclik, cavanlıq; 2) cömərdlik, səxavət, əliaçıqlıq; mərdlik, igidlik

G
gəda – dilənçi, dilənən
gənc – xəzinə, sərvət
gərdun – fələk, dünya; fırlanan
gəzaf – əsassız, mənasız; şişirtmə, mübaliğə
girameyn – əzizlər, istəklilər
girdab – burulğan
girənbəha – qiymətli, baha
giriftar – düçar olma, mübtəla olma, tutulma
giryan – ağlar, ağlayan, gözüyaşlı
gisu – saç, tel, birçək
gur – qəbir, məzar
guristan – qəbiristan
guş – qulaq
gülbün – gül kolu, qızılgül kolu

gülgün – qırmızı, al, qızılgül rəngi
gümrah – yolunu azmış, azğın
güriz – 1) qaçma, fərar; 2) xilas olma, qaçıb qurtulma
güriz – qaçan, qaçar
güstax – 1) səmimi, düz, təmiz; 2) ədəbsiz, tərbiyəsiz, abırsız
güva b a x **güvah**
güvah – şahid

Ğ

ğar – mağara
ğəddar – məkrli, hiyləgər
ğədr – 1) məkr, hiylə; aldatma; 2) zülm; xəyanət, vəfasızlıq
ğəmmaz – qeybətçi, söz gəzdirən; xəbərçi; aravuran
ğəmz – 1) söz gəzdirmə, ara vurma; 2) göz vurma
ğənc – naz, qəmzə
ğərran – bağıran, nərə çəkən
ğəşş – bayılma, özündə olmama, özündən getmə
ğəvr – kömək, yardım, dəstək
ğəza – cihad, din yolunda müharibə, müqəddəs savaş
ğüll – dustağın əlinə və ayağına vurulan zəncir
ğürran – bağıran, nərə çəkən

H

hacət – istək, xahiş, arzu
hacib – qapıçı
hatif – 1) qeybdən gələn səs; 2) qışqıran, bağıran
haviyə – cəhənnəm
heyca – savaş, döyüş, vuruş
həba – 1) toz, toz-torpaq; 2) batil, hədər, puç
həbib – sevimli, istəkli, sevgili
həblül-mətin – 1) Allahın adlarından və sifətlərindən biri; 2) möhkəm, davaml; 3) səmimi dostluq; etibarlı vasitə
həcər – 1) günah, suç, təqsir; 2) çətinlik, sıxıntı
hədiqə – bağ, bağça
həftüm – yeddinci
hələhil – çox təsirli (öldürücü) zəhər
həmd – 1) dua, mədh; 2) təşəkkür, şükür
həmiyyət – qeyrət, şərəf, izzət; heysiyyət, mənlik
həngam – vaxt, zaman
hənuz – hələ
hərəc – 1) çətinlik, korluq çəkmə, sıxıntı; 2) etiraz, şikayət; 3) günah
hərəm – 1) müqəddəs yer, 2) ən yaxın adamlar *(ər, arvad, ya uşaqları)*; 3) arvad; 4) Kəbə
hərgiz – əsla, heç vaxt
hərir – ipək
həsənat – yaxşı işlər, xeyirxah əməllər
həşr – Qiyamət günü
həva – arzu, həvəs, istək; meyil; nəfs
həvas – hislər, duyğular
həvl – b a x **hövl**
həzirə - 1) hasarlı müqəddəs yer; 2) ağıl, heyvan ağılı
hicab – pərdə, örtük
hiclə – kiçik günbəz; bəy-gəlin otağı
hicr – ayrılıq, hicran

hilət – hiylə, məkr
hilm – həlimlik, yumşaqlıq, ürəyi-yumşaqlıq
hilyə – 1) zinət, bəzək; 2) üz və bədən əlamətləri
hin – zaman, vaxt, çağ
hirman – ümidsizlik; uğursuzluq
hiyəl – hiylə, məkr
hiylə – 1) bəzək, yaraşıq, zinət; 2) gözəl sifətlər
hövl – bərk qorxu, dəhşət
hur – huri, mələk
hura – b a x **hur**
huruleyn – pərilər; huri gözlü qızlar
hüccət – dəlil, sübut
hücrə – ev; otaq, kiçik otaq
hüda – yol göstərmə, bələdçilik etmə
hüdhüd – şanapipik, hophop
hüjəbr – pəhləvan, igid
hüllə – cənnət paltarı, bahalı və bəzəkli paltar; bahalı ipək parça
hümam – b a x **ərcüməND**
hümayun – mübarək; xoşbəxt, uğurlu
hüsn – gözəllik, qəşənglik

X

xaceyi-aləm – dünyanın böyük şəxsiyyəti
xacə – başçı, rəhbər, böyük şəxsiyyət; ağa
xak – torpaq
xanəvadə – ailə; nəsil, soy
xanəzadə – ev xidmətçisi, ev qulluqçusu; yaxın adam
xaniman – ev-eşik; ev əşyaları
xar – alçaq, zəlil
xari – zillət, zəlilik, bədbəxtlik
xas (s) – 1) xüsusi, seçilmiş, ayrıca; 2) imtiyaz, üstünlük
xatəm – möhür, damğa; üzük;
xatəmül-ənbiya – peyğəmbərlərin sonuncusu, sonuncu peyğəmbər
xeyrülbəşər – insanların ən yaxşısı (Məhəmməd Peyğəmbər)
xəcil – xəcalətli, utanan, xəcalət çəkən
xədəng – 1) ağcaqovaq; 2) ox; 3) düz və möhkəm
xədiv – 1) padşah, sultan; əmir, 2) Allah
xəllədəllah – Allah onu əbədi etsin
xəm – əyri, əyilmiş, bükülmüş
xərbət – nadan, qanmaz, ağılsız
xərif – qoca vaxtı səfehləmə, xərifləmə
xəsm – düşmən
xəşm – qəzəb, hirs, acıq
xəzayin – xəzinələr
xəzra – yaşıl *(rəng)*; göyərti
xiftan – qədim döyüş paltarı
xirə – çaşqınlıq, mat qalma, göz qamaşması
xirqə – sufi, geyimi, dərvişlərin üst geyimi
xişt – kərpic
xövf – b a x **bim**
xu (y) – xasiyyət, təbiət
xud – öz
xun – qan
xunab – qanlı su; qanlı göz yaşı
xunin – qanlı; **xunincigər** – qəmli, dərdli

xurşid – günəş
xülq – yaxşı rəftar; yaxşı əxlaq, yaxşı xasiyyət
xüllət – dostluq; məhəbbət, sevgi
xürrəm – şad, şən, fərəhli, sevimli
xürsənd – b a x **xürrəm**
xüruş – nalə, fəryad, bağırtı

İ

ibri – 1) İsraildə işlənən sami dillərindən biri, yəhudilərin dili; 2) yəhudi
ibtihac – şadlıq, sevinc, fərəh
ibtila – bəla, müsibət, faciə
icabət – 1) razı olma, qəbul etmə, qəbul olunma; 2) itaət etmə, tabe olma
iffət – namus, şərəf; paklıq, təmizlik
ihanət – 1) təhqir; 2) alçaqlıq, zillət
iqab – əzab, cəza
iqabeyn – qədim cəza aləti
iqamət – 1)yaşama, sakin olma; 2)icra etmə, yerinə yetirmə
iqd – boyunbağı
iqrar – təsdiq etmə, qəbul etmə
iqtida – 1) təqlid; birinin yolunu *(ənənəsini)* davam etdirmə, yamsılama; 2) imamın arxasında namaz qılma
iltimas – xahiş, rica
imarət – bəzək
in – iri gözlü xanımlar
ina – əzab, əziyyət
inan – cilov; ixtiyar
inayət – kömək, yardım, dəstək
infial – 1) xəcalətli olma, utanma; 2) həyəcanlı olma, coşma
irz – 1) namus, şərəf, mənlik, heysiyyət; 3) ad-san, şöhrət
isar – 1) öz haqqından keçmə, başqalarına üstünlük vermə; 2) seçim, seçmə
isna əşər – on iki imam
istida – 1) xahiş, rica; 2) dəvət
istifa – mənimsəmə, götürmə, alma
istifsar – sorğu-sual, soruşma
istiğfar – bağışlama, əfv etmə
istima – eşitmə, dinləmə, qulaq asma
istimalət – nəvaziş; halına yanma, təsəlli
istisal – kökündən qoparma; tamamilə məhv etmə, yox etmə
işrət – kef, kef çəkmə, ləzzət, ləzzət çəkmə
iştiyaq – şövq, istək, çox istəmə, arzulama
itab – məzəmmət, danlaq
itrət – övlad, qohum-qardaş; Peyğəmbərin (s) ailəsi
izar – üz, sifət, yanaq
izz – izzət, şərəf, ləyaqət
izzət – 1) b a x **izz**; 2) ehtiram, hörmət; 3) Allah

K

kahil – süst, ağırayaq, tənbəl, ətalətli, durğun
kamkar – müvəffəq, kamına çatmış, arzusuna çatmış; xoşbəxt
karzar – döyüş, vuruş, savaş
kaşanə – saray, qəsr, imarət
kazib – yalançı
keyd – hiylə, məkr, aldatma

kəbirə – 1) böyük günah; 2) böyük
kəbş – qoç
kəlamullah – Allah kəlamı, Quran
kəlim – müsahib, söhbət edən; Allahla danışan, Musa peyğəmbərin ləqəbi
kəlla – yox, xeyr
kəlpətrə – mənasız və yersiz sözlər
kərb – qəm, qüssə, kədər
kəşti – gəmi
kətm – 1) gizli, gizlin; 2) gizli yer, qapalı yer
kibriya – 1) böyüklük, calal. əzəmət; 2) Allah
kirdar – iş, əməl
kiş – adət, ənənə; din
